Şeyx Həsən Abdullah əl-Əcmi

# VƏHHABİ ALİMİ OSMAN ƏL-XƏMİSƏ CAVAB

## II CİLD

313news

Şeyx Həsən Abdullah əl-Əcmi

# VƏHHABİ ALİMİ
# OSMAN ƏL-XƏMİSƏ CAVAB

2-ci cild

| | |
|---|---|
| Layihə rəhbəri: | 313news.net |
| Tərcüməçi: | İdris Hüseynzadə |
| Redaktor: | Peyman Məmmədov |
| Korrektor: | Peyman Məmmədov |
| Texniki redaktor: | Tural Ordubadi |


Bağışlayan və Mehriban Allahın adı ilə

Həmd olsun aləmlərin Rəbbi olan Allaha. Salavat və salam olsun bütün yaranmışların ən üstünü olan həzrət Muhəmmədə və onun pak, təmiz və məsum olan Əhli-Beytinə; hansılar ki, Allah hər növ pisliyi onlardan uzaqlaşdırmış, onları bütün növ çirkinliklərdən təmizləmişdir; habelə salavat və salam olsun həzrət Muhəmmədin (sallallahu əleyhi və alihi və səlləm) yaxşı və üstün səhabələrinə və qiyamətə qədər iki ağır əmanət olan Quran və itrətin yoluna tabe olan kəslərə.

Bu kitab on iki imam şiələrinin başda Əmirəlmöminin Əli ibn Əbu Talib (əleyhissəlam) olmaqla ümumən Əhli-Beytin (əleyhimus-səlam) imamətinin isbatına dair əsaslandıqları dəlillər barədə Şeyx Osman əl-Xəmisin bəzi kitablarında qeyd etdiyi şübhələrə verdiyimiz cavabın 2-ci hissəsidir. Qarşınızdakı kitabda Osman əl-Xəmisin fiqh və tarixlə bağlı olan bir çox iftira və batil iddialarına cavab verilmişdir. Uca və Qadir Allahdan məni bu silsiləni başa çatdırmağa müvəffəq etməsini diləyir, bu çalışmanı mal və övladların fayda verməyəcəyi gündə mənim üçün zəxirə qərar verməsini istəyirəm.

***Hədiyyə edirəm...***

***Bu mütəvazi işin savabını Allahın hörmətli bəndələrinə, seçkin dostlarına, əmin elçisinin xəlifələrinə – üstün hidayət imamlarına hədiyyə edirəm;***
***Allahın yer üzərində saxladığı höccətə, dünyanı zülm və haqsızlıqdan xilas edəcək şəxsə, ağam və mövlam İmam Mehdiyə hədiyyə edirəm, Allah onun mübarək zühurunu tezləşdirsin;***
***"Ağam, ey böyük şəxs! Bizə və ailələrimizə müsibət yetişib. Biz az bir malla sənin yanına gəlmişik. Buna baxmayaraq, ölüçünü tam et və bizə sədəqə ver. Həqiqətən, Allah sədəqə verənləri mükafatlandırar";***
***Allah Rəsulunun pak ciyərparəsinə, dünya xanımlarının xanımına, Faitmətüz-Zəhraya hədiyyə edirəm, ona Allahın ən üstün salavatı və salamı olsun;***
***Və gözümün nuru, ürəyimin parası, ayrılığı məni qəmləndirən, yoxluğu məni tənha qoyan Əlinin ruhuna hədiyyə edirəm;***
***Həmçinin, atamın, əmimin və dayım Salehin ruhlarına hədiyyə edirəm***

# MÜNDƏRİCAT


"Mənzilət" hədisi barədə Osman əl-Xəmisin iddialarına cavab ... 8

Mənzilət hədisinin dəlalət etdiyi məqamlar ... 10

Əli (əleyhissəlam) həzrət Peyğəmbərin (sallallahu əleyhi və alihi və səlləm) vəziridir ... 11

Əli (əleyhissəlam) Muhəmməd (sallallahu əleyhi və alihi və səlləm) ümmətinin ən elmlisidir ... 15

Əli (əleyhissəlam) hökmləri ümmətə çatdırmaqda Allah Rəsulunun (sallallahu əleyhi və alihi və səlləm) şərikidir ... 18

Əli (əleyhissəlam) ümmətin ən üstün şəxsidir ... 19

Əli (əleyhissəlam) Allah Rəsulunun (sallallahu əleyhi və alihi və səlləm) xəlifəsidir ... 23

İmam Əli (əleyhissəlam) məsumdur və ona itaət etmək vacibdir ... 23

Osman əl-Xəmisin mənzilət hədisi ilə bağlı iddialarına cavab ... 26

Osman əl-Xəmisin "on iki xəlifə" hədisi ilə bağlı sözlərinə cavab ... 46

Osman əl-Xəmisin səhabənin ədaləti mövzusunda sözlərinə cavab ... 82

Osman əl-Xəmisin "hovzu hədisi"ni yozmağa çalışması ... 102

Hovuz hədisi mütəvatir hədislərdəndir ... 103

Osman ibn Əffana qarşı qiyamın səbəbləri barədə Osman əl-Xəmisin iddialarına cavab ... 123

Osman əl-Xəmisin nəzərində qiyamın səbəbləri ... 123

Osman ibn əl-Əffana qarşı qiyamın həqiqi səbəbləri ... 123

Osman ibn Əffana qarşı qaldırılan qiyamda səhabələrin rolu ... 130

Osman əl-Xəmisin İbn Səbənin gerçək kimliyi ilə uydurma kimliyini bir-birinə qarışdırmasına cavab ... 135

Osman əl-Xəmisin Quranın təhrifi mövzusunda şiələrə atdığı iftiralara cavab ... 139

Qurani-Kərimin təhrif olunmadığını bildirən şiə alimlərindən misallar ... 142

Quranda təhrifin baş verdiyini deyən şəxs kafirdirmi? ... 158

Osman əl-Xəmisin şiələrə iftira atıb onları bütün səhabələri kafir bilməkdə ittihamı etməsi ... 161

Bəzi səhabələri Quranın təhrifinə etiqad etməkdə ittiham edən sünni hədisləri ... 165

Osman əl-Xəmisin Şeyx Müfidə və Molla Muhsin əl-Kaşaniyə iftira atması ... 174

Osman əl-Xəmisin "Faslul-xitab" kitabı üzərindən şiələrə tənə vurmağa çalışmasına cavab ... 176

Osman əl-Xəmisin Şeyx Nuriyə iftirası ... 180

"Şiələr və Quranın təhrifi" mövzusuna dair əhli-sünnə alimlərinin fikirlərindən nümunələr ... 180

Təqiyyə məsələsi ilə bağlı Osman əl-Xəmisin batil fikirlərinə cavab ... 186

Təqiyyə ilahi bir qanundur ........ 186
Müsəlman alimlərinin nəzərində təqiyyənin tərifi ........ 187
Təqiyyənin qanuni olmasına dəlalət edən bəzi dəlillər ........ 187
Müsəlmanın müsəlmandan təqiyyə etməsi ........ 191
Təqiyyə dinin əsas yox, ikinci dərəcəli prinsiplərindəndir ........ 197
Əhli-sünnə mənbələrində gələn ziddiyyətli hədislər şiə mənbələrində olandan qat-qat daha artıqdır ........ 199
Təqiyyə beş növə bölünür ........ 200

Osman əl-Xəmisin mütə nikahı barədə dediyi sözlərə cavab ........ 211

Mütə nikahının qanuniliyinə Quran və sünnədən dəlillər ........ 212
Osman əl-Xəmisin mütə nikahının haramlığına dair qeyd etdiyi dəlillərin müzakirəsi ........ 218
Mütə nikahını Ömərin qadağan etdiyinə dəlillər ........ 230
Mütə nikahı ilə bağlı digər batil fikirlərə cavab ........ 237

Osman əl-Xəmisin xüms və zəkatla bağlı dediyi sözlərə cavab ........ 243

Osman əl-Xəmisin xüms və zəkatla bağlı başqa iddialarına cavab ........ 260

# “MƏNZİLƏT” HƏDİSİ BARƏDƏ OSMAN ƏL-XƏMİSİN İDDİALARINA CAVAB

## **“Mənzilət” hədisi barədə Osman əl-Xəmisin iddialarına cavab**

“Mənzilət” hədisi Allah Rəsulunun (sallallahu əleyhi və alihi və səlləm) Əmirəlmöminin Əli ibn Əbu Talibə (əleyhissəlam) buyurduğu, “**sənin mənə olan nisbətin Harunun Musaya olan nisbəti kimidir, bir fərqlə ki, məndən sonra peyğəmbər yoxdur**”, yaxud, “**razı olmazsanmı ki, sənin mənə olan nisbətin Harunun Musaya olan nisbəti kimi olsun, bir fərqlə ki, məndən sonra peyğəmbər yoxdur?**” – hədisidir. Bu hədis on iki imam şiələrinin Əli ibn Əbu Talibin (əleyhissəlam) imamətinin isbatı məsələsində əsaslandığı hədislərdən biridir. Şiələr bu hədisi Əmirəl-möminin (əleyhissəlam)-ın imam olmasının, ümmət üzərində qanuni hakim olmasının, Peyğəmbərin özündən sonrakı birbaşa xəlifəsi[1] olmasının və digər bir çox üstünlüklərə sahib olmasının isbatı üçün dəlil gətirirlər. Bu hədis səhih, hətta, mütəvatir hədisdir. Onun mütəvatir olmasını bir çox əhli-sünnə alimi təsdiq etmişdir. Onlardan biri əl-Kittanidir. O, özünün “Nəzmul-mutənasir minəl-hədisil-mutəvatir” kitabında deyir:

**«أما ترضى أن تكون مني بمنزلة هارون من موسى» أورده فيها أيضاً من حديث أبي سعيد الخدري، وأسماء بنت عميس، وأم سلمة، وابن عباس، وحبشي بن جنادة، وابن عمر، وعلي، وجابر بن سمرة، والبراء بن عازب، وزيد بن أرقم، عشرة أنفس. قلت: ورد أيضاً من حديث مالك بن الحويرث، وسعد بن أبي وقاص، وعمر بن الخطاب، وقد تتبع ابن عساكر طرقه في جزء فبلغ عدد الصحابة نيفاً وعشرين، وفي شرح الرسالة للشيخ جسوس «رحمه الله» ما نصه: وحديث «أنت مني بمنزلة هارون من موسى» متواتر جاء عن نيف وعشرين صحابياً واستوعبها ابن عساكر في نحو عشرين ورقة**

““*Razı olmazsanmı ki, sənin mənə olan nisbətin Harunun Musaya olan nisbəti kimi olsun*”: o [Süyuti], bu hədisi həmçinin, başqa on nəfərdən nəql etmişdir. Onlar aşağıdakılardır: Əbu Səid əl-Xudri, Əsma binti Umeys, Ümmü-Sələmə, İbn Abbas, Həbəşi ibn Cünadə, İbn Ömər, Əli, Cabir ibn Səmurə, Bəra ibn Azib və Zeyd ibn Ərqəm.

Deyirəm: bu hədis həmçinin, Malik ibn Huveyrisdən, Səd ibn Əbi Vəqqasdan və Ömər ibn əl-Xəttabdan nəql edilmişdir. İbn Əsakir bu hədisin təriqlərini[2] bir clddə toplamış, nəticədə bu hədisi nəql edən səhabələrin sayı iyirmidən artıq olmuşdur. Şeyx Cəsusun “Şərhur-risalə” kitabında isə belə gəlmişdir: “Sənin mənə nisbətin Harunun Musaya olan nisbət kimidir” – hədisi mütəvatirdir. Bu hədis

---

[1] “Birbaşa xəlifə”: yəni, Peyğəmbərdən (sallallahu əleyhi və alihi və səlləm) sonra gələn üçüncü, dördüncü və ya beşinci xəlifə deyil, birinci xəlifə. Peyğəmbərin (sallallahu əleyhi və alihi və səlləm) vəfatından sonra birbaşa xilafətə və vilayətə keçməli olan şəxs İmam Əli (əleyhissəlam) idi. Tərc.

[2] Təriq: hədisin sənədi, “filankəs filankəsdən, həmin şəxs filankəsdən, o da filankəsdən... nəql etdi” şəklində olan hissə. Tərc.

iyirmidən çox səhabədən nəql edilmişdir. İbn Əsakir bu hədisin təriqlərini təxminən iyirmi səhifədə qeyd etmişdir”.”[3]

Digər bir alim Hindistanın böyük əhli-sünnə alimlərindən olan Muhəmməd Mubin əl-Ləkhənəvidir. O, İmam Əli ibn Əbi Talibin (əleyhissəlam) fəzilətinə dair bir sıra hədislər qeyd etdikdən sonra deyir:

**وأكثر الأحاديث المذكورة في هذا الباب من المتواترات كحديث «أنت مني بمنزلة هارون من موسى»**

“Bu bölmədə qeyd olunan hədislərin əksəriyyəti mütəvatir hədislərdir. Məsələn, “sənin mənə olan nisbət Harunun Musaya olan nisbəti kimidir” – hədisi kimi.”[4]

Mənzilət hədisinin mütəvatir olduğunu bildirən şəxslərdən biri də “əl-Müstədrək ələs-səhiheyn” kitabının müəllifi Hakim ən-Nişapuridir. Onun hədisi mütəvatir hesab etdiyini Hafiz Gənci Şafei “Kifayətut-talib” əsərində qeyd etmişdir. O, “mənzilət” hədisini qeyd etdikdən sonra deyir:

**قلت: هذا حديث متفق على صحته، رواه الأئمة الأعلام الحفاظ كأبي عبد الله البخاري في صحيحه ومسلم ابن الحجاج في صحيحه وأبو داود في سننه وأبي عيسى الترمذي في جامعه، وأبي عبد الرحمن النسائي في سننه، وابن ماجة في سننه، واتفق الجميع على صحته وصار ذلك إجماعاً منهم. قال الحاكم النيسابوري: هذا حديث دخل في حد التواتر.**

“Deyirəm: bu, səhihliyi barədə ittifaq olunan bir hədisdir. Onu Əbu Abdullah əl-Buxari (“Səhih”), Müslim ibn Həccac (“Səhih”), Əbu Davud (“Sünən”), Əbu İsa ət-Tirmizi (“Cami”), Əbu Əbdür-Rəhman (“Sünən”) və İbn Macə (“Sünən”) kimi böyük imamlar nəql etmişlər. Onların hamısı bu hədisin səhih olması barədə ittifaq və icma etmişlər.

Hakim ən-Nisapuri isə demişdir: “Bu, mütəvatir həddinə daxil olmuş bir hədisdir”.”[5]

Hədisin mütəvatir olmasını, həmçinin, Əllamə Süyuti (“əl-Əzharul-mutənasira” kitabında)[6], habelə, Zübeydi (“Ləfzul-ləalil-mutənasira” kitabında) bildirmişdir.

Eləcə də Şeyx Muhəmməd Nasiruddin əl-Əlbani özünün “Səhihü-məvaridiz-zəman” kitabında bunu təsdiq edərək demişdir:

**عن سعد بن أبي وقاص وأم سلمة أن النبي «صلى الله عليه [وآله] وسلّم» قال لعلي: «أما ترضى أن تكون مني بمنزلة هارون من موسى غير أنّه لا نبي بعدي؟!». قلت: حديث سعد في الصحيح.**

---

3 “Nəzmul-mutənasir”: səh.195.

4 “Vəsilətün-nəcat fi fadlis-sadat”: səh.104.

5 “Kifayətut-talib”: səh.250.

6 “əl-Əzharul-mutənasira fil-əhadisil-mutəvatira”: səh.281.

“Səd ibn Əbi Vəqqasdan və Ümmü-Sələmədən Peyğəmbərin (sallallahu əleyhi [və alihi] və səlləm) Əliyə belə dediyi nəql olunur: “Məgər razı olmazsanmı ki, sənin mənə olan nisbətin Harunun Musaya olan nisbəti kimi olsun, bir fərqlə ki, məndən sonra peyğəmbər yoxdur?!”

Deyirəm: Sədin hədisi “Səhih”də gəlmişdir.”

Sonra deyir:

صحيح لغيره، بل هو متواتر «الإرواء» «8/ 2473/127»

“Hədis “səhih li-ğeyrih”-dir. **Hətta, mütəvatidir**. “əl-İrva”: c.8, səh.127, hədis 2473)”[7]

Həmçinin, “Cuzul-əlfi dinar” kitabının mühəqqiqi Bədr ibn Abdullah əl-Bədr mənzilət hədisindən danışarkən deyir:

والحديث متواتر قد ورد عن جمع من الصحابة زادوا على العشرة.

“Hədis mütəvatirdir. Ondan çox səhabədən nəql edilmişdir.”[8]

Doktor Səd əs-Saidi də özünün “əl-Əhadisül-varidə fi fadlis-səhabə” kitabında hədis üçün bir neçə təriq qeyd edib sənədləri barədə danışdıqdan sonra deyir:

وهذا حديث يقضى له بكثرة طرقه أنّه حديث متواتر، وقد نصّ على تواتره جماعة من أهل العلم.

“Bu, təriqlərinin çoxluğu səbəbindən mütəvatirliyinə hökm edilən bir hədisdir. Onun mütəvatir olduğunu elm əhlindən bir qrup şəxs bildirmişdir.”[9]

## Mənzilət hədisinin dəlalət etdiyi məqamlar

Mənzilət hədisinin nəyə dəlalət etməsinə gəlincə, deyirik:

Hədisdəki “mənzilə” sözü ümumi isimdir. Ümumi isim olan “mənzilə” sözü müəyyən halda olan “Harun” sözünə əlavə edilmişdir. Ümumi isim müəyyən halda olan bir sözə əlavə edildikdə, ümumilik mənası verir. Bununla sübuta yetir ki, Qurani-Kərimin həzrət Musaya (əleyhissəlam) nisbətdə Harun (əleyhissəlam) üçün sübuta yetirdiyi bütün məqam və mənzilətlər, dəlilin istisna etdiyi şey – yəni, nübuvvət xaric olmaqla Allah Rəsuluna (sallallahu əleyhi və alihi və səlləm) nisbətdə İmam Əli ibn Əbi Talib (əleyhissəlam) üçün də sübuta yetir. Başqa sözlə, hədisdə istisna edilən şeydən, yəni, nübuvvətdən başqa həzrət Harunun (əleyhissəlam) həzrət Musaya (əleyhissəlam) nisbətdə sahib olduğu bütün məqam

[7] “Səhihü-məvaridiz-zəman”: 2/351, hədis № 1847.
[8] “Cuzul-əlfi dinar”: səh.189.
[9] “əl-Əhadisil-varidə fi fadlis-səhabə”: c.6, səh.186.

və dərəcələr İmam Əmirəlmöminin (əleyhissəlam) üçün də sabit olur. Buna əsasən, mənzilət hədisi aşağıda qeyd olunan şeylərə dəlalət edir:

## Əli (əleyhissəlam) həzrət Peyğəmbərin (sallallahu əleyhi və alihi və səlləm) vəziridir

Qurani-Kərim Harun (əleyhissəlam)-ın Musa (əleyhissəlam)-ın vəziri olduğunu bildirir. Allah-taala Musa (əleyhissəlam)-ın dilindən belə buyurur: “**Və mənə öz ailəmdən bir vəzir ver – Qardaşım Harunu! Onunla arxamı möhkəmləndir. Onu işimə ortaq et**”[10]. Mənzilət hədisinə əsasən, bu məqam İmam Əmirəlmöminin (əleyhissəlam) üçün sabit olur. Bu hədisə əsasən, İmam Əli (əleyhissəlam) Allah Rəsulunun (sallallahu əleyhi və alihi və səlləm) vəziri olur. Mənzilət hədisinin dəlalət etdiyi bu mənanı əhli-sünnə alimlərinin öz kitablarında qeyd etdikləri bir çox hədislər də təsdiqləyib dəstəkləyir. Belə hədislərə misal olaraq aşağıdakıları göstərə bilərik:

1-Nəsai “əs-Sünənül-kübra” kitabında belə nəql edir:

**أخبرنا الفضل بن سهل، قال: حدثني عفان بن مسلم، قال: حدثنا أبو عوانة، عن عثمان بن المغيرة، عن أبي صادق، عن ربيعة بن ناجد، أن رجلاً قال لعلي: يا أمير المؤمنين لم ورثت ابن عمك دون عمك؟ قال: جمع رسول الله «صلى الله عليه [وآله] وسلّم»، أو قال دعا رسول الله «صلى الله عليه [وآله] وسلّم» بني عبد المطلب فصنع لهم مداً من طعام قال فأكلوا حتى شبعوا وبقي الطعام كما هو كأنه لم يمس، ثم دعا بغمر فشربوا حتى رووا وبقي الشراب كأنه لم يمس أو لم يشرب، فقال: يا بني عبد المطلب إني بعثت إليكم بخاصة وإلى الناس بعامة، وقد رأيتم من هذه الآية ما قد رأيتم، فأيكم يبايعني على أن يكون أخي وصاحبي ووارثي فلم يقم إليه أحد فقمت إليه وكنت أصغر القوم، فقال اجلس ثم قال ثلاث مرات كل ذلك أقوم إليه، فيقول اجلس، حتى كان في الثالثة ضرب بيده على يدي ثم قال: «أنت أخي وصاحبي ووارثي ووزيري» فبذلك ورثت ابن عمي دون عمي.**

Bizə Fəzl ibn Səhl xəbər verib dedi: mənə Əffan ibn Müslim nəql edib dedi: bizə Əbu Əvanə, Osmana ibn əl-Muğeyrədən, o, Əbu Sadiqdən, o da Rəbiə ibn Naciddən nəql edib dedi:

“Bir nəfər Əliyə dedi: “Ey möminlərin əmiri, nə üçün əmindən deyil də əmin oğlundan irs aldın?” Əli dedi: “Allah Rəsulu (sallallahu əleyhi [və alihi] və səlləm) Əbdül-Müttəlib oğullarını (qonaq) çağırıb onlar üçün bir müdd (750 qram) yemək hazırladı. Onlar yeməyi yeyib doydular, lakin yemək olduğu kimi qaldı; sanki ona əl dəyilməmişdi. Sonra Peyğəmbər su gətizdirdi. Onlar sudan da içib doydular. Lakin, içki olduğu kimi qaldı; sanki ona əl dəyilməmişdi və ya içilməmişdi. Bundan sonra Peyğəmbər onlara dedi: “Ey Əbdül-Müttəlib oğulları, mən xüsusilə sizə, ümumiyyətlə də (bütün) insanlara (elçi) göndərilmişəm. Siz bu nişanəni gördünüz.[11] Sizlərdən kim mənim qardaşım, yoldaşım və varisim olmaq üzərə

---

[10] Taha surəsi, 29-32-ci ayələr.

[11] Yemək və suyun azalmamasını. Tərc.

mənə beyət edər?” Bu zaman heç kəs ayağa qalxıb (ona cavab vermədi.) O zaman oradakıların ən kiçiyi olan mən ayağa qalxıb (ona cavab verdim.) O, “otur”, – dedi. Sonra bu sözü üç dəfə dedi. Hər dəfəsində də mən ayağa qalxdım və hər dəfəsində də o, “otur”, – dedi. Üçüncü dəfə dedikdə (və mən də ayağa qalxıb ona cavab verdiyimdə), əlini əlimə qoyub dedi: “Sən mənim qardaşım, yoldaşım, varisim və vəzirimsən.” Buna görə də əmimdən deyil, əmim oğlundan irs aldım”.[12]

Nəsai bu hədisi həmçinin, “Xasaisu-Əli (əleyhissəlam)” kitabında da nəql etmişdir.[13]

2-Təbərani “əl-Mucəmul-kəbir” kitabında belə nəql edir:

**حدثنا محمد بن عثمان بن أبي شيبة، حدثنا محمد بن يزيد هو أبو هشام الرفاعي، حدثنا عبد الله بن محمد الطهوي، عن ليث، عن مجاهد، عن ابن عمر قال: بينما أنا مع النبي «صلى الله عليه [وآله] وسلّم» في ظل بالمدينة وهو يطلب علياً «رضي الله عنه» إذ انتهينا إلى حائط فنظرنا فيه فنظر إلى علي وهو نائم في الأرض وقد أغبر، فقال: لا ألوم الناس يكنونك أبا تراب، فلقد رأيت علياً تغير وجهه واشتد ذلك عليه! فقال: ألا أرضيك يا علي؟ قال: بلى يا رسول الله، قال: «أنت أخي ووزيري تقضي ديني وتنجز موعدي وتبري ذمتي، فمن أحبك في حياة مني فقد قضى نحبه، ومن أحبك في حياة منك بعدي ختم الله له بالأمن والإيمان، ومن أحبك بعدي ولم يرك ختم الله له بالأمن والإيمان، وآمنه يوم الفزع الأكبر، ومن مات وهو يبغضك يا علي مات ميتة جاهلية يحاسبه الله بما عمل في الإسلام».**

Bizə Muhəmməd ibn Osman ibn Əbu Şeybə nəql edib dedi: bizə Muhəmməd ibn Yezid Əbu Hişam ər-Rufai nəql edib dedi: bizə Abdullah ibn Muhəmməd ət-Təhəvi Leysdən, o, Mücahiddən, o da İbn Ömərdən nəql edib dedi:

“Mən Allah Rəsulu ilə birgə Mədinədə idim. Bu zaman o, Əlini (Allah ondan razı olsun) axtarırdı. Biz bir divarın yanına gəldik. Peyğəmbər (divardan) boylandı və Əlinin yerdə uzandığını, üzərinin də toz-torpaq olduğunu gördü. Bu vaxt dedi: “Sənə Əbu Turab (torpaq atası) künyəsi qoyan camaatı məzəmmət etmərəm.” Bu vaxt mən Əlinin üzünün dəyişdiyini və bu sözün ona ağır gəldiyini gördüm. Peyğəmbər ona dedi: “Səni razı salımmı, ya Əli?” Əli dedi: “Bəli”. Allah Rəsulu (sallallahu əleyhi [və alihi] və səlləm) dedi: “Sən mənim qardaşım və vəzirimsən. (Məndən sonra) borcumu ödəyəcəksən, vədimi yerinə yetirəcəksən, boynumdakı (vəd, borc və s. kimi şeyləri) həll edəcəksən. Kim mən sağ olduğum müddətdə səni sevərsə, vədinə əməl etmiş olar. Kim məndən sonra sən sağ olduğun müddətdə səni sevərsə, Allah onun sonunu asayiş və imanla bitirər. Kim məndən sonra səni görmədiyi halda səni sevərsə, Allah onun sonunu asayiş və imanla bitirər, onu böyük qorxu günündə amanda saxlayar. Kim də sənə nifrət bəsləyən halda ölərsə, cahiliyyət ölümü ilə ölmüş olar. Allah onu müsəlman olduğu vaxtda etdiyi əməllərə görə hesab-kitaba çəkər”.”[14]

3-İbn Əbil-Hədid əl-Mötəzili “Şərhu-Nəhcil-bəlağə” kitabında belə nəql edir:

---

[12] “əs-Sünənül-kubra”: 5/125, hədis: 8451.

[13] “Xasaisu-Əli”: səh.46, hədis: 66.

[14] “əl-Mucəmul-kəbir”: 12/420, hədis: 13549.

Şeyximiz Əbu Cəfər əl-İskafi dedi: Muhəmməd ibn Ubeydullah ibn Əbu Rafi atasından, o, babasından, o da Əbu Rafedən belə nəql etmişdir:

**قال شيخنا أبو جعفر الإسكافي: قد روى محمد بن عبيد الله ابن أبي رافع، عن أبيه، عن جدّه، عن أبي رافع قال: أتيت أبا ذر في الرّبذة أودّعه، فلما أردت الانصراف قال لي ولأناس معي: ستكون فتنة فاتقوا الله، وعليكم بالشيخ علي بن أبي طالب فاتّبعوه، فإنّي سمعت رسول الله «صلى الله عليه وآله وسلّم» يقول له: «أنت أوّل من آمن بي، وأوّل من يصافحني يوم القيامة، وأنت الصّديق الأكبر، وأنت الفاروق الذي يفرق بين الحق والباطل، وأنت يعسوب المؤمنين والمال يعسوب الكافرين، وأنت أخي ووزيري وخير من أترك بعدي، تقضي ديني وتنجز موعودي».**

“Əbu Zərlə vidalaşmaqdan ötrü Rəbəzəyə getdim. Qayıdıb gəlmək istədikdə mənə və mənimlə birgə olan şəxslərə dedi: “Bir fitnə baş verəcək. Elə isə Allahdan qorxun. Sizə Şeyx Əli ibn Əbu Talibi tapşırıram, ona tabe olun. Mən Allah Rəsulunun (sallallahu əleyhi və alihi və səlləm) ona belə buyurduğunu eşitdim: “Sən mənə ilk iman gətirən şəxssən. Qiyamət günündə mənimlə əl-ələ görüşəcək ilk şəxssən. Sən “əs-siddiqul-əkbər”sən (ən böyük doğru danışan şəxssən). Sən haqla batili bir-birindən ayrıan “faruq”san. Sən möminlərin başçısısan. Mal-mülk isə kafirlərin başçısıdır. Sən mənim qardaşım, vəzirim və özümdən sonra qoyub şəxslər içərisində ən üstün şəxssən. Borcumu ödəyəcək, vədimi yerinə gətirəcəksən”.””[15]

4-“Xarəzmin ən yaxşı xətibi” ləqəbli Müvəffəq ibn Əhməd əl-Hənəfi “əl-Mənaqib” kitabında belə nəql edir:

**وأخبرني شهردار هذا إجازة، أخبرنا عبدوس بن عبد الله هذا كتابة، حدثنا منصور، حدثنا علي، حدثنا القاسم، حدثنا إبراهيم، حدثنا الحكم بن سليمان الجبلي أبو محمد، حدثنا علي بن هاشم، عن مطر بن ميمون أنّه سمع أنس بن مالك يقول: حدثني سلمان الفارسي أنّه سمع النبي «صلى الله عليه [وآله] وسلّم» يقول: «إنّ أخي ووزيري وخير من أخلفه بعدي علي بن أبي طالب «عليه السلام».**

“Şəhrdar mənə xəbər verib dedi: bizə Əbdus ibn Abdullah yazılı olaraq xəbər verib dedi: bizə Mənsur nəql edib dedi: bizə Əli nəql edib dedi: bizə Qasim nəql edib dedi: bizə İbrahim nəql edib dedi: bizə Əbu Muhəmməd Həkəm ibn Süleyman əl-Cəbəli nəql edib dedi: bizə Əli ibn Haşim Mətər ibn Meymundan nəql etdi ki, sonuncu Ənəs ibn Malikin belə dediyini eşidib: mənə Salman əl-Farisi Allah Rəsulundan (sallallahu əleyhi [və alihi] və səlləm) belə eşitdiyini nəql etdi:

“Həqiqətən də mənim qardaşım, vəzirim və özümdən sonra qoyub getdiyim şəxslər içərisində ən üstün şəxs Əli ibn Əbu Talibdir (əleyhissəlam).”[16]

5-Əhməd ibn Hənbəlin “Fadailus-səhabə” kitabında belə nəql olunur:

**وفيما كتب إلينا عبد الله بن غنام أيضاً يذكر أن عباد بن يعقوب حدثهم، قال: حدثنا علي بن عابس، عن الحارث بن حصيرة، عن القاسم، قال: سمعت رجلاً من خثعم يقول: سمعت أسماء بنت عميس تقول: سمعت رسول الله «صلى الله**

---

[15] “Şərhu-Nəhcil-Bəlağə”: 13/228.

[16] “əl-Mənaqib”: səh.112, hədis: 121.

**عليه [وآله] وسلّم» يقول: «اللهم أقول كما قال أخي موسى اللهم اجعل لي وزيراً من أهلي علي أخي اشدد به أزري وأشركه في أمري كي نسبحك كثيراً ونذكرك كثيراً إنك كنت بنا بصيرا».**

Abdullah ibn Ğənamın bizə yazdıqları arasında belə qeyd olunur: Əbbad ibn Yaqub onlara nəql edib demişdir: bizə Əli ibn Abbas Haris ibn Hüseyrədən, o da Qasimdən nəql edib dedi: Xəsəmdən olan bir şəxsin belə dediyini eşitdim: Əsma binti Umeysin belə dediyini eşitdim:

"Allah Rəsulunun (sallallahu əleyhi [və alihi] və səlləm) belə dediyini eşitdim: "İlahi, qardaşım Musanın dediyi kimi mən də deyirəm: Mənə öz ailəmdən bir vəzir ver – qardaşım Əlini! Onunla arxamı gücləndir. Onu işimə şərik et ki, Səni çox təqdis edib şəninə təriflər deyək. Və Səni çox zikr edək"."[17]

6-Hakim əl-Həskani "Şəvahidut-tənzil" kitabında Hüzeyfə ibn Useyddən belə nəql etmişdir:

**حدثني أبو عبد الله الحسين بن محمد الحلبي، قال: حدثنا عبد الله بن إبراهيم بن علي قال: حدثنا محمد بن عمرو بن حمدويه بن مهران التّمار، قال: حدثنا أحمد بن كثير الواسطي، قال: حدثنا نصر بن منصور، قال: حدثنا مهدي بن عمران، عن أبي الطفيل، عن حذيفة بن أسيد قال: أخذ النبي «صلى الله عليه وآله وسلّم» بيد علي بن أبي طالب فقال: «أبشر وأبشر، إن موسى دعا ربّه أن يجعل له وزيراً من أهله هارون، وإنّي أدعو ربي أن يجعل لي وزيراً من أهلي علي أخي أشدد به ظهري وأشركه في أمري».**

"Peyğəmbər (sallallahu əleyhi və alihi və səlləm) Əlinin əlindən tutub dedi: "Müjdə olsun sənə, müjdə olsun sənə. Musa (əleyhissəlam) Rəbbinə dua etdi ki, Rəbbi ona öz ailəsindən Harunu vəzir versin. Mən də Rəbbimə dua edirəm ki, mənə öz ailəmdən qardaşım Əlini vəzir versin, onunla arxamı möhkəmlətsin, onu işimə şərik etsin"."[18]

7-İbn əl-Məğazili əş-Şafei özünün "Mənaqibu-Əli" kitabında uzun bir hədis nəql edir. Bu hədisdə həzrət Fatimənin (əleyhəssəlam) ağlar halda Peyğəmbərin yanına daxil olduğu və Peyğəmbərin (sallallahu əleyhi və alihi və səlləm) ona belə buyurduğu deyilir:

**...ما يبكيك يا فاطمة؟ قالت: يا أبه عيّرتني نساء قريش وقلن زوّجك أبوك معدماً لا شيء له. فقال النبي «صلى الله عليه وآله وسلّم»: مهلاً وإيّاي أن أسمع هذا منك، فإنّي لم أزوّجك حتّى زوّجك الله من فوق عرشه، وشهد جبرئيل وميكائيل وإسرافيل، وإنّ الله تعالى اطلع إلى أهل الدنيا فاختار من الخلائق أباك فبعثه نبياً، ثم اطلع الثانية فاختار من الخلائق علياً فأوحى إليّ فزوّجتك إياه، واتّخذته وصياً ووزيراً..**

""..."Niyə ağlayırsan, ey Fatimə?" Fatimə dedi: "Atacan, Qüreyşin qadınları mənə lağ edib dedilər ki, atan səni heç bir şeyi olmayan yoxsula ərə verib."

Peyğəmbər (sallallahu əleyhi və alihi və səlləm) buyurdu: "Dayan qızım (belə sözlər demə), məbadə səndən belə söz eşidim. Allah səni Öz ərşinin üzərində

---

[17] "Fadailus-səhabə": 2/678, hədis: 1158.

[18] "Şəvahidut-tənzil": 1/478, hədis: 510.

(Əliyə) ərə verməyincə, Cəbrail, Mikayıl və İsrafil də buna şahid durmayınca mən səni ərə verməmişəm. Allah-təala dünya əhlinə nəzər salıb yaranmışlar içərisindən sənin atanı seçdi. Bundan sonra onu peyğəmbər olaraq göndərdi. Sonra ikinci dəfə nəzər salıb yaranmışlar arasından Əlini seçdi. Mənə (səni onunla evləndirməyimi) vəhy etdi və mən də səni onunla evləndirdim. Mən onu özümə vəsi və vəzir seçdim...”.”[19]

## Əli (əleyhissəlam) Muhəmməd (sallallahu əleyhi və alihi və səlləm) ümmətinin ən elmlisidir

Harun (əleyhissəlam) Musa (əleyhissəlam)-ın ümmətinin ən elmli şəxs idi. Əli (əleyhissəlam) da mənzilət hədisinə əsasən, həzrət Harunun (əleyhissəlam) oxşarı olduğu üçün, həzrət Muhəmməd (sallallahu əleyhi və alihi və səlləm) ümmətinin ən elmli şəxsidir. İmam Əli (əleyhissəlam)-ın ümmətin ən elmli şəxsi olmasına dair əhli-sünnə mənbələrində bir çox dəlillər vardır. Bunlara misal olaraq aşağıdakıları göstərə bilərik:

1-Hənbəlilərin imamı Əhməd ibn Hənbəl özünün “Müsnəd” kitabında Məqil ibn Yəsardan belə nəql edir:

**حدثنا أبو أحمد، حدثنا خالد يعني ابن طهمان، عن نافع بن أبي نافع، عن معقل بن يسار قال: وضأت النبي «صلى الله عليه [وآله] وسلّم» ذات يوم، فقال: هل لك في فاطمة «رضي الله عنها» تعودها؟ فقلت: نعم، فقام متوكئاً عليّ فقال: أما أنه سيحمل ثقلها غيرك ويكون أجرها لك، قال فكأنه لم يكن عليَّ شيء حتى دخلنا على فاطمة «عليها السّلام» فقال لها: كيف تجدينك؟ قالت: والله لقد اشتد حزني واشتدت فاقتي وطال سقمي.**

“Bir gün Peyğəmbər (sallallahu əleyhi [və alihi] və səlləm) dəstəmaz aldı. Sonra mənə dedi: “Mənimlə birgə Fatiməyə (radiyallahu anhə) baş çəkməyə gələrsən?” Mən dedim: “Bəli”. Peyğəmbər mənə söykənmiş halda ayağa qalxdı və dedi: “Onun ağırlığını səndən başqası daşıyacaq, savabı isə sənin olacaq.” Məqil deyir: “Elə hiss etdim ki, sanki mənim üzərimdə heç bir şey yoxdur. Nəhayət biz Fatimənin (Allah ondan razı olsun) evinə gəldik. Peyğəmbər ona dedi: “Özünü necə hiss edirsən?” Fatimə dedi: “Allaha and olsun ki, hüznüm şiddətlənib, ehtiyac və yoxsulluğum artıb, xəstəliyim uzanıb.””

Əbu Əbdür-Rəhman deyir:

**قال أبو عبد الرحمن وجدت في كتاب أبي بخط يده في هذا الحديث قال: «أو ما ترضين أني زوجتك أقدم أمتي سلماً وأكثرهم علماً وأعظمهم حلماً».**

---

[19] “Mənaqibul-İmam Əli”: səh.151.

“Atamın (Əhməd ibn Hənbəlin) kitabında öz xətti ilə bu hədisin ardınca belə yazıldığını gördüm: “(Peyğəmbər buyurdu: ) Məgər razı deyilsən ki, səni ümmətim arasında ən əvvəl müsəlman olan şəxslə, ən çox elm sahibi olan və ən çox helm sahibi olan kəslə evləndirmişəm?”[20]

Bunu Təbərani də “əl-Mucəmul-kəbir” kitabında nəql etmişdir.[21]

2-Hakim ən-Nişapuri “əl-Müstədrək ələs-səhiheyn” kitabında İbn Abbasdan belə nəql edir:

**حدثنا أبو العباس محمد بن يعقوب، حدثنا محمد بن عبد الرحيم الهروي بالرملة، حدثنا أبو الصلت عبد السلام بن صالح، حدثنا أبو معاوية، عن الأعمش، عن مجاهد، عن ابن عباس «رضي الله عنهما» قال: قال رسول الله «صلى الله عليه [ وآله] وسلّم»: «أنا مدينة العلم وعلي بابها فمن أراد المدينة فليأت الباب».**

“Allah Rəsulu (sallallahu əleyhi [və alihi] və səlləm) buyurdu: “Mən elmin şəhəriyəm, Əli də onun qapısıdır. Kim şəhərə gəlmək istəsə, qapıya gəlsin”.”[22]

Yenə həmin mənbədə İbn Abbasdan belə nəql edir:

---

[20] “Müsnədü-Əhməd”: 15/174, hədis: 20185. Kitabın mühəqqiqi Əhməd Həmzə əz-Zeyn deyir: “**İsnadı həsəndir**”. Bu hədisi Heysəmi “Məcməuz-Zəvaid” kitabında Əhməddən və Təbəranidən nəql etmiş (9/101), ardınca: “**Bu hədisi Əhməd və Təbərani nəql etmişdir. Hədisin sənədində Xalid ibn Tahman vardır ki, Əbu Hatim onu siqə hesab etmişdir. Qalan raviləri siqədirlər**”, - demişdir. Həmçinin bu hədisi Əllamə Əhməd ibn Siddiq əl-Məğribi “Fəthul-mulkil-əli bi-sihhəti-hədisi-babi-mədinətil-ilmi Əli” kitabında “Müsnəd”dən nəql etmiş (səh.66) və “**Raviləri siqədir**”, - demişdir.

[21] “əl-Mucəmul-kəbir”: 20/229.

[22] “əl-Müstədrək”: 3/137, hədis: 4637. Hakim demişdir:

**هذا حديث صحيح الإسناد ولم يخرجاه، وأبو الصلت ثقة مأمون فإني سمعت أبا العباس محمد بن يعقوب في التاريخ يقول: سمعت العباس بن محمد الدوري يقول: سألت يحيى بن معين عن أبي الصلت الهروي فقال: ثقة، فقلت أليس قد حدث عن أبي معاوية عن الأعمش أنا مدينة العلم؟ فقال: قد حدث به محمد بن جعفر الفيدي وهو ثقة مأمون، سمعت أبا نصر أحمد بن سهل الفقيه القباني إمام عصره ببخارى يقول: سمعت صالح بن محمد بن حبيب الحافظ يقول: وسئل عن أبي الصلت الهروي فقال دخل يحيى بن معين ونحن معه على أبي الصلت فسلم عليه فلما خرج تبعته فقلت له ما تقول رحمك الله في أبي الصلت؟ فقال: هو صدوق، فقلت له: إنه يروي حديث الأعمش عن مجاهد عن ابن عباس عن النبي «صلى الله عليه [وآله] وسلّم»: أنا مدينة العلم وعلي بابها فمن أراد العلم فليأتها من بابها فقال: قد روى هذا ذاك الفيدي عن أبي معاوية عن الأعمش كما رواه أبو الصلت».**

“Bu, səhih sənədli hədisdir, lakin Buxari və Müslim bunu nəql etməmişlər. Hədisin sənədindəki Əbus-Səlt siqə və güvəniləndir. Mən Əbul-Abbas Muhəmməd ibn Yaqubun belə dediyini eşitdim: Abbas ibn Muhəmməd əd-Durinin belə dediyini eşitdim: Yəhya ibn Məindən Əbus-Səlt əl-Hərəvi barədə soruşdum, dedi: “**Siqədir**”. Mən dedim: “Məgər o Əbu Müaviyədən, o da Əməşdən nəql etməyibmi ki, “mən elmin şəhəriyəm...”? (*Diqqət edin, Əbus-Səltin zəif olub olmamasını onun şəxsi xüsusiyyətləri ilə ölçmür, məhz İmam Əli (əleyhissəlam) barədə nəql etdiyi hədislə ölçür!! Görəsən, bu hədis Əbu Bəkr və ya Ömər barəsində nəql olunsaydı əd-Duri yenə də eyni sözü deyəcəkdimi?!– tərc.*) – Yəhya ibn Məin dedi: “**Bunu Muhəmməd ibn Cəfər əl-Feydi də nəql etmişdir və o, siqə və güvəniləndir**.” Həmçinin mən Buxarada öz dövrünün fəqihi olan Əbu Nəsr Əhməd ibn Hənbəl əl-Fəqih əl-Qəbbaninin belə dediyini eşitdim: Saleh ibn Muhəmməd ibn Həbib əl-Hafizdən Əbus-Səlt barəsində soruşdular, bu zaman onun belə dediyini eşitdim: “Yəhya ibn Məin bizimlə birgə Əbus-Səltin yanına daxil oldu və ona salam verdi. Oradan çıxanda mən ona yaxınlaşıb ona dedim: “Əbus-Səlt barədə nə deyirsən, Allah sənə rəhmət etsin.” Dedi: “**O, doğrudanışandır**.” Ona dedim: “O, Əməşin Mücahiddən, onun İbn Abbasdan, onun da Peyğəmbərdən (sallallahu əleyhi [və alihi] və səlləm) nəql etdiyi “mən elmin şəhəriyəm, Əli də onun qapısıdır; kim şəhərə gəlmək istəsə oraya onun qapısından gəlsin” – hədisini nəql edir.” İbn Məin dedi: “Bu hədisi Əbus-Səlt kimi Feydi də Əbu Müaviyədən, o da Əməşdən nəql etmişdir”.”

حدثنا بصحة ما ذكره الإمام أبو زكريا، حدثنا يحيى بن معين، حدثنا أبو الحسين محمد بن أحمد بن تميم القنطري، حدثنا الحسين بن فهم، حدثنا محمد بن يحيى بن الضريس، حدثنا محمد بن جعفر الفيدي، حدثنا أبو معاوية، عن الأعمش، عن مجاهد، عن ابن عباس «رضي الله عنهما» قال: قال رسول الله «صلّى الله عليه [وآله] وسلّم»: «أنا مدينة العلم وعلي بابها فمن أراد المدينة فليأت الباب»

"Allah Rəsulu (sallallahu əleyhi [və alihi] və səlləm) buyurdu: "Mən elmin şəhəriyəm, Əli də onun qapısıdır. Kim şəhərə gəlmək istəsə, qapıya gəlsin"."[23]

3-Bu hədisi Xətib Bağdadi də "Tarixü-Bağdad" kitabında İbn Abbasdan nəql etmişdir:

فأخبرنا محمد بن أحمد بن رزق، أخبرنا أبو بكر مكرم بن أحمد بن مكرم القاضي، حدثنا القاسم بن عبد الرحمن الأنباري، حدثنا أبو الصلت الهروي، حدثنا أبو معاوية، عن الأعمش، عن مجاهد، عن ابن عباس قال: قال رسول الله «صلى الله عليه [وآله] وسلّم»: «أنا مدينة العلم وعلي بابها فمن أراد العلم فليأت بابه» قال القاسم: سألت يحيى بن معين عن هذا الحديث فقال: «هو صحيح».

"Allah Rəsulu (sallallahu əleyhi [və alihi] və səlləm) buyurdu: "Mən elmin şəhəriyəm, Əli də onun qapısıdır. Kim elmi istəsə, onun qapıya gəlsin"."

Hədisin ravilərindən biri olan Qasim deyir: "Yəhya ibn Məindən bu hədis barədə soruşdum, dedi ki: "**Səhihdir**"."[24]

4-Əhməd ibn Hənbəl "Müsnəd" kitabında Hübeyrədən belə nəql edir:

حدثنا وكيع، عن شريك، عن أبي إسحاق، عن هبيرة، خطبنا الحسن ابن على «رضي الله عنه» فقال: «لقد فارقكم رجل بالأمس لم يسبقه الأولون بعلم ولا يدركه الآخرون، كان رسول الله «صلى الله عليه [وآله] وسلّم» يبعثه بالراية جبريل عن يمينه وميكائيل عن شماله لا ينصرف حتى يفتح له».

"Həsən ibn Əli (Allah ondan razı olsun) bizə xütbə edib dedi:

"Dünən sizdən elə bir şəxs ayrıldı ki, nə əvvəldəkilər elmdə onu ötüb keçə bilmişlər, nə də ki, sondakılar (elmdə) ona çata biləcəklər. Allah Rəsulu (sallallahu əleyhi [və alihi] və səlləm) onu bayraqla göndərirdi. Bu zaman Cəbrail onun sağında, Mikayıl da solunda olurdu. Fəth edənədək geri qayıtmırdı"."[25]

5-Yenə Əhməd ibn Hənbəl "Müsnəd" kitabında Əmr ibn Həbəşidən belə nəql edir:

حدثنا وكيع، عن إسرائيل، عن أبي إسحاق، عن عمرو بن حبشي، قال: خطبنا الحسن بن علي بعد قتل علي «رضي الله عنهما» فقال: «لقد فارقكم رجل بالأمس ما سبقه الأولون بعلم ولا أدركه الآخرون إن كان رسول الله «صلى الله عليه [وآله] وسلّم» ليبعثه ويعطيه الراية فلا ينصرف حتى يفتح له، وما ترك من صفراء ولا بيضاء إلاّ سبعمائة درهم من عطائه كان يرصدها لخادم لأهله».

"Həsən ibn Əli (Allah ondan razı olsun) bizə xütbə edib dedi: Dünən sizdən elə bir şəxs ayrıldı ki, nə əvvəldəkilər elmdə onu ötüb keçə bilmişlər, nə də ki,

23 "əl-Müstədrək": 3/137, hədis:4638.

24 "Tarixü-Bağdad": 11/49.

25 "Müsnədü-Əhməd": 2/344, hədis: 1719, Şeyx Əhməd Muhəmməd Şakir deyir: "**İsnadı səhihdir**".

sondakılar (elmdə) ona çata biləcəklər. Allah Rəsulu (sallallahu əleyhi [və alihi] və səlləm) onu (döyüşə) göndərərək bayrağı ona verirdi. O da fəth edənədək geri qayıtmırdı. O, nə sarı (qızıl), nə də ağ (gümüş) qoyub getdi, yalnız yeddi yüz dirhəm pul qoydu. Həmin yeddi yüz dirhəmlə də ailəsi üçün xidmətçi tutmaq istəyirdi."[26]

6-İbn Əbdül-Bərr özünün "Camiu-bəyanil-ilm və fadlih" kitabında Əbüt-Tüfeyldən belə nəql edir:

**حدثني أحمد بن فتح، قال: حدثنا حمزة بن محمد، قال: حدثنا إسحاق ابن إبراهيم، قال: حدثنا محمد بن عبد الأعلى، قال: حدثنا محمد بن ثور، عن معمر، عن وهب بن عبد الله، عن أبي الطفيل قال: شهدت علياً «رضي الله عنه» وهو يخطب ويقول: سلوني فو الله لا تسألوني عن شيء يكون إلى يوم القيامة إلاّ حدثكم به، وسلوني عن كتاب الله، فو الله ما منه آية إلاّ وأنا أعلم بليل نزلت أم بنهار أم بسهل نزلت أم بجبل ...**

"Əlinin (Allah ondan razı olsun) xütbə edərək belə dediyini eşitdim: "Soruşun məndən! Allaha and olsun ki, qiyamət gününədək olacaq (baş verəcək) hansı şeydən sual versəniz, cavab verərəm. Məndən Allahın kitabı barədə soruşun! Allaha and olsun ki, Quranda elə bir ayə yoxdur ki, onu gecəmi, gündüzmü, düzənlikdəmi, dağdamı nazil olduğunu bilməmiş olum (hamısının nə vaxt və harada nazil olduğunu bilirəm)..."."[27]

7-İbn Əbu Şeybə və Əbu Bəkr ibn Xeysəmə səhih sənədlə nəql etmişlər ki, Əbdül-Məlik ibn Əbu Süleyman Ətaya sual verib dedi:

**كان في أصحاب رسول الله «صلى الله عليه [وآله] وسلّم» أحد أعلم من علي؟ قال: لا والله ما أعلمه.**

"Allah Rəsulunun (sallallahu əleyhi [və alihi] və səlləm) səhabələri arasında Əlidən daha elmlisi var idimi?" Əta dedi: "Allaha and olsun ki, xeyr! Mən belə bir şəxs tanımıram".[28]

## Əli (əleyhissəlam) hökmləri ümmətə çatdırmaqda Allah Rəsulunun (sallallahu əleyhi və alihi və səlləm) şərikidir

Harun (əleyhissəlam) Musa (əleyhissəlam)-ın işində onun şəriki idi. Əmirəlmöminin (əleyhissəlam) da Allah Rəsulunun (sallallahu əleyhi və alihi və səlləm) işində onun şərikidir. Əlbəttə, peyğəmbərlik işində deyil, imamət işində. Çünki, peyğəmbərlik həzrət Muhəmmədin (sallallahu əleyhi və alihi və səlləm) peyğəmbərliyi ilə sona çatmışdır. Peyğəmbər də mənzilət hədisində bu məqamı digər məqamlar arasından istisna etmişdir.

---

26 "Müsnədü-Əhməd": 2/344, hədis: 1720, Əhməd Muhəmməd Şakir deyir: "**İsnadı səhihdir**".

27 "Camiu-bəyanil-ilm və fadlih": 1/464, hədis: 726. Kitabın mühəqqiqi Şeyx Əbul-Əşbal əz-Zuheyri deyir: "**İsnadı səhihdir, raviləri siqədirlər**".

28 "Müsənnəf" (İbn Əbu Şeybə): 6/371, hədis: 32109; "Əxbarul-məkkiyyin": 1/287, hədis: 240.

Bunu bir çox hədislrə də təsdiqləyir. Belə hədislərdən biri İbn Macənin özünün "Sünən" kitabında Həbəşi ibn Cünadədən nəql etdiyi bu hədisdir:

**حدثنا أبو بكر بن أبي شيبة، وسويد بن سعيد، وإسماعيل بن موسى قالوا: حدثنا شريك، عن أبي إسحاق، عن حبشي بن جنادة قال: سمعت رسول الله «صلى الله عليه وآله» يقول: «علي مني وأنا منه، ولا يؤدي عني إلاّ علي».**

"Allah Rəsulunun (sallallahu əleyhi [və alihi] və səlləm) belə dediyini eşitdim: "Əli məndəndir, mən də Əlidənəm. Mənim adımdan yalnız Əli çatdıra bilər"."[29]

Tirmizi Həbəşi ibn Cünadədən belə nəql edir:

**حدثنا إسماعيل بن موسى، حدثنا شريك، عن أبي إسحاق، عن حبشي بن جنادة، قال: قال رسول الله «صلى الله عليه [وآله] وسلم»: «علي مني وأنا من علي ولا يؤدي عني إلاّ أنا أو علي».**

"Allah Rəsulu (sallallahu əleyhi [və alihi] və səlləm) belə dedi: "Əli məndəndir, mən də Əlidənəm. Mənim adımdan yalnız mən və Əli çatdıra bilərik"."[30]

Hakim ən-Nisapuri "əl-Müstədrək" kitabında Ənəs ibn Malikdən belə nəql edir:

**حدثنا عبدان بن يزيد بن يعقوب الدقاق من أصل كتابه، حدثنا إبراهيم بن الحسين بن ديزيل، حدثنا أبو نعيم ضرار ابن صرد، حدثنا معتمر بن سليمان، قال: سمعت أبي يذكر عن الحسن، عن أنس بن مالك «رضي الله عنه» أن النبي «صلى الله عليه [وآله] وسلّم» قال لعلي: «أنت تبين لأمتي ما اختلفوا فيه من بعدي».**

"Peyğəmbər (sallallahu əleyhi [və alihi] və səlləm) Əliyə dedi: "Məndən sonra ümmətimin ixtilafa düşdükləri şeyləri onlar üçün sən açıqlayacaqsan"."[31]

## Əli (əleyhissəlam) ümmətin ən üstün şəxsidir

Harun (əleyhissəlam) Musa (əleyhissəlam)-ın ümmətinin ən üstün şəxsi olduğu kimi, Əmirəl-möminin Əli (əleyhissəlam) da həzrət Muhəmməd (sallallahu əleyhi və alihi və səlləm) ümmətinin ən üstün şəxsidir. Hətta, dəlillər sübut edir ki, heç bir kəs fəzilət və üstünlükdə Əli (əleyhissəlam)-la bir deyil. O həzrət, Peyğəmbəri-Əkrəmdən (sallallahu əleyhi və alihi və səlləm) sonra ən üstün şəxsdir. Buna dəlalət edən dəlillər çoxdur, onlardan biri "ət-tayrul-məşviy" (qızardılmış quş) hədisidir:

İbn Əsakir "Tarixi-Diməşq" kitabında belə nəql edir:

---

[29] "Səhihü-sünəni-İbn Macə", Əlbani: 1/58, Əlbani hədis üçün demişdir: "**həsəndir**".

[30] "Sünəni-Tirmizi": 5/636, hədis: 3719. Tirmizi demişdir: "**Bu, həsən, səhih və qərib hədisdir.**"

[31] "əl-Müstədrək": 3/132, hədis: 4620. Hakim demişdir: "**Bu, şeyxeynin şərtinə əsasən səhih hədisdir, lakin, onlar bunu nəql etməmişlər.**"

**أخبرنا أبو غالب بن البنّا، أنا أبو الحسين بن الآبنوسي، أنا أبو الحسن الدارقطني، نا محمد بن مخلد بن حفص، نا حاتم بن الليث، نا عبيد الله بن موسى، عن عيسى بن عمر القارئ، عن السدّي، نا أنس بن مالك قال: أهدي إلى رَسُول الله «صلى الله عليه [وآله] وسلّم» أطيار، فقسمها وترك طيراً، فقال: اللّهم ائتني بأحب خلقك إليك يأكل معي من هذا الطير، فجاء عليّ بن أبي طالب، فدخل يأكل معه من ذلك الطير.**

"Bizə Əbu Ğalib ibn Bənna xəbər verib dedi: bizə Əbul-Hüseyn ibn əl-Abənusi xəbər verib dedi: bizə Əbul-Həsən əd-Darəqutni xəbər verib dedi: bizə Muhəmməd ibn Muxəlləd ibn Həfs xəbər verib dedi: bizə Hatim ibn əl-Leys xəbər verib dedi: bizə Ubeydullah ibn Musa xəbər verib dedi: bizə İsa ibn Ömər əl-Qari, əs-Suddidən, o da Ənəs ibn Malikdən xəbər verib dedi:

"Allah Rəsuluna (sallallahu əleyhi [və alihi] və səlləm) bir neçə quş hədiyyə gətirildi. Peyğəmbər onları böldü və bir quş saxladı. Dedi: "İlahi, məxluqatından Sənə ən sevimli olan şəxsi mənə gətir ki, mənimlə birgə bu quşdan yesin." Bu zaman Əli ibn Əbu Talib gəldi. (Peyğəmbərin hüzuruna) daxil olub həmin quşdan yeməyə başaldı."[32]

Kimsə qızardılmış quş hədisinin səhih olmadığını desə, bilin ki, dediyi söz xalis yalandır. Hədis həm səhih, həm də həsən təriqlərlə nəql edilmişdir.[33] Yuxarıda qeyd etdiyimiz hədisin sənədindəki ravilərin hamısı əhli-sünnə nəzərində siqə şəxslərdir.

Əbu Ğalib ibn Bənna, Əhməd ibn Həsən ibn Əhməd ibn Abdullah əl-Bağdadi əl-Hənbəlidir. Zəhəbi onu "saleh və siqə[34] şeyx, Bağdadın müsnidi[35]" – deyə vəsf etmişdir[36]. Hafiz Əbu Bəkr Muhəmməd ibn Əbdül-Ğəni əl-Bağdadi – İbn Nüqtə əl-Hənbəli onun barəsində: "Siqədir, eşitdiklərini doğru və dəqiq şəkildə nəql edəndir, hafiz Əbül-Qasim İbn Əsakir və başqaları ondan hədis nəql etmişlər", - demişdir[37].

Əbül-Həsən ibn əl-Abənusi, Muhəmməd ibn Əhməd ibn Muhəmməd ibn Əli ibn əl-Abənusi əl-Bağdadidir. Zəhəbi onun barəsində: "siqə şeyxdir", - demişdir[38]. Xətib Bağdadi isə onun barəsində demişdir: "...Əbül-Həsən əd-Darəqutnidən, Əbu Həfs ibn Şahindən, İbn Həbabədən, Əbu Həfs əl-Kittanidən, əl-Müxlisdən, Əbül-

---

[32] "Tarixi-Diməşq": 42/254.

[33] Mən bu hədislə bağlı "İrşadul-hair ilə sihhəti hədisit-tair" adlı müstəqil bir kitab yazmışam. Biz burada hədis üçün bir çox səhih və həsən təriqlər qeyd etmiş, hədisin sənədlərini elmi şəkildə müzakirə etmişik. Biz bu kitabda bu hədisi-şərifin məzmununu dəstəkləyən və təsdiqləyən rəvayətlərdən on şahid (şahid: müəyyən bir hədislə eyni mənada və ya eyni ləfzdə olan və başqa bir səhabə yolu ilə nəql edilən hədisdir – tərc.) qeyd etmişik.

[34] Güvənilən. Tərc.

[35] Hədisi sənədi ilə nəql edən şəxs. "Mucəmul-mustalahatil-hədisiyyə": səh.728. Tərc.

[36] "Siyərü-əlamin-nübəla": 19/603.

[37] "ət-Təqyid": 1/135.

[38] "Siyərü-əlamin-nübəla": 18/85.

Həsən ibn Nəccar əl-Kufidən və Əhməd ibn Übeyd əl-Vasitidən hədis eşitmişdir. Mən ondan hədis yazmışam. Onun hədis nəql etməsi doğru və dəqiq idi."[39]

Əbül-Həsən əd-Darəqutni, Əli ibn Ömər ibn Əhməd ibn Mehdi əl-Bağdadidir. Əhli-sünnənin böyük hədisçilərinndən və güvənilir şəxslərindəndir. "Sünənüd-Darəqutni" kimi tanınan məşhur "sünən" kitabının müəllifidir[40]. Muhəmməd ibn Məxləd ibn Həfs, Zəhəbi onun barəsində "güvənilən və faydalı imamdır, Bağdadın müsnididir", - demişdir[41]. İbn Həcər onun barəsində: "güvəniləndir, güvəniləndir, güvəniləndir, məşhur şəxsdir", - demişdir[42].

Xətib Bağdadi isə demişdir: "Dərrakə əhlindən idi. Elmdə güvənilir bir şəxs idi. Çoxlu hədis bilirdi. Dindarlıq, əmanətdarlıq və ibadətlə məşhur idi."[43]

Hatim ibn Leysə gəlincə, Zəhəbi onun üçün: "çoxlu hədis bilən güvənilir hafiz[44]", - demiş[45], İbn Əbu Yəla: "siqə, səbt[46] və mutqin[47] idi", - demiş[48], Xətib Bağdadi: "siqə, səbt, mutqin və hafiz idi", - demiş[49], İbn Hibban da onu "Siqat" ("Güvənilir şəxslər") kitabında qeyd etmişdir[50].

Übeydullah ibn Musaya gəlincə, Buxari və Müslim ondan hədis nəql ediblər. Zəhəbi[51], İbn Həcər[52], İcli[53] və başqaları onu güvənilir hesab etmiş, İbn Hibban onu "əs-Siqat" əsərində qeyd etmişdir[54].

İsa ibn Əmr əl-Qari isə, "əl-Həmədani" kimi məşhur olan İsa ibn Əmr əl-Qari əl-Əsədi Əbu Ömər əl-Kufi əl-Əmadır. İbn Məin, Nəsai, Xətib Bağdadi, İbn Xəlləfun və İcli onu güvənilir bilmiş, İbn Hibban onu "əs-Siqat" əsərində qeyd

---

39 "Tarixü-Bağdad": 1/356-357.

40 Bax: "Təzkirətül-hüffaz": 3/991, "Təbəqatüş-şafeiyyə": 1/161, "Təkmilətül-ikmal": 1/99, "ət-Təqyid": 1/410, "Tarixü-Diməşq": 43/93.

41 "Təzkirətül-hüffaz": 3/828.

42 "Lisanül-mizan": 5/374.

43 "Tarixü-Bağdad": 3/310.

44 Hafiz: hədis alimləri üçün deyilən bir sözdür. Əgər hədisçi Allah Rəsulunun (sallallahu əleyhi və alihi və səlləm) sünnələrinə agah olsa, bu sünnələrin nəql olunduğu sənədləri bilsə, sənədləri bir-birindən seçib ayırd edə bilsə, səhihliyi barədə icma edilən və edilməyən hədisləri tanısa, ona hafiz deyilər. İbn Həcər əl-Əsqəlani hafiz üçün aşağıdakı xüsusiyyətləri şərt bilmişdir:
1-Hədisləri kitablardan yox, ravilərin dilindən əxz etməklə məşhur olsun;
2-Ravilərin təbəqə və mərtəbələrindən agah olsun;
3-Ravilərin güvənilir və ya qeyri-güvənilir olduğunu bilsin, səhih hədislə zəif hədisi ayırd edə bilsin, bu mövzuda əzbərdən bildikləri əzbərdən bilmədiklərindən çox olsun, habelə yanında çoxlu mətnlər (yazılı məlumatlar) olsun. "Mucəmul-mustalahatil-hədisiyyə": səh.297-298.

45 "Siyərü-əlamin-nübəla": 12/519.

46 Hədis nəql etməkdə dəqiq olan şəxs. Tərc.

47 Hafiz olan, hədisi dəqiq yadda saxlayan və ayıq olan (qəflətə düşməyən, unutmayan) şəxs. Tərc.

48 "Təbəqatül-hənabilə": 1/148.

49 "Tarixü-Bağdad": 8/245.

50 "əs-Siqat": 8/211.

51 "əl-Kaşif": 8/211.

52 "Təqribüt-təhzib": 1/375.

53 "Mərifətüs-siqat": 2/114.

54 "əs-Siqat": 7/152.

etmiş, Əbu Hatim: “onun hədisində bir problem yoxdur”, - demiş, Əbu Bəkr əl-Bəzzar da: “onda bir problem yoxdur”, - demişdir[55].

Suddi isə İsmayıl ibn Əbdür-Rəhmandır. Müslim özünün “Səhih” kitabında ondan hədis nəql etmiş, Əhməd ibn Hənbəl və İcli onu güvənilir bilmiş, İbn Hibban onu “əs-Siqat” əsərində qeyd etmişdir. Nəsai onun barəsində: “saleh şəxsdir”, Mərrə: “onda bir problem yoxdur”, İbn Ədiy: “mənim nəzərimdə o, hədisləri doğru nəql edəndir, düzdanışandır, onda bir problem yoxdur”[56], Tirmizi də: “Şubə, Süfyan əs-Səvri, Zaidə və Yəhya ibn Səid əl-Qəttan onu güvənilir bilmişlər”, - demişdir[57].

Bu hədis sənəd baxımından səhihdir. Peyğəmbər (sallallahu əleyhi və alihi və səlləm) Allaha dua edir ki, onunla birgə qızardılmış quşdan yeməsi üçün bəndələri arasında Özünə ən sevimli olan şəxsi onun yanına gətirsin. Bu zaman Əli (əleyhissəlam) gəlir. Yaranmışlar içərisində Allaha ən sevimli olan şəxs yaranmışların ən üstünü olduğu üçün, Əli (əleyhissəlam) da Peyğəmbərdən sonra yaranmışların ən üstünü olur.

Həmçinin, Təbərani İbn Abbasdan belə nəql etmişdir:

**حدثنا محمد بن جابان الجنديسابوري، والحسن بن علي المعمري قالا: حدثنا عبد الرزاق، عن معمر، عن ابن أبي نجيح، عن مجاهد، عن ابن عباس قال: لما زوج النبي «صلى الله عليه [وآله] وسلّم» فاطمة عليّاً قالت فاطمة يا رسول الله زوجتني من رجل فقير ليس له شيء فقال رسول الله «صلى الله عليه [وآله] وسلّم»: «أما ترضين يا فاطمة أن الله عز وجل اختار من أهل الأرض رجلين أحدهما أبوك والآخر زوجك؟**

“Peyğəmbər (sallallahu əleyhi [və alihi] və səlləm) Fatiməni Əliyə ərə verdikdə Fatimə ona dedi: “Ey Allah Rəsulu, məni heç bir şeyi olmayan fəqir bir kəsə ərə verdin?” Allah Rəsulu (sallallahu əleyhi [və alihi] və səlləm) dedi: “Ey Fatimə, məgər (buna) razı deyilsənmi ki, Allah (əzzə və cəll) yer əhlindən iki nəfəri seçmişdir: biri sənin atan, digəri isə həyat yoldaşın?”.”[58]

Bu sənədin raviləri siqədir. Təbərani bu hədisi iki şəxsdən – Muhəmməd ibn Cabandan və Həsən ibn Əli əl-Məməridən nəql etmişdir. Axırıncı şəxs siqədir.[59] Sənədin digər ravilərinə gəlincə isə, siqədirlər və “səhih”in ravilərindəndirlər.[60] Bu hədis onu göstərir ki, Əli (əleyhissəlam) Allah Rəsulundan (sallallahu əleyhi və alihi və səlləm) sonra ən üstün şəxsdir. Ona görə ki, əgər Allah Rəsulundan (sallallahu əleyhi və alihi və səlləm) sonra Əlidən (əleyhissəlam) daha üstün bir

---

55 Bax: “Təhzibüt-təhzib”: 8/199.

56 Bax: “Təhzibüt-təhzib”: 1/274.

57 “Sünənüt-Tirmizi”: 5/636.

58 “əl-Mucəmul-kəbir”: 11/93, hədis 11153.

59 Bax: “Lisanul-mizan” (İbn Həcər): 2/221.

60 “Səhih”in raviləri dedikdə ravilərin “Səhihül-Buxari” və ya “Səhihü-Müslim”in ravilərindən olması nəzərdə tutulur. (Tərc.)

şəxs olsaydı, o zaman Allah-taalanın yer əhli arasından Əlini yox, həmin şəxsi seçməsi lazım gələrdi.

## Əli (əleyhissəlam) Allah Rəsulunun (sallallahu əleyhi və alihi və səlləm) xəlifəsidir

Əgər Harun (əleyhissəlam) Musa (əleyhssəlam)-dan sonra yaşasaydı Musa (əleyhissəlam)-ın xəlifəsi o olacaqdı. İndi ki, İmam Əlinin (əleyhissəlam) həzrət Peyğəmbərə (sallallahu əleyhi və alihi və səlləm) olan nisbəti Harunun (əleyhissəlam) Musaya (əleyhissəlam) olan nisbəti kimidir, o zaman həzrət Peyğəmbərin xilafəti də məhz ona keçir, çünki İmam Əli (əleyhissəlam) Peyğəmbərdən sonra yaşamışdır. Bunu – İmam Əlinin Peyğəmbərin xəlifəsi olmasını dəstəkləyən dəlillər çoxdur. Bu dəlillərdən bəziləri Əli (əleyhissəlam)-ın Peyğəmbərdən sonra onun yerinə keçəcək şəxs olmasına, ümmətin dini və dünyəvi işlərinin idarə edəcək şəxs olmasına açıqca dəlalət edir. Belə dəlillərdən biri vilayət hədisidir. Vilayət hədisi Peyğəmbərin (sallallahu əleyhi və alihi və səlləm) Əli (əleyhissəlam) barədə buyurduğu "*O məndən sonra hər bir möminin vəlisidir*" hədisidir[61]. Həmçinin, belə dəlillərdən biri Qədir-Xum hədisidir: "*Mən kimin mövlasıyamsa, Əli də onun mövlasıdır. İlahi, ona dost olana dost ol, ona düşmən olana düşmən ol*"[62]. Bu hədis mütəvatir hədisdir. Bu kitabın birinci cildində bu iki hədisi şərif barədə, onların İmam Əli (əleyhissəlam)-ın ümmət üzərində imamətinə və vilayətinə necə dəlalət etməsi barədə danışmışıq.

## İmam Əli (əleyhissəlam) məsumdur və ona itaət etmək vacibdir

Harun (əleyhissəlam) peyğəmbər olduğu üçün məsum idi. İmam Əli (əleyhissəlam) da peyğəmbərlik xaric Harun (əleyhissəlam)-ın məqamlarının hamısına sahib olduğu və peyğəmbərlik xaric bütün cəhətlərdən Harun (əleyhissəlam) ilə oxşar olduğundan, o da məsum sayılır.

İmam Əli (əleyhissəlam)-ın məsum olmasına mənzilət hədisindən başqa da dəlillər vardır. Bunlardan biri "təthir" ayəsidir: "**Həqiqətən, Allah siz Əhli-Beytdən hər cür pisliyi təmizləmək və sizi pak etmək istəyir**" (Əhzab surəsi, 33). Allah (əzzə və cəll) bu ayədə xitab olunan şəxslərin hər cür pislikdən və çirkinlikdən pak olduqlarını xəbər verir. Allah Rəsulu (sallallahu əleyhi və alihi və səlləm) ayədəki Əhli-Beyt məfhumunu əba altına topladığı şəxslərlə müəyyənləşdirmişdir. Həmin şəxslər Əli, Fatimə, Həsən və Hüseyndən

---

[61] "Səhihü-İbn Hibban": 15/373, hədis: 6929. Şeyx Şüeyb əl-Arnaut deyir: "**İsnadı səhihdir**".
[62] "Səhihü-İbn Hibban": 15/375, hədis: 6931, Şüeyb əl-Arnaut deyir: "**Səhih hədisdir**".

(əleyhimussəlam) ibarətdirlər. Biz bu kitabın 1-ci cildində “Osman əl-Xəmisin təthir ayəsi və kisa hədisi ilə bağlı sözlərinə cavab” başlığı altında təthir ayəsi və “əba” hədisi barədə danışaraq bu hədislərin xitab edilən şəxslərin məsumluğuna hansı şəkildə dəlalət etdiyini açıqladıq.

İmam Əlinin (əleyhissəlam) məsumluğuna dəlalət edən başqa bir dəlil də “səqəleyn” hədisidir. Belə ki, Allah Rəsulu (sallallahu əleyhi və alihi və səlləm) buyurur:

**إني تارك فيكم ما إن تمسكتم به لن تضلوا بعدي، أحدهما أعظم من الآخر: كتاب الله حبل ممدود من السماء إلى الأرض وعترتي أهل بيتي، ولن يفترقا حتى يردا علي الحوض، فانظروا كيف تخلفوني فيهما.**

“Mən sizin aranızda elə şey(lər) qoyub gedirəm ki, on(lar)dan yapışdığınız müddətcə məndən sonra əsla azğınlığa düşməyəcəksiniz. Onların biri digərindən böyükdür: səmadan yerə uzanmış bir ip olan Allahın kitabı və itrətim olan Əhli-Beytim. Onlar hovuz başında mənim yanıma gələnədək əsla bir-birlərindən ayrılmayacaqlar. Baxın görün məndən sonra bunlar barədə necə davranacaqsınız.”[63]

Hamı Əli (əleyhissəlam)-ın bu hədisdəki itrət və Əhli-Beyt məfhumlarına daxil olması barədə ittifaq etmişdir. Peyğəmbər (sallallahu əleyhi və alihi və səlləm) bu hədisdə Quranla birgə Əhli-Beytə sarılmağı əmr etmişdir. Əgər bir kəsin xəta, səhv və günah etmə ehtimalı varsa, o zaman Allah-taalanın heç bir qeyd və şərt olmadan ondan yapışmağa əmr etməsi qeyri-mümkündür. İndi ki, Allah-təala bu cür mütləq şəkildə onlaradan yapışmağa əmr edir, başa düşürük ki, onlar məsumdurlar.

Həmçinin, Peyğəmbər (sallallahu əleyhi və alihi və səlləm) bu hədisdə onların Qurandan əsla ayrılmayacaqlarını bildirmiş və buyurmuşdur: “Onlar hovuz başında mənim yanıma gəlincəyədək əsla bir-birlərindən ayrılmayacaqlar”. Bu cümlə də həmçinin onların məsum olmalarına dəlalət edir. Çünki, onların xəta, səhv və günah etmə ehtimalları olsa, deməli Qurandan ayrılma ehtimalları da var[64].

Əmirəl-möminin (əleyhissəlam)-ın məsumluğuna dəlalət edən dəlillərdən bir başqası da, Əbu Yəlanın Əbdür-Rəhman ibn Əbu Səiddən, onun da öz atasından nəql etdiyi bu hədisdir:

**كنّا عند بيت النبي «صلى الله عليه [وآله] وسلّم» في نفر من المهاجرين والأنصار فخرج علينا فقال:» ألا أخبركم بخياركم؟ «قالوا: بلى، قال:» خياركم الموفون، إن الله يحب الحفي التقي «قال: ومرّ علي بن أبي طالب فقال:» الحق مع ذا الحق مع ذا.**

---

[63] “Səhihü-sünənit-Tirmizi” (Əlbani): 3/543, hədis: 3788.

[64] İndi ki, Qurandan ayrılmaycaqları bildirilir, deməli xəta, səhv və günah etmə ehtimalları da yoxdur. Çünki, xəta, səhv və günah həmin xəta, səhv və günah həddində Qurandan ayrılmaq sayılır. Tərc.

“Biz bir dəstə mühacirli və ənsarlılarla birlikdə Peyğəmbərin (sallallahu əleyhi [və alihi] və səlləm) evində idik. Peyğəmbər (sallallahu əleyhi [və alihi] və səlləm)) buyurdu: “Sizə ən üstünləriniz barədə xəbər verimmi?” Dedilər: “Bəli, (verin)”. Buyurdu: “Sizin ən üstünləriniz (əhdə) vəfa edənlərdir. Allah öz qohumları ilə əlaqə qurub onlara qarşı mehriban olan təqvalı şəxsi sevir.”

Əbu Səid deyir: Bu zaman Əli ibn Əbu Talib (yanımızdan) keçdi. Peyğəmbər buyurdu: “**Haqq bununladır, haqq bununladır**”.”[65]

Peyğəmbər (sallallahu əleyhi və alihi və səlləm) mütləq və qeyd-şərtsiz bir şəkildə “haqq bununladır”, - deyərək Əli (əleyhissəlam)-ın heç vaxt haqqdan ayrılmayacağını bildirmiş, onun daim haqqla ilə birgə olduğunu və olacağını vurğulamışdır. Əgər Peyğəmbər (sallallahu əleyhi və alihi və səlləm) İmam Əlinin (əleyhissəlam) məsum olduğunu düşünmürdüsə və onun xəta və günah etməsini ehtimal edirdisə, o zaman belə bir söz deməsi, özü də bu cür qeyd-şərtsiz mütləq bir şəkildə deməsi doğru olmazdı. Deməli, Peyğəmbərin bu sözü İmam Əlinin məsumluğuna dəlalət edir.

Digər bir dəlil də Hakim ən-Nişapurinin Ümmü-Sələmədən, onun da Peyğəmbərdən (sallallahu əleyhi və alihi və səlləm) nəql etdiyi bu hədisdir:

**علي مع القرآن والقرآن مع علي، لن يفترقا حتّى يردا علي الحوض.**

“Əli Quranladır, Quran da Əli ilədir. Onlar hovuz başında mənim yanıma gəlincəyədək əsla bir-birlərindən ayrılmayacaqlar.”[66]

Bu hədis də İmam Əlinin (əleyhissəlam) məsumluğuna öncəki hədis kimi dəlalət edir. Əgər Peyğəmbər (sallallahu əleyhi və alihi və səlləm) İmam Əmirəlmöminini (əleyhissəlam) məsum görmürdüsə və onun xətaya düşməyini ehtimal verirdisə, o zaman bu cür mütləq şəkildə Əli (əleyhissəlam)-ın Qurandan, Quranın da ondan ayrılmayacağını deməzdi. İndi ki, Peyğəmbər (sallallahu əleyhi və alihi və səlləm) bu sözü bu cür mütləq şəkildə bildirir, başa düşürük ki, İmam Əli (əleyhissəlam) məsumdur.

Həmçinin, Harun (əleyhissəlam)-a itaət etmək Musa (əleyhissəlam)-ın ümmətinə vacib olduğu kimi, Əli (əleyhissəlam)-a itaət etmək də Muhəmməd (sallallahu əleyhi və alihi və səlləm) ümmətinə vacibdir. Həzrət Haruna itaət etmək peyğəmbər olduğuna görə vacib idisə, İmam Əliyə itaət etmək də imam və Allah Rəsulunun (sallallahu əleyhi və alihi və səlləm) xəlifəsi olduğuna görə vacibdir.

---

[65] “Müsnədü-Əbu Yəla”: 2/318, hədis: 1052. Bu hədisi Heysəmi “Məcməüz-zəvaid”də nəql etmiş və demişdir: “**Bunu Əbu Yəla nəql etmişdir, raviləri siqədir**.” Həmçinin, “əl-Mətalibul-aliyə”: 16/147, hədis 3945; “Tarixü-Diməşq”: 42/449.

[66] “əl-Müstədrək ələs-sahiheyn”: 3/134, hədis: 4628. Hakim demişdir: “**Bu, səhih sənədli hədisdir.**” “əl-Mucəmul-əvsət”: 5/135, hədis: 488; “əl-Mucəmus-sağir”: 2/28, hədis: 720; “Kənzül-ümmal”: 11/277, hədis: 32912, “İcmalul-isabə”: səh.55, müəllif hədisin **həsən** olduğunu demişdir; “əs-Səvaiqul-muhriqa”: 2/361; “Tarixul-xuləfa”: səh.173.

İmam Əli (əleyhissəlam)-ın itaəti vacib olan şəxs olduğuna dəlalət edən dəlillərdən biri də əhli-sünnə mənbələrində gələn aşağıdakı hədisdir:

Hakim ən-Nisapuri “əl-Müstədrək” kitabında Əbu Zər əl-Ğifaridən belə nəql edir:

**(قال رسول الله «صلى الله عليه [وآله] وسلّم»: «من أطاعني فقد أطاع الله ومن عصاني فقد عصى الله ومن أطاع علياً فقد أطاعني ومن عصى علياً فقد عصاني».**

“Allah Rəsulu (sallallahu əleyhi [və alihi] və səlləm) buyurdu: “Kim mənə itaət etsə, Allaha itaət etmişdir. Kim mənə qarşı gəlsə, Allaha qarşı gəlmişdir. Kim Əliyə itaət etsə, mənə itaət etmişdir. Kim Əliyə qarşı gəlsə, mənə qarşı gəlmişdir”.”[67]

## Osman əl-Xəmisin mənzilət hədisi ilə bağlı iddialarına cavab

Mənzilət hədisinə dəlalət baxımından nəzər saldıqdan sonra, növbə Osman əl-Xəmisin bu hədislə bağlı özünün “Hiqbətün minət-tarix” (“Tarixdən bir dövr”) adlı kitabında qeyd etdiyi şübhələrə verəcəyimiz cavablara çatır. O, bu şübhələri keçmiş nasibilərdən və onların yolu ilə addımlayan kəslərdən əxz etmiş, onların sözlərini olduğu kimi təkrar etmişdir. O, şiə alimlərinin bu iddialara verdikləri cavabları və onları necə batil etmələrinə görməzdən gəlmişdir. O, altı irad qeyd etmişdir ki, bu iradların heç birində şiələrin mənzilət hədisini İmam Əlinin (əleyhissəlam) imamətinə dəlil gətirmələrini batil edəcək bir dəlil yoxdur.

O deyir:

**قالوا - يقصد الشيعة - قول النبي «صلى الله عليه [وآله] وسلّم»: ألا ترضى أن تكون مني بمنزلة هارون من موسى دليل على أنّ علياً «رضي الله عنه» هو الخليفة بعد رسول الله «صلى الله عليه [وآله] وسلّم» لأنّ هارون هو الخليفة بعد موسى لما خرج لميقات ربّه، فعلي هو الخليفة بعد رسول الله «صلى الله عليه [وآله] وسلّم» وهذا باطل من وجوه:**

**الوجه الأول: إن هارون لم يخلف موسى بل المشهور أنّ هارون عليه الصلاة والسلام توفي قبل موسى بسنة.**

“Onlar deyirlər ki, Peyğəmbərin (*ona və ailəsinə Allahın salavatı və salamı olsun*[68]): “Məgər sən mənim üçün, Harunun Musa nisbətində olmaq istəmirsən?” – bu sözləri, Əlinin (*Allah ondan razı olsun*) Peyğəmbərdən (*ona və ailəsinə Allahın salavatı və salamı olsun*) sonra xəlifə olmasına dəlalət edir. Çünki Musa təyin edilmiş anda

[67] “əl-Müstədrək”: 3/131, hədis: 4617, Hakim Nişapuri demişdir: “**Bu, səhih sənədli hədisdir, lakin onlar (Buxari və Müslim) bunu nəql etməmişlər.**” Zəhəbi də “Təlxis”də onunla razılaşaraq “**səhihdir**”, - demişdir.

[68] Osman əl-Xəmis kitabın orijinalında Peyğəmbər (sallallahu əleyhi və alihi və səlləm) ailəsinə salavat deməmişdir, salavatı bu şəkildə edən tərcüməçidir. Tərc.

Rəbbinin hüzuruna getdiyi zaman Harun onun xəlifəsi olmuşdu. Buna görə də Əli, Peyğəmbərdən (*ona və ailəsinə Allahın salavatı və salamı olsun*) sonra xəlifə sayılır.

Amma bu iddia aşağıda deyiləcək bəndələrə əsasən batil sayılır:

Birinci: Harun Musadan (əleyhissəlam) sonra xəlifə olmamışdır. Məşhur rəvayətlərə əsasən Harun (əleyhissəlam) Musadan (əleyhissəlam) bir il öncə vəfat etmişdi.”[69]

**Deyirəm:** sabit, səhih, məşhur və qəti olaraq bilinən budur ki, Harun (əleyhissəlam) sağ olduğu zamanda Musa (əleyhissəlam)-ın xəlifəsi idi. Belə ki, Qurani-Kərim bunu açıq-aşkar bildirmişdir. Allah-taala buyurur: “**Musa qardaşı Haruna dedi: “Sən tayfam içində mənim xəlifəm ol, (camaatı) islah etməyə çalış və (yer üzündə) fitnə-fəsad törədənlərin yolu ilə getmə!”** (Əraf surəsi, 142). Əgər Harun (əleyhissəlam) Musa (əleyhissəlam)-dan sonra yaşasaydı, şübhəsiz ki, həzrət Musanın (əleyhissəlam) xəlifəliyi ona məxsus olacaqdı. Mənzilət hədisi də bildirir ki, peyğəmbərlik xaric həzrət Harunun həzrət Musaya nisbətdə sahib olduğu bütün məqamlar İmam Əli (əleyhissəlam) üçün də keçərlidir. Bu məqamlardan biri də xilafətdir. Buna əsasən, İmam Əli (əleyhissəlam) Allah Rəsulundan (sallallahu əleyhi və alihi və səlləm) sonra yaşadığı üçün, ümmət üzərində xəlifə başqası deyil, məhz o olur.

Sonra deyir:

**الثاني: إنّ هارون بقي في المدينة لما خرج موسى للقاء ربه ومع هارون العسكر والجيش، وخرج موسى ومعه بعض الرجال للقاء ربه تبارك وتعالى، أما علي فلم يبق أحد من العسكر معه إلاّ الذين عصوا أمر الله أو من أمره الرسول «صلى الله عليه [وآله] وسلّم» بالبقاء، فاختلف الأمر.**

“İkinci: Musa Rəbbinin hüzuruna getdikdə Harun şəhərdə qalmışdı. Əsgərlər və qoşun onun tabeçiliyində idi. Musa isə bir qrup insanla Rəbbinin hüzuruna getmişdi. Amma Əli ilə Mədinədə bir nəfər də olsun əsgər qalmamışdı. Orada yalnız Peyğəmbərin əmrinə asilik edib döyüşə getməyənlər və Peyğəmbərin əmri ilə şəhərdə oturan insanlar qalmışdılar. Deməli Musanın əhvalatı, deyilən əhvalatdan fərqlidir.”[70]

**Deyirəm:** Mədinədə qalıb Allah Rəsulu (sallallahu əleyhi və alihi və səlləm) ilə birgə Təbuka yollanmayan şəxslərin bir dəstəsi də münafiqlər idilər. Allah Rəsulunun (sallallahu əleyhi və alihi və səlləm) əshabı arasında onlar çoxlu sayda idilər. Bəlkə də Peyğəmbər (sallallahu əleyhi və alihi və səlləm) vəhy yolu ilə bu münafiqlərin Mədinədəki müsəlmanlar üçün fitnə-fəsad planladıqlarını bilmişdi.

---

[69] “Tarixdən bir dövr”: səh.365.

[70] “Tarixdən bir dövr”: 365-366.

Buna görə də münafiqlərin terror planının qarşısını almaqdan ötrü Əli (əleyhissəlam)-ı Mədinədə saxlamışdı.[71] Çünki, həzrət Peyğəmbər (sallallahu əleyhi və alihi və səlləm) öz səhabələri arasında Əlidən (əleyhissəlam) başqa münafiqlərin belini qıracaq başqa bir şəxs tapmamışdı. Məhz Əli təkbaşına və heç kəsdən kömək almadan bu işi bacara bilərdi. Buna görə də Allah Rəsulu (sallallahu əleyhi və alihi və səlləm) onu Mədinədə təkbaşına qoymuş və onunla yanında heç bir döyüşçü saxlamamışdı. Bunda o Həzrət (əleyhissəlam) üçün üstünlük, fəzilət və uca məqam vardır. Məhz buna görə də, bəzi hədislərdə də gəldiyi kimi, Allah Rəsulu ona: "**mən getsəm, mütləq sən mənim xəlifəm olmalısan**",[72] - deyə müraciət etmişdi. Yəni, mən bu səfərimə getsəm, Mədinədə mənim xəlifəm mütləq sən olmalısan.

Sonra Osman əl-Xəmis deyir:

**الثالث: إن النبي «صلى الله عليه [وآله] وسلّم» إنما طيب خاطر علي «رضي الله عنه» لأنّ علياً هو الذي جاء واشتكى، ولو لم يأت علي للنبي «صلى الله عليه [وآله] وسلّم» ما قال له هذا الكلام، فبيّن له أن الأمر ليس كذلك، فأنا ما خلفتك بغضاً لك، أتعلم أن موسى لما خرج للقاء ربه ترك هارون ولم يكن هذا منقصة لهارون «عليه السلام» كذلك إذا خرجت أنا وتركتك في المدينة فليس هذا منقصة لك، لذلك لو كان غير علي وقيل فيه ما قيل في علي وجاء للنبي «صلى الله عليه [وآله] وسلّم» واشتكى بنفس الشكوى التي اشتكاها علي لما كان يبعد أن يقول له النبي «صلى الله عليه [وآله] وسلّم» هذا الكلام نفسه، وإنما اشتكى علي ولم يشتك غيره لما تكلم الناس فيه، لأن بقية الولاة ما كان النبي «صلى الله عليه [وآله] وسلّم» يتركهم مع النساء والصبية فقط، بل كان يستخلفهم على رجال ولم يكن النبي «صلى الله عليه [وآله] وسلّم» يخرج بالجيش كله عادة. فعلي «رضي الله عنه» لما رأى الأمر كأنه فيه منقصة وتكلم المنافقون خرج خلف النبي «صلى الله عليه [وآله] وسلّم» يسأله عن سبب هذا الترك فبيّن له النبي «صلى الله عليه [وآله] وسلّم» أنه ليس عن كره ولا كما يدعي المنافقون إنما كما أبقى موسى هارون أنا أبقيتك في أهلي.**

"Üçüncü: Peyğəmbər (*ona və ailəsinə Allahın salavatı və salamı olsun*) bu sözlərlə Əlinin könlünü almışdı. Çünki Əli özü gəlib bu haqda şikayət etmişdi. Demək, o gəlib Peyğəmbərə (*ona və ailəsinə Allahın salavatı və salamı olsun*) şikayət etməsəydi [Peyğəmbər] onun haqqından bu sözləri deməzdi. Amma Əli bu barədə söz açarkən Peyğəmbər (*ona və ailəsinə Allahın salavatı və salamı olsun*) məsələnin elə olmadığını açıqlayaraq dedi: Səni şəhərdə saxlamağımın səbəbi, sənə qarşı olan nifrətim deyil. Sən bilirsən ki, Musa Rəbbinin hüzuruna getdiyi zaman Harunu qoyub getdi. Amma bu heç də Harun üçün eyb sayılmırdı. Həmçinin mən də şəhərdən çıxarkən səni orada qoyub getmişəm. Bu da sənin üçün eyib sayılmır.

[71] Çünki, təkcə o Həzrətin (əleyhissəlam) Mədinədəki varlığı belə münafiqləri qorxuya salır, onları müsəlmanlara qarşı hər hansı bir pis iş görməkdən saxlayırdı. Çünki, onlar o Həzrətin gücünü, qüvvəsini və sərtliyini yaxşı tanıyırdılar.

[72] Bu cümlə sünni mənbələrində gələn bir çox hədislərdə qeyd olunmuşdur. Belə mənbələrdən biri "əl-Müstədrək" kitabıdır. (3/143, hədis: 4652). Hakim bu hədis üçün: "**bu səhih sənədli hədisdir, lakin iki şeyx bu hədisi bu formada nəql etməmişlər**", - demişdir. Zəhəbi də "Təlxis"də: "**səhihdir**", - demişdir. Həmçinin, bu hədis "Müsnədü-Əhməd" kitabında (3/331, hədis: 3062) gəlmişdir. Kitabın mühəqqiqi Əhməd Muhəmməd Şakir hədis barədə belə demişdir: "**İsnadı səhihdir.**"

Ona görə də Əli olmayıb, başqa bir nəfər eyni şikayəti etsəydi, çox güman ki, Peyğəmbər (*ona və ailəsinə Allahın salavatı və salamı olsun*) ona da eyni cavabı verərdi. Başqasının deyil, məhz Əlinin belə bir şikayət etməsinə səbəb isə budur ki, Peyğəmbər (*ona və ailəsinə Allahın salavatı və salamı olsun*) özünün əvəzinə təyin etdiyi valilərə yalnız qadın və uşaqları deyil, qoşundan ayrılmış bir dəstə kişiləri də əmanət qoyub gedərdi. Peyğəmbər (*ona və ailəsinə Allahın salavatı və salamı olsun*) heç vaxt bütün qoşunu şəhərdən çıxartmazdı. Əli (*Allah ondan razı olsun*) bir tərəfdən özünün qadın və uşaqlar üzərində vali təyin olunmasının eyib olmasını düşünüb, digər tərəfdən münafiqlərin bu haqda danışmasını eşitdikdə Peyğəmbərin (*ona və ailəsinə Allahın salavatı və salamı olsun*) arxasınca gedib şəhərdə qalmasının səbəbini soruşdu. Peyğəmbər (*ona və ailəsinə Allahın salavatı və salamı olsun*) də bunu ona qarşı olan nifrətindən dolayı etmədiyini, məsələnin münafiqlərin iddiasına uyğun olmadığını, ona çatdırdı. Bildirdi ki, Musa Harunu qoyub getdiyi kimi, mən də səni öz ailəmin yanında qoyub gedirəm."[73]

**Deyirəm [74]:**

---

[73] "Tarixdən bir dövr": səh.366.

[74] Tərcüməçinin qeydi:

Osman əl-Xəmisin iddiasından belə başa düşülür ki, Peyğəmbər (sallallahu əleyhi və alihi və səlləm) bu sözləri sırf İmam Əlinin (əleyhissəlam) könlünü almaq üçün demişdir. Əli (əleyhissəlam) deyil də başqa bir kəs gəlib eyni sözü desəydi, Peyğəmbər (sallallahu əleyhi və alihi və səlləm) eyni sözü ona da deyəcəkdi. Buna əsasən, bu sözün elə də bir dəyəri olmur, çünki Peyğəmbər bu sözü Mədinədə saxladığı istənilən bir kəsə deyə bilərdi. Lakin, tarixə nəzər saldıqda, vəziyyətin tamamilə fərqli olduğunu görürük. Belə ki, səhabələr bu hədisi heç də Osman əl-Xəmisin başa düşdükləri kimi başa düşməmişlər. Səhabələr bu sözün çox böyük bir məqama dəlalət etdiyini və xüsusi bir söz olduğunu çox gözəl başa düşmüşlər. Lakin, Osman əl-Xəmis qaranlıq niyyətlərindən ötrü özünü görməzliyə vurmuşdur. Belə səhabələrə misal olaraq Səd ibn Əbi Vəqqası göstərə bilərik. O, mənzilət hədisinin özünün barəsində deyilməsini qırmızı rəngli dəvə sürüsündən daha dəyərli hesab etmişdir. Əgər bu söz istənilən bir kəsə deyilə biləcək adi bir söz idisə, bəs nə üçün Səd ibn Əbi Vəqqas kimi bir şəxs (hansı ki, Cənnətlə müjdələnmiş on şəxsdən biri olduğunu iddia edilir) bu sözün özü barədə deyilməsini qırmızı rəngli dəvə sürüsündən daha dəyərli hesab edirdi?! Müslim öz "Səhih"ində belə nəql edir:

**أمر معاوية بن أبي سفيان سعدا فقال: ما منعك أن تسب أبا التراب؟ فقال: أما ذكرت ثلاثا قالهن له رسول الله صلى الله عليه وسلم، فلن أسبه. لأن تكون لي واحدة منهن أحب إلي من حمر النعم. سمعت رسول الله صلى الله عليه وسلم يقول له، خلفه في بعض مغازيه، فقال له علي: يا رسول الله! خلفتني مع النساء والصبيان؟ فقال له رسول الله صلى الله عليه وسلم "أما ترضى أن تكون مني بمنزلة هارون من موسى. إلا أنه لا نبوة بعدي."**

"Müaviyə ibn Əbu Süfyan Sədə əmr etdi. (Lakin Sədin onun əmrinə tabe olmadığını gördükdə) dedi: "Sənə Əbu Turabı (Əlini) söyməyə nə mane olur?"

Səd cavab verdi: "Allah Rəsulu (sallallahu əleyhi [və alihi] və səlləm) (Əli haqqında) üç şey deyib ki, (bu şeylər səbəbindən) mən heç vaxt onu söymərəm. Əgər həmin üç şeydən biri mənim olsaydı, (bu,) mənə qırmızı rəngli dəvə sürüsündən daha sevimli olardı".

Müharibələrin birində Allahın Rəsulu (sallallahu əleyhi [və alihi] və səlləm) onu öz yerinə xəlifə qoyduqda Əli ona dedi: "Ey Allahın Peyğəmbəri! Məni qadın və uşaqlarların içərisində qoyub gedirsən?" Allahın Rəsulu (sallallahu əleyhi [və alihi] və səlləm) ona dedi: "Məgər razı olmazsan ki, sənin mənə olan nisbətin Harunun Musaya olan nisbəti kimi olsun, bir fərqlə ki, məndə sonra peyğəmbər yoxdur?"..." ("Səhihü-Müslim", səh.1129, hədis 2404 (32), Səudiyyə çapı).

**Birincisi:** Onun İmam Əmirəlmömininin (əleyhissəlam) münafiqlərin sözləri səbəbindən Peyğəmbərin (sallallahu əleyhi və alihi və səlləm) yanına gəlməsini və Peyğəmbərin etdiyi hərəkətdə özü üçün eyb (əksiklik) görməsini deməsi batil sözdür. İmam Əlinin (əleyhissəlam) nəzərində münafiqlərin çıxardıqları söz-söhbətlərin heç bir dəyəri yox idi. O, "Curf" məntəqəsinə məhz Allah Rəsulunu (sallallahu əleyhi və alihi və səlləm) ötrümək üçün gəlmişdi. Ağlaması isə Allah Rəsulu (sallallahu əleyhi və alihi və səlləm) ilə birgə səfər yoldaş ola bilməməsinə görə və ya Allah Rəsulu ilə birgə yürüşdə iştirak edə bilməməsinə görə idi. Buna Nəsainin öz sənədi ilə Səddən nəql etdiyi bu hədis də təsdiqləyir:

**... لما خرج رسول الله «صلى الله عليه [وآله] وسلّم» إلى تبوك خرج علي «رضي الله عنه» يشيّعه فبكى وقال: يا رسول الله أتتركني مع الخوالف؟ فقال النبي «صلى الله عليه [وآله] وسلّم»: أما ترضى أن تكون مني بمنزلة هارون من موسى إلاّ النبوة.**

"...Allah Rəsulu (sallallahu əleyhi [və alihi] və səlləm) Təbuka yola düşüdüyü zaman Əli çıxıb Allah Rəsulunu ötürməyə gəldi. Bu zaman ağlayaraq dedi: "Ey Allahın Rəsulu, məni (geridə) qalanlarla (döyüşdə iştirak etməyənlərlə) birgə saxlayırsan?" Peyğəmbər (sallallahu əleyhi [və alihi] və səlləm) buyurdu: "Məgər razı olmazsan ki, sənin mənə olan nisbətin Harunun Musaya olan nisbəti kimi olsun, bir fərqlə ki, məndən sonra peyğəmbərlik yoxdur?"."[75]

Habelə, Hakim ən-Nisapuri İbn Abbasdan belə nəql edir:

**...وخرج رسول الله «صلى الله عليه [وآله] وسلّم» في غزوة تبوك، وخرج بالناس معه، قال: فقال له علي أخرج معك؟ قال: فقال النبي «صلى الله عليه [وآله] وسلّم»: لا، فبكى علي فقال له: «أما ترضى أن تكون مني بمنزلة هارون من موسى إلاّ أنّه ليس بعدي نبي، إنّه لا ينبغي أن أذهب إلاّ وأنت خليفتي»...**

"...Allah Rəsulu (sallallahu əleyhi [və alihi] və səlləm) Təbuk qəzvəsinə[76] yollandı və camaatı da özü ilə götürdü. Bu zaman Əli ona dedi: "Mən də səninlə gəlimmi?" Dedi: "Xeyr." Bu zaman Əli ağladı. Peyğəmbər ona dedi: "Məgər razı olmazsan ki, sənin mənə olan nisbətin Harunun Musaya olan nisbəti kimi olsun, bir fərqlə ki, məndən sonra peyğəmbərlik yoxdur? Mən getdiyim təqdirdə mütləq sən mənim xəlifəm olmalısan"..."[77]

**İkincisi:** Peyğəmbər (sallallahu əleyhi və alihi və səlləm) "sənin mənə olan nisbətin Harunun Musaya olan nisbəti kimidir" sözünü İmam Əliyə yalnız bu hadisə zamanı, yəni, Təbuka getdiyi zaman İmam Əlini (əleyhissəlam) Mədinədə saxlayarkən deməmişdir, əkinsə, əhli-sünnə hədislərindən də başa düşüldüyü kimi

---

[75] "əs-Sünənul-kubra": 5/120, hədis 8432.
[76] Qəzvə: hərbi yürüş. Tərc.
[77] "Müstədrək": 3/143, hədis: 4652.

Peyğəmbər bu sözü müxtəlif yerlərdə və müxtəlif zamanlarda demişdir. Bunlara misal olaraq aşağıdakıları göstərmək olar:

1-Həzrət Peyğəmbər (sallallahu əleyhi və alihi və səlləm) möminlər anası Ümmü-Sələmə xanıma (Allah ondan razı olsun) xitab edərkən.

İbn Abbasdan (Allah ondan razı olsun) belə nəql olunur ki, Allah Rəsulu (sallallahu əleyhi və alihi və səlləm) Ümmü-Sələməyə buyurdu:

**يا أم سلمة إن علياً لحمه من لحمي، ودمه من دمي، وهو مني بمنزلة هارون من موسى غير أنه لا نبي بعدي.**

“Ey Ümmü-Sələmə, Əlinin əti mənim ətimdəndir, qanı mənim qanımdandır. Onun mənə olan nisbəti Harunun Musaya olan nisbəti kimidir. Bir fərqlə ki, məndən sonra peyğəmbər yoxdur”.[78]

2-Fatimə binti Həmzə Peyğəmbərin (sallallahu əleyhi və alihi və səlləm) hüzurunda olduğu zaman.

Kərimə binti Uqbədən belə nəql olunur:

**سمعت فاطمة بنت حمزة تقول: (كنت عند رسول الله «صلى الله عليه [وآله] وسلّم» فسمعته يقول: «علي مني بمنزلة هارون من موسى إلاّ أنّه لا نبي بعدي».**

“Fatimə binti Həmzənin belə dediyini eşitdim: “Mən Allah Rəsulunun (sallallahu əleyhi və alihi və səlləm) yanında idim. Onun belə dediyini eşitdim: Əlinin mənə olan nisbəti Harunun Musaya olan nisbəti kimidir, bir fərqlə ki, məndən sonra peyğəmbər yoxdur”.”[79]

3-Əqilin Əli (əleyhissəlam) və Cəfərlə mübahisə etdiyi gün.

Əqil ibn Əbu Talibdən belə nəql olunur:

**نازعت علياً وجعفر بن أبي طالب في شيء، فقلت والله ما أنتما بأحب إلى رسول الله «صلى الله عليه [وآله] وسلّم» مني، إن قرابتنا لواحدة، وإن أبانا لواحد وإنا أمنا فقال رسول الله «صلى الله عليه [وآله] وسلّم»: أنا أحب أسامة ابن زيد قلت إني ليس عن أسامة أسألك إنما أسألك عن نفسي، فقال: يا عقيل والله إني لأحبك لخصلتين؛ لقرابتك ولحب أبي طالب إياك، وكان أحبهم إلى أبي طالب، وأما أنت يا جعفر فإن خلقك يشبه خلقي، وأنت يا علي فأنت مني بمنزلة هارون من موسى غير إنه لا نبي بعدي.**

“Bir şey barəsində Əli və Cəfər ibn Əbu Taliblə mübahisə etdim. Dedim: “Allaha and olsun ki, siz Allah Rəsuluna (sallallahu əleyhi [və alihi] və səlləm) məndən daha sevimli deyilsiniz. Bizim qohumluğumuz birdir. Atamız birdir. Anamız birdir.” Bu zaman Allah Rəsulu (sallallahu əleyhi [və alihi] və səlləm) buyurdu: “Mən Üsamə ibn Zeydi sevirəm.” Mən dedim: “Mən səndən Üsamə barədə soruşmadım, mən səndən özüm barədə soruşdum”. Peyğəmbər dedi: “Ey

---

[78] “Tarixü-Diməşq”: 42/42, 169; “Kənzül-ummal”: 11/279, hədis: 32936.

[79] “Tarixü-Diməşq”: 42/186.

Əqil, Allaha and olsun ki, mən səni iki xüsusiyyətə görə sevirəm: qohumluğuna görə və Əbu Talibin səni sevməsinə görə.” – Əqil oğlanları içərisində Əbu Talibə ən sevimli olan idi. – “Sənə gəlincə isə ey Cəfər, sən yaradılış baxımdan mənə bənzəyirsən (yaxud: sənin əxlaqın mənim əxlaqıma bənzəyir). Sənə gəlincə isə, ey Əli, sənin mənə nisbətin Harunun Musaya olan nisbəti kimidir, bir fərqlə ki, məndən sonra peyğəmbər yoxdur”.”[80]

4-Qardaşlıq günü.

İbn Abbasdan belə nəql olunur:

**لما آخا النبي «صلى الله عليه [وآله] وسلّم» بين أصحابه، بين المهاجرين والأنصار فلم يؤاخ بين علي بن أبي طالب وبين أحد مهم خرج علي «رضي الله عنه» مغضباً حتى أتى جدولاً من الأرض، فتوسد ذراعه فسف عليه الريح، فطلبه النبي «صلى الله عليه [وآله] وسلّم» حتى وجده فوكزه برجله، فقال له: قم فما صلحت أن تكون إلاّ أبا تراب، أغضبت علي حين واخيت بين المهاجرين والأنصار ولم أواخ بينك وبين أحد منهم؟! أما ترضى أن تكون مني بمنزلة هارون من موسى ألاّ إنه ليس بعدي نبي، ألا من أحبك حف بالأمن والإيمان ومن أبغضك أماته الله ميتة الجاهلية وحوسب بعمله في الإسلام.**

“Allah Rəsulu (sallallahu əleyhi [və alihi] və səlləm) mühacir və ənsardan olan səhabələri arasında qardaşlıq bağı yaratdığı zaman Əli ibn Əbu Taliblə (radiyallahu anh) bir kəsi qardaş etmədi. Bu zaman Əli qəzəbli halda çıxıb kiçik su arxı olan bir yerə getdi. Başını əlinin altına qoyub uzandı. Bu zaman külək onun üzərinə toz-torpaq saldı. Peyğəmbər (sallallahu əleyhi [və alihi] və səlləm) onu axtarmağa başladı və onu tapdı. Ayağı ilə ona vurub dedi: “Qalx. Sən ancaq “əbu turab” (torpaq atası) ola bilərsən. Mühacir və ənsarı bir-birinə qardaş edib səni onlardan biri ilə qardaş etmədiyim zaman mənə qəzəbləndinmi? Məgər razı olmazsan ki, sənin mənə olan nisbətin Harunun Musaya olan nisbəti kimi olsun, bir fərqlə ki, məndən sonra peyğəmbər yoxdur? Agah ol, kim səni sevsə, asayiş və imanla əhatələnər. Kim də sənə nifrət etsə, Allah onu cahiliyyət ölümü ilə öldürər, belə bir şəxs islamda (müsəlman olduğu zamanda) etdiyi əmələ görə hesab-kitab olunar”.”[81]

5-Peyğəmbər (sallallahu əleyhi və alihi və səlləm) Əsma binti Ümeysə xitab edərkən.

**سمعت رسول الله «صلى الله عليه [وآله] وسلّم» يقول: يا علي أنت مني بمنزلة هارون من موسى إلاّ انه ليس بعدي نبي.**

---

[80] “Tarixü-Diməşq”: 41/17-18.

[81] “əl-Mucəmul-kəbir”: 11/75, hədis: 11091.

“Əsmadan belə nəql olunur: “Allah Rəsulunun (sallallahu əleyhi [və alihi] və səlləm) belə buyurduğunu eşitdim: “Ey Əli, sənin mənə olan nisbətin Harunun Musaya olan nisbəti kimidir, bir fərqlə ki, məndən sonra peyğəmbər yoxdur”.”[82]

Kimsə deyə bilər ki, Əsma bu sözü Curfda – Peyğəmbər Təbuka səfərə çıxdığı zaman bu sözü Əliyə deyərkən eşitmişdir. Cavabında deyərik ki, Əsmanın bu sözü Curfda eşitməsi mümkünsüzdür. Çünki, Təbuk qəzvəsi Məkkənin fəthindən sonra baş vermişdir. Məkkənini fəthindən sonra isə Peyğəmbər (sallallahu əleyhi və alihi və səlləm) heç bir qadına qoşunla birgə döyüşlərə və qəzvələrə çıxmağa icazə verməmişdir. Əlbaninin “Silsilətul-əhadisis-sahihə” kitabında səhih hesab etdiyi bir hədisdə Səid ibn Cübeyrdən belə nəql edilir:

**عن سعيد بن عمرو عن أم كبشة - امرأة من قضاعة- أنها استأذنت النبي أن تغزو معه، فقال: لا. فقالت: يا رسول الله! إني أداوي الجريح، وأقوم على المريض قالت: فقال رسول الله: اجلسي لا يتحدث الناس أن محمداً يغزو بامرأة.**

“Qudaə qəbiləsindən olan Ümmü-Kəbşə adlı bir qadın Peyğəmbərlə birgə qəzvədə iştirak etmək üçün o Həzrətdən izin istədi. Peyğəmbər: “xeyr (olmaz)”, – dedi. Ümmü-Kəbşə dedi: “Ey Allahın Rəsulu! Mən yaralıları müalicə edərəm, xəstələrin başının üstündə duraram.” Allah Rəsulu buyurdu: “Otur (evində). Camaat “Muhəmməd qadınla qəzvə edir”, - deməsin”.”[83]

İbn Həcər bu rəvayətə şərh verərək deyir:

**ويمكن الجمع بين هذا وبين ما تقدم في ترجمة أم سنان الأسلمي، أن هذا ناسخ لذاك لأن ذلك كان بخيبر وقد وقع قبله بأحد كما في الصحيح من حديث البراء بن عازب وكان هذا بعد الفتح.**

“Bu hədislə Ümmü-Sinan əl-Əsləminin tərcümeyi-halında qeyd olunan hədis arasında belə uyğunluq yaratmaq olar ki, bu hədis o hədisi nəsx edib qüvvədən salmışdır. Çünki, o hadisə Xeybərdə baş vermişdi. Ondan qabaq da – Bəra ibn Azibdən nəql olunan səhih hədisdə də bildirildiyi kimi – Uhudda belə bir şey baş vermişdi (yəni, qadınlar qoşunla birgə hərəkət etmiş, yaralıları sağaltmış, xəstələrə nəzarət etmişdilər –müt.). Bu hadisə (Ümmü-Kəbşənin hadisəsi) isə Fəthdən sonra baş vermişdir.”[84]

6-Peyğəmbər (sallallahu əleyhi və alihi və səlləm) məscidə daxil olub bəzi şəxslərin məsciddə yatdığını gördüyü zaman.

Cabir ibn Abdullah əl-Ənsaridən (Allah ondan razı olsun) belə nəql olunur:

---

[82] “Müsnədü-Əhməd”: 18/558, hədis: 27340. Kitabın mühəqqiqi Həmzə Əhməd əz-Zeyn demişdir: “**İsnadı səhihdir**”.

[83] “Silsilətul-əhadisis-sahihə”: 6/903, hədis: 2887.

[84] “əl-İsabə”: 8/283, Ümmü-Kəbşə əl-Qudaiyyənin tərcümeyi-halı.

جاء رسول الله «صلى الله عليه [وآله] وسلّم» ونحن مضطجعون في المسجد، فضربنا بعسيب في يده، فقال: أترقدون في المسجد؟! إنه لا يرقد فيه، فاجفلنا وأجفل علي، فقال رسول الله «صلى الله عليه [وآله] وسلّم»: تعال يا علي، إنه يحل لك في المسجد ما يحل لي ألا ترضى أن تكون مني بمنزلة هارون من موسى إلاّ النبوة...

"Biz məsciddə uzandığımız zaman Allah Rəsulu (sallallahu əleyhi [və alihi] və səlləm) məscidə gəldi. Əlindəki çubuqla bizə vurub dedi: "Məsciddə yatırsınız?! Məsciddə yatmaq olmaz." Bu zaman biz oyandıq, Əli də oyandı. Allah Rəsulu (sallallahu əleyhi [və alihi] və səlləm) buyurdu: "Gəl bura, ya Əli. Mənə məsciddə halal olan şey sənə də halaldır. Məgər razı olmasanmı ki, sənin mənə olan nisbətin Harunun Musaya olan nisbəti kimi olsun, bir fərqlə ki, məndən sonra peyğəmbər yoxdur?..."'[85]

7-Zeyd ibn Harisə, Əli (əleyhissəlam) və Cəfər həzrət Həmzənin qızı barədə çəkişdiyi zaman. O zaman onların hər biri həzrət Həmzənin qızının baxımını öz üzərinə götürmək üçün mübahisə edirdilər. Peyğəmbər (sallallahu əleyhi və alihi və səlləm) qızı Cəfər ibn Əbu Talibə verdi. Çünki, Cəfərin yoldaşı qızın xalası idi. Bundan sonra Peyğəmbər (sallallahu əleyhi və alihi və səlləm) Zeyd və Cəfər üçün fəzilət zikr edir, Əli (əleyhissəlam)-a çatınca isə buyurur:

...وأمّا أنت يا علي «فأنت مني بمنزلة هارون من موسى إلاّ النبوّة

"...Sənə gəlincə isə ey Əli, sənin mənə nisbətin Harunun Musaya olan nisbəti kimidir, bir fərqlə ki, məndən sonra peyğəmbər yoxdur."[86]

8-Əbu Bəkr, Ömər, Əbu Übeydə və bir dəstə səhabə Peyğəmbərin (sallallahu əleyhi və alihi və səlləm) hüzurunda olduğu zaman.

Həmin vaxt Peyğəmbər (sallallahu əleyhi və alihi və səlləm) əlini İmam Əlinin çiyninə qoyub deyir:

«يا علي أنت أول المؤمنين إيماناً، وأول المسلمين إسلاماً، أنت مني بمنزلة هارون من موسى».

"Ey Əli, möminlər içərisində ilk iman gətirən sənsən, müsəlmanlar içərisində də ilk müsəlman olan sənsən. Sənin mənə nisbətin Harunun Musaya olan nisbəti kimdir".[87]

Bütün bunlar ona dəlalət edir ki, mənzilət hədisi ümumi məzmunludur və İmam Əlinin təkcə Təbuk səfəri zamanında deyil, hər bir zamanda Peyğəmbərin xəlifəsi olduğunu çatdırır.

**Üçüncüsü:** hətta fərz etsək ki, Peyğəmbər (sallallahu əleyhi və alihi və səlləm) mənzilət hədisini yalnızca bir yerdə deyib, yenə də Osman əl-Xəmisə bir

---

[85] "Tarixü-Diməşq": 42/140.

[86] "Tarixü-Diməşq": 42/170.

[87] "Tarixü-Diməşq": 42/167; "Simtun-nucumil-avali": 3/27; "Zəxairul-uqba": səh.58.

faydası dəymir. Çünki, hədis ümumidir və onun varid olma yeri hədisi ümumilikdən çıxarmır. Çünki, üsul elmində də sübuta yetirildiyi kimi, “**varid olma yeri (və zamanı) varid olan şeyi xüsusiləşdirmir**” (ərəb. “əl-maurid lə yuxassisul-varid”). “Görəsən, cənabət halında olan bir şəxs ayətül-kürsiyə toxunduğu zaman sən ona “hədəs halında olan şəxs Quran ayələrinə toxuna bilməz”, - desən, bu söz sırf varid olduğu yerə[88] xas olacaq, yoxsa ümumi olub bütün Quran ayələrinə və bütün hədəs halında olan şəxslərə şamil olacaq? Zənn etmirəm ki, kimsə bu sözün yalnızca ayətül-kürsiyə və yalnızca cənabət halında olan şəxsə xas olduğunu başa düşsün. Əgər bir həkim bir xəstənin xurma yediyini görsə və bu zaman onu şirin şey yeməkdən çəkindirsə, görəsən ürfün[89] nəzərində bu iş sırf bu sözün varid olduğu yerə aid olacaq, yoxsa ümumi olub bütün növ şirniyyatlara şamil olacaq? Allaha and olsun ki, yalnız üsuldan bixəbər olan, dilçilik elminin qaydalarından, ürfü anlayışdan və bizim yaşadığımız aləmdən tamamilə uzaq olan bir şəxsdən başqa heç kəsin bu sözün sırf varid olduğu yerə (xurmaya) aid olduğunu deyə biləcəyini düşünmürəm. Mənzilət hədisindəki ümumiliyi Təbuk qəzvəsi ilə xüsusiləşdirən şəxslər də bax belədirlər, onlarla bu şəxslər arasında heç bir fərq yoxdur”.[90]

Daha sonra Osman əl-Xəmis deyir:

**الوجه الرابع: إن النبي «صلى الله عليه [وآله] وسلّم» لم يبق علياً خليفة على المدينة في هذه الغزوة، بل استخلفه على أهل بيته خاصة، كما يذكر أهل السير كابن جرير وابن كثير وغيرهما أن الوالي على المدينة في تلك الغزوة محمد بن مسلمة وليس علي بن أبي طالب.**

“Dördüncü: Peyğəmbər (*ona və ailəsinə Allahın salavatı və salamı olsun*) bu döyüşə gedərkən Əlini Mədinə şəhərinə xəlifə təyin etməmişdi. Onu yalnız əhli-beyti (*ailəsi*) üzərində qoyub getmişdi. İbn Cərir ət-Təbəri, İbn Kəsir və başqa tarix alimləri deyirlər ki, həmin döyüşdə Mədinə şəhərinin valiliyi Əli ibn Əbu Talibə deyil, Muhəmməd ibn Məsləməyə tapşırılmışdı.”[91]

**Deyirəm:** bəli, müxaliflərdən bəziləri belə iddia edib ki, Peyğəmbər (sallallahu əleyhi və alihi və səlləm) Təbuka yola düşərkən Mədinəyə Muhəmməd ibn Məsləməni xəlifə qoyub. Bəzisi də iddia edib ki, Siba ibn Urfutanı qoyub. Bəziləri də deyib ki, İbn Ümmü-Məktumu qoyub. Lakin, bu deyilənlərin heç biri səhih sənədlə sübuta yetməyib. Əksinə, sübuta yetən budur ki, Allah Rəsulu (sallallahu əleyhi və alihi və səlləm) məhz Əli ibn Əbu Talibi (əleyhissəlam)

---

[88] Ayətül-kürsiyə və cənabət halında olan şəxsə. (Tərc.)

[89] Ürf: camaat, ümumi kütlə. (Tərc.)

[90] “əl-Müraciat”: səh.205.

[91] “Tarixdən bir dövr”: səh.366-367.

Mədinəyə xəlifə qoyub. Əbdür-Rəzzaqın “Müsənnəf” kitabında nəql etdiyi səhih hədisdə deyilir:

**عن معمر، عن قتادة وعلي بن زيد بن جدعان، عن ابن المسيب قال: حدثني ابن لسعد ابن أبي وقاص حديثاً عن أبيه قال: فدخلت على سعد فقلت حديثاً عنك حدثته حين استخلف النبي «صلى الله عليه [وآله] وسلّم» عليّاً على المدينة، قال: فغضب سعد! فقال: من حدثك به؟ فكرهت أن أخبر بابنه فيغضب عليه، ثم قال: إن رسول الله «صلى الله عليه [وآله] وسلّم» خرج في غزوة تبوك فاستخلف علياً على المدينة، فقال علي يا رسول الله ما كنت أحب أن تخرج مخرجاً إلاّ وأنا معك فيه، قال: فقال له النبي «صلى الله عليه [وآله] وسلّم»: أما ترضى أن تكون مني بمنزلة هارون من موسى غير أنه لا نبي بعدي.**

“Məmar, Qətadə və Əli ibn Zeyd ibn Cudandan, onlar da İbn əl-Müseyyibdən İbn əl-Müseyyibin belə dediyini nəql edirlər: mənə Səd ibn Əbu Vəqqasın oğlanlarından biri atasından bir hədis nəql etdi. Mən Sədin yanına gedib dedim:

“Bizə Peyğəmbərin (sallallahu əleyhi [və alihi] və səlləm) Əlini *Mədinə üzərində xəlifə qoyması* ilə bağlı sənin nəql etdiyin bir hədisi nəql etdilər.” Bu zaman Səd qəzəbləndi və dedi: “Sənə bunu kim nəql edib?” Mən oğluna qəzəblənər deyə oğlunun adını vermək istəmədim. Sonra Səd dedi: “Allah Rəsulu (sallallahu əleyhi [və alihi] və səlləm) Təbuk qəzvəsinə yola düşdü. Bu zaman Əlini *Mədinə üzərində xəlifə qoydu*. Əli ona dedi: “Ey Allahın Rəsulu, mən daim istəmişəm ki, sən bir yerə (səfərə və ya qəzvəyə) çıxanda mən də səninlə birgə olum.” Peyğəmbər ona dedi: “Məgər razı olmazsanmı ki, sənin mənə olan nisbətin Harunun Musaya olan nisbəti kimi olsun, bir fərqlə ki, məndən sonra peyğəmbər yoxdur?””[92]

Əs-Salehi əş-Şami özünün “Subulul-huda vər-rəşad” kitabında Peyğəmbərin (sallallahu əleyhi və alihi və səlləm) Təbuka gedərkən kimi Mədinədə xəlifə qoyması barədə danışarkən deyir:

**... وقيل: علي بن أبي طالب، قال أبو عمرو وتبعه ابن دحية: وهو الأثبت، قلت: ورواه عبد الرّزاق في المصنف بسند صحيح عن سعد ابن أبي وقاص «رضي الله عنه»، ولفظه أن رسول الله «صلى الله عليه [وآله] وسلّم» لمّا خرج إلى تبوك استخلف على المدينة علي بن أبي طالب.**

“...Demişlər ki: Əli ibn Əbi Talibi (qoymuşdur). Əbu Əmr demişdir ki, “ən dəqiq olan məhz budur”. İbn Dihyə də bu sözü demişdir.

Deyirəm: bunu Əbdür-Rəzzaq “əl-Müsənnəf”də səhih sənədlə Səd ibn Əbu Vəqqasdan nəql etmişdir. Sədin xəbərinin məzmunu belədir ki, Allah Rəsulu (sallallahu əleyhi [və alihi] və səlləm) Əli ibn Əbi Talibi Mədinədə xəlifə qoydu”.[93]

Asimi deyir:

---

[92] “Müsənnəf” (Əbdür-Rəzzaq): 5/279, hədis: 21717. Bu hədis Əbdür-Rəzzaq əs-Sənaninin “əl-Müsənnəf” kitabının ardına əlavə olunan Məmər ibn Raşidin “əl-Cami” əsərində də nəql edilmişdir: 11/226, hədis: 20390.

[93] “Subulul-huda vər-rəşad”: 5/441.

وقال الحافظ زين الدين العراقي في ترجمة علي ابن أبي طالب من شرح التقريب: لم يتخلف عن المشاهد إلاّ في تبوك، فإنّ النبي «صلى الله عليه [وآله] وسلّم» خلفه على المدينة وعلى عياله، وقال له يومئذ: أنت مني بمنزلة هارون من موسى إلاّ أنّه لا نبي بعدي، وهو في الصحيحين من حديث سعد ابن أبي وقاص، ورجحه ابن عبد البر، وقيل: استخلف سباع بن عرفطة.

"Hafiz Zeynuddin əl-İraqi "Şərhut-təqrib" kitabında Əli ibn Əbu Talibin tərcümeyi-halında demişdir ki: Təbukdan başqa heç bir döyüşdən geri qalmamışdır. Təbuk qəzvəsi zamanı Peyğəmbər onu *Mədinə üzərində və öz əhl-əyalı üzərində* xəlifə təyin etmişdir. Həmin gün ona demişdir: "Sənin mənə olan nisbətin Harunun Musaya olan nisbəti kimidir, bir fərqlə ki, məndən sonra peyğəmbər yoxdur". Bu söz "səhiheyn"də Səd ibn Əbu Vəqqas yolu ilə nəql olunmuşdur. İbn Əbdül-Bərr də bunu üstün nəzər hesab etmişdir. Həmçinin demişlər ki, Siba ibn Urfutanı xəlifə qoymuşdur".[94]

Əli ibn Muhəmməd ibn Məsud əl-Xuzai deyir:

ولم يتخلف عن مشهد شهده رسول الله «صلى الله عليه [وآله] وسلّم» مذ قدم المدينة إلاّ تبوك، فإنّه خلفه رسول الله «صلى الله عليه [وآله] وسلّم» على المدينة وعلى عياله وقال له: أنت مني بمنزلة هارون من موسى إلاّ أنه لا نبي بعدي...

"Əli Mədinəyə gəldikdən sonra bütün döyüşlərdə Allah Rəsulu (sallallahu əleyhi [və alihi] və səlləm) ilə birgə iştirak etmişdir, bircə Təbukdan başqa. Həmin vaxt Peyğəmbər (sallallahu əleyhi [və alihi] və səlləm) onu *Mədinə üzərində və öz əhl-əyalı üzərində* xəlifə təyin edərək demişdir: "Sənin mənə olan nisbətin Harunun Musaya olan nisbəti kimidir, bir fərqlə ki, məndən sonra peyğəmbər yoxdur"..."[95]

Yusif ibn Əbdül-Bərr deyir:

(... وخرج رسول الله «صلى الله عليه [وآله] وسلّم» وضرب عسكره على باب المدينة، واستعمل عليها محمد بن مسلمة وقيل سباع بن عرفطة، وقيل بل خلف عليها علي بن أبي طالب «رضي الله عنه» وهو الأثبت أن رسول الله «صلى الله عليه [وآله] وسلّم» خلف علياً في غزوة تبوك، فقال المنافقون استثقله فذكر ذلك علي رضوان الله تعالى عليه لرسول الله «صلى الله عليه [وآله] وسلّم» في خبر سعد فقال: كذبوا إنما خلفتك لما تركت ورائي فارجع فاخلفني في أهلي وأهلك فأنت مني بمنزلة هارون من موسى إلاّ أنّه لا نبي بعدي، والآثار بذلك متواترة صحاح قد ذكرت كثيراً منها في غير هذا الموقع.

"Allah Rəsulu (sallallahu əleyhi [və alihi] və səlləm) Təbuka tərəf yola düşdü və qoşununu Mədinənin qapısında saxladı. Muhəmməd ibn Məsləməni Mədinəyə xəlifə qoydu. Həmçinin demişlər ki, Siba ibn Urfutanı xəlifə qoydu. Həmçinin, demişlər ki, xeyr, Əli ibn Əbu Talibi (radiyallahu anh) xəlifə qoydu. *Ən dəqiq olan da məhz budur*: Allah Rəsulu (sallallahu əleyhi [və alihi] və səlləm) Təbuk qəzvəsi

94 "Simtun-nucumil-avali": 2/292.
95 "Təxricud-dəlalatis-səm`iyyə": səh.274.

zamanı Əlini xəlifə qoymuşdur. Bu vaxt münafiqlər dedilər ki, "(Muhəmməd) Əlini əlavə yük hesab etdi". Səddən nəql olunan xəbərdə deyilir ki, Əli bu sözü Allah Rəsuluna (sallallahu əleyhi [və alihi] və səlləm) xəbər verdikdə Peyğəmbər buyurdu: "Yalan deyiblər. Mən səni qoyub getdiyim şeylərə görə xəlifə qoydum. Ailəm və ailən içində mənim xəlifəm ol. Sənin mənə olan nisbətin Harunun Musaya olan nisbəti kimidir, bir fərqlə ki, məndən sonra peyğəmbər yoxdur." Bu barədə nəql olunan xəbərlər mütəvatir və səhihdirlər. Mən başqa yerdə onlardan çoxlu sayda nəql etmişəm."[96]

İbn Həcər deyir:

**وشهد مع النبي سائر المشاهد إلاّ تبوك، إنه استخلفه على المدينة وقال له حينئذ: «أنت مني بمنزلة هارون من موسى»...**

"Əli Peyğəmbərlə birgə bütün döyüş və yürüşlərdə iştirak etmişdir, yalnız Təbukdan başqa. Həmin vaxt Peyğəmbər onu *Mədinə üzərində* xəlifə qoymuş və demişdir: "Sənin mənə olan nisbətin Harunun Musaya olan nisbəti kimidir"..."[97]

Zeyni Dehlan deyir:

**واستخلف «صلى الله عليه [وآله] وسلّم» على المدينة علي بن أبي طالب «رضي الله عنه»، وخلفه أيضاً على أهله وعياله...**

"Peyğəmbər (sallallahu əleyhi [və alihi] və səlləm) *Mədinə üzərində* Əli ibn Əbu Talibi (Allah ondan razı olsun) xəlifə qoydu. Onun həmçinin əhl-əyalı üzərində də xəlifə qoydu..."[98]

İbn Həcər əl-Əsqəlani deyir:

**قال ابن عبد البر: وقد أجمعوا أنّه أول من صلى القبلتين، وهاجر وشهد بدراً وأحداً وسائر المشاهد، وأنه أبلى ببدر وأحد والخندق وخيبر البلاء العظيم، وكان لواء رسول الله «صلى الله عليه [وآله] وسلّم» بيده في المدينة وقال له: أنت مني بمنزلة هارون من موسى إلاّ أنه لا نبي بعدي.**

"İbn Əbdül-Bərr demişdir: alimlər icma etmişlər ki, Əli iki qibləyə namaz qılan şəxsdir. Hicrət etmiş, Bədrdə, Uhudda və digər döyüşlərdə iştirak etmişdir. Bədrdə, Uhudda, Xəndəkdə və Xeybərdə çox böyük şücaət göstərmişdir. Bir çox yerlədə Allah Rəsulunun (sallallahu əleyhi [və alihi] və səlləm) bayrağı onun əlində olmuşdur. Təkcə Təbukda iştirak etməmişdir. Allah Rəsulu (sallallahu əleyhi [və alihi] və səlləm) onu *Mədinə üzərində* xəlifə qoyaraq demişdir: "Sənin mənə olan nisbətin Harunun Musaya olan nisbəti kimidir, bir fərqlə ki, məndən sonra peyğəmbər yoxdur"."[99]

---

[96] "əd-Durər fixtisaril-məğazi vəs-siyər": səh.239.

[97] "əs-Səvaiqul-muhriqa": 2/351.

[98] "əs-Sirətun-nəbəviyyə": 2/126.

[99] "Təhzibut-təhzib": 7/296.

Mizzi “Təhzibul-kəmal” kitabında deyir:

**خلفه رسول الله «صلى الله عليه [وآله] وسلّم» على المدينة وعلى عياله بعده في غزوة تبوك، وقال له: «أنت مني بمنزلة هارون من موسى إلاّ أنه لا نبي بعدي»...**

“Təbuk qəzvəsi zamanı Allah Rəsulu (sallallahu əleyhi [və alihi] və səlləm) Əlini *Mədinə üzərində* və əhl-əyalı üzərində xəlifə qoyaraq demişdir: “Sənin mənə olan nisbətin Harunun Musaya olan nisbəti kimidir”...”[100]

İbn Əbdül-Bərr “əl-İstiab” kitabında deyir:

**ولم يتخلف عن مشهد شهده رسول الله «صلى الله عليه [وآله] وسلّم» مذ قدم المدينة إلاّ تبوك، فإنه خلفه رسول الله «صلى الله عليه [وآله] وسلّم» على المدينة وعلى عياله بعده في غزوة تبوك وقال له: «أنت مني بمنزلة هارون من موسى إلاّ أنه لا نبي بعدي».**

“Əli Mədinəyə gəldiyindən bəri Allah Rəsulunun (sallallahu əleyhi [və alihi] və səlləm) iştirak etdiyi döyüşlərin heç birindən geri qalmamışdır, bircə Təbukda iştirak etməmişdir. Təbuk qəzvəsi zamanı Allah Rəsulu (sallallahu əleyhi [və alihi] və səlləm) onu *Mədinə üzərində* və özündən sonra əhl-əyalı üzərində xəlifə qoyaraq demişdir: “Sənin mənə olan nisbətin Harunun Musaya olan nisbəti kimidir”..”[101]

Muhəmməd ibn İsmayıl əs-Sənani “Subulus-səlam” kitabında deyir:

**...شهد المشاهد كلها إلاّ تبوك فأقامه «صلى الله عليه [وآله] وسلّم» في المدينة خليفة عنه وقال: «أما ترضى أن تكون مني بمنزلة هارون من موسى».**

“Əli Təbukdan başqa bütün döyüşlərdə iştirak etmişdir. Təbuk qəzvəsi zamanı Allah Rəsulu (sallallahu əleyhi [və alihi] və səlləm) onu *Mədinədə öz xəlifəsi qoymuş* və demişdir...”[102]

İbn Kəsirin “ən-Bidayə vən-nihayə” kitabında deyilir:

**ولما خرج رسول الله «صلى الله عليه [وآله] وسلّم» إلى تبوك واستخلفه على المدينة قال له يا رسول الله أتخلفني مع النساء والصبيان؟ فقال: «ألا ترضى أن تكون مني بمنزلة هارون من موسى غير أنّه لا نبي بعدي».**

“Allah Rəsulu (sallallahu əleyhi [və alihi] və səlləm) Təbuka yola düşüb Əlini *Mədinə üzərində* xəlifə qoyduğunda, Əli ona dedi: “Ey Allahın Rəsulu, məni qadınlar və uşaqlarla saxlayırsan?” Peyğəmbər buyurdu: “Məgər razı olmazsan ki,...”.”[103]

---

[100] “Təhzibul-kəmal”: 20/483.
[101] “əl-İstiab”: 3/1097.
[102] “Subulus-səlam”: 1/44.
[103] “əl-Bidayə vən-nihayə”: 7/225.

Bax, ey insaflı oxucu! Osman əl-Xəmisin necə öz həva-həvsinə tabe bir şəxs olduğunu gör. Hədis onun həva-həvəsinə uyğun gəlmədikdə, onun sənədinə və ya mətninə eyb tutmağa çalışır, elə ki həva-həvəsinə uyğun gəlir, zəif, uydurma, əsassız və yekdilliklə qəbul olunanın ziddinə olsa belə onu öz iddiasına dəlil gətirir, onu hamı tərəfindən qəbul olunan bir hədis kimi təqdim edir.

Sonra Osman əl-Xəmis deyir:

**الخامس: كيف يمكن لنا أن نفهم أن هذا الترك من النبي «صلى الله عليه [وآله] وسلّم» لعلي منقبة له، وأنّه لا ينبغي أن يخرج النبي «صلى الله عليه [وآله] وسلّم» إلاّ وعلي خليفته، ثم نرى أنّ علياً يخرج باكياً خلف النبي «صلى الله عليه [وآله] وسلّم» أفهمنا ولم يفهم علي «رضي الله عنه»؟ فلو كان ترك النبي «صلى الله عليه [وآله] وسلّم» لعلي منقبة بحد ذاتها لما خرج خلفه ولعلم أنّ النبي «صلى الله عليه [وآله] وسلّم» لا يخرج إلاّ وهو خليفته من بعده.**

“Beşinci: biz Peyğəmbərin (sallallahu əleyhi [və alihi] və səlləm) Əlini Mədinədə qoymasını Əli üçün necə üstünlük və fəzilət hesab edə bilərik və (necə deyə bilərik ki) Peyğəmbər çıxıb getdiyi zaman yalnız Əli onun xəlifəsi olmalıdır? Bir halda ki, Əlinin ağlaya-ağlaya Peyğəmbərin arxasınca gəldiyini görürük? Biz başa düşdük, amma Əli (Allah ondan razı olsun) başa düşmədi? Əgər Peyğəmbərin (sallallahu əleyhi [və alihi] və səlləm) Əlini Mədinədə qoyması öz-özlüyündə üstünlük və fəzilət olsaydı, Əli Peyğəmbərin arxasınca gəlməzdi. Bilərdi ki, nə vaxt Peyğəmbər çıxıb getsə, o getdikdən sonra onun xəlifəsi özü olur.”[104]

**Deyirəm:**

**Birinci:** Şiələr İmam Əlinin (əleyhissəlam) Peyğəmbərdən (sallallahu əleyhi və alihi və səlləm) sonra ümmət üzərində xəlifə və imam olmasına dəlil kimi təkcə Peyğəmbərin (sallallahu əleyhi və alihi və səlləm) Əlini Təbuk yürüşü zamanı Mədinədə xəlifə qoymasını dəlil gətirmirlər, onlar əsas olaraq Peyğəmbərin həzrət Əliyə buyurduğu “*sənin mənə olan nisbətin Harunun Musaya olan nisbəti kimidir, bir fərqlə ki, məndən sonra peyğəmbər yoxdur*” – sözünü dəlil gətirirlər. Belə ki, burada həzrət Peyğəmbər (sallallahu əleyhi və alihi və səlləm) həzrət Musaya nisbətdə həzrət Harunun sahib olduğu bütün məqamları İmam Əli üçün sabit etmişdir. Bu məqamlardan biri də xilafətdir. Quranın da açıqca bildirdiyi kimi Harun (əleyhissəlam) sağ olduğu müddətdə həzrət Musanın (əleyhissəlam) xəlifəsi idi. Əgər həzrət Harun həzrət Musadan sonra həyatda qalsaydı, o zaman xilafət ondan başqasına keçməyəcəkdi. Əli (əleyhissəlam) da həzrət Muhəmməddən (sallallahu əleyhi və alihi və səlləm) sonra həyatda qalmışdır. Buna əsasən, Peyğəmbərin ümmət üzərindəki xəlifəsi Əli olur.

**İkinci:** “Mən gedərsəm, sən mənim xəlifəm olmalısan” sözünü nəql edənlər şiələr yox, sünnilərdirlər. Bu cümlə əhli-sünnə yanında səhih olan bir hədisdə gəlmişdir. Biz daha öncə bu hədisə işarə etdik və həmin hədisin gəldiyi bir sıra mənbələrin adlarını qeyd etdik, bu cümləni səhih hesab edən alimlərin adlarını da göstərdik. Bəyan etdik ki, Təbuka gedərkən Peyğəmbərin (sallallahu əleyhi və alihi

---

[104] “Tarixdən bir dövr”: səh.367.

və səlləm) İmam Əlini (əleyhissəlam) Mədinədə saxlaması onun üçün fəzilət və üstünlük hesab olunur. Çünki, o həzrətin Mədinədə var olması münafiqlərdə qorxu yaradırdı, onların islama və Mədinədəki müsəlmanlara qarşı pis iş görmələrinə mane olurdu və onları hiylə, plan və tələlərini boşa çıxarırdı. İmam Əlinin (əleyhissəlam) ağlaması isə başqa şeyə görə deyil, məhz Peyğəmbərə (sallallahu əleyhi və alihi və səlləm) bu səfərdə yoldaş ola bilməməsinə, bu qəzvədə iştirak edə bilməməsinə görə idi.

Sonra Osman əl-Xəmis deyir:

**الوجه السادس: إن النبي «صلى الله عليه [وآله] وسلّم» استخلف غير علي بعد، فإنّه بعد غزوة تبوك خرج إلى حجة الوداع وكان علي في اليمن ولم يترك عليّاً في المدينة.**

“Altıncı: Peyğəmbər (*ona və ailəsinə Allahın salavatı və salamı olsun*) bu hadisədən sonra Əlidən başqasını öz yerinə şəhər valisi təyin etmişdi. Belə ki, Təbuk döyüşündən sonra Peyğəmbər (*ona və ailəsinə Allahın salavatı və salamı olsun*) vida həccinə yola düşdü. Həmin vaxt Əli (*Allah ondan razı olsun*) Yəməndə idi və Peyğəmbər onu Mədinədə saxlamamışdı.”[105]

**Deyirəm:** onun qeyd etdiyi bu “dəlil” də şiələrin mənzilət hədisini İmam Əlinin (əleyhissəlam) Peyğəmbərdən (sallallahu əleyhi və alihi və səlləm) sonra ümmət üzərində xəlifə olmasına dəlil gətirmələrini batil etmir. Çünki, daha öncə də qeyd etdiyimiz kimi şiələr İmam Əlinin imamətinə və xilafətinə dəlil kimi təkcə Peyğəmbərin Təbuka gedərkən onu öz yerində xəlifə qoymasını gətirmirlər, onların dəlilləri məhz Peyğəmbərin (sallallahu əleyhi və alihi və səlləm) həzrət Əliyə buyurduğu “*sənin mənə olan nisbətin Harunun Musaya olan nisbəti kimidir, bir fərqlə ki, məndən sonra peyğəmbər yoxdur*” – sözüdür.

Peyğəmbər (sallallahu əleyhi və alihi və səlləm) Təbuka yollanarkən İmam Əlini (əleyhissəlam) Mədinə üzərində ona görə xəlifə qoydu ki, həmin vaxtda Mədinə üzərində böyük imana sahib, vəziyyətə nəzarət etməyi bacaran, işləri təcrübə və hikmətlə idarə edəcək güclü və qüvvəli bir şəxsin hakim olmasına ehtiyac duyulurdu. Peyğəmbər (sallallahu əleyhi və alihi və səlləm) bu iş üçün yalnız Əlini (əleyhissəlam) uyğun gördü. Onun Mədinədə xəlifə saxlanılması onun Peyğəmbərlə birgə olmasından daha mühüm idi. Mədinənin vəziyyəti belə bir şəxsiyyətin orada qalmasını gərəkli etmədiyi zaman, Peyğəmbər (sallallahu əleyhi və alihi və səlləm) Əlini orada xəlifə qoymamışdır. Əksinə, Əlidən (əleyhissəlam) daha az bacarığa və gücə malik şəxsləri xəlifə qoymuşdur. Lakin, Osman əl-Xəmis bunu haradan başa düşə.

105 “Tarixdən bir dövr”: səh.367.

Sonra Osman əl-Xəmis deyir:

**أما تشبيه النبي «صلى الله عليه [وآله] وسلّم» علي بهارون فنقول إن النبي «صلى الله عليه [وآله] وسلّم» شبّه أبا بكر وعمر بأعظم من هارون ففي غزوة بدر، لما كانت قضية الأسرى، واستشار النبي «صلى الله عليه [وآله] وسلّم» أبا بكر، فرأى أن يعفو عنهم وأن يفاديهم قومهم، ورأى عمر أن يقتلهم، فقال النبي «صلى الله عليه [وآله] وسلّم» لأبي بكر: إن مثلك كمثل إبراهيم يوم قال: {رَبِّ إِنَّهُنَّ أَضْلَلْنَ كَثِيرًا مِنَ النَّاسِ فَمَنْ تَبِعَنِي فَإِنَّهُ مِنِّي وَمَنْ عَصَانِي فَإِنَّكَ غَفُورٌ رَحِيمٌ}، ومثلك كمثل عيسى إذ قال: {إِنْ تُعَذِّبْهُمْ فَإِنَّهُمْ عِبَادُكَ وَإِنْ تَغْفِرْ لَهُمْ فَإِنَّكَ أَنْتَ الْعَزِيزُ الْحَكِيمُ} ثم التفت إلى عمر فقال: يا عمر إن مثلك مثل نوح لما قال: {وَقَالَ نُوحٌ رَبِّ لَا تَذَرْ عَلَى الْأَرْضِ مِنَ الْكَافِرِينَ دَيَّارًا}، ومثلك كمثل موسى لما قال: {وَقَالَ مُوسَى رَبَّنَا إِنَّكَ آتَيْتَ فِرْعَوْنَ وَمَلَأَهُ زِينَةً وَأَمْوَالًا فِي الْحَيَاةِ الدُّنْيَا رَبَّنَا لِيُضِلُّوا عَنْ سَبِيلِكَ رَبَّنَا اطْمِسْ عَلَى أَمْوَالِهِمْ وَاشْدُدْ عَلَى قُلُوبِهِمْ فَلَا يُؤْمِنُوا حَتَّى يَرَوُا الْعَذَابَ الْأَلِيمَ} فشبه أبا بكر بإبراهيم وعيسى، وشبه عمر بنوح وموسى، وأولئك من أولي العزم وهم خير البشر بعد رسول الله «صلى الله عليه [وآله] وسلّم» وهم أفضل من هارون بدرجات صلوات الله وسلامه عليهم أجمعين، فليس تشبيه النبي لعلي بهارون بأفضل أو بأعظم من تشبيه النبي «صلى الله عليه [وآله] وسلّم» أبا بكر وعمر بإبراهيم وعيسى وموسى ونوح.**

“Peyğəmbərin (*ona və ailəsinə Allahın salavatı və salamı olsun*) Əlini Haruna bənzətməsinə gəldikdə deyə bilərik ki, Peyğəmbər (*ona və ailəsinə Allahın salavatı və salamı olsun*) Əbu Bəkr və Öməri Harundan daha əfzəl insanlara bənzətmişdir. Deməli Bədr döyüşündə əldə edilmiş əsirlər barəsində Peyğəmbər məşvərət etdiyi zaman Əbu Bəkrdən bu haqda soruşduqda o, onların bağışlanmasını və bunun əvəzində onların qəbiləsindən fidyə alınmasını məsləhət gördü. Ömər isə onların qətlə yetirilməsi fikrini irəli sürdü. Bu zaman Peyğəmbər (*ona və ailəsinə Allahın salavatı və salamı olsun*) Əbu Bəkrə dedi: Sən də İbrahim kimisən [**Daha dəqiqi “sənin məsəlin İbrahimin məsəli kimidir” şəklində olmalıdır. İki cümlə arasındakı isə kifayət qədər fərq vardır. (Red.)**].

Bir vaxt o belə demişdi: “**Ey Rəbbim! Onlar (bütlər), həqiqətən, çox insanı (haqq yoldan) azdırıblar. İndi kim arxamca gəlsə, o, şübhəsiz ki, məndəndir. Kim mənə qarşı çıxsa, (bilsin ki, tövbə edəcəyi təqdirdə) Sən (günahları) bağışlayansan, (bəndələrinə) rəhm edənsən!**”. Həmçinin, sən İsa kimisən. O da bir zamanlar belə demişdi: “**Əgər onlara əzab versən, şübhə yoxdur ki, onlar Sənin qullarındır. Əgər onları bağışlasan, yenə şübhə yoxdur ki, Sən yenilməz qüvvət sahibi, hikmət sahibisən.**”

Sonra üzünü Ömərə çevirib dedi: Ey Ömər, sən isə Nuh kimisən. Bir vaxt o belə demişdi: “**Nuh dedi: “Ey Rəbbim! Yer üzündə bir nəfər belə kafir qoyma!**”. Həmçinin sən Musa kimisən. Bir zamanlar o demişdi: “**Musa dedi: “Ey Rəbbimiz! Sən Firona və əyan-əşrafına dünyada zinət və mal-dövlət ehsan etdin! Ey Rəbbimiz! (*Bu sərvəti onlara bəndələrini*) Sənin yolundan azdırmaq üçün verdin? Ey Rəbbimiz! Onların mal-dövlətini məhv et və ürəklərini möhürlə (*sərtləşdir*) ki, şiddətli əzabı görməyincə iman gətirməsinlər.**” Beləcə Peyğəmbər (*ona və ailəsinə Allahın salavatı və salamı olsun*) Əbu Bəkri İbrahimə və İsaya, Öməri isə Nuha və Musaya bənzətmişdir. Adı çəkilən Ulul Əzm (əzm sahibi olan) peyğəmbərlərdir. Peyğəmbərdən (*ona və ailəsinə Allahın salavatı və salamı olsun*)

sonra ən xeyirli insanlar həmin peyğəmbərlərdir. Onlar birmənalı olaraq Harundan qat-qat əfzəl sayılırlar. Onların hamısına Allahın salavatı və salamı olsun. Peyğəmbərin (*ona və ailəsinə Allahın salavatı və salamı olsun*) Əlini Haruna bənzətməsi, Əbu Bəkr və Öməri İbrahim, İsa, Musa və Nuha bənzətməsindən üstün deyildir."[106]

**Deyirəm:**

O, kitabının çaplarının birində haşiyədə bu hədis barədə belə deyir: "**İsnadı səhihdir**" ("Darul-iman" mətbəəsi, Misir çapı). Başqa bir çapda isə deyir ki:

**أخرجه أحمد 1/ 383 ورجاله ثقات إلاّ أن أبا عبيدة بن عبد الله بن مسعود لم يسمع من أبيه.**

"**Bunu Əhməd nəql etmişdir (1/383). Raviləri siqədir. Lakin, Əbu Übeydə ibn Abdullah ibn Məsud atasından hədis eşitməmişdir.**"

Bu rəvayət sənəd baxımından zəifdir. Çünki, Əbu Übeydə ibn Abdullah ibn Məsud atasından hədis eşitməmişdir. Əbu Übeydə kiçik yaşda olarkən atası vəfat etmişdir, buna görə də atasından heç bir şey eşitməmişdir.

Şubə demişdir:

**عمرو بن مرة سألت أبا عبيدة بن عبد الله هل تذكر من عبد الله شيئاً؟ قال: لا.**

"**Əmr ibn Mərrədən belə nəql olunur: Əbu Übeydə ibn Abdullahdan belə soruşdum: "Abdullahdan bir şey (hədis) xatırlayırsan?" Dedi: "Xeyr".**"

Əbu Davud nəql etdiyi bir hədisə qeyd vuraraq deyir:

**كان أبو عبيدة يوم مات أبوه ابن سبع سنين.**

"**Atası ölən vaxt Əbu Übeydənin yeddi yaşı var idi**".

Tirmizi deyir:

**لا يعرف اسمه، ولم يسمع من أبيه شيئاً.**

"**Onun adı bilinmir.** (Çünki, "Əbu Ubeydə" ad yox, künyədir – tərc.). **Atasından heç nə eşitməmişdir**".

İbn əl-Cüneyd deyir:

**قال رجل ليحيى: أبو عبيدة بن عبد الله سمع من أبيه شيئاً؟ قال: قالوا: لا، ولا عبد الرحمن بن عبد الله.**

[106] "Tarixdən bir dövr": 367-368.

“**Bir nəfər Yəhya [ibn Məinə] dedi: “Əbu Übeydə ibn Abdullah atasından bir şey eşidib?” Dedi: “Deyiblər ki, yox. Əbdür-Rəhman ibn Abdullah da eşitməmişdir”**.”

Darəmi Yəhya ibn Məindən belə nəql edir:

ثقة، ولم يسمع من أبيه

“**Siqədir. Lakin, atasından hədis eşitməmişdir**”.

İbn Əbu Hatim deyir:

سألت أبي عن أبي عبيدة بن عبد الله بن مسعود، هل سمع من أبيه عبد الله؟ قال فقال أبي: لم يسمع.

“**Atama Əbu Übeydə ibn Abdullah ibn Məsud barədə sual verib, “atası Abdullahdan bir şey eşidibmi”, - dedim. Atam dedi: “Eşitməyib”...**”

Bu barədə daha geniş məlumat almaqdan ötrü “Təhzibul-kəmal”, “Təhzibut-təhzib” və s. kimi “cərh və tədil” kitablarına, Əbu Ubyedənin tərcümeyi-halına müraciət edin.

Zəhəbi deyir:

وأبو عبيدة لم يسمع من أبيه.

“**Əbu Übeydə atasından hədis eşitməmişdir**”.

Buna əsasən, yuxarıdakı hədisi mürsəldir. Başqa sözlə, hədis zəifdir. Onun zəif olduğunu Şüeyb əl-Arnaut[107] və Şeyx Əhməd Şakir də qeyd etmişlər[108]. Elə isə mütəvatir mənzilət hədisinin müqabilində bu zəif hədislə necə dəlil gətirmək olar?![109]

---

107 “Müsnədü-Əhməd”: 6/140, hədis: 3632, Şüeyb əl-Arnautun təhqiqi.

108 “Müsnədü-Əhməd”: 3/521, hədis: 3632, Əhməd Muhəmməd Şakirin təhqiqi.

109 Üstəlik, fərz edək ki, hədis səhihdir. Belə olunca, bu hədisin mənzilət hədisinə nə kimi aidiyyatı olur? Görəsən, hədis səhih olduğu təqdirdə mənzilət hədisində İmam Əli (əleyhissəlam) üçün sabit edilən xilafəti qüvvə salırmı? Səhih olduğunu fərz edərsək, bu qeyd olunan hədisin hansı hissəsi İmam Əlinin (əleyhissəlam) Allah Rəsulundan (sallallahu əleyhi və alihi və səlləm) sonra xəlifə olmasını inkar edir?! Gəlin hesab edək ki, həqiqətən, Əbu Bəkr və Ömər müəyyən bir hadisə zamanı bir-birlərindən fərqli mövqe sərgiləmişlər və bunun nəticəsində Peyğəmbər (sallallahu əleyhi və alihi və səlləm) onların bu işlərini bəzi ulul-əzm peyğəmbərin (əleyhimussəlam) bir-birlərindən fərqli mövqe sərgiləmələrinə bənzətmişdir. Əbu Bəkrə “sənin bu hadisədəki mövqeyin İbrahimin mövqeyi kimidir”, Ömərə də “sənin bu hadisədəki mövqeyin Nuhun mövqeyi kimidir”, - demişdir. Görəsən, belə olan təqdirdə bu hədisin mənzilət hədisinin ifadə etdiyi xilafət məsələsinə nə kimi aiddiyyatı olur?!
Mənzilət hədisi İmam Əlinin (əleyhissəlam) Peyğəmbərə (sallallahu əleyhi və alihi və səlləm) olan nisbətinin həzrət Harun (əleyhissəlam) həzrət Musaya (əleyhissəlam) olan nisbəti kimi olduğunu bildirir. *Bu hədis həzrət Əlinin fəzilətinin həzrət Harunun fəziləti kimi olduğunu deyil, həzrət Harunun həzrət Musaya (əleyhiməs-səlam) nisbətdə sahib olduğu məqamların Peyğəmbərə nisbətdə İmam Əli üçün sabit olduğunu çatdırır*. Başqa sözlə, şiələr bu hədisi İmam Əlinin fəzilətdə həzrət Harun kimi olmasını göstərmək üçün deyil, İmam Əlinin Harunun Musaya nisbətdə sahib olduğu məqam və mənsəblərə sahib olduğunu göstərmək üçün dəlil gətirirlər. (Allahın salamı olsun onların hamısına). Bu məqam və mənsəblərdən biri də xilafətdir. Lakin, Osman əl-Xəmis bunu başa düşmədiyi və ya düşmək istəmədiyi üçün yuxarıda gördüyünüz əlaqəsiz müqayisəni aparmışdır. Tərc.

# OSMAN ƏL-XƏMİSİN "ON İKİ XƏLİFƏ" HƏDİSİ İLƏ BAĞLI SÖZLƏRİNƏ CAVAB

## Osman əl-Xəmisin “on iki xəlifə” hədisi ilə bağlı sözlərinə cavab

Osman əl-Xəmis deyir:

“Şiələr “on iki xəlifə” hədisini çox dəlil gətirirlər. Bu hədis “iki səhih kitabda” və başqa kitablarda müxtəlif formalarda gəlmişdir.

“Hamısı Qüreyşdən olan on iki əmir olacaq”.

“Hamısı Qüreyşdən olan on iki xəlifə mövcud olduğu müddətcə islam izzətli olacaq”.

“On iki xəlifə mövcud olduğu müddətcə, bu din izzətli və güclü olacaq”.

“İnsanlar üzərində on iki şəxs hakim olduğu müddətcə, insanların işi yolunda olacaq”.

“Hamısının üzərində ümmətin icma etdiyi on iki xəlifə hakim olduğu müddətcə bu din ayaq üstə olacaq”.”[110]

**Deyirəm:**

***Birincisi:*** On iki xəlifə, imam və ya əmir hədisi kifayət qədər mühüm hədislərdən biridir. Şiələr bu hədisə əsaslanaraq bildirirlər ki, Peyğəmbərin (sallallahu əleyhi və alihi və səlləm) vəfatından ta qiyamət gününədək mövcud olacaq Peyğəmbər xəlifələrinin sayı on ikidir. Hənbəlilərin imamı Əhməd ibn Hənbəl özünün “Müsnəd” kitabında öz sənədi ilə Məsruqdan belə nəql edir:

“Biz Abdullah ibn Məsudun hüzurunda əyləşmişdik, o bizə Quran oxuyurdu. Bir nəfər ona dedi: “Ey Əbdür-Rəhmanın atası, siz Allah Rəsulundan (sallallahu əleyhi [və alihi] və səlləm) soruşmusunuz ki, bu ümmətə neçə nəfər xəlifə hakimlik edəcək?”

Abdullah ibn Məsud dedi: “İraqa gəldiyimdən bəri, səndən başqa heç kəs mənə bu barədə sual verməmişdi. Bəli, biz Allah Rəsulundan (sallallahu əleyhi [və alihi] və səlləm) bu barədə soruşduq, o da dedi ki: “İsrail övladlarının rəhbərlərinin sayı qədər – on iki nəfər hakimiyyət edəcək”.”[111]

Əhməd ibn Hənbəlin Məsruqdan nəql etdiyi başqa bir hədisdə isə deyilir:

“Məsciddə Abdullahın yanında əyləşmişdik, o bizə Quran oxuyurdu. Bir nəfər onun yanına gəlib dedi: “Ey Məsudun oğlu, Peyğəmbəriniz özündən sonra nə qədər xəlifə olacağını sizə bildiribmi?”

İbn Məsud dedi: “Bəli, İsrail övladlarının rəhbərlərinin sayı qədər.”[112]

İbn Həcər əl-Əsqəlaninin “Fəthül-Bari” kitabında deyilir:

---

[110] “Tarixdən bir dövr”: səh.379.

[111] “Müsnədü-Əhməd”: 4/28, hədis: 3781. Kitabın mühəqqiqi Şeyx Əhməd Muhəmməd Şakir deyir: “**İsnadı səhihdir**”.

[112] “Müsnədü-Əhməd”: 4/62, hədis: 3859. Kitabın mühəqqiqi Şeyx Əhməd Muhəmməd Şakir deyir: “**İsnadı səhihdir**”.

“...Əhməd və Bəzzar həsən sənədlə belə nəql etmişlər ki, İbn Məsuda “bu ümmətə nə qədər xəlifə hakimlik edəcək”, - deyə sual vermişlər. İbn Məsud da demişdir ki, “bu barədə Allah Rəsuluna (sallallahu əleyhi [və alihi] və səlləm) sual verdik, o da dedi ki, İsrail övladlarının rəhbərlərinin sayı qədər – on iki nəfər (hakimiyyət edəcək)”.”[113]

Mübarəkpuri deyir:

“...İbn Məsudun hədisinə gəlincə, onu Əhməd və Bəzzar həsən sənədlə nəql etmişlər. İbn Məsuda “bu ümmətə nə qədər xəlifə hakimlik edəcək”, - deyə sual vermişlər, o da demişdir ki, “bu barədə Allah Rəsuluna (sallallahu əleyhi [və alihi] və səlləm) sual verdik, o da dedi ki, İsrail övladlarının rəhbərlərinin sayı qədər – on iki nəfər”.”[114]

İbn Həcər əl-Heytəmi deyir:

“Həsən sənədlə nəql olunmuşdur ki, İbn Məsuda “bu ümmətə nə qədər xəlifə hakimlik edəcək”, - deyə sual vermişlər. İbn Məsud da demişdir ki, “bu barədə Allah Rəsuluna (sallallahu əleyhi [və alihi] və səlləm) sual verdik, o da dedi ki, İsrail övladlarının rəhbərlərinin sayı qədər – on iki nəfər”.”[115]

Asimi deyir:

“Həsən sənədlə nəql olunmuşdur ki, İbn Məsuda “bu ümmətə nə qədər xəlifə hakimlik edəcək”, - deyə sual vermişlər, o da demişdir ki, “bu barədə Allah Rəsuluna (sallallahu əleyhi [və alihi] və səlləm) sual verdik, o da dedi ki, İsrail övladlarının rəhbərlərinin sayı qədər – on iki nəfər”.”[116]

Süyuti deyir:

“Əhməd və Bəzzar həsən sənədlə belə nəql etmişlər ki, İbn Məsuda “bu ümmətə nə qədər xəlifə hakimlik edəcək”, - deyə sual vermişlər, o da demişdir ki, “bu barədə Allah Rəsuluna (sallallahu əleyhi [və alihi] və səlləm) sual verdik, o da dedi ki, İsrail övladlarının rəhbərlərinin sayı qədər – on iki nəfər”.”[117]

Müslim ibn Həccac “Səhih” adlı kitabında öz sənədi ilə Cabir ibn Səmurədən belə nəql edir:

“Atamla birgə Peyğəmbərin (sallallahu əleyhi [və alihi] və səlləm) hüzuruna getdim. Peyğəmbərin belə dediyini eşitdim: “Camaata on iki xəlifə hakimiyyət etdiyi müddətcə, bu iş aradan getməyəcək”. Sonra bir söz dedi ki, eşidə bilmədim. Atama: “Peyğəmbər nə dedi?”, - dedim, atam da dedi ki, “Peyğəmbər: “xəlifələrin hamısı Qüreyşdəndir”, - dedi”.”[118]

---

113 “Fəthül-Bari”: 13/212.

114 “Tuhfətül-əhvəzi”: 6/393-394.

115 “əs-Səvaiqul-muhriqə”: 1/54.

116 “Simtun-nucumil-avali”: 2/419.

117 “Tarixül-xüləfa”: səh.10.

118 “Səhihü-Müslim”: 3/1452.

Başqa bir hədisdə isə belə nəql edir:

“Peyğəmbərin (sallallahu əleyhi [və alihi] və səlləm) belə dediyini eşitdim: “Camaata on iki şəxs hakimiyyət etdiyi müddətcə camaatın işi yolunda olacaq.” Sonra Peyğəmbər bir söz dedi ki, eşidə bilmədim. Atamdan Allah Rəsulunun (sallallahu əleyhi [və alihi] və səlləm) nə dediyini soruşdum, atam dedi ki, Peyğəmbər “onların hamısı Qüreyşdəndir”, - dedi”[119].

Müslimin Amir ibn Səd ibn Əbu Vəqqasdan nəql etdiyi başqa bir hədisdə isə belə deyilir:

“Cabir ibn Səmurəyə “mənə Allah Rəsuludan (sallallahu əleyhi [və alihi] və səlləm) eşitdiyin bir şey xəbər ver” – deyə bir məktub yazıb öz qulamım Nafe ilə birlikdə ona göndərdim. Cabir belə yazdı: “Əsləminin daş-qalaq edildiyi günün axşamında, cümə günündə Allah Rəsulunun (sallallahu əleyhi [və alihi] və səlləm) belə dediyini eşitdim: “Hamısı Qüreyşdən olan on iki xəlifə sizin üzərinizdə olanadək, Qiyamətədək bu din ayaq üstə olacaq’”.”[120]

“Mucəmu-şuyuxi-Əbi Yəla” kitabında Əbu Yəla öz sənədi ilə Cabir ibn Səmurədən belə nəql edir ki, Peyğəmbər (sallallahu əleyhi və alihi və səlləm) belə buyurub:

“Bu ümmətin on iki başçısı olacaq”[121].

Təbərani özünün “əl-Mucəmul-kəbir” və “əl-Mucəmul-əvsət” kitablarında belə Cabirdən belə nəql edir:

“Peyğəmbər (sallallahu əleyhi [və alihi] və səlləm) dedi: “Bu ümmətin on iki başçısı olacaq. Onları tək (köməksiz) qoyanlar onlara bir zərər yetirə bilməyəcəklər.” Sonra Peyğəmbər (sallallahu əleyhi [və alihi] və səlləm) bir söz pıçıldadı ki, eşidə bilmədim. Mən atama dedim: “Peyğəmbərin (sallallahu əleyhi [və alihi] və səlləm) pıçıldadığı söz nə idi?” Atam dedi: “Hamısı Qüreyşdəndir”.”[122]

Yenə, “əl-Mucəmul-kəbir” kitabında Peyğəmbərdən (sallallahu əleyhi və alihi və səlləm) belə nəql olunur:

“...On iki xəlifə aradan getmədiyi müddətcə, bu iş əsla və əsla aradan getməyəcək...”[123].

Əhməd ibn Hənbəl “Müsnəd” kitabında Cabirdən belə nəql edir:

“Peyğəmbərin (sallallahu əleyhi [və alihi] və səlləm) belə dediyini eşitdim: “Bu ümmətin on iki xəlifəsi olacaq”.”[124]

---

119 “Səhihü-Müslim”: 3/1452.

120 “Səhihü-Müslim”: 3/1453.

121 “Mucəmu-şuyuxi-Əbi Yəla”: səh.79, hədis: 65. Kitabın mühəqqiqi Şeyx Hüseyn Səlim Əsəd əd-Darani deyir: “**İsnadı səhihdir**”.

122 “əl-Mucəmul-kəbir”: 2/197, “əl-Mucəmul-əvsət”: 3/201.

123 “əl-Mucəmul-kəbir”: 2/55.

124 “Müsnədü-Əhməd”: 5/381. Şeyx Həmzə Əhməd əz-Zeyn deyir: “**İsnadı səhihdir**”.

Əbu Əvanənin “Müsnəd” kitabında Cabir yolu ilə Peyğəmbərdən (sallallahu əleyhi və alihi və səlləm) belə nəql olunur:

“Hamısı Qüreyşdən olan on iki xəlifə mövcud olduğu müddətcə, qiyamətədək bu din izzətli və güclü olacaq, onunla düşmənçilik edənlər ona bir zərər yetirə bilməyəcəklər”[125].

Yenə, o kitabda belə nəql olunur:

“On iki xəlifə olduğu müddətcə bu din ayaq üstə olacaq”[126].

Bütün bu hədislər Peyğəmbərin (sallallahu əleyhi və alihi və səlləm) xəlifələrinin sayı on iki olduğunu göstərir. İbn Məsudun hədisi açıq-aşkar bildirir ki, Peyğəmbərin bütün xəlifələrinin sayı İsrail övladlarının rəhbərlərinin sayı qədər, yəni on iki nəfərdir və onların imamət və vilayətləri qiyamətədək davam edəcək. Nə qədər ki, bu ümmət mövcuddur, onun var olduğu bütün dövlərdə bu on iki nəfərdən biri onun üzərində hakim olub onun dini və dünyəvi işlərinə rəhbərlik etməlidir. İbn Məsuddan xəlifələrin sayını soruşan şəxs, onların müəyyən bir dövr ərzindəki sayını soruşmur. Sual soruşan islam ümməti üzərində müəyyən bir dövr ərzində hakim olacaq şəxslərin sayını soruşmur, o, məhz ümmət mövcud olduğu müddət ərzində ümmətin neçə xəlifəsinin olacağını soruşur. O, sual verərək deyir ki: “**Siz Allah Rəsulundan (sallallahu əleyhi [və alihi] və səlləm) soruşmusunuz ki, bu ümmətə neçə nəfər xəlifə hakimlik edəcək?**”. Sual verənin “**bu ümmətə neçə nəfər xəlifə hakimlik edəcək**” sözünə yaxşıca diqqət edin. Bu cümlə onu göstərir ki, sual verən Peyğəmbərin vəfatından ta qiyamətədək ümmətin var olduğu bütün zamanlarda neçə xəlifənin mövcud olacağını soruşur. Abdullah ibn Məsud da ona cavab verərək bildirir ki, “**Bəli, soruşmuşuq. Peyğəmbər deyib ki, İsrail övladlarının rəhbərlərinin sayı qədər – on iki nəfərdir**”.

Cabir ibn Səmurədən nəql edilən hədislər də belədir. Bu hədislər də ümmətin xəlifələrinin sayının 12 olduğunu və onların xəlifəliklərinin qiyamətədək davam edəcəyini bildirir. İslam ümmətinin və islam dinin var olduğu hər bir dövrdə bu şəxslər olacaqlar. Cabir ibn Səmurənin hədisindəki “din” və “bu iş” sözlərindən məqsəd, islamdır. Şübhə yoxdur ki, islam dini dinlərin sonuncusudur və o, Qiyamətədək var olacaq. Peyğəmbər (sallallahu əleyhi və alihi və səlləm) bu xəlifələrin varlıq müddətlərini islamın var olma müddəti ilə müəyyənləşdirmişdir. Bununla da aydın olur ki, onların imamlıq və rəhbərliyi Peyğəmbərin (sallallahu əleyhi və alihi və səlləm) vəfat etməsindən Qiyamətin baş verməsinədək uzanacaq.

Peyğəmbərin “bu ümmətin on iki rəhbəri olacaq, onları köməksiz qoyanlar onlara bir zərər vura bilməyəcəklər” – sözü, həmçinin, “bu ümmətin on iki xəlifəsi olacaq” – sözü də son dərəcə aşkar bir şəkildə bu mənaya dəlalət edir.

---

[125] “Müsnədü-Əbi Əvanə”: 4/369.

[126] “Müsnədü-Əbi Əvanə”: 4/369, “əl-Mucəmul-kəbir”: 2/702.

***İkincisi:*** Bu hədislə Peyğəmbərin (sallallahu əleyhi və alihi və səlləm) ümmət arasında iki ağır əmanət (Quran və itrət – əhli-beyt) qoyub getdiyini, onlardan sarılmağa əmr etdiyini və onlardan sarılmağın zəlalətdən nicat tapma olduğunu bildirdiyini deyən "səqəleyn" hədisini[127] tutuşdurduqda, aydın olur ki, bu on iki nəfər elə Peyğəmbərin (sallallahu əleyhi və alihi və səlləm) itrətindən, yaxın ailə üzvlərindəndir. Çünki, Peyğəmbər Quranla birgə yalnız öz itrətinə sarılmağı əmr etmişdir. On iki xəlifə hədisi də, sonradan göstəriləcəyi kimi, on iki xəlifədən sarılmağın vacibliyini çatdırır. Bu da öz növbəsində ona dəlalət edir ki, on iki xəlifə hədisindəki on iki xəlifə Peyğəmbərin (sallallahu əleyhi və alihi və səlləm) itrətindəndirlər və Peyğəmbərin vəfatından Qiyamət gününədək ümmət üzərində rəhbərlik işi yalnız və yalnız onlara məxsusdur. Bizim şiə mənbələrində sübuta yetmişdir ki, Əmirəlmöminin (əleyhissəlam)-dan Allah Rəsulunun (sallallahu əleyhi və alihi və səlləm) "Mən sizin aranızda Allahın kitabını və itrətimi qoyub gedirəm" sözündəki "itrət"in kimlər olduğunu soruşduqda, Həzrət belə buyurmuşdur: "Mən, Həsən, Hüseyn və Hüseynin nəslindən gələn doqquz imam. Onların doqquzuncuları Mehdi və Qaimdir. Hovuz başında Allah Rəsulunun (sallallahu əleyhi və alihi və səlləm) yanına varıncayadək nə onlar Allahın kitabından ayrılarlar, nə də Allahın kitabı onlardan ayrılar"."[128]

***Üçüncüsü:*** On iki xəlifə hədislərinin bəzilərinin zahirindən belə başa düşülür ki, bu on iki şəxs zahiri və faktiki şəkildə hakimiyyətdə olacaqlar və xilafət və vilayət onlarda olacaq. Halbuki, Peyğəmbər (sallallahu əleyhi və alihi və səlləm) itrətindən yalnız Əmirəlmöminin Əli ibn Əbu Talib və oğlu İmam Həsən (əleyhiməssəlam) hakimiyyətdə olmuşdur və onların hakimiyyət müddəti də altı ili ötməmişdir. On ikinci imam İmam Mehdi (əleyhissəlam)-a gəlincə isə, o da hələ ki, hakimiyyət etməyib. Elə isə, bu hədislərin mənası nədir? Hədislərin zahiri mənası yuxarıda qeyd etdiyimiz mənadır, yoxsa başqa bir məna?

Bu sualın cavabı belədir ki, bu hədislər xəbər və məlumat xarakterli deyil, əmr, göstəriş və tələb xarakterlidir. Eyniylə Peyğəmbərin (sallallahu əleyhi və alihi və səlləm) "**Camaat Qüreyşin təbəəsidir**" – sözü kimi. Bu cümlə, bəzi əhli-sünnə alimlərinin də bildirdiyi kimi, zahirdə xəbər və məlumat xarakterli olasa da, məna etibarilə əmr xarakteri daşıyır[129]. Yəni, Peyğəmbərin "Camaat Qüreyşin təbəəsidir" cümləsinin mənası "**Qüreyşə tabe olun**" – şəklindədir.

Buna əsasən, on iki xəlifə hədisi də rəhbərliyin, xilafətin və qanuni öndərliyin məhz on iki şəxsə aid olmasını və camaatın onlara tabe olub onlara itaət etməsinin vacibliyini çatdırır. Peyğəmbərdən (sallallahu əleyhi və alihi və səlləm) sonra əmr sahibi və başçılar məhz onlardır.

---

[127] Biz bu hədis barəsində kitabımızın birinci cildində ətraflı danışmışıq.

[128] "Uyunu-əxbarir-Riza": 2/60.

[129] "Fəthül-Bari": 6/530.

Bu imamların bəzilərinin sahib ola bilmədiyi zahiri hakimiyyət və ya iqtidar isə, böyük imamət məqamının vəzifələrindən sadəcə biridir. Belə bir mənəbə sahib olan bir şəxsin hər hansısa bir maneə üzündən bu vəzifəni (zahiri hakimiyyət vəzifəsini) icra edə bilməməsi, həmin şəxsin bu on iki nəfərdən biri olmamasına dəlil ola bilməz.

**Dördüncüsü:** Peyğəmbərin (sallallahu əleyhi və alihi və səlləm) buyurduğu "camaata on iki şəxs hakim olduğu müddətcə, camaatın işi yolunda olacaq" sözündən belə başa düşülür ki, camaat bu on iki şəxsə dönüb onların imamlıqlarını qəbul etsə, onların öz vəzifələrini icra etmələrinə imkan versə və islam təlimlərini və dinin hökmlərini onlardan alsa, o zaman onların işləri düzələr, dini və dünyəvi işləri yoluna düşər. Bu o mənaya gəlir ki, bu on iki nəfər öz-özlüklərində doğru yoldadırlar. Çünki əgər belə olmasaydı, onda başqalarını doğru yolla apara bilməzdilər. Bir xüsusiyyətə sahib olmayan bir insan həmin xüsusiyyəti başqasına verə bilməz. Bu deyilən şey, həmin 12 nəfərin məsum olduqlarını çatdırır. Əhli-Beyt İmamlarının (əleyhimussəlam) da məsum olduqları kifayət qədər güclü dəlillərlə sübuta yetmişdir[130].

**Beşincisi:** Peyğəmbərin (sallallahu əleyhi və alihi və səlləm) "Mənim sünnəmdən və məndən sonra gələn raşidi[131] və mehdi[132] xəlifələrin sünnəsindən yapışın! Bunlara sarılın və azı dişlərinizlə bunlardan tutun!"[133] – sözündəki "raşidi" xəlifələr məhz bu on iki nəfərdir. Bu sözdən məqsəd əhli-sünnə alimlərinin "raşidi" adlandırdığı şəxslər, yəni, Əbu Bəkr, Ömər, Osman və Əli (əlbəttə, Əli bu siyahıdan istisnadır, çünki o, bu məfhuma daxildir) deyildir. Əhli-sünnə yanında Peyğəmbərdən (sallallahu əleyhi və alihi və səlləm) "raşidi" ifadəsinin məhz bu dörd nəfərlə məhdud olduğunu bildirən bircə dənə də olsun səhih hədis yoxdur. Bundan başqa, Peyğəmbər (sallallahu əleyhi və alihi və səlləm) "Mənim və raşidi və Mehdi xəlifələrin sünnəsindən yapışın" – sözündə öz sünnəsi ilə raşidi xəlifələrin sünnəsinin adını yanaşı çəkmiş, ümmətə onların hər ikisindən yapışmağı əmr etmişdir. Buna əsasən, Peyğəmbərin (sallallahu əleyhi və alihi və səlləm) sünnəsi, yəni, sözü, əməli və təsdiqi höccət olduğu kimi, raşidi xəlifələrin sünnəsi, yəni sözü, əməli və təsdiqi də höccətdir. Bu isə o deməkdir ki, bu xəlifələr sözlərində, əməllərində və təsdiqlərində səhvə və xətaya düşmürlər. Deməli, onlar

---

[130] Biz bu kitabın birinci cildində "səqəleyn hədisinin dəlalət etdiyi məqamlar" başlığı altında səqəleyn hədisinin Əhli-Beytin məsumluğuna necə dəlalət etdiyi barəsində danışmışıq. Habelə, eyni kitabda təthir ayəsi və əba hədisi barədə Osman əl-Xəmisin səsləndirdiyi fikirlərə cavab verərkən bu məsələyə toxunmuş, təthir ayəsinin Əhli-Beytin məsumluğuna hansı şəkildə dəlalət etdiyini açıqlamışıq.

[131] "Raşidi": doğru yolda olan. Tərc.

[132] "Mehdi": hidayət olunan və hidayət edən; doğru yolu tapan və doğru yola yönəldən. Tərc.

[133] Bu hədisin səhihliyi barədə söz-söhbət vardır. Biz bu hədisin səhih olduğunu fərz edərək və bu hədisi səhih qəbul edənlərə "bir şeyə inanan şəxsə onun öz inancı ilə dəlil gətirmək" prinsipindən çıxış edib cavab verərək bu sözləri deyirik.

məsumdurlar. Peyğəmbərin sözündə, əməlində və təsdiqində səhvə düçar olub uca islam şəriətinə müxalifət edən şəxslərin sünnəsinə tabe olmağı əmr etməsi əsla və əsla mümkün deyildir!

Peyğəmbərin ümmətə öz sünnəsi ilə bərabər onların sünnəsindən də “azı dişlər ilə yapışmağa” əmr etməsi də bu mənanı təsdiqləyir. Bununla başa düşürük ki, onların sünnəsi də eyniylə Peyğəmbərin (sallallahu əleyhi və alihi və səlləm) sünnəsi kimi xətadan uzaqdır.

Bundan başqa, Peyğəmbərin (sallallahu əleyhi və alihi və səlləm) onları “Mehdi” – hidayət edən və hidayət olunan kimi tanıtması da onların məsum olduqlarına işarə edir. Onlar özləri hidayət yolunda olan kəslərdirlər və başqalarını da hidayət edirlər. Kim mütləq mənada hidayət olunmuş və hidayət edəndirsə, həmin şəxs yalnız məsum olar. Əbu Bəkr, Ömər və ya Osmanın məsum olduqları sübuta yetməmiş, bu üç şəxsin raşidi xəlifə olduğunu deyən əhli-sünnə onların məsum olduqlarını iddia etməmişdir. Elə isə raşidi xəlifələrin məsum olmaları ilə bağlı qeyd etdiyimiz dəlillər bu üç şəxsin raşidi xəlifələrdən olmamasına dəlalət edir.

Biz göstərdik ki, on iki imam hədisinin bəzi nəqlləri bu on iki şəxsin məsum olduğuna işarə edir. Bu da öz növbəsində ona dəlalət edir ki, Peyğəmbərin (sallallahu əleyhi və alihi və səlləm) sözündəki “raşidi xəlifələr” məhz on iki Əhli-Beyt imamıdır (əleyhimussəlam).

۞۞۞

Osman əl-Xəmis deyir:

“Bu hədisdə deyilir ki, din bu şəxslərin xəlifəliyi zamanında izzətli olacaq, sonra isə bu izzət aradan gedəcək. Elə isə izzət nə vaxt odu, zillət nə vaxt oldu?”[134]

**Deyirəm:**

**Birinci:** Peyğəmbərin (sallallahu əleyhi və alihi və səlləm) “Hamısı Qüreyşdən olan on iki xəlifə mövcud olduğu müddətcə islam izzətli olacaq” sözündəki islamın izzəti məhz bu on iki nəfər, yəni, on iki Əhli-Beyt imamı (əleyhimussəlam) böyük imamət məqamının vəzifələrini tam şəkildə yerinə yetirə bildiyi zaman həyata keçir. Bu isə baş tutmamışdır. Hakimiyyət onlardan alınmış, onlara əziyyət edilmiş, didərgin salınmış, onlarla müharibə aparılmış, bəziləri qətlə yetirilmiş, öz dövrlərinin hakimləri tərəfindən rəhbərlik və təlimlə bağlı rollarına qada qoyulmuşdur. Bunun nəticəsində də islama və müsəlmanlara zəlillik üz vermişdir. İslamın izzəti bu şəxslərə öz vəzifələrini icra etməyə imkan verildiyi

---

[134] “Tarixdən bir dövr”: səh.379.

zaman baş tutur. İslamın zilləti də bu şəxslərin öz ilahi məqamlarından uzaqlaşdırıldığı, onlara zülm edildiyi, onlarla müharibə aparıldığı və ümmət içindəki fəaliyyətlərinə qadağa qoyulduğu zaman baş verir.

**İkinci:** Bir qədər əvvəl də qeyd etdiyimiz kimi, on iki xəlifə hədisinə əsasən, bu on iki şəxsin hakimiyyət müddəti Peyğəmbərin (sallallahu əleyhi və alihi və səlləm) vəfatından Qiyamət gününədək olan dövrü əhatə edir. Bu hədislərin heç birində adıçəkilən 12 şəxsin imamət və hakimiyyətlərinin nə vaxtsa kəsiləcəyinə dəlalət edən bir şey yoxdur. Bəli, bircə Cabir ibn Səmurədən nəql edilən bir hədisdə belə bir şeyə işarə edilmişdir. Həmin hədisdə Züheyr ibn Müaviyə Ziyad ibn Xeysəmədən, o, Əsvəd ibn Səid əl-Həmədanidən, o da Cabir ibn Səmurədən nəql edir ki, Qüreyş qəbiləsi on iki xəlifə hədisini eşitdikdən sonra Peyğəmbərin (sallallahu əleyhi və alihi və səlləm) evinə gələrək ona "bu on iki xəlifənin müddəti başa çatdıqdan sonra nə olacaq?", - deyə sual verir, Peyğəmbər də cavab verir ki, "hərc-mərclik olacaq". Bu hədisi də yalnız Züheyr ibn Müaviyə Ziyad ibn Xeysəmədən, o, Əsvəd ibn Səiddən, o da Cabir ibn Səmurədən nəql etmişdir. Başqa hədislərdə belə bir şey gəlməmişdir. Bu hədisin səhih olduğunu fərz etsək, hədisdəki hərc-mərclikdən məqsəd ya Qiyamət hadisələridir, ya da bu on iki imamın sonuncusunun vəfatı ilə Qiyamət günü arasında yerləşən çox qısa bir müddətdir.

Sonra Osman əl-Xəmis deyir:

"Şiələr deyirlər ki, keçmiş xəlifələrin dövründə islam əsla izzətli olmamışdır, çünki, onların imamları gizlənmiş, qorxmuş bir halda olmuş, təqiyyə etmişdir. Hətta onlar deyirlər ki, Əbu Bəkr, Ömər və Osmanın zamanında belə, islam izzətli olmamışdır. Hətta Əli belə onların nəzərində doğru və həqiqi dini aşkara çıxara bilməmişdir; təqiyyə etmişdir. Nə doğru və həqiqi Quranı aşkara çıxara bilmiş (!), nə təravih namazını qadağan edə bilmiş, nə də mütə nikahını halal edə bilmişdir"[135].

**Deyirəm:** Əmirəlmöminin Əli ibn Əbu Talibdən (əleyhissəlam) nəql olunan bir kəlam Osman əl-Xəmisin bu sözünə cavab olaraq kifayət edir. Həmin kəlamda deyilir:

"...Məndən öncəki başçılar Allah Rəsulunun (sallallahu əleyhi və alihi və səlləm) sünnəsinə müxalif olan bir sıra işlər gördülər. Onlar Peyğəmbər sünnəsinə bilərəkdən müxalifət etdilər. Peyğəmbərin əhdini pozdular, onun sünnəsini dəyişdilər. Əgər mən camaatı bu işləri tərk etməyə vadar etsəm və bu işləri öz əvvəlki vəziyyətinə, Allah Rəsulunun (sallallahu əleyhi və alihi və səlləm)

---

[135] "Tarixdən bir dövr": səh.380.

vaxtındakı vəziyyətinə qaytarsam, qoşunum ətrafımdan dağılar, mən tək-tənha, yaxud da Allahın kitabı və Peyğəmbərin sünnəsindən mənim fəzilətimi və imamətimin vacibliyini bilən azsaylı şiələrimlə qalaram. Əgər mən İbrahim (əleyhissəlam) məqamını Peyğəmbərin (sallallahu əleyhi və alihi və səlləm) zamanındakı yerinə qaytarsam, Fədəyi Fatimənin (əleyhəssəlam) varislərinə qaytarsam, Allah Rəsulunun (sallallahu əleyhi və alihi və səlləm) "sa" ölçüsünü öz qədərinə qaytarsam[136], Peyğəmbərin bəzi şəxslər üçün ayırdığı, lakin, təsdiqlənib onlara verilməyən torpaqları o şəxslər üçün təsdiqləsəm (və onlara versəm), Cəfərin evini onun vərəsələrinə qaytarıb onu məsciddən ayırsam, vaxtikən zalımcasına verilən hökmləri ləğv etsəm, batil şəkildə başqalarının nikahı altında olan qadınları onlardan alıb öz ərlərinə qaytarsam[137], Bəni-Təğlib qəbiləsinin qadınlarını əsir etsəm[138], Xeybər ərazisindən bölünən əraziləri geri qaytarsam[139], əta divanlarını ləğv etsəm[140], ətanı Allah Rəsulu (sallallahu əleyhi və alihi və səlləm) etdiyi kimi bərabər şəkildə versəm və onu yalnız varlılar arasında paylamasam, torpaq vergisini ləğv etsəm[141], nikahları bərabər etsəm[142], Peyğəmbərin xümsünü Allahın nazil etdiyi və vacib etdiyi kimi icra etsəm[143], Peyğəmbərin (sallallahu əleyhi və alihi və səlləm) məscidini əvvəlki vəziyyətinə qaytarsam[144], orada açılan qapıları bağlatsam, bağlanan qapıları açsam, xufun[145]

---

[136] "Sa" ölçü vahidinin nə qədər olması barədə ixtilaf vardır. Müxaliflər başqa bir ölçü, Əhli-Beyt (əleyhimussəlam) isə başqa bir ölçü qeyd edir. Tərc.

[137] Şahidsiz talağı verilən və ya paklanmadan talağı verilən, yaxud bir məclisdə üç dəfə talağı verilən qadınlar kimi. Belə qadınların qurduğu nikahlar batildir. Tərc.

[138] Çünki Ömər onların üzərindən cizyəni götürmüşdü və onlar "zimmə əhli"ndən deyildilər. Buna görə də onları əsir etmək olardı. İmam Rza (əleyhissəlam)-dan nəql olunub ki, "Bəni-Təğlib xristian ərəblər idilər. Onlar dikbaşlıq edib cizyə verməkdən imtina etdilər. Ömərdən onlardan cizyə almamasını, əvəzində iki qat zəkat ödəməyi istədilər. Ömər onların rumlulara qoşula biləcəklərindən qorxdu. Buna görə də onlarla cizyə verməmələri, lakin əvəzində iki qat sədəqə vermələri üzərə saziş bağladı, onlar da qəbul etdilər".

Bəğəvi nəql etmişdir ki, Ömər ibn əl-Xəttab xristian ərəblərdən cizyə almaq istədi, lakin onlar dedilər: "Biz ərəbik, əcəmlərin verdiyini biz vermərik. Amma bir-birinizdən aldığınız şeyi – bununla sədəqəni (zəkatı) nəzərdə tuturdular – bizdən də alın." Ömər dedi: "Bu, Allahın müsəlmanlara vacib etdiyi bir şeydir (siz ki, müsəlman deyilsiniz)". Onlar dedilər: "Cizyə adı ilə yox, bu adla nə qədər istəyirsən artır". Ömər də onlardan iki qat sədəqə almaq üzərə onlarla razılaşdı. ("Miratul-uqul": 25/134). Tərc.

[139] Çox güman ki, Xeybər ərazisindən bölünüb kimlərəsə paylanan torpaqlar nəzərdə tutulur. Tərc.

[140] Əta divanları islam dövlətinin genişlənməsi nəticəsində əldə edilən mal-dövlətin əhali arasında paylanması üçün nəzərdə tutulan dövlət orqanları idi. Ömərin zamanında ortaya çıxan bu orqanlarda mal-dövlət paylanarkən əhalinin Peyğəmbərlə (sallallahu əleyhi və alihi və səlləm) nəsəb bağlılığı, islamı tez və ya gec qəbul etməsi, döyüşçü və ya qeyri-döyüşçü olması, fəthdən qabaq və ya sonra müsəlman olması, hətta Quran oxuyub-oxumaması və s. bu kimi cəhətləri nəzərə alınırdı. Tərc.

[141] Ömərin zamanında əhalidən əkin əkilən torpağa görə xərac alınmağa başladı. Tərc.

[142] Varlı-kasıb, ərəb-əcəm ayırımı etməsəm. Ömər qüreyşli olmayan ərəblə qüreyşli ərəbin, qeyri-ərəblə ərəbin evlənməsini qadağan etmişdi. Tərc.

[143] Əbu Bəkr xümsü öz qohum-əqrəbaları arasında paylayır, Ömər də müsəlmanlar arasında paylayıb Peyğəmbər ailəsini bundan məhrum edirdi. (Mazandarani). Tərc.

[144] Məscidə artırılan əlavələri ləğv etməyə işarə edilir. Tərc.

[145] Corab şəklində olub dəridən hazırlanan və ayağa geyilən geyim vasitəsi. Corabla arasındakı fərq xufun dəridən hazırlanmasıdır. Tərc.

üzərinə məsh etməyi qadağan etsəm, nəbiz[146] içməyə görə cəza təyin etsəm, iki mütənin halal edilməsini əmr etsəm, cənazə namazının beş təkbirlə qılınmasını əmr etsəm, camaata “bismilləhir-rahmənir-rahim” ayəsini ucadan deməyi əmr etsəm, Allah Rəsulunun (sallallahu əleyhi və alihi və səlləm) məsciddən çıxardığı şəxslərdən məscidə daxil edilənləri məsciddən çıxarsam, Allah Rəsulunun (sallallahu əleyhi və alihi və səlləm) məscidə saldığı şəxslərdən məsciddən çıxarılan şəxsləri məscidə daxil etsəm, camaatı Quranın hökmünə tabe olmağa və sünnəyə uyğun şəkildə talaq verməyə vadar etsəm[147], sədəqələri həqiqi bölgüsündə və həqiqi ölçüsündə alsam[148], dəstəmazı, qüsulu və namazı öz yerlərinə və vaxtlarına qaytarsam, Nəcran camaatını öz yerlərinə qaytarsam[149], fars və sair millətlərin əsirlərini Allahın kitabına və Peyğəmbərin sünnəsinə qaytarsam, insanlar mənim ətrafımdan dağılar. Allaha and olsun ki, mən camaata Ramazan ayında yalnız vacib namaz üçün bir araya gəlmələrini əmr etdim və onlara bildirdim ki, onların müstəhəb namaz üçün bir araya toplaşmaları bidətdir. Bu zaman mənim yanımda döyüşən əskərlərimdən biri hay-həşir saldı ki, “ey müsəlmanlar! Ömərin sünnəsi dəyişildi! Əli Ramazan ayında müstəhəb namaz qılmağı bizə qadağan edir!”. Mən onların qoşunumun bir hissəsində qiyam qaldırmalarından qorxdum...”[150].

Bundan başqa, şiələr əsla əlimizdə olan Quranın həqiqi Quran olmadığını və əsl Quranın Əli ibn Əbu Talibdə (əleyhissəlam) olduğunu demirlər. Heç bir Əhli-Beyt imamından (əleyhimssəlam) belə bir şey nəql edilməyib. Bəli, şiələr də, sünnilər də deyirlər ki, Əli ibn Əbu Talibin topladığı Quranda ayələr nazil olma ardıcıllığı ilə toplanıbmış. Habelə, şiələr deyirlər ki, Əli ibn Əbu Talibin topladığı Quranda Quranın Peyğəmbərdən (sallallahu əleyhi və alihi və səlləm) nəql olunan təfsiri də var imiş.

Sonra Osman əl-Xəmis deyir:

“Hədisdə imamların sayının yalnız 12 olduğu deyilmir, əksinə, hədis dinin 12 xəlifənin hakimiyyəti ərzində izzətli olacağını çatdırır”.

Sonra deyir: “Müntəzərin vilayəti Qiyamətə qədərdir, yaxşı bəs haçan izzət olacaq, haçan zillət olacaq?”[151]

---

[146] Üzümdən və başqa meyvələrdən hazırlanan içki. Müxaliflər onun içilməsini icazəli bilirlər. Tərc.

[147] Keçmiş xəlifələr və onların yolu ilə gedənlər Quranın bir çox hökmünə müxalifət etmişlər. Bunlardan biri talaq məsələsi ilə bağlıdır. Belə ki, onlar Quranın hökmünün tamamilə əksinə davranaraq, talaq zamanı şahidlərin olmasını vacib bilməmiş, nikah zamanı isə bunu vacib bilmişlər. (“əl-Kafi”: 8/62). Tərc.

[148] Yəni, zəkatı 9 növdən: dinardan, dirhəmdən (müasir dövrdə: qızıldan, gümüşdən – tərc.), buğdadan, arpadan, xurmadan, kişmişdən, dəvədən, inəkdən və qoyundan alsam. Müxaliflər başqa şeyləri də vacib bilmişlər. (Həmin mənbə) Tərc.

[149] Ömər onları Yəməndən İraqa sürgün etmişdi. Tərc.

[150] “əl-Kafi”: 8/59-63.

[151] “Tarixdən bir dövr”: səh.380.

**Deyirəm:** Bir qədər əvvəl bu məsələni izah edib göstərdik. Vurğuladıq ki, hədisin cümlələri açıq-aşkar şəkildə xəlifələrin sayının 12 ilə məhdudlaşdığını və onların xəlifəlik müddətinin Peyğəmbərin (sallallahu əleyhi və alihi və səlləm) vəfatından başlayıb ta Qiyamət gününədək uzandığını bildirir. İndi isə bu məsələni bir qədər də aydınlaşdıraraq deyirik ki: Peyğəmbər (sallallahu əleyhi və alihi və səlləm) buyurur: "*Hamısı Qüreyşdən olan on iki xəlifə olduğu müddətcə, Qiyamətədək bu iş izzətli və güclü olacaq, düşmənlər ona bir zərər yetirə bilməyəcəklər*". Aydın məsələdir ki, hədisdəki "iş"dən məqsəd islamdır. Hədis bildirir ki, islam Qiyamətədək izzətli və güclü olacaq, düşmənlərin düşmənçilik və hiylələri ona bir zərər vura bilməyəcək və Peyğəmbərin (sallallahu əleyhi və alihi və səlləm) Qiyamətə qədər var olacaq xəlifələrinin sayı 12-dir. Bununla eyni məzmunda başqa bir hədis, "*hamısı Qüreyşdən olan on iki xəlifə sizin üzərinizdə olduğu müddətcə, Qiyamətədək bu din izzətli olacaq*" – hədisidir, həmçinin də, "*hamısı Qüreyşdən olan on iki xəlifə olduğu müddətcə, bu din izzətli və güclü olacaq*" – hədisidir. Bütün bu hədislər onu deyir ki, əgər bu on iki xəlifə heç bir maneə olmadan öz imamlıq vəzifələrinə kamil şəkildə icra edə bilsələr, islam dini Qiyamətədək çox güclü və çox izzətli olacaq. Yox əgər öz vəzifələrini tam şəkildə icra edə bilməsələr və ortada müəyyən maneələr olsa, onda islamın izzəti olmayacaq.

Sonra Osman əl-Xəmis deyir:

"Peyğəmbərin (sallallahu əleyhi [və alihi] və səlləm) "*hamısı Qüreyşdən olan...*" sözü ilə Əlini və övladlarını nəzərdə tutması uzaq ehtimaldır. Hərçənd, Peyğəmbər "*hamısı İsmayılın övladlarından olan...*", - desəydi belə, şiələr öz imamlarının İsmayıl övladlarından olduğunu iddia edəcəkdilər"[152].

**Deyirəm:** Mən Osman əl-Xəmisin bu "uzaq ehtimal"ı üçün heç bir məntiqi izah tapa bilmədim, maraqlıdır, görəsən, Əli və övladları Qüreyşdən deyillər?!

Bundan başqa, Osman əl-Xəmis bu "uzaq ehtimal"ı üçün heç bir dəlil qeyd etməyib. Onun dediyi söz, dəlili olmayan quru iddiadan başqa bir şey deyildir.

Şiələrin bu on iki şəxsin Peyğəmbər (sallallahu əleyhi və alihi və səlləm) itrətindən – ən yaxın ailə üzvlərindən olduğunu demələrinə gəlincə, onların bunun üçün bir neçə dəlili vardır. Belə dəlillərdən biri Peyğəmbərin (sallallahu əleyhi və alihi və səlləm) öz ümməti arasında Quranı və itrəti əmanət qoyub insanlara onlardan sarılmağı əmr etdiyini bildirən səqəleyn hədisidir. Biz hər iki məzhəb yanında qəbul edilən bircə dənə belə səhih hədis tapmamışıq ki, o hədisdə Peyğəmbər (sallallahu əleyhi və alihi və səlləm) Qüreyş arasında itrətindən başqa

[152] "Tarixdən bir dövr": səh.380.

bir kəsə sarılmağa əmr etmiş olsun. Bu, öz növbəsində ona dəlalət edir ki, on iki xəlifə məhz Peyğəmbərin Əhli-Beytidir (əleyhimussəlam). Şiələr həva-həvəs əhli deyillər ki, imamət və vilayəti dəlil-sübutla sübuta yetməyən şəxslərin imamlıqlarına etiqad etsinlər.

Sonra Osman əl-Xəmis deyir:

"“Səhih” kitabında [“Səhihü-Müslim”] belə gəlib: “Ümmətim arasında on iki münafiq vardır”. Deməli, ədəd və sayın heç bir önəmi yoxdur”[153].

**Deyirəm:** Osman əl-Xəmisin bu sözü onun dəlillərinin tükəndiyindən xəbər verir. O, mövzuya dair şiələrin ortaya qoyduqları dəlilləri batil edə biləcək heç bir əsasa sahib olmadığından, gördüyünüz bu yola əl atmışdır. Şiələrin dəlilləri ilə heç bir əlaqəsi olmayan bir sözü oxucuya təqdim edərək, onun şiələrə rədd və cavab olduğunu göstərməyə çalışmışdır. Osman əl-Xəmis bu cür “dəlillər” qeyd edərək oxucuda belə bir fikir formalaşdırmağa çalışır ki, sanki sözügedən məsələdə şiələrin iddialarına çoxlu və müxtəlif cavablar vardır. Halbuki, məsələnin həqiqəti ortadadır. Dəlil gətirməkdə iflasa uğramış kəslərin yolu bax budur.

Sonra deyir:

“Qurani-Kərim peyğəmbərlər və onların missiyalarından danışmış, lakin imamlar barədə heç nə deməmişdir, halbuki, şiələrin nəzərində imamlar peyğəmbərlərdən daha üstün və daha önəmlidirlər”[154].

**Deyirəm:** İmamların adının Qurani-Kərimdə gəlməməsi, Peyğəmbərdən (sallallahu əleyhi və alihi və səlləm) nəql olunan və Peyğəmbərin Qiyamətə qədərki xəlifələrinin sayının 12 olduğunu, onların Peyğəmbər itrətindən və Əhli-Beytindən olduğunu, onların birincilərinin Əli ibn Əbu Talib (əleyhissəlam), sonuncularının da həzrət Mehdi[155] (Allah onun zühurunu tezləşdirsin) olduğunu bildirən çoxsaylı dəlil və sübutları görməzdən gəlməyə əsas deyildir. Çünki Peyğəmbərin (sallallahu əleyhi və alihi və səlləm) sözü də Allahın sözü kimi höccətdir. Ona görə ki, Peyğəmbər özündən danışmır, nə danışırsa, hamısını vəhydən deyir. Allah-taala da onun sözünə tabe olmağı əmr etmişdir: “**Peyğəmbər sizə nə gətirsə, onu götürün, sizi nədən çəkindirsə, ondan çəkinin**”[156]. Lakin, əgər Osman əl-Xəmis Peyğəmbərin (sallallahu əleyhi və alihi və səlləm) sözünü

---

[153] “Tarixdən bir dövr”: səh.380.

[154] “Tarixdən bir dövr”: səh.380.

[155] Şiələrlə bərabər bir çox əhli-sünnə alimi on iki xəlifənin sonuncusunun həzrət Mehdi olduğunu demişdir.

[156] Həşr surəsi, 7-ci ayə.

höccət bilməyib onu rədd edir və qəbul etmirsə, onda başqa məsələ, belə olunca biz onunla başqa söhbət etməliyik.

Sonra Osman əl-Xəmis deyir:

“Nə üçün Əli şuranı qəbul etdi, Həsən Müaviyənin xeyrinə hakimiyyətdən çəkildi, Hüseyn Müaviyəyə beyət etdi və onların [şiələrin] bütün imamları xəlifələrə beyət etdilər?”[157].

**Deyirəm:**

**Birinci:** İmam Əlinin (əleyhissəlam) şuraya daxil olmağı qəbul etməsi, onun və övladları barəsində nəssin[158] olmaması anlamına gəlmir. Habelə, imamın şuraya daxil olmağı qəbul etməsi, imamın xəlifə və imam seçimində şura prinsipinin qanuniliyini təsdiq etməsi mənasına gəlmir. İmamın bu şuraya daxil olması, zülm və haqsızlıqla əlindən alınan siyasi hakimiyyətə gələ bilməsi üçün bir vasitə idi.

**İkinci:** Şiələrin inancına əsasən, Peyğəmbərdən sonra imam – Allah tərəfindən şəri hökmlər almaq vəzifəsi istisna olmaqla – Peyğəmbərin bütün vəzifələrini öz üzərinə alır. İmamın üzərində olan belə vəzifələrdən biri də zahiri-siyasi hakimiyyətdir. İmam Həsən (əleyhissəlam)-ın Müaviyə ibn Əbu Süfyan xeyrinə əl çəkdiyi vəzifə də məhz bu vəzifə - zahiri hakimiyyət vəzifəsidir. İmam onu əhatə edən çətin şərait üzündən və daha böyük bir zərərin qarşısını almaq məqsədiylə bu mənsəbdən əl götürdü. Lakin, İmam Həsən (əleyhissəlam) böyük imamət məqamından və üzərində olan bütün vəzifələrdən əl çəkmədi. İmamın belə bir şey etmək haqqı belə yoxdur; çünki onu böyük imamət məqamına seçən məhz Allahdır. Buna əsasən, onun zahiri-siyasi hakimiyyətdən əl çəkməsi onun və ya digər pak imamların (əleyhimussəlam) barəsində nəssin mövcud olmaması anlamına gəlmir.

**Üçüncü:** Əhli-Beyt imamlarından (əleyhimussəlam) heç biri hakimiyyət başına gəlib “xəlifə” adlandırılan şəxslərə beyət etməmişlər. İmam Əlinin və İmam Həsənin (əleyhiməssəlam) etdiyi iş, islamın və müsəlmanların mənafeyini nəzərə alaraq güzəştə getmək və sülh bağlamaqdır, vəssəlam. Şiələrin yanında İmam Hüseynin (əleyhissəlam) Müaviyəyə beyət etməsi də sübuta yetməyib. Bununla bağlı bir sıra əhli-sünnə rəvayətləri olsa da, bu rəvayətlər bizim üçün höccət deyildir. Digər imamlar (əleyhimussəlam) da həmçinin, bu şəkildədir. Onlardan birinin də hər hansısa bir hakimə beyət etməsi səhih yolla nəql edilməmişdir.

---

[157] “Tarixdən bir dövr”: səh.380.

[158] Nəss: Açıq-aşkar dəlil, işarə. Məsələn, Quran ayəsi, yaxud Peyğəmbər kəlamı nəss sayılır. Tərc.

Sonra Osman əl-Xəmis deyir:

"Bu hədis Əlinin imaməti üçün necə "nəss" ola bilər, bir halda ki, Əlidən nəql olunan sözlər, misal üçün, "Nəhcül-bəlağə"dəki sözlər bunun əksini çatdırır?!

"Mənim vəzir olmağım, sizin üçün mənim əmir olmağımdan daha xeyirlidir".

Əli xilafətə gələndə "nəss" iddiası etmədi, əksinə, camaatın onu bu mənsəbə gətirdiyini dedi:

"Şura etmək mühacir və ənsarların haqqıdır. Əgər onlar bir nəfərin ətrafına yığışıb onu imam adlandırsalar, Allahın razılığı bunda olar!"."[159]

**Deyirəm:**

**Birinci:** İmam Əli və onun nəslindən olan imamlar Peyğəmbərin (sallallahu əleyhi və alihi və səlləm) xəlifəsi məqamının və ondan sonra ümmətə dini və dünyəvi rəhbərlik işinin yalnızca özlərinə məxsus olduğunu deyir, Əbu Bəkr, Ömər, Osman və digər şəxslərin bu işdə heç bir pay və nəsibinin olmadığı bildirirdilər. Bu barədə onlardan nəql olunan sözlər kifayət qədərdir. Məsələn, İmam Əlinin (əleyhissəlam) belə buyurduğu nəql olunur:

"Agah ol! Allaha and olsun ki, Əbu Quhafənin oğlu (Əbu Bəkr) mənim xəlifəlik üçün dəyirmanın orta qütbü kimi olduğumu bildiyi halda xəlifəliyi köynək kimi əyninə geydi. Elm və maarif mənim feyz bulağımda sel tək çağlar, elm və bilik səmasında qanad çalanların heç biri mənim zirvəmə çata bilməz. Sonra (Əbu Quhafənin oğlu xəlifəlik köynəyini haqsız yerə geydiyinə və camaat onu təbrik etdiyinə görə) xəlifəlik köynəyini soyunub, ondan kənara çəkildim. Öz işlərim barəsində fikirləşdim ki, əlsiz (ordu və tərəfdarsız) hücum edim (öz haqqımı tələb edim), yoxsa qocaları həlak edən, gəncləri solduran və qocaldan, möminlərin (fəsadın aradan qalxması üçün) ölüncəyə qədər əziyyət çəkdiyi kor qaranlığa (xalqın azğınlığına) səbr edim. Səbr etməyin ağıllı iş olduğunu görüb, gözlərimi toz, çör-çöp, boğazımı isə sümük tutduğu halda səbr etdim. Mirasımın tarac olunduğunu görürdüm.

Birincisi (Əbu Bəkr) öz yolunun sonuna çatıb xəlifəliyi – özündən sonra – İbn əl-Xəttabın (Ömərin) boynuna atdı.

"Şəttani ma yəvmi əla kuriha
Və yəvmu-Həyyanə əxi Cabira"

(Bu şeri iki cür izah etmək olar, birincisi:)

Dəvənin donqar və palanı üstündə səfərin əzab-əziyyətinə qatlaşdığım bu günümlə Cabirin qardaşı Həyyanın dostu olaraq naz-nemət içrə keçirdiyim dünənim arasında nə qədər fərq var.

(İkinci məna isə:)

---

[159] "Tarixdən bir dövr": səh.380-381.

Dəvənin belinə minən mənimlə, səfərin məşəqqət və çətinliklərindən azad olan Cabirin qardaşı Həyyanın güzəranı arasında nə qədər fərq var.

Çox heyrətamiz və təəccüblüdür ki, sağlığında xalqdan beyətinin geri götürülməsini istəyir. Ancaq ölümünə bir neçə gün qalmış xəlifəliyə Öməri vəsiyyət edir. Bu iki qarətçi xilafəti dəvənin iki döşü kimi öz aralarında böldülər (dəvənin bir döşünü Əbu Bəkr, digərini isə Ömər öz əlinə götürüb sağdılar, dəvənin sahibini isə ondan məhrum etdilər). (Beləliklə, Əbu Bəkr xilafəti) hamar olmayan, sərt yerdə yerləşdirdi (Öməri özündən sonra xəlifə etdi), halbuki Ömər sərt və acıdil idi, onunla görüş əziyyət verici idi və (dini məsələlərdə) səhvləri, (verdiyi səhv fətvalara görə) etdiyi üzürxahlıqları saysız-hesabsız idi. Onunla ünsiyyət (həm İmamın, həm başqalarının onunla ünsiyyəti) cilovunu bərk tutduqda burnunu yaralayıb dağıdan, cilovunu boş tutub, öz başına buraxdıqda isə süvarsini həlak edən dikbaş, itaətsiz dəvəyə minmək kimi idi. Allaha and olsun, onun vaxtında camaat çətinliyə düçar olaraq, səhvə yol verdi və doğru yola qədəm qoymadan haqqdan uzaqlaşdı. Mən də bu uzun müddətdə (on il altı ay) dözdüm və ağır möhnətlə, qəmlə yoldaş oldum.

Ömər də öz yolunun sonuna yetişdi (və libası tərk etməzdən öncə) xilafət məsələsini, məni də onlardan biri güman etdiyi bir neçə adamın arasında ortaya qoydu. Pərvərdigara, təşkil olunmuş şuradan və etdikləri məşvərətdən sənə pənah gətirirəm. Camaat məni necə Əbu Bəkrə bərabər tutub, mənə şəkk-şübhə ilə yanaşdı? İş o yerə çatdı ki, bu gün belə şəxslərlə (şura üzvü olan beş nəfərlə) bir sırada dayandım. Bununla belə (yenə də səbr edib şurada iştirak etdim) eniş-yoxuşlarda onların ardınca getdim (məsləhətə görə, hər yerdə onlarla razılaşdım). Beləliklə, onlardan biri paxıllıq və kininə görə haqdan əl çəkərək batil yola qədəm qoydu, başqa birisi Osmanın kürəkəni və qohumu olduğundan məndən üz döndərdi. Başqa iki nəfərinsə (Təlhə ilə Zübeyr rəzalət və alçaqlığına görə) adını çəkmək rüsvayçılıqdır.

(Ömərin ölümündən sonra, onun göstərişilə yaradılan şurada) qövmün üçüncüsü (Osman) ayağa qalxdı (haqsız yerə xəlifəlik məqamını qəsb etdi). Yeyib bayıra getməkdən (çox yeyib-içməkdən şişən dəvə kimi) hər iki tərəfini şişirtmişdi və onun atalarının övladları da (onun qohumu olan Əməvilər) onunla əlbir idilər.

Onun dolaşıq ipi çözülənə qədər (səhabələr əhdlərini pozaraq yan-yörəsindən uzaqlaşana qədər) iştahlı dəvə bahar otlarının hamısını yediyi kimi Allahın malını (müsəlmanların beytül-malını) yeyirdilər (yoxsulları və bu mala haqqı olanları isə məhrum, ac saxlayırdılar). Rəftarı qətlinin tezləşməsinə, qarnının doluluğu devrilməsinə səbəb oldu.

(Osmanın öldürülməsindən) sonra kaftarın boynunun tükütək camaatın məni dövrəyə almasından başqa heç nə məni bu çətin və böyük işə vadar etmədi. Hər tərəfdən üstümə elə hücum çəkdilər ki, izdihamdan, camaatın çoxluğundan Həsən

və Hüseyn ayaq altında qaldılar. Paltarım və əbam hər iki tərəfdən cırıldı, (beyət etmək üçün) qoyun sürüsü kimi məni dövrəyə aldılar. Beyətlərini qəbul edib xəlifəliyə başladıqda isə bir hissəsi (Təlhə, Zübeyr və başqaları) mənimlə olan beyətlərini pozdu, bir dəstə (Nəhrəvan Xəvarici və başqaları) beyətdən çıxdı, bəziləri isə (Müaviyə və sair şəxslər) Allah-təalanın itaətindən çıxdılar. Sanki, müxaliflər pak olan Allahın (Qəsəs surəsinin 83-cü ayəsində) "əbədi sarayı məqsədləri yer üzündə ucalıq və fitnə-fəsad törətmək olmayanlar üçün yaratdıq. Gözəl mükafat pərhizkarlar üçündür", - deyə buyurduğunu eşitməyiblər. Bəli, Allaha and olsun, bu ayəni eşidib və əzbərləyiblər. Lakin dünya onların gözlərini qamaşdırıb və dünyanın zinəti isə onları aldatmışdır. (Haqqdan əl çəkərək itaətsizlik etmiş, yer üzündə fitnə-fəsad törətmişlər.)

Agah olun! Toxumu ortadan yaran və insanı xəlq edən Allaha and olsun, bu qədər camaat (mənə beyət etmək üçün) toplaşmasaydı, höccətin tamam olmasına kömək etməsəydilər, Allah-təalanın zalımın (zülm vasitəsilə) doyması və məzlumun (onun zülmündən) ac qalmasına razılaşmamaları üçün alimlərdən aldığı əhd olmasaydı xəlifəlik dəvəsinin yüyənini hər an onun hörgücünün üstünə atardım, xəlifəliyin sonuna əvvəlcə verdiyim kasada su verərdim. (Əvvəllər də bu işi etmədiyim kimi indi də kənara çəkilər, xəlifəliyi tərk edib camaatı öz başlarına buraxardım, çünki) bilirsiniz ki, sizin bu dünyanız mənim üçün dişi keçinin asqırığı qədər dəyərsizdir."[160]

Nəql edilir ki, Əli (əleyhissəlam)-ı "mən Allahın bəndəsiyəm, mən Allah Rəsulunun qardaşıyam", - deyə-deyə Əbu Bəkrin yanına gətirirlər. Ona Əbu Bəkrə beyət etməsini dedikdə, o deyir:

"Mən bu işə sizdən daha layiqəm. Mən sizə beyət etmərəm, siz mənə beyət etməlisiniz; siz Peyğəmbərə (sallallahu əleyhi və alihi və səlləm) qohumluğu dəlil gətirib bu işi ənsarın əlindən aldınız, indi də həmin işi qəsb ilə (Peyğəmbərə ən yaxın qohum olan) biz Əhli-Beytdən alırsınız?! Məgər siz Muhəmmədin sizdən olduğunu əsas edib xilafətə ənsardan daha layiq olduğunuzu iddia etmədiniz və onlar da bu səbəbdən xilafət və rəhbərliyi sizə ötürmədilər? Mən də ənsara gətirdiyiniz dəlili sizə gətirirəm; istər sağlığında, istərsə də vəfatından sonra Peyğəmbərə ən yaxın olan kəslər bizik, elə isə əgər möminsinizsə, bizimlə insaflı davranın! Əks halda bilə-bilə bizə qarşı zülm etmiş olacaqsınız.

Bu zaman Ömər dedi: "Beyət etməyincə səndən əl çəkməyəcəyik".

Əli dedi: "Sən özün üçün süd sağ. Bu gün onun (Əbu Bəkrin) işini möhkəmlət, qoy sabah o da işi sənə qaytarsın."

[160] "Nəhcül-bəlağə", Azərbaycan dilinə tərcümə (Ağabala Mehdiyev, Dürdanə Cəfərli, Etibar Quliyev), 3-cü xütbə, "Şiqşiqiyyə" xütbəsi.

Sonra dedi: “Allaha and olsun ki, ey Ömər, sənin sözünü qəbul etməyəcəyəm, ona beyət etməyəcəyəm...”!

Sonra deyir:

“Allahdan qorxun, Allahdan qorxun, ey mühacirlər! Muhəmmədin ərəblər arasındakı hakimiyyətini onun öz evinin içindən çıxarıb öz evlərinizə salmayın. Onun ailəsini onun camaat arasında sahib olduğu məqamdan və haqqdan (yəni, rəhbərlikdən) uzaqlaşdırmayın. Allaha and olsun ki, ey mühacirlər, biz rəhbərliyə hamıdan daha layiqik. Çünki biz Əhli-Beytik və bu işə sizdən daha layiqik. Allahın kitabını oxuyan, Allahın dinində dərin düşüncə sahibi (fəqih) olan, Allah Rəsulunun sünnələrinə agah olan, rəiyyətin (idarə edilməsi) işini (uğurla) öz çiyinlərinə alan, onları pis işlərdən qoruyan və (mal-dövləti) onlar arasında bərabər bölən şəxs bizim aramızdadır. Allaha and olsun ki, o şəxs bizim aramızdadır. Nəfsi istəklərə tabe olmayın, yoxsa Allahın yolundan azar və haqqdan uzaqlaşarsınız”.”[161]

Həmçinin, başqa bir yerdə buyurur:

“Siz bilirsiniz ki, xəlifəliyə mən hamıdan daha layiqli və hamıdan daha üstünəm. (Bununla belə, onu – Osmanı xəlifə seçirsiniz.) Allaha and olsun, müsəlmanların işləri nizam-intizamla davam edənədək (onların arasında fitnə-fəsad qopmayanadək) və başqasının xilafəti zamanında məndən başqasına zülm olunmayanadək xəlifəliyi (başqasına) buraxıram. (Öz haqqımı tələb etmir, ona göz yumuram.) Bu, (Haqq-təalanın məzlumlara əta etdiyi) əcr və savabı əldə etməyə, sizin vurğunu olduğunuz dünya malına, zinətinə (başçılıq və rəhbərliyə) rəğbətim olmadığına görədir”[162].

Həmçinin, buyurur:

“İlahi! Mən Qüreyşə və onlara yardım edənlərə qarşı Səndən kömək istəyirəm. Çünki onlar mənim qohumluq əlaqələrimi kəsdilər, mənim yüksək məqamımı aşağı hesab etdilər və mənə məxsus olan şeyə görə mənimlə vuruşmaq üçün əlbir oldular. Və dedilər: Bil ki, sənin onu əldə etməyin də haqdır, onun səndən alınması da! İndi istəyirsən qəm-qüssə ilə səbr et, istəyirsənsə də təəssüf və kədərlə öl. (Yəni, xilafətin qəsb edilməsinə razı olmasan səbr etmək və ya ölməkdən başqa bir çarən yoxdur.) Beləliklə, həmin zamanda əhli-beytimdən başqa bir dost, müdafiə edən və köməkçinin olmamasını gördüm və ölümün onları haqlamasına heyfim gəldi. (Əhli-Beytimin məhv olmaması üçün dava-dalaşa razı olmadım.) Buna görə də tikan batmış gözlərimi yumdum və boğazımda sümük qalmasına baxmayaraq, ağzımın suyunu uddum; qəzəbi yatırmaq üçün (çox acı bir

---

[161] “əl-İmamə vəs-siyasə” (İbn Qüteybə): 1/18-19.

[162] “Nəhcül-bəlağə” (Azərbaycan dilinə tərcümə): 73-cü xütbə.

bitki olan) əbucəhl qarpızından da acı olan və ürəyə böyük bıçaqlardan da çox ağrı verən şeyə səbr etdim.”[163]

Həmçinin, buyurur:

“Bir nəfər dedi: “Əbu Talibin oğlu! Sən bu işə çox hərissən!” Dedim: Xeyr! Allaha and olsun ki, siz daha hərissiniz və (Peyğəmbərə) uzaqsınız, mən isə ona daha layiqəm və (Peyğəmbərə) daha yaxınam. Mən özümə məxsus olan haqqımı istədim, siz qoymursunuz ki, ona çatam. Sonra orada olanların yanında sübutla onu məğlub etdim, dayandı, mat qaldı və bilmədi ki, nə cavab versin”[164].

Həmçinin, buyurur:

“Nöqsan sifətlərdən pak və uzaq olan Allah Məhəmmədi (səlləllahu əleyhi və alih) bəşəriyyəti (ilahi əzabdan) qorxudan və (insanların nicatı üçün Allah tərəfindən göndərilmiş) peyğəmbərlərə şahid kimi göndərmişdir. O Həzrət – səlləllahu əleyhi və alih – vəfat etdikdən sonra müsəlmanlar xilafət barəsində çəkişmə və qalmaqala düşdülər. Allaha and olsun ki, qəlbimə gəlmir və fikrimdən belə keçmirdi ki, ərəblər o Həzrətdən (sallallahu əleyhi və alihi və səlləm) sonra xilafəti onun Əhli-Beytindən başqa birinə həvalə edəcək və (bütün tapşırıqlara və məni Qədir-Xumda və digər yerlərdə aşkar şəkildə xilafətə təyin etməsinə baxmayaraq,) o Həzrətdən sonra onu məndən əsirgəyəcəklər. Məni (yəni, hər bir ağıllı və agah şəxsi) camaatın beyət etmək üçün filankəsə (Əbu Bəkrə) tərəf tələsmələrindən başqa bir şey narahat etmədi (və ya təəccübləndirmədi). Beləliklə, (həmin vəziyyətdə) əl saxladım (onları öz ixtiyarlarına buraxdım). Nəticədə camaatın bir dəstəsinin dindən dönərək mürtəd olduqlarını və İslamdan qayıdaraq Məhəmmədin (sallallahu əleyhi və alihi və səlləm) dinini məhv etmək istədiklərini gördüm. Qorxdum ki, İslam və müsəlmanların köməyinə başlamasam, onda nöqsan və dağıntı (yaranmasını) görərəm və onun müsibət və kədəri mənim üçün, nəticəsi (susuz adamın su sandığı) ilğım kimi (yaxınlaşanda) yoxa çıxan və ya bulud kimi səpələnən bir neçə günlük müvəqqəti mal olan sizə hakimlik və vilayəti əldən çıxarmaqdan daha ağır olar. Buna görə də həmin hadisə və dağıdıcı hərəkətlərin arasında ayağa qalxdım (İslam və müsəlmanlara kömək edərək onları məəttəlçilik və çaşqınlıqdan qurtardım). Nəticədə əyrilik və təxribatların qarşısı alındı və onlar məhv oldular, din (mürtəd və dağıdıcıların fitnələrindən) sakitlik taparaq (nigarançılıqdan) qurtulub öz yerində qərar tutdu”[165].

Həmçinin, buyurur:

“Hardadır biz əhli-beytdən başqa elmdə (xilqətin sirləri, Qurani-Kərimin təfsiri və təvilində) özlərini bilikli sayanlar? Onların iddiası yalan və bizə zülmdür. Çünki Allah-təala bizə üstünlük verib və onları aşağı tutmuşdur. (Bu məqam və

---

[163] “Nəhcül-bəlağə”: 208-ci xütbə.

[164] “Nəhcül-bəlağə”: 172-ci xütbə.

[165] “Nəhcül-Bəlağə”: 62-ci məktub.

rütbəni) bizə əta edib onları bundan bəhrəsiz etmişdir. Bizi daxil edərək onları çıxarmışdır. Bizim vasitəmizlə doğru yol istənilər, korluq və azğınlıqdan gözün açılması dilənər. Həqiqətən də dinin başçıları - İmamlar Haşimdən yaranmış Qüreyşdəndir. (Əli və Fatimə (əleyhiməssəlam)-ın nəslindəndirlər.) İmamlıq və xəlifəlik onlardan qeyrisinə layiq deyil, onlardan başqa heç kim rəhbər ola bilməz."[166]

Həmçinin, buyurur:

"Bu ümmətdən heç kim Muhəmməd (sallallahu əleyhi və alihi və səlləm) Əhli-Beyti ilə müqayisə oluna bilməz və həmişə onların nemət və bəxşişindən (elm və maariflərindən) bəhrələnənlər, onlarla eyni deyildirlər (belə isə, necə özlərini onlardan üstün bilərək xalqı öz tərəflərinə çağırırlar, halbuki) Muhəmmədin (sallallahu əleyhi və alihi və səlləm) Əhli-Beyti dinin əsası və təməli, iman və yəqinliyin dirəyidir. Haqq yoldan uzaq düşənlər onlara üz tutar, əlacsızlar onlara qoşularlar. İmamətin xüsusiyyətləri onlarda cəm olmuşdur və onların haqqıdır. Onlar barəsində (Allah Rəsulunun) vəsiyyəti və (O hörmətli vücuddan) irs aparmaq sabit olmuşdur. İndi haqq öz əhlinə tərəf qayıtmış, tərk etmiş olduğu yerə dönmüşdür (çünki bundan əvvəl əmirlik və xilafəti qəsb, bu mənsəbə layiqli olanı isə dustaq etmişdilər)."[167]

Həmçinin, buyurur:

"İlahi, mənə etdiyinə görə Qüreyşin qarşılığını ver. Onlar (qüreyşlilər) mənimlə qohumluq tellərini qırdılar, mənə qarşı çıxdılar, məni öz haqqımdan uzaqlaşdırdılar, əmim oğlunun hakimiyyətini mənim əlimdən aldılar, sonra da bu hakimiyyəti nə Peyğəmbərə yaxınlıqda və nə də İslamı tez qəbul etməkdə mənimlə bir olmayan bir şəxsə təhvil verdilər"[168].

Həmçinin, buyurur:

"Bilin! Dənəni yarıb məxluqatı yaradana and olsun, ümmi Peyğəmbər mənə "məndən sonra ümmət sənə xəyanət edəcək", - deyə xəbər verib"[169].

Həmçinin, buyurur:

"Allah öz Peyğəmbərini (sallallahu əleyhi və alihi və səlləm) öz yanına alınca, biz dedik ki, onun ailəsi, varisləri, itrəti və vəliləri bizik, onun hakimiyyəti barəsində heç kəs bizimlə mübahisəyə girməz, heç kəs bizim haqqımıza tamah salmaz. Lakin tayfamız bizə qarşı çıxıb Peyğəmbərimizin hakimiyyətini qəsb ilə əlimizdən aldı. Hakimiyyət bizdən başqalarına keçdi, biz də rəiyyət olduq; zəif

---

[166] "Nəhcül-Bəlağə": 144-cü xütbə.

[167] "Nəhcül-bəlağə": 2-ci xütbə.

[168] "Nəhcül-bəlağə": səh.409 (orijinal).

[169] "Buğyətül-bahis ən zəvaidi-müsnədil-haris": 2/905, hədis: 984. "əl-Müstədrək ələs-səhiheyn": 3/153, hədis: 4686. Hakim hədis üçün "**səhihdir**", - demiş, Zəhəbi də "Təlxis" kitabında onunla razılaşaraq "**səhihdir**", - demişdir.

bizə tamah saldı, zəlil bizim üstümüzə yekələndi. Gözlərimiz bu vəziyyətə ağladı, qəlblərimiz incidi, canlarımız narahat oldu. Allaha and olsun, əgər müsəlmanlar arasında ayrılıq düşməsi, küfrün yenidən qayıdıb dinin aradan getməsi qorxusu olmasaydı, davrandığımız kimi deyil, başqa cür davranardıq”[170].

Böyük səhabə Amir ibn Vasilə Əbüt-Tüfeyl belə nəql edir:

“Şura günü qapının ağzında dayanmışdım. Birdən içəridəkilər arasında səslər yüksəldi və Əlinin (əleyhissəlam) belə dediyini eşitdim:

“Mən Əbu Bəkrdən daha layiq və daha haqlı olduğum halda, camaat Əbu Bəkrə beyət etdi. Mən də camaatın yenidən küfrə qayıdıb qılıncla bir-birlərinin boynunu vurmalarından qorxduğum üçün, eşidib itaət etdim. İndi siz istəyirsiniz ki, Osmana beyət edəsiniz?!

Elə isə, nə eşidirəm, nə də itaət edirəm! Ömər, yaxşılıq və xeyirdə məni onlardan fəzilətli bilmədiyi, onların da məni özlərindən fəzilətli bilmədikləri – hamımızın eyni olduğunu düşündükləri bir halda məni altı nəfərlik şuranın arasına saldı. Allaha and olsun! Əgər nə ərəbin, nə əcəmin, nə bunlarla həmpeyman olanların və nə də müşriklərin bircə dənəsini belə rədd edə bilməyəcəyi şəkildə (öz fəzilətlərim barədə) danışmaq istəsəm, bunu edərəm”.”[171]

İmam Həsən (əleyhissəlam) Müaviyə ilə sülh bağladıqdan sonra deyir:

“Müaviyə sırf mənə məxsus olan bir haqq barəsində mənimlə çəkişdi. Mən də ümmətin xeyrini və fitnənin kəsilməsini istədim...”

Sonra deyir:

“Gördüm ki, qanın qorunması, onun axıdılmasından daha xeyirlidir (beləcə sülh bağladım). Bu işlə yalnız sizin xeyrinizi və həyatda qalmanızı düşündüm”[172].

İmam Əli ibn Hüseyn (əleyhissəlam) buyurur:

“Bizim öz tayfamız arasındakı durumumuz, İsrail övladlarının Fironun adamları arasındakı durumu kimi oldu. Fironçular İsrail övladlarının kişilərini öldürür, qadınlarını sağ saxlayırdılar.

İnsanlar bizim ağamız və böyüyümüzü təhqir edib onu minbərlər üstündən söyməklə düşmənimizə yaxınlaşmağa başladılar. Qüreyş özünün ərəblər üzərində üstünlüyünün olduğunu iddia etdi, çünki Muhəmməd (sallallahu əleyhi və alihi və səlləm) onlardan idi, buna görə də digərləri üzərində üstünlükləri vardır. Ərəblər də bunu təsdiq etdilər. Sonra ərəblər özlərinin əcəmlər üzərində üstünlüklərinin olduğunu iddia etdilər, çünki Muhəmməd (sallallahu əleyhi və alihi və səlləm) onlardan idi, buna görə də digərlərinin üzərində üstünlükləri vardır. Əcəmlər də bunu təsdiq etdilər.

---

170 “Nəhcül-bəlağə”: səh.102 (orijinal).

171 “Fəraidüs-simteyn”: 1/320.

172 “Biharül-ənvar”: 44/665.

Əgər ərəblər Muhəmmədin (sallallahu əleyhi və alihi və səlləm) özlərindən olmasını əsas gətirirək özlərini əcəmlərdən, Qüreyş də onun özündən olmasını əsas gətirirək də özünü digər ərəblərdən üstün bilərkən doğruçu idilərsə, onda (bilməlidilər ki,) biz Əhli-Beyt də Qüreyşdən üstünük, çünki Muhəmməd (sallallahu əleyhi və alihi və səlləm) bizdəndir. Lakin, onlar bizim haqqımızı (öz xeyirlərinə) istifadə edib onu bizim üçün tanımadılar"[173].

İmam Baqir (əleyhissəlam) buyurur:

"Peyğəmbər (sallallahu əleyhi və alihi və səlləm) bizim insanlar üzərində (hakimiyyət etməyə) hamıdan daha haqlı olduğumuzu bizə bildirdikdən sonra dünyadan köçdü. Lakin, Qüreyş bizə qarşı paxıllıq edib işi öz mənbəyindən uzaqlaşdırdı. Bizim haqqımız və dəlilimiz ilə ənsara dəlil gətirdi. Sonra da bu hakimiyyəti öz arasında birindən digərinə ötürməyə başladı."[174]

İmam Sadiq (əleyhissəlam)-dan nəql edilən səhih bir hədisdə deyilir:

"Allah Rəsulu (sallallahu əleyhi və alihi və səlləm) Allahın kitabını və vəsisi möminlərin əmiri, təqvalıların imamı, Allahın qırılmaz və möhkəm ipi və Allahın möhkəm əhdi Əli ibn Əbu Talibi (əleyhissəlam) öz ümməti arasında xəlifə qoyaraq dünyadan köçdü... Muhəmməd (sallallahu əleyhi və alihi və səlləm) ümmətindən hər kim öz imamının vacib haqqını tanısa, imanının şirinliyini dadar, islamının gözəlliyini anlayar. Çünki, Allah və Onun elçisi imamı bəndələrə öndər və höccət təyin etmişlər. Allah imama vüqar tacı geyindirmiş, onu öz cabbarlıq nuru ilə çulğalamışdır. İmam(ın elmi) müəyyən bir vasitə ilə səmaya uzanır, səmanın xəbərləri ondan kəsilmir... Allah bəndələrin əməllərini yalnız onu tanıdıqları zaman qəbul edir..."[175].

Əllamə Səffar (Allah ona rəhmət etsin) "Bəsairüd-dərəcat" kitabında səhih sənədlə Əbüs-Səbah əl-Kinanidən belə nəql edir:

"Əbu Abdullah (əleyhissəlam) dedi: "Ey Əbüs-Səbah, biz elə kəslərik ki, Allah bizə itaət etməyi vacib etmişdir. Ənfal[176] və malın xalis hissəsi[177] bizə aiddir. Elmdə güclü olanlar bizlərik. Allahın "**Yoxsa onlar Allahın Öz lütfündən insanlara verdiyi şeyə görə onlara həsəd aparırlar?**"[178] ayəsindəki "həsəd aparılan" şəxslərik"[179].

Şeyx Səduq (Allah ona rəhmət etsin) səhih sənədlə Əbu Bəsirdən belə nəql edir:

---

[173] "ət-Təbəqatul-kubra" (İbn Səd): 5/220.

[174] "Şərhü-nəhcil-bəlağə" (İbn Əbil-Hədid): 11/43.

[175] "Bəsairüd-dərəcat": 381-382.

[176] Döyüş qəniməti. Tərc.

[177] "Səfvul-mal": əldə edilən qənimət paylanmadan imamın özü üçün istədiyi malı götürməsi. Tərc.

[178] Nisa surəsi, 54-cü ayə.

[179] "Bəsairüd-dərəcəat": səh.199.

“Əbu Cəfər (əleyhissəlam) “**Ey iman gətirənlər, Allaha itaət edin, Peyğəmbərə və özünüzdən olan əmr sahiblərinə itaət edin**”[180], yəni, Əli və Fatimənin (əleyhiməssəlam) övladlarından olub Qiyamətədək gələcək imamlara itaət edin.[181]”[182]

Yenə, Şeyx Səduq səhih sənədlə Əbül-Həsən əl-Leysidən belə nəql edir:

“Ümmətimin hər bir nəsli arasında mənim Əhli-Beytimdən bir nəfər adil şəxs olacaq. O şəxs bu dini ifratçıların təhrifindən, batilə uyanların hiyləgər işlərindən və cahillərin yozumlarından qoruyacaq. Sizin imamlarınız Allaha gedən yolda sizin başçılarınızdır. Elə isə dininizdə və namazınızda kimə iqtida etdiyinizə (kimin ardınca getdiyinizə) diqqət edin.”[183]

Əllamə Səffar səhih sənədlə İbn Əbu Yəfurdan belə nəql edir:

“Əbu Abdullah (əleyhissəlam) mənə dedi: “Ey Əbu Yəfurun oğlu, Allah (təbarək və təala) vahiddir (oxşarı, bənzəri yoxdur), yeganə vahid olan Odur. O, öz işində təkbaşınadır[184]. O, bir sıra kəslər yaradaraq onları bu iş üçün ayırmışdır.[185] Həmin şəxslər bizik. Ey Əbu Yəfurun oğlu, biz Allahın öz bəndələri arasındakı höccətləriyik, məxluqatı arasındakı şahidləriyik, Onun elminin əmanətdarları və xəzinədarlarıyıq, Onun yoluna çağıran şəxslərik və Onun yolunda olan şəxslərik. Kim bizə itaət etsə, Allaha itaət etmişdir”.”[186]

Siqətül-islam Şeyx Kuleyni (Allah ona rəhmət etsin) “**Sən ancaq xəbərdar edənsən. Hər qövmün bir yolgöstərəni vardır**”[187] ayəsinin təfsirində İmam Baqir (əleyhissəlam)-dan səhih sənədlə belə nəql edir:

“Allah Rəsulu (sallallahu əleyhi və alihi və səlləm) “xəbərdar edən”dir. Hər bir dövrdə isə bizdən bir yolgöstərən vardır. O yolgöstərən insanları Peyğəmbərin gətirdiyi şeylərə (elm və maarifə) yönləndirir. Peyğəmbərdən (sallallahu əleyhi və alihi və səlləm) sonra yolgöstərənlər Əli, onun ardınca da bir-bir digər vəsilərdir”[188].

Yenə, Şeyx Kuleyni səhih sənədlə Əmr ibn Hüreysdən belə nəql edir:

“Əbu Abdullahın (əleyhissəlam) hüzuruna getdim. Həmin vaxt o, qardaşı Abdullah ibn Muhəmmədin evində idi. Mən ona dedim: “Sizə fəda olum, sizi bu

---

180 Nisa surəsi, 59-cu ayə.

181 Cümləni başqa cür də başa düşmək olar: “Qiyamətədək imamlar Əlinin və Fatimənin (əleyhimussəlam) övladlarından olacaq”. Tərc.

182 “Kəmalüd-din və təmamün-nimə”: səh.222.

183 “Kəmalüd-din və təmamün-nimə”: səh.221.

184 “Öz işi” dedikdə şəriət nəzərdə tutula bilər. Yəni, şəriət qoymaq, şəri hökmləri təyin etmək yalnız Ona məxsusdur. O, bu işdə təkdir və heç bir kəslə ortaq deyildir. (Mazandarani). (Müt.).

185 Yəni, şəriət qoymaq və şəriət təyin etmək işi yalnızca Allaha məxsusdur, lakin Allah bu şəriəti və hökmləri bəndələrə izah etsinlər və çatdırsınlar deyə müəyyən şəxslər yaratmışdır. (Mazandarani). (Müt.).

186 “Bəsairüd-dərəcat”: səh.75.

187 Rəd surəsi, 7-ci ayə.

188 “əl-Kafi”: 1/192.

evə gətirən nədir?” Dedi: “Uzaqlaşmaq istəyi”. Dedim: “Sizə fəda olum, öz dinimi sizə təqdim edim?” Dedi: “Et”. Dedim: “Mənim buna inanıram ki, Allahdan başqa ilah yoxdur, O, tək və şəriksizdir. Muhəmməd Onun qulu və elçisidir. Qiyamət günü heç şübhəsiz baş verəcək və Allah qəbrlərdə olanları dirildəcək. Namaz qılmaq, zəkat vermək, Ramazan ayının orucunu tutmaq, həccə getmək, Allah Rəsulundan (sallallahu əleyhi və alihi və səlləm) sonra möminlərin əmiri Əli ibn Əbu Talibin vilayətinə, Həsənin və Hüseynin vilayətinə, Əli ibn Hüseynin vilayətinə, Muhəmməd ibn Əlinin vilayətinə, Muhəmməd ibn Əlidən sonra da sənin vilayətinə – Allahın salavatı olsun hamınıza – inam bəsləmək vacibdir. Sizlər mənim imamlarımsınız. Bu inanc üzərə yaşayır, bu inan üzərə Allaha ibadət edir və bu inanc üzərə ölürəm.”

İmam dedi: “Ey Əmr, Allaha and olsun ki, bu, Allahın və mənim atalarımın dinidir, hansı ki, mən də aşkarda və gizlində buna etiqad edirəm. Elə isə, təqvalı ol, dilinə yalnız xeyir söz gətir. Demə ki, “mən özüm-özümü hidayət etdim”, əksinə, Allah səni hidayət edib. Allahın sənə verdiyi nemətin şükrünü yerinə yetir. Üzbəüz gələndə gözünün içinə, arxasını çevirəndə başının arxasına tənə yeyən şəxslərdən olma[189]. Camaatı çiyninə mindirmə. Əgər camaatı çiyninə mindirsən, bir də görərsən ki, artıq boynuna çıxıblar.”[190]

Yenə, “əl-Kafi” kitabında səhih və ya müvəssəq bir sənədlə İsa ibn Səriydən belə nəql olunur:

“Əbu Abdullah (əleyhissəlam)-a dedim: “Mənə islamın əsaslarının nə olduğunu deyin, hansı ki, onları qəbul etsəm, əməlim düzələr və onlardan savayı bilmədiyim şeylərin mənə bir ziyanı olmaz.” Dedi: “Allahdan başqa ilah olmadığına və Muhəmmədin (sallallahu əleyhi və alihi və səlləm) Allahın elçisi olduğuna şəhadət vermək, həzrət Muhəmmədin (sallallahu əleyhi və alihi və səlləm) Allah dərgahından gətirdiyi şeyləri təsdiq etmək, mal-dövlətin zəkatını vermək və Allahın əmr etdiyi vilayəti – Muhəmməd ailəsinin (əleyhimussəlam) vilayətini qəbul etmək. Allah Rəsulu (sallallahu əleyhi və alihi və səlləm) buyurmuşdur ki, “kim imamını tanımadan ölsə, cahiliyyət ölümü ilə ölmüşdür”. Allah (əzzə və cəll) buyurur: “**Allaha, Peyğəmbərə və özünüzdən olan əmr sahiblərinə itaət edin**”. “Əmr sahibləri” Əli ilə başlayı, ondan sonra Həsən əmr sahibidir, sonra Hüseyn, Əli ibn Hüseyn, sonra Muhəmməd ibn Əli, sonra da bu minvalla davam edir. Yer üzü imamsız qala bilməz. Kim imamını tanımadan ölsə, cahiliyyət ölümü ilə ölmüşdür. Sizlərin onu (zəmanənin imamını) tanımağa ən çox

---

[189] Yəni, yaxşı şəxslərdən ol; elə bir şəxs ol ki, camaat səni üzünə də tərifləsin, arxanca da tərifləsin. Üzbəüz gələndə üzünə, məclisdə olmayanda arxasına pis sözlər deyilən şəxslərdən olma. (Əllamə Məclisi) Tərc.

[190] “əl-Kafi”: 2/27.

ehtiyaclı olacağınız yer, canınız bura – əlini sinəsinə doğru qaldırdı – çatdığı vaxt olacaq. O zaman, “nə yaxşı bir inanc üzərə olmuşam!”, - deyəcəksiniz”[191].

Şeyx Müfid (Allah ona rəhmət etsin) özünün “əl-Əmali” kitabında səhih sənədlə İmam Sadiq (əleyhissəlam)-dan belə nəql edir:

“Allah Rəsulu (sallallahu əleyhi və alihi və səlləm) buyurmuşdur: Nə olub ki, ümmətimdən bir dəstənin yanında İbrahim və İbrahimin ailəsinin adı çəkiləndə, qəlbləri açılır, üzləri sevinir, mənim Əhli-Beytimin adı çəkilincə isə qəlbləri ikrah duyur, üzləri tutulur?!

And olsun məni haqq ilə peyğəmbər göndərənə, əgər bir şəxs Allahın hüzuruna yetmiş peyğəmbərin əməli ilə gəlib biz Əhli-Beytdən olan əmr sahiblərinin vilayəti ilə gəlməsə, Allah onun əməlindən heç bir şey qəbul etməyəcək!”[192].

“Əl-Kafi” kitabında səhih və ya müvəssəq sənədlə Səid ibn Yəsardan belə nəql edilir:

“Mən, Haris ibn Müğeyrə ən-Nəsri və Mənsur əs-Seyqəl Əbu Abdullahdan (əleyhissəlam) görüşmək üçün icazə aldıq. Əbu Abdullahın xidmətçisi Tahirin evində görüşməyi qərara aldıq. (Yaxud: “...Əbu Abdullahdan (hüzuruna daxil olmaq üçün) icazə almaq istədik. Odur ki, onun xidmətçisi Tahirin evinə yollanmağı qərara aldıq”.) Əsr namazını qılıb Tahirin evinə yollandıq. Biz imamın yerdən azacıq hündür olan bir çarpayının üzərində dirsəkləndiyini gördük. Gəlib çarpayının yanında əyləşdik. İmam da qamətini düzəldib oturdu. Sonra ayaqlarını sallayıb yerə qoydu. Sonra dedi: “Allaha həmd olsun, insanlar sağa-sola səpələnib. Bir dəstə mürciə, bir dəstə xəvaric, bir dəstə də qədəriyyə adlanır, siz isə turabiyyə adlanırsınız.” Sonra and içərək dedi, “bilin, Allaha and olsun ki, Allahdan başqa ilah yoxdur, (yalnız) Peyğəmbər, Peyğəmbərin ailəsi və onların şiələri(nin) – Allah onların üzlərini nurlandırsın – (yolu haqqdır), bundan başqası əsla! Allaha and olsun ki, Allah Rəsulundan (sallallahu əleyhi və alihi və səlləm) sonra Əli insanlar üzərində hakimiyyət etməyə hamıdan daha layiq idi” İmam bu sözü üç dəfə dedi.”[193]

İmam Həsən (əleyhissəlam) buyurur: “Ay camaat, Müaviyə iddia edib ki, mən özümü xilafətə layiq görməmişəm, amma onu görmüşəm (buna görə də xilafəti ona təhvil vermişəm). Müaviyə yalan danışıb. Allahın kitabına və Allah Peyğəmbərinin sözünə əsasən, biz insanlara (onlar üzərində hakimiyyət etməyə) hamıdan daha layiqik”[194].

---

191 “əl-Kafi”: 2/21.

192 “əl-Əmali”: səh.115.

193 “əl-Kafi”: 8/333.

194 “Əmaliş-şeyxit-Tusi”: səh.559-560.

Bu mövzuda Əhli-Beyt imamlarından (əleyhimussəlam) nəql olunan kəlamlar çoxdur. Burada qeyd etdiyimiz sözlərdən başa düşülür ki, imamlar Peyğəmbərdən (sallallahu əleyhi və alihi və səlləm) sonra özlərinin rəhbər və imam olduqlarını düşünür, ümmətə rəhbərlik işinin özlərinə məxsus olmasını deyirmişlər. Bu, Osman əl-Xəmisin "bu hədis Əlinin imaməti üçün necə "nəss" ola bilər, bir halda ki, Əlidən nəql olunan sözlər bunun əksini çatdırır" iddiasının batil olduğunu göstərir.

**İkinci:** Əmirəlmöminin Əli ibn Əbu Talibə (əleyhissəlam) nisbət verilən "mənim vəzir olmağım, sizin üçün mənim əmir olmağımdan daha xeyirlidir" – sözü, böyük imamət və vilayət məqamına aid deyildir. Çünki bu məqam ilahi bir məqamdır. Onu Əmirəlmöminin (əleyhissəlam)-a Allah-taala vermişdir. Necə ki, bu kitabda qeyd olunan "Qədir-Xum", "vilayət", "mənzilət", "səqəleyn" və s. kimi hədislərdən bunu sübut edir. Bu söz, böyük imamət məqamının şaxələrindən biri olan siyasi hakimiyyətlə bağlıdır.

Bundan başqa, Osman əl-Xəmis İmamın sözünü tam şəkildə nəql etməmişdir. Həmişəki kimi, sözü kəsib doğramışdır. Bu da onun saxtakarlıqlarından növbəti biridir. İmama mənsub edilən söz tam şəkildə belədir:

"Məni qoyub başqa birisinə üz tutun. Biz, müxtəlif üzləri və rəngləri olan, qəlblərin dözmədiyi, ağılların tab gətirmədiyi bir işlə üz-üzəyik. Üfüqlər tutulub, yollar itib. Bilin, əgər sizin təklifinizi qəbul etsəm, öz bildiyim kimi davranacağam. Kiminsə sözünə qulaq asmayacaq, kiminsə danlağına etina etməyəcəyəm. Əgər məndən əl çəksəniz, onda mən də sizdən biri olacağam. Bəlkə də hakimiyyətə gətirdiyiniz şəxsin sözlərinə sizdən daha yaxşı qulaq asacaq və verdiyi əmrlərə sizdən daha yaxşı itaət edəcəyəm. Mənim vəzir olmağım, sizin üçün mənim əmir olmağımdan daha xeyirlidir". [195]

Söhbətdən belə anlaşılır ki, İmam (əleyhissəlam) ona beyət etmək üçün toplaşan kəslərə "əgər mənə beyət etsəniz, gərək beyətinizə sadiq ola, mənə mütləq şəkildə itaət edə və əmrlərimi heç bir etiraz olmadan yerinə gətirəsiniz, əgər belə olmayacaqsa, özünüzə başqa adam axtarın", - demək istəyir.

Durumlarından beyətə sadiq qalmayacaqları, yaxud, kamil şəkildə itaət etməyib əmrləri lazımi şəkildə icra etməyəcəkləri bilindiyi təqdirdə imamın camaatın beyətini qəbul etməmək haqqı vardır. Yuxarıdakı söz, İmamın Allah Rəsulundan (sallallahu əleyhi və alihi və səlləm) sonra ümmətin dini və dünyəvi işlərində rəhbər və imam olması ilə bağlı nəssin mövcud olmamasına dəlalət etmir.

Bütün bunlarla yanaşı, Əmirəlmömininə (əleyhissəlam) mənsub edilən bu söz səhih yolla da nəql olunmayıb.

---

[195] "Nəhcül-bəlağə": səh.181-182.

**Üçüncü:** İmama mənsub edilən digər sözə - “Şura etmək mühacir və ənsarların haqqıdır. Əgər onlar bir nəfərin ətrafına yığışıb onu imam adlandırsalar, Allahın razılığı bunda olar!” – sözünə gəlincə, nəql edilənlərə əsasən, bu sözü İmam (əleyhissəlam) Müaviyə ibn Əbu Süfyana göndərdiyi bir məktubunda qeyd edib. Biz o məktubun mətnini hafiz İbn Əsakirin “Tarixu-mədinəti-Diməşq” kitabında qeyd etdiyi şəkildə nəql edirik:

Bizə Əbu Abdullah əl-Bəlxi xəbər verib dedi: bizə Əhməd ibn Həsən ibn Xəyrun nəql edib dedi: bizə Həsən ibn Əhməd ibn İbrahim nəql edib dedi: bizə Əhməd ibn İshaq ət-Teyyibi nəql edib dedi: bizə Əbu İshaq İbrahim ibn Hüseyn nəql edib dedi: bizə Əbu Səid Yəhya ibn Süleyman əl-Cufi nəql edib dedi: bizə Nəsr ibn Müzahim nəql edib dedi: bizə Ömər ibn Səd əl-Əsədi Nümeyr ibn Vələdən, o da Amir əş-Şabidən nəql edib dedi:

“Əli Kufəyə gələndən sonra, Cərir ibn Abdullah əl-Bəclini Həmədanın valiliyindən uzaqlaşdırdı. Cərir yola düşüb Kufəyə gəldi və burada Əli ibn Əbu Talibə beyət etdi. Sonra Əli Şama Müaviyəyə bir elçi və məktub göndərmək istədi. Bu zaman Cərir ona dedi: “Ey möminlərin əmiri, onun yanına məni göndər. O, mənim nəsihətimi dinləyir, mənə məhəbbət bəsləyir. Mən gedib onu bu işi sənə təslim etməyə, səninlə birlikdə haqq üzərə olmağa və Allaha itaət edib Allahın kitabında yazılanlara tabe olduğu müddətcə sənin valilərindən və işçilərindən biri olmağa dəvət edərəm. Şam camaatını da sənə tabe olub sənin vilayətini qəbul etməyə səsləyərəm. Onların əksəriyyəti mənim tayfamdır, odur ki, mənim sözümdən çıxmayacaqlarına ümid edirəm.” Əştər Əliyə dedi: “Onu göndərmə və ona inanma. Allaha and olsun ki, mən onun meylinin onların meyli, niyyətinin onların niyyəti kimi olduğunu düşünürəm.” Əli ona dedi: “Onunla işin olmasın, (səbr et) görək bizə nə ilə qayıdır”.

Beləliklə, Əli onu Müaviyənin yanına elçi göndərdi. Onu göndərərkən ona belə dedi: “Mənim ətrafımda Allah Rəsulunun (sallallahu əleyhi [və alihi] və səlləm) sənin də tanıdığın din və düşüncə sahibi səhabələri vardır. Mən səni Allah Rəsulunun sənin barəndə dediyi xeyir sözə görə onlar arasından seçdim. Mənim məktubumu Müaviyəyə apar. Əgər müsəlmanların daxil olduğu şeyə (mənim vilayətimə) daxil olsa, heç; yox daxil olmasa, onda ona şərtlərin dəyişdiyini, hər şeyə hazır olmasını söylə. Ona bildir ki, mən onu vali kimi qəbul etmirəm, camaat da onu xəlifə kimi qəbul etmir”.

Cərir yola düşüb Müaviyənin yanına gəldi. Müaviyənin məclisinə daxil oldu. Allaha həmd-səna etdikdən sonra dedi: “Ey Müaviyə, Məkkə, Mədinə, Misreyn, Hicaz, Yəmən, Misir, Oman, Bəhreyn və Yəmamə camaatı sənin əmin oğlunun ətrafına cəmləşib. Bircə sənin olduğun bu qalaların (Şamın) camaatı qalıb. Onun da üzərinə bu ərazilərin vadilərindən sel axıb gəlsə, sel altda qalar. Mən səni

möminlərin əmiri Əliyə tabe olmağa dəvət etmək üçün gəlmişəm.” Bunu deyib Əlinin məktubunu ona verdi. Məktub belə idi:

Bağışlayan və mehriban Allahın adı ilə. Allahın bəndəsi və möminlərin əmiri Əlidən Müaviyə ibn Əbu Süfyana.

Şamdan mənə beyət etməyin sənə vacib olub. Çünki, Əbu Bəkrə, Ömərə və Osmana beyət edən şəxslər indi də mənə beyət ediblər. Odur ki, (xilafətin Allah və Peyğəmbər tərəfindən təyin edilmə ilə deyil, ümmətin ümumi rəyi ilə bərqərar olmasına və xalqın ümumi rəyə gələrək Əbu Bəkr, Ömər və Osmanı xəlifə təyin etməsinə əqidə bəsləyən sizlər bilməlisiniz ki, məni də xilafətə həmin şəxslər, yəni, xalq kütləsi təyin edib. Buna görə də) orada (beyətdə) olanların (Təlhə və Zübeyr kimilərin) ondan başqasını seçmək haqqları yoxdur. Orda olmayanın da (sənin kimilərin də) onu qəbul etməmək haqqı yoxdur. (Sizin əqidənizə görə xilafət məsələsində) məşvərət aparmaq mühacirlərin və ənsarın haqqıdır. Onlar toplaşaraq bir nəfəri xəlifə və imam adlandırsalar, Allahın razılığı da bunda olar. Əgər kimsə (xəlifədə) eyb və nöqsan tapması bəhanəsi ilə (məsələn, Müaviyə kimi) və ya (hakimiyyətə olan) bir istək və rəğbət nəticəsində (Cəməl əshabı kimi) onların işindən boyun qaçırsa, onu itaət etməyə vadar edərlər. Əgər (öyüd-nəsihət fayda verməsə və) onların göstərişlərini qəbul etməsə, onunla möminlərin yolundan başqa bir yol ilə getdiyi üçün vuruşarlar. Allah da onu üz tutduğu şeyin öhdəsinə buraxar, onu Cəhənnəmə – pis dönüş yerinə atar.

Təlhə və Zübeyr mənə beyət etdilər, sonra beyətlərini pozdular. Onların beyəti sındırmaları onların (mənə) qarşı çıxmaları demək idi. Mən də buna görə onlarla mübarizə apardım, nəticədə, onlar istəmədiklər halda haqq gəldi və Allahın işi zahir oldu. Elə isə, sən də müsəlmanların daxil olduğu şeyə daxil ol. Sənin barəndə ən çox istədiyim şey, sənin salamatlığındır. Lakin, əgər (bilə-bilə) özünü bəlaya atsan, onda başqa; belə olduğu təqdirdə, səninlə döyüşüb sənin qarşı Allahdan yardım istəyərəm.

Sən Osmanın qatilləri barəsində çox danışırsan. Sən camaatın daxil olduğu şeyə daxil ol, sonra Osmanın qatillərinə qarşı hökm verməmi istə. Mən də səninlə onlar arasında Allahın kitabına uyğun hökm verim. Amma sənin istədiyin şey, körpəni süddən kəsmək üçün edilən aldatmacadır[196]. Ey Müaviyə, canıma and olsun, əgər ağlına müraciət etsən və nəfsi istəklərinə göz yumsan, görərsən ki, mən Qüreyş arasında Osmanın qanından (öldürülməsindən) ən uzaq və ən təmiz adamam. Sən, xilafətə gəlmələri və şuraya daxil olmaları qadağan olan

[196] Uşağın süddən kəsilməsi üçün ananın sinəsinə uşağın xoşlamayacağı bir şeyin qoyulması yolu ilə uşağın tədricən süddən imtina etdirilməsi. Ərəbcədə “xud`atus-sabiyy anil-ləbən” deyə ifadə olun bu söz, insanı fikrini kiçik bir şeylə böyük bir şeydən yayındırmaq mənasını ifadə etmək üçün işlədilir. İmam bununla Müaviyənin əsl məqsədinin Osmanın qatillərini almaq deyil, hakimiyyət sevdası olduğuna işarə edir, “Osmanın qanı bəhanəsi ilə diqqətləri başqa yönə yönəldirsən”, - demək istəyir. Tərc.

tüləqadansan[197]. Mən Cərir ibn Abdullahı sənə və sənin yanında olanlara göndərmişəm. O, imanlı və hicrət etmiş bir şəxsdir. Elə isə beyət et. Allahdan başqa güc və qüvvət sahibi yoxdur”[198].

Gördüyünüz kimi, bu xəbəri Nəsr ibn Müzahim Ömər ibn Səd əl-Əsədidən, o, Nümeyr ibn Vələdən, o da Amir əş-Şabidən nəql etmişdir. Bu hadisəni Nəsr ibn Müzahim eyni sənədlə “Vaqatu-Siffeyn” kitabında da nəql etmişdir[199]. Xəbərin bundan başqa bir sənədi yoxdur. Onu nəql edən, şiələrin güvənilir bilmədiyi sünni ravi Şabidir. İbn Əbil-Hədid əl-Mötəzilinin “Şərhü-nəhcil-bəlağə” kitabında Əbu İshaqdan belə nəql edilir: “**Üç nəfər Əli ibn Əbu Talibə inanmır[200]: Məsruq, Mərrə və Şüreyh. Nəql edilmişdir ki, Şabi da bunların dördüncüsüdür**”. Bundan başqa, xəbərin sənədində Nümeyr ibn Vələ vardır. O, məchuldur. Bunu ər-Razi “əl-Cərh vət-tədil” kitabında, Zəhəbi də “Mizanül-itidal” kitabında bildirmişdir. Həmçinin, sənəddə Ömər ibn Səd əl-Əsədi vardır ki, onun da kim olduğu dəqiq şəkildə bilinmir, buna görə də o da məchuldur.

Buna əsasən, səhihliyi sünnilərin yanlarında belə sübuta yetməyən, rəvayətçiləri sünni və məchul olan bir hədisi şiə əleyhinə dəlil gətirmək tamamilə yanlış işdir. Hətta bu sözün həqiqətən də Əmirəlmöminin (əleyhissəlam)-ın tərəfdən deyildiyini fərz etsək belə, yenə də bu sözün o həzrətin orijinal sözümü olduğunu, yoxsa, ravinin onu öz əqidəsinə uyğun şəkildə kəsib-doğradığını və ya dəyişdirdiyini bilmirik.

Sonra Osman əl-Xəmis deyir:

“Mümkün deyil ki, imamlar barədə şiələrin zikr etdiyi bu hədislər mövcud olsun, lakin böyük şiə rəvayətçiləri, həmçinin, demək olar ki, hər imamdan sonra ixtilafa düşən şiə firqələri bu hədislərdən xəbərsiz olsunlar. Bu, qəti şəkildə bu hədislərin sonradan qondarıldığına dəlalət edir”[201].

**Deyirəm:**

**Birinci:** On iki imam və ya xəlifə (və ya əmir) hədisini təkcə şiələr nəql etməyib. Bu hədis sünnilərin səhih[202], sünən[203], müsnəd[204] və s. bu tipli hədis, tarix və tərcümeyi-hal kitablarında da nəql olunub. Mənim bildiyim qədəriylə, heç bir

---

[197] Tüləqa: Məkkə fəth edildiyi zaman əsir edilməyib bağışlanan və sərbəst buraxılan şəxslər. Bu şəxslər yalnız Məkkə fəth edildiyi zaman İslamı qəbul etmişlər. Tərc.

[198] “Tarixu-Diməşq”: 59/128.

[199] “Vaqatu-Siffeyn”: səh.29.

[200] Onu xəlifə kimi görmür, onu ədalətli bilmir. Tərc.

[201] “Tarixdən bir dövr”: səh.381.

[202] “Səhih” dedikdə səhih hədislərin toplandığı kitablar nəzərdə tutulur. Tərc.

[203] “Sünən” dedikdə altı sünən kitabı nəzərdə tutulur. Tərc.

[204] “Müsnəd” kitabları hədislərin şəxslərin adı altında toplandığı kitablardır. Bu növ kitablarda hər bir səhabədən nəql edilən hədislər o səhabənin adını daşıyan bölmənin daxilində verilir. Məsələn, İbn Abbasdan nəql edilən hədislər, İbn Məsuddan nəql edilən hədislər və s. Tərc.

sünni alimi bu hədisin səhihliyinə etiraz etməyib. Daha öncə bu hədisin bir sıra mənbələrinə, ravilərinə və onu nəql edən alimlərə işarə etdik.

Həmçinin, Peyğəmbərdən (sallallahu əleyhi və alihi və səlləm) sonra ümmətə rəhbərlik və xəlifəlik işinin Peyğəmbər itrətinə məxsus olduğunu bildirən səqəleyn hədisi də hər iki məzhəb tərəfindən nəql edilmişdir. Onu bir çox əhli-sünnə alimi nəql etmiş, onların bir çoxu bu hədisi səhih bilmişdir. Biz bu kitabın birinci cildində bu hədisin bir çox mənbələrini qeyd edərək onu səhih hesab edən çoxlu alimdən sitatlar göstərdik.

"Vilayət", "kisa" və "Qədir-Xum" kimi şiələrin İmam Əli ibn Əbu Talibin (əleyhissəlam) vilayət və imamətinin isbatına dair əsaslandıqları hədislər də bu cürdür. Bu hədisləri də əhli-sünnə alimləri öz kitablarında nəql edərək onu səhih bilmişlər. Biz bu kitabın birinci cildində bu hədislərin gəldiyi mənbələrdən də bəzilərini qeyd etdik, onları səhih bilən alimlərdən sitatlar göstərdik.

Buna əsasən, şiələrin əlində bu hədislərdən savayı başqa bir hədis olmasaydı belə, yenə də bu, onlara Peyğəmbərdən sonra müsəlmanlar üzərində imamət və vilayətin Peyğəmbər itrətinə xas olduğunu, itrətdən olan imamların sayının 12 olduğunu, onların Əli ibn Əbu Taliblə başlayıb, Mehdi ilə bitdiyini və başqalarının bu işdə heç bir nəsibinin olmadığını isbat etməyə yetərdi.

**İkinci:** Şiələrin tarix boyu bəzi imamlar barədə ixtilafa düşüb müxtəlif firqələrə parçalanmaları, onların on iki xəlifə hədisindəki on iki xəlifənin öz imamları olmasını demələrini rədd etmək üçün Osman əl-Xəmisə dəlil rolu oynamır. Çünki bu firqələrin hamısı (hansı ki, üç, ya dördündən başqa hamısı yox olub aradan gedib) imamlıqlarına etiqad etdikləri imamlar barədə nəss gəldiyini deyirlər. Bu şəxslər ya imamətlərinə etiqad etdikləri imamlar barədə nəss gəldiyinə dəlalət edən dəlillərinə əsaslanaraq bu sözü deyiblər, ya da heç bir dəlilləri olmadan nəfsi istəkləri üzündən belə bir şey iddia ediblər. Əgər birinci olsa, onda Osman əl-Xəmisin heç bir imam barədə nəss gəlmədiyi yönündə etdiyi iddia batil olacaq. Əgər ikinci olsa, onda da nəfsi istəklərinə uyub heç bir dəlil olmadan batil iddia edən şəxslərin gördükləri işə əsaslanıb onunla dəlil gətirmək olmaz.

**Üçüncü:** Bu firqələrin bəzisi imamların adlarını və saylarını açıqlayan mətn və hədislərdən xəbərsiz olduqlarına görə deyil, məhz bir sıra dünyəvi səbəblərə görə ortaya çıxmışdır. Məsələn, 7-ci imam Musa əl-Kazim (əleyhissəlam)-da dayanaraq onun oğlu 8-ci imam Əli ər-Rza (əleyhissəlam)-ın və ondan sonra gələn pak imamların (əleyhimussəlam) imamlığını qəbul etməyən "vaqifiyyə" firqəsi kimi. Bununla yanaşı, şiələri parçalamaq və həqiqi imamın ardıcıllarının sayını azaltmaq məqsədiylə, bu firqələrin bəzilərinin meydana çıxmasında, təşviq edilməsində və onların böyüklərinin maliyələşdirilməsində o zamankı hökumətlərin rolunun olması da istisna edilmir.

Bəli, bu firqələrinin bəzisinin yaranmasının səbəbi onun banisinin və bəzi avam şiələrin imamların adlarını və saylarını açıqlayan mətnlərlə tanış olmaması ola bilər, lakin bu şəxslərin bu mətnlərlə tanış olmaması, bu mətnlərin mövcud olmaması anlamına gəlmir. Məsələn, çağdaş dövrdə əhli-sünnə alimləri hamılıqla mütə nikahının sonradan haram edildiyini deyirlər. Bu nikahın haram edilmədiyi inancında olan şiələr Əbu Bəkrin hakimiyyəti boyunca və eləcədə Ömərin hakimiyyətinin ilk illərində səhabələrin bu növ nikah bağlayıb bu nikahın halallığına fətva verdiklərini bildirən səhih hədisləri onlara dəlil gətirdikdə, onlar cavab verirlər ki, bu nikahın Peyğəmbər tərəfindən haram edildiyi xəbəri bu nikahı edən və onun halallığına fətva verən səhabələrə çatmayıbmış, başqa sözlə, onlar bu məsələdən xəbərsiz olublar. Onların nəzərində səhabələrin mütə nikahının haramlığını bildirən bu mətnlərdən xəbərsizliyi mütə nikahının halallığına və mütənin haram edilməsi barədə gəlib çatan mətnlərin uydurmalığına dəlalət etmədiyi kimi, bəzi şiələrin də imamların sayını açıqlayan mətnlərdən xəbərsiz olmaları, bu mətnlərin uydurma və qondarmalığına dəlalət etmir.

Bundan başqa, həmin firqələrin ardıcıllarının sayı on iki imam şiələrinin sayına nisbətdə demək olar ki, heç nədir.

Bu firqələrin bəzilərinin tarixinə nəzər salan şəxs görər ki, bu firqələr ilk dəfə ortaya çıxdığı vaxtda onların nümayəndələrinin sayı ən uzağı bir əlin barmaqlarının sayı qədər olub. Bunun ardınca, hiylə və kələk yolu ilə avam və sadəlövh camaatı aldadıb öz sıralarına cəlb ediblər. Onların içəridə dindar və saleh olmadıqları halda çöldə özlərini dindar və saleh bir şəxs kimi göstərmələri, avam camaatın onların hiylə və yalanlarına aldanmasına səbəb olurdu. Buna baxmayaraq, bu firqələr möhkəm əsasa və dəlilə söykənmədiyinə görə, zeydilər və ismaililər istisna olmaqla, hamılıqla məhv olub aradan getmiş, bugünkü gündə onlardan heç bir əsər-əlamət qalmamışdır[205]. Lakin, on iki imam məzhəbi bütün bu firqələrin əksinə olaraq, gün keçdikdə çiçəklənmiş, onun ardıcıllarının sayı dövrdən dövrə artmışdır. Bioqrafiya kitablarına nəzər salan kəslər bu kitablarda vaxtikən bu məzhəblərin nümayəndəsi olub sonradan dəlil və sübutla öz məzhəbinin batilliyini və on iki imam məzhəbinin haqlığını anlamış, nəticədə öz məzhəbini atıb on iki imam məzhəbinə keçmiş kifayət qədər adama rast gələ bilər.

Daha sonra Osman əl-Xəmis deyir:

“On iki xəlifənin və onların dövrlərinin xüsusiyyətləri belədir:

-Xilafətə gələcəklər.

-Onların zamanında islam izzətli olacaq.

---

[205] Zeydilərin və ismaililərin varlığı da əslində onların güclü ideoloji əsaslara söynənmələrinə deyil, tarix boyunca mövcud olan müəyyən siyasi və ictimai səbəblərə bağlıdır. Tərc.

-Camaat onların ətrafına toplaşacaq.

Saydan başqa heç bir xüsusiyyət şiələrin imamlarına uyğun gəlmir. Say da bu hədisdən sonra iddia edilmişdir. Onu da nəzərə almaq lazımdır ki, Həsən əl-Əskəri övladı olmadan dünyadan köçmüşdür”[206].

**Deyirəm:**

**Birinci:** On iki xəlifə hədisindəki xəlifəlik və ya əmirlikdən məqsəd zahiri hakimiyyət deyildir. Hədisdəki xəlifəlik və əmirlikdən məqsəd bu on iki xəlifə və ya əmirin Peyğəmbərdən (sallallahu əleyhi və alihi və səlləm) sonra o Həzrətin naibləri, ondan sonra onun vəzifələrinin icraçıları, ümmətin dini və dünyəvi işlərdə rəhbərləri və möminlər üzərində vilayət sahibi olmalarıdır. Buna görə də, onlardan bəzilərinin zahiri hakimiyyətə gəlməmələri, onların bu hədisdə nəzərdə tutulan on iki şəxs olmadıqları mənasına gəlmir. Daha öncə göstərdik ki, hədisin xəbər məzmunlu olsa da, əslində o, göstəriş və əmr xarakterlidir. Peyğəmbər (sallallahu əleyhi və alihi və səlləm) müsəlmanlara öz xəlifələrinin sayının 12 olacağını bildirərək xəbər verir ki, bu 12 nəfər hakimiyyətə gələ bilsə, müsəlmanların işi yolunda, islam da izzətli olacaq. Buna əsasən, hədisdə bu on iki şəxsə tabe olmaq, onlara itaət etmək və islamın hökmlərini onlardan almaq göstərişi verilmişdir.

**İkinci:** Osman əl-Xəmis oxucunu aldadıb belə göstərməyə çalışır ki, güya hədislərə əsasən, ümmət hamılıqla bu 12 şəxsin ətrafına cəm olacaq[207]. Halbuki, bu, yanlışdır. Çünki, “ümmət onların ətrafına cəm olacaq” ifadəsi yalnız bir hədisdə gəlmişdir və o hədis də zəifdir. Hədisin zəifliyinə Muhəmməd Nasiruddin əl-Əlbani “Səhihü-sünəni-Əbi Davud” kitabında hökm vermişdir. Əlbani həmin hədisin “ümmət onların ətrafına cəm olacaq” sözü istisna olmaqla, səhih olduğunu bildirmişdir, dolayısı ilə “ümmət onların ətrafına cəm olacaq” ifadəsinin zəif olduğunu bildirmişdir. Deyir:

““Ümmət onların ətrafına cəm olacaq” – sözü istisna olmaqla səhihdir”[208].

**Üçüncü:** Osman əl-Xəmisin İmam Əsgəri (əleyhissəlam)-ın övladı olmadan dünyadan köçdüyünü deməsi açıq-aşkar yalandır. Şiə hədisləri İmam Əsgəri (əleyhissəlam)-ın övladının dünyaya gəldiyini, imamın onu dünyaya gəlməsini güvəndiyi xüsusi dostlarına xəbər verdiyini və uşağı onlara göstərdiyini sübut edir.

Şeyx Kuleyni səhih sənədlə Əbu Haşim əl-Cəfəridən belə nəql edir:

“Əbu Muhəmmədə (İmam Həsən Əskəriyə) (əleyhisəlam) dedim: “Əzəmətiniz sizdən söz soruşmağıma mane olur. İcazə verirsiniz ki, sizdən bir söz soruşum?”

Buyurdu: “Soruş”.

---

[206] “Tarixdən bir dövr”: səh.382.

[207] Yəni, onların imamətini qəbul edəcək. Onların ətrafına cəm olub, onları xəlifə edəcək. Tərc.

[208] “Səhihü-sünəni-Əbi Davud”: 3/19, hədis: 4279.

Dedim: “Ey ağam, sizin övladınız varmı?”

Dedi: “Bəli”.

Dedim: “Əgər sizə bir şey olsa, onu harada axtarım?”

Dedi: “Mədinədə”.[209]

Yenə Şeyx Kuleyni səhih sənədlə Abdullah ibn Cəfər əl-Himyəridən belə nəql edir:

Mən və Şeyx Əbu Əmr (Allah ona rəhmət etsin) Əhməd ibn İshaqın evində bir araya gəldik. Əhməd ibn İshaq mənə işarə etdi ki, ondan xələf barədə soruşum. Mən ona dedim: “Ey Əbu Əmr, mən səndən bir şey barədə soruşmaq istəyirəm. Səndən soruşmaq istədiyim şey barəsində şəkk etmirəm. Həqiqətən, mənim etiqad və dinim budur ki, yer üzü höccətsiz qala bilməz. Yalnız Qiyamətin baş verməsinə qırx gün qaldığı müddət istisnadır; həmin vaxt höccət qaldırılacaq, tövbə qapısı bağlanacaq. Bu zaman daha əvvəl iman gətirməyən, yaxud imanında bir xeyir əldə etməyən kəslərə (bundan sonra) gətirəcəkləri imanları fayda verməyəcək. Onlar Allahın yaratdıqları içərisində ən pis adamlardır. Qiyamət onların üzərinə qopacaq. Sadəcə istəyirəm ki, yəqinim artsın. Necə ki, İbrahim (əleyhissəlam) Rəbbindən ölüləri necə diriltiyini ona göstərməsini istəmiş, Allah da: “Məgər (ölüləri diriltməyimə) inanmırsan?”, - buyurmuşdu. İbrahim isə: “Bəli, inanıram, lakin ürəyim sakit (xatircəm) olmaq üçün (soruşdum)”, - deyə cavab vermişdi.

Əbu Əli Əhməd ibn İshaq mənə belə nəql etmişdir ki, Əbül-Həsənə (əleyhissəlam): “Kiminlə get-gəl edim, kimdən (elm-xəbər) əxz edim və kimin sözünü qəbul edim?”, - deyə sual verib. O isə buyurub ki: “Əl-Əmri ilə. O mənim güvəndiyim şəxsdir. Sənə məndən nə çatdırsa, (bil ki,) məndən çatdırır. Sənə məndən nə desə, (bil ki,) məndən deyir. Onu eşit və ona itaət et. Həqiqətən, o, siqə (güvənilən) və etibarlı şəxsdir”. Həmçinin, Əbu Əli mənə xəbər verib ki, o bu sualı Əbu Muhəmməddən də (əleyhissəlam) soruşubd. O da deyib ki: “Əl-Əmri və onun oğlu etibarlı şəxslərdir. Sənə məndən nə çatdırsalar, (bil ki,) məndən çatdırırlar. Sənə məndən nə desələr, (bil ki,) məndən deyirlər. Onları eşit və onlara itaət et. Həqiqətən, onlar güvənilən və etibarlı şəxslərdir”. Bu, dünyadan köçən iki imamın sənin barədə dedikləri sözlərdir”.

Abudullah əl-Himyəri (rəhiməhullah) deyir: “Bu zaman Əbu Əmr səcdəyə düşüb ağladı. Sonra dedi: “Sualını soruş”.

Ona dedim: “Sən Əbu Muhəmməddən (əleyhissəlam) sonrakı xələfi görmüsən?”

Dedi: “Allaha and olsun ki, bəli. Onun boynu belə idi – əli ilə işarə etdi”.

Ona dedim: “Bir sualım qaldı.”

Dedi: “Buyur.”

---

[209] “əl-Kafi”: 1/328.

Dedim: “Adı nədir?”

Dedi: “Sizə bu barədə soruşmaq haram edilib. Mən bunu özümdən demirəm. Mən heç bir şeyi halal və ya haram edə bilmərəm. Mən bunu ondan (əleyhissəlam) nəql edirəm. Sultan elə bilir ki, Əbu Muhəmməd (əleyhissəlam) bir övladı olmadan dünyadan gedib. Buna görə də onun mirasını bölümüş və həmin mirası haqqı çatmayan şəxs götürmüşdür. O (İmam Mehdi) isə öz ailəsi ilə birgə heç kəs onları tanımadan və onlara bir şey edə bilmədən gəzir (yaşayır). Əgər ad bilinsə, axtarış başlayacaq. Allahdan qorxun və bu işdən əl çəkin!”[210]

Bu iki səhih hədis İmam Əsgəri (əleyhissəlam)-ın övladının dünyaya gəldiyini və yaşadığını sübut edir. Şiə mənbələrində İmam Mehdi (əleyhissəlam)-ın dünyaya gəlməsinə dəlalət edən hədislər və dəlillər olduqca çoxdur.

Bir sıra əhli-sünnə alimləri də o Həzrətin (Allah zühurunu tezləşdirsin) dünyaya gəlməsini təsdiq etmişdir. Belə alimlərə misal olaraq aşağıdakıları göstərə bilərik:

1-İbn əl-Əsir əl-Cəzri özünün “əl-Kamil fit-tarix” kitabında 260-cı ilin hadisələrini nəql edərkən belə deyir:

“Bu ildə Həsən ibn Əli ibn Muhəmməd ibn Əli ibn Musa ibn Cəfər ibn Muhəmməd ibn Əli ibn Hüseyn ibn Əli ibn Əbi Talib – əleyhissəlam – vəfat etmişdir. O, Əbu Muhəmməd (Muhəmmədin atası) əl-Ələvi əl-Əsgəridir. O, imamiyyə məzhəbinin etiqadına görə on iki imamdan biridir. O, şiələrin Samirradakı səradabdan çıxacağını gözlədikləri Muhəmmədin atasıdır”[211].

2-İbn Xallikan özünün “Vəfəyatül-əyan” kitabında deyir:

“**Əbul-Qasim əl-Müntəzər.**

Əbul-Qasim Muhəmməd ibn əl-Həsən əl-Əskəri ibn Əli əl-Hadi ibn Muhəmməd əl-Cəvad. Az əvvəl qeyd olundu. İmamiyyə məzhəbinin əqidəsinə görə on iki imamın on ikincisidir. “Höccət” olaraq tanınır. O həmin şəxsdir ki, şiələr onun “müntəzər” (gözlənilən), “qaim” (qiyam edən) və “məhdi” olduğunu iddia edirlər. O, şiələrin nəzərində sərdabın sahibidir. Şiələr onun barəsində çox sözlər demişlər. Onlar onun axirəz-zəmanda Samirradakı sərdabdan zühur edəcəyini gözləyirlər[212]. O, 255-ci ilin şəban ayının 15-də cümə günündə dünyaya gəlmişdir. Atası vəfat edən zaman – onun barəsində danışıldı – onun beş yaşı olmuşdur.”[213].

---

[210] “əl-Kafi”: 1/329.

[211] “əl-Kamil”: 6/250.

[212] Bu, şiələrə atılmış zalım bir iftiradır. Heç bir şiə onun Samirradakı sərdabdan zühur edəcəyini deməmişdir. Şiələrin əqidəsinə görə, o Həzrət müqəddəs Məkkə şəhərindən zühur edəcək.

[213] “Vəfəyatül-əyan”: 4/176.

3-Şəmsəddin əz-Zəhəbi. Zəhəbi üç kitabında İmam Mehdi (əleyhissəlam)-ın dünyaya gəlməsini etiraf etmişdir. O, "Siyərü-əlamin-nübəla" kitabında İmamın tərcümeyi-halını qeyd edərək demişdir:

"əl-Müntəzər: Şərif Əbül-Qasim Muhəmməd ibn Həsən əl-Əskəri ibn Əli əl-Hadi ibn Muhəmməd əl-Cəvad ibn Əli ər-Rida ibn Musa əl-Kazim ibn Cəfər əs-Sadiq ibn Muhəmməd əl-Baqir ibn Əli Zeynül-abidin ibn Hüseyn əş-Şəhid ibn Əli ibn Əbi Talib, əl-Ələvi, əl-Hüseyni. İmamiyyə məzhəbinin məsum olduqlarını iddia etdiyi on iki seyyidin sonuncusudur. Lakin, Peyğəmbərdən başqa məsum yoxdur. Onlar bu Muhəmmədi xələf, höccət, sahibəzzəman adlandırır, onun Samirrada Sərdabdan zühur edəcəyini, hal-hazırda sağ olduğunu və zühur edib yer üzünü zülm və haqsızlıqla dolduğu kimi düzlük və ədalətlə doldurmayınca ölməyəcəyini deyirlər..."[214].

Həmçinin, özünün "əl-İbər fi xəbəri-mən-ğəbər" kitabında deyir:

"Bu ildə (256-cı ildə) Əbül-Qasim Muhəmməd ibn Həsən əl-Əskəri ibn Əli əl-Hadi ibn Muhəmməd əl-Cəvad ibn Əli ər-Rida ibn Musa əl-Kazim ibn Cəfər əs-Sadiq əl-Ələvi əl-Hüseyni dünyaya gəlib. Rafizilər onu xələf, höccət, mehdi, müntəzər və sahibəzzəman adlandırırlar. O, on iki şəxsin sonuncusudur"[215].

Həmçinin, "Tarixül-islam" kitabında İmam Həsən Əsgəri (əleyhissəlam)-ın tərcümeyi-halını qeyd edərkən deyir:

"Həsən ibn Əli ibn Muhəmməd ibn Əli ər-Rida ibn Musa ibn Cəfər əs-Sadiq. Əbu Muhəmməd əl-Haşimi əl-Hüseyni. Şiələrin məsum olduqlarını iddia etdikləri imamlardan biridir. Samirrada məskunlaşdığı üçün ona Həsən "əl-Əskəri" deyilir. Çünki, Samirraya "əl-Əskər" deyirdilər. O, rafizilərin "müntəzər" adlandırdıqları şəxsin atasıdır. 260-cı ildə 29 yaşında Allahın rəhmətinə qovuşmuş, atasının yanında dəfn edilmişdir. Anası kəniz olmuşdur.

Onun oğlu rafizilərin "qaim", "xələf" və "höccət" adlandırdıqları Muhəmməd ibn Həsənə gəlincə isə, o, 258-ci ildə dünyaya gəlmişdir. Həmçinin demişlər ki, 256-cı ildə dünyaya gəlmişdir. Atasından sonra iki il yaşamışdır, sonra isə yoxa çıxmışdır. Necə öldüyü bilinməmişdir. Onun anası Ümmü-vələddir."[216]

4-Səlahəddin əs-Safədi "əl-Vafi bil-vəfəyat" kitabında deyir:

"Əl-İmam əl-Müntəzərin atası əl-Əskəri: Həsən ibn Əli ibn Muhəmməd ibn Əli ər-Rida ibn Musa ibn Cəfər əs-Sadiq ibn Muhəmməd ibn Əli Zeynül-abidin ibn Hüseyn ibn Əli ibn Əbi Talib. Allah onlardan razı olsun. Əbu Muhəmməd əl-Əskəri. Şiələrin məsum olduqlarını iddia etdikləri imamlarından biridir. Samirriaya yerləşdiyinə görə ona Həsən "əl-Əskəri" deyilir. O, rafizilərin Müntəzər dedikləri şəxsin atasıdır...

---

[214] "Siyərü-əlamin-nübəla": 13/119-120.

[215] "əl-İbər fi xəbəri-mən-ğəbər": 2/37.

[216] "Tarixül-islam": 19/113.

Onun oğlu rafizilərin əl-Huccət əl-Xələf adlandırdıqları Muhəmmədə gəlincə isə, o, 258-ci ildə, həmçinin demişlər ki, 256-cı ildə dünyaya gəlmişdir...”[217].

5-Əbdül-Həyy əl-Hənbəli “Şəzəratüz-zəhəb” kitabında İmam Mehdi (əleyhissəlam)-ın tərcümeyi-halını qeyd edərək deyir:

“İmam Muhəmməd ibn əl-Həsən əl-Əskəri ibn Əli əl-Hadi ibn Muhəmməd əl-Cavad ibn Əli ər-Riza ibn Musa əl-Kazim ibn Cəfər əs-Sadiq ibn Muhəmməd əl-Baqir ibn Əli Zeynül-abidin ibn Hüseyn ibn Əli ibn Əbi Talib, Əbül-Qasim. Rafizilər onu “xələf”, “höccət”, “mehdi”, “müntəzər” və “sahibəzzəman” adlandırırlar. O, rafizlərin etiqadına əsasən on iki imamın on ikincisidir”[218].

6-İbn Həcər əl-Heysəmi “əs-Səvaiqul-muhriqə” kitabında İmam Əsgəri (əleyhissəlam)-ın tərcümeyi-halını qeyd edərkən deyir:

““‘...Deyilir ki, o da (İmam Əsgəri də) həmçinin zəhərlə ölmüşdür. Özündən sonra övlad olaraq yalnız oğlu Əbul-Qasim Muhəmməd əl-Huccəti qoyub getmişdir. Atası vəfat edən zaman onun beş yaşı olmuşdur. Lakin, Allah ona bu yaşda hikmət əta etmişdir. O, “əl-Qaimul-Müntəzər” (gözlənilən qiyamçı) adlanır. Demişlər ki, ona görə (gözlənilən adlanır) ki, Mədinədə gizlənmiş və qeybə çəkilmişdir. Hara getdiyi bilinməmişdir”[219].

7-Şeyx Abdullah əş-Şəbravi özünün “əl-İthaf bi-hubbil-əşraf” kitabında deyir:

“İmam Muhəmməd əl-Huccət ibn əl-Həsən əl-Xalis 255-ci ilin şəban ayının 15-də, atasının ölümündən beş il qabaq Samirrada dünyaya gəlmişdir. O, doğulduğu zaman atası zəmanənin çətinliyi səbəbindən və xəlifələrin qorxusundan onu gizlətmiş, doğumunu gizli saxlamışdır. Çünki o dövrdə xəlifələr haşimiləri axtarır, onları həbs etmək, öldürmək və edam etmək istəyirdilər”[220].

8-Muhəmməd ibn Yusif əl-Gənci əş-Şafei “Kifayətüt-talib” kitabında İmam Həsən Əsgəri (əleyhissəlam)-dan danışarkən deyir:

“O, Mədinədə doğulmuşdur. 260-cı ilin rəbiül-əvvəl ayının 22-də cümə günündə, 28 yaşında vəfat etmişdir. Samirrada öz evində dəfn edilmişdir. Dəfn edildiyi evdə atası da dəfn edilmişdir. Özündən sonra övlad olaraq oğlunu qoyub getmişdir. O, İmam Müntəzərdir, Allahın salavatı olsun ona”[221].

Bu şəxslərdən başqa da bir çox böyük əhli-sünnə alimi İmam Mehdinin (Allah zühurunu tezləşdirsin) dünyaya gəlməsini etiraf etmişdir. Daha çox adla tanış olmaq istəyənlər, Samir Haşim Həbib əl-Əmidinin “Difa anil-Kafi” kitabına, həmçinin, Şeyx Nəcməddin əl-Əskərinin “əl-Məhdiyyül-məvud inə üləmai-əhlis-sünnə vəl-imamiyyə” kitabına müraciət edə bilərlər.

---

217 “əl-Vafi bil-vəfəyat”: 12/70.

218 “Şəzəratüz-zəhəb”:

219 “əs-Səvaiqul-muhriqə”: 2/601.

220 “əl-İthaf bi-hubbil-əşraf”: səh.367-369.

221 “Kifayətüt-talib”: səh.413.

# OSMAN ƏL-XƏMİSİN SƏHABƏNİN ƏDALƏTİ MÖVZUSUNDA SÖZLƏRİNƏ CAVAB

## Osman əl-Xəmisin səhabənin ədaləti mövzusunda sözlərinə cavab

**Osman əl-Xəmis deyir:**

"Səhabənin ədaləti əhli-sünnə alimlərinin nəzərində sübuta yetmiş bir məsələdir. Həzrət Muhəmmədin (sallallahu əleyhi [və alihi] və səlləm) səhabələrinin ədaləti barədə əhli-sünnə vəl-cəmaatdan olan elm əhlinin fikirləri irəlidə qeyd olunacaq.

Allah-təala buyurmuşdur: "**Möminlər (Hüdeybiyyədə) ağac altında sənə beyət edərkən Allah onlardan razı qaldı. (Allah) onların qəlbində olanı bildi, onlara (mənəvi) rahatlıq nazil etdi və onları yaxın bir zəfərlə mükafatlandırdı.**"[222]

Bu ayəyə əsasən, Allah təbarəkə və təala kimdən razı olmuşdur?

– Ağacın altında Peyğəmbərə (sallallahu əleyhi [və alihi] və səlləm) beyət edən şəxslərdən.

Ardınca Allah nə deyir?

– Deyir: "Allah onların qəlbində olanı bildi", yəni, qəlblərində yer alan iman və dürüstlüyü bildi. Sonra deyir: "Beləcə, onlara (mənəvi) rahatlıq endirdi", yəni, həmin vaxt onlara rahatlıq endirdi.

Bu, ağacın altında Peyğəmbərə (sallallahu əleyhi [və alihi] və səlləm) "Rıdvan" beyəti edən şəxslərin həqiqi imana sahib olduqlarına dair Allah-təalanın bir şahidliyidir.

Eyni zamanda Peyğəmbərin (sallallahu əleyhi [və alihi] və səlləm) belə buyurduğu sübuta yetmişdir: "Qırmızı dəvənin sahibindən başqa ağacın altında beyət edən kəslərdən heç kim Cəhənnəmə girməyəcək."" [223]

Hədisdə bildirilən qırmızı dəvənin sahibi olan bu şəxs Peyğəmbər (sallallahu əleyhi [və alihi] və səlləm) ilə birlikdə yola çıxmış münafiqlərdən idi. Adı Cədd ibn Qeys idi. Ağacın altında Peyğəmbərə (sallallahu əleyhi [və alihi] və səlləm) beyət edənlərin sayı 1400 idi. Həmçinin, 1500 olduğu da deyilmişdir. Allah onların iman sahibi olduqlarına şahidlik etmiş, qəlblərinin zahiri əməllərinə uyğun olduğunu təsdiq etmiş və aralarında Peyğəmbərin xəbər verdiyi bir nəfər istisna olmaqla heç bir kəsin münafiq olmadığını bildirmişdir. Həmin şəxs də beyət edənlərlə birgə olsa da, Peyğəmbərə (sallallahu əleyhi [və alihi] və səlləm) beyət etməmişdi.[224]

---

[222] Fəth surəsi, 18-ci ayə.
[223] "Sünənüt-Tirmizi", №3863, "Səhihü-Müslim", 1496.
[224] "Hiqbətün minət-tarix", səh.144-145.

**Deyirəm:**

**Birinci:** Bu ayə səhabələrin hamısının ədalətli olmasına dəlalət etmir. Çünki, tarixçilərin qeyd etdikləri ən yüksək rəqəmə əsasən, "Rıdvan" beyətində iştirak edən səhabələrin sayı 1800 nəfər idi.[225] Ədalətli olduqları iddia edilən səhabələrin sayı isə 124 mindir. Elə isə bu ayəni səhabələrin bütünlüklə ədalətli olduqlarına dəlil gətirmək batil və yanlışdır.

**İkinci:** Allah-təalanın "Rıdvan" beyətində iştirak edən möminlərdən razılığının davam etməsi, onların bu beyəti pozmamalarına, yəni, düşmənlə döyüşdə sabitqədəm qalmalarına, döyüşdən qaçmamalarına və şəriət yolunda olub Allahın qəzəbinə səbəb olacaq hərəkət və ya sözlərə bulaşmamaların bağlıdır. Allah-təala buyurur: "**Sənə beyət edənlər Allaha beyət etmiş olurlar. Allahın əli onların əllərinin üstündədir. Kim əhdini pozsa, ancaq öz əleyhinə pozmuş olar. Kim də Allahla bağladığı əhdinə sadiq qalsa, (Allah) ona böyük mükafat verər**"[226]. Buna əsasən, ağac altında beyət edən şəxslərdən hansı biri öz beyətini pozaraq döyüşdə səbat göstərməzsə, sonadək vuruşmaz və döyüşdən qaçarsa, yaxud şəriət yolundan çıxıb qətl, zina, şərab içmək və s. bu kimi Allahın qəzəbinə səbəb olacaq böyük günahlar işləyərsə, o zaman Allahın razılığı ondan uzaqlaşar və həmin şəxs Allahın qəzəb etdiyi şəxsə çevrilər.

Buxari öz "Səhih"ində öz sənədi ilə Əla ibn əl-Museyyibdən, o da atasından belə nəql etmişdir:

**"Mən Bəra ibn Azib ilə qarşılaşıb ona dedim. "Xoş halına! Peyğəmbərə (sallallahu əleyhi [və alihi] və səlləm) səhabə oldun və ağacın altında ona beyət etdin." Bəra cavabında dedi: "Ey qardaşoğlu! Sən bilmirsən biz ondan sonra nələr etdik (nə bidətlər çıxardıq)."** [227]

Həmçinin, Malik ibn Ənəsin "əl-Muvatta" kitabında nəql olunan başqa bir hədisdə Ömər ibn Ubeydullahın azad etdiyi qul olan Əbun-Nadr ona belə xəbər çatdığını bildirir:

**"Allah Rəsulu (sallallahu əleyhi [və alihi] və səlləm) Uhud şəhidləri üçün "onlar barəsində (Cənnətlik olmalarına) şəhadət verirəm", - deyə buyurdu. Bu zaman Əbu Bəkr dedi: "Ey Allahın Rəsulu, məgər biz də onların qardaşları deyilikmi? Onlar kimi biz də müsəlman olduq, onlar kimi biz də cihad etdik (bizim üçün də şəhadət ver)." Allah Rəsulu (sallallahu əleyhi [və**

---

[225] Başqa bir rəyə əsasən, 1400 nəfər idi, bir başqa rəyə əsasən isə 1500 nəfər idi. Həmçinin, başqa rəylər də vardır.

[226] Fəth surəsi, 10-cu ayə.

[227] "Səhihül-Buxari", 4/1529, rəqəm 3937.

**alihi] və səlləm) buyurdu: “Əlbəttə, (elədir, siz də müsəlman olub cihad etmisiniz). Lakin, mən bilmirəm siz məndən sonra nələr edəcəksiniz.” Bu zaman Əbu Bəkr xeyli ağladı. Sonra dedi: “Səndən sonra biz qalacağıqmı?”.[228]**

Bütün bunlar onu göstərir ki, səhabə və ya qeyri-səhabə olmasından asılı olmayaraq Allah-təalanın öz bəndəsindən razı qalması həmin bəndənin Allahın itaətində olmasına bağlıdır. Əgər bəndə Allahın itaətindən çıxıb haqq olmayan yola baş vurarsa, o zaman Allah razılığı ondan uzaqlaşar və razılığın yerini qəzəb tutar. Buna görə də biz Peyğəmbərin (sallallahu əleyhi və alihi və səlləm) Uhud şəhidlərinin vəziyyətinə bələd olduğu üçün onlar barəsində şahidlik etdiyini, digər səhabələr üçün isə özündən sonra nə edəcəklərini bilmədiyi üçün şahidlik etmədiyini görürük. Əgər Allahın mühacir, ənsar və digər səhabələrdən razılığı mütləq və “sona qədər Allahın itaətində olmaq” şərti ilə şərtlənməmiş olsaydı, o zaman Allah Rəsulunun (sallallahu əleyhi və alihi və səlləm) bütün səhabələr üçün şəhadət verməsində bir maneə olmamalı idi.

Ağac altında Peyğəmbərə (sallallahu əleyhi və alihi və səlləm) beyət edən şəxslərin bir dəstəsi Hüneyn döyüşündə öz beyətlərini sındırdılar. Onlar döyüş meydanında məğlubiyyətə uğrayınca, Allah Rəsulunu (sallallahu əleyhi və alihi və səlləm) ərəb canavarlarının və müşriklərinin pəncəsində qoyub döyüşdən qaçdılar.

Hüneyn döyüşündə Peyğəmbərlə birgə olan müsəlmanların sayı təqribən 12.000 nəfər idi.[229] Onlardan Peyğəmbərə (sallallahu əleyhi və alihi və səlləm) yaxın olan az sayda şəxs istisna olmaqla, qalanları arxalarına baxmadan qaçdılar, Peyğəmbəri (sallallahu əleyhi və alihi və səlləm) kafirlər üçün asan bir hədəf edib onu döyüş meydanında tək qoydular. Peyğəmbər (sallallahu əleyhi və alihi və səlləm) Abbasa əmr etdi ki, döyüşdən qaçanları, xüsusilə də ağac altında beyət edənləri[230] səsləyib onlardan geriyə qayıtmalarını və yardım etmələrini istəsin. Lakin, onlardan cəmi 100 nəfəri qayıtdı.[231] Qalanları isə yalnız müsəlmanlar qələbə çaldıqdan sonra qayıtdılar. Cabir ibn Abdullah əl-Ənsari deyir:

---

[228] “əl-Muvatta”, 2/461. İbn Əbdül-Bərr “ət-Təmhid” kitabında (21/228) bu hədis barəsində deyir:

هذا الحديث مرسل هكذا منقطع عند جميع الرواة للموطأ ولكن معناه يستند من وجوه صحاح كثير

“**Bu hədis mürsəldir. “əl-Muvatta”nın bütün ravilərinin nəqlində qopuq sənədlədir. Lakin, onun mənası bir neçə cəhətdən bir çox səhih hədislərlə uyğunluq təşkil edir.**”

Deməli, hədis sənəd baxımından zəif olsa da, mətn etibarilə digər səhih hədislərlə uyğunluq təşkil etdiyi üçün məqbul sayılır.

[229] “əl-Mustədrək ələs-sahiheyn”, 2/132, rəqəm 2562; “əl-Mucəmul-kəbir”, 17/368, rəqəm 1010; “ət-Tarixul-kəbir”, İyad adlı səhabənin tərcümeyi-halı; “ət-Tabaqatul-kubra”, 2/155.

[230] “Səhihü-Müslim”, 3/1398; “Səhihi-İbn Hibban”, 15/524, hədis 7049.

[231] “Sirətu-İbn Hişam”, 5/113; “Zadul-məad”, 3/471; “Tarixut-Təbəri”, 2/168.

**“...Allaha and olsun, döyüşdən qaçan camaat yalnız əsirləri Allah Rəsulunun yanında əlləri bağlı halda gördükdən sonra geri qayıtdı.”**[232]

Hətta, fərz etsək ki, bu qayıdan 100 nəfərin hamısı “Ridvan” beyətində iştirak edən şəxslərdir, yenə də bir faydası olmur; çünki, bu 100 nəfərdən digərləri döyüşün sonuna qədər geri qayıtmamışlar.

Elə isə, görəsən, Allah döyüşdən qaçan bu “beyəti-Ridvan” əhlindən razı olarmı?!

**Cavab:** Heç şübhəsiz ki, xeyr. Çünki, Allahu-təala öz möhkəm kitabında buyurur ki, “**Ey iman gətirənlər, kafirlərlə - onların izdihamlı qoşunları sizə tərəf irəlilədiyi (ya siz onlara tərəf getdiyiniz) halda qarşılaşan zaman, onlara arxa çevirməyin (və meydandan qaçmayın). Həmin gün – döyüşü davam etdirmək üçün başqa bir yer axtaran (yenidən hücum etmək üçün geri çəkilmə fəndi işlədən) və ya (döyüşçü) dəstəyə qoşulmaq üçün yeni bir mövqe seçən şəxs istisna olmaqla – onlara arxa çevirən kəs mütləq, Allahın qəzəbini özünə qoşmuşdur və onun sığınacağı Cəhənnəmdir! Ora pis bir dönüş yeridir.**”[233]

Buna əsasən, “**Möminlər (Hüdeybiyyədə) ağac altında sənə beyət edərkən Allah onlardan razı qaldı. (Allah) onların qəlbində olanı bildi, onlara (mənəvi) rahatlıq nazil etdi və onları yaxın bir zəfərlə mükafatlandırdı**” ayəsini bütün səhabələrin ədalətli olmalarına dəlil gətirmək batil olduğu kimi, bu ayəyə əsasən ağac altında beyət edən şəxslərin hamısının ədalətli olduqlarını demək də batildir. Çünki, Allahın onlardan razılığının davam etməsi onların bu beyətlərini pozmamalarına və haqq yoldan ayrılmamalarına bağlı idi. Dəlillər bu şəxslərin bəzilərinin Hüneyn günündə bu beyəti pozduqlarını göstərir. İndi ki, kimlərin beyəti pozub kimlərin pozmadığı dəqiq şəkildə bilinmir, ağac altında beyət edən kəslərin hamısının ədalətli olmasını deyə bilmirik. Bəli, əgər konkret olaraq bilsək ki, filan-filan şəxslər beyət etdikləri gündən ta ölən günlərinədək öz beyətlərini pozmamış və Allahın qəzəbinə layiq olacaq günahlar görməmişlər, o zaman şübhə yox ki, ayə onların ədalətli olmalarına dəlalət edəcək.

**Üçüncü:** Osman əl-Xəmis iddia etmişdir ki, Hüdeybiyyə günündə Peyğəmbərin (sallallahu əleyhi və alihi və səlləm) yanında cəmi bir münafiq

---

[232] “Müsnədü-Əhməd”, 3/376, hədis 15069, kitabın mühəqqiqi Şüeyb əl-Arnaut hədisin ardınca deyir:

إسناده حسن رجاله ثقات رجال الشيخين غير أبي إسحاق فهو صدوق حسن الحديث

**“İsnadı həsəndir. Raviləri siqədir. Əbu İshaqdan başqa bütün ravilər Buxari və Müslimin raviləridir. Əbu İshaq da səduqdur, “həsənul-hədis”dir (hədisləri həsəndir).”**

“Dəlailun-nubuvvə” (Beyhəqi), 5/128; “Zadul-məad”, 3/469; “Sirətu-İbn Hişam”, 5/114; “əl-Bidayə vən-nihayə”, 4/326; “Tarixut-Təbəri”, 2/168.

[233] Ənfal surəsi, 15-16-cı ayələr.

olmuşdur. O da Cədd ibn Qeys olmuşdur. Orada olan şəxslər arasında beyət etməyən yeganə şəxs də məhz o olmuşdur.

Halbuki, biz əhli-sünnə hədislərinə nəzər saldıqlda, Hüdeybiyyə günündə Peyğəmbərin (sallallahu əleyhi və alihi və səlləm) yanında Cədd ibn Qeysdən başqa da münafiqlərin olduğunu görürük. Onların başlarında duran şəxs də münafiqlərin başçısı Abdullah ibn Ubeyy ibn Səlul olmuşdur. Tarixçilər nəql edirlər ki, camaat Peyğəmbərə şikayət etdikdə Hüdeybiyyədə su azaldı. Həzrət Peyğəmbər (sallallahu əleyhi və alihi və səlləm) öz ox qabından bir ox çıxarıb onu öz yanında olan bir su vedrəsi ilə birgə [Peyğəmbər (sallallahu əleyhi və alihi və səlləm) o sudan götürüb məzməzə etmiş, sonra da ağzının mübarək suyunu ora tökmüşdü] Naciyə ibn əl-Əcəmə verdi. Naciyə deyir ki, Peyğəmbər (sallallahu əleyhi və alihi və səlləm) mənə suyun yanına gedib vedrəni quyuya sallamağı və ox ilə[234] vedrəni quyudan çıxarmağı əmr etdi. Mən bunu etdim və quyu su ilə dolub daşmağa başladı. Həmin vaxt quyunun başında bir dəstə münafiq də var idi. Daha sonra deyir:

**“Həmin vaxt Əvs ibn Xəvli Abdullah ibn Ubeyə dedi: “Vay olsun sənə, ey Əbul-Hubab! Məgər hansı yolda olduğunu görməyinin vaxtı çatmadımı? Görəsən, bundan sonra daha nəyi bəhanə edəcəksən? Suyu olduqca az olan bir quyunun yanına gəldik. Quyudan bir qurtumluq su belə götürə bilmirdik. Lakin, o (Peyğəmbər) vedrənin içində dəstəmaz aldı, onda məzməzə etdi. Sonra həmin vedrəni quyuya saldılar, bundan sonra quyu dolub daşmağa başladı.”**

**İbn Ubey dedi: “Biz bunun kimisinin daha öncə də görmüşük!”**

**Əvs dedi: “Allah üzünü qara etsin, fikrin batsın!”**

**İbn Ubey Allah Rəsulunun (sallallahu əleyhi [və alihi] və səlləm) yanına gəldi. Allah Rəsulu ona dedi: “Bu gün gördüyün şey nə oldu? (Onun sənə nə təsiri oldu?)” Ubey dedi: “Daha öncə heç vaxt onun kimi bir şey görməmişdim”. Peyğəmbər buyurdu: “Bəs nə üçün (Əvsin yanında) elə demisən?” İbn Ubey dedi: “Allahdan bağışlanma diləyirəm.” Ubeyin oğlu dedi: “Ey Allahın Rəsulu, onun üçün bağışlanma dilə.” Peyğəmbər də onun üçün bağışlanma dilədi.”**[235]

Həmçinin, nəql edilir ki, qüreyşlilər müsəlmanlar Hüdeybiyyədə olduqları vaxt Abdullah ibn Ubeyə xəbər göndərib dedilər:

---

[234] Oxun bir ucuna kəndir bağlamaqla. Tərc.

[235] “əl-Məğazi” (Vaqidi), 2/81; “əl-Xasaisul-kubra” (Suyuti), 1/406; “Subulul-huda vər-rəşad”, 5/41.

**“Əgər (Məkkəyə) daxil olub evi təvaf etmək istəsən, buyur et. Bu zaman oğlu onun yanında idi. Oğlu ona dedi: “Ey ata, səni and verirəm Allaha, bizi hər yerdə rüsvay etmə. Allah Rəsulu təvaf etmədən, sən təvaf edəcəksən?” İbn Ubey təklifi rədd edib dedi: “Allah Rəsulu təvaf etmədən mən də təvaf etməyəcəyəm.” Onun bu sözü Allah Rəsuluna (sallallahu əleyhi [və alihi] və səlləm) çatdı və həzrət bundan xoşhal oldu.”**[236]

Bütün bunlar onu göstərir ki, münafiqlərin başçısı Abdullah ibn Übey də Peyğəmbərlə (sallallahu əleyhi və alihi və səlləm) birgə Hüdeybiyyədə olmuşdur. Osman əl-Xəmisin “ağac altında olanların hamısı Peyğəmbərə beyət etmişdir və onlar arasında qırmızı dəvənin sahibi Cədd ibn Qeysdən başqa heç bir kəs Cəhənnəmə getməyəcək” iddiasına əsasən, Abdullah ibn Ubey ibn Səlulun mömin olmasına, onun Allahın razı qaldığı şəxslərdən və Cəhənnəmə getməyəcək şəxslərdən olmasına hökm etmək lazımdır!

**Deyirik:** Dəlillər sübut edir ki, Peyğəmbərlər (sallallahu əleyhi və alihi və səlləm) birgə olan şəxslər arasında münafiqlər də var idi. Ola bilər, onlar da möminlər kimi Peyğəmbərlə beyətləşmişdilər, lakin Allah-təala aşağıdakı ayədə də açıqca bildirdiyi kimi, yalnız möminlərin beyətlərindən razı qalmışdı: “**Möminlər (Hüdeybiyyədə) ağac altında sənə beyət edərkən Allah onlardan razı qaldı. (Allah) onların qəlbində olanı bildi, onlara (mənəvi) rahatlıq nazil etdi və onları yaxın bir zəfərlə mükafatlandırdı**”. Bu ayədə Allah-təala bütün beyət edənlərdən razı olduğunu deməmiş, əksinə, razılığının yalnızca möminlərə məxsus olduğunu bildirmişdir. Buna əsasən, indi ki Peyğəmbərə (sallallahu əleyhi və alihi və səlləm) beyət edənlər arasında həm möminlər, həm də münafiqlər var idi və Allahın razılığı da yalnızca möminlərə xas olmuşdur, o zaman bu ayəni ağac altında beyət edən müəyyən bir şəxsin ədalətli olmasına dəlil gətirməyimiz – başqa bir dəlillə o şəxsin imanı sübuta yetmədiyi müddəcə – batil olur. O şəxsin mömin olmasına dəlalət edən bir dəlil tapıldığı təqdirdə isə həmin şəxsin həyat yoluna baxmaq lazım gəlir; görəsən, o, beyət etdiyi gündən axır gününədək haqq yolunda qalmışdırmı, yoxsa yox? Beyətini sındırmışdırmı, yoxsa yox? Yalnız bundan sonra o şəxsin adil və ya qeyri-adil olmasına hökm edə bilərik.

**Dördüncü:** Bu deyilənlərə əsasən, hətta əgər bir şəxs Hüdeybiyyə günündə münafiqlərdən olmasa belə, lakin sonradan şəriət yolundan azmış olsa, o zaman həmin şəxs Allahın razı qaldığı şəxslərdən sayılmayacaq. Əksinə, Allahın qəzəb etdiyi şəxslərdən sayılacaq və aqibəti od olacaq. Bunun ən bariz nümunəsi Cəhənnəm əhlindən olması sübuta yetən Əbul-Ğadiyə əl-Cuhənidir. Tarix və bioqrafiya alimlərinin şahidliyinə əsasən, Əbul-Ğadiyə əl-Cuhəni də Hüdeybiyyədə iştirak etmişdir. O, böyük səhabə Əmmar ibn Yasirin (Allah ondan

---

[236] “əl-Məğazi”, 2/93; “əs-Sirətul-hələbiyyə”, 2/703; “Təxricul-əhadisi vəl-asar”, 2/94.

razı olsun) qatilidir. Allah Rəsulu (sallallahu əleyhi və alihi və səlləm) Əmmar ibn Yasirin (Allah ondan razı olsun) qatili üçün **"Əmmarın qatili və onu soyan şəxs Cəhənnəmdədir"** buyurmuşdur. Daha sonra da göstəriləcəyi kimi, müasir dövr sələfi məktəbinin ən böyük hədisçilərindən sayılan Muhəmməd Nasuriddin əl-Əlbani də bu hədisi səhih bilmişdir. Həmçinin də digər böyük alimlər səhih bilmişlər. Əbul-Ğadiyənin səhabə olması məsələsi, sübuta yetmiş olduğu üçün, bununla bağlı əlavə məlumat vermirik. Tanış olmaq istəyənlər aşağıda qeyd olunan mənbələrə müraciət edə bilərlər:

("əl-İsabə", İbn Həcər, c.7, səh.258; "Usdul-Ğabə", İbn əl-Əsir, c.6, səh.231; "Minhacus-Sünnə": c.6, səh.333; "Ənsabul-Əşraf", 1/170; "Təhzibut-Təhzib", 3/198; "Siyəru-əlamin-nubəla", c.2, səh.544 və s).

Biz burada Əbul-Ğadiyənin Hüdeybiyyədə iştirak edənlərdən olduğunu isbat edən bir necə sitat təqdim etməklə kifayətlənirik:

1. İbn əl-Əsir "Usdul-ğabə fi mərifətis-sahabə" kitabında (c.6, səh.231) 6147 rəqəmi altında deyir:

**"Əbul-Ğadiyə əl-Cuhəni. Peyğəmbərə (sallallahu əleyhi [və alihi] və səlləm) beyət etmişdir... O, Osmanın şiələrindən (tərəfdarlarından) idi. Əmmar ibn Yasirin qatilidir."**

2. Əbu Nüeym əl-İsfahani özünün "Mərifətus-səhabə" kitabında (c.6, səh.2982) onun barəsində deyir:

**"Əbul-Ğadiyə əl-Cuhəni: Peyğəmbərə (sallallahu əleyhi [və alihi] və səlləm) beyət etmiş, onun bir xütbəsinə şahid olmuşdur."**

3. Zəhəbi "Siyəru-əlamin-nubəla" kitabında (c.2, səh.544) onun tərcümeyi-halında deyir:

**"Deyirlər ki, Hüdeybiyyədə iştirak etmişdir."**

4. Muhəmməd ibn Həbib əl-Bağdadi özünün "əl-Muhəbbər" kitabında (səh.295-də) deyir:

**"Əbul-Ğadiyə: Allah Rəsulu (sallallahu əleyhi) ilə birgə Hüdeybiyyədə iştirak etmişdir."**

5. İbn Həzm "əs-Fasl fil-miləli vən-nihəl" kitabında (c.4, səh.125) deyir:

**"Əmmarı (Allah ondan razı olsun) "Rıdvan" beyətində iştirak edən Əbul-Ğadiyə Yəsar ibn Səb` qətlə yetirmişdir..."**

6. İbn Teymiyyə "Minhacus-Sünnə" kitabında (c.6, səh.333) deyir:

**“Əmmar ibn Yasirin qatili Əbul-Ğadiyədir. Əbul-Ğadiyə ağac altında beyət edən şəxslərdən idi.”**

Elə isə aydın olur ki, Əbul-Ğadiyə əl-Cuhəni Hüdeybiyyədə iştirak edib ağac altında beyət edən şəxslərdəndir. Digər bir yandan isə Əbul-Ğadiyənin Əmmar ibn Yasirin (Allah ondan razı olsun) qatili olması və Əmmarın qatilinin də cəhənnəmlik olması sübuta yetmişdir. (Bu barədə bir qədər sonra ətraflı məlumat veriləcək). Deməli, Hüdeybiyyədə iştirak edib “Ridvan beyəti” əhlindən olan Əbul-Ğadiyə cəhənnəmlikdir.

Bu isə öz növbəsində onu təsdiqləyir ki, bir şəxsin Hüdeybiyyədə ağac altında beyət etməsi Allahın ondan sonadək razı qalması anlamına gəlmir. Əksinə, əgər həmin şəxs beyətini pozarsa, yaxud Allahın razılığını aradan aparacaq əməllərə mürtəkib olarsa, o zaman həmin şəxs ayənin hökmündən uzaqlaşar; Allahın qəzəbinə düçar olar və Cəhənnəm əhlinin zümrəsinə daxil olar.

**Qeyd:** Həmişə olduğu kimi bu məsələ də ənənəvi üzrü gətirərək: “Əbul-Ğadiyə ctihad edib xəta etmişdir və əvəzində bir savab qazanmışdır”, - deyən şəxslər tapılmışdır. Biz burada Əbul-Ğadiyə üçün gətirilən bu əsassız üzrə elə sələfilərin böyük alimlərindən olan Şeyx Nasiruddin əl-Əlbaninin verdiyi cavabla qarşılıq veririk. Şeyx Nasiruddin əl-Əlbani “Silsilətul-əhadisis-sahihə” kitabında “Əmmarın qatili Cəhənnəmdədir” hədisinin səhih olduğunu və onun qatilinin səhabə Əbul-Ğadiyə olduğunu bildirərək demişdir:

**“Deyirəm: bu, səhih sənəddir. Rəvayətin raviləri siqədir. Müslimin raviləridir. Rəvayətdəki Əbul-Ğadiyə həmin Əbul-Ğadiyə əl-Cuhənidir. O, bir qrup alimin də bildirdiyi kimi səhabədir. Hafiz [ibn Həcər] “əl-İsabə” kitabında onun tərcümeyi-halının sonunda bu hədisi qeyd etdikdən və [Yəhya] ibn Məinin Əbul-Ğadiyənin Əmmarın qatili olmasına qəti şəkildə etiqad etdiyini nəql etdikdən sonra demişdir: “Səhabələr arasında baş verən bu döyüşlərdə səhabələrin ictihad etdikləri deyilməlidir. Xəta edən müctəhidin də bir savabı vardır. Əgər bu, ayrı-ayrı şəxslər üçün sübuta yetmişdirsə, o zaman səhabələr üçün sübuta yetməsi daha üstündür.”**

**Deyirəm: bu, haqdır. Lakin, bu qaydanın səhabələrin bütün fərdlərinə tətbiq edilməsi problemlidir. Çünki, belə olduğu təqdirdə qeyd olunan qayda ilə bu şəxsin (Əbül-Ğadiyənin) tərcümeyi-halında qeyd olunan hədis arasında ziddiyyət yaranacaq. Allah Rəsulu (sallallahu əleyhi [və alihi] və səlləm) “Əmmarın qatili Cəhənnəmdədir”, - dediyi halda, “Əmmarın qatili Əbul-Ğadiyə savab qazanmışdır, çünki o, Əmmarı ictihad edərək öldürmüşdür” – demək olmaz! Doğru olan, belə deyilməsidir: bu qayda onun əksinə dəlalət edən qəti dəlil tapılıncayadək səhihdir. Əgər dəlil tapılsa, onda hadisə bu qaydadan istisna edilər. Necə ki, bu məsələdə də belədir. Belə etmək səhih**

**hədisi bir qaydaya görə kənara atmaqdan daha üstündür! Allah daha yaxşı bilər."**[237]

Əlbaninin bu sözündən sonra əlavə sözə ehtiyac olmadığını düşünürük. Oxucunun da gördüyü kimi, Allah Rəsulunun (sallallahu əleyhi və alihi və səlləm) açıq-aşkar sözünün müqabilində gətirilən bu üzr şəxsi düşüncəni Allah Rəsulunun sözündən önə keçirməkdən başqa bir şey deyildir. Bu səbəbdən də hətta Əlbani belə bu üzrün batil olduğunu bildirərək Əbul-Ğadiyənin Cəhənnəm əhli olmasını təsdiqləşmişdir.

**Sonra Osman əl-Xəmis deyir:**

**"Allah-taala buyurmuşdur: "Sizlərdən fəthdən əvvəl xərcləyib döyüşənlər (başqaları ilə) eyni deyillər. Onların dərəcəsi (mallarını fəthdən) sonra xərcləyib döyüşənlərdən daha üstündür."[238]. Sonra nə deyir? "Amma Allah onların hamısına ən gözəl olanı vəd etmişdir". Yəni, Allah fəthdən əvvəl infaq edib döyüşənlərə də, fəthdən sonra infaq edib döyüşənlərə də xeyir vəd etmişdir. Bunu dəstəkləyən digər ayə budur: "Əzəlcədən ən gözəl aqibət yazılmış insanlara gəldikdə isə, onlar Oddan uzaqlaşdırılmış olacaqlar. Onlar onun uğultusunu belə eşitməyəcəklər. Onlar ürəklərinin istədiyi şeylər arasında əbədi qalacaqlar. Ən böyük dəhşət belə onları kədərləndirməyəcək. Mələklər onları qarşılayıb (deyəcəklər): "Bu sizə vəd olunmuş gününüzdür!"[239]. Bu ayə də Peyğəmbərin (sallallahu əleyhi [və alihi] və səlləm) istər fəthdən qabaq, istərsə də fəthdən sonra iman gətirib infaq edən bütün səhabələri barədə Allah təbarək və təalanın ikinci şahidliyidir.[240]**

**Deyirəm:**

Osman əl-Xəmis Allaha iftira atıb Allahın bütün səhabələrə ən gözəl mükafat və Cənnət vəd etdiyini iddia etməzdən qabaq gərək dəlillə bütün səhabələrin "infaq" və "döyüş" sifətlərinə sahib olmalarını sübut edəydi. Lakin, onun bunu sübut etməsi dəvənin iynə gözündən keçməsi kimidir. Bütün müsəlmanlar arasında məlum olan və yekdil şəkildə qəbul edilən budur ki, səhabə sayılan şəxslərin çox böyük hissəsi istər fəthdən qabaq, istərsə də fəthdən sonra infaq etməmiş və döyüşməmişlər.

---

[237] "Silsilətul-əhadisis-səhihə", c.5, səh.19.

[238] Hədid surəsi, 10-cu ayə.

[239] Ənbiya surəsi, 101-103-cü ayələr.

[240] "Hiqbətun minət-tarix", səh.145.

Məkkə və Mədinədən uzaqda yaşayan qəbilələrdən çoxlu sayda şəxs Peyğəmbərin (sallallahu əleyhi və alihi və səlləm) yanına gəlib İslamı qəbul etmiş, o Həzrətin kəlamını dinləşmiş, sonra da nə bir dirhəm və nə də bir dinar infaq etmədən, Allah yolunda qılınc vurub bir nizə atmadan öz qəbilələrinin məskunlaşdığı yerlərə qayıtmışlar. Həmçinin, səhabələr arasında "muəlləfətu-qulubuhum" (qəlbləri müəyyən mal müqabilində İslama isinişdirilən) şəxslər var idi. Bu şəxslərə Peyğəmbər (sallallahu əleyhi və alihi və səlləm) özü infaq edirdi. Peyğəmbər (sallallahu əleyhi və alihi və səlləm) qəlbləri İslama isinişsin deyə, özü döyüş qənimətlərindən onlara pay verirdi. Ayənin danışdığı "ən gözəl mükafat vədəsi" bu şəxslərə də şamil olmur. Ona görə ki, bu şəxslərdə "infaq" sifəti yoxdur. Halbuki, ən gözəl mükafat vədəsinin bu şəxslərə şamil olması üçün onlarda bu vədənin asılı olduğu iki xüsusiyyətdən biri olan infaq sifəti sabit olmalıdır.

Həmçinin, səhabələrdən biri Həssan ibn Sabitdir. Həssan o şəxsdir ki, nə Peyğəmbərin (sallallahu əleyhi və alihi və səlləm) sağlığında, nə də Peyğəmbərin vəfatından sonra Allah yolunda bircə zərbə belə vurmamışdır. Həyat onun üçün döyüşdən və şəhadətdən daha sevimli idi... Elə isə, ayədə işarə edilən ən gözəl mükafat vədəsi ona necə şamil ola bilər?!

Osman əl-Xəmis bu ayə ilə bütün səhabələr bir yana, hətta bir dəstə səhabənin ədalətini belə isbat edə bilməz. Müəyyən bir səhabənin infaq və döyüş sifətlərinə sahib olduğunu isbat etmək üçün ayrı bir dəlilə ehtiyac vardır. Çünki, ayə bu barədə heç bir şey demir. Osman əl-Xəmisin bu ayəni bütün səhabələrin ədalətinə dəlil göstərməsi şəxsi mənfəətlər üçün Allahın kitabının ayələrini təhrif etməyin bir növüdür.

Hədis surəsinin 10-cu ayəsinin infaq və döyüş sifətlərinə sahib olan şəxslərə şamil olması məsələsini, həmçinin, müasir əhli-sünnə alimlərindən olan Şeyx Həsən Fərhan əl-Maliki də təsdiqləmişdir. O özünün "Məa Süleyman əl-Əlvan" adlı kitabının 72-ci səhifəsində demişdir:

**"...Hədid surəsinin 10-cu ayəsindəki "fəth"dən məqsəd Məkkənin fəthi yox, Hüdeybiyyənin fəthidir. Çünki, Hədid surəsi Məkkənin fəthindən qabaq nazil olmuşdur."**

Daha sonra deyir:

**"Buna əsasən, əgər ayədəki "fəth"dən məqsəd Hüdeybiyyənin fəthidirsə, onda ayə yalnızca "fəthdən qabaq döyüşüb infaq edən" mühacir və ənsarlara şamil olacaq və onların Məkkənin fəthinə qədər özlərindən sonra gələnlərdən üstün olduqlarını çatdıracaq. Daha bu müddət ərzində infaq edib döyüşməyən**

**tüləqaya, ütəqaya[241] və başqalarına şamil olmayacaq. Çünki, Hədid surəsi Məkkənin fəthindən qabaq nazil olmuşdur. Buna əsasən, bu şəxslər fəzilət dairəsindən xaric olurlar və ayədə zikr olunan fəzilət onlara şamil olmur. Bundan əlavə, ayədə "infaq" və "döyüş" şərti qoyulmuşdur.**

Daha sonra deyir:

**"...Yox, əgər ayə (Məkkənin) fəthindən sonra müsəlman olmuş bu şəxslərə şamil olursa, o zaman ayə onlardan sonra bizim zamanımıza qədər gələn şəxslərə də şamil olur, çünki ayənin xüsusilə onlara aid olmasına heç bir dəlil yoxdur! Bunun sübutu Allahu-təalanın "onların dərəcəsi (mallarını fəthdən) sonra xərcləyib döyüşənlərdən..." ayəsinin mütləq (ümumi anlamda) olub heç bir şərtlə şərtlənməməsidir...".**

Bununla aydın olur ki, ayəni bütün səhabələrin ədalətli olmalarına dəlil gətirmək tamamilə batil işdir.

**Daha sonra Osman əl-Xəmis deyir:**

وقال الله تبارك وتعالى عند ذكر مصارف الغنيمة من المال: {لِلْفُقَرَاءِ الْمُهَاجِرِينَ الَّذِينَ أُخْرِجُوا مِنْ دِيارِهِمْ وَأَمْوَالِهِمْ يَبْتَغُونَ فَضْلًا مِنَ اللهِ وَرِضْوَانًا وَيَنْصُرُونَ اللَّهَ وَرَسُولَهُ أُولَئِكَ هُمُ الصَّادِقُونَ}، وقوله: {يَبْتَغُونَ فَضْلًا مِنَ اللهِ وَرِضْوَانًا}، هذا من أعمال القلوب أثبته الله تبارك وتعالى لهم، وقال: {وَالَّذِينَ تَبَوَّءُوا الدَّارَ وَالْإِيمَانَ مِنْ قَبْلِهِمْ} وهم الأنصار {يُحِبُّونَ مَنْ هَاجَرَ إِلَيْهِمْ وَلَا يَجِدُونَ فِي صُدُورِهِمْ حَاجَةً مِمَّا أُوتُوا وَيُؤْثِرُونَ عَلَى أَنْفُسِهِمْ وَلَوْ كَانَ بِهِمْ خَصَاصَةٌ وَمَنْ يُوقَ شُحَّ نَفْسِهِ فَأُولَئِكَ هُمُ الْمُفْلِحُونَ}

**"Allah-təala qənimətlərin xərclənəcəyi yerlərlə əlaqədar buyurur: "(Qənimət həmçinin) yurdlarından qovulmuş və mallarından məhrum olunmuş yoxsul mühacirlərə məxsusdur. Onlar Allahın mərhəmətini və razılığını qazanmağa can atır, Allaha və Onun Elçisinə kömək edirlər. Doğru olanlar da məhz onlardır."[242]**

**Ayədəki "Onlar Allahın mərhəmətini və razılığını qazanmağa can atır" cümləsi qəlb ilə əlaqəli bir məlumatdır. Allah-taala bu ayədə səhabələrin ürəklərindən xəbər verərək onların qəlblərinin ilahi mərhəmət və razılığa can atdığını bildirmişdir. Növbəti ayədə isə belə buyurmuşdur: "(Mühacirlərdən) əvvəl (orada) yurd salmış və iman gətirmiş kimsələr" yəni, ənsarlar, "öz yanlarına hicrət edənləri sevir, onlara verdiklərinə görə qəlblərində peşmançılıq hissi duymurlar. Hətta özləri ehtiyac içində olsalar belə, onları özlərindən üstün tuturlar. Nəfsinin tamahından qorunan kimsələr nicat tapanlardır." (Həşr surəsi, 9).[243]**

---

[241] Tüləqa: "əsarətdən azad edilmiş" anlamına gəlir, Məkkənin fəthindən sonra bağışlanan şəxslər üçün işlədilir. "Ütəqa": "qulluqdan azad edilmiş" deməkdir, Taifdə əsir alının Səqiflilər üçün işlədilir. Tərc.

[242] Həşr surəsi, 8-ci ayə.

[243] "Hiqbətun minət-tarix", səh.146.

**Deyirəm:**

**Əvvəla:** Mühacir və ənsarlar arasında elə şəxslər vardır ki, Allah-təala onların qəlblərində mərəz – xəstəlik olduğunu bildirmişdir. Belə ki, buyurur: “**Biz cəhənnəm gözətçilərini yalnız mələklərdən etdik. Biz onların sayını ancaq kafirlərin imtahana çəkilməsi, kitab verilənlərin yəqinlik hasil etməsi (çünki onların kitablarında bu mələklərin sayı on doqquzdur), iman gətirənlərin imanının daha da artması, kitab əhlinin və möminlərin (bununla əlaqədar Peyğəmbər barəsində) şübhəyə düşməməsi, həmçinin qəlblərində mərəz (nifaq və şəkk mərəzi) olanların və kafirlərin: “Allah bu misalla nə demək istəyir?” – demələri üçün (on doqquz) etdik. Allah istədiyi kimsəni (haqq yoldan) belə sapdırır və istədiyini də doğru yola salır. Rəbbinin ordularını özündən başqası bilməz. Bu (vəsf olunan Səqər) insanlar üçün ancaq bir öyüd-nəsihətdir!**”[244]. Məkkədə nazil olan Müddəssir surəsinin bu ayəsi Məkkədə qəlblərində xəstəlik olan şəxslərin mövcud olduğunu bildirir. “Qəlblərində xəstəlik olan şəxslər”dən məqsəd istər münafiqlər olsun, istərsə də imanı və əqidəsi zəif şəxslər, bu şəxsləri doğru danışan və Allahın razı qaldığı şəxslər olaraq vəsf etməyimiz mümkün deyildir. Mühacirlərdən olan bu şəxslərin kimlikləri də konkret olaraq bilinmədiyi üçün ürəyimiz istəyən bir mühacirin ədalətli olmasına hökm edə bilmirik. Əksinə, bunun üçün həmin mühacirin ədalətli olmasını sübut edən kənar (xarici) bir dəlil gərəkdir.

**İkinci:** Ənsarlar arasında da münafiqlər var idi. Allah-təala buyurur: “**Ətrafınızdakı bədəvilər və Mədinə əhalisi içərisində ikiüzlülüyü özlərinə adət etmiş (bu işdə mahir) münafiqlər vardır. Sən onları tanımazsan, Biz isə onları tanıyırıq. Onlara iki dəfə (dünyada və qəbir evində) əzab verəcəyik. Sonra (axirətdə) isə ən böyük əzaba uğrayacaqlar**”[245]. Şübhə yoxdur ki, bu şəxslər nə nicat və qurtuluş əhlindəndirlər, nə də Allahın razı qaldığı şəxslərdəndirlər. Məlumdur ki, ənsarın arasında olan bu şəxslərin bəzilərinin kimlikləri və adları bəlli deyildir. Hətta, ayənin də dəlalət etdiyi kimi, onların bəzilərini heç Peyğəmbər (sallallahu əleyhi və alihi və səlləm) özü belə tanımır. Elə isə bu ayə səbəbindən nəinki bütün ənsarın ədalətinə, hətta, müəyyən bir ənsarlı şəxsin ədalətinə belə hökm edə bilmərik. Bunu yalnız onun ədalətinə dəlalət edən başqa – xarici bir dəlil mövcud olduğu təqdirdə edə bilərik.

**Üçüncü:** Mühacir və ənsarlardan sonra gələnlər içərisində elələri vardır ki, yaxşılıqla onlara tabe olmamış, özlərindən öncə iman gətirmiş şəxslər üçün bağışlanma diləməmişlər. Əksinə, qəlbləri iman gətirənlərə qarşı kin, nifrət və həsədlə dolu olmuşdur. Belə şəxslərə misal olaraq, Müaviyə ibn Əbi Süfyanı,

---

[244] Müddəssir surəsi, 31-ci ayə.

[245] Tövbə surəsi, 101-ci ayə.

Muğeyrə ibn Şubəni[246], Əmr ibn əl-Ası, Əbul-Ğadiyə Yəsar ibn Səbi (Əbul-Ğadiyə)[247] və s. bu kimi azğınları; həmçinin, Cəməl, Siffeyn və başqa döyüşlərdə sadiq mühacirləri və nicat tapmış ənsarları qətlə yetirən şəxsləri; minbərlərdə Ali-Muhəmmədə (sallallahu əleyhi və alihi və səlləm) lənət oxuyanları göstərə bilərik. Ayəyə əsaslanıb bu şəxslərin ədalətli olmalarına necə hökm edə bilərik?!

---

[246] "Müstədrəkul-Hakim", 1/451, hədis 1419-da deyilir:

إن المغيرة بن شعبة سب الإمام علي بن أبي طالب فقام إليه زيد بن أرقم فقال: يا مغيرة ألم تعلم أن رسول الله صلى الله عليه وسلم نهى عن سب الأموات؟ فلمَ تسب علياً وقد مات؟

**"Müğeyrə ibn Şubə Əli ibn Əbu Talibi söydü. Zeyd ibn əl-Ərqəm ayağa qalxıb dedi: "Ey Muğeyrə, məgər bilmirsən ki, Allah Rəsulu (sallallahu əleyhi və səlləm) ölən şəxsləri söyməyi qadağan edib? Elə isə ölüb getdiyi halda nə üçün Əlini söyürsən?"."**

Hakim bu rəvayəti səhih hesab etmiş, Zəhəbi də onunla razılaşmışdır. Müasir alimlərdən Əlbani də hədisi səhih hesab etmişdir. "Silsilətul-əhadisis-səhihə": 5/520.

[247] Səhabədir. O, böyük səhabə Əmmar ibn Yasirin (Allah ondan razı olsun) qatilidir. Allah Rəsulu (sallallahu əleyhi və alihi və səlləm) buyurmuşdur ki:

قاتل عمار وسالبه في النار

**"Əmmarın qatili və onu (öldükdən sonra) soyan (qarət edən) şəxs Cəhənnəmə gedəcək."**

Şeyx Muhəmməd Nasiruddin Əlbani "Silsilətul-əhadisi-sahihə" kitabında (5/18-19) deyir:

فقال الإمام أحمد (198/4) وابن سعد في الطبقات (261-260/3) والسياق له: أخبرنا عفان بن مسلم , قال: أخبرنا حماد بن سلمة , قال: أخبرنا أبو حفص وكلثوم بن جبر عن أبي الغادية قال:

"سمعت عمار بن ياسريقع في عثمان يشتمه بالمدينة، قال: فتوعدته بالقتل، قلت: لئن أمكنني اللهمنك لأفعلن، فلما كان يوم صفين جعل عمار يحمل على الناس، فقيل: هذا عمار،فرأيت فرجة بين الرئتين وبين الساقين، قال: فحملت عليه فطعنته في ركبته،قال، فوقع فقتلته، فقيل: قتلت عمار بن ياسر؟ ! وأخبر عمرو بن العاص، فقال:سمعت رسول الله صلى الله عليه وسلم يقول: (فذكره) ، فقيل لعمرو بن العاص:هو ذا أنت تقاتله؟ فقال: إنما قال: قاتله وسالبه".

**"...İmam Əhməd "Müsnəd"də (4/198), İbn Səd də "Təbaqat"da (3/260-261) demişdir ki, - ləfz İbn Sədindir – : Bizə Əffan ibn Müslim xəbər verib dedi: bizə Həmmad ibn Sələmə xəbər verib dedi: bizə Əbu Həfs və Kulsum ibn Cəbr Əbul-Ğadiyədən xəbər verib dedilər:**

**"Əmmar ibn Yasirin Mədinədə Osman barədə pis sözlər deyib onu söydüyünü gördüm. Mən ona ölüm vədəsi verib dedim: "Əgər Allah səni öldürmək üçün mənə imkan yaratsa, mən bunu mütləq edəcəyəm". Siffeyn günü olduğunda Əmmar camaata həmlə edirdi. Birdən dedilər: "Bu, Əmmardır." Mən onun iki böyürü ilə iki baldırı arasında boşluq gördüm. Ona hücum edib onu dizindən vurdum. Bu zaman o yıxıldı və mən onu qətlə yetirdim. Mənə dedilər: "Sən Əmmarı qətlə yetirdin?".**

**Bu hadisəni Əmr ibn əl-Asa xəbər verdilər. Əmr dedi: "Allah Rəsulunun (sallallahu əleyhi və səlləm) belə buyurduğunu eşitmişəm: "Əmmarın qatili və onu qarət edən Cəhənnəmdədir"". Bu zaman Əmr ibn əl-Asa dedilər: "Bəs sən niyə onunla döyüşürsən?!" Əmr dedi: "Peyğəmbər demişdir ki, "onu öldürən və qarət edən" (deməmişdir ki, "döyüşən"!)".**

Sonra Əlbani deyir:

قلت: وهذا إسناد صحيح، رجاله ثقات رجال مسلم، وأبو الغادية هو الجهني وهوصحابي كما أثبت ذلك جمع...

**"Deyirəm: bu, səhih sənəddir. Raviləri siqədir, Müslimin raviləridir. Əbul-Ğadiyə həmin Əbul-Ğadiyə əl-Cuhənidir. Səhabədir..."**

**Qeyd:** Onu da deyək ki, Osman əl-Xəmis yığıncaqların birində Əmmar ibn Yasirin (Allah ondan razı olsun) qatilinin Cəhənnəmlik olduğunu bildirən yuxarıdakı hədisin zəif olduğunu iddia etmiş, bununla da kifayətlənməyərək Əmmarın qatili olan Əbul-Ğadiyənin səhabə Əbul-Ğadiyə əl-Cuhəni deyil, "Əbul-Ğadiyə" adında başqa bir şəxs olduğunu iddia etmişdir. Həmin sözlərin əks olunduğu videoya youtube portalında yerləşdirilən aşağıdakı linkdə baxa bilərsiniz:

https://www.youtube.com/watch?v=RY5Cd-5Dobg kfslakıl va faf lakfa afafaf ksf faf

Qeyd edək ki, Osman əl-Xəmisin səhabəni müdafiə etməkdən ötrü ortaya atdığı bu iddianı hətta, əhli-sünnə məzhəbindən olan qardaşlarımız ciddi şəkildə tənqid etmişlər. Həmçinin, siz yuxarıda onun öz əqidə yoldaşının – Şeyx Əlbaninin hədis və Əbul-Ğadiyə barədə dediyi sözlərlə tanış oldunuz. Əlbani hədisi səhih hesab etmiş, onu "Səhih hədislər silsiləsi" adlı kitabında qeyd etmişdir. Ardınca da Əmmar ibn Yasiri qətlə yetirən Əbul-Ğadiyə adlı şəxsin elə həmin səhabə Əbul-Ğadiyə olduğunu bildirmişdir. Tərc.

Daha sonra Osman əl-Xəmis deyir:

“Allah-təala həzrət Muhəmmədin (sallallahu əleyhi [və alihi] və səlləm) ümməti barədə buyurur: **“Siz insanlar arasında üzə çıxarılmış ən xeyirli ümmətsiniz. Siz yaxşı işlər görməyi əmr edir, pis əməlləri qadağan edirsiniz”**[248]**.** Allah-təalanın insanlar arasında üzə çıxarılmış ən xeyirli ümmət olduğunu bildirdiyi bu ümmətin şiələrin dedikləri kimi olmaları qeyri-mümkündür. Şiələr deyirlər ki, üç nəfərdən başqa mühacir və ənsarın hamısı mürtəd olub dindən dönmüşlər. Üç nəfərdən başqa hamısının dindən dönüb mürtəd olduğu bir ümmət haqqında Allah-təala “insanar arasında üzə çıxarılmış ən xeyirli ümmət” deməz.” [249]

**Deyirəm:**

**Birinci:** Ayədəki xitab xüsusi olaraq səhabələrə ünvanlanmamışdır, əksinə, xitab Peyğəmbərin (sallallahu əleyhi və alihi və səlləm) bütün ümmətinə ünvanlanmışdır. Əgər bu ayə bütün səhabələrin ədalətli olmalarına dəlalət edirsə, onda eyni üsulla ayənin bütün Peyğəmbər (sallallahu əleyhi və alihi və səlləm) ümmətinin ədalətli olmasına dəlalət etdiyini də deməliyik. Bunu isə heç kəs deməz. Ayənin bütün ümmətin ədalətli olmasına dəlalət etməməsi onun bütün səhabələrin ədalətli olmasına dəlalət etməməsinin sübutudur.

**İkinci:** Şiələr üç nəfərdən başqa bütün mühacir və ənsarın mürtəd olduğunu demirlər. Şiə alimləri içərisində sözünə etimad edilən bircə alim belə bu cür bir söz deməmişdir. Osman əl-Xəmisin şiələrin belə bir şeyə etiqad etdiklərini iddia etməsi şiələrə atılan xalis iftira və yalandır. Bəli, bəzi şiə hədislərində belə bir şey nəql olunmuşdur, lakin, hətta sənədləri səhih olsa belə, məzmununa etiqad edib inanmayınca şiələr bu hədisləri qəbul etmirlər. Şiələrin rəvayətin qəbulu, ona əməl etmək və onun məzmununa inam bəsləməklə bağlı bir sıra şərtləri vardır. Sənədin səhihliyi isə bu şərtlərdən yalnızca biridir. Üç nəfərdən başqa bütün səhabələrin mürtəd olduğunu bildirən hədisi olduğu kimi qəbul etməyimiz mümkün deyildir. Bu hədis ya bir kənara qoyulmalıdır, ya da yozulmalıdır. Məsələn, bu cür yozula bilər ki, “mürtəd olmaq” deyərkən dini vacibatlardan çox mühüm bir vacib əməli tərk etmək nəzərdə tutulur. Yəni, bəziləri İmam Əliyə (əleyhis-səlam) qarşı düşmənçilik edib Allahın və Rəsulunun onun üçün təyin etdiyi haqqı onun əlindən aldıqları zaman ona yardım etməmək nəzərdə tutulur, daha İslamdan çıxıb küfrə düşmək deyil.

---

[248] Ali-İmran surəsi, 110-cu ayə.

[249] “Hiqbətun minət-tarix”, səh.146.

Sonra Osman əl-Xəmis deyir:

"Allah Rəsulu (sallallahu əleyhi [və alihi] və səlləm) buyurmuşdur: "Səhabələrimi söyməyin! Canım əlində olan kəsə and olsun ki, sizdən biriniz Uhud dağı qədər qızıl xərcləsə belə, onlardan birinin verdiyi bir ovuc sədəqənin, hətta onun yarısının belə fəzilətinə çata bilməz." Bu hədis(in mötəbərliyi) üzərində ittifaq edilmişdir."[250]

**Deyirəm:**

Bu həsidə bütün səhabələrin adil olmalarına heç bir dəlil yoxdur. Çünki, elə bu rəvayətin ünvanlandığı şəxsin özü səhabə sayılan bir şəxsdir. Əhli-sünnə hədisləri qeyd edir ki, bu rəvayətin ünvanlandığı şəxs Xalid ibn əl-Vəliddir. Onunla Əbdür-Rəhman ibn Auf arasında bir məsələ baş vermiş və həmin məsələ zamanı Peyğəmbər (sallallahu əleyhi və alihi və səlləm) bu sözü Xalidə demişdir. Peyğəmbərin (sallallahu əleyhi və alihi və səlləm) bu hədisdə dediyi "əshabım" sözündən məqsəd – əlbəttə, hədisin Peyğəmbər tərəfindən deyildiyini fərz etsək – əhli-sünnənin səhabə olduqlarını iddia etdikləri şəxslərin hamısı deyil, xüsusi bir dəstə şəxsdir. Bu hədisi bütün səhabələrin adil olmaları məsələsi üçün dəlil gətirmək batil işdir.

Hədisin "səhabə" adlandırılan şəxslərin hamısına deyil, xüsusi bir dəstəyə aid olmasını böyük sünni alimləri də təsdiq etmişlər. Bunlara misal olaraq müasir alimlərdən olan Əhməd əl-Kubeysini göstərə bilərik. O, qatıldığı TV proqramların birində canlı yayımda bu məsələni açıqlamışdır:

https://www.youtube.com/watch?v=l6S_d1n30Fs&list=LLgTQhRcvVR0Ao KTrY65NM4w&index=9

Habelə, Şüeyb əl-Arnaut "Müsnədü-Əhməd" kitabında bu hədisə şərh verərkən Sindidən belə nəql etmişdir:

**"Sindi demişdir: "Peyğəmbərin buyurduğu "əshabımı söyməyin" (sözü barədə bir neçə nəzər deyilmişdir)..."**

Daha sonra Sindi nəzərləri qeyd edir və üçüncü nəzər olaraq belə deyir:

**"Demişlər ki: "bu xitab səhabələrdən birinə edilmişdir. Çünki, hədisin baş vermə səbəbi ilə bağlı nəql olunan bir hədisdə bildirilmişdir ki, Xalid ibn əl-Vəlid ilə Əbdür-Rəhman ibn Auf arasında münaqişə olmuş, Xalid Əbdür-Rəhmanı söymüş (və bundan sonra Peyğəmbər bu sözü Xalidə demişdir). Buradakı "əshabım" sözündən məqsəd müəyyən qrup səhabələrdir. Həmin**

[250] "Hiqbətun minət-tarix", səh.146.

**qrup səhabələr bu hədisin ünvanlandığı şəxslərdən daha öncə müsəlman olan şəxslərdirlər.”**

Daha sonra deyir:

**“Şeyx Təqiyəddin əs-Subki demişdir: “Görünən budur ki, Peyğəmbərin “əshabım” sözündən məqsəd fəthdən qabaq müsəlman olan şəxslərdir və bu söz fəthdən sonra müsəlman olan şəxslərə ünvanlanmışdır.”** (“Müsnədü-Əhməd”, c.17, səh.139; Şüeyb əl-Arnautun təhqiqi ilə).

Bundan başqa, bir şəxsin söyülməsinin qadağan edilməsi hələ həmin şəxsin ədalətli olması anlamına gəlmir. Əks halda, bütün müsəlmanları adil saymaq lazım gələcək. Çünki, hədisdə gəlmişdir ki, “müsəlmanı söymək fasiqlikdir, onunla döyüşmək küfrdür”. [251] Görəsən, Osman əl-Xəmis bütün müsəlmanların adil olduqlarını iddia edə bilərmi?!

Daha sonra Osman əl-Xəmis deyir:

“Peyğəmbər (sallallahu əleyhi [və alihi] və səlləm) səhabələrinin ədalətinə icmali və ümumi şəkildə dəlalət edən şeylərdən biri də budur ki, elm əhli Peyğəmbərin (sallallahu əleyhi [və alihi] və səlləm) əshabının nəql etdikləri hədisləri araşdırmışlar, lakin Peyğəmbərə (sallallahu əleyhi [və alihi] və səlləm) yalan nisbət verən bircə dənə də olsun səhabə tapmamışlar. Habelə, səhabə dövrünün sonlarında qədəriyyə, şiə [252] və xəvaric bidətləri kimi bidətlərin yayılmasına baxmayaraq, bircə dənə də olsun səhabə bu şəxslərə qoşulmamışdır. Bu, ona dəlalət edir ki, Allah-təala onları üstün tutub ayırmış və onları öz Peyğəmbərinə (sallallahu əleyhi [və alihi] və səlləm) səhabə olmaq üçün seçmişdir.[253]

**Deyirəm:**

**Birinci:** Heç də bütün səhabələr Peyğəmbərdən (sallallahu əleyhi və alihi və səlləm) hədis nəql etməmişlər. Hədis nəql edən səhabələr ümumi səhabələrə nisbətdə çox az saya malikdirlər.

---

[251] “Səhihül-Buxari”, 1/27, hədis 48.

[252] Əhli-Beytə (əleyhimus-səlam) şiə - ardıcıl olmağın bidətlə heç bir əlaqəsi yoxdur. Bu, hənif İslam dininin özüdür. Peyğəmbər (sallallahu əleyhi və alihi və səlləm) özü ümməti Əhli-Beytinə şiə olmağa və onların ardınca getməyə yönləndirmişdir. Bidət olan Əhli-Beytə şiəlik etmək yox, nasibiləri, tüləqanı, Əhli-Beyt düşmənlərini Əhli-Beytdən (əleyhimus-səlam) önə keçirmək, onlar üçün çalışıb-vuruşmaq və onlara yardım etməyə can atmaqdır. Necə ki, Osman əl-Xəmis bu edir.

[253] “Hiqbətun minət-tarix”, səh.147.

**İkinci:** Bu alimlər necə biliblər ki, səhabələrin Peyğəmbərdən (sallallahu əleyhi və alihi və səlləm) nəql etdikləri rəvayətlərin hamısının həqiqətən də Peyğəmbər tərəfindən deyilmişdir? Bunu yalnız o yolla bilmək olar ki, ortada Peyğəmbərin (sallallahu əleyhi və alihi və səlləm) bütün sözlərinin, işlərinin və davranışlarının qeydə alındığı xüsusi tam güvənilir bir yazı olsun və həmin alimlər səhabələrin nəql etdikləri sözlərin o yazıda qeyd olunanlarla uyğunluq təşkil etdiyini görüb səhabələrin yalan danışmadıqlarına hökm versinlər. Belə bir yazı isə mövcud deyildir. Deməli, bu işin bilinməsi mümkünsüzdür. Əlbəttə, əgər bu alimlərin qeyb və ya vəhylə əlaqələri varsa və onlar bu deyilənləri qeybi yolla biliblərsə, o başqa; lakin, bu iddianın sübuta yetməsi üçün də belə bir əlaqəni sübut etmək lazımdır!

Bəli, əgər bu səhabələrin Peyğəmbərdən (sallallahu əleyhi və alihi və səlləm) nəql etdiyi bütün hədislər təvatür və istifazə[254] həddində olsaydı, yəni, çoxlu və müxtəlif sənədlərlə nəql olunsaydı, onda bu söz müəyyən mənada doğru sayıla bilərdi. Lakin, bu hədislərin çox böyük hissəsi "xəbəri-vahid"lərdən ibarətdir və onların arasında istifazə və ya təvatür həddində olan hədislər olduqca az saydadır.

**Üçüncü:** Ədalətin tərifi "yalan danışmamaq" deyildir. Başqa sözlə, tərif "kim yalan danışmasa, ədalətli olacaq" deyildir. Ədalətin tərifi şəriət yolunda sabit qalmaqdır. Bu da vacibatlara əməl edib haramları tərk edərək Allah-təalanın əmr və qadağalarına tabe olmaqla baş tutur. Elə isə Osman əl-Xəmis səhabələrin yalan danışmamalarını onların ədalətli olmalarına necə dəlil gətirə bilər?!

Sonra Osman əl-Xəmis deyir:

"Həmçinin, başqa bir mühüm məsələyə də diqqət yetirmək lazımdır və o budur ki, ədalət məsumluq anlamına gəlmir. Biz Peyğəmbərin (sallallahu əleyhi [və alihi] və səlləm) səhabələrinin ədalətli olmalarını desək də, onların məsum olduqlarını demirik. Çünki onlar da bəşərdirlər. Peyğəmbər (sallallahu əleyhi [və alihi] və səlləm) buyurmuşdur ki, "hər bir Adəm övladı xətakardır (xəta edəndir)". Səhabələr də Adəm övladlarıdırlar və xətakardırlar; gah xəta edirlər, gah da düz edirlər. Lakin onların xətaları, gördükləri yaxşı işlər dənizlərində itib batmışdır. Allah təbarək və təala onlardan razı olsun və onları razı salsın."[255]

**Deyirəm:**

Biz ədalətin vaciblərə əməl edib haramlardan çəkinərək Allahın göstərişlərinə uymaqdan ibarət olduğunu qeyd etdik. Kim bir vacib əməli tərk edər, yaxud haram

---

[254] Təvatürdən bir pillə aşağı mərtəbə. Tərc.
[255] "Hiqbətun minət-tarix", səh.147-148.

bir işə bulaşarsa, ədalətdən düşər və tövbə edib Allaha qayıtmadığı müddətcə ədaləti ona geri qayıtmaz. Səhabələr də bu məsələdə başqaları kimidirlər. Onların bu qaydadan istisna olduğunu bildirən bir dəlil mövcud deyildir. Onlardan hansı biri barədə vacib əməli tərk etdiyi və ya qadağan edilmiş bir iş gördüyü sübuta yetərsə, ədalətdən düşər. Günahından tövbə etmədiyi müddətcə də ədaləti ona qayıtmaz, yalnız tövbə etdiyi zaman ona qayıdar.

"Onların pis əməlləri onların yaxşı əməllərinin dənizində itib batmışdır" - iddiası isə heç bir dəlilə söykənməyən yanlış bir iddiadır. Onların arasında elələri vardır ki, onların böyük günahlara bulaşmaları sübuta yetmişdir. Bundan sonra nə yaxşı əməlləri, nə səhabə olması və nə Bədr və ya Hüdeybiyyə əhlindən olması ona bir şəri hədd vurulmasının qarşısını ala bilmişdir[256]. Həmçinin, onlardan bəzilərinin Cəhənnəm əhli olması belə dəlillə sübuta yetmişdir, məsələn, Əmmar ibn Yasirin (Allah ondan razı olsun) qatili olan Əbul-Ğadiyə əl-Cuhəni kimi.

Daha sonra Osman əl-Xəmis deyir:

"Peyğəmbərin (sallallahu əleyhi [və alihi] və səlləm) səhabələrinə dil uzadanlar dörd firqədirlər: birinci firqə şiələrdir, ikinci firqə xaricilərdir, üçüncü firqə nasibilərdir, dördüncü firqə mötəzililərdir. Bu firqələr müsəlmanların icmasına təsir göstərmirlər, çünki onların müxalifət etmələrinə önəm verimir.[257]

**Deyirəm:**

**Əvvəla:** Şiələr müsəlmandırlar, elə isə onların müxalifət etmələrinə necə önəm verilməyə bilər?! Əlbəttə, əgər əl-Xəmis şiələri müsəlman saymırsa, onda başqa məsələ. Necə ki, sözündən də belə anlaşılır!

**İkinci:** Bu "icma" dəlilə əsaslanmır. Çünki, onların səhabələrin bütünlüklə ədalətli olmalarına dair gətirdikləri dəlillərin heç birində öz müddəalarına bir dəlil yoxdur. Uzağa getməyə ehtiyac yoxdur, elə Osman əl-Xəmisin özünə baxaq. O, bu kitabında mövzu ilə bağlı ən möhkəm dəlillərini qeyd etsə də biz onun gətirdiyi dəlilləri tək-tək müzakirə etdik və bu dəlillərin batilliyini isbat edərək onların adıçəkilən iddiaya heç bir vəchlə dəlalət etmədiyini ortaya qoyduq.

Sonra deyir:

"Onlar Peyğəmbər (sallallahu əleyhi [və alihi] və səlləm) əshabına dil uzadarkən nəyi əsas gətirirlər?

---

[256] Məsələn, Haris ibn Suveyd ibn əs-Samit, Əbu Cəndəl Suheyl ibn Əmr, Mistah ibn Usasə və başqaları kimi. Tərc.
[257] "Hiqbətun minət-tarix", səh.148-149.

Birinci: Peyğəmbərin (sallallahu əleyhi [və alihi] və səlləm) bəzi səhabələri günah işlər görmüşlər.

İkinci: Səhabələr arasında Quran və sünnənin məlumatına əsasən münafiqlər vardır.

Üçüncü: Səhabələrin bütünlüklə ədalətli olduqlarını demək onların məqamca eyni olmalarını deməyi gərəkli edir. Səhabələrin məqamca eyni olmaları qeyri-mümkün olduğuna görə, onların hamılıqla ədalətli olmaları da qeyri-mümkün olur.

Dördüncü: Peyğəmbərin (sallallahu əleyhi [və alihi] və səlləm) bütün səhabələrinin ədalətli olmasına dəlil yoxdur.

Cavab: Onların bəzilərinin günah etməsinə gəlincə, daha öncə də dedik ki, səhabələrin günah etmələri onların ədalətlərinə bil xələl gətirmir. Biz onların ədalətli olduqlarını desək də, məsum olduqlarını demirik".[258]

**Deyirəm:**

Xeyr, onların günah işləmələri onların ədalətlərinə xələl gətirir. Çünki ədalət, daha öncə də deyildiyi kimi, şəriət yolunda sabit qalmağa deyilir. Əgər insan günah edərsə, ədalət sifəti ondan ayrılar və yalnız tövbə edib yenidən haqq yoluna qayıtdıqdan sonra ona geri dönər. Lakin, əgər Osman əl-Xəmis "ədalət" dedikdə yalnızca Peyğəmbərin (sallallahu əleyhi və alihi və səlləm) adından yalan danışmamağı nəzərdə tutursa, o zaman cavabında deyirik ki: səhabələrin məsum olmamaları onların yalan danışa bilmələrinin mümkünlüyünə dəlildir. Ortada onların Peyğəmbərə (sallallahu əleyhi və alihi və səlləm) nisbət verdikləri bütün xəbərlərdə doğru danışdıqlarına dəlalət edən bir dəlil yoxdur. Belə olunca onların vəziyyətləri digər hədis nəql edən ravilərin vəziyyəti kimi olur. Onların da güvənilir olmalarını isbat etmək lazım gəlir. Kimin siqə (güvənilir) olması dəlillə sübuta yetərsə, onun siqə olduğuna hökm edilər, kimin siqə olmaması dəlillə sübuta yetərsə, onun da siqə olmamasına hökm edilər, kimin də siqə, yaxud, qeyri-siqə olduğu bilinməzsə, onun da məchulluğuna hökm edilər və nəql etdiyi xəbər – onu dəstəkləyəcək başqa bir dəlil olmadığı müddətcə – rədd edilər.

Sonra Osman əl-Xəmis deyir:

"Onların "səhabələr arasında münafiqlər vardır" sözünə gəlincə, bu, yalandır. Çünki, münafiqlər səhabə deyillər. Buna görə də səhabənin tərifinə nəzər saldığın zaman görürsən ki, səhabə Peyğəmbərlə (sallallahu əleyhi [və alihi] və səlləm) mömin olan halda görüşən və mömin olan halda ölən şəxsə deyilir. Münafiqlər isə nə Peyğəmbərlə (sallallahu əleyhi [və alihi] və səlləm) mömin olan halda

[258] "Hiqbətun minət-tarix", səh.149.

görüşmüşlər və nə də bu halda ölmüşlər. Buna görə də onlar bu tərifə daxil olmurlar.[259]

**Deyirəm:**

Osman əl-Xəmis Peyğəmbərlə (sallallahu əleyhi və alihi və səlləm) birgə olan şəxslərdən bir qurupunun münafiq olduqlarını inkar edə bilməz. Bunlardan bəziləri öz münafiqliklərini çox yüksək səviyyədə gizlədirdilər. Hətta, Qurani-Kərimin də bildirdiyi kimi, Peyğəmbər (sallallahu əleyhi və alihi və səlləm) belə onları tanımırdı. Bu şəxslər az sayda deyildilər, əksinə, onların sayları çox idi. Elə bir həddə idi ki, hətta, Allahu-təala onlar barədə "Münafiqlər" adlanan bütöv bir surə nazil etmişdi. Hal belə olunca, keçdikləri həyat yoluna baxmaqla səhabələr arasında kimin mömin, kimin qeyri-mömin olmasını ayırd etmək, mömin şəxsin güvənilir, yoxsa qeyri-güvənilir olmasını bilmək lazım gəlir. Əhli-sünnənin ədalətinə hökm edib səhabə saydığı şəxslərin böyük hissəsi barədə Peyğəmbəri (sallallahu əleyhi və alihi və səlləm) görüb ondan hədis eşitmiş olmalardan başqa heç bir şey bilinmir. Elə isə bu şəxslərin münafiqlərdən olmadığını haradan bilmək olar?!

Fərz edək ki, əhli-sünnə onların mömin olduqlarını bildi, bəs necə biləcəklər ki, onlar ömürlərinin sonuna qədər şəriət yolunda sabitqədəm qalmışlar?!

Əgər ədalət dedikdə Peyğəmbərin (sallallahu əleyhi və alihi və səlləm) adından yalan danışmamağı nəzərdə tuturlarsa, haradan biləcəklər ki, bu şəxslər Peyğəmbərə nisbət verdikləri şeyləri yalandan uydurmamışlar?!

Daha sonra deyir:

"Onların"səhabələrin hamısının ədalətli olduqlarını demək onların məqamca eyni səviyyədə olmaları anlamına gəlir" sözlərinə gəlincə, bu da yanlışdır və səhabələrin hamısının ədalətli olduğunu deməkdən belə bir nəticə əldə edilmir. Əksinə, biz deyirik ki, onlar adildirlər və bəziləri bəzilərindən daha üstündürlər.[260]

**Deyirəm:**

Bu, şiənin sözü deyildir. Şiələr bilirlər ki, bir şəxsin ədalətli olması o şəxsin başqa adil şəxslər hər cəhətdən eyni olması anlamına gəlmir. İmanın dərəcələri və təqvanın dərəcələri vardır. Ola bilər ki, insan adil olsun, lakin iman və təqvada başqa bir adil şəxsdən daha aşağı məqamda olsun.

---

[259] "Hiqbətun minət-tarix", səh.149.
[260] "Hiqbətun minət-tarix", səh.149.

Daha sonra deyir:

"Bütün səhabələrin ədalətli olmasına heç bir dəlilin olmadığı haqqında deyilənlərə gəlincə, biz bu haqda Quran və sünnədən bəzi dəlilləri əvvəldə qeyd etdik."[261]

**Deyirəm:**

Osman əl-Xəmisin gətirdiyi Quran ayələrinin onun iddiasına dəlalət etmədiyini isbat etdik. Göstərdik ki, bu ayələrdə iddia olunan ədalətə heç bir dəlil yoxdur. Hədislərə gəlincə isə, hədislər onların öz hədisləridir və onların özləri üçün höccətdir. Onlar bu hədisləri onların səhihliyinə etiqad etməyən şəxslərə dəlil gətirə bilməzlər. Bununla yanaşı, bilmək lazımdır ki, onların mənbələrində bütün səhabələrin ədalətli olduqlarına dəlalət edən bircə səhih hədis belə yoxdur.

## Osman əl-Xəmisin "hovzu hədisi"ni yozmağa çalışması

Osman əl-Xəmis deyir:

"Bidət əhlinin bizə ünvanladığı birinci şübhə Peyğəmbərin (sallallahu əleyhi [və alihi] və səlləm) hovuzla bağlı buyurduğu hədisidir. Peyğəmbər demişdir:

"(Qiyamət günü mən Kövsər hovuzu kənarında olarkən) məni tanıyan və məni tanıdığım bir qrup şəxs mənim yanıma gələcəklər. Lakin, onları hovuzun kənarından uzaqlaşdıracaqlar. Bu zaman mən, "səhabələrim, səhabələrim!" - deyəcəyəm. Mənə deyiləcək ki: "Sən onların səndən sonra nələr etdiklərini bilmirsən"."

Bu hədisin çoxlu sənədləri və çoxlu nəql formaları vardır. Onlardan biri belədir:

"Mən hovuzun kənarında dayanıb sizlərdən kimin mənim yanıma gəldiyinə baxacağam. (O zaman) bir dəstə şəxsi mənim yanımdan uzaqlaşdıracaqlar. Mən: "Ey Rəbbim, (onlar) məndəndirlər, mənim ümmətimdəndirlər", - deyəcəyəm. Mənə deyiləcək ki: "Məgər bilmirsən ki, onlar səndən sonra nə etdilər?! Allaha and olsun ki, səndən sonra çox keçmədən keçmişlərinə geriyə döndülər.[262]" Bu hədisin ravilərindən biri olan İbn Əbi Muleykə deyir: "İlahi, keçmişimizə geri dönməkdən Sənə sığınırıq"."

İkinci hədis isə belədir: "Mən sizdən qabaq hovuzun yanında olacağam. Bir çox şəxslər üçün (yanımdan uzaqlaşdırılmasınlar deyə) mücadilə edəcəyəm, lakin

[261] "Hiqbətun minət-tarix", səh.150.

[262] Keçmişlərinə geri döndülər: yəni, İslamdan əl çəkib köhnə əqidələrinə geri döndülər, mürtəd oldular. Tərc.

faydası olmayacaq. Bu zaman deyəcəyəm: “Ey Rəbbim, səhabələrim, səhabələrim!” Mənə deyiləcək: “Sən onların səndən sonra nələr etdiklərini bilmirsən.”

Bu iki hədisi İmam Müslim öz “Səhih”ində nəql etmişdir. Hədisin izahında deyirik...[263]

## Hovuz hədisi mütəvatir hədislərdəndir

**Deyirəm:**

Osman əl-Xəmisin də dediyi kimi hovuz hədisinin çoxlu sənədləri vardır. Bu hədis Peyğəmbərdən (sallallahu əleyhi və alihi və səlləm) nəql olunan mütəvatir hədislərdəndir. Mən bu rəvayəti nəql edən 14 səhabəyə rast gəldim. Onlar aşağıdakılardır:

### 1. Hüzeyfə ibn əl-Yəman:

Onun hədisini Əhməd ibn əl-Hənbəl “Müsnəd” kitabında nəql etmişdir. Hədis belədir:

Bizə Sureyc ibn ən-Numan nəql edib dedi: bizə Huşeym Muğeyrədən, o, Əbu Vaildən, o, İbn Məsud və Həsindən, onlar Vaildən, o da Hüzeyfədən nəql edib dedi: Allah Rəsulu (sallallahu əleyhi [və alihi] və səlləm) buyurdu:

“Mən hovuz başına sizdən tez çatacağam. Sizdən bəzi şəxslərinin mənim yanıma gətirilmələrini gözləyəcəyəm. Elə ki, mən onları (görüb) tanıyacağam, onları mənim ətrafımdan çəkib aparacaqlar. Bu zaman mən: “Ey Rəbbim, səhabələrim, səhabələrim!”, - deyəcəyəm. Lakin mənə deyiləcək ki: “Sən bilmirsən onlar səndən sonra nələr etdilər”.”[264]

### 2. Ənəs ibn Malik:

Onun hədisini Müslim ibn əl-Həccac “Səhih” kitabında nəql etmişdir:

Mənə Muhəmməd ibn Hatim nəql edib dedi: bizə Əffan ibn Müslim əs-Səffar nəql edib dedi: bizə Vuheyb nəql edib dedi: Əbdül-Əziz ibn Süheybin belə nəql etdiyini eşitdim: Ənəs ibn Malik bizə Peyğəmbərin (sallallahu əleyhi [və alihi] və səlləm) belə buyurduğunu nəql etdi:

“Mənə səhabə olmuş şəxslərdən bir dəstəsi hovuz kənarında mənim yanıma gələcəklər. Elə ki, onları mənə göstərəcəklər və mən onları görəcəyəm, bu zaman onları mənim yanımdan çəkib aparacaqlar. Bu zaman mən deyəcəyəm: “Ey

---

[263] “Hiqbətun minət-tarix”, səh.150-151.

[264] “Müsnədü-Əhməd”, 38/363, hədis 23337; kitabın mühəqqiqləri deyirlər: **“Bu hədisin iki sənədi vardır. Birinci sənəd səhihdir, ikinci sənədin raviləri isə siqədirlər və “Səhih”in raviləridirlər.”**

Rəbbim, kiçik səhabələrim, kiçik səhabələrim![265]". Mənə deyiləcək ki: "Sən onların səndən sonra nələr etdiklərini bilmirsən"."[266]

### 3. Nufey ibn əl-Haris (Əbu Bəkrə):

Onun hədisini Əhməd ibn Hənbəl "Müsnəd" kitabında nəql etmişdir:

Biz Əffan nəql edib dedi: bizə Həmmad ibn Sələmə nəql edib dedi: bizə Əli ibn Zeyd Həsəndən, o da Əbu Bəkrədən Allah Rəsulunun (sallallahu əleyhi [və alihi] və səlləm) belə buyurduğunu nəql etdi:

"Mənə səhabəlik etmiş və məni görmüş şəxslərdən bir dəstəsi hovuz kənarında mənim yanıma gələcəklər. Onları mənə göstərəcəklər və mən onları görəcəyəm, lakin sonra onları mənim yanımdan çəkib aparacaqlar. Bu zaman mən deyəcəyəm: "Ey Rəbbim, səhabələrim, səhabələrim!". Mənə deyiləcək: "Sən onların səndən sonra nələr etdiklərini bilmirsən"."[267]

### 4. Səmurə ibn Cunbəb:

Onun hədisini Təbərani "əl-Mucəmul-Əvsət" kitabıdna nəql etmişdir:

Bizə Muhəmməd ibn Cəfər nəql edib dedi: bizə Həsən ibn Bişr nəql edib dedi: bizə Hakəm ibn Əbdül-Məlik Qətadədən, o, Həsəndən, o da Səmurə ibn Cundəbdən Allah Rəsulunun (sallallahu əleyhi [və alihi] və səlləm) belə buyurduğunu nəql etdi:

"Mənimlə birgə olan şəxslərdən olan bir qövm (hovuz başında) mənim yanıma gələcəklər. Onları mənə göstərəcəklər və mən onları görəcəyəm, lakin sonra onları mənim yanımdan çəkib aparacaqlar. Mən: "ey Rəbbim, kiçik əshabım, kiçik əshabım!", - deyəcəyəm. Bu zaman mənə: "Sən onların səndən sonra nələr etdiklərini bilmirsən", - deyiləcək"." [268]

### 5. Ömər ibn əl-Xəttab:

Onun hədisini Bəzzar "Müsnəd" kitabında nəql etmişdir:

---

[265] Hədisin orijinalında "useyhabi" sözü işlənmişdir. "Üseyhab" sözü "əshab" sözünün kiçiltmə formasıdır. Belə görünür, Peyğəmbər (sallallahu əleyhi və alihi və səlləm) səhabələrinə rəhm edilməsini dilədiyi üçün "kiçik səhabələrim" sözünü işlətmişdir. Necə ki, bir çox dualarda "kiçik bəndənə rəhm et" – deyə təbirlər işlədilmişdir. ("Abd" – qul, bəndə, "ubeyd" – kiçik qul, kiçik bəndə). Adətən rəhm diləmə, yaxud, zəlillik izhar etmə məqamında kiçiltmə formalı isimlər işlədilir. Tərc.

[266] "Səhihü-Müslim", 4/188, hədis 2304.

[267] "Müsnədü-Əhməd", 15/230, hədis 20373, Şeyx Həmzə Əhməd əz-Zeyn deyir: **"İsnadı həsəndir"**. Əhməd ibn Hənbəl bu hədisi həmçinin eyni mənbədə 20387-ci hədisdə nəql etmişdir. Şeyx Həmzə Əhməd əz-Zeyn həmin hədis üçün də: **"İsnadı həsəndir"** demişdir.

[268] "əl-Mucəmul-əvsət", 6/351, hədis 6598.

Bizə Fəzl ibn Səhl nəql edib dedi: bizə Malik ibn İsmayıl nəql edib dedi: bizə Yaqub ibn Abdullah əl-Umeyy Həfs ibn Humeyddən, o, İkrimədən, o, İbn Abbasdan, o da Ömər ibn əl-Xəttabdan Allah Rəsulunun (sallallahu əleyhi [və alihi] və səlləm) belə dediyini nəql etdi:

"Mən Cəhənnəmə düşməyəsiniz deyə sizin kəmərlərinizdən tutacağam. Siz isə kəpənəklər və çəyirtkələr kimi oda tərəf uçuşacaqsınız – və ya: özünüzü oda atacaqsınız –. Bu zaman mən sizin kəmərlərinizdən yapışacağam. Mən sizdən qabaq hovuz başına çatacağam. Siz bir yerdə və dağınıq halda mənim yanıma gələcəksiniz. Mən kişi (öz) atı(nı) tanıdığı kimi sizləri simanız və adlarınızla tanıyacağam."

Başqa yerdə deyilir: "Mən kişi öz dəvələri arasında olan yad dəvəni tanıdığı kimi sizi simanız və adlarınızla tanıyacağam. Bu vaxt sizi sol tərəfə aparacaqlar. Bu zaman mən deyəcəyəm: "Ey Rəbbim, ümmətim, ümmətim!". Allah deyəcək ki – yaxud: deyiləcək ki: – "Ey Muhəmməd, sən onların səndən sonra nələr etdiklərini bilmirsən"."[269]

**6. Abdullah ibn Abbas:**

Onun hədisini Buxari öz "Səhih" kitabında nəql etmişdir:

"Bizə Muhəmməd ibn Kəsir nəql edib dedi: bizə Süfyan nəql edib dedi: bizə Müğeyrə ibn ən-Numan nəql edib dedi: mənə Səid ibn Cübeyr İbn Abbasdan nəql edib dedi ki, Allah Rəsulu (sallallahu əleyhi [və alihi] və səlləm) buyurdu:

"Siz ayaqyalın, üryan və ğurəl[270] halda həşr olunacaqsınız." Sonra bu ayəni oxudu: "**Məxluqatı birinci dəfə (zərrəciklərini su və torpaqdan toplayıb) vücuda gətirdiyimiz kimi yenidən qaytaracağıq (onun dağılmış və ya məhv olmuş zərrəciklərini toplayaraq əvvəlki vəziyyətinə salacağıq). (Bu iş) Bizim öhdəmizdə olan bir vəddir və Biz onu edəcəyik**"[271]. Qiyamət günü əyninə paltar geyindiriləcək ilk şəxs İbrahimdir. Mənim səhabələrimdən bir dəstə şəxsi sol tərəfə çəkib aparacaqlar. Bu zaman mən "səhabələrim, səhabələrim!" - deyəcəyəm. (Rəbbim) deyəcək: "Sən onlardan ayrılan kimi onlar (keçmişlərinə) geri dönüb mürtəd oldular." Bu zaman mən saleh bəndənin dediyi kimi deyəcəyəm: "**Mən onların arasında olduğum müddətcə onlara şahid idim... Sən hikmət sahibisən**"."[272]

---

[269] "Müsnədül-Bəzzar", 1/314, hədis 204.

[270] Ğurəl: sünnət olunmamış şəxs; sünnət edilən üzvü öz yerində olan şəxs deməkdir. Bununla insanların dünyaya necə gəlmişlərsə, o şəkildə də həşr olunacaqları nəzərdə tutulur. Tərc.

[271] Ənbiya surəsi, 104-cü ayə.

[272] "Səhihül-Buxari", 3/1222, hədis 3171; həmçinin, eyni mənbə: 3/1272, hədis 3263; 4/1691, hədis 4349; 4/1766, hədis 4463.

**7. Əbu Səid əl-Xudri:**

Onun hədisini Əbu Yəla əl-Mosuli öz “Müsnəd” kitabında nəql etmişdir:

Bizə Zuheyr nəql edib dedi: biz Amir Zuheyrdən, o Abdullah ibn Muhəmməddən, o Əbdür-Rəhman ibn Əbu Səid əl-Xudridən, o da atasından nəql edib dedi:

“Peyğəmbərin (sallallahu əleyhi [və alihi] və səlləm) bu minbər üzərində belə dediyini eşitdim: “Nə olub ki, bəzi şəxslər “Allah Rəsulunun qohumluğu onun tayfasına (qohumlarına) fayda verməyəcək”, - deyirlər? Xeyr! Allaha and olsun ki, mənim qohumluğum dünyada və axirətdə qırılmayacaq (və fayda verəcək). Ey camaat, mən hovuz başına sizdən qabaq çatacağam. Siz oraya gəlincə sizdən bir nəfər: “Ey Allahın Rəsulu, mən filankəs oğlu filankəsəm”, - deyəcək, başqa birisi də: “Mən filankəs oğlu filankəsəm”, - deyəcək. Mən isə deyəcəyəm: “Nəsəbə gəlincə, nəsəbi tanıdım. Lakin, siz məndən sonra bidət etdiniz və geriyə dönüb mürtəd oldunuz”.[273]

**8. Əbu Hüreyrə əd-Dəvsi:**

Onun hədisini Buxari “Səhih” kitabında nəql etmişdir:

Mənə İbrahim ibn əl-Munzir əl-Hizami nəql edib dedi: bizə Muhəmməd ibn Fuleyh nəql edib dedi: bizə atam nəql edib dedi: mənə Hilal Əta ibn Yəsardan, o Əbu Hüreyrədən, o da Allah Rəsulundan (sallallahu əleyhi [və alihi] və səlləm) belə nəql etdi:

“Mən hovuzun yanında ayaq üstə durduğum zaman bir dəstə şəxs görəcəyəm. Onları tanıdığım zaman mənimlə onların arasına bir şəxs girərək: “Bura gəlin!”, - deyəcək. Mən deyəcəyəm:

–Hara?

O deyəcək:

–Allaha and olsun ki, Cəhənnəmə.

Deyəcəyəm:

– Onlar nə ediblər?

Deyəcək:

– Onlar səndən sonra geri dönüb mürtəd oldular.

---

[273] “Müsnədü-Əbi Yəla”, 2/433, hədis 1238. Kitabın mühəqiqi Şeyx Hüseyn Səlim Əsəd deyir: **“İsnadı həsəndir”.** Bu hədisi Heysəmi “Məcməuz-zəvaid” kitabında da (10/364) nəql etmiş və demişdir: **“Bunu Əbu Yəla nəql etmişdir. Raviləri “Səhih”in raviləridir. Bircə Abdullah ibn Muhəmməd ibn Əqildən başqa, onu da siqə bilmişlər”.**

Sonra başqa bir dəstə görəcəyəm. Onları tanığım zaman mənimlə onların arasına bir şəxs girib: “Bura gəlin!”, - deyəcək. Mən deyəcəyəm:

– Hara?

Deyəcək:

– Allaha and olsun ki, Cəhənnəmə.

Deyəcəyəm:

– Onlar nə ediblər?

Deyəcək: “Onlar səndən sonra keçmişlərinə geri dönüb mürtəd oldular.” Mən onlardan yalnız başıboş (çobansız) dəvələr qədər şəxsin [274] xilas olacağını görəcəyəm.”[275]

**9. Abdullah ibn Məsud:**

Onun hədisini Buxari “Səhih” kitabında nəql etmişdir:

Mənə Əmr ibn Əli nəql edib dedi: bizə Muhəmməd ibn Cəfər nəql edib dedi: bizə Şu`bə Müğeyrədən nəql edib dedi: Əbu Vailin Abdullah ibn Məsuddan belə nəql etdiyini eşitdim:

Allah Rəsulu (sallallahu əleyhi [və alihi] və səlləm) buyurdu:

“Mən hovuz başına sizdən tez çatacağam. Sizlərdən bir sıra şəxslər mənə göstəriləcəklər, lakin ətrafımdan çəkilib aparılacaqlar. Mən: “Ey Rəbbim, səhabələrim, səhabələrim!”, - deyəcəyəm. Bu zaman mənə deyiləcək: “Sən onların səndən sonra nələr etdiklərini (nə bidətlər çıxardıqlarını) bilmirsən”.”[276]

**10.Cabir ibn Abdullah əl-Ənsari:**

Onun hədisini Əhməd ibn Hənbəl “Müsnəd” kitabında nəql etmişdir:

Bizə Zəkəriyya ibn İshaq nəql edib dedi: bizə Əbu-Zübeyr nəql edib dedi: Cabir ibn Abdullah əl-Ənsarinin belə dediyini eşitdim:

Allah Rəsulu (sallallahu əleyhi [və alihi] və səlləm) buyurdu: “Mən hovuzun başında durub kimin mənim yanıma gələcəyinə baxacağam.” Sonra dedi: “Bir dəstə şəxsi mənim ətrafımdan götürüb aparacaqlar. Mən deyəcəyəm: “Ey Rəbbim, məndəndirlər, mənim ümmətimdəndirlər.” Bu zaman deyiləcək: “Sən nə bilirsən onlar səndən sonra nələr etdilər?! Səndən sonra çox keçmədi ki, keçmişlərinə geri döndülər”.”[277]

---

[274] Başıboş dəvələr digər dəvələrə nisbətdə daha az olurlar. Adətən dəvələrin sahibləri olduğundan onlardan çox azı başıboş və sahibsiz gəzir. Bununla çox az sayda şəxsin oddan qurtulacağı nəzərdə tutulur.

[275] “Səhihül-Buxari”, 5/2407, hədis 6215.

[276] “Səhihül-Buxari”, 5/2404, hədis 6205, həmçinin: 6/2587, hədis 6642.

[277] “Müsnədü-Əhməd”, 12/77, hədis 15059. Şeyx Həmzə Əhməd əz-Zeyn deyir: “**İsnadı səhihdir**.”

**11. Səhl ibn Səd:**

Onun hədisini Buxari "Səhih" kitabında nəql etmişdir:

Bizə Yəhya ibn Bukeyr nəql edib dedi: bizə Yaqub ibn Əbdür-Rəhman Əbu Hazimdən nəql edib dedi: Səhl ibn Sədin belə dediyini eşitdim:

Peyğəmbərin (sallallahu əleyhi [və alihi] və səlləm) belə dediyini eşitdim:

"Mən hovuz başına sizdən tez çatacağam. Kim onun başına gəlsə, hovuzun suyundan içəcək. Kim ondan içsə, bir daha əsla susamayacaq. Mənim yanıma bir neçə dəstə insan gələcək. Mən onları tanıyacağam, onlar da məni tanıyacaqlar. Sonra onları mənim yanımdan ayıracaqlar."

Əbu Hazim deyir: "Mən bu hədisi nəql edərkən Numan ibn Əbi Əyyaş məni eşitdi və dedi: "Səhldən bu şəkildə eşitmisən?" Dedim: "Bəli." Dedi: "Mən şəhadət verirəm ki, Əbu Səid əl-Xudrinin əlavə edərək belə dediyini eşitdim: "Mən deyəcəyəm: "Onlar məndəndirlər." Deyiləcək ki: "Sən onların səndən sonra nələri dəyişdirdiklərini bilmirsən.[278]" Bu zaman mən deyəcəyəm: "Məndən sonra dəyişən şəxslər uzaq olsunlar, uzaq olsunlar!"."[279]

**12. Əbud-Dərda:**

Onun hədisini Təbərani "Musnəduş-şamiyyin" kitabında nəql etmişdir:

Bizə Əhməd ibn Xuleyd əl-Hələbi nəql edib dedi: bizə Əbu Taubə ər-Rəbi ibn Nafi nəql edib dedi: bizə Muhəmməd ibn Muhacir Yəzid ibn Əbu Məryəmdən, o, Əbu Ubeydullah ibn Müslim ibn Mişkəmdən, o da Əbud-Dərdadan belə nəql etdi:

"Allah Rəsulu (sallallahu əleyhi [və alihi] və səlləm) dedi: "Hovuz başında sizdən hansı biriniz barəsində mücadilə edib, "onlar mənim əshabımdırlar", - desəm, mənə: "Sən bilmirsən onlar səndən sonra nələr etdilər (nə bidətlər çıxardılar)", - deyiləcək."

Əbud-Dərda deyir, mən dedim: "Ey Allahın peyğəmbəri, Allaha dua et ki, məni onlardan etməsin."

Peyğəmbər buyurdu: "Sən onlardan deyilsən"."[280]

**13. Əsma binti Ümeys:**

Onun hədisini Buxari "Səhih" kitabında nəql etmişdir:

Bizə Səid ibn Əbu Məryəm Nafe ibn Ömərdən nəql edib dedi: mənə İbn Əbi Muleykə Əsma binti Əbu Bəkrdən nəql edib dedi:

---

[278] Cümləni: "..səndən sonra necə dəyişdilər" şəklində də başa düşmək olar. Tərc.

[279] "Səhihül-Buxari", 6/2587, hədis 6643.

[280] "Müsnəduş-şamiyyin", 2/317, hədis 1413, həmçinin: 2/311, hədis 1405.

“Peyğəmbər (sallallahu əleyhi [və alihi] və səlləm) dedi: “Mən hovuzun başında dayanıb sizlərdən kimin mənim yanıma gələcəyinə baxacağam. (Həmin vaxt yanıma gələn şəxslərdən) bir dəstəsini yanımdan çəkib aparacaqlar. Bu zaman mən: “Ey Rəbbim, məndəndir, mənim ümmətimdəndir”, - deyəcəyəm. Mənə deyiləcək ki: “Bilirsənmi onlar səndən sonra nələr etdilər? Allaha and olsun, çox keçmədi ki, öz keçmişlərinə geri döndülər”.”

İbn Əbi Muleykə deyərdi: “İlahi, keçmişimizə geri dönməkdən və ya dinimizdə fitnəyə düçar olmaqdan Sənə sığınırıq.”[281]

**14. Aişə binti Əbu Bəkr:**

Onun hədisini Müslim “Səhih” kitabında nəql etmişdir:

Bizə İbn Əbi Umeyr nəql edib dedi: bizə Yəhya ibn Süleym Əbu Xuseymdən, o da Abdullah ibn Ubeydullah ibn Əbi Muleykədən nəql edib dedi ki, Abdullah Aişənin belə dediyini eşidib:

“Allah Rəsulunun (sallallahu əleyhi [və alihi] və səlləm) öz səhabələri arasında belə dediyini eşitdim: “Mən hovuzun başında durub sizlərdən kimin mənim yanıma gələcəyini gözləyəcəyəm. Allaha and olsun ki, bəzi şəxsləri mənim ətrafımdan çəkib aparacaqlar. Bu zaman mən: “Ey Rəbbim, məndəndir, mənim ümmətimdəndir”, - deyəcəyəm. Rəbbim isə deyəcək: “Sən onların səndən sonra nələr etdiklərini bilmirsən. (Sən vəfat edən kimi) keçmişlərinə dönməyə başladılar.”[282]

## Osman əl-Xəmisin “hovuz hədisi”ni yozmağa çalışır

**Osman əl-Xəmis deyir:**

“Birinci: Buradakı səhabələr sözü ilə Peyğəmbərin (sallallahu əleyhi [və alihi] və səlləm) zamanında özlərini müsəlman kimi göstərən münafiqlər nəzərdə tutulur. Onlar barədə Allah-təala buyurur: “**Münafiqlər (riyakarlar) sənin yanına gəldikləri zaman: “Biz sənin, doğrudan da, Allahın Peyğəmbəri olduğuna şəhadət veririk! – deyirlər. Allah sənin Onun həqiqi Peyğəmbəri olduğunu bilir. Allah həm də münafiqlərin xalis yalançı olduqlarına şəhadət verir**”[283].

Habelə, bu şəxslər Peyğəmbərin (sallallahu əleyhi [və alihi] və səlləm) tanımadığı münafiqlərdirlər. Bu barədə də Allah-təala belə buyurur:

[281] “Səhihül-Buxari”, 5/2409, hədis 6220.
[282] “Səhihü-Müslim”, 4/1794, hədis 2294.

[283] Munafiqun surəsi, 1-ci ayə.

**“Ətrafınızdakı bədəvilər və Mədinə əhalisi içərisində ikiüzlülüyü özlərinə adət etmiş (bu işdə mahir) münafiqlər vardır. Sən onları tanımazsan, Biz isə onları tanıyırıq. Onlara iki dəfə (dünyada və qəbir evində) əzab verəcəyik. Sonra (axirətdə) isə ən böyük əzaba uğrayacaqlar”**[284].

Bu şəxslər Peyğəmbərin (sallallahu əleyhi [və alihi] və səlləm) səhabə olduqlarını zənn etdiyi, lakin səhabə olmayan münafiqlərdirlər.[285]

**Deyirəm:**

Dindən dönmə hədisləri barəsində deyilən bu yozum batildir. Ona görə ki, bu hədislərdə bildirilir ki, Peyğəmbər (sallallahu əleyhi və alihi və səlləm) həmin şəxslərin hovuzun yanından qovulmalarının və Cəhənnəmə aparılmalarının səbəbini soruşduqda ona: *“Sən onların səndən sonra nələr etdiklərini bilmirsən”, “sən onlardan ayrılan kimi onlar geriyə dönüb mürtəd oldular”, “onlar geriyə dönüb mürtəd oldular”, “onlar səndən sonra dəyişdilər”, “sən nə bilirsən onlar səndən sonra nə etdilər? Səndən sonra çox keçmədi ki, geriyə döndülər”*, - deyə cavab veriləcək. Bu hədislərin birində deyilir ki, bu səhabələr Peyğəmbərin (sallallahu əleyhi və alihi və səlləm) yanına gəldikdə özlərini şəxsən və nəsəbləri ilə ona tanıtdıraraq ondan şəfaət istəyəcəklər, lakin Peyğəmbər onlara *“siz məndən sonra bidət etdiniz və geriyə dönüb mürtəd oldunuz”*, - deyəcək.

Bütün bunlar onu göstərir ki, bu səhabələr Peyğəmbərin (sallallahu əleyhi və alihi və səlləm) sağlığında İslam dini üzərə olmuşlar və münafiq olmamışlar. Çünki, münafiqlər heç vaxt İslamı qəbul etməmişlər. Onlar sadəcə özlərini zahirdə müsəlman kimi göstərmiş, batində isə şirk və küfr gizləmişlər. Buna görə də onları mürtəd adlandırmaq və barələrində “dinlərindən geriyə dönmüşlər” demək düzgün deyildir. Bu sözü yalnız İslama iman gətirib ona etiqad edən, lakin sonradan kafir olub İslamdan üz döndərən şəxslər barəsində, yaxud, İslamın göstərişlərinə iman edən və işin əvvəlində İslam təlimlərinə sadiq qalan, lakin sonradan bu təlimlərə əməl etməkdən üz döndərib böyük günahlara bulaşan və şəriətə müxalif olan çox ağır əməllər görən şəxslər barəsində demək mümkündür. Osman əl-Xəmisin bu hədislər barədə verdiyi “bu hədislər Peyğəmbərin münafiqliklərindən xəbərdar olmadığı münafiqlər barəsindədir” izahı qeyd etdiyimiz bu səbəbdən dolayı tamamilə batil və əsassızdır.

---

[284] Tövbə surəsi, 101-ci ayə.
[285] “Hiqbətun minət-tarix”, səh.151.

**Daha sonra Osman əl-Xəmis deyir:**

İkinci: Bu hədislərdəki şəxslərdən məqsəd Peyğəmbərin (sallallahu əleyhi [və alihi] və səlləm) vəfatından sonra mürtəd olan şəxslərdir. Belə ki, Peyğəmbərin (sallallahu əleyhi [və alihi] və səlləm) vəfatından sonra ərəblərin əksəriyyəti mürtəd oldu. Hətta, Məkkə, Mədinə və Taif camaatından, həmçinin demişlər ki, Bəhreyn camaatından başqa heç kəs İslam üzərə qalmadı. Bu yerlərin əhalisindən başqa, yerdə qalan bütün ərəblər mürtəd olub dindən geri döndülər. Peyğəmbərin (sallallahu əleyhi [və alihi] və səlləm) barələrində: "Səhabələrim!", - deyəcəyi və qarşılığında: "Onların səndən sonra nələr etdiklərini bilmirsən; sən onlardan ayrılan kimi onlar geriyə dönüb mürtəd oldular", - cavabı alacağı şəxslər məhz bunlardır.[286]

**Deyirəm:**

**Birinci:** Bu, dəlilsizcə deyilən bir sözdür. Osman əl-Xəmis dediyi sözü dəstəkləyəcək bircə dəlil belə gətirməmişdir.

**İkinci:** Bu hədislərdən görünən odur ki, hədislərdəki "mürtədlik"dən məqsəd İslamdan dönmək; İslamdan çıxıb küfrə, şirkə və dinsizliyə üz tutmaq, yaxud, qüvvədən düşmüş dinlərə üz tutmaq deyildir. Buna əsasən ki, hədislərdən biri bu şəxslərdən "başıboş sahibsiz dəvələr qədəri"-nin, yəni çox az şəxsin oddan qurtulacağını bildirir. İslamı inkar edib İslamdan üz döndərən mürtədlərdən heç birisi oddan qurtula bilməz, əksinə, onların hamısının gedəcəyi yer Cəhənnəmdir. Deməli, bu hədislərdə deyilən şəxslərdən məqsəd Osman əl-Xəmisin dediyi şəxslər ola bilməz.

Sonra Osman əl-Xəmis deyir:

"Üçüncü: Hədisdə deyilən səhabə sözü ümumi mənadadır. Yəni, bu sözlə Peyğəmbərə (sallallahu əleyhi [və alihi] və səlləm) yoldaşlıq etmiş hər bir kəs nəzərdə tutulmuşdur. Əgər Peyğəmbərə yoldaş olmuş bir kəs ona tabe olmazsa, o zaman terminoloji mənada "səhabə" sözü ona şamil olmaz. Bunun dəlili aşağıdakı hadisədir: Abdullah ibn Ubey ibn Səlul "əgər Mədinəyə qayıtsaq, güclü olanlar zəif olanları oradan çıxaracaqlar", - dedi. Abdullah ibn Ubey Mədinədə münafiqlərinin başçısı idi. Bu söz Ömərə çatdıqda Ömər Peyğəmbərə (sallallahu əleyhi [və alihi] və səlləm) dedi: "Ey Allahın Rəsulu, onun boynunu vurum?" Peyğəmbər (sallallahu əleyhi [və alihi] və səlləm) dedi: "Xeyr. Qoy deməsinlər ki, Muhəmməd öz səhabələrini öldürür." Bu hədisi Buxari nəql etmişdir.

---

[286] "Hiqbətun minət-tarix", səh.151.

Burada Peyğəmbər (sallallahu əleyhi [və alihi] və səlləm) Abdullahı öz səhabələrindən saymışdır. Lakin, burada "səhabə" sözü terminoloji mənada deyil, lüğəvi mənada işlədilmişdir.[287] Çünki, Abdullah ibn Ubey ibn Səlul münafiqlərin başçısı idi və Allahın ifşa etdiyi və münafiqliyini açıqca aşkar edən şəxslərdən idi.[288]

**Deyirəm:**

Bu yozumun batilliyi də əvvəlki yozumdakı kimi açıq-aşkar ortadadır; çünki, münafiq və ya müsəlman olmayan şəxs İslamdan və ya dindən dönməklə – mürtəd olmaqla vəsf edilə bilməz. Çünki, belə bir şəxs İslama daxil olmamış və ona iman gətirməmişdir. Buna görə də onun mürtədliklə vəsf olunub, barəsində "dindən döndü" və ya "keçmişinə geri döndü", - deyilməsi mümkünsüzdür.

Daha sonra Osman əl-Xəmis deyir:

"Dördüncü: "Əshabım" sözü ilə Peyğəmbəri (sallallahu əleyhi [və alihi] və səlləm) görməsə belə İslam yolunda ona yoldaş olan şəxslər nəzərdə tutula bilər. Buna dəlil olaraq "ümmətim, ümmətim" və ya "onlar mənim ümmətimdirlər" hədislərini göstərə bilərik.

Peyğəmbərin (sallallahu əleyhi [və alihi] və səlləm) "mən onları tanıyacağam" sözünə gəlincə isə, Peyğəmbər (sallallahu əleyhi [və alihi] və səlləm) başqa bir hədisdə qiyamət günü bu ümməti tanıyacağını bildirmişdir. Ondan "ey Allahın Rəsulu, sən onları görmədiyin halda onları necə tanıyacaqsan?", - deyə soruşduqda, o, "mən onları dəstəmazın izlərindən tanıyacağam", - deyə cavab vermişdir.[289]

**Deyirəm:**

Bu izahı bəzi hədislərdə gələn aşağıdakı sözlər batil edir:

"Mənimlə birgə olanlardan olan bir dəstə şəxs mənim yanıma gələcək...".

"Mənə səhabə olmuş və məni görmüş şəxslərdən olan bir dəstə şəxs hovuz başında mənim yanıma gələcək...".

"Mənə səhabə olmuş şəxslərdən bir dəstə şəxs hovuz başında mənim yanıma gələcək...".

Bu ifadələr açıqca ona dəlalət edir ki, hovuz kənarından qovulub uzaqlaşdırılan və Cəhənnəmə aparılan şəxslər İslamı qəbul edib Peyğəmbərə (sallallahu əleyhi və alihi və səlləm) səhabə olan, Peyğəmbəri şəxsən tanıyan,

---

[287] Lüğəvi mənada "sahib" – "səhabi", "yoldaş" – "yoldaşlıq edən" deməkdir. Tərc.

[288] "Hiqbətun minət-tarix", səh.151-152.

[289] "Hiqbətun minət-tarix", səh.152

Peyğəmbərin də şəxsən tanıdığı, Peyğəmbəri şəxsən görən, Peyğəmbərin də şəxsən gördüyü və Peyğəmbər (sallallahu əleyhi və alihi və səlləm) vəfat etdiyi zaman İslam üzərə olan, lakin Peyğəmbərin (sallallahu əleyhi və alihi və səlləm) vəfatı ilə əqidələrini dəyişib dində olmayan şeyləri dinə gətirən və keçmişlərinə geri dönən şəxslərdirlər.

Bu hovuz hədisini, bəzi səhabələrin İslam dinindən dönüb mürtəd olmalarını, yaxud onları cəhənnəmlik edəcək böyük günahlara və böyük haramlara bulaşmış olmalarını dəstəkləyən dəlillərdən biri də Əhməd ibn Hənbəlin öz "Müsnəd" kitabında nəql etdiyi bu hədisdir:

Bizə Əbdür-Rəzzaq nəql edib dedi: bizə Süfyan Ə`məşdən, da Əbu Vaildən nəql edib dedi:

"Əbdür-Rəhman ibn Əvf Ümmü-Sələmənin yanına daxil oldu. Ümmü-Sələmə ona dedi: "Mən Allah Rəsulunun (sallallahu əleyhi [və alihi] və səlləm) belə dediyini eşitdim: Səhabələrim arasında elələri vardır ki, məndən ayrıldıqdan sonra bir daha məni görməyəcəklər..."[290].

Həmçinin, Allah-təalanın aşağıdakı ayəsi də bəzi səhabələrin mürtəd ola bilmələrinin mümkünlüyünü təsdiqləyib gücləndirir:

"**Muhəmməd (sallallahu əleyhi və alihi və səlləm) yalnız bir peyğəmbərdir ki, ondan öncə (də) peyğəmbərlər gəlib getmişlər. Buna görə də əgər o ölsə və ya öldürülsə, siz öz keçmişinizə qayıdacaqsınız (əqidələrinizdən əl çəkəcəksiniz)?! Öz keçmişinə qayıdan şəxs Allaha heç bir ziyan vurmaz. Allah tezliklə şükr edənləri mükafatlandıracaqdır**"[291].

Hətta, səhabə Bəra ibn Azib bunun baş verdiyini təsdiq etmişdir. Buxarinin öz sənədi ilə Əla ibn əl-Musəyyibdən, onun da atasından nəql etdiyi bir hədisdə belə deyilir:

"Mən Bəra ibn Azib ilə qarşılaşıb ona dedim. "Xoş halına! Peyğəmbərə (sallallahu əleyhi [və alihi] və səlləm) səhabə oldun və ağacın altında ona beyət etdin." Bu zaman Bəra dedi: "Ey qardaşoğlu! Sən bilmirsən biz ondan sonra nələr etdik (nə bidətlər çıxardıq)."[292]

---

[290] "Müsnədü-Əhməd", 44/237, hədis 26621, kitabın mühəqqiqi Şeyx Şüeyb əl-Arnaut deyir: "**İsnadı səhihdir. Raviləri siqədir, iki şeyxin (Buxari və Müslimin) raviləridir**." Eyni kitabda (44/92, hədis 26489) gələn başqa bir hədisdə isə deyilir:

إن من أصحابي من لا يراني بعد أن أفارقه

**"Əshabım arasında eləlәri vardır ki, mən onlardan ayrıldıqdan sonra bir daha məni görməyəcəklər".**

Şeyx Arnaut bu hədis üçün belə demişdir: "**İsnadı səhihdir. Raviləri siqədir, şeyxeynin (Buxari və Müslimin) raviləridir**".

[291] Ali-İmran surəsi, 144-cü ayə.

[292] "Səhihül-Buxari", 4/1529, rəqəm 3937.

Göründüyü kimi, səhabələrdən biri olan Bəra ibn Azib Peyğəmbərdən (sallallahu əleyhi və alihi və səlləm) sonra bidət işlər gördüklərini təsdiq etmişdir.[293]

Əgər səhabələr arasında Peyğəmbərin (sallallahu əleyhi və alihi və səlləm) belə tanımadığı münafiqlər varsa, əgər Peyğəmbər (sallallahu əleyhi və alihi və səlləm) səhabələrin mürtəd olacaqlarını xəbər verirsə, əgər səhabələr özləri Allah Rəsulundan (sallallahu əleyhi və alihi və səlləm) sonra bidət işlər çıxardıqlarını xəbər verirlərsə, görəsən bütün bunlardan sonra "onların hamısı adildirlər, onların ədalətli olmamalarını araşdırmağa ehtiyac yoxdur" demək düzgün sayılarmı?!

Əhli-sünnənin iddia etdiyi səhabənin ədaləti məsələsi, habelə, onların Peyğəmbərin adından yalan danışmamaları məsələsi əhli-sünnənin özündən ortaya çıxardığı bir şeydir. Səhabələr özləri üçün belə bir şey iddia etməmişlər. Nə Peyğəmbərin (sallallahu əleyhi və alihi və səlləm) zamanında və nə də onun vəfatından sonrakı ilk dövrlər ərzində belə bir şey mövcud olmamışdır. Bu məsələ məhz bir sıra siyasi səbəblər üzündən sonradan qondarılmışdır. Buna dəlalət edən dəlillər çoxdur. Misal üçün, Müslimin öz "Səhih" kitabında Əbu Hüreyrədən nəql etdiyi bu hədisi göstərə bilərik:

"...Peyğəmbər öz başmaqlarını mənə verib dedi: "Bu iki başmağımı götür get. Bu divarın arxasında qəlbində yəqin ilə Allahdan başqa ilah olmadığına şəhadət verən bir şəxslə qarşılaşsan, ona Cənnət müjdəsi ver."

Mənim qarşıma çıxan ilk şəxs Ömər oldu. O mənə dedi:

– Bu başmaqlar nədir, ey Əbu Hüreyrə?

Mən dedim:

– Bunlar Allah Rəsulunun (sallallahu əleyhi [və alihi] və səlləm) başmaqlarıdır. Onları mənə verərək məni yollayıb dedi ki, qəlbində yəqin ilə Allahdan başqa ilah olmadığına şəhadət verən bir şəxslə qarşılaşsam, ona Cənnət müjdəsi verim.

Bu zaman Ömər əli ilə mənim sinəmə vurdu və mən ombam üstə yerə yıxıldım. Ömər dedi:

– Qayıt ey Əbu Hüreyrə.

Mən Allah Rəsulunun (sallallahu əleyhi [və alihi] və səlləm) yanına qayıdıb ağlamağa başladım. Bu zaman Ömər də mənim arxamca Peyğəmbərin yanına gəldi.

Allah Rəsulu (sallallahu əleyhi [və alihi] və səlləm) mənə dedi:

---

[293] Qeyd edək ki, hədisin orijinalında "ma əhdəsna bə`dəhu" cümləsi işlənmişdir. Ərəb dilində "əhdəsə" feli "bidət çıxarmaq", "dində olmayan şeyi dinə gətirmək" anlamlarında da işlədilir. Buna görə də cümlə həm "sən bilmirsən biz ondan sonra nələr etdik" şəklində, həm də "sən bilmirsən biz ondan sonra nə bidətlər çıxardıq" şəklində tərcümə oluna bilər. Hər iki tərcümə şəkli demək olar ki, eyni mənanı çatdırır. Tərc.

– Nə olub sənə, ey Əbu Hüreyrə?

Dedim:

– Ömərlə qarşılaşdım. Sənin mənə dediyini ona xəbər verdim. Lakin, o mənim sinəmə elə bir zərbə vurdu ki, ombam üstə yerə oturdum. Sonra da geri qayıtmağımı söylədi.

Allah Rəsulu (sallallahu əleyhi [və alihi] və səlləm) Ömərə dedi:

– Səni bunu etməyə nə vadar etdi, ey Ömər?

Ömər dedi:

– Atam-anam sənə qurban olsun, ey Allahın Rəsulu, həqiqətən də Əbu Hüreyrəni öz başmaqlarınla göndərib qəlbində yəqin ilə Allahdan başqa ilah olmadığına şəhadət verən şəxsi Cənnətlə müjdələməsini tapşırmısınız?!

Peyğəmbər buyurdu:

– Bəli.

Ömər dedi:

– Belə etmə! Mən qorxuram ki, camaat buna arxayın olalar (və nəticədə xeyir əməldən əl götürələr). Dəymə, qoy əməl etsinlər.

Allah Rəsulu (mənə) dedi:

– Dəymə onlara."[294]

Gördüyünüz kimi, Ömər ibn əl-Xəttab Əbu Hüreyrənin sözünə inanmır! Əbu Hüreyrə ona məlum sözləri xəbər verdikdə Ömər Əbu Hüreyrəni təsdiq etmir, əksinə, onun üzərinə hücum edərək ona zərbə endirir. Ona elə bir zərbə vurur ki, Əbu Hüreyrə arxası üstə yerə oturur. Daha sonra Əbu Hüreyrə Allah Rəsulunun (sallallahu əleyhi və alihi və səlləm) yanına gedərək Ömərin ona etdiyi hücumdan duyduğu şiddətli narahatlıq səbəbindən ağlamağa başlayır. Hətta, görürük ki, Ömər ibn əl-Xəttab Əbu Hüreyrənin dediyi sözün doğru olub-olmadığını Allah Rəsulunun (sallallahu əleyhi və alihi və səlləm) özündən soruşaraq: *"Atam-anam sənə qurban olsun, ey Allahın Rəsulu, həqiqətən də Əbu Hüreyrəni öz başmaqlarınla göndərib qəlbində yəqin ilə Allahdan başqa ilah olmadığına şəhadət verən şəxsi Cənnətlə müjdələməsini tapşırmısınız?!"*, - deyir. Əgər səhabənin Allah Rəsulunun adından yalan danışmaması faktı səhabələrin nəzərində sübuta yetmiş bir həqiqət olsaydı, onda Ömər Əbu Hüreyrənin sözünə şəkk etməz və məsələni Allah Rəsulunun (sallallahu əleyhi və alihi və səlləm) özündən soruşmağa ehtiyac duymazdı.

Daha sonra Osman əl-Xəmis deyir:

"Bütün bunlardan əlavə bu hədislərlə nə xəvariclər, nə nasibilər, nə də mötəzilələr dəlil gətirirlər. Bu hədisləri məhz şiələr Allah Rəsulunun (sallallahu

[294] "Səhihül-Müslim", 1/44.

əleyhi [və alihi] və səlləm) əshabının mürtəd olmasına dəlil gətirirlər. Belə olduğu təqdirdə onlara deyilir: Əlini, Həsəni, Hüseyni, Həmzəni, Abbası və digər Peyğəmbər (sallallahu əleyhi [və alihi] və səlləm) Əhli-Beytindən olan şəxsləri bu siyahından çıxaran nədir? Görəsən, onların mürtəd olmalarına mane olan nədir?

Biz onların mürtəd olduqlarını demirik! Onlar bundan uzaqdırlar. Əksinə, biz onların imam olduqlarını, onların Cənnət əhlindən olduqlarını deyirik. Necə ki, Allah Rəsulu (sallallahu əleyhi [və alihi] və səlləm) bir neçə səhabə ilə birlikdə bir qaya parçasının üzərində durduğu və qaya hərəkətə gəldiyi zaman, "Sakit ol, sənin üzərində peyğəmbərdən, siddiqdən və şəhiddən başqa heç kəs yoxdur", – demişdir. Həmin vaxt Əli də onunla birgə olmuşdur. Deməli, Əli Cənnət əhlindəndir.

Həmçinin, Peyğəmbərin (sallallahu əleyhi [və alihi] və səlləm) Həsən və Hüseyn barədə belə deməsi sübuta yetmişdir: "Onlar Cənnət cavanlarının ağalarıdırlar"..."[295]

**Deyirəm:**

**Birinci:** Şiələr Allah Rəsulundan (sallallahu əleyhi və alihi və səlləm) sonra bütün səhabələrin İslamdan döndüklərini və mürtəd olduqlarını demirlər. Kim belə bir şeyi şiələrə nisbət verirsə, yalançı fitnəkardır. Bu hədisləri şiələr bütün səhabələrin ədalətli olmadıqlarına dəlil gətirirlər. Çünki, hədisdə açıqca deyilir ki, bəzi səhabələr Allah Rəsulundan (sallallahu əleyhi və alihi və səlləm) sonra əqidə və inanclarını dəyişib Cəhənnəmə daxil olmalarına səbəb olan əməllərə mürtəkib olacaqlar. Bu hədis əhli-sünnənin dediyi "bütün səhabələr ədalətlidirlər" iddiasını batil edir.

**İkinci:** Bizim Əlini, Həsəni və Hüseyni (əleyhimussəlam) mürtədlərin cərgəsindən çıxarmağımıza səbəb xəbəri-vahidlər deyil, mütəvatir dəlillərdir. Əliyə (əleyhissəlam) gəlincə, Peyğəmbər (sallallahu əleyhi və alihi və səlləm) Qədir-Xum günündə onun barəsində ***"mən kimin mövlasıyamsa, Əli də onun mövlasıdır"*** demişdir. Bu hədis mütəvatir hədislərdəndir. Əgər İmam Əlinin Peyğəmbərdən sonra dindən dönmə ehtimalı olsaydı, o zaman Peyğəmbər onun vilayətini camaata vacib etməzdi. Bu məqamda İmam Əlinin vilayətinin dini və dünyəvi rəhbərlik, yaxud məhəbbət və yardım kimi kimi təfsir olunmasının heç bir fərqi yoxdur. Peyğəmbər mürtəd olması ehtimal olunan bir şəxsin nə rəhbərliyinə və nə də sevilməsinə əmr edər. Peyğəmbər (sallallahu əleyhi və alihi və səlləm) şəriətə müxalifət etməsi, batilə və həva-həvəs yoluna baş vurması ehtimalı olunan bir şəxsin vilayətinə əsla əmr etməz. Biz Allah Rəsulunun (sallallahu əleyhi və alihi və səlləm) onun vilayətinə əmr etməsindən onun heç vaxt dinini və etiqadını dəyişməyəcəyini və sona qədər haqq yolunda olacağını bilirik.

---

[295] "Hiqbətun minət-tarix", səh.152.

İki böyük imam – İmam Həsən və İmam Hüseynə (əleyhiməssəlam) gəlincə, biz onları da Allah Rəsulundan sadir olması qəti şəkildə bilinməyən xəbəri-vahidə görə yox, mütəvatir bir hədisə görə mürtədlər cərgəsindən çıxarırıq. Həmin hədis budur: ***"Həsən və Hüseyn Cənnət cavanlarının ağalarıdırlar"***. Bu hədis mütəvatir hədislərdəndir. Bu hədisi Peyğəmbərdən (sallallahu əleyhi və alihi və səlləm) çoxlu sayda səhabə nəql etmişdir. Bu hədisin sənədlərinə nəzər salan şəxslər onun Allah Rəsulu (sallallahu əleyhi və alihi və səlləm) tərəfindən deyilmiş olmasına qəti şəkildə əmin olar.

Onların, yəni üç imamın (əleyhimussəlam) bütövlükdə mürtədlər cərgəsindən çıxarılmalarının dəlilinə gəlincə isə, bu dəlil "təthir ayəsi"dir. Hansı ki, Allah Rəsulundan (sallallahu əleyhi və alihi və səlləm) nəql olunan mütəvatir hədislər bu ayənin bu üç imam barəsində nazil olduğuna dəlalət edir. Bu ayə onların (əleyhimussəlam) pak olduqlarını bildirir. Buna əsasən, bu mübarək ayə onların aqibətlərinin yaxşı olmasına dəlil sayılır.

Daha sonra Osman əl-Xəmis deyir:

"Biz şiələrə deyirik: əgər siz Əbu Bəkr, Ömər, Əbu Ubeydə və digər Peyğəmbər (sallallahu əleyhi [və alihi] və səlləm) səhabələrinin hovuz kənarından uzaqlaşdılacaq şəxslər olduqlarını deyirsinizsə, o zaman sizdən başqaları, məsələn, nasibilər nə üçün "Əli də həmçinin, hovuz kənarından uzaqlaşdırılacaq", - deməsinlər? Əgər desəniz ki, Əli üçün bir sıra fəzilətlər sübuta yetmişdir, onlar deyəcəklər ki, Əli üçün sübuta yetən fəzilətlərdən daha artığı Əbu Bəkr və Ömər üçün sübuta yetmişdir." [296]

**Deyirəm:**

**Birinci:** Şiələr hovuz hədisinə səhabələrdən Zeyd və ya Əmrin[297] mürtəd olmasını isbat etmək üçün deyil, məhz "bütün səhabələr ədalətlidirlər" iddiasını batil etməkdən ötrü istinad edirlər. Osman əl-Xəmisin burada bəzi səhabələrin adlarını çəkməsi onun məsələni naqis anlamasından qaynaqlanır.

Bundan başqa, nasibi İmam Əlinin (əleyhissəlam) hovuz kənarından uzaqlaşdırılıb Cəhənnəmə aparılacaq mürtədlərdən olduğunu isbat etmək üçün dəlil gətirməlidir. Görəsən, nasibilər – Allah onları zəlil etsin – bu məsələ barəsində mütəvatir və qəti dəlilə malikdirlərmi?

Bizim Əlinin (əleyhisəlam) həmin qovulacaq şəxslərdən olmamasına dair qəti dəlillərimiz var.

---

[296] "Hiqbətun minət-tarix", səh.153.
[297] Zeyd və Əmr şərti adlardır.

**İkinci:** Osman əl-Xəmisin dediyi “Əbu Bəkr və Ömər barədə gələn fəzilətlər Əli barədə gələn fəzilətlərdən daha çoxdur” sözünü elə bəzi əhli-sünnə alimlərinin sözləri batil edir. Belə ki, bir sıra əhli-sünnə alimləri etiraf etmişlər ki, İmam Əli (əleyhissəlam) barəsində gələn fəzilətlər qədər heç bir səhabə barəsində mötəbər sənədlərlə fəzilət gəlməmişdir. İbn Həcər “əs-Səvaiq” əsərində deyir:

“Əlinin fəzilətləri çoxdur, böyükdür və məşhurdur. Hətta Əhməd [ibn Hənbəl] demişdir ki, Əli barəsində gələn fəzilətlər heç kəs barəsində gəlməmişdir.

İsmayıl əl-Qadi, Nəsai və Əbu Əli ən-Nisaburi demişlər ki: “Heç bir səhabə barəsində həsən sənədlərlə Əli barəsində gələndən çox hədis gəlməmişdir.”[298]

Daha sonra Osman əl-Xəmis aşağıdakı ayəni dəlil gətirmişdir:

“**Muhəmməd Allahın peyğəmbəridir. Onunla birgə olanlar kafirlərin qarşısında güclü və sərt, öz aralarında isə mehribandırlar. Onları həmişə rüku və səcdə halında daim Allahın lütf və bəxşişini və Onun razılığını diləyən görərsən. Onların (ibadət və itaətkarlıqlarının) nişanəsi səcdə nəticəsində üzlərində görünür. Bu onların (Musanın) Tövrat(ın)dakı vəsfidir. Onların (İsanın) İncil(in)dəki vəsfi isə (Allahın,) pöhrələrini (kənarlarından) çıxardığı və gücləndirdiyi, nəhayət qalınlaşaraq möhkəmlənmiş və əkinçiləri təəccübə salan bir tərzdə öz gövdəsi üzərində dayanan əkin kimidir. (Allah,) onların vasitələri ilə kafirləri qəzəbləndirmək üçün (belə edib). Allah onlardan iman gətirib yaxşı işlər görənlərə bağışlanma və böyük mükafat vəd etmişdir**”[299].

Kitabının iki səhifəsindən çoxunda bu ayə barədə danışmış və iddia etmişdir ki, təfsirçilər **“Allah onlardan...” (minhum)** sözündəki “min” önqoşmasının “təb`izi” yox, “bəyani” olması[300] barədə və ayənin Peyğəmbərin (sallallahu əleyhi və alihi və səlləm) bütün səhabələri üçün mədh olması barədə icma etmişlər.

Daha sonra, bir dəstə əhli-sünnə aliminin adlarını çəkdikdən və onların ayədəki “min”-in cins və ya təkid bildirməsini demələrini qeyd etdikdən sonra demişdir:

“Bütün bu alimlər ayədən söz açdıqları zaman ayədəki “min”-in Allah düşmənlərinin iddia etdikləri kimi “təb`iz” (hissə) bildirən deyil, təkid və ya cins bildirən “min” olduğunu demişlər.” [301]

---

[298] “Əs-Səvaiqul-muhriqə”, 2/353.

[299] Fəth surəsi, 29-cu ayə.

[300] “Min ət-təb`iziyyə”: hissə, parça və ya partitivlik bildirən “min” önqoşması. “Min əl-bəyaniyyə”: bəyan, açıqlama bildirən “min” önqoşması. Tərc.

[301] “Hiqbətun minət-tarix”, səh.152.

Beləliklə, Osman əl-Xəmis bu ayə ilə bütün səhabələrin ədalətli olmalarını sübuta yetiməyə çalışmışdır. Lakin, cavab olaraq deyirik:

**Əvvəla:** Şübhə yoxdur ki, **"onunla birgə olanlar"** sözü məkan və ya zaman cəhətdən deyil, iman cəhətdən birgə olmağı nəzərdə tutur. Biz iki ehtimal qarşısındayıq. Ya ayədə məqsədin bütün iman gətirib İslama daxil olan şəxslər olduğunu, ya da məqsədin ayənin işarə etdiyi xüsusiyyətlərə sahib olan xüsusi qrup şəxslər olduğunu deməliyik.

Birinci ehtimal məqbul deyil. Çünki, müsəlman olub İslama iman gətirənlər arasında elə şəxslər vardır ki, Qurani-Kərim onları "qəlblərində xəstəlik olanlar" adlandırmışdır. Allah-təala buyurmuşdur: "**O zaman münafiqlər və qəlblərində xəstəlik olanlar "bunları (Bədrə gedən İslam ordusunu) dinləri aldatmışdır!" deyirdilər, halbuki, kim Allaha təvəkkül etsə, şübhəsiz (qalibdir, çünki) Allah yenilməz qüdrət və hikmət sahibidir**"[302]. Bəzi təfsirçilər bildirmişlər ki, ayədəki "qəlblərində xəstəlik olanlar"dan məqsəd imanı zəif olan şəxslərdir. İmanı zəif olan şəxslər də münafiqlərdən ayrı şəxslərdirlər. Şübhə yoxdur ki, Fəth surəsinin 29-cu ayəsində bu şəxslər nəzərdə tutulmamışdır. Buna əsasən, "**onunla birgə olanlar**" sözündən məqsədin bütün səhabələr olması ehtimalı batil olur və ayə bütün səhabələrin adil olduqlarına dəlalət etmir. Çünki, zəif imanlı şəxslər də səhabələrdəndirlər, lakin, ayənin qeyd etdiyi xüsusiyyətlər onlara uyğun gəlmir. Elə isə aydın olur ki, Allah-təala bu ayə ilə bütün səhabələri yox, bir dəstə səhabəni nəzərdə tutmuşdur.

Bundan başqa, indi ki, qəlblərində xəstəlik olan şəxslər səhabələrin cərgəsindədirlər, o zaman bu ayəni Peyğəmbərlə (sallallahu əleyhi və alihi və səlləm) birgə olan şəxslərdən hər hansı birinin ədalətini isbat etmək üçün dəlil gətirmək – ayədəki xüsusiyyətlərin həmin şəxsə uyğun gəldiyi başqa bir dəlil ilə sübuta yetmədiyi müddətcə – düzgün sayılmayacaq.

Üstəlik, münafiqlər də Peyğəmbərlə (sallallahu əleyhi və alihi və səlləm) birgə olan şəxslərdən idilər. Şübhəsiz ki, ayənin onlara da aiddiyyatı yoxdur, lakin, bu münafiqlərdən bəzilərinin kimliyi Peyğəmbər (sallallahu əleyhi və alihi və səlləm) və möminlər üçün gizli qaldığına görə biz bu ayəyə əsaslanıb Peyğəmbərin yanında olan şəxslərdən hər hansısa birinin ədalətini başqa bir dəlillə o şəxsin ayədəki sifətlərə sahib olması sübuta yetmədiyi müddətcə isbat edə bilmərik.

**İkinci:** Peyğəmbərə (sallallahu əleyhi və alihi və səlləm) iman gətirən, onu görən və onun kəlamını eşidən şəxslərdən bir dəstəsi Peyğəmbərin (sallallahu əleyhi və alihi və səlləm) vəfatından sonra mürtəd oldular. Bu şəxslər Peyğəmbərin sağlığında onun səhabələrindən sayılırdılar. Əgər ayə nazil olduğu vaxtda onlar ayənin şamil olduğu kəslərdən sayılmışlarsa, o zaman mürtəd olmaları ilə ayənin

302 Ənfal surəsi, 49-cu ayə.

hökmündən xaric olurlar. Bu isə bir daha onu təsdiq edir ki, ayədəki "min" önqoşması "bəyani" deyil "təb`izi"dir. Yəni, bağışlanma və böyük savab vədəsi səhabələrdən imanından azıb pis və çirkin əməllərə bulaşanlara yox, imanında sabitqədəm qalıb saleh əməllər işləməkdə davam edən şəxslərə məxsusdur. Buna əsasən, ayənin bütün səhabələrin ədalətli olmalarına dəlalət etmədiyi açıq-aşkar ortadadır.

**Üçüncü:** Ayə Peyğəmbərlə (sallallahu əleyhi və alihi və səlləm) birgə olan şəxslər üçün bir sıra xüsusiyyətlər qeyd etmişdir. Onlardan biri bu şəxslərin **"kafirlərə qarşı güclü və sərt"** olmalarıdır. Lakin, biz bəzi səhabələrin həyat yoluna müraciət etdikdə onların bu sifətə sahib olmadıqlarını görürük. Bunun dəlillərindən biri onların Hüneyn döyüşündən qaçmalarıdır. Əbu Qətadədən nəql olunur ki:

"Hüneyn günü müsəlmanlardan birinin müşriklərdən biri ilə döyüşdüyünü gördüm. Bu zaman başqa bir müşrik həmin müsəlmanın arxasına keçib onu (hiylə ilə) qətlə yetirmək istədi. Mən cəld o şəxsə tərəf şığıdım. O məni vurmaq üçün əlini qaldırdıqda mən onun əlinə zərbə endirib onun əlini kəsdim. Sonra o məni tutub elə möhkəm şəkildə sıxdı ki, (öləcəyimdən) qorxdum. Sonra əlini boşaltdı və mən onu itələdim. Bundan sonra onu öldürdüm. O gün müsəlmanlar döyüşdən qaçdılar, mən də qaçdım. Bu zaman (qaçan) camaatın arasında Ömər ibn əl-Xəttabı gördüm. Mən ona dedim: "Camaata nə olub?" Dedi: "Allahın işidir!!" Sonra camaat Allah Rəsulunun (sallallahu əleyhi [və alihi] və səlləm) yanına qayıtdı...[303]

Elə isə Hüneyn günündə döyüşdən qaçan bu səhabələri necə "kafirlərə qarşı güclü və sərt" adlandıra bilərik?!

Ayənin Peyğəmbərlə (sallallahu əleyhi və alihi və səlləm) birgə olan şəxslər üçün qeyd etdiyi xüsusiyyətlərdən biri də onların **"öz aralarında mehriban və mülayim"** olmalarıdır. Lakin, biz bu xüsusiyyətin də bəzi səhabələrdə olmadığını görürük. Bunun dəlilləri çoxdur. Onlardan biri budur ki, bir dəstə səhabə onlara yardım edən sair şəxslərlə birlikdə həddlərini aşıb Cəməl və Siffeyn döyüşlərində İmam Əli ibn Əbi Talibə (əleyhissəlam) və onunla birgə olan səhabələrə və möminlərə qarşı qiyam etdilər. Şübhə yoxdur ki, bu bağilər[304] İmam Əliyə (əleyhis-səlam) qarşı çıxıb onunla və onun yanında olan möminlərlə döyüşdükləri zaman İmam Əliyə (əleyhissəlam) və ya onun yanında olan şəxslərə qarşı mehriban olmamışlar. Əksinə, bu döyüşlərdə minlərlə insan qətlə yetirmiş və minlərlə insan yaralamışlar.

---

[303] "Səhihül-Buxari", 4/1570, "kitab əl-məğazi", hədis 4067.

[304] Dövrün xəlifəsinə qarşı çıxanlara "bağı" – "həddi aşan", "azğınlıq edən" deyilir. Tərc.

Əgər bəzi səhabələrdə ayənin qeyd etdiyi bu xüsusiyyətlər və ya bu xüsusiyyətlərin bəziləri yoxdursa, o zaman ayənin bütün səhabələrin ədalətli olmalarına dəlalət etdiyini necə iddia etmək olar?!

Buna əsasən, hətta, ayədəki “min” önqoşmasının “təb`izi” deyil, “bəyani” olmasını qəbul etsək belə, yenə də deməliyik ki, ayə əsla bütün səhabələrə şamil olmur. Ayə məhz qeyd olunan xüsusiyyətlərə sahib şəxslərə şamil olur. İlahi vəd digər səhabələrə deyil məhz onlara aiddir.

# OSMAN İBN ƏFFANA QARŞI QİYAMIN SƏBƏBLƏRİ BARƏDƏ OSMAN ƏL-XƏMİSİN İDDİALARINA CAVAB

## Osman ibn Əffana qarşı qiyamın səbəbləri barədə Osman əl-Xəmisin iddialarına cavab

### Osman əl-Xəmisin nəzərində qiyamın səbəbləri

Osman əl-Xəmis müsəlmanların Osman ibn Əffana qarşı qiyam qaldırıb onu qətlə yetirilməsindən danışarkən dörd səbəb qeyd edir. Birinci səbəb Abdullah ibn Səbədir. Osman əl-Xəmis iddia edir ki, bu fitnənin səbəblərdən biri bu şəxsdir. Bu şəxs qiyamı alovlandırmış, Osmana qarşı qiyam qaldırmaq üçün bir qrup müsəlmanı ordu halında toplamışdır. Xəmis bu səbəbi əsas səbəb hesab edir. İkinci səbəb olaraq, Osmanın xilafəti dövründə müsəlmanların zəngliyə çatması və bunun nəticəsində naşükürləşmələrini göstərir. Onun iddiasına əsasən, müsəlmanların bu naşükürlükləri onları öz xəlifələrinə qarşı qiyam qaldırıb onu qətlə yetirməyə sövq etmişdir. Üçüncü səbəb kimi isə Osmanın güzəştcil, yumşaq xasiyyətli və mülayim olmasını göstərmişdir; Xəmisin fikrincə, onun bu xüsusiyyəti, camaatı ona qarşı qiyam qaldırıb onu qətlə yetirməyə cürətləndirmişdir! Dördüncü səbəb isə bəzi qəbilələrin Qüreyşin rəhbərliyini çəkə bilməməsi, onu qəbul edə bilməməsidir[305].

Lakin, bu deyilənlərin heç biri Osman ibn Əffana qarşı qaldırılan qiyamların həqiqi səbəbləri deyil. Əksinə, bunlar, qiyamın həqiqi səbəblərini ört-basdır etmək üçün ortaya atılmış fikirlərdir.

### Osman ibn əl-Əffana qarşı qiyamın həqiqi səbəbləri

O dövrdə baş verən hadisələrdə İbn Səbənin heç bir rolu olmamışdır. Müsəlmanların Osmana qarşı nifrətlənib ona qarşı etiraz etmələrinin arxasında İbn Səbə dayanmamışdır. Nə müsəlmanların naşükürlüyü, nə Osmanın mülayimlik və üzüyumşalığı və nə də bəzi qəbilələrin Qüreyşin başçılığını qısqanması, inqilabın həqiqi səbəbləri olmuşdur. Qiyamın həqiqi səbəbi, məhz Osmanın və onun bəzi valilərinin islam şəriətinə zidd hərəkətləri idi. Bu işin həqiqətini və dediklərimizin doğruluğunu öyrənmək istəyən kəslər, əhli-sünnənin tarix kitablarına müraciət etsinlər. Biz burada bu kitablardan bir sıra örnəklər qeyd edirik. Tarixçi Əbül-Fida yazır:

“Sonra 34-cü il daxil oldu. Səid Osmanın yanına gəlib Kufə camaatının etdiklərini və onların (vali olaraq) Əbu Musa əl-Əşərini seçdiklərini ona xəbər verdi. Bundan sonra Osman Əbu Musanı Kufəyə vali təyin etdi. Əbu Musa onlara xütbə edib onları Osmana itaət etməyə çağırdı. Onlar da bunu qəbul etdilər. Bəzi

305 “Tarixdən bir dövr”: səh.65-66.

səhabələr isə öz aralarında yazışmağa başlayıb, “buraya gəlin, cihad buradadır!”, - dedilər. Camaat Osmanı təhqir etməyə başladı. İçlərində Zeyd ibn Sabit, Əbu Üseyd əs-Saidi, Kəb ibn Malik və Həssan ibn Sabit kimi səhabələrin olduğu az sayda şəxsdən başqa heç bir səhabə camaatı bu işdən çəkindirmir, (Osmanı) müdafiə etmirdi. Camaatın Osmana qarşı qəzəblənməsinin səbəblərindən biri onu Allah Rəsulunun (sallallahu əleyhi [və alihi] və səlləm) qovduğu, həmçinin, Əbu Bəkr və Ömərin qovduğu şəxs olan Həkəm ibn əl-Ası geri qaytarması idi. Həmçinin, Afrikanın qənimətlərinin xümsünü, 500 min dinarı (!) Mərvan ibn Həkəmə verməsi camaatı narazı salan işlərdən idi...”[306].

Yenə, həmin kitabda deyilir:

“Osman, Fatimənin tələb etdiyi Allah Rəsulunun (sallallahu əleyhi [və alihi] və səlləm) sədəqəsi olan Fədəyi Mərvana verdi. Əbu Bəkr Allah Rəsulundan (sallallahu əleyhi [və alihi] və səlləm) nəql etmişdir ki, “biz peyğəmbərlər irs qoymuruq, nə qoyuruqsa, sədəqədir”. Ömər ibn Əbdül-Əziz hakimiyyətə gələnədək Fədək Mərvan və övladlarının əlində qaldı. Ömər ibn Əbdül-Əziz hakimiyyətə gəldikdə, onu Mərvan övladlarının əlindən alıb, yenidən sədəqə etdi”[307].

Şəhristani yazır:

“Osmanın dövründə çoxlu ixtilaflar baş verdi. Camaat, hamısı Üməyyə övladları ilə bağlı olan bir sıra hadisələrə görə onu təqsirləndirir, məzmənmət edirdi.

Belə hadisələrdən biri Allah Rəsulunun (sallallahu əleyhi [və alihi] və səlləm) qovmasına baxmayaraq, Osmanın Həkəm ibn Üməyyəni Mədinəyə qaytarması idi. Həkəm “taridu-rasulilləh” (Allah Rəsulunun qovduğu şəxs) adlanırdı. Həkəm Əbu Bəkr və Ömərdən Mədinəyə geri qayıtmaq icazəsi istəmişdi, lakin, onlar icazə verməmişdilər. Ömər onu Yəməndə qaldığı yerdən qırx fərsəx uzağa sürgün etmişdi.

Digər bir iş Osmanın Əbu Zəri sürgün etməsi, öz qızını Mərvan ibn Həkəmə ərə verməsi və 200 min dinara çatan Afrikanın xümsünü Mərvana bağışlaması idi.

Digər bir iş, Peyğəmbər (sallallahu əleyhi [və alihi] və səlləm) tərəfindən qanı halal edilməsinə rəğmən, Osmanın öz süd qardaşı olan Abdullah ibn Səd ibn Əbu Sərhə sığınacaq verməsi, onu Misirə vali təyin etməsi idi. Habelə, Abdullah ibn Amiri Bəsrəyə təyin etməsi və Abdullah ibn Amirin Bəsrədən məlum oyunlar çıxarması və s. digər işlər, camaatın Osmana qarşı qəzəblənməsinə səbəb olmuşdu. Onun qoşun rəhbərləri olan Müaviyə Şamın, Səd ibn Əbu Vəqqas, – ondan sonra da Vəlid ibn Üqbə və Səid ibn As – Kufənin, Abdullah ibn Amir Bəsrənin,

---

[306] “əl-Muxtəsər fi əxbaril-bəşər”: 1/210, “Darul-məarif” çapı, həmçinin, bax: “Tarixu-İbnil-Vardi”: 1/145.

[307] “əl-Muxtəsər fi əxbaril-bəşər”: 1/211, “Tarixu-İbnil-Vardi”: 1/145.

Abdullah ibn Səd ibn Əbu Sərh də Misirin hakimi idi. Bunların hamısı Osmanı tək-tənha köməksiz qoydular, nəticədə Osman qətlə yetirildi"[308].

Bəlazuri "Ənsabul-əşraf" kitabında Səid ibn əl-Müseyyibdən belə nəql edir:

"Osman hakimiyyətə gəldikdə, bir qrup səhabə onun hakimiyyətə gəlməsindən xoşlanmadı. Çünki Osman qohum-əqrəbasını sevirdi. O, 12 il camaata rəhbərlik etdi. Çox vaxt Allah Rəsulunun (sallallahu əleyhi [və alihi] və səlləm) səhabəsi olmayan Bəni-Üməyyəli şəxsləri vali təyin edirdi. Onun valilərindən Allah Rəsulunun (sallallahu əleyhi [və alihi] və səlləm) səhabələrinin narazılıq etdiyi şeylər gəlib çatırdı. Osmana valiləri ilə bağlı üzrxahlıq edilir, o da onları tutduqları postdan uzaqlaşdırmırdı. Son 6 ilə keçdikdə, öz əmi oğlanlarını üstün tutub onları hakimiyyətə gətirdi. Abdullah ibn Səd ibn Əbu Sərhi Misirə vali təyin etdi. Abdullah bir neçə il Misirdə hakim oldu. Lakin misirlilər Osmanın yanına gəlib Abdullahın zülmündən ona şikayət etməyə başladılar. Bundan öncə isə Osman Abdullah ibn Məsuda, Əbu Zərə və Əmmar ibn Yasirə qarşı xoşagəlməz işlər görmüşdü. Hüzeyl, Bəni-Zührə, Bəni-Ğifar və onların həmpeymanlarının ürəklərində Əbu Zərə görə Osmana qarşı bir qəzəb var idi. Bəni-Məxzum da Əmmar ibn Yasirə görə möhkəm qəzəblənmişdi..."[309].

Zəhəbi Zuhrinin belə dediyini nəql edir:

"Osman hakimiyyətə gəldi. Altı il camaatın heç bir narazılığını qazanmadan hakimiyyət etdi. Hətta, Osman camaat üçün Ömərdən daha sevimli idi. Çünki, Ömər camaata qarşı sərt idi, Osman isə hakimiyyətə gəlincə camaatla mülayim və yumşaq davrandı. Lakin sonradan idarəetmədə zəifləşdi. Son altı ildə qohumlarını və ailə üzvlərini vəzifə başına gətirdi. Misirin və ya Afrikanın xümsünü Mərvana verdi. Qohum-əqrəbasına mal-dövlət payladı. Bu işini də Allahın əmr etdiyi "qohumluq əlaqələrini möhkəmlətmək" əmri ilə izah edirdi. Beləcə malları götürdü, beytül-maldan[310] borc aldı. Dedi ki, "Əbu Bəkr və Ömər bunu edə biləcəkləri halda, bu işi (könüllü surətdə) tərk etdilər, mən isə bu haqdan istifadə edib (mal-sərvət) götürdüm və onu öz qohumlarım arasında payladım." Camaat bu sözə görə ona etiraz etdi." [311]

Zəhəbi yazır:

"Camaatın Osmana qəzəbləndiyi işlərdən biri bu idi ki, Osman zahid və saleh şəxs olan Ümeyr ibn Sədi Homsun valiliyindən uzaqlaşdırdı, beləcə Şamı bütünlüklə Müaviyənin ixtiyarına verdi. Əmr ibn əl-Ası Misirin valiliyindən uzaqlaşdırıb İbn Əbu Sərh ora vali təyin etdi. Əbu Musa əl-Əşərini isə Bəsrənin

---

308 "əl-Miləl vən-nihəl": 1/32.

309 "Cüməl min ənsabil-əşraf": 6/134, həmçinin, bax: "Əxbarul-Mədinə" (İbn Şəbbə): 2/214, "əl-İqdül-fərid" (İbn Əbdü-Rəbbih əl-Əndəlusi): 4/270, "Tarixu-mədinəti-Diməşq": 39/416.

310 Dövlət büdcəsi. Tərc.

311 "Tarixul-islam": 3/433, "Təbəqatu-İbn Səd": 3/64, "Ənsabul-əşraf": 2/263, "Tarixu-Diməşq": 39/251.

valiliyindən uzaqlaşdırıb Abdullah ibn Amiri ora vali qoydu. Həmçinin, Müğeyrə ibn Şubəni Kufənin valiliyindən uzaqlaşdırıb Səid ibn əl-Ası ora vali qoydu”[312].

İbn Qüteybənin “əl-İmamə vəs-siyasə” kitabında qeyd olunur ki:

“Allah Rəsulunun (sallallahu əleyhi [və alihi] və səlləm) bir qrup səhabəsi toplaşıb bir məktub yazdılar. Burada Osmanın Allah Rəsulunun sünnəsinə və onun iki səhabəsinin [Əbu Bəkr və Ömərin] sünnəsinə xilaf olan əməllərini qeyd etdilər. Osmanın, içində Allahın, Onun elçisinin, Peyğəmbərin yaxın qohumlarının, yetimlərin və kasıbların haqqı olan Afrikanın xümsünü Mərvana bağışlamasını yazdılar. Onun hündür evlər tikdirməsini yazdılar. Onun Mədinədə tikdirdiyi yeddi evi qeyd etdilər. Bu evlər Nailə, Aişə və digərləri kimi Osmanın həyat yoldaşı və qızları üçün tikilmişdi. Həmçinin, Mərvanın Allahın və Onun elçisinin vacib haqqı olan xümsün pulundan Zi-Xuşbda[313] qəsrlər və mallar imarəti[314] tikdirməsini yazdılar. Həmçinin, Osmanın dövlət vəzifələrini və valiliyi öz ailə üzvlərinə və Bəni-Üməyyədən olan qohumlarına, özü də Allah Rəsuluna səhabəlik etməmiş yeniyetmə və uşaqlara verməsini qeyd etdilər. Habelə, Vəlid ibn Üqbənin Kufə etdiklərini yazdılar. Vəlid Kufədə vali olduğu vaxt sərxoş halda camaata sübh namazı qıldırmış, 2 rəkətli sübh namazını 4 rəkət qılmışdı. Bunun ardınca da camaata dönüb, “istəsəniz biraz da artıra bilərəm”, -demişdi. Buna rəğmən Osman ona şəri cəza tətbiq etməmiş, bu işi təxirə salmışdı. Habelə, Osmanın mühacir və ənsarları heç bir işə təyin etməməsini, onlarla məsləhətləşməməsini, öz fikirləri ilə kifayətlənib onların düşüncələrini almamasını yazdılar. Eləcə də, Mədinə ətrafındakı dövlət torpaqlarını öz istifadəsinə keçirməsini yazdılar. Osmanın əraziləri, ərzaqları və payları Mədinədəki Allah Rəsuluna (əleyhissalətu vəs-səlam) səhabə olmayan, nə döyüşlərdə iştirak edən, nə də müdafiə işi görən[315] bir dəstə şəxsə verməsini qeyd etdilər. Xeyzəranı[316] qamçıya dəyişməsini və onun insanların belinə qamçı ilə zərbə vuran ilk şəxs olmasını yazdılar. Halbuki, daha öncəki xəlifələr xeyzəran və dürrədən[317] istifadə edirdilər.

Sonra bu şəxslər bu məktubu şəxsən Osmana təqdim etməyi qərara aldılar. Məktub yazılarkən orada olan şəxslər arasında Əmmar ibn Yasir və Miqdad ibn Əsvəd də var idi. Ümumiyyətlə onlar 10 nəfər idilər. Məktubu Osmana vermək üçün yola çıxdıqlarında – bu zaman məktub Əmmarın əlində idi – bir-bir Əmmarın arxasından ayrılmağa başladılar və nəticədə Əmmar tək qaldı. Əmmar gəlib

---

312 “Tarixul-islam”: 3/432.

313 Mədinədə yer adıdır. Tərc.

314 “Mallar imarəti” ifadəsi ilə konkret olaraq nəyin nəzərdə tutulduğu və mallar imarəti adlı tikilinin konkret olaraq hansı məqsədə xidmət etdiyi bəlli olmasa da, ümumiyyətlə bunun mal-dövlət və pulla bağlı bir yer olduğunu, bəlkə də pulların saxlanıldığı bir yer olduğunu deyə bilərik. Tərc.

315 Yaxud, İslamı qoruyan. Tərc.

316 Nazik çubuq. Tərc.

317 Çubuq növü.  Tərc.

Osmanın evinə çıxdı. Osmanın yanına daxil olmaq üçün icazə istədi və ona soyuq bir gündə icazə verdilər. Əmmar Osmanın məclisinə daxil oldu. Mərvan ibn Həkəm və Bəni-Üməyyədən olan ailə üzvləri onun yanında idi. Əmmar məktubu Osmana verdi. Osman məktubu oxuyub dedi: “Bu məktubu sən yazmısan?” Əmmar dedi: “Bəli”. Osman dedi: “Səninlə başqa kim var idi?” Əmmar dedi: “Mənimlə birgə bir dəstə şəxs var idi, lakin dağılışıb getdilər”. Osman dedi: “Kim idi onlar?” Əmmar dedi: “Onların kim olduğunu sənə deyə bilmərəm”. Osman dedi: “Bəs niyə onlar arasında məhz sən mənə qarşı cürət etdin?” Bu zaman Mərvan ona dedi: “Ey möminlərin əmiri! Bu qara qul – Əmmarı nəzərdə tuturdu – camaatı sənə qarşı qaldırıb. Əgər sən onu öldürsən, onun arxasında olanlara yaxşı ibrət dərsi vermiş olarsan”. Osman dedi: “Vurun onu!” Oradakılar Əmmarı vurmağa başladılar. Osman da onlarla birgə vurmağa başladı. O qədər vurdular ki, Əmmarın qarnını yardılar və Əmmar huşunu itirdi. Onu sürüyüb evin qapısına atdılar. Peyğəmbərin xanımı Ümmü Sələmə onun öz evinə gətirilməsini əmr etdi. Bu hadisəyə görə Əmmarın həmpeymanları olan Bəni-Müğeyrə qəzəbləndi. Osman zöhr namazını qılmaq üçün evdən çıxanda Hişam ibn Vəlid ibn Müğeyrə onun qarşısına çıxıb dedi: “Məlum olsun, əgər Əmmar bu zərbədən dünyasını dəyişsə, Allaha and olsun ki, onun əvəzində Bəni-Üməyyədən çox böyük bir şəxsi qətlə yetirəcəyəm”. Osman dedi: “Sənlik deyil”.”[318]

Məqdisi yazır:

“Osmanın mühasirəyə alınıb qətlə yetirilməsinin səbəbi bu idi ki, camaat bir sıra işlərə görə ona qəzəblənmişdi. Belə işlərin biri, Ömərin də dediyi kimi, Osmanın öz qohum-əqrəbasını himayə etməsi idi. Osman, Allah Rəsulunun (sallallahu əleyhi [və alihi] və səlləm) qovduğu şəxs olan və Vəccdə[319] yaşayan Həkəm ibn Əbül-As ibn Üməyyəyə sığınacaq vermişdi (onu Mədinəyə geri qaytarmışdı). Həkəm Allah Rəsulunun (sallallahu əleyhi [və alihi] və səlləm) sirrini ifşa edib onu camaata danışdığı üçün Mədinədən qovulmuşdu.

Digər bir iş, Osmanın Mədinənin şərqində yerləşən düz-hamar ərazini Haris ibn Həkəmə[320] verməsi idi. Halbuki, Peyğəmbər (sallallahu əleyhi [və alihi] və səlləm) Mədinəyə gəlib o əraziyə çatanda, ayağını yerə vuraraq belə demişdi: “Bura bizim namaz qılacağımız, yağış istəyəcəyimiz[321], Qurban və Fitr günlərində yığışacağımız yerdir. Onu özünüzə götürməyin, orada yuxulamayın. Bizim malımızdan bir şey götürənə Allah lənət etsin”.

---

[318] “əl-İmamə vəs-siyasə”: səh.31-32.

[319] Mədinə kənarında, Taifdə yer adıdır. Tərc.

[320] Həkəm ibn Əbül-Asın oğlu, Mərvanın qardaşıdır. Tərc.

[321] Yəni, yağış istəmək üçün yığışıb namaz qılacağımız yerdir. Yaxud, burası bizim yağışa açıq, üstü açıq yerimizdir. Birinci məna daha dəqiqdir. Tərc.

Digər bir iş, Osmanın Allah Rəsulunun (sallallahu əleyhi [və alihi] və səlləm) sədəqəsi olan Fədək kəndini və həmçinin, Afrikanın qənimətlərinin xümsünü Mərvan ibn Həkəmə verməsi idi...

Digər bir iş, onun Abdullah ibn Xalid ibn Üseyd ibn Rafiyə 400 min dirhəm, Həkəm ibn Əbul-Asa isə 100 min dirhəm verməsi idi.

Digər bir iş bu idi ki, Ömərin oğlu Übeydullah atasının ölümünə görə Hörmüzanı və lənətlik Əbu Luluənin iki oğlunu qətlə yetirdi, lakin Osman ondan qisas almadı.

Digər bir iş bu idi ki, Osman Ömərin valilərini işdən uzaqlaşdırıb onların yerinə Bəni-Üməyyəni gətirdi. Əmr ibn Ası Misir valiliyindən çıxarıb yerinə Abdullah ibn Səd ibn Əbu Sərhi gətirdi, Səd ibn Əbu Vəqqası da Kufə valiliyindən çıxarıb yerinə fasiq Vəlid ibn Üqbə ibn Əbu Muiti gətirdi. Vəlid Osmanın anabir qardaşı idi. O, şəraba qurşanıb şərab içir və namazı öz vaxtında yox başqa vaxtda qılırdı. Bir gün sərxoş halda ikən sübh namazını camaata 4 rəkət qıldırdı və namazı bitirdikdən sonra dönüb, “istəyirsiniz, bir qədər də artırım? Mən hələ canlıyam, (daha çox qıla bilərəm)!”, - dedi. Camaat onun üstünə töklüşüb onu daşa basdılar (yaxud: məsciddən çıxardılar)... Camaat ondan şikayət edincə, Osman onu vəzifədən kənarlaşdırıb yerinə ondan daha şər birisi olan Səid ibn Ası gətirdi. Beləcə çox böyük bir təkəbbür və eqoizm sahibi bir şəxs vəziyəfəyə gəldi. O, asma və digər növ körpülər üzərinə üşur ($^1/_{10}$) verigisi qoyan ilk şəxsdir.

Digər bir iş bu idi ki, İbn Əbu Sərh bir nəfərə görə 700 nəfəri qətlə yetirmişdi, lakin Osman buna görə onu cəzalandırmaq əvəzinə onun işdən alınmasını göstəriş verməklə kifayətlənmişdi.

Digər bir iş Osmanın Quran qiraətlərin hamısını bir qiraət etməsi idi, bununla camaatı[322] öz müshəfindən uzaqlaşdırdı.

Digər bir iş, onun, işinə qarışmasın deyə Amir ibn Əbdü-Qeysi Bəsrədən Şama sürgün etməsi idi. Həmçinin, Əbu Zər əl-Ğifarini Rəbəzəyə sürgün etməsi idi. Çünki, Müaviyə Əbu Zərin onun barəsində tənqid və tənələr etməsindən Osmana şikayət etmişdi. Osman da Əbu Zəri çağırıb onu razı salmağa çalışmış, lakin Əbu Zər razı olmamışdı, buna görə də Osman onu Rəbəzəyə sürgün etmişdi. Əbu Zər elə orada da öldü, Allah ona rəhmət etsin.

Digər bir iş bu idi ki, Osman Nailə binti Fərafisə əl-Kəlbiyyə ilə evlənib ona beytül-maldan 100 min vermiş[323], (yenə beytül-maldan) içində zinət əşyaları olan qutucuq götürüb həyat yoldaşlarından birinə bağışlamış, yenə beytül-maldan 5 min dirhəm borc götürmüşdü. Ona beyət edilən vaxt belə şərt kəsilmişdi ki, Allahın

---

[322] Quran nüsxəsindən. Tərc.

[323] Məqdisi bunun dinar, yoxsa dirhəm olduğunu qeyd etməyib. Tərc.

kitabına, Peyğəmbərin sünnəsinə və iki xəlifənin tutduğu yola uyğun şəkildə iş görəcək. Osman isə 6 il bu cür etsə də, sonradan dəyişdi...

Digər bir iş isə bu idi ki, Osman hakimiyyətə gəldikdə minbərə çıxıb onun ən yuxarı yerinə - Allah Rəsulunun (sallallahu əleyhi [və alihi] və səlləm) oturduğu yerdə oturdu. Əbu Bəkr Peyğəmbərə (sallallahu əleyhi [və alihi] və səlləm) ehtiram əlaməti olaraq bundan bir pillə aşağıda otururdu. Ömər hakimiyyətə gəldikdə Əbu Bəkrin oturduğu yerdən bir pillə aşağıda oturdu və minbər iki pilləli olduğu üçün ayaqları yerə dəydi. Camaat Osmanın bu hərəkəti barəsində danışmağa və onun barəsində xoş olmayan sözlər deməyə başladı. (Bundan xəbərdar olan) Osman xütbə edib dedi[324]: “Bu, Allahın malıdır, onu istədiyimə verərəm, istədiyimə verməərəm. Xoşu gəlməyənin Allah burnunu ovsun!” Bu zaman Əmmar ayağa qalxıb dedi: “Mən bu işdən xoşu gəlməyən ilk şəxsəm!” Osman ona dedi: “Mənə qarşı cürət etdin, ey Süməyyənin oğlu?!” Elə bu vaxt Bəni-Üməyyə Əmmarın üstünə tökülüb onu huşunu itirincəyədək döyməyə başladılar. (Özünə gəldikdən sonra) Əmmar dedi: “Bu, mənim Allah yolunda əziyyətə çəkdiyim ilk hal deyil”. Osman Abdullah ibn Məsudu da öz Quran qiraətinə müxalifət etdiyinə görə döymüşdü”[325].

Məhz bu və bunun kimi digər səbəblər səhabə və tabeilərdən[326] olan şəxslərin Osmana qarşı qiyam qaldırıb onu öldürmələrinə səbəb oldu. Osmana qarşı qiyam odunu alovlandırıb müsəlmanları ona qarşı qaldıran şəxsin Abdullah ibn Səbə olduğunu demək, sağlam ağılın qəbul etməyəcəyi bir şeydir. Necə ola bilər ki, İbn Səbə kimi bir adam bu qədər müsəlmanı aldadıb fitnə alovunu yandırsın və nəticədə camaat öz xəlifələrini öldürsünlər?!

Şeyx Həsən ibn Fərhan əl-Maliki deyir:

“Bəzi çağdaş araşdırmalar fitnənin səbəblərini Abdullah ibn Səbəyə bağlayır. Halbuki, bu, batildir. Çünki bu fitnələrdə Abdullah ibn Səbənin rolu olması fikrini Seyf ibn Ömər adlı yalançı hədisçi uydurub ortaya adıb. Seyfdən qabaq və sonra yaşayıb bu fitnə barədə kitab yazan güvənilir və zəif hədisçi və tarixçilərin hamısı Seyfin dediyinin əksini deyiblər”[327].

Eyni müəllif özünün “Məəş-şeyx Abdullah əs-Səd fis-suhbəti vəs-səhabə” kitabında deyir:

“İbn Səbənin həqiqətən də var olub-olmaması bizi yaxından-uzaqdan maraqlandırmır. Bizi maraqlandıran fitnənin səbəbinin və ya səbəblərindən birinin

---

[324] Görünür, burada Məqdisi səhvə yol verib. Belə ki, başqa mənbələrdə (məsələn, “Ənsabul-əşraf”: 5/292) deyilənlərə əsasən, qeyd olunacaq xütbə minbərlə bağlı yaranan problemdən sonra yox, Osmanın beytül-maldan içi zinət əşyası dolu qutucuğu öz həyat yoldaşına bağışlamasından sonra baş vermişdir. Tərc.

[325] “əl-Bəd vət-tarix”: 5/199-203.

[326] Tabei: Peyğəmbəri (sallallahu əleyhi və alihi və səlləm) yox, onun səhabələrini görən şəxs. Tərc.

[327] “Qiraətun fi kutubil-əqaid – əl-məzhəbul-hənbəli nəmuzəcən”: səh.59-60.

İbn Səbə olub-olmamasıdır. Əgər bu sualın cavabı “bəli”-dirsə, onda hanı bu hadisəni yalançı Seyfdən başqa nəql edən şəxs?! Yox əgər səbəb mal-dövlət və Osmanın valiləridirsə – necə ki, hədis və xəbərlərdən mütəvatir şəkildə[328] məlum olan və ilk üç hicri əsrində ümmət icma etdiyi məlumat məhz budur –, o zaman şiələr əleyhinə sünnilərə yardım edir bəhanəsi ilə yalan məlumatları təsdiqləyə bilmərik! Sünnə düzlükdən, adillikdən və elmdən başqa bir şey deyildir. Onlar bilirlər ki, İbn Səbə əhvalatı şiələr əleyhinə sünnilərə heç bir yardım etmir, bu əhvalat yalnız və yalnız böyük səhabələr əleyhinə tüləqaya yardım edir.”[329]

Şeyx Muhəmməd əl-Ərəbi ət-Təbbani əl-Məğribi, əl-Xudariyə rəddiyyə verərkən deyir:

“Müəllif (əl-Xudari) daha öncə İbn Səbə barədə şişirtmə edib onu bütün şəhərlərdə Osmana qarşı qalxan böyük fitnənin öndəri və hərəkətvericisi kimi təsvir etmişdir. Burada da eyni şişirtməni edərək İbn Səbəni Osmanın qətlə yetirilməsinin dörd səbəbindən biri kimi göstərmişdir. İbn Səbə fitnənin başçısı olmaq bir yana dursun, hətta Osmanın qətlə yetirilməsinin səbəblərindən biri ola bilməyəcək qədər kiçik və dəyərsizdir”[330].

## Osman ibn Əffana qarşı qaldırılan qiyamda səhabələrin rolu

Osman ibn Əffana qarşı qaldırılan qiyamda səhabələrin böyük rolu var idi. Onların bəzisi Osmana qarşı qiyam qaldırmış, bəzisi onun qətlə yetirilməsində iştirak etmiş, bəzisi də onu tək qoyub köməyini ondan əsirgəmişdi. Təbəri öz tarix kitabında yazır:

“Camaat Osmanın etdiklərini gördükdə Mədinədəki səhabələr başqa məmləkətlərdə olan səhabələrə məktub yazdılar. O zaman səhabələrin bir hissəsi (islam dövlətinin) ucqar məntəqələrinə yayılmışdılar. Mədinədəki səhabələr həmin səhabələrə məktub yazıb bildirdilər ki, siz Muhəmmədin dinini yaymaq üçün Allah yolunda cihad etməyə getmisiniz, lakin, siz getdikdən sonra Muhəmmədin dini xarab edilib tərk edilmişdir. Elə isə, gəlin, Muhəmmədin dinini dirçəldin”. Səhabələr də hər yerdən axışıb gələrək Osmanı qətlə yetirdilər”[331].

Yenə həmin kitabda deyilir:

“Allah Rəsulunun səhabələri, “bura gəlin, əgər cihad etmək istəyirsinizsə, cihad buradadır”, - deyə bir-birlərinə məktub yazmağa başladılar. İnsanlar Osmanın barəsində çoxlu sözlər danışmağa və onu ən pis şəkildə təhqir etməyə

[328] Mütəvatir: çoxlu şəxslər tərəfindən nəql edilməsi səbəbində doğruluğu barədə heç bir şübhə olmayan hədis və ya xəbərdir. Tərc.
[329] “Məəş-şeyx Abdullah əs-Səd”: səh.271.
[330] “Təhzirül-əbqəri min muhadaratil-Xudari”: səh.333.
[331] “Tarixut-Təbəri”: 2/662.

başladılar. Allah Rəsulunun səhabələri isə bunu görüb eşitsələr də, içlərində Zeyd ibn Sabit, Əbu Üseyd əs-Saidi, Kəb ibn Malik və Həssan ibn Sabit kimi bir dəstə şəxs istisna olmaqla heç biri camaatı bu işlərdən çəkindirmir, Osmanı müdafiə etmirdi...”[332].

Abbas ibn Bəkkar əd-Dabbini “Əxbarul-vafidinə minər-rical” adlı kitabında və İbn Əsakirin “Tarixu-Diməşq” kitabında belə deyilir:

“Əbüt-Tüfeyl Amir ibn Vasilə əl-Kinani[333] Müaviyənin yanına daxil oldu və Müaviyə ona dedi: “Ey Əbüt-Tüfeyl”. Dedi: “Bəli”. Dedi: “Sən Osmanı qətlə yetirənlərdən deyilsən?!” Dedi: “Xeyr. Lakin, mən onun yanında olsa da[334] ona kömək etməyən şəxslərdənəm”. Müaviyə dedi: “Nəyə görə ona kömək etmədin?” Dedi: “Mühacir və ənsarlar ona kömək etmədi (ona görə)”.”[335]

İbn Əsakirin “Tarixu-Diməşq” kitabında və başqa kitablarda belə qeyd olunur:

“Osmanı mühasirəyə alan misirlilər 600 nəfər idilər və başçıları Əbdür-Rəhman ibn Üdeys əl-Bəlvi[336], Kinanə ibn Bişr ibn Əttab əl-Kindi və Əmr ibn əl-Həməq əl-Xüzai idi[337]. Kufədən gələnlər isə 200 nəfər idilər və başçıları Malik əl-Əştər ən-Nəxəi idi. Bəsrədən gələnlər isə 100 nəfər idilər və başçıları Hükeym ibn Cəbələ əl-Əbdi idi”[338].

İbn Şəbbənin “Tarixul-Mədinə” kitabında İbn Dəbdən nəql olunana əsasən, Haris ibn Xüleyf belə deyir:

---

[332] “Tarixut-Təbəri”: 2/644.

[333] O, ən son dünyasını dəyişən səhabədir.

[334] Yəni, hadisələrin baş verdiyi yerdə. Tərc.

[335] “Əxbarul-vafidin minər-rical”: səh.55, “Tarixu-Diməşq”: 26/116.

[336] Əbdür-Rəhman ibn Üdeys əl-Bəlvi. Misirlidir. Hüdeybiyyə sülhündə iştirak edib. Əsəd ibn Musa İbn Ləhiədən, o da Yezid ibn Əbu Həbibdən nəql edir ki, Əbdür-Rəhman ibn Üdeys əl-Bəlvi (Hüdeybiyyədə) ağac altında Peyğəmbərə (sallallahu əleyhi [və alihi] və səlləm) beyət edən şəxslərdən idi. Əbu Ömər demişdir ki, o, Misirdən Mədinəyə gəlib Osmanı mühasirəyə alan və öldürən qoşunun rəhbəri idi.

[337] İbn əl-Əsir “Usdul-ğabə” kitabında onun barəsində belə deyir (4/230-231):
Hüdeybiyyədən sonra Peyğəmbərin (sallallahu əleyhi [və alihi] və səlləm) yanına hicrət etmişdir. Həmçinin, onun vida həcci ilində müsəlman olduğu da deyilmişdir. Birinci fikir daha doğrudur. Peyğəmbərə (sallallahu əleyhi [və alihi] və səlləm) səhabə olmuş, ondan bir sıra hədislər yadda saxlamışdır. Kufədə məskunlaşmış, sonradan Misirə köçmüşdür. Bunu Əbu Nüeym demişdir.
Sonra İbn əl-Əsir deyir:
O, Osman ibn Əffanın üstünə gələn şəxslərdən idi. Deyilənə görə, Osmanın evinə soxulan 4 nəfərdən biri də odur. Sonradan Əlinin şiələrindən olmuşdur. Əli ilə birgə bütün döyüşlərdə - Cəməl, Siffeyn və Nəhrəvan döyüşlərində iştirak etmişdir. Hücr ibn Ədiyə yardım etmiş və onun yoldaşlarından olmuşdur. Buna görə də Ziyaddan qorxaraq İraqdan Mosula qaçmışdır. O, Mosula qaçaraq Mosul yaxınlığında bir mağarada gizlənir. Müaviyə Mosuldakı valisinə xəbər göndərək Əmri ona təhvil verməsini tələb edir. Vali onu mağaradan çıxarmaq üçün üzərinə adam göndərəndə, onu mağarada ölü tapırlar: onu bir ilan çalmış və bunun nəticəsində ölmüşdü. O vaxt Mosulun valisi Müaviyənin bacısı oğlu Əbdür-Rəhman ibn Ümmül-Həkəm idi.”

[338] “Tarixu-Diməşq”: 39/360, “ət-Təbəqatul-kubra”: 3/71.

“Səddən[339] Osmanın öldürülməsi barədə soruşdum. Səd dedi: “Osman Aişənin qaldırdığı, Təlhənin itilədiyi, Əbu Talibin oğlunun zəhərlədiyi bir qılıncla qətlə yetirildi”. Dedim: “Bəs Zübeyr?”. Dedi: “Zübeyr susub əli ilə işarə etdi. Biz də sakit durub heç nə etmədik. Əgər istəsəydik, (Osmanın ətrafını alan mühasirəni aradan) qaldırardıq. Lakin, Osman dəyişildi, dəyişildi, pis etdi, yaxşı etdi, (sonda) qabağa verəcək bir adam tapmadı. Əgər yaxşı etmişiksə, yaxşı etmişik, əgər pis etmişiksə, Allahdan bağışlanma diləyirik...”[340].

Əhli-sünnə mənbələri göstərir ki, Osmanın Şamdakı valisi olan Müaviyə ibn Əbu Süfyan da Osmanı tək və köməksiz qoymuşdu. “Tarixut-Təbəri” kitabında yazılır:

“Osman başına gələnləri və camaatın ona qarşı qalxdığını görüncə, Şama Müaviyə ibn Əbu Süfyana belə bir məktub yazdı: “Mərhəmətli və Bağışlayan Allahın adı ilə. Mədinə camaatı kafir olub itaətdən çıxmış və beyəti pozmuşdur. Nə olursa-olsun, mənə Şamdan döyüşçü şəxslər göndər.” Məktub Müaviyəyə çatdıqda, Müaviyə gözləmək yolunu seçdi. Peyğəmbərin səhabələrinin icma etdiklərini bildiyi üçün onlara müxalifət etmək istəmədi...”[341].

Bu məlumat həmçinin, onu göstərir ki, Peyğəmbər (sallallahu əleyhi və alihi və səlləm) səhabələri də daxil olmaqla bütün Mədinə camaatı hamılıqla Osmanın itaətindən çıxıb onun beyətini rədd etmiş, ona qarşı qiyam etmişlər.

“Tarixut-Təbəri” kitabında Abdullah ibn Əyyaş ibn Əbu Rəbiədən belə nəql olunur:

“Osmanın yanına gedib onunla bir qədər danışdım. O, dedi: “Ey Əyyaşın oğlu, bura gəl”. Bunu deyib əlimdən tutaraq mənə öz evinin qapısında dayananların sözlərini dinlətdi. Biz müəyyən sözlər eşitdik. Onların bəzisi, “nəyi gözləyirsiniz?”, bəzisi də, “gözləyin, bəlkə qayıtdı”, - deyirdi. Mən və Osman ayaq üstə (və ya qapının arxasında) ikən, Təlhə ibn Übeydullah oradan (qapının o biri tərəfindən) keçdi. Təlhə dayanıb dedi: “İbn Üdeys haradadır?” Dedilər: “Budur o”. Bundan sonra İbn Üdeys onun yanına gəlib ona astaca bəzi şeylər pıçıldadı. Bunun ardınca Təlhə adamlarına dedi: “Heç kəsi bu adamın (Osmanın) yanına girib-çıxmağa qoymayın”.

Osman mənə dedi: “Təlhə ibn Übeydullahın nə dediyini eşitdin”. Sonra dedi: “İlahi, məni Təlhə ibn Übdeydullahın şərindən qoru. Həqiqətən də o, bunları mənim üzərimə qaldırıb təhrik etdi. Allaha and olsun, mən onun xilafətdən heç bir şey əldə etməyəcəyinə və qanının töküləcəyinə ümid edirəm. Həqiqətən də o, ona halal olmadığı halda mənim hörmətimi aradan apardı...”[342].

---

339 Səd ibn Əbu Vəqqasdan. Tərc.
340 “Əxbarul-Mədinə”: 2/223.
341 “Tarixut-Təbəri”: 2/662-663.
342 “Tarixut-Təbəri”: 2/668-669.

İbn Sədin "ət-Təbəqatul-kubra" kitabında deyilir:

"Muhəmməd ibn Əbu Bəkr Əmr ibn Həzmin evinin üstündən Osmanın evinə soxuldu. Bu zaman Kinanə ibn Bişr ibn Əttab, Səvdan ibn Humran və Əmr ibn əl-Həməq də onunla birgə idilər. Onlar Osmanı yoldaşı Nailənin yanında tapdılar. Həmin vaxt Osman Qurandan Bəqərə surəsini oxuyurdu. Muhəmməd ibn Əbu Bəkr qabağa keçib Osmanın saqqalından tutaraq dedi: "Allah səni zəlil etdi, ay nəsəl[343]!" Osman dedi: "Mən nəsəl deyiləm, mən Allahın bəndəsi və möminlərin əmiriyəm". Muhəmməd dedi: "Müaviyə və filankəs sənin üçün nə edə bildi?" Osman dedi: "Qardaşım oğlu, saqqalımı burax, sənin atan heç vaxt sən kimi mənim saqqalımı tutmamışdı". Muhəmməd dedi: "Mən elə ən çox sənin saqqalını tutmaq istəyirəm". Osman dedi: "Sənə qarşı Allahdan yardım və kömək istəyirəm". Sonra Muhəmməd əlindəki enli uclu oxu Osmanın alnına batırdı. Kinanə ibn Birş ibn Əttab da əlindəki enli uclu oxu Osmanın qulağının dibinə batırdı. Ox keçib Osmanın boğazına girdi. Sonra onu qılıncla vurub öldürdü.

Əbdür-Rəhman ibn Əbdül-Əziz deyir:

İbn Əbu Avnun belə dediyini eşitdim: Kinanə ibn Bişr Osmanın alnına və başının önünə dəmir toppuzla vurdu və Osman böyrü üstə yerə yıxıldı. Yıxıldıqdan sonra Səvdan ibn Hümran əl-Muradi zərbə endirib onu öldürdü. Əmr ibn əl-Həməqə gəlincə isə, o, Osmanın üzərinə atılıb onun sinəsi üstündə oturdu. Bu zaman Osman hələ də diri idi. Əmr ona 9 zərbə vurdu. Vurduqdan sonra dedi ki: "Bunun üçünü Allah üçün vurdum, altısını isə qəlbimdə ona qarşı olan şeyə (qəzəb və nifrətə) görə vurdum"."[344]

Nümeyrinin "Tarixul-Mədinə" kitabında Saleh ibn Keysandan belə nəql edilir:

"Muhəmməd ibn Əbu Bəkr əlində yay ilə Osmanın yanına daxil oldu. Osmana zərbə endirdi. Əlindəki yay Osmanın boğazına batdı və o, yerə yıxıldı. Kinanə ibn Bişr toppuzla onun alnına vurdu. Əsvədan ibn Hümran isə onu qılıncla vurdu. Əmr ibn əl-Həməq onun sinəsi üstə oturub ona 9 zərbə vurdu. Sonra dedi ki, "mən onun üçüncü zərbədə öldüyünü bildim, lakin qəlbimdə ona qarşı olan şeyə görə ona altı zərbə də vurdum"."[345]

Yenə, "Tarixut-Təbəri" kitabında belə nəql olunur:

"(Bir dəfə) Osman Cəbələ ibn Əmr əs-Saidinin[346] yanından keçdi. Həmin vaxt Cəbələ Osmanın evinin həyətində, əlində buxovla dayanmışdı. Osman onun

---

[343] "Nəsəl" sözü bir neçə mənaya gəlir: 1) Axmaq qoca; 2) Erkək kaftar; 3) Misirli uzun saqqal bir kişinin adı. Tərc.

[344] "ət-Təbəqatul-kubra": 3/73-74.

[345] "Əxbarul-Mədinə": 2/74.

[346] İbn Əbdül-Bərr "əl-İstiab" kitabında (1/307) deyir: "O, Mədinə camaatından sayılır. Süleyman ibn Yəsar və Sabit ibn Übeyd ondan rəvayət nəql etmişlər. Süleyman ibn Yəsar demişdir ki: "Cəbələ ibn Əmr fəqih səhabələrdən olan fəzilət sahibi bir şəxs idi". Cəbələ Siffeyndə Əlinin yanında vuruşmuş və Misirdə məskunlaşmışdır".

yanından keçəndə, Cəbələ ona dedi: “Ey Nəsəl! Allaha and olsun ki, səni öldürüb qotur bir dəvə yükləyəcəyəm, sonra da “Hərrətün-nar”a[347] aparacağam.” Sonra başqa bir vaxt Osman minbərdə olarkən onun yanına gəlib onu tutmuş və minbərdən aşağı salmışdı”[348].

Yenə, həmin kitabda Amir ibn Səddən belə nəql olunur:

“Osmana qarşı cürət edib onunla pis danışan ilk şəxs Cəbələ ibn Amir əs-Saidi idi. Cəbələ öz qəbilə üzvləri ilə birgə əyləşdiyi bir vaxt Osman onun yanından keçdi. Bu vaxt Cəbələnin əlində buxov var idi. Osman onların yanından keçən vaxt salam verdi, camaat da salamın cavabını aldı. Cəbələ dedi: “Nə üçün filan-filan işlər görmüş bir adamın salamını alırsınız?” Sonra üzünü Osmana tutub dedi: “Allaha and olsun, o yoldaşını tərk etməsən, bu buxovu sənin boynuna keçirəcəyəm”. Osman dedi: “Hansı yoldaşımı? Allaha and olsun, mən insanları seçi(b yoldaşlıq edi)rəm”. Cəbələ dedi: “Mərvanı seçirsən?! Müaviyəni seçirsən?! Abdullah ibn Amir ibn Küreyzi seçirsən?! Abdullah ibn Sədi seçirsən?! Sənin seçdiyin insanlar arasında Quranın və Allah Rəsulunun qanını halal etdiyi şəxslər var...”![349]

Yenə, eyni adlı kitabda deyilir:

“Osman camaata xütbə etdi. Bu zaman Cəhcah əl-Ğifari[350] ayağa qalxıb dedi: “Ey Osman! Sənin üçün üstündə əba və buxov olan yaşlı bir dəvə gətirmişik. Minbərdən en, səni əbaya bürüyüb qandallayaq, sonra da səni o yaşlı dəvəyə mindirib “Duxan” dağına aparaq.” Osman dedi: “Allah üzünü qara etsin, gətirdiklərin məhv olsun”...”[351].

Tarixçilər nəql edirlər ki, Osman minbərdə xütbə edən zaman Cəhcah adlı bu şəxs ayağa qalxıb deyir:

“Qalx, en bu minbərdən, ey nəsəl! Bunu deyib əsanı götürür və onu Osmanın sağ ayağında sındırır...”[352].

Tarixçilər nəql edirlər ki, Osman ibn Əffan öldürüldükdən sonra cəsədi üç gün ortalıqda qalmış, heç kəs onu dəfn etməmişdir. Onu dəfn etmək istədikdə isə, camaat onun Bəqi qəbiristanlığında basdırılmasına imkan verməmişdir. Bu işə imkan verməyənlər arasında bəzi səhabələr də olmuşdur. İbn Həcər əl-Əsqəlani Əsləm ibn Bəcrənin tərcümeyi-halını qeyd edərkən deyir:

“İbn Əbdül-Bərr demişdir ki, o (Əsləm ibn Bəcrə), Osmanın Bəqidə dəfn olunmasına mane olan şəxslərdəndir”[353].

---

[347] Hail ilə Mədinə arasında məntəqə. Tərc.

[348] “Tarixut-Təbəri”: 2/661.

[349] “Tarixut-Təbəri”: 2/661.

[350] İbn Əbdül-Bərr “əl-İstiab” kitabında (1/333) deyir: “O, ağac altında “rizvan” beyətində iştirak edən (səhabə)lərdəndir.”

[351] “Tarixut-Təbəri”: 2/661.

[352] “Tarixut-Təbəri”: 2/661.

İbn Şəbbə ən-Nümeyri Ürvə ibn Zübeyrdən belə nəql edir:

"Osmanın Bəqidə basdırılmasına Əsləm ibn Əvs ibn Bəcrə əs-Saidi mane oldu. O dedi ki: "Onu "Huşşu-Kəvkəb"ə[354] aparın". Osmana Həkim ibn Hizam namaz qıldı. Sonradan Bəni-Üməyyə Huşşu-Kəvkəbi Bəqi qəbiristanlığına qatdı"[355].

Bütün bu təqdim etdiyimiz faktlardan aydın olur ki, İbn Səbənin camaatın Osmana qarşı qəzəblənib ona qarşı qiyama qalxmasında heç bir rolu olmamışdır. Camaatın Osmana qarşı qəzəblənib qiyama qalxmasının səbəbi məhz Osmanın və onun valilərinin şəriətə zidd əməlləri olmuşdur. Təqdim etdiyimiz faktlar sübut edir ki, Osmana qarşı qiyam edən şəxslər Mədinədəki və Mədinədən kənardakı səhabələr olmuşlar. Səhabələrin bəzisi onun qətlində iştirak etmiş, bəzisi də onun dəfninə maneə törətmişlər. Xəmisin qeyd etdiyi İbn Səbə və digər amillər isə əsla həqiqətə malik olmayan uydurma amillərdir.

## Osman əl-Xəmisin İbn Səbənin gerçək kimliyi ilə uydurma kimliyini bir-birinə qarışdırmasına cavab

Osman əl-Xəmis İbn Səbənin Osmana qarşı qaldırılan qiyamın əsas səbəbkarı olduğundan danışarkən deyir:

"Keçmiş alimlər bu şəxsin həqiqətən də var olduğunu qəbul etmişlər. Hətta, şiə firqələrindən birini ona nisbət edərək "səbəiyyə" və ya "səbaiyyə" adlandırmışlar. Onlar İbn Səbəyə bir sıra özünəməxsus inanclar da nisbət vermişlər və bu inanclar şiəlik çərçivəsindən kənara çıxmır. İbn Səbənin varlığını inkar edən əsas adam Mürtəza əl-Əskəri adlı bir şəxsdir. O, bunu "İbn Səbə və başqa əfsanələr" adlı kitabında demişdir. İbn Səbəni inkar edən şəxslərdən bir başqası da Taha Hüseyndir, o da bunu "Əli və övladları" kitabında demişdir..."[356].

Daha sonra Əllamə Əskərinin İbn Səbənin varlığını inkar etdiyini bildirərək bunun batil olduğunu deyir və ardınca öz dəlilini təqdim edir:

"Şiələrin bir çox tarixçiləri, firqələrlə bağlı kitab yazanları və hədisçiləri öz kitablarından bu şəxsiyyətin varlığını təsdiqləmişlər..."[357].

**Deyirəm:** İbn Səbənin varlığını inkar edən şiə alimləri məhz Seyf ibn Ömər ət-Təmimi adlı şəxsin[358] uydurduğu, xəyali rollar verdiyi, ətrafında əfsanə və

---

353 "əl-İsabə": 1/60.

354 "Huşşu-Kəvkəb" yəhudi qəbiristanlığı idi. Tərc.

355 "Əxbarul-Mədinə": səh.57.

356 "Tarixdən bir dövr": səh.65.

357 "Tarixdən bir dövr": səh.65.

358 Seyf ibn Ömər ət-Təmimi: İbn Səbə şəxsiyyətini uyduran zəif, yalançı, zındıq, hədis qondaran və güvənilməz bir şəxsdir. Onu bu vəsflərlə əhli-sünnə alimləri vəsf ediblər. İbn əl-Əcəmi "əl-Kəşfül-həsis" kitabında (səh.131) onun

nağıllar düzüb qoşduğu və ən önəmlisi Osman ibn Əffanın zamanında baş verən hadisələrin əsas səbəbkarı etdiyi İbn Səbəni inkar edirlər. Ər-Riyadda Kral Səud Universitetinin tarix fakültəsinin müəllimi doktor Əbdül-Əziz əl-Həllabi belə yazır:

"Biz araşdırmamızda bu nəticəyə gəlirik ki, İbn Səba həqiqi yox, xəyali bir şəxsiyyətdir. Əgər belə bir adda şəxs olmuşdursa da, şübhə yoxdur ki, o şəxs Seyfin və firqələrdən bəhs edən kitabların müəlliflərinin ona nisbət verdikləri həmin siyasi və ya etiqadi rolu oynamamışdır"[359].

Bəli, şiə hədislərində İbn Səbə adlı bir şəxsdən danışılır, lakin bu hədislərdəki İbn Səbə Seyf ibn Ömər ət-Təmiminin düzüb qoşduğu İbn Səbə deyildir. Şiə hədislərində qeyd olunan İbn Səbə İmam Əli (əleyhissəlam) barəsində ifrata varan, onun "rəbb", özünün isə peyğəmbər olduğunu iddia edən bir şəxsdir. Onun bu iddialarından sonra Əmirəlmöminin (əleyhissəlam) ondan tövbə etməsini tələb etmiş, o isə buna məhəl qoymamışdır. Bundan sonra Əmirəlmöminin (əleyhissəlam) onu yandırmış və beləcə onun işi bitmişdir. Bunu Şeyx Kəşşi öz sənədi ilə Hişam ibn Salimdən nəql etmişdir:

"Əbu Abdullahın (əleyhissəlam) öz səhabələrinə Abdullah ibn Səbədən, onun Əmirəlmöminin Əli ibn Əbu Talib barəsində rəbblik iddiası etməsindən danışarkən belə dediyini eşitdim: "O, bu iddianı etdikdə, Əmirəlmöminin (əleyhissəlam) ondan tövbə etməsini tələb etdi. Lakin o, tövbə etmək istəmədi. Əmirəlmöminin də onu yandırdı"."[360]

Görünür, Seyf ibn Ömər ət-Təmimi bu İbn Səbəni və onun Əmirəlmöminin Əli ibn Əbu Talib (əleyhissəlam) barəsində dediyi ifrat fikirləri eşidib, sonra da öz xəyalından bu adı daşıyan bir şəxs uyduraraq ona Təbərinin və başqalarının qeyd etdiyi nağıl və əfsanələri nisbət verib; onu Osmanın zamanında baş verən hadisələrin yaradılmasında və fitnəni çıxarılmasında nəhəng qəhrəman edib, Osmana qarşı qaldırılan qiyamın əsas səbəbkarına çevirib. Bütün bunları etməkdən məqsədi də səhabələr və tabeilər tərəfindən Osman qarşı qaldırılan və onun ölümü ilə nəticələnən qiyamın həqiqi səbəblərini ört-basdır etmək olub. Bəlkə də Allahın bildiyi başqa bir hədəfə görə bunu edib.

Şiə hədislərində söhbət açılan İbn Səbənin on iki imam şiələri ilə heç bir əlaqəsi yoxdur. Əksinə, bu şəxs şiələrin nəzərində ifratçı və lənətlənmiş birisidir.

---

barəsində deyir: "Seyf hədis qondarırdı. O, zındıqlıqda (münafiqlik və ya dinsizlikdə) ittiham olunub". Nəsai "əd-Duəfa" kitabında (səh.50) onun barəsində "zəifdir", - demişdir. İsfahani "əd-Duəfa" kitabında (1/91) "dinində ittiham olunmuş şəxsdir, zındıqlıqla ittiham olunub, hədisləri etibarsızdır, özü heç bir şeydir", -demişdir. Hakim "zındıqlıqda ittiham olunub, hədisləri etibarsızdır", - demişdir. İbn Hibban "güvənilir şəxslərdən uydurma şeylər nəql edir", - demişdir. İbn Məin "hədisləri zəifdir", həmçinin, "onda bir xeyir yoxdur"- demişdir. Əbu Davud "bir şey deyil", - demişdir. Darəqutni "zəifdir", - demişdir. (Bax: "Təhzibüt-təhzib": 4/259).

[359] "Abdullah ibn Səbə": səh.71.

[360] "İxtiyaru-mərifətir-rical": 1/324.

Şiələr onun kafirliyinə hökm verib ondan uzaq olduqlarını bildiriblər. Əllamə Hilli (Allah ona rəhmət etsin) demişdir:

"Abdullah ibn Səbə ifratçı və məlundur. Əmirəlmöminin (əleyhissəlam) onu odda yandırmışdır. O, Əlinin ilah olduğunu, özünün isə peyğəmbər olduğunu iddia edirdi. Allah ona lənət etsin"[361].

Əllamə Hilli kimi, Şeyx Həsən ibn Zeynüddin ("ət-Təhrirüt-tavusi")[362], Əllamə Ərdəbili ("Camiur-ruvat")[363] və Seyyid Bürucerdi ("Təraiful-məqal")[364] də belə demişlər. Sonuncu demişdir ki:

""Əl-Müntəha"nın müəllifi nə yaxşı deyib: Abdullah ibn Səbə zikr edilməyəcək qədər məlundur."

Seyyid Xoi (Allah ona rəhmət etsin) İbn Səbənin kafirliyi və məlunluğu barədə bəzi imamlardan (əleyhimussəlam) nəql olunan bir sıra hədisləri qeyd etdikdən sonra deyir:

"Bu hədislər Abdullah ibn Səbənin Əlinin (əleyhissəlam) imamətinin vacibliyinə etiqad edən bir şəxs olduğuna deyil, onun kafir olub Əlinin (əleyhissəlam) ilah olduğunu iddia edən bir şəxs olduğuna dəlalət edir. Bundan əlavə, Abdullah ibn Səba əfsanəsi və onun iğtişaşları ilə bağlı mövcud olan çoxsaylı əhvalatlar uydurma və yalandır. Bütün bunları saxtakar və yalançı Seyf ibn Ömər uydurmuşdur. Hal-hazırda bu barədə ətraflı danışmaq və dəlillər gətirməyə imkan yoxdur. Böyük əllamə, araşdırmaçı və tədqiqatçı Seyyid Mürtəza əl-Əskərinin "Abdullah ibn Səbə" adlı iki böyük cildlik kitabında və "150 uydurma səhabə" adlı başqa bir kitabında qeyd etdiyi dərin və dəqiq araşdırmalar bizi bu xurafat əhvalatlar, Seyf və onun uydurmaları barədə danışmaqdan ehtiyacsız edir"[365].

---

361 "Xülasətül-əqval": səh.372.
362 "ət-Təhrirüt-tavusi": səh.346.
363 "Camiur-ruvat": 2/485.
364 "Təraifül-məqal": 2/96.
365 "Mucəmu-ricalil-hədis": 11/207.

# OSMAN ƏL-XƏMİSİN QURANIN TƏHRİFİ MÖVZUSUNDA ŞİƏLƏRƏ ATDIĞI İFTİRALARA CAVAB

## Osman əl-Xəmisin Quranın təhrifi mövzusunda şiələrə atdığı iftiralara cavab

Osman əl-Xəmis özünün "Minəl-qəlbi iləl-qəlb" ("Qəlbdən qəlbə") adlı kitabında deyir:

"İkinci məsələ: Bu məsələ Qurani-Kərimlə bağlıdır. Ey qardaş və bacılarım, bilirsinizmi ki, bir insan Quranın təhrif olunduğuna etiqad etmədən şiə ola bilməz ?(!) Bu, çox qəribə bir işdir"[366].

**Deyirəm:** Hələ də Osman əl-Xəmis şiələrə iftira atmaqdan əl çəkmir. O burada bütün şiələrə iftira ataraq onların hamısının Quranın təhrif olunduğuna inandıqlarını iddia edir və deyir ki, bir insan Quranın təhrif olunduğuna inanmasa, şiə ola bilməz. Onun bu iftirasından belə başa düşülür ki, bütün şiələr Quranın təhrif olunduğuna inanırlar.

Həqiqət isə budur ki, şiələr Qurani-Kərimin dəyişiklikdən tamamilə uzaq olduğuna etiqad edirlər. Şiələrin inancına əsasən, Qurani-Kərimə təhrif əli dəyməmiş, ondan heç bir şey azaldılmamış və ona heç bir şey artırılmamışdır. Şiələr istər öz aralarında, istərsə də başqaları arasında Qurani-Kərimin təhrif olunduğunu deyən şəxslərə zərrəcə önəm vermirlər. Çünki bu söz xalis yanlış və xətadır.

Bəzi şəxslər istər sünni, istərsə də şiə mənbələrində gəlib Quranda təhrifin baş verdiyini eyham edən müəyyən hədislərə baxaraq belə bir səhvə düçar olmuşlar. Lakin bu hədislərin böyük əksəriyyəti sənəd baxımından zəifdir, bəzisində də təhrifə dəlalət edən bir şey yoxdur. Məsələn, hədislərin birində deyilir ki, bir sıra səhabələr "**Ey Peyğəmbər, Rəbbin tərəfindən sənə nazil ediləni çatdır, əgər bunu etməsən, Onun göstərişlərini çatdırmamısan**" ayəsini "**Ey Peyğəmbər, Rəbbin tərəfindən – Əli barədə – sənə nazil ediləni çatdır, əgər bunu etməsən, Onun göstərişlərini çatdırmamısan**" – şəklində, yəni, "Əli barədə" ifadəsini artıraraq oxuyurmuşlar[367]. Məlum məsələdir ki, Quranda "Əli barədə" ifadəsi yoxdur. Buna əsasən, ayənin bu şəkildə oxunmasından "Əli barədə" ifadəsinin ayənin bir hissəsi olmasını deyil, onun təfsir (izah) xarakterli bir əlavə olduğunu başa düşürük. Eləcə də, İbn Abbas və başqa səhabələrin "**Faydalandığınız qadınların mehrlərini lazımi qaydada verin!**" ayəsini, " **– Müəyyən müddətə qədər – faydalandığınız qadınların mehrlərini lazımi qaydada verin!**" – şəklində oxumaları bu qəbildəndir[368]. "Müəyyən müddətə qədər" ifadəsi Quranda yoxdur. Buna əsasən, onun ayənin bir parçası deyil, təfsir və izah xarakterli bir əlavə olduğunu başa düşürük. Bütün bunlarla yanaşı, bu cür hədislər "xəbəri-

---

366 "Qəlbdən qəlbə": səh.11.
367 "əd-Dürrül-mənsur": 2/298, "Təfsirü-İbn Əbi Hatim": 4/1172.
368 "əl-Müstədrək ələs-səhiheyn": 2/334, hədis: 3192.

vahid" növündəndirlər[369]. Quranın təvatürlə sübuta yetmiş mətninin müqabilində "xəbəri-vahidlər"in heç bir gücü yoxdur. Başqa sözlə desək, hər hansısa bir ayənin əlimizdəki kimi deyil, başqa cür olduğunu demək üçün "xəbəri-vahidlər"ə əsaslana bilmərik.

Şiələr inanırlar ki, başda Əmirəlmöminin Əli ibn Əbu Talib və onun iki oğlu İmam Həsən və İmam Hüseyn olmaqla (Allahın salavat və salamı olsun onlara) ilkin müsəlmanlardan olan bir qrup şəxs Qurani-Kərimi Allah Rəsulundan (sallallahu əleyhi və alihi və səlləm) olduğu kimi öyrənib yadda saxlamış və Allah Rəsulu (sallallahu əleyhi və alihi və səlləm) dünyasını dəyişməzdən qabaq Qurani-Kərim səhifələrdə və insanların əzbərində toplanmış vəziyyətdə olmuşdur. Bundan sonra isə Qurani-Kərim nəsildən nəsilə ötürülmüşdür.

Mən şiə alimlərinin Qurani-Kərimin təhrif olunmasının inkarına dair sözlərini qeyd etməzdən qabaq, başqa bir məsələyə işarə etmək istəyirəm: Osman əl-Xəmis tez-tez şiələrin Qurani-Kərim üçün Peyğəmbərə gedib çatan bir sənədlərinin olmadığını deyir. Bu, doğrudan da əcaib-qəraib bir iraddır! Əgər onun məqsədi Peyğəmbərə (sallallahu əleyhi və alihi və səlləm) gedib çatan və Quran və onun ayələrinin səhihliyini və Quranın həqiqətən də Allah qatından endirildini sübut edən bir sənəddirsə, o zaman eyni irad elə onun özünə də qayıdır. Belə ki, biz sual verərək deyirik: ey əhli-sünnə, əlimizdəki Quranın Allah Rəsulundan (sallallahu əleyhi və alihi və səlləm) nəql olunduğunu və onun həqiqətən də Peyğəmbərin gətirdiyi Quran olduğunu isbat edəcək mütəvatir sənədləriniz varmı?!

Bu zaman Osman əl-Xəmis cavab verir ki, bizim Həfsin Asimdən nəql etdiyi, Vərşin Nafedən nəql etdiyi, Durinin Əbu Əmrdən nəql etdiyi və Qalunun Nafedən nəql etdiyi qiraətlər üçün bir neçə sənədimiz var. Lakin, biz ona cavab verərək deyirik ki:

Həfsin Asimdən nəql etdiyi qiraətin sənədləri və bu qiraət üzərində yazılmış müshəflər[370] Həfsə qədər mütəvatir olsa da, Həfsdən o yana mütəvatir deyil. Sənədlərin Həfsdən sonrakı hissəsi "xəbəri-vahid" hökmündədir. Vərşin Nafedən nəql etdiyi qiraət də belədir. Onun da sənədi Vərşdən o yana "xəbəri-vahid" hökmündədir. Durinin Əbu Əmrdən nəql etdiyi qiraət də bu cürdür. Onun da sənədi Duridən o yana "xəbəri-vahid" hökmündədir. Eləcə də Qalunun Nafedən nəql etdiyi qiraət belədir. Belə olunca, bu nəqllərin varlığı ilə yoxluğu bir olur, çünki onlar təkbaşına Qurani-Kərimin mütəvatirliyini sübut edə bilmirlər. Beş və

---

[369] "Xəbəri-vahid": hərfi mənadada "bir nəfər tərəfindən nəql edilən xəbər" deməkdir. Bununla mütəvatir olmayan (mütəvati: çoxlu şəxslər tərəfindən nəql edilməsi səbəbindən uydurma olmaması barədə arxayınlıq hasil olan xəbər) hədislər nəzərdə tutulur. İslam alimləri yekdilliklə bildirmişlər ki, hər hansısa bir ifadənin Qurani-Kərimdən olması, yalnız və yalnız mütəvatirlik kriteriyasına uyğun olan hədislə sübuta yetə bilər. Mütəvatir olmayan hədislə belə bir şey sübuta yetməz. Tərc.

[370] "Müshəf": səhifələr toplusu deməkdir. Qurani-Kərimin yazılı forması üçün (başqa sözlə, əlimizdəki Quran üçün) çox vaxt "müshəf" sözü işlədilir. Tərc.

ya altı Quran qiraəti sənədinin olması ilə, Quranın mütəvatirliyini sübuta yetmir. Xüsusən də, nəzərə aldıqda ki, bu sənədlərin bəzisində bəzi ayələrin qiraəti digər sənədlərdəki qiraətdən fərqlənir. Buna əsasən, Quran əhli-sünnənin nəzərində təvatürlə sübuta yetməmiş olur.

Osman əl-Xəmis özü açıqca bildirmişdir ki, bir xəbər yalnız və yalnız sənədindəki təbəqələrin[371] hər birində 10 və ya daha artıq ravi mövcud olduğu təqdirdə mütəvatir sayıla bilər. O, özünün "şiələr və Quran" adlı səs yazısında belə deyir:

"Təvatür çoxluğun çoxluqdan nəql etməsinə deyilir. (Nəql edənlərin sayı çox olduğu üçün) hamısının eyni bir yalan danışmaq üçün cəm olması mümkünsüz olur. Elm əhli demişdir ki, təvatürün baş tutması üçün hər təbəqədə ən azı 10 ravi olmalıdır...".

Bu şərt qeyd olunan qiraətlərin heç birində ödənmir. Bu qiraətlərin sahiblərindən Allah Rəsuluna (sallallahu əleyhi və alihi və səlləm) qədərki hissə bu şərti ödəməmiş olur. Zərkəşi deyir:

"Həqiqət budur ki, bu qiraətlər yeddi imama qədər mütəvatirdir. Bu qiraətlərin Peyğəmbərdən (sallallahu əleyhi [və alihi] və səlləm) mütəvatir şəkildə nəql olunmasına gəlincə isə, bu, mübahisəli məsələdir. Belə ki, yeddi imamın bu yeddi qiraəti qiraət kitablarında mövcuddur və onların hamısını bir nəfər başqa bir nəfərdən nəql edib. Müvətatirliyin şərti – hər təbəqədəki ravilərin sayının təvatür üçün nəzərdə tutulan say həddində olması şərti burada ödənməmişdir. Bu məsələ alimlərin kitablarında mövcuddur. Şeyx Şəhabəddin Əbu Şamə özünün "əl-Mürşidül-vəciz" kitabında bu məsələyə müəyyən qədər toxunub"[372].

Biz deyirik: Qurani-Kərim bu və ya digər bir kitabda yazılan hansısa bir sənədə möhtac deyildir. Qurani-Kərim aralarında bəzi Əhli-Beyt imamlarının (əleyhimussəlam) da olduğu səhabələr və eləcə də yazılı müshəflər vasitəsilə səhabə nəslindən tabei nəslinə ötürülmüş, daha sonra tabeilər dövründə onun yazıya alınması və əzbərlənməsi genişlənmiş, nəticədə bu şəkildə nəsildən nəsilə keçərək bu günümüzə gəlib çatmışdır. Bunun üçün hansı sənədə ehtiyac var? Sizin əlinizdə olan sənədlərin Qurani-Kərimin mütəvatirliyini sübuta yetirmədikdən sonra, nə kimi faydası var, ey əhli-sünnə?!

Qurani-Kərimin təhrif olunmadığını bildirən on iki imamçı şiə alimlərinə gəlincə isə, onların sayı çoxdur. Biz burada onların bir qisminin adını sitatlarla bərabər qeyd edirik:

---

[371] "Təbəqə": hər bir ravi bir təbəqəni təşkil edir. Məsələn, səhabə bir təbəqini, tabei növbəti təbəqəni, tabeinin tabeisi də daha sonrakı təbəqəni təşkil edir. Əhli-sünnə nəzərində hədisin mütəvatir olması üçün hər təbəqədə 10 və ya daha artıq ravi olmalıdır. Tərc.

[372] "əl-Bürhan fi ülumil-Quran": 1/319. Bu qiraətlərin mütəvatir olmaması ilə bağlı daha artıq məlumat almaq istəyənlər, Sadiq əl-Əlainin "İlamul-xələf bi-mən qalə bi-təhrifil-Qurani minəs-sələf" kitabının 2-ci cildinə müraciət etsinlər.

## Qurani-Kərimin təhrif olunmadığını bildirən şiə alimlərindən misallar

"Şeyx Səduq" kimi məşhur olan Muhəmməd ibn Əli ibn Babəveyh əl-Qummi (Allah ona rəhmət etsin) (vəf.991/992 m.) deyir:

"Bizim Qurani-Kərimlə bağlı inancımız belədir ki, Allahın həzrət Muhəmmədə (sallallahu əleyhi və alihi və səlləm) nazil etdiyi Quran həmin bu iki qapaq arasında olan Qurandır. Allahın Peyğəmbərə nazil etdiyi Quran bu dəqiqə camaatın əlində olan Qurandır və o Quran hal-hazırkından artıq deyildir. Kim bizim o Quranın indiki Qurandan daha artıq olduğunu dediyimizi bizə nisbət versə, o şəxs yalançıdır."[373]

"Şeyx Müfid" kimi məşhur olan Muhəmməd ibn Muhəmməd ibn Numan (Allah ona rəhmət etsin) (vəf.1022/1023 m.) deyir:

"İmamət əhlindən bir dəstə Qurandan heç bir sözün, heç bir ayənin və heç bir surənin əskilmədiyini, lakin Əmirəlmöminin (əleyhissəlam)-ın müshəfindəki – Quranın yozumu və təfsiri ilə bağlı olan – məlumatların (hal-hazırkı müshəfdən) silindiyini demişdir. Həmin məlumatlar Allahın "ecazkar Quran"dan ibarət olan kəlamından olmasa da Allah tərəfindən nazil edilmişdi.

Mənim nəzərimdə bu fikir, Qurandan həqiqi şəkildə müəyyən sözlərin əskildiyini iddia edən şəxslərin sözlərindən daha doğrudur. Mən bu nəzəri qəbul edirəm və Allahdan doğru olana müvəffəq etməsini diləyirəm"[374].

"Ələmül-hüda" ləqəbli Şərif Mürtəza Əli ibn Hüseyn əl-Musəvi (Allah ona rəhmət etsin) (vəf.1044/1046) deyir:

"Quranın səhih şəkildə nəql olunmasının məlumluğu, şəhərlərin, böyük hadisələrin, əzəmətli olayların, məşhur kitabların və ərəblərin yazıya alınmış şerlərinin məlumluğu kimidir[375]. Quranın nəql olunmasına və qorunmasına olan diqqət və maraq çox güclü olmuşdur. O qədər güclü olmuşdur ki, bu sadaladığımız şeylərin heç biri bu məsələdə ona çatmamışdır. Çünki, Quran peyğəmbərlik möcüzəsi, şəriət elmlərinin və dini hökmlərin mənbəyidir. Müsəlman alimləri onun qorunub hifz edilməsinə son dərəcə diqqət göstərmişlər. Nəticədə Quranın bütün mübahisəli hərəkələmələrini, oxunuşlarını, hərflərini və ayələrini öyrənib bilmişlər. Elə isə bu cür diqqət və dəqiqlik ola-ola Quran necə dəyişilmiş və ya əskilmiş ola bilər?!

Quran artıq Allah Rəsulunun (sallallahu əleyhi və alihi və səlləm) zamanında indi olduğu şəkildə toplanıb yığılmışdı... Peyğəmbər (sallallahu əleyhi və alihi və səlləm) bir dəstə səhabəni Quranın əzbərlənməsi üçün seçib ayırmışdı. Quran

[373] "Risalətül-itiqadat": səh.59.
[374] "Əvailül-məqalat": səh.55.
[375] Yəni, Quranın səhih və olduğu şəkildə nəql olunması zəruri şəkildə bilinir. Bunun bilinməsi, 2x2-nin 4 etməsinin bilinməsi kimidir. Tərc.

Peyğəmbər (sallallahu əleyhi və alihi və səlləm) üçün oxunur, ona ərz olunurdu. Abdullah ibn Məsud, Übey ibn Kəb və sairləri kimi bir dəstə səhabə Quranı Peyğəmbər (sallallahu əleyhi və alihi və səlləm) üçün bir neçə dəfə əvvəldən axıra kimi oxuyub xətm etmişdilər. Bütün bunlar Peyğəmbər zamanında Quranın dağınıq halda deyil, toplu və tərtibli halda olduğuna dəlalət edir...

İmamiyyə məzhəbindən və həşəviyyədən olub bu fikirə qarşı çıxan şəxslərin sözlərinə isə önəm verilməz. Bu məsələdə müxalif fikir söyləyənlər, məhz hədis əhlindən olan bir qrup şəxsdir. Onlar səhih olduğunu zənn etdikləri bir sıra hədislər nəql etmiş (və bu hədislərə arxalana biləcəklərini düşünmüş)lər. Halbuki, bu cür hədislərə görə səhihliyi qəti şəkildə bilinən şeydən əl götürülməz."[376]

"Şeyxüt-taifə" ləqəbli Şeyx Muhəmməd ibn Həsən Əbu Cəfər ət-Tusi (Allah ona rəhmət etsin) (vəf. 1067/1068) deyir:

"Qurana nəyinsə artırılıb-azaldılmasına məsələsinə gəlincə, bu, barədə danışmağa dəyməz. Çünki, bütün müsəlmanlar Qurana nəyinsə artırılmasının batilliyi üzərində icma etmişlər, Qurandan nəyinsə azaldılmasına gəlincə də, müsəlman məzhəbləri bunu da qəbul etməmişlər. Bizim məzhəbimizdə də ən doğru nəzər budur. Mürtəza da bu nəzəri müdafiə etmişdir, habelə, hədislərdən də əldə edilən məhz budur"[377].

"Əminül-islam" ləqəbli Şeyx Fəzl ibn Həsən Əbu Əli ət-Təbərsi (Allah ona rəhmət etsin) (vəf. 1153/1154) deyir:

"Qurana nəyinsə artırılıb-azaldılmasına məsələsinə gəlincə, bu, barədə uzunca danışmağa dəyməz.

Artırılmaya gəlincə, bütün müsəlmanlar bunun mümkünsüz olduğu üzərində icma etmişlər. Azaldılmaya gəlincə də, bizdən və eləcə də müxaliflərin həşəviyyə qrupundan bir dəstə şəxs Quranda dəyişiklik və azalma olduğunu nəql etmişlər. Lakin, bizim məzhəbimizdə səhih olan nəzər bunun əksidir. Mürtəza da – Allah ruhuna qüdsiyyət bəxş etsin – bu nəzəri müdafiə etmiş, "əl-Məsailul-trablisiyyat" kitabında bu məsələ ətrafında çox geniş şəkildə danışmışdır"[378].

"Şeyx Bəhai" ləqəbli Şeyx Bəhauddin əl-Amili (Allah ona rəhmət etsin) (vəf. 1620/1621) deyir:

"Səhih olan budur ki, Quran artırılma və azaldılmadan uzaqdır. Allah-taalanın "**Və həqiqətən də biz onu qoruyacağıq**" ayəsi də buna dəlalət edir"[379].

Seyyid Muhsin əl-Əmin əl-Amili (Allah ona rəhmət etsin) (vəf. 1951) deyir:

"Nə qədim, nə də müasir dövrdə heç bir şiə alimi Qurana az və ya çox nəyinsə əlavə edildiyini deməmişdir, əksinə, onların hamısı Quranda əlavənin olmaması

---

[376] "Məcməül-bəyan": 1/43.
[377] "Təfsirüt-tibyan": səh.3.
[378] "Məcməül-bəyan": 1/15.
[379] "Təfsiru-alair-Rəhman": səh.26.

üzərində icma etmişlər. Sözlərinə önəm verilən kəslər də Qurandan heç bir şeyin azaldılmadığı üzərində icma etmişlər.”

Sonra deyir:

“Kim şiələrə bundan artıq bir şey nisbət versə, o şəxs Allaha və Onun Rəsuluna qarşı cürət etmiş yalançı iftiraçıdır”[380].

Həmçinin, başqa bir kitabında deyir:

“Bütün müsəlmanlar Quranda əlavənin olmaması üzərində icma etmişlər. Mühəqqiqlər, nəzər sahibləri və sözlərinə önəm verilən şiə və sünni alimləri də azaldılmanın olmaması üzərində icma etmişlər. Bəli, sünnilər və bəzi şiələr yolu ilə Quranda azaldılmanın olduğuna dəlalət edən müəyyən şazz[381] rəvayətlər nəql olunmuşdur, lakin hər iki tərəfdən olan elm əhli bu rəvayətləri rədd edərək onların batil olduğunu bildirmişlər. Əvvəldə və sonda hamı azaldılmanın baş verməməsi üzərində icma edildiyi üçün bu rəvayətlərin heç bir dəyəri qalmamışdır.”[382]

Seyyid Ruhullah Musəvi Xomeyni (Allah ona rəhmət etsin) (vəf. 1988) deyir:

“Müsəlmanların Quranın toplanmasına, əzbərlənməsinə və onun istər yazılı, istərsə də şifahi şəkildə qorunmasına verdikləri önəmlə tanış olan şəxs, bu iddianın – Quranın təhrif olunması iddiasının – batilliyini anlayar. Quranın təhrif olunması ilə bağlı gəlib çatan xəbərlər ya dəlil olaraq istifadə edilməsi mümkün olmayan zəif xəbərlərdir, ya elə zahirlərindən qondarmalıqlarının əlaməti görünən qondarma xəbərlərdir, ya da təəccüb doğuran “qərib”[383] xəbərlərdir. Bu xəbərlər içərisində səhih olanlara gəlincə isə, onlar da təfsir və yozuma aid edilirlər. Belə ki, Quranın zahiri söz və cümlələrində deyil, məhz təfsir və yozumunda təhrif baş vermişdir.”[384]

Seyyid Əbül-Qasim əl-Xoi (Allah ona rəhmət etsin) (vəf. 1992) deyir:

“Quranın təhrif olunması fikri xurafat və xəyaldan başqa bir şey deyildir. Ağlı zəif olan, yaxud məsələ barəsində lazımınca düşünməyən, yaxud da sırf meyli bu yöndə olduğu üçün – meyil də insanı kar-kor edər – belə bir söz deyən şəxsdən başqa heç kəs bu şeyi deməz. Ağıllı, bəsirətli və dərin düşüncəli şəxslər bu işin xurafat və batil bir iş olmasına əsla şübhə etmir”[385].

Şeyx Muhəmməd Hüseyn Alu-Kaşifil-ğita (Allah ona rəhmət etsin) (vəf. 1953) deyir:

“Hal-hazırda müsəlmanların əlində olan kitab, Allahın ecaz, meydan oxuma və halalla haramı bir-birindən ayırd etmək üçün nazil etdiyi həmin kitabdır. Onda

---

380 “Əyanuş-şiə”: 1/46.
381 Hamılıqla qəbul edilənin əksinə olan, yekdil rəyə müxalif olan. Tərc.
382 “Naqdul-vəşiə”: səh.198.
383 “Qərib” hədis: mənası anlaşılmaz olan hədis. Tərc.
384 “Təhzibul-usul”: 2/126.
385 “əl-Bəyan fi təfsiril-Quran”: səh.259.

nə azalma, nə təhrif və nə də artırılma baş verib. Müsəlmanlar hamısı bu barədə icma ediblər”[386].

Seyyid Muhəmmədhadi Milani (Allah ona rəhmət etsin) (vəf. 1975) özünə ünvanlanan “Quran təhrif olunubmu?” sualına cavab verərkən deyir:

“Tam qəti şəkildə deyirəm ki, Qurani-Kərimdə artırılma, azaldılma və ya hansısa sözlərin dəyişdirilməsi növündən heç bir təhrif baş verməmişdir. Təhriflə bağlı bəzi hədislər gəlsə də, bu hədislərdən məqsəd Quranın söz və ya cümlələrinin dəyişdirilməsi deyil, onun mənalarının batil fikirlər, rəylər və yozumlar əsasında dəyişdirilməsidir.”[387]

Əllamə Əbu Mənsur Həsən ibn Yusif ibn əl-Mütəhhər əl-Hilliyə (Allah ona rəhmət etsin) (vəf. 1325) “əl-Məsailul-mihnaiyyə” kitabında belə bir sual verilir:

“Ağamız Qurani-Kərim barədə nə deyir? Görəsən bizim məzhəbimiz Qurandan bir şeylərin azaldıldığına və ya ona bir şeylərin artırıldığına və ya onun tərtib və düzülüşünün dəyişdirildiyinə etiqad edirmi? Yoxsa, bu işlər bizim nəzərimizdə səhih deyildir?”

Əllamə belə cavab verir:

“Doğru olan budur ki, Quranda nə dəyişilmə, nə önə çəkilmə, nə arxaya çəkilmə, nə artırılma və nə də azaldılma vardır. Quran barəsində bu və bunun kimi şeylərə etiqad etməkdən Allaha sığınırıq. Çünki belə bir şeyə etiqad etmək, Allah Rəsulunun (sallallahu əleyhi və alihi və səlləm) təvatürlə gəlib çatan möcüzəsi(nin möcüzəviliyi)ni şübhə altına atmaq sayılır”[388].

Seyyid Əbdül-Hüseyn Şərəfuddin əl-Amili (Allah ona rəhmət etsin) (vəf. 1957) “Əcvibətü-məsaili-carillah” kitabında deyir:

“Qurani-Kərim bütün ayələri, sözləri, hərfləri, hərəkələri və sükunları ilə birlikdə biz şiələrin yanında mütəvatir şəkildə mövcuddur. Qurani-Kərim Əhli-Beytdən olan hidayət imamları (əleyhimussəlam) vasitəsilə mütəvatir şəkildə bizə nəql edilmişdir. Ağıldankəmlərdən başqa heç bir kəs buna şübhə edə bilməz. Hidayət imamları (əleyhimussəlam) hamılıqla onu Allah Rəsuludan (sallallahu əleyhi və alihi və səlləm), o həzrət də Allahdan nəql etmişdir. Bu da heç bir şübhə olmayan bir məsələdir. Qurani-Kərimin nəssi bir yana, zahiri[389] belə imamiyyə məhzəbi nəzərində Allah-taalanın ən böyük höccəti, haqq əhlinin ən böyük dəlilidir. Bu barədə şiə imamlarından gəlib çatan səhih hədislər mütəvatir həddədir.

---

386 “Əsluş-şiə və usuluha”: səh.133.
387 “Miətun və aşaratu-əsilə”: səh.5.
388 “Əcvibətül-məsailil-mihnaiyyə”: səh.121.
389 Yalnız bir ehtimali məna ifadə edən və başqa bir məna daşıma ehtimalı olmayan sözlərə “nəss”, iki ehtimali məna ifadə edən və mənalardan biri digərinə nisbətən daha güclü olan sözlərə isə “zahir” deyilir. Məsələn, “10 şagird dərsdədir” cümləsi yalnız bir məna ifadə edir. Bu məna, 10 nəfər şagirdin dərsdə olmasıdır. Belə cümləyə “nəss” deyilir. Lakin, “bir şir gördüm” cümləsi belə deyildir. Belə ki, bu cümləyə baxdığımız zaman böyük ehtimalla yırtıcı heyvan olan şirdən söhbət getdiyini başa düşsək də, bununla yanaşı, məcazi olaraq “şücaətli insan” mənasının da nəzərdə tutula biləcəyini ehtimal veririk. Bu cür biri digərindən daha güclü olan iki ehtimali məna daşıyan sözlər “zahir” adlanır. Tərc.

Məhz buna görədir ki, şiələr Qurana müxalif olan səhih hədisləri bir kənara atıb, öz imamlarının (əleyhimussəlam) göstərişlərinə uyaraq onlara əməl etmirlər.

Qurani-Kərim artıq Peyğəmbərin (sallallahu əleyhi və alihi və səlləm) dövründə indiki halında – ayələrin, surələrin, sözlərin və hərflərin indiki tərtib və sıralaması ilə mövcud idi. Ondan sonra da Qurana nə bir şey artırılmış, nə bir şey əskilmiş, nə bir ayə önə keçirilmiş, nə bir ayə arxaya keçirilmiş, nə də bir dəyişiklik edilmişdir."[390]

Həmçinin, özünün "əl-Fusulul-muhimmə" adlı kitabında on iki imam şiələrinə Quranın təhrifi iftirasını yaxmaq istəyən şəxslərə rəddiyyə verərək deyir:

"Kim on iki imam şiələrinə Quranın təhrifinə etiqad etmək nisbət versə, həmin şəxs iftiraçı və zalımdır. Çünki, Qurani-Kərimin müqəddəsliyi şiələrin etiqad etdiyi islam dininin və imamiyyə məzhəbinin zəruri prinsiplərindəndir. Hansı müsəlman bu barədə şəkk etsə, imamiyyə məzhəbinin icmasına əsasən, o şəxs mürtəddir. Quranın nəssləri bir yana, zahirləri belə imamiyyə məhzəbi nəzərində Allah-taalanın ən böyük höccəti və haqq əhlinin ən böyük dəlilidir. Məhz buna görədir ki, şiələr Qurana müxalif olan səhih hədisləri – səhih olsalar belə – bir kənara atıb onlara əməl etmirlər. Şiələrin hədis, fiqh və üsulla bağlı kitabları açıq-aşkar bu dediyimizi deyir.

Nə önündən və nə də arxasından batilin yol tapa bilmədiyi Qurani-Kərim (hal-hazırıda mövcud olan) iki qapaq arasındakı Qurandan ibarətdir. Allahın nazil etdiyi Quran camaatın əlində olan Qurandan ibarətdir. Ona nə bir şey artırılmış, nə bir şey azaldılmış, nə bir sözü və nə də bir hərfi dəyişdirilmişdir. Quranın hər bir hərfi nəsildən-nəsilə mütəvatir şəkildə ötürülmüşdür."[391]

Şeyx Cəfər Kaşifül-Ğita (Allah ona rəhmət etsin) (vəf. 1813) deyir:

"Heç şübhə yoxdur ki, Quran (aləmlərin) hökmdar(ı) və dinin sahibi olan Allahın qoruması ilə azalmaqdan qorunmuşdur. Quranın açıq-aşkar ayəsi[392] və alimlərin hər bir dövrdə icması buna dəlalət edir. Bu mövzuda səsləndirilən nadir fikirlərə önəm verilməz. Qurandan müəyyən şeylərin azaldığını bildirən xəbərlərə gəlincə də, ağıl (və ya qayda) onlara əməl edilməməsi gərəkdiyini söyləyir. Xüsusən də Quranın üçdə birinin və ya daha çoxunun itib getdiyini deyən xəbərlərə. Əgər həqiqətən də belə bir şey olsaydı, onda bu, mütəvatir şəkildə nəql olunar və müsəlman olmayanlar bundan islam və müsəlmanlar əleyhinə ən böyük danlaq kimi istifadə edərdilər. Bundan başqa, müsəlmanlar Quranın qorunmasına, onun ayə və hərflərinin əzbərlənməsinə bu qədər ciddi yanaşdıqları halda, belə bir şey necə ola bilər?!"[393].

---

[390] "Əcvibətü-məsaili-carillah": səh.34.
[391] "əl-Fususul-muhimmə": səh.163.
[392] Hicr surəsi, 9-cu ayə. Tərc.
[393] "Kəşfül-ğita": 2/299.

Əllamə Seyyid Muhəmmədhüseyn Təbatəbai (Allah ona rəhmət etsin) (vəf. 1981) Hicr surəsinin 9-cu ayəsinin (“**Şübhəsiz ki, zikri (Quranı) Biz nazil etdik və sözsüz ki, Biz də onu (hər cür təhrif və dəyişilmədən; artırıb-əskiltmədən) qoruyacağıq**”) təfsirində deyir:

“Ayə, Quranın təhrifin hər bir növündən qorunmuş olduğuna dəlalət edir. Çünki, Quran Allahın bir zikridir. O, diri və əbədi bir zikrdir”[394].

Əllamə Muhəmmədrza əl-Müzəffər (Allah ona rəhmət etsin) (vəf. 1963) deyir:

“Biz inanırıq ki, Quran Allah-taala tərəfindən Peyğəmbəri-Əkrəmə (sallallahu əleyhi və alihi və səlləm) nazil edilən ilahi vəhydir. Onda (insanların inanc sahəsində ehtiyac duyduqları) hər bir şeyin açıqlaması vardır. Quran Allahın, fəsahəti, bəlağəti, habelə ehtiva etdiyi həqiqət və uca bilgiləri ilə bəşəri aciz qoyan əbədi möcüzəsidir. Dəyişilmə, əvəz edilmə və təhrif ona yol tapa bilməz. Hal-hazırda bizim oxuduğumuz əlimizdəki Quran həmin Allah tərəfindən Peyğəmbərə nazil edilən Qurandır. Kim bundan başqa bir şey iddia etsə, ya uydurmaçıdır, ya müğalitəçidir, ya da xətakardır. Bu şəxslərin hamısı (bu mövzuda) doğru yoldan uzaqdırlar. Allahın kəlamına “**nə önündən, nə də arxasından batil yol tapa bilməz**”...”[395].

Muhəmməd ibn Muhsin Feyz əl-Kaşani (Allah ona rəhmət etsin) (vəf. 1684) özünün “İlmul-yəqin” adlı kitabında Qurani-Kərimin ecazkarlığından danışarkən Quranda təhrifin baş verdiyini çatdıran bir sıra rəvayətlər qeyd etmiş və ardınca onlara cavab verərək demişdir:

“Bütün bu hədislərə belə bir irad tutulur: əgər məsələ bu hədislərdə deyildiyi kimidirsə (Quranda həqiqətən də təhrif baş veribsə), onda biz Quranın heç bir ayəsinə etimad edə bilmərik; çünki, Quranın hər bir ayəsinin dəyişdirilib təhrif edilmiş ola bilməsi ehtimalı vardır. Belə olunca isə, Quranın və Qurana tabe olmaqla bağlı verilən əmr və tapşırıqların heç bir faydası qalmır.

Üstəlik, Allah-taala buyurur ki, “**Həqiqətən, bu, əzəmətli bir Kitabdır. Nə önündən, nə də arxasından batil ona girişə bilməz. O, Müdrik, Tərifəlayiq (Allah) tərəfindən nazil edilmişdir**”. Elə isə, necə ola bilər ki, Quranda təhrif, azalma və dəyişilmə baş versin?!

Həmçinin, Allah-taala buyurur ki: “**Şübhəsiz ki, Quranı Biz nazil etdik və sözsüz ki, Biz də onu qoruyacağıq**”. Həmçinin, Peyğəmbər (sallallahu əleyhi və alihi və səlləm) və imamlardan (əleyhimussəlam) müstəfiz[396] həddə nəql olunub ki, onlardan nəql olunan hədisləri Quranla tutuşduraq, əgər hədislər Qurana uyğun

---

394 “əl-Mizan fi təfsiril-Quran”: 12/101.
395 “Əqaidül-imamiyyə”: səh.59.
396 “Xəbəri-vahid” pilləsindən yuxarı, “mütəvatir” piləsindən aşağı pillə. Tərc.

olsa, onu qəbul edək, yox olmasa, rədd edək. Əgər əlimizdəki Quran təhrif edilmişdirsə, onda bu tutuşdurma əmrinin verilməsinin nə mənası var?!

Üstəlik, təhriflə bağlı gəlib çatan bu xəbərlər Qurana ziddir və Quran tərəfindən təkzib edilir. Buna görə də, onları rədd edib batilliyinə hökm verməK və ya yozmaq lazımdır.

Allah daha yaxşı bilər, amma ağıla gələn budur ki, imamların (əleyhimussəlam) təhrif, dəyişdirilmə və silinmədən məqsədi, sözün özünün deyil, mənanın təhrif edilməsi, dəyişdirilməsi və silinməsidir. Yəni, bəziləri Quranın təfsir və yozumunu dəyişdirib təhrif etdilər, onu öz həqiqi mənasına deyil, başqa bir mənaya yozdular. İmamların dedikləri “ayə filan cür nazil olub” – sözündən məqsəd də, ayənin həqiqi mənasının camaatın başa düşdüyü məna deyil, öz qeyd etdikləri məna olmasıdır. Bu sözdən məqsəd, ayənin sözdə filan cür nazil olduğu, lakin sonradan haqqın ört-basdır edilməsi məqsədilə silinib dəyişdirildiyi deyildir.

Bu dediyimizə dəlalət edən şeylərdən biri, “əl-Kafi” kitabında Əbu Cəfər (əleyhissəlam)-dan nəql edilən bir hədisdir. Hədisdə Əbu Cəfərin (əleyhissəlam) Sədül-xeyrə belə bir məktub yazdığı qeyd olunur:

“Onlar Quranı bir kənara atdılar: belə ki, onun hərflərini qoruyub saxladılar, amma hökmlərini təhrif etdilər (öz istədikləri kimi yozdular). Onlar Quranı dildə (olduğu kimi) nəql etdilər, lakin (əməldə) ona riayət etmədilər. Onların Quranın zahirini əzbər bilmələri cahilləri xoşhal edir, onların Qurana riaət etməmələri isə alimləri kədərləndirirdi...”.”[397]

Mərceyi-din Şeyx Lütfullah əs-Safi (Allah onu qorusun) deyir:

“Quran Peyğəmbərimiz Muhəmmədin (sallallahu əleyhi və alihi və səlləm) əbədi möcüzəsidir. O, önüdən və arxasından batilin yol tapa bilmədiyi Kitabdır. Fəsahət sahibləri onun kimi bir kitab ortaya qoymaqdan və onun surə və ayələri kimi surə və ayə gətirməkdən aciz olmuşlar. Quran, bəlağət sahiblərini və nəhəng ədibləri heyran qoyan bir kitabdır. Allah-taala onda ən uca prinsipləri və ən ali dəyərləri açıqlamışdır”.

Həmçinin, deyir:

“Bu Quran elə iki qapaq arasında olandan ibarətdir. Onda bəşər kəlamından heç bir şey yoxdur. Onun hər bir surə və ayəsi mütəvatir şəkildə nəql olunmuşdur. Bununla bağlı heç bir şübhə yoxdur...

Qurana nəyinsə əlavə olunması və ya ondan nəyinsə azaldılması fikrinin şiələrin yanında heç bir dəyəri yoxdur. Bu məsələdə cahildən və ya şazz rəvayətlərə mübtəla olmuş kəsdən başqa heç kəs şübhə etməz”[398].

Əllamə Şeyx Bəlaği (Allah ona rəhmət etsin) (vəf. 1933) deyir:

---

[397] “İlmul-yəqin fi-usulid-din”: 1/565.
[398] “Məəl-xətib fi-xututihul-arida”: səh.44-46.

“Əgər şazz rəvayətlərdə Quranın təhrifinə və onun bir hissəsinin zay olub aradan getməsinə dair bir şey oxusan, ona əsla fikir vermə. Bu rəvayətlərin müztəribliyi [399], zəifliyi, ravilərinin güvənilirsizliyi və onların müsəlmanların icmasına müxalifliyi barədə, habelə onların Quranın kəramət və ucalığına vurduğu ləkə barədə elmin dilədiyi nə varsa, de!”[400].

Əllamə Məclisi (Allah ona rəhmət etsin) (vəf. 1699) Quranda azaldılmanın baş verdiyini çatdıran bəzi hədislər qeyd etdikdən sonra deyir:

“Əgər kimsə “hal-hazırda iki qapaq arasında olan Quranın Allah-taalanın nazil etdiyi həqiqi Quran olduğunu və onda heç bir artırılma və ya azaldılma baş vermədiyini deməmiz doğrudursa, bəs onda imamlardan (əleyhimussəlam) nəql etdiyiniz bu hədislər nədir? Hansı ki, birində imamların ayəni “**siz insanlar arasında üzə çıxarılmış ən xeyirli ümmətsiniz**” yerinə, “**siz insanlar arasında üzə çıxarılmış ən xeyirli imamlarısınız**” şəklində oxuduğu, digərində isə ayəni “**biz sizi ora bir ümmət etdik**” yerinə, “**biz sizi orta imamlar etdik**” şəklində oxuduqları qeyd olunur. Axı bu, əlimizdə olan Quranın əksinədir”, - desə, ona belə cavab verilər:

Daha öncə bu suala cavab verildi. Cavab bu idi ki, bu mövzuda gəlib çatan hədislər səhihliyinə qəti şəkildə əmin olmaq mümkün olmayan “xəbəri-vahid” növündəndirlər. Buna görə də biz bu hədislər barəsində dayanmış və bizə əmr edildiyi şəkildə əlimizdə olan Qurandan başqasını qəbul etməmişik. Hərçənd, onu da qeyd etmək lazımdır ki, ayənin iki fərqli qiraət (oxunuş) şəklində - biri hal-hazırkı müshəfdə olan, digəri də hədisdə gələn şəkildə nazil olması mümkün bir işdir. Necə ki, bizim müxaliflərimiz Quranın müxtəlif oxunuş şəkillərində nazil olduğunu özləri etiraf edirlər...”[401].

Şeyx Cəfər Sübhani (Allah onu qorusun) “Rəsail və məqalat” əsərində deyir:

“Şiə və sünni olmasından asılı olmayaraq, Qurani-Kərim bütün müsəlmanların yanında bir nömrəli mənbədir. O, Allahın kəlamı, vəhyi, sözü və kitabıdır. Batil nə önündən və nə də arxasından ona yol tapa bilməz. O, hikmət sahibi və hər şeyi ən gözəl şəkildə bilən Allah tərəfindən nazil edilmişdir. O, haqqı batildən ayırd edən kəlamdır və boş söz deyildir. Onu nazil edən də, qoruyan da Allah-taalanın özüdür. Allah onu artırılma və azaldılmadan qorumuşdur. Böyük şiə alimlərinin inancı məhz budur”[402].

Yenə, özünün “əl-Əqidətül-islamiyyə” kitabında deyir:

---

[399] “Müztəriblik”: ziddiyyətlilik. Bir hədis bir neçə fərqli şəkillərdə nəql olunar və bu şəkillərin hansı birinin əsas olduğu ayrıd edilə bilməzsə, belə bir hədis müztərib hədis adlanar. Müztərib hədis zəif hədis növünə daxildir. Tərc.

[400] “Alaur-Rəhman fi-təfsiril-Quran”: səh.18.

[401] “Biharul-ənvar”: 92/75.

[402] “Rəsail və məqalat”: səh.43.

“...Lakin keçmiş səmavi kitablarda təhriflər baş versə də, Qurani-Kərim hər növ təhrif və dəyişilmədən uzaq qalmışdır”[403].

Mərceyi-din Seyyid Kazim əl-Hairiyə (Allah onu qorusun) belə bir sual ünvanlanıb:

“On iki imam şiələrinin Quranın təhrifinə və ona artırılma və azaldılma edildiyinə inandıqlarını deyən şəxslərə cavabınız nədir?

Həmçinin, bəzi mənbələrdə gələn və Quranda təhrifin baş verdiyinə işarə edən hədislərə münasibətiniz necədir?”

Seyyid belə cavab verib:

“Şiələr içərisində çox az sayda bir şəxs, həmçinin, sünnilər içərisində də bəzi şəxslər Quranın təhrif olunduğuna inanmışlar. Lakin, şiə nəzərində məşhur olan və şiə alimlərinin qəbul etdiyi doğru fikir budur ki, Quran təhrif edilməmişdir. Quranın təhrif edilmədiyinə dəlalət edən dəlillərdən biri “**Şübhəsiz ki, Quranı Biz nazil etdik və sözsüz ki, Biz də onu qoruyacağıq**” ayəsidir. Şiə və ya sünni mənbələrindəki təhriflə bağlı olan bütün hədislər uydurma və qondarmadır”[404].

Eyni sual mərceyi-din Seyyid Muhəmməd Səid əl-Həkimə (Allah onu qorusun) ünvanlanmış və cavab belə olmuşdur:

“Doğru fikir budur ki, Qurani-Kərim iki qapaq arasında olandan ibarətdir. Əlimizdəki Quran eyniylə Allah tərəfindən Peyğəmbərimizə (sallallahu əleyhi və alihi və səlləm) nazil olan Qurandır. Onda heç bir artırılma və ya azaldılma baş verməmişdir. Qədim və müasir dövrdə bizim alimlərimizin dediyi söz məhz budur. Alimlərimiz bu məsələdə icma etmişlər.

Təhriflə bağlı hər iki məzhəbin mənbələrində – xüsusən də müxaliflər nəzərində mötəbər olan sənədlərlə – müəyyən xəbərlər nəql olunsa da, bu xəbərlərə etimad olunmaz. Bu xəbərlər əlimizdəki Quranın mübarək mətnini zəiflətmək və onun barəsində şübhə salmaq iqtidarında deyil. Quran özü özünü sübut edir və o, Allah-taalanın da buyurduğu kimi, bəşər sözü deyildir: “**Bu Quran Allahdandır, Ondan başqası tərəfindən uydurula bilməz.**”[405] Məhz bu səbəbdən, Quranın təvatürə belə ehtiyacı yoxdur. Buna görə də o, Peyğəmbərin (sallallahu əleyhi və alihi və səlləm) möcüzəsi və onun doğruluğunun bir dəlili olmuşdur.

Bəzi rəvayətlərdə gələn və vaxtikən Qurandan olduğu iddia edilən müəyyən cümlələrə gəlincə, bu cümlələrin səviyyəsinin aşağılığı, bəyanının zəifliyi və üslubunun bayağılığı onların əsla Qurandan olmadığını deməyə kifayət edir.

Qurandan müəyyən şeylərin çıxarıldığı iddiasına gəlincə isə, bu fikir də Mürtəzanın (Allah ruhuna qüdsiyyət bəxş etsin) söylədiyi səbəb üzündən – müsəlmanların Quranın aradan getməsini mümkünsüz edəcək dərəcədə Qurana

[403] “əl-Əqidətül-islamiyyə”: səh.169.
[404] “əl-Husunul-məniə - rəddun alə kitabi hivarin hadin beynəs-sünnəti vəş-şiə”: səh.19.
[405] Yunus surəsi, 37-ci ayə.

diqqət göstərmələri amili üzündən əsassızdır. Həmçinin, müsəlmanların ta ilkin islam dövründən bu günümüzək mübahisə və dəlil gətirmə məqamlarında Qurani-Kərimdən sitatlar gətirmələri və Qurani-Kərimdən dəlil təqdim etmələri, Quranın əsla təhrif olunmadığına dəlalət edir. Çünki, hətta təsadüfən belə olsa, onların sözlərində – üslub və bəyanının ucalığı səbəbindən – Quran ola biləcək səviyyədə olan bir cümlə dəlil gətirmələri əsla görülməmişdir.

Bu deyilənlərdən hənəfilərdən birinə nisbət verilən "Peyğəmbərə nazil olan mənalardır, həmin mənaları Peyğəmbər özü hal-hazırda Quranda mövud olan sözlərlə ifadə edib" – fikrinin batilliyi də aşkar olur[406].

Müsəlmanlar öz uca kitablarına diqqət göstərməli, onun dəyərli təlimlərinə riayət etməlidirlər. Necə ki, Allah-taala buyurur: "**Həqiqətən də bu Quran, ən doğru yola yönəldir**". Müsəlmanlar şeytanın batil dava-dalaşlara və birliyi parçalamağa yönəlmiş çağırışlarına qulaq asmamalıdırlar. Allah-taala xətalardan qoruyub çəkindirəndir"[407].

Şeyx Abdullah Nemət deyir:

"Şiələrin Qurani-Kərimlə bağlı inancları budur ki, Qurani-Kərim təhrif olunmamışdır və o, heç bir artırılma və ya azaldılma olmadan eynən iki qapaq arasında olandan ibarətdir. Şiələr bu məsələ üzərində icma etmişlər və onların imamlarından (əleyhimussəlam) nəql olunan hədislər də bu yöndədir. Biz bunu şiələrin qədim və müasir dövr alimlərinin sözlərində açıqca görə bilərik"[408].

Həmçinin, deyir:

"Kim imamiyyə şiələrinin Quranın təhrifinə və ya ona bir şeyin arıtırılıb-azaldılmasına etiqad etdiyini desə, o şəxs axmaq bir cahil və ya azğın və yalançı bir iftiraçıdır. İftira, hiylə və saxtakarlıq məqsədiylə şiələrin demədiyi bir şeyi onlara nisbət vermişdir.

Hal-hazırkı vəziyyəti ilə Quran bizə mütəvatir şəkildə nəql olunmuşdur. Onda heç bir arıtırılma və ya azaldılma baş verməmişdir. Cəbrail Əmin (əleyhissəlam) Quranı dəfələrlə Peyğəmbərə (sallallahu əleyhi və alihi və səlləm) ərz etmişdi. Səhabələrdən olan Quran hafizləri də Quranı Peyğəmbərə (sallallahu əleyhi və alihi və səlləm) ərz edirdilər.

Bəzi kitablarda gələn və Quranda artırılma və ya azaldılma baş verdiyini bildirən rəvayətlərə gəlincə isə, bu rəvayətlər önəm verilməyib bir kənara atılan şazz rəvayətlərdir. Çünki, bu rəvayətlər Quranın açıq-aşkar kəlamına – "**biz onu qoruyacağıq**" ayəsinə ziddir. Hədislərin qəbul edilib edilməməsinin meyarı hədisin Qurani-Kərimə uyğun gəlib-gəlməməsi olduğu üçün, Qurana müxalif olan

---

406 Çünki Peyğəmbərimiz (sallallahu əleyhi və alihi və səlləm) hər nə qədər fəsahət və bəlağətin ən uca zirvələrində olan bir şəxs olsa da, onun dediyi söz bəşər sözüdür. Qurani-Kərimin söz və cümlələri isə o qədər ali və ucadır ki, onların bir bəşər kəlamı olması mümkün deyil. Tərc.

407 "əl-Husunul-mənią - rəddun alə kitabi hivarin hadin beynəs-sünnəti vəş-şiə": səh.19-20.

408 "Ruhut-təşəyyü": səh.433.

hər bir hədisi əgər təvil edib yozmaq mümkündürsə, təvil etməli, mümkün deyilsə, bir kənara atıb önəmsəməməliyik. Bunu pak imamlar (əleyhimussəlam) bizə əmr etmişlər”[409].

Mərceyi-din Seyyid Əli Xamenei (Allah onu qorusun) deyir:

“Qəti dəlillər hal-hazırda əlimizdə mövcud olan Qurnanın təhrif olunmadığına hökm edir”[410].

Mərceyi-din Seyyid Muhəmməd Hüseyni Şahrudi (Allah onu qorusun) deyir:

“Bəzilərinin iddia etdiyi Quranın təhrif olunması fikri batildir. Müsəlmanların əlində olan Quran bəzilərinin iddia etdiyi kimi təhrifə məruz qalmamışdır. Hal-hazırda əlimizdə olan Quran Allah Rəsuluna (sallallahu əleyhi və alihi və səlləm) nazil olan Qurandır. İmamlar (əleyhimussəlam) insanları ona yönləndirmiş, islami hökm və təlimləri ondan əldə etməyi əmr etmişlər. Məsum imamlara (əleyhimussəlam) tabe olaraq da qədim və müasir dövr alimlərimiz Quranın təhrif olunmaması üzərində icma etmişlər. “**Şübhəsiz ki, Quranı Biz nazil etdik və sözsüz ki, Biz də onu qoruyacağıq**”.”[411]

Şeyx Muhəmməd əs-Səbzəvari “**Şübhəsiz ki, Quranı Biz nazil etdik və sözsüz ki, Biz də onu qoruyacağıq**” ayəsinin təfsirində deyir:

“Yəni, Quranı Peyğəmbərimizə (sallallahu əleyhi və alihi və səlləm) nazil edən Allah-taaladır və əsrlər boyunca onu tərk olunmadan, düşmənçilikdən, təhrifdən, dəyişiklikdən, artırılma və azaldılmadan qoruyacaq olan da Odur. Qoy nə edirlər etsinlər, Quranı qoruyub saxlamaq Biz öz öhdəmizədir, onların inkar etmələri Qurana bir zərər yetirməz”[412].

Mərceyi-din Seyyid Əli Həsəni əl-Fani (Allah ona rəhmət etsin) “Xəmsunə məsələ” kitabında deyir:

“Həqiqət budur ki, Qurani-Kərimdə artırılma və ya azaldılma növündən heç bir təhrif baş verməmişdir. Bəli, Quranın tərtibi (ayələrinin düzülüşü) nazil olduğu şəkildə deyildir. Ayələr arasında önə və ya arxaya çəkilmə vardır. Təkcə təfsirçilərin “filan surənin ayələri məkkədə nazil olub, təkcə filan ayədən – və ya ayələrdən – başqa”, - kimi sözlərini qeyd etmək kifayət edər. Həmçinin, qüvədən salan (nasix) və qüvvədən salınan (mənsux) ayələr arasında da önə və ya arxaya çəkilmənin olması, Quranın tərtibinin nazil olduğu şəkildə olmadığına bir dəlildir...”[413].

Şeyx Qulamrza Kardan deyir:

---

[409] “Ruhut-təşəyyü”: səh.435-436.

[410] Müəllifin “ər-Rədd ələş-şəbəkətis-sələfiyyə” kitabına, səh.79-a baxın. Orada Seyyidin bu sözünün Seyyidin öz möhürü ilə möhürlənmiş halda rəsmi foto-sənədi vardır.

[411] Müəllifin “ər-Rədd ələş-şəbəkətis-sələfiyyə” kitabına, səh.79-a baxın. Orada Seyyidin bu sözünün Seyyidin öz möhürü ilə möhürlənmiş halda rəsmi foto-sənədi vardır.

[412] “əl-Cədid fi təfsiril-Quranil-məcid”: 4/172.

[413] “Xəmsunə məsələ”: səh.88.

“Şiələr Qurani-Kərimin bütün dünya müsəlmanlarının səmavi kitabı olduğuna inanırlar. Şiələr inanırlar ki, Qurani-Kərimi Allah-taala Cəbrail (əleyhissəlam) vasitəsilə öz Peyğəmbərinə (sallallahu əleyhi və alihi və səlləm) nazil etmişdir. Bu müqəddəs kitab təhrifdən qorunmuş bir kitabdır. Allah-taala özü onu qoruyacağına söz vermişdir. Belə ki buyurmuşdur: “**Şübhəsiz ki, Quranı Biz nazil etdik və sözsüz ki, Biz də onu qoruyacağıq**”. Bu ilahi zəmanətə əsasən, Qurani-Kərim təhrifdən uzaq bir kitabdır. Buna görə də müsəlmanlar təhrif fikrini qəbul etmir və ona qarşı çıxırılar.”[414]

Şeyx Muhəmməd Əli əl-Müəllim deyir:

“Şiə alimləri və tədqiqatçıları arasında məşhur və hətta yekdilliklə qəbul edilən fikir Qurani-Kərimin təhrif olunmaması fikridir. Şiələr Qurani-Kərimin təhrif olunmamasına dair Qurandan və Peyğəmbərin hədislərindən bir sıra dəlillər gətirirlər. Bu dəlillərdən biri “**Şübhəsiz ki, Quranı Biz nazil etdik və sözsüz ki, Biz də onu qoruyacağıq**” ayəsidir. Həmçinin, “**Həqiqətən, bu, əzəmətli bir Kitabdır. Nə önündən, nə də arxasından batil ona yola tapa bilməz. O, Müdrik, Tərifəlayiq (Allah) tərəfindən nazil edilmişdir**” ayəsidir. Hədislərə gəlincə isə, “mən sizin aranızda iki ağır əmanət qoyub gedirəm: Allahın kitabı və itrətim olan Əhli-Beytim; onlar hovuz başında mənim yanıma varıncayadək əsla bir-birlərindən ayrılmayacaqlar” hədisi və digər hədisləri buna misal gətirirlər. Hətta, Quranın təhrif olunmamasına olan inanc on iki imam şiələrin etiqadlarından sayılır. Bunu Şeyx Səduq Muhəmməd ibn Babəveyh əl-Qummi, Şeyx Əbu Cəfər Muhəmməd ibn Həsən ət-Tusi, Təbərsi, Seyyid Mürtəza, Şeyx Cəfər Alu-Kaşifil-Ğita, Şeyx Muhəmmədcavab əl-Bəlaği və başqaları kimi nəhəng şiə alim və fəqihləri öz sözlərində bildirmişlər. Hətta, şiə alimləri bu barədə icma etmişlər”.

Həmçinin, deyir:

“Şiə kitablarında gəlib zahirindən Quranda təhrifin baş verdiyi başa düşülən hədislərə gəlincə, bu hədislər ya etimad olunmayan rədd olunmuş hədislərdir, ya da Quranın təhrifdən uzaq olması fikri ilə ziddiyyət təşkil etməyəcək şəkildə başqa mənalara yozula biləcək hədislərdir.

Nəticə budur ki, imamiyyə şiələri Quranın təhrif olunduğuna inanmırlar. Onların kitablarında hər hansısa bir hədisin gəlməsi, onların o hədisi qəbul etdikləri anlamına gəlmir. Sünni mənbələrində də Quranın təhrifi ilə bağlı xeyli hədis gəlmişdir...”[415].

Seyyid Abbas Əli əl-Musəvi deyir:

“Qurani-Kərim peyğəmbər və elçilərin sonuncusu olan həzrət Muhəmməd ibn Abdullaha (sallallahu əleyhi və alihi və səlləm) nazil edilən Allah kəlamıdır. Qurani-Kərim Peyğəmbərə sözləri və hərfləri ilə nazil edilmişdir. Peyğəmbər də

[414] “ər-Rədd əla şubuhatil-vəhhabiyyə”: səh.5-6.
[415] “əl-Həqiqətül-məzlumə”: səh.103-105.

onu heç bir artırma və ya azaltma etmədən nazil olduğu şəkildə ümmətə çatdırmışdır. Əmanəti yerinə yetirmiş, xəyanətdən çəkinmiş, Allaha itaət etmiş, peyğəmbər və elçi olmuşdur.

Qurani-Kərimi qorumağı Allah-taala şəxsən öz öhdəsinə alaraq onu təhrif və dəyişilmədən qorumuşdur: "**Şübhəsiz ki, Quranı Biz nazil etdik və sözsüz ki, Biz də onu qoruyacağıq**". Bu ayədə Allah-taala Quranı təhrifdən, artırılma və azaldılmadan qoruyacağı ilə bağlı əhd vermişdir. Müsəlmanlar Quranı ilk nəsildən etibarən nəsilbənəsil bir-birlərinə ötürmüş, nəticədə o, mütəvatir bir şəkildə bizə gəlib çatmışdır. Qurana ayrılan diqqət heç bir şeyə ayrılmamış, Qurana verilən önəm heç bir şeyə verilməmişdir. Müsəlmanlar Qurana o qədər diqqət ayırmışlar ki, Quranın hər bir ayəsinin və hətta hər bir sözünün harada yerləşdiyini əzbər bilmişlər. Qurani-Kərim bizə mütəvatir şəkildə nəql olunmuşdur; bu mütəvatirlik səbəbiylə biz Qurana hətta bircə hərf belə artırılıb azaldılmadığını qəti şəkildə bilmişik.

Şiələrin inancı və onların nəzərində etimadlı görüş məhz budur. Ona görə də, şiələr arasında nadir fikir söyləyən şəxslərin sözlərinə fikir verilməz. Çünki, nadir fikir höccət deyildir və toplumun yekdil fikrini təmsil etmir. Şiələr keçmiş və müasir dövrdə Quranın təhrif olunmaması üzərində icma etmişlər. Eləcə də, Quranda azalmanın baş verdiyini deyən bəzi nadir hədislərə də fikir verilməz. Bu hədislərə etimad edib onları dəlil saymaq caiz (icazəli) deyil..."[416].

Mirzə Şeyx Muhəmməd ibn Muhəmməd Rza əl-Qummi əl-Məşhədi deyir:

""**Şübhəsiz ki, Quranı Biz nazil etdik və sözsüz ki, Biz də onu qoruyacağıq**", yəni, təhrifdən, artırılma və azaldılmadan. Biz onu ecazkar və bəşər sözündən fərqli etmişik, bu səbəbdən də onun nəzminin dəyişməsi dilçililərə gizli qalmaz. (Əgər onda bir dəyişiklik edilsə, dilçililər bunu tez anlayarlar, çünki, dəyişdirilən söz bəşəri xüsusiyyətini ortaya qoyar). Yaxud, Allah-taala bu ayə ilə Qurani-Kərimi qoruyacağını zəmanət verərək ona əsla xələl toxunmayacağını bildirir...".[417]

Mərceyi-din Seyyid Muhəmməd Sadiq Ruhaniyə (Allah onu qorusun) belə bir sual ünvanlanıb:

"Sizdən müsəlmanlar arasında müzakirə mövzusu olan bir məsələ barədə soruşmaq istəyirik. Bu məsələ Qurani-Kərimin təhrif olunub-olunmaması məsələsidir. Görəsən, Qurani-Kərimdə təhrif baş veribmi?".

Cavab belə olub:

"Təhrifin bir neçə mənası vardır.

Birinci mənada təhrif, bir şeyin öz yerindən götürülüb başqa bir yerə qoyulmasıdır. Müsəlmanlar belə bir şeyin Quranda baş verməsi barədə ixtilaf

[416] "Şübuhatun həvləş-şiə": səh.36.
[417] "Təfsirü-kənzid-dəqaiq": 7/92-93.

etməmişlər. Belə ki, kim Quranı həqiqi şəkildə deyil öz şəxsi fikri əsasında təfsir etsə, Quranı təhrif etmişdir. Bir çox bidət əhli və batil məzhəb nümayəndələrinin Quran ayələrini öz şəxsi nəzər və rəyləri ilə təfsir etmələri məhz bu qəbildəndir.

İkinci mənada təhrif, nazil olan Quranın özünün qorunması ilə bərabər, Qurandan hər hansısa bir sözünün çıxarılması və ya ona hər hansısa bir sözün əlavə edilməsidir. Bu mənada olan təhrif ilkin islam dövründə baş vermişdir, lakin Osmanın zamanında kəsilib aradan getmişdir. Nəticədə Quran Peyğəmbərdən (sallallahu əleyhi və alihi və səlləm) mütəvatir şəkildə nəql olunandan ibarət olmuşdur.

Üçüncü mənada təhrif, nazil olan Quranın özünün qorunması ilə bərabər, Quranın hər hansısa bir ayəsində və ya surəsində artırılma və ya azaldılma edilməsi, lakin bununla yanaşı Peyğəmbərin (sallallahu əleyhi və alihi və səlləm) həmin ayə və ya surədən azaldılan şeyi oxumasının qəbul edilməsidir[418]. Bu mənada təhrifi şiələr rədd etsələr də, bir qrup əhli-sünnə alimi bu növ təhrifin baş verdiyini qəbul edərək "bəsmələ"nin Qurandan olmadığını demişlər.

Dördüncü mənada təhrif, Qurana nəyinsə artırılmasıdır. Bu nəzərə görə əlimizdəki Quranın bir hissəsi Allah sözü deyildir. Bu mənada təhfir bütün müsəlmanların icmasına əsasən, batildir.

Beşinci mənada təhrif, Qurandan nəyinsə azaldılmasıdır. Bu nəzərə görə əlimizdəki Quranda Allah tərəfindən nazil edilən Qurandakı bəzi ayələr yoxdur və həqiqi Quranın bir hissəsi yox olub aradan getmişdir. Bu mənada təhrif barəsində ixtilaf edilmişdir; bəziləri belə bir şeyin baş verdiyini, bəziləri isə baş vermədiyini demişlər.

Şiə alimlərinə gəlincə, onların əksəriyyəti alimlərin Quranda bu mənada təhrifin baş vermədiyi üzərində ittifaq etdiklərini demişlər.

Hədisçilərin başçısı Şeyx Səduqun sözlərinə baxın. O, Quranın təhrif olunmaması fikrini şiələrin inanclarından hesab etmişdir. Həmçinin, Şeyxüt-taifə Tusinin, Ələmül-hüdanın, məşhur təfsirçi Təbərsinin, Feyz əl-Kaşaninin, böyük ustad Seyyid Xoinin və başqa alimlərin sözlərinə nəzər salın. Onların dəlilləri çox olsa da biz onların bəzisini qeyd edirik:

1-"**Şübhəsiz ki, Quranı Biz nazil etdik və sözsüz ki, Biz də onu qoruyacağıq**" ayəsi.

2-"**Həqiqətən, bu, əzəmətli bir Kitabdır. Nə önündən, nə də arxasından batil ona yola tapa bilməz. O, Müdrik, Tərifəlayiq (Allah) tərəfindən nazil edilmişdir**" ayəsi.

3-Peyğəmbərin (sallallahu əleyhi və alihi və səlləm) öz ümməti arasında qoyub getdiyi, hovuz başında öz yanına varıncayadək əsla bir-birlərindən

[418] Məsələn, bəzi sünnilər "bismilləhir-rahmənir-rahim" cümləsinin Quran ayəsi olmadığını deyir, lakin Peyğəmbərin (sallallahu əleyhi və alihi və səlləm) onu oxuduğunu etiraf edirlər. Tərc.

ayrılmayacağını bildirdiyi və sarılmaq əmr etdiyi iki ağır əmanət – Quran və itrətdən söz açan "səqəleyn" hədisi.

Bu hədis hər iki məzhəb tərəfindən mütəvatir şəkildə nəql edilmişdir. Məlumdur ki, Quranın təhrif olunduğunu demək, Quranın mövcud ayələrinin höccət olmaması anlamına gəlir. Digər tərəfdən isə pak imamlar Quranın mövcud ayələrindən yapışmağı göstəriş vermişlər. Bu iki amil səbəbindən Quranın təhrif olunmadığı deyilməlidir.

4-Quranın toplanıb əzbərlənməsi prosesi. Xüsusən də nəzərə almaq lazımdır ki, Quranı əzbərləyib toplayanlar arasında Əmirəlmöminin (əleyhissəlam) da var. Quranın nazil olan hər bir ayəsini yazan katiblər var idi. Peyğəmbər (sallallahu əleyhi və alihi və səlləm) nazil olan hər bir ayənin öz göstəriş verdiyi yerə yazılmasını əmr edirdi. Bu da, Quranda əsla təhrifin baş vermədiyi barədə əminlik hasil edir.

Quranın təhrif olunduğunu bildirən zəif hədislərə gəlincə, bu hədislərin əksəriyyətinin ravisi bioqrafiya (rical) elmi alimlərinin batil əqidəli bir şəxs olması üzərində icma etdikləri Əhməd ibn Muhəmməd əs-Sari və rical alimlərinin yalançı və batil əqidəli bir şəxs olduğunu dedikləri Əli ibn Əhməd əl-Kufi adlı şəxslərdir. Quranın təhrif olunduğunu deyən şəxslərin başqa dəlillərinə gəlincə isə, bunun üçün daha geniş bir vaxta ehtiyac var. Biz burada sözümüzü böyük ustad Seyyid Xoinin (Allah ona rəhmət etsin) sözü ilə tamamlayırıq:

"Quranın təhrif olunması fikri xurafat və xəyaldan başqa bir şey deyildir. Ağlı zəif olan, yaxud məsələ barəsində lazımınca düşünməyən, yaxud da sırf meyli bu yöndə olduğu üçün – meyil də insanı kar-kor edər – belə bir söz deyən şəxsdən başqa heç kəs bu şeyi deməz. Ağıllı, bəsirətli və dərin düşüncəli şəxslər bu işin xurafat və batil bir iş olmasına əsla şübhə etmir".

Görəsən, bütün bunlardan sonra ağıllı adam şiələrin Quranın təhrifinə etiqad etdiklərini iddia edərmi?!"[419].

Mərceyi-din Şeyx Mirzə Cavab Təbriziyə (Allah ona rəhmət etsin) belə bir sual ünvanlanıb:

"Biz siz şiələrin Quranın təhrifi ilə bağlı düşüncələriniz və Quranın təhrifi ilə bağlı əsas kitablarınızda gələn əsilsiz hədisləriniz barədə eşidib onlarla tanış olmuşuq. Bu, Quranın və sünnənin təlimlərinə zid bir şeydir. Sizin "əl-Kafi" və başqa kitablarınızda gələn bu cür hədisləriniz barədə fikriniz nədir?...".

Cavab belə olub:

"Şiələr arasında məşhur, hətta demək olar ittifaq olunmuş fikir Qurani-Kərimin təhrif olunmaması – arıtılma və azaldılmaya məruz qalmaması fikridir. Hədisçilərin şeyxi olan Şeyx Səduq "əl-İtiqadat" kitabında belə deyir:

[419] Mənbə: Seyyidin rəsmi internet saytı: (**www.imamrohani.com**).

“Bizim Qurani-Kərimlə bağlı inancımız belədir ki, Allahın həzrət Muhəmmədə (sallallahu əleyhi və alihi və səlləm) nazil etdiyi Quran həmin bu iki qapaq arasında olan Qurandır. Allahın Peyğəmbərə nazil etdiyi Quran bu dəqiqə camaatın əlində olan Qurandır və hal-hazırkından artıq deyildir.”

Sonra deyir: “Kim bizim o Quranın indiki Qurandan daha artıq olduğunu dediyimizi bizə nisbət versə, o şəxs yalançıdır”.

Bəli, bəzi zəif sənədli hədislərdə Quranda təhrifin, yəni azaldılmanın baş verdiyi anlaşılan müəyyən məlumatlar gəlmişdir, lakin bu hədislər zəif və şaz (nadir və məşhurun ziddinə) olduğu üçün onlara etimad edilməz. Bu hədislər on iki imam şiələrinin inancını təmsil etmir.

Qurani-Kərimə əməl edilməməsi və onun bir kənara atılması mənasında “təhrif”ə gəlincə isə, biz bunu qəbul edirik. Bu növ “təhrif” bugünkü günümüzdə də baş verir. Lakin, bu növ təhrifin sualdakı təhriflə əlaqəsi yoxdur.

Bundan başqa, biz deyirik ki: Təhriflə bağlı hədislər təkcə şiə mənbələrində gəlməmişdir (şiə mənbələrində gələnlər də nadir və şaz hədislərdir), əhli-sünnənin hədis kitablarında da Quranda təhrifin baş verdiyini bildirən çoxlu hədislər gəlmişdir. Biz onlardan bir neçəsini sənin üçün nəql edirik:

Süyuti “əd-Dürrül-mənsur” kitabında deyir:

“Əbdür-Rəzzaq “əl-Müsənnəf” kitabında İbn Abbasdan belə nəql edib: Ömər ibn əl-Xəttab carçıya car çəkərək camaatı namaz üçün toplamağı əmr etdi. Sonra minbərə çıxaraq Allaha həmd-səna edib dedi: “Ey camaat! Daş-qalaq ayəsini kəsib atmayın. Həqiqətən də o, Allahın kitabında nazil olmuş və biz də onu oxumuşduq, lakin o, Muhəmmədin (sallallahu əleyhi [və alihi] və səlləm) (getməsi) ilə birgə aradan gedən bir çox Quran (ayəsi) kimi aradan getmişdir!”.”

Buxari Ömər ibn əl-Xəttabdan belə nəql etmişdir:

“Allah Muhəmmədi haqq ilə göndərdi və ona kitab nazil etdi. Allahın ona nazil etdiyi ayələrdən biri də daş-qalaq ayəsi idi. Biz o ayəni oxumuş, başa düşmüş və dərk etmişdik. Məhz bu ayəyə görə Allah Rəsulu daş-qalaq etmiş və biz də ondan sonra daş-qalaq etmişik. Qorxuram, elə bir zaman gələ ki, camaat “vallah, Quranda daş-qalaq ayəsini görmürük”, - deyə və Allahın nazil etdiyi vacib bir əməli tərk etməklə azğınlığa düşə”.

Həmçinin, Ömər belə deyib:

“Biz Allahın kitabında belə oxuyardıq... “Öz atalarınızdan üz döndərməyin. Həqiqətən də atalarınızdan üz döndərmək sizin üçün bir küfrdür”.”

Bunu Müslim ibn Həccac öz “Səhih” kitabında, Əhməd ibn Hənbəl də “Müsnəd” kitabında nəql etmişdir.

Sonda onu qeyd edək ki, on iki imam şiələri Quranın təhrifinin inkarına və Quranın təhrifi ilə bağlı bizim mənbələrimizdə gələn hədislərin cavabına dair çoxlu kitablar yazmışlar... Bununla yanaşı, onlar bu hədislərin sənəd baxımından zəif,

nadir və şaz olduğunu da bildirmişlər. Bizim zamanda yaşayan belə müəlliflərdən biri şiələrin böyük mərceyi-təqlidlərindən biri olan Seyyid Xoidir (Allah ona rəhmət etsin). O, bu mövzuya dair "əl-Bəyan" adlı əsərini yazmışdır. Həmçinin, belə kitablardan biri "ət-Təhqiq fi nəfyit-təhrif ənil-Quraniş-şərif" kitabıdır. Bunun kimi bir çox kitabı göstərmək olar.

Allah bizi və sizi doğru və haqq olana hidayət etsin. Hidayət edib doğru yola yönləndirən məhz Odur."[420]

Mərceyi-din Seyyid Sadiq Şirazi (Allah onu qorusun) deyir:

"Quran Peyğəmbərin (sallallahu əleyhi və alihi və səlləm) diri və əbədi möcüzəsidir. Çünki, o yeganə və tək kitabdır ki, "səma" onun artırılma, azaldılma və dəyişiklikdən qorunmuş olmasını iradə etmişdir[421]"[422].

Mərceyi-din Seyyid Muhəmməd Şirazi (Allah ona rəhmət etsin) deyir:

"Quranın hətta bir nöqtə və ya bir hərəkəsində belə təhrif baş verməmişdir. Müsəlmanlar arasında qədim və müasir dövrdə məşhur olan nəzər məhz budur. Əhli-sünnənin səhih kitablarında və bizim bəzi kitablarımızda Quranın təhrifi ilə bağlı nəql olunan hədislərə gəlincə isə, bu hədislər sənəd cəhətdən etibarsız, dəlalət cəhətdən isə olduqca zəifdirlər"[423].

Görəsən, bütün bunlardan sonra kimsə şiələrin Quranın təhrifinə etiqad etdiklərini iddia edə bilərmi?!

Biz on iki imamçı şiə alimlərindən gətirdiyimiz bu sitat və nümunələri şiələrin bu iftiradan uzaq olduqlarını və Osman əl-Xəmisin yalançı iftiraçıdan başqa birisi olmadığını isbat etməkdən ötrü gətirdik. Şiələr bu iftiradan tamamilə uzaq olduqları halda Osman əl-Xəmis böhtanla bütün şiələri bu iftiraya inanmaqda ittiham etmişdir.

## Quranda təhrifin baş verdiyini deyən şəxs kafirdirmi?

Daha sonra Osman əl-Xəmis Quranın təhrifin baş verdiyinə etiqad edən şəxsin təkfir olunması məsələsi üzərində dayanaraq belə deyir:

"...Buna görədir ki, biz sünni alimlərinin bu məsələdə sərt mövqe tutduqlarını, Quranın təhrifinə inanan şəxsin kafir olduğunu dediklərini və bunu "**Şübhəsiz ki, Quranı Biz nazil etdik və sözsüz ki, Biz də onu qoruyacağıq**" ayəsinə əsaslanaraq açıq-aşkar şəkildə ifadə etdiklərini görürük.

Halbuki, şiə alimləri belə bir söz demirlər, onlar sadəcə belə bir şəxsin "xətakar" olduğunu deyirlər, o da əgər desələr!!

---

420 "əl-Ənvarul-ilahiyyə": səh.224-226.
421 Halbuki, başqa səmavi kitablar barəsində belə bir şey deyilə bilməz. Çünki o kitabların mühafizəsi ilahi zəmanət altına alınmamış, əksinə onların mühafizəsi zəmanənin alimlərinin öhdəsinə buraxılmışdı. Tərc.
422 "əl-Məsailül-islamiyyə": səh.20.
423 "Həvləs-sünnətil-mütəhhərə": səh.70.

Mən burada cavabını tapa bilmədiyim bir sual vermək istəyirəm. Doğrusu, bu, sualdan çox bir ilzamdır[424].

Tez-tez "iki ağır əmanət" – "səqəleyn" hədisini eşidirik. İki ağır əmanət Quran və Əhli-Beytdir.

Şiə kitablarında gəlib ki, daha böyük ağır əmanət Qurandır, daha kiçik ağır əmanət isə Əhli-Beyt.

Bunu bildikdən sonra deyirik: məgər istisnasız bütün şiələr Hüseynin (Allah ondan razı olsun) qatillərinin kafir olduqlarını demirlər? Bir halda ki, Hüseyn kiçik ağır əmanətin bir fərdidir. Halbuki, onlar böyük ağır əmanət olan Qurana tənə edən şəxslərin – şiə alimlərinin böyük əksəriyyətinin kafir olduqlarını demirlər.

Məhz buna görə də, böyük sayda, – bəli, bəli, böyük sayda – görkəmli şiə alimi Quranın təhrif olunduğunu demişdir[425]. "

Siz qəbul edirsiniz ki, rəhmət oxuyub qələmə aldıqları kitabları təriflədiyiniz bu şəxslər sizin məzhəb alimləriniz olsunlar?!"[426]

Sonra deyir:

"Elə isə öz alimlərinizdən nasibilərin (Allah onlara lənət etsin) kafirliklərini dillərində dolandırdıqları kimi, Qurana tənə edənlərin kafirliyinə də hökm vermələrini tələb edin. Hərçənd ki, nasibilər bir bəşəri – Əhli-Beyti xoşlamayıb onlarla düşmənçilik ediblər. Elə isə nə üçün Quranla düşmənçilik edən şəxsləri təkfir edib lənətləmirlər?

Lakin biz, Allaha həmd olsun ki, Allahın kitabına, Əhli-Beytə və ya Peyğəmbər (sallallahu əleyhi [və alihi] və səlləm) səhabələrinə tənə edənlər arasında fərq qoymuruq. Bizim bu hənif dində yeri böyük olan hər bir dəyəri müdafiə edərkən yalnız bir yolumuz var"[427].

Deyirəm:

**Birinci:** Şiələr Qurani-Kərimdə təhrif baş verdiyini deyən kəsləri xətakar hesab edib, onların bu məsələdə yanlış yolda olduqlarını bildirsələr də, onları təkfir etmirlər. Çünki Quranda təhrifin baş verdiyinə inanan şəxslər bu sözü məhz qarşılarına çıxan bir şübhə üzündən demişlər. Bu şübhə də səhih hesab etdikləri bəzi hədislərdən qaynaqlanmışdır; onlar bu cür hədislərə baxıb təhrif nəticəsi çıxarmışlar. Hər hansısa bir şübhə səbəbindən müəyyən bir söz deyən şəxsin təkfir olunmasının caiz olmaması icma ilə qəbul edilmiş bir məsələdir. Üstəlik, biz Quranın artırılma və ya azaldılma ilə təhrifə uğradığını deyən kəsləri təkfir etmək istəsək, Allaha pənah, bir qrup səhabəni də təkfir etməliyik. Çünki, əhli-sünnə özü

---

[424] İlzam: susdurma, çıxılmaz vəziyyətə salma. Tərc.

[425] **Görəsən, kimdir o, Quranın təhrif olunduğunu deyən "böyük sayda görkəmli şiə alimi", ey Osman əl-Xəmis?! Nə üçün adlarını qeyd etməmisən?!**

[426] "Qəlbdən qəlbə": səh.13-14.

[427] "Qəlbdən qəlbə": səh.15.

onlar haqqında Quranda təhrifin baş verdiyinə etiqad etdiklərini bildirən səhih rəvayətlər nəql etmişdir. Əgər bu şəxslərin kafirliklərinə hökm vermək mümkün deyilsə, onda onlardan başqalarının da kafirliklərinə hökm vermək mümkün deyil.

Qurani-Kərimdə təhrifin baş verdiyinə etiqad etmək, dinin zəruri prinsiplərindən birini inkar etmək sayılmır. Çünki Quranın təhrifi məsələsində istər qədim, istərsə də müasir dövrdə ixtilaf mövcud olmuşdur. Dinin zəruri məsələlərində isə ixtilaf yoxdur. Belə hökmlər bizə Peyğəmbərdən (sallallahu əleyhi və alihi və səlləm) qəti şəkildə gəlib çatmışdır.

Zahirindən Quranda təhrif baş verdiyi anlaşılan hədislərin gəlib çatması, bu dediyimizə ən bariz dəlildir. Çünki, siz dinin elə bir zəruri prinsipini tapa bilməzsiniz ki, onun barəsində sünni və şiə mənbələrində əks məzmunlu hədislər gəlsin. Dinin zəruri prinsipləri sayılan məsələlər barədə gəlib çatan hədislər eyni məzmunludur[428].

Hətta, namaz, oruc, zəkat, həcc və s. kimi dinin zəruri məsələlərindən birini belə hansısa bir şübhə üzündən inkar edən şəxs o dəqiqə təkfir oluna bilməz. Çünki, ortada onu bu inkara gətirib çıxaran bir şübhə mövcuddur. Belə məqamda, şübhə aradan qaldırılmalı və qaneedici dəlil ortaya qoyulmalıdır. Yalnız bundan sonra qarşı tərəf inkarında israr edərsə, təkfir olunar. Lakin, dediyimiz kimi, əgər onun inkar etdiyi şey dinin zəruri məsələlərindən biri deyilsə, onda o, heç bir halda təkfir edilə bilməz.

Mərceyi-din Seyyid Muhəmməd Səid əl-Həkim (Allah onu qorusun) deyir:

“Quranın təhfirinə etiqad edən şəxsləri təhqir etmək yaxşı deyildir. Onlar kobud bir səhvə düçar olsalar da, bu, qəflət səbəbindən meydana gələn elmi bir səhvdir. Belə bir səhv insanın hörmətini aradan aparmaz, onu kafir etməz. Xüsusən də nəzərə almaq lazımdır ki, onlar Quranda artırılma olmaması mövzusunda bütün müsəlmanlarla eyni fikirdədirlər. Bunun da səbəbi daha öncə dediyimiz kimi, artırılmanın baş verməməsi barədə icmanın mövcudluğudur.

Məhz buna görədir ki, şiələr və sünnilərin bir qismi ilə sünnilərin digər bir qismi arasında “bismilləhir-rahmənir-rahim” cümləsinin Qurandan olub-olmaması məsələsindəki ixtilaf nəinki təkfir etmə və hörməti aradan aparma həddinə, heç tənə etmək həddinə belə gəlib çatmamışdır. Nə “bəsmələ”nin Qurandan olduğunu deyənlər onun Qurandan olmadığını deyənləri “Quranda azaltma edirlər”, - deyə təkfir etmiş, nə də onun Qurandan olmadığını deyənlər onun Qurandan olduğunu deyənləri “Quranda artırma edirlər”, - deyə təkfir etmişlər.

Həmçinin, İbn Məsudun “fələq” və “nas” surələrinin Qurandan olmadığına etiqad etdiyi nəql edilmişdir, lakin biz heç kəsin İbn Məsudu təhqir etdiyini və ya onun kafirliyinə hökm etdiyini görməmişik.

---

[428] Məsələn, Allahın tək olmasına olan inam dinin zəruri prinsiplərindəndir. Bu barədə əks məzmunda heç bir məlumat gəlməmiş, heç kəs tərəfdən bunun əksi iddia edilməmişdir. Tərc.

Bütün bunlar ona görə belədir ki, bu cür ixtilaflar hörməti aradan aparmır və insanı kafir etmir. Burada edilməsi gərəkən tək iş, başqalarının da eyni cür xətaya düşməməsi üçün bu cür düşüncədə olan şəxslərin şübhələrini dəf edib onların xətalarını izah etməkdir. Bunu da kamil təqva və əxlaq çərçivəsində etmək lazımdır. İslam Allahın öz bəndələri üçün qanun etdiyi dindir. Buna görə də islamın və küfrün hədlərinə son dərəcə diqqət edilməldir. Kimsə sırf öz qənaətləri ilə – bu qənaətlər nə olursa, olsun – razılaşmır deyə, sağa-sola baxmadan başqalarını kafirlikdə ittiham edə və bu işdə tələskənliyə yol verə bilməz. Yalnız məsələ islamın əsaslarını və Allah-taalanın təyin etdiyi həddlərini inkar etməyə gəlib çıxdığında bu işə yol verilər."[429]

**İkinci:** Osman əl-Xəmis az öncə qeyd etdiyimiz sitatında bildirir ki, onlar Quranın təhrifinə inananlarla, Əhli-Beytə (əleyhimussəlam) düşmənçilik edən nasibilər və səhabələri söyənlər arasında fərq qoymurlar. Lakin, bu, əsla belə deyildir. Əksinə, həqiqət bunun tam tərsinədir; onlar bu deyilən şəxslər arasında açıq-aşkar fərq qoyurlar. Onlar Əhli-Beytə düşmənçilik bəsləyən nasibiləri tərifləyib göylərə qaldırır, onları siqə və güvənilir bilir, onların nəql etdikləri hədisləri qəbul edir[430], habelə, Müaviyə, Əmr ibn As və digərləri kimi Cəməl və Siffeyn döyüşlərində görkəmli səhabələri qətlə yetirən səhabə qatilləri üçün "Allah onlardan razı olsun", - deyirlər.

**Osman əl-Xəmisin şiələrə iftira atıb onları bütün səhabələri kafir bilməkdə ittihamı etməsi**

Osman əl-Xəmis deyir:

"Əgər səhabələr, xüsusən də məşhur səhabələr kafirdirlərsə, onda şiələr kafirliklərinə etiqad etdikləri şəxslərin nəqllərinə necə güvənirlər; axı Quranı nəql edən şəxslər məhz səhabələrdirlər!"[431].

**Deyirəm:**

**Birinci:** Bu sözündə Osman əl-Xəmis şiələri səhabələri kafir bilməkdə ittiham edir. Bu, onun şiələrə atdığı çoxsaylı iftira və yalanlardan növbəti birisidir. On iki imam şiələri Peyğəmbər (sallallahu əleyhi və alihi və səlləm) səhabələrini kafir bilmirlər. Bəli, onlar bütün səhabələri ədalətli hesab etmirlər, çünki nə Quranda və nə də sünnədə onların hamılıqla ədalətli olduqlarına dəlalət edən bir şey vardır. Hətta, dəlillər bunun əksini göstərir. Biz elə bu kitabın "Osman əl-Xəmisin səhabənin ədaləti mövzusunda iddialarına cavab" bölməsində Osman əl-Xəmisin bütün səhabələrin ədalətli olması iddiasına dair ortaya atdığı dəlilləri

[429] "Fi rihabil-əqidə": 1/ 194-195.
[430] Müəllfin "əl-Husunul-məniə" kitabına baxın: səh.84.
[431] "Qəlbdən qəlbə": səh.12.

müzakirə edib onların zəiflik və yetərsizliyini ortaya qoyduq. Bu məsələ barədə ətraflı tanış olmaq istəyən o bölməyə müraciət edə bilər, lakin biz burada əlavə olaraq deyirik:

Şiələrin səhabələrə olan mövqe və tutumu Qurani-Kərimin onlara olan mövqe və tutumu ilə eynidir. Qurani-Kərim Peyğəmbərlə (sallallahu əleyhi və alihi və səlləm) birgə olan səhabələri bir neçə qrupa bölür. Quran islamı qəbul etməkdə hamıdan önə düşən ilk müsəlmanlardan, ağac altında beyət edənlərdən, öz yurd-yuvalarından didərgin düşmüş mühacirlərdən, Məkkənin fəthində iştirka edənlərdən və s. bu kimi qruplardan söz açmışdır. Quran bu şəxsləri tərif və təqdir edərək onları fəzilət və üstünlüklə yad etmişdir. Lakin Qurani-Kərim bu dəstələrin müqabilində başqa qrup səhabələrdən də söz açmışdır. Belələrinə misal olaraq Peyğəmbərin (sallallahu əleyhi və alihi və səlləm) ətrafında olsalar da nifaq və ikiüzlülükləri həm Peyğəmbərə (sallallahu əleyhi və alihi və səlləm), həm də möminlərə məlum olan münafiqləri göstərmək olar. Allah-taala onlar barəsində "münafiqlər" adlı bütöv bir surə nazil edərək bununla onları məzəmmət və ifşa etmişdir.

Həmçinin, səhabələr arasında olan belə məzəmmətlənmiş qruplardan biri, öz münafiqliklərini gizlədən şəxslər idilər. Onlar öz münafiqliklərini o qədər gizlədə bilmişdilər ki, hətta Peyğəmbər (sallallahu əleyhi və alihi və səlləm) belə onları tanımırdı. Allah-taala onlar barəsində belə buyrur: "**Ətrafınızdakı bədəvilər və Mədinə əhalisi içərisində ikiüzlülüyü özlərinə adət etmiş (bu işdə mahir) münafiqlər vardır. Sən onları tanımazsan, Biz isə onları tanıyırıq. Onlara iki dəfə (dünyada və qəbir evində) əzab verəcəyik. Sonra (axirətdə) isə ən böyük əzaba uğrayacaqlar**."[432]

Belə qruplardan biri zəif imanlı şəxslər idi. Onlar ticarət və ya başqa bir şeylə bağlı dünyəvi bir xəbər eşitdikləri zaman, Peyğəmbər (sallallahu əleyhi və alihi və səlləm) məsciddə ayaq üstə xütbə oxuduğu halda tez-tələsik məsciddən çıxan şəxslərdirlər. Allah-taala onlar barəsində buyurur: "**Onlar bir alış-veriş, yaxud bir əyləncə gördükləri zaman səni ayaq üstə (minbərdə xütbə oxuduğun halda) qoyub ona tərəf cumdular. (Ya Peyğəmbər!) De: "Allah dərgahında olan savab əyləncədən də, ticarətdən də xeyirlidir. Allah ruzi verənlərin ən yaxşısıdır!""**[433].

Digər bir qrup bu ayədə bəyan olunanlardan ibarətdir: "**Geri qalan bədəvilər sənə: "Var-dövlətimiz və ailələrimiz bizi (döyüşə getməkdən) yayındırdı. (Allahdan) bizim üçün bağışlanma dilə!"– deyəcəklər. Onlar qəlbində olmayanları dilləri ilə deyirlər. De: "Əgər Allah sizə bir zərər yetirmək və ya**

---

[432] Tövbə surəsi, 101-ci ayə.
[433] Cümə surəsi, 11-ci ayə.

**bir xeyir vermək istəsə, Onun (edəcəyi işin) qarşısını kim ala bilər?" Xeyr, Allah sizin nə etdiyinizdən xəbərdardır.**"[434]

Digər qrup da bu ayədə bəyan olunan qrupdur: "**Allaha and içirlər ki, (Peyğəmbər haqqında nalayiq sözlər) deməyiblər. (And olsun ki) onlar küfr sözünü demiş, islamı (zahirən) qəbul etdikdən sonra kafir olmuş, müvəffəq ola bilmədikləri bir işə (Təbuk döyüşündən qayıdarkən Peyğəmbərə qarşı hazırladıqları sui-qəsdə) girişmişdilər**."[435]

Deməli, səhabələr arasında həm mömin olanlar var, həm də münafiq və fasiq olanlar. Peyğəmbərin (sallallahu əleyhi və alihi və səlləm) ətrafında olan şəxslərlə bağlı Qurani-Kərimin görüşü budur. Onlar da başqa müsəlmanlar kimidirlər; onların da arasında saleh də var, saleh olmayan da, mömin də var, mömin olmayaı da. Peyğəmbərə (sallallahu əleyhi və alihi və səlləm) səhabə olmaq insan üçün şərəf olsa da, bu, nə insana məsumluq verir, nə də qeyd-şərtsiz axirət xoşbəxtliyi. Bir şəxs səhabə olduğu təqdirdə təqvasız olsa, onda onun səhabəliyi ona axirət xoşbəxtliyi qazandırmaz.

Əbdül-Hüseyn Şərəfüddin əl-Musəvi (Allah ona rəhmət etsin) deyir:

"Kim biz şiələrin səhabələr barəsindəki görüşümüzlə tanış olsa, onun ən mötədil görüş olduğunu anlayar. Belə ki, biz nə səhabələri ucdantutma kafir hesab edən ğulatlar[436] kimi təfritə varmışıq, nə də onları ucdantutma güvənilir hesab edən cümhur[437] kimi ifrata varmışıq. Kamiliyyə və onlar kimi digər ifratçı cərəyanlar səhabələrin hamısının kafir olduğuna etiqad etmiş, əhli-sünnə isə Peyğəmbəri (sallallahu əleyhi və alihi və səlləm) görüb ondan söz eşidən hər bir müsəlmanı adil hesab etmişdir. Əhli-sünnə bu inancına görə hər yerdindən duran səhabənin hədisini qəbul etmişdir.

Bizə gəlincə isə, bizim nəzərimizdə səhabə olmaq böyük bir fəzilət olsa da, o, öz-özlüyündə insanı məsum edəcək bir faktor deyildir. Səhabələr də başqaları kimidir: onlar arasında da adil və böyük şəxsiyyətlər, azğınlar, böyük cinayət və günahlar sahibi olan münafiqlər və vəziyyəti məchul (naməlum) olan şəxslər vardır.

Biz onlar arasında adil olanların sözlərini qəbul edir, dünya və axirətdə onları dost tuturuq. Peyğəmbərin qardaşı olan Vəsiyə (İmam Əliyə) qarşı çıxıb azğınlıq edənlərə, İbn Hind, İbn Nabiğə, İbnəz-Zərqa, İbn Əqəbə, İbn Ərtəə və sair bu kimi böyük günah və cinayətlər sahibi olan şəxslərə gəlincə isə, bu şəxslərin bizim yanımızda heç bir dəyərləri, hədislərinin bizim yanımızda heç bir qədir-qiyməti

---

[434] Fəth surəsu, 11-ci ayə.
[435] Tövbə surəsi, 94-cü ayə.
[436] Ğulat: ifrata varan deməkdir. Tərc.
[437] Burada "cümhur" dedikdə əhli-sünnə məzhəbi nəzərdə tutulur. Tərc.

yoxdur. Vəziyyəti məchul olan şəxslərə gəlincə isə, biz vəziyyəti aydınlaşana qədər o şəxslər barəsində dayanıb fikir bildirmirik."[438]

Bundan başqa, biz daha öncə də dedik ki, Qurani-Kərim Allah Rəsulunun zamanında artıq qələmə alınıb kitab vəziyyətinə salınmışdı, həmçinin, o, aralarında 3 Əhli-Beyt imamının (əleyhimssəlam) da olduğu bir çox səhabələr tərəfindən əzbərlənmişdi. Bundan sonra Qurani-Kərim şifahi və yazılı şəkildə növbəti nəsillərə keçmiş, nüsxə və hafizlərinin sayı çoxalmışdır. Hal-hazırda Ərəb Körfəzi ölkələrində, Misirdə, Şamda, İranda, Pakistanda, Hindistanda, Türkiyədə, Yəməndə və İraqda məşhur olan qiraət Əhli-Beyti imamlarının (əleyhimussəlam) zamanında da məşhur olmuşdur. Onlardan öz şiələrini Quranı bu qiraətlə oxumaqdan çəkindirmələri ilə bağlı bir göstəriş gəlməmişdir. Əgər onların belə bir göstərişi mövcud olsaydı, bu, məşhur olub yayılar, şiələr onu nəql edər və şiə hədislərində buna dəlalət edən bir şey olardı. Belə bir şey mövcud olmaması imamların (əleyhimussəlam) Ərəbistan yarımadası və digər bölgələrdə məşhur olan bu qiraəti təsdiqlədiyinə dəlalət edir. Onların təsdiqləmələri isə höccətdir və bu, bizim hazırkı qiraətin səhihliyi üçün dəlilimizdir. Hətta biz bəzi hədislərdə imamların (əleyhimussəlam) Quran ayəsini fərqli və şazz bir qiraətlə oxuyan şəxsləri bu işdən çəkindirdiklərini və onlara camaat arasında məşhur olan qiraət əsasında oxumağı əmr etdiklərini görürük.

İmamların (əleyhimussəlam) bu qiraəti təsdiqlədiklərinə dəlalət edən faktlardan biri də budur ki, imamlar şiə fəqihlərinə hədislər arasında ziddiyyət meydana gəldiyi zaman hədisləri Qurani-Kərimlə tutuşdurmağı əmr etmişlər. Hansı hədis Qurana uyğun gəlsə, o hədisə əməl olunmalı, hansı hədis Qurana zidd olsa, – Quranın təlimləri ilə ziddiyyət təşkil etməyən bir mənaya yozmaq mümkün deyilsə, – bir kənara qoyulmalıdır. İmam Sadiq (əleyhissəlam)-dan səhih sənədlə belə nəql edilmişdir:

"Əgər qarşınıza iki müxtəlif hədis çıxsa, onları Allahın kitabı ilə tutuşdurun; hansı hədis Allahın kitabına uyğun gəlsə, onu götürün, hansı gəlməsə, onu rədd edin"[439].

Şübhəsiz ki, İmam Sadiq (əleyhissəlam) Quran dedikdə camaatın əlində olan məşhur Quranı nəzərdə tutur. Əgər başqa bir Quran nəzərdə tutsaydı, bunu bildirər və camaatı da o Qurana tərəf istiqamətləndirərdi. Bunun özü Əhli-Beyt imamlarının (əleyhimussəlam) Qurani-Kərimin bu qiraətini təsdiq etmələrinin başqa bir dəlilidir.

---

[438] "Əcvibətü-məsaili-Carillah": səh.14-15.
[439] "Vəsailüş-şiə": 27/1118, hədis: 33362.

## Bəzi səhabələri Quranın təhrifinə etiqad etməkdə ittiham edən sünni hədisləri

**İkinci:** Görünür, Osman əl-Xəmis öz mötəbər kitablarında gələn səhih hədislərin bir qrup səhabəni Quranın təhrifinə etiqad etməkdə ittiham etdiyini unudub və ya özünü bilərəkdən unutqanlığa vurub. Biz belə hədislərdən bir qismini burada qeyd edirik:

İbn Hibban öz "Səhih" kitabında öz sənədi ilə Səid ibn Cübeyrdən belə nəql edir:

"...İbn Abbas (Kəhf surəsinin 80-ci ayəsini) belə oxuyurdu: "**Oğlana gəldikdə, o, kafir idi, onun ata-anası isə mömin kimsələr idi**", (Kəhf surəsinin 79-cu ayəsini isə) belə oxuyurdu: "**Onların qarşısında hər bir saz gəmini zorla ələ keçirən bir padşah var idi**"."[440]

"Səhihül-Buxari" kitabının müəllifi öz sənədi ilə Səid ibn Cübeyrdən İbn Abbasın ayəni belə oxuduğunu nəql edir:

""**Onların qarşısında hər bir saz gəmini zorla ələ keçirən bir padşah var idi**". Həmçinin, (Kəhf surəsinin 80-ci ayəsini) belə oxuyardı: "**Oğlana gəldikdə, o, kafir idi, onun ata-anası isə mömin kimsələr idi**"."[441]

Başqa bir yerdə Buxari deyir:

"Səid ibn Cübeyr İbn Abbasın (Kəhf surəsinin 79-cu ayəsini): "**Onların qarşısında hər bir saz gəmini zorla ələ keçirən bir padşah var idi**" – şəklində, (Kəhf surəsinin 80-ci ayəsini isə) "**Oğlana gəldikdə, o, kafir idi, onun ata-anası isə mömin kimsələr idi**" – şəklində oxuduğunu demişdir"[442].

Hümeydi öz "Müsnəd" kitabında Səid ibn Cübeyrdən belə nəql edir:

"İbn Abbas (Kəhf surəsinin 80-ci ayəsini) belə oxuyurdu: "**Oğlana gəldikdə, o, kafir idi, onun ata-anası isə mömin kimsələr idi**", (Kəhf surəsinin 79-cu ayəsini isə) belə oxuyurdu: "**Onların qarşısında hər bir saz gəmini zorla ələ keçirən bir padşah var idi**"."[443]

Müslim öz "Səhih" kitabında Səid ibn Cübeyrdən belə nəql edir:

"İbn Abbas (Kəhf surəsinin 80-ci ayəsini) belə oxuyurdu: "**Oğlana gəldikdə, o, kafir idi, onun ata-anası isə mömin kimsələr idi**", (Kəhf surəsinin 79-cu ayəsini isə) belə oxuyurdu: "**Onların qarşısında hər bir saz gəmini zorla ələ keçirən bir padşah var idi**"."[444]

Tirmizi də bu hədisi öz "Sünən" kitabında nəql edərək onun barəsində: "**Bu, həsən və səhih hədisdir**", - demişdir[445]. Həmçinin, Şeyx Muhəmməd Nasiruddin

---

[440] "Səhihü-İbn Hibban": 14/107, hədis: 6220. Kitabın mühəqqiqi Şeyx Şüeyb əl-Arnaut deyir: "**İsnadı Müslimin şərtinə əsasən, səhihdir**".

[441] "Səhihül-Buxari": 3/1246.

[442] "Səhihül-Buxari": 4/1752.

[443] "Müsnədül-Hümeydi": 1/182.

[444] "Səhihü-Müslim": 4/1850, hədis: 2380.

[445] "Sünənüt-Tirmizi": 5/309, hədis: 3149.

əl-Əlbani də özünün "Səhihü-sünənit-Tirmizi" kitabında bu hədisi səhih hesab etmişdir[446].

Əhli-sünnənin birdən çox səhih kitabında nəql oluna bu səhih hədis böyük səhabə Abdullah ibn Abbasın Quranı Allahın nazil etdiyindən fərqli şəkildə oxuduğunu deyir. Belə ki, Kəhf surəsinin 79-cu ayəsində "*o, kafir idi*" cümləsi yoxdur. Müqəddəs müshəfdə ayə bu şəkildədir: "**Oğlana gəldikdə, onun ata-anası isə mömin kimsələr idi**". Digər ayədə isə *"onların önündə"* və "*saz gəmi*" kimi ifadələr mövcud deyil, əksinə, ayə belədir: "**Onların arxasında[447] hər bir gəmini zorla ələ keçirən bir padşah var idi**"[448].

Buxari öz "Səhih"ində[449], Müslim öz "Səhih"ində[450], İbn Hibban öz "Səhih"ində[451], Beyhəqi "Sünən" kitabında[452], İbn Cərir Təbəri də "Təfsir" kitabında[453] Səid ibn Cübeyrdən İbn Abbasın belə dediyini nəql etmişlər – mətn Buxarinindir –:

""**Ən yaxın qohumlarını və ən yaxın əqrəbanı qorxut**" ayəsi nazil olanda...".

"**Və ən yaxın əqrəbanı qorxut**" cümləsi Qurani-Kərimdən deyil və Qurani-Kərimdə belə bir söz yoxdur. Lakin, bu səhih hədisin iddiasına əsasən, İbn Abbasın nəzərində "**Ən yaxın qohumlarını qorxut**"[454] ayəsi məhz bu cümlə ilə birgə nazil olubmuş.

Hakim ən-Nişapurinin "əl-Müstədrək ələs-səhiheyn" kitabında Səid ibn Cübeyrdən nəql etdiyi başqa bir hədisə isə deyilir ki, İbn Abbas Səbə surəsinin 14-cü ayəsini belə oxuyarmış: "**(Süleyman) yerə yıxıldıqda insanlara bəlli oldu ki, əgər cinlər qeybi bilsəydilər, bir il alçaldıcı əzaba məruz qalmazdılar**".

Hakim bu hədis üçün, "**bu, səhih sənədli hədisdir, lakin Buxari və Müslim bunu nəql etməmişlər**", - demiş, Zəhəbi də onunla razılaşaraq, "**səhihdir**", - demişdir[455].

---

[446] "Səhihü-sünənit-Tirmizi": 3/286, hədis: 3149.

[447] Əlbəttə, onu da qeyd etmək lazımdır ki, ayədə hərfən "arxa" mənası verən "vara" sözü işlənsə də, bununla sırf "arxa tərəf" mənası nəzərdə tutulmamışdır. "Vara" sözü ilə qarşı, sağ, sol, ümumiyyətlə, insanın qəflət etdiyi istənilən cəhət nəzərdə tutula bilər (məsələnin ətraflı izahı ilə təfsir kitablarında tanış olmaq olar). Lakin, əsas məsələ, hədisin İbn Abbas kimi bir şəxsə ayəni "vara" sözü ilə deyil hərfən "qarşı tərəf" mənası verən "əmam" sözü oxumasını nisbət verməsidir. Ayədə "əmam" sözü olmadığı halda ayəni "əmam" sözü ilə oxumaq, Quranı təhrif etmək sayılır. Tərc.

[448] Onu da qeyd edək ki, mərhum Z.Bünyadov və akademik V.Məmmədəliyev cənablarının etdikləri tərcümədə də eyni səhv özünü büruzə verir. Belə ki, Qurani-Kərimdə "saz" ifadəsi olmadığı halda, tərcüməçilər cümləyə "saz" sözünü artırmış və sözü mötərizə içinə almamışlar. Tərc.

[449] "Səhihül-Buxari": 4/1902, hədis: 4687.

[450] "Səhihü-Müslim": 1/193, hədis: 208.

[451] "Səhihü-İbn Hibban": 14/487, hədis: 6550.

[452] "əs-Sünənül-kübra": 9/7, hədis: 17503.

[453] "Təfsirüt-Təbəri": 19/121.

[454] Şüəra surəsi, 214.

[455] "əl-Müstədrək ələs-səhiheyn": 4/446, hədis: 8222; "əl-Mücəmül-kəbir" (Təbərani): 11/451, hədis: 12281; "Təfsirüt-Təbəri": 22/74.

Halbuki, mübarək ayə Qurani-Kərimdə bu şəkildədir: "**(Süleyman) yerə yıxıldıqda cinlərə bəlli oldu ki, əgər qeybi bilsəydilər, alçaldıcı əzaba məruz qalmazdılar**".

Halbuki, bu səhih hədisə əsasən, İbn Abbas ayənin sözlərini və mənasını tamamilə təhrif edərək ayəni "*insanlara bəlli oldu ki*" və "*bir il*" kimi sözlərlə oxumuşdur!

Bu üç hədisin hər üçün Səid ibn Cübeyrdən nəql olunmuşdur. Zəhəbi "Siyərü-əlamin-nübəla" kitabında Səidin Əmirəlmöminin Əli ibn Əbu Talibin (əleyhissəlam) xilafəti dövründə dünyaya gəldiyini demişdir[456]. İmam Əli (əleyhissəlam) hicri 35-ci ildə xilafətə gəlmişdir. Əgər Səid ibn Cübeyrin bu ildə, yəni 35-ci ildə dünyaya gəldiyini və bu sözləri İbn Abbasdan 7 yaşında olarkən eşitdiyini fərz etsək, onda belə nəticə çıxacaq ki, Səid ibn Cübeyr bu sözləri hicri 42-ci ildə eşidib. Bu isə o deməkdir ki, İbn Abbas Peyğəmbərin (sallallahu əleyhi və alihi və səlləm) vəfatından 30 il, Osmanın camaatı bir Quran üzərində cəm etməsindən isə 12 il sonraya qədər Quranı bu şəkildə oxuyubmuş!

Həmçinin, Hakim "əl-Müstədrək ələs-səhiheyn" kitabında Ətadan belə nəql edir:

"İbn Abbas "**Peyğəmbər möminlərə onların özlərindən daha yaxındır. Onun zövcələri isə möminlərin analarıdır**" ayəsini[457] belə oxuyurdu: "**Peyğəmbər möminlərə onların özlərindən daha yaxındır. O, möminlərin atası, onun zövcələri isə möminlərin analarıdır**"."

Hədisi nəql etdikdən sonra Hakim deyir: "**Bu, səhih sənədli hədisdir, lakin Buxari və Müslim bunu nəql etməmişlər**".[458]

Hakimin səhih hesab etdiyi bu hədis İbn Abbasın Qurandan olmayan bir cümləni Qurana əlavə etdiyini deyir. Çünki, Qurani-Kərimdə "*o, onların atasıdır*" cümləsi yoxdur!

Əbdür-Rəzzaq əs-Sənani "əl-Müsənnəf" kitabında səhih sənədlə İbn Cüreyhdən nəql edir ki, Əta İbn Abbasın Nisa surəsinin 24-cü ayəsini belə oxumasını eşitdiyini deyib: "**– Müəyyən müddətə qədər – faydalandığınız qadınların mehrlərini lazımi qaydada verin!**".[459]

Nəql edilən başqa səhih bir rəvayətdə isə deyilir ki, İbn Abbas "*müəyyən müddətə qədər*" ifadəsinin ayənin tərkib hissəsi olmasına and içirmiş. Təbərinin təfsir kitabında deyilir:

Bizə İbn əl-Müsənna nəlq edib dedi: bizə Muhəmməd ibn Cəfər nəql edib dedi: bizə Şubə Əbu Sələmədən, o da Əbu Nəzrədən nəql edib dedi:

---

[456] "Siyərü-əlamin-nübəla": 5/301.
[457] Əhzab surəsi, 6-cı ayə.
[458] "əl-Müstədrək": 2/450, hədis: 3556, "Sünənül-Beyhəqi": 7/69, hədis: 13198.
[459] "Müsənnəfü-Əbdir-Rəzzaq": 7/397, hədis: 14099.

““**Faydalandığınız qadınların mehrlərini...**” ayəsini İbn Abbas üçün oxudum. İbn Abbas dedi: ““**Müəyyən müddətə qədər**””. Mən dedim: “Mən ayəni belə oxumuram.” İbn Abbas üç dəfə belə dedi: “Allaha and olsun, Allah bu ayəni bu şəkildə nazil edib”.”[460]

Bu səhih hədis İbn Abbasın “*müəyyən müddətə qədər*” ifadəsinin Quranın bir hissəsi olduğuna and içdiyini deyir, halbuki, Qurani-Kərimdə belə bir ifadə yoxdur.

Həmçinin, sünnilərin səhih hədisləri İbn Abbasın “**Səndən öncə elə bir elçi və peyğəmbər göndərmədik ki...**” ayəsinə, “**mühəddəs şəxs**”[461] sözünü də əlavə etdiyini demişdir. Süyuti “əd-Dürrül-mənsur” kitabında deyir:

“Əbd ibn Hümeyd və İbn əl-Ənbari (“əl-Məsahif” kitabında) Əmr ibn Dinardan belə nəql etmişlər:

İbn Abbas ayəni belə oxudu: “**Səndən öncə elə bir elçi, peyğəmbər və mühəddəs göndərmədik ki...**”.”[462]

İbn Həcər “Fəthül-Bari” kitabında deyir:

““**Səndən öncə elə bir elçi və peyğəmbər göndərmədik ki...**” ayəsi: İbn Abbas bu ayəyə “**mühəddəs**” sözünü də artırarmış. Bunu Süfyan ibn Üyeynə “Cami” kitabının axırlarında nəql etmişdir. Əbd ibn Hümeyd də bu hədisi öz təriqi ilə nəql etmişdir. Əbdin nəql etdiyi xəbərin sənədi səhihdir. Xəbər Əmr ibn Dinardan nəql edilmişdir. Xəbərdə deyilir ki, İbn Abbas ayəni “**Səndən öncə elə bir elçi, peyğəmbər və mühəddəs göndərmədik ki...**” şəklində oxuyub”[463].

İbn Həcər əl-Əsqəlaninin “Təğliqüt-təliq” kitabında deyilir:

“Əbd ibn Hümeyd öz “Təfsir” kitabında demişdir:

Bizə Əbu Nüeym nəql edib dedi: bizə İbn Nümeylə Əmr ibn Dinardan nəql edib dedi:

İbn Abbas ayəni belə oxuyurdu: “**Səndən öncə elə bir elçi, peyğəmbər və mühəddəs göndərmədik ki...**”.

Bu xəbərin sənədi səhihdir. Süfyan ibn Üyeynə də bu xəbəri öz “Cami” kitabının sonlarında bu cür nəql etmişdir”[464].

Məlumdur ki, “*mühəddəs*” sözü Quranda yoxdur. Lakin, bu səhih hədisə əsasən, İbn Abbas ayəni bu əlavə ilə oxuyurmuş.

Maraqlıdır ki, əhli-sünnə bu sözün Quranda olmadığını və siqə hesab etdikləri şəxslərin nəql etdiyi bu səhih hədisin bir səhabəyə Quranda olmayan bir şeyi Quran kimi oxumağı nisbət verdiyini gördükdə, bu hədisi rədd edib bir kənara

---

460 “Təfsirüt-Təbəri”: 5/12, “əl-Müstədrək ələs-səhiheyn”: 2/334, hədis: 3192. Hakim bu hədis üçün deyib: “**Bu, Müslimin şərtinə əsasən səhih hədisdir, lakin Buxari və Müslim bu hədisi nəql etməmişlər**”. Zəhəbi də onun sözü ilə razılaşaraq demişdir: “**Müslimin şərtinə əsasəndir**”.

461 Mühəddəs mələklərin danışdığı şəxs deməkdir. Tərc.

462 “əd-Dürrül-mənsur”: 6/65.

463 “Fəthül-Bari”: 7/51.

464 “Təğliqüt-təliq”: 4/65, həmçinin, bax: “Təfsirü-Əbil-Leys əs-Səmərqəndi”: 2/466, “Təfsirül-Qurtubi”: 12/79-80.

qoymaq əvəzinə, heç bir dəlil olmadan "*mühəddəs*" sözünün vaxtikən Qurandan olub sonradan nəsx olunduğunu[465] iddia etmişdir! Lakin, biz, Allah-taalanın xəbər verdiyi sabit bir həqiqətdən söz açdığı halda, bu sözün Qurandan silinməsinin nə kimi hikməti olduğundan hələ də baş aça bilmirik!

Üstəlik, İbn Abbasın ayəni bu cür oxuduğunu nəql edən şəxs Əmr ibn Dinardır. Zəhəbi "Siyərü-əlamin-nübəla" kitabında onun 46-cı hicri ilində dünyaya gəldiyini qeyd etmişdir. Əmr ibn Dinarın bu hədisi İbn Abbasdan 7 yaşı olarkən eşitdiyini fərz etsək, onda belə çıxacaq ki, o bu sözü 53-cü hicri ilində, yəni, Peyğəmbəri-Əkrəmin (sallallahu əleyhi və alihi və səlləm) vəfatından düz 40 il sonra eşidib! Görəsən, İbn Abbasın bu nəsxdən xəbəri olmadığı halda yüz illər sonra sünni alimlərinin necə xəbəri olub?

Həmçinin, sünnilər Abdullah ibn Məsudun "fələq" və "nas" surələrini Qurandan hesab etmədiyini və bu surələri öz müshəfindən sildiyini nəql etmişlər. Süyuti deyir:

"Əhməd, Bəzzar, Təbərani və İbn Mərdəveyh səhih sənədlərlə İbn Abbas və İbn Məsuddan belə nəql etmişlər ki, İbn Məsud "fələq" və "nas" surələrini öz müshəfindən silir, "Qurandan olmayan şeyi Qurana qarışdırmayın, bu iki surə Qurandan deyillər. Bunları Peyğəmbər (sallallahu əleyhi [və alihi] və səlləm) məhz Allaha pənah aparmaq üçün oxumağı əmr etmişdir[466]", - deyirmiş. İbn Məsud bu iki surəni (Quran kimi) oxumurmuş"[467].

Heysəmi "Məcməüz-zəvaid" kitabında deyir:

"Əbdür-Rəhman ibn Yezid ən-Nəxəidən belə nəql olunur:

Abdullah "fələq" və "nas" surələrini öz müshəfindən silir və bu iki surənin Qurandan olmadığını deyirdi".

Bunun ardınca Heysəmi deyir:

"Bunu Abdullah ibn Əhməd və Təbərani nəql etmişdir. Abdullahın nəql etdiyi xəbərin raviləri "səhih"in[468] raviləridir. Təbəraninin raviləri də siqədirlər"[469].

Həmçnin, Heysəmi deyir:

"Abdullahın özündən "fələq" və "nas" surələrini öz müshəfindən sildiyi və "Bunları Peyğəmbər (sallallahu əleyhi [və alihi] və səlləm) məhz Allaha pənah aparmaq üçün oxumağı əmr etmişdir", - dediyi nəql olunmuşdur. O, bu iki surəni (Quran kimi) oxumazmış". Bunun ardınca Heysəmi deyir: "Bunu Bəzzar və Təbərani nəql etmişlər, hər ikisinin raviləri siqədir"[470].

---

[465] Nəsx olunmaq: ləğv olunmaq, qüvvədən salınmaq. Tərc.

[466] Yəni, Allaha sığınmaq və hər hansısa bir şeydən Allaha pənah aparmaq istəndiyi zaman bunları oxumağı göstəriş vermişdir. Başqa sözlə, bu iki surə surə deyil, duadır. Tərc.

[467] "əd-Dürrül-mənsur": 8/683.

[468] Yəni, "Səhihül-Buxari" və "Səhihü-Müslim"in hər ikisinin və ya birinin raviləri. Tərc.

[469] "Məcməüz-zəvaid": 7/149.

[470] "Məcməüz-zəvaid": 7/149.

Süyuti deyir:

“İbn Həcər “Şərhül-Buxari” kitabında demişdir:

“İbn Məsudun bu iki surəni Qurandan hesab etməməsi səhih şəkildə nəql olunmuşdur. Əhməd və İbn Hibban ondan belə nəql etmişlər ki, o, “fələq” və “nas” surələrini öz müshəfinə yazmırmış”.”[471]

Biz Abdullah ibn Məsudun “fələq” və “nas” surələrinin Qurandan olmasını bilməməsini olduqca uzaq bir fikir hesab edirik. Biz, bu cür xəbərlərin onun adından uydurulduğu fikrini dəstəkləyirik. Bir qrup əhli-sünnə alimi İbn Məsuda nisbət verilən bu xəbərlərin batil olduğunu demiş, ona bu işi nisbət verən bu səhih hədislərə heç bir önəm verməyərək onları bir kənara atmışlar. Nəvəvi demişdir:

“Müsəlmanlar “fələq”, “nas” və “fatihə” surələrinin Qurandan olması və onları inkar edənin kafir sayılması üzərində icma etmişlər. İbn Məsuddan nəql edilən xəbər isə batildir, səhih deyil”[472].

Fəxr ər-Razi demişdir:

“Qədim kitablarda İbn Məsudun “fatihə”nin Qurandan olmasını, həmçinin, “fələq” və “nas” surələrinin Qurandan olmasını inkar etdiyi nəql olunmuşdur. Bil ki, bu çox çətin (qəbul ediləsi bir fikir)dir. Çünki əgər biz səhabələrin dövründə “fatihə”nin Qurandan olması barəsində mütəvatirliyin hasil olduğunu qəbul etsək, onda belə çıxacaq ki, İbn Məsudun da bundan xəbəri olmuşdur; belə olunca onun bu surələri inkar etməsi küfr və ya ağıldankəmliyə dəlalət edəcək. Yox əgər səhabələrin dövründə bu mütəvatirliyin hasil olmadığını desək, onda da bu, Quranın səhabə dövründə mütəvatir olmaması mənasına gələcək. Bu isə Quranı qəti höccət olmaqdan çıxaracaq. Odur ki, ən güclü ehtimala əsasən, İbn Məsuddan nəql edilən bu xəbər batil xəbərdir. Bununla, bu müşküldən xilas olmaq olar”[473].

İbn Həzm demişdir:

“Bu, İbn Məsudun adından deyilmiş yalan və uydurmadır. İbn Məsudun həqiqi nəzəri məhz Asimin Zirrdən, Zirrin də İbn Məsuddan nəql etdiyi qiraət(də gəlmiş)dir. Bu qiraətdə “fələq” və “nas” surələri də vardır”[474].

Deməli, bu rəvayətləri düzüb qoşanlar məhz əhli-sünnənin güvənilir hesab etdiyi ravilərdir. Onlar demədiyi və etmədiyi bir şeyi ona nisbət verməklə böyük bir səhabəyə iftira yaxmış, ən böyük qari səhabələrdən birinə iki surənin Qurandan olmadığı fikrini nisbət verməklə Qurani-Kərimə tənə vurmağa çalışmışlar. Bununla əsl həqiqətdə böyük səhabələrə tənə vuran və Qurani-Kərimə tənə vurmağa çalışanların kimlər olduqları aydın olur!

Həmçinin, Heysəminin “Məcməüz-zəvaid” kitabında belə deyilir:

---

471 “əl-İtqan fi ulumil-Quran”: 1/213.
472 “Fəthül-Bari”: 8/743.
473 “Təfsirür-Razi”: 1/178.
474 “əl-İtqan fi ulumil-Quran” (Süyuti): 1/213, “əl-Bürhan fi ulumil-Quran” (Zərkəşi): 2/128.

“Ömər ibn əl-Xəttabın azad etdiyi qul olan Əmr ibn Rafedən belə nəql olunur ki, o, Peyğəmbərin (sallallahu əleyhi [və alihi] və səlləm) xanımlarının zamanında müshəf yazarmış. Əmr deyir ki, “bir dəfə Həfsə məndən bir müshəf yazmamı istəyib dedi:

– Bəqərə surəsinin filan ayəsinə çatanda, ayəni yazma. Mənim yanıma gəl, mən ayəni Allah Rəsulundan (sallallahu əleyhi [və alihi] və səlləm) yadda saxladığım şəkildə sənə diktə edim, elə yaz.

Əmr deyir: Mən o ayəyə çatdıqda bir vərəq götürüb Həfsənin yanına getdim ki, ayəni (onun dediyi kimi) yazım. Həfsə dedi:

– Belə yaz: “**Namazlara və orta namaza – əsr namazına – riayət edin və Allaha itaət üçün ayağa qalxın (namaz qılın)**”.”[475]

Həmçnin, Müslim öz “Səhih” kitabında öz sənədi ilə Aişənin azad etdiyi qul olan Əbu Yunisdən belə nəql edir:

“Aişə mənə onun üçün bir müshəf yazmamı əmr edib dedi: “**Namazlara və orta namaza riayət edin**”[476] ayəsinə çatdıqda mənə xəbər ver. Mən bu ayəyə çatdıqda ona xəbər verdim. Aişə ayəni mənə belə diktə etdi: “**Namazlara və orta namaza – əsr namazına – riayət edin və Allaha itaət üçün ayağa qalxın (namaz qılın)**”. Sonra dedi: “Ayəni bu şəkildə Allah Rəsulundan (sallallahu əleyhi [və alihi] və səlləm) eşitmişəm”.”[477]

Məlum məsələdir ki, Qurani-Kərimdə “*əsr namazına*” sözü yoxdur. Halbuki, əhli-sünnə nəzərində səhih olan bu hədislər iki Peyğəmbər (sallallahu əleyhi və alihi və səlləm) xanımının – Aişə və Həfsənin – bu cümlənin Qurandan olduğunu iddia etdiklərini deyir.

Buna əsasən, ya bu əlavə həqiqətən də Qurandandır, ya da Qurandan deyil. Əgər Qurandan deyilsə, – ki, heç şübhəsiz belədir –, onda əhli-sünnə yanında güvənilir olan şəxslərin nəql etdiyi bu səhih sünni rəvayətləri Aişə və Həfsəni Qurani-Kərimdə olmayan bir şeyi Qurana əlavə etməklə ittiham etmiş olur. Bu, Aişə və Həfsəyə tənə və təhqirdir. Bununla aydın olur ki, Peyğəmbər (sallallahu əleyhi və alihi və səlləm) xanımlarını təhqir edən məhz əhli-sünnə rəvayətləridir. Bir başqa tərəfdən yanaşsaq, əgər Aişə və Həfsə bu sözlərdən uzaqdırlarsa, deməli bu sözlər əhli-sünnə yanında güvənilir olan şəxslər tərəfindən onların adına uydurulub qondarılmışdır. Bununla aydın olur ki, Peyğəmbər (sallallahu əleyhi və

---

[475] “Məcməüz-zəvaid”: 6/320 və 7/154. Heysəmi rəvayət üçün deyir: “Bunu Əbu Yəla nəql etmişdir, raviləri siqədir”. “Müsnədü-Əbi Yəla”: 13/50, hədis: 7129, “Səhihü-İbn Hibban”: 13/228, hədis: 6323.

[476] Bəqərə surəsi, 238-ci ayə.

[477] “Səhihü-Müslim”: 2/112, “Müvəttə” (Malik ibn Ənəs): 1/138, “Müsnədü-Əhməd ibn Hənbəl”: 40/55, hədis: 24448, kitabın mühəqqiqləri deyirlər: “**İsnadı Müslimin şərtinə əsasən səhihdir**”, həmçinin: 42/281, hədis: 25450, mühəqqiqlər deyirlər: “**İsnadı Buxari və Müslimin şərtinə əsasən səhihdir**”.

alihi və səlləm) xanımlarını ittiham edib onlara və Qurana tənə vuranlar məhz güvənilir əhli-sünnə raviləridir[478].

Yox əgər bu əlavə Qurandandırsa, – ki, heç şübhəsiz belə deyildir –, onda da bu o mənaya gələcək ki, bu “ayə” Osmanın camaatı bir müshəfə cəm etdiyi vaxtda Qurandan çıxarılmışdır. Bu, səhabə Osman ibn Əffanı Quranı azaltmaqda və onu kamil şəkildə yazmamaqda ittiham etməkdir. Belə olunca da, Quranda azaldılmanın baş verdiyini bildirən və səhabələri Quranı təhrif etməkdə ittiham edən yenə əhli-sünnə rəvayətləri olur.

Həmçinin, bu şəxslər İmam Əmirəlmömininə (əleyhissəlam) də yalan yaxaraq onun Quranı indikindən fərqli şəkildə oxuduğunu nəql etmişlər. Belə ki, Hakim “əl-Müstədrək” kitabında, başqaları da öz kitablarında nəql etmişlər ki, Əli ibn Əbu Talib (əleyhissəlam) Əsr surəsinin 1-ci ayəsini belə oxuyurmuş:

“**And olsun əsrə! And olsun zəmanənin bəla və müsibətlərinə. Həqiqətən də insan bir zərər içrədir**”[479].

Halbuki, nə əsr surəsində, nə də Qurani-Kərimdə “*and olsun zəmanənin bəla və müsibətlərinə*” – deyə bir ayə yoxdur.

Əhli-sünnə yanında səhih olan bu hədis bütün səhabələrin ən üstünü olan İmam Əliyə (əleyhissəlam) ləkə yaxaraq onu Allahın kəlamını təhrif etməkdə ittiham edir.

Həmçinin, onlar Aişəyə belə dediyini nisbət vermişlər:

“Allahın nazil etdiyi ayələr arasında belə bir ayə var idi: “**(Sayı) bəlli olan 10 südvermə məhrəmlik yaradır**”. Sonra bu ayə “**5 südvermə**” ayəsi ilə nəsx oldu. Allah Rəsulu (sallallahu əleyhi [və alihi] və səlləm) vəfat etdiyi vaxt bu ayə Quranda oxunurdu”[480].

Halbuki, Qurani-Kərimdə “*beş südvermə*” – deyə bir ayədən əsər-əlamət yoxdur. Maraqlıdır, görəsən, Aişənin sözünə əsasən (rəvayət belə deyir), Peyğəmbəri-Əkrəm (sallallahu əleyhi və alihi və səlləm) vəfat edərkən Quranda mövcud olan o “*beş südvermə*” ayəsini sonrada Qurandan kim çıxarıb?!

Həmçinin, Ömər ibn əl-Xəttabın belə dediyini nəql etmişlər:

“Allah-taala Muhəmmədi (sallallahu əleyhi [və alihi] və səlləm) peyğəmbər göndərib ona kitab nazil etdi. Allahın nazil etdiyi ayələr içərisində daş-qalaq ayəsi də var idi. Biz o ayəni oxumuş, başa düşmüş və dərk etmişdik. Qorxuram, elə bir

---

[478] Bir başqa tərəfdən də yanaşsaq, əgər həqiqətən də Aişə və Həfsə bu sözləri deyiblərsə, onda demək “Quranın təhrif olunmasına etiqad edən şəxs kafirdir”qaydası Aişə və Həfsəyə də tətbiq etməlidir. Çünki, onlar Quranda olmayan bir sözün Qurandan olmasını iddia etmişlər. Tərc.

[479] “əl-Müstədrək ələs-səhiheyn”: 2/582, hədis: 3971, Hakim bu hədis üçün belə deyir: “**Bu, səhih sənədli hədisdir, lakin Buxari və Müslim onu nəql etməmişlər**”, Zəhəbi də onunla razılaşaraq “**səhihdir**”, - demişdir.

[480] “Səhihü-Müslim”: 2/1075, hədis: 1452, “əl-Müsnədül-müstəxrəc ələ səhihi-Müslim”: 4/125, hədis: 3398, “Səhihü-İbn Hibban”: 10/36, hədis: 4222, “əs-Sünənül-kübra” (Nəsai): 3/298, hədis: 5448, “Sünənül-Beyhəqi”: 7/453, hədis: 15397, “Müsnədü-Əbi Əvanə”: 3/119, “Müsnədüş-Şafei”: 1/220, “Sünənüd-Darəmi”: 2/209, hədis: 2253.

zaman gələ ki, camaat "vallah, Quranda daş-qalaq ayəsini görmürük", - deyə və Allahın nazil etdiyi vacib bir əməli tərk etməklə azğınlığa düşə. Daş-qalaq hökmü Allah-talanın kitabında gəlmişdir. Bu hökmə əsasən, evli kişi və ya qadın zina etsə və buna dəlalət edən dəlil (şahidlər) olsa, yaxud qadın hamilə qalsa və yaxud da (zinakarlar tərəfindən) etiraf mövcud olsa, onda daş-qalaq etmək vacibdir"[481].

Bu səhih rəvayət göstərir ki, Ömər ibn əl-Xəttab Quranda daş-qalaq ayəsinin olduğunu iddia edirmiş. Hətta, nəql etmişlər ki, Əbu Bəkrin zamanında Quranı ilk dəfə toplamaq istədikləri vaxt, Ömər daş-qalaq ayəsini də özü ilə gətiribmiş. Bu zaman Zeyd ibn Sabit ondan bu "ayə"nin Qurandan olmasına şahid duracaq başqa bir adam da gətirməsini tələb edib, lakin o, gətirə bilməyib. Həmçinin, nəql etmişlər ki, Ömər sonadək Quranda belə bir ayənin olmasına israr edirmiş. Belə ki, onun belə dediyini nəql etmişlər:

"Əgər camaat "Ömər Allahın kitabına artırma etdi", - deməsəydi, daş-qalaq ayəsini öz əlimlə yazardım"![482]

Bu isə o deməkdir ki, Ömər Allahın kitabının naqis olduğunu və onun müəyyən bir ayəsinin ona yazılmadığını düşünürmüş; əgər camaatdan qorxmasaymış, onu Qurana əlavə edəcəkmiş!

Əhli-sünnə rəvayətlərində Quranın təhrifinə inandığı bildirilən səhabələrdən biri də Əbud-Dərdadır. Buxari öz "Səhih" kitabında öz sənədi ilə İbrahimdən belə nəql etmişdir:

"Abdullahın [Abdullah ibn Məsudun] yoldaşları Əbud-Dərdanın sorağına gəldilər. Əbud-Dərda onları axtarıb tapdı və dedi: "Sizin hansınız Abdullahın qiraəti üzərə oxuyur?" Dedilər: "Hamımız". Dedi: "Bəs hansınız yaddaşı daha güclüdür?" Onlar Əlqəməni göstərdilər. Əbud-Dərda dedi: "Sən (Abdullahın) "vəlleyli izə yəğşə"[483] ayəsi( ilə başlayan surədəki 3-cü ayə)ni necə oxuduğunu eşitmisən?" Dedi: (Bəli, belə oxuyur: ) "Vəz-zəkəri vəl-unsə". Əbud-Dərda dedi: "Şəhadət verirəm ki, mən də Allah Rəsulunun (sallallahu əleyhi [və alihi] və səlləm) belə oxuduğunu eşitmişəm. Amma bunlar məndən istəyirlər ki, mən ayəni "və mə xaləqaz-zəkərə vəl-unsə" şəklində oxuyum. Lakin, Allaha and olsun ki, mən onlara tabe olmayacağam!"[484]

Görün Əbud-Dərdaya nə nisbət verirlər! Onların bu səhih rəvayətinə əsasən, Əbud-Dərda Leyl surəsinin 3-cü ayəsinin Qurandakı mövcud şəklini qətiyyətlə inkar etmiş, Quranın bu ayəsini təhrif edib onu Allahın nazil etdiyindən fərqli şəkildə oxumuş və ardınca da Peyğəmbərin (sallallahu əleyhi və alihi və səlləm) də ayəni bu cür təhrif olunmuş şəkildə oxuduğunu iddia etmişdir...

---

[481] "Müsnədü-Əhməd": 1/40, hədis: 276, kitabın mühəqqiqi Şeyx Şüeyb əl-Arnaut deyir: "**İsnadı Buxari və Müslimin şərtinə əsasən səhihdir**".
[482] "Səhihül-Buxari": 6/2622.
[483] Leyl surəsi, 1-ci ayə.
[484] "Səhihül-Buxari": 4/1889, hədis: 4660.

Əgər biz bəzi səhabələrin Quranı indikindən fərqli şəkildə oxumaları və Quranda olmayan bir sıra cümlələrin Quran ayəsi olduğunu iddia etmələri ilə bağlı əhli-sünnənin güvənilir raviləri tərəfindən nəql edilən və onların alimləri tərəfindən səhih, sünən, müsnəd, təfsir və s. kimi kitablarında qeyd edilən rəvayətləri tək-tək qeyd etmək istəsək, söz çox uzanar. Bu səbəbdən də bu qədərlə kifayətlənirik və bu dediklərimiz kifayət edər.

Mövzunun nəticəsi: Əhli-sünnə kitablarından nəql etdiyimiz bütün bu səhih rəvayətlərdən aydın olur ki, Qurani-Kərimi və səhabələri təhqir edən məhz əhli-sünnənin güvənilir hesab etdiyi şəxslərin nəql etdiyi bu rəvayətlərdir. Çünki bu rəvayətlər bəzi səhabələrə Quran ayələrini təhrif etdiklərini, bəzilərinə də Quranda olmayan ayələrin varlığını iddia etdiklərini nisbət verir.

## Osman əl-Xəmisin Şeyx Müfidə və Molla Muhsin əl-Kaşaniyə iftira atması

Osman əl-Xəmis qeyd edir ki, Qurani-Kərimin təhrif olunduğuna inanan şəxslərdən biri də Şeyx Müfid və Molla Muhsin əl-Kaşanidir[485]. Bu, Osman əl-Xəmisin şiə alimlərinə atdığı növbəti iftira, növbəti böhtanı və növbəti yalanıdır. Həqiqət budur ki, bu iki alimin hər ikisi Qurani-Kərimin təhrif məruz qalmadığını bildirmişlər. Şeyx Müfid deyir ki:

"İmamət əhlindən bir dəstə Qurandan heç bir sözün, heç bir ayənin və heç bir surənin əskilmədiyini, lakin Əmirəlmöminin (əleyhissəlam)-ın müshəfindəki – Quranın yozumu və təfsiri ilə bağlı olan – məlumatların (hal-hazırkı müshəfdən) silindiyini demişdir. Həmin məlumatlar Allahın "ecazkar Quran"dan ibarət olan kəlamından olmasa da Allah tərəfindən nazil edilmişdi.

Mənim nəzərimdə bu fikir, Qurandan həqiqi şəkildə müəyyən sözlərin əskildiyini iddia edən şəxslərin sözlərindən daha doğrudur. Mən bu nəzəri qəbul edirəm və Allahdan doğru olana müvəffəq etməsini diləyirəm"[486].

Şeyxin bu sözü açıq-aşkar şəkildə onun Quranın təhrif olunmadığına və ondan heç bir surə, ayə və sözün əskilmədiyinə etiqad etdiyinə dəlalət edir.

Molla Muhsin əl-Kaşaniyə gəlincə isə, o da Quranda təhrifin baş verdiyini çatdıran bir sıra rəvayətlər qeyd etdikdən sonra onlara cavab verərək demişdir:

Bütün bu hədislərə belə bir irad tutulur: əgər məsələ bu hədislərdə deyildiyi kimidirsə (Quranda həqiqətən də təhrif baş veribsə), onda biz Quranın heç bir ayəsinə etimad edə bilmərik; çünki, Quranın hər bir ayəsinin dəyişdirilib təhrif edilmiş ola bilməsi ehtimalı vardır. Belə olunca isə, Quranın və Qurana tabe olmaqla bağlı verilən əmr və tapşırıqların heç bir faydası qalmır.

---

[485] O bunu "Qəlbdən qəlbə" kitabının haşiyəsində (səh.14) deyir.

[486] "Əvailül-məqalat": səh.55.

Üstəlik, Allah-taala buyurur ki, “**Həqiqətən, bu, əzəmətli bir Kitabdır. Nə önündən, nə də arxasından batil ona girişə bilməz. O, Müdrik, Tərifəlayiq (Allah) tərəfindən nazil edilmişdir**”. Elə isə, necə ola bilər ki, Quranda təhrif, azalma və dəyişilmə baş versin?!

Həmçinin, Allah-taala buyurur ki: “**Şübhəsiz ki, Quranı Biz nazil etdik və sözsüz ki, Biz də onu qoruyacağıq**”. Həmçinin, Peyğəmbər (sallallahu əleyhi və alihi və səlləm) və imamlardan (əleyhimussəlam) müstəfiz[487] həddə nəql olunub ki, onlardan nəql olunan hədisləri Quranla tutuşduraq, əgər hədislər Qurana uyğun olsa, onu qəbul edək, yox olmasa, rədd edək. Əgər əlimizdəki Quran təhrif edilmişdirsə, onda bu tutuşdurma əmrinin verilməsinin nə mənası var?!

Üstəlik, təhriflə bağlı gəlib çatan bu xəbərlər Qurana ziddir və Quran tərəfindən təkzib edilir. Buna görə də, onları rədd edib batilliyinə hökm vermək və ya yozmaq lazımdır.

Allah daha yaxşı bilər, amma ağıla gələn budur ki, imamların (əleyhimussəlam) təhrif, dəyişdirilmə və silinmədən məqsədi, sözün özünün deyil, mənanın təhrif edilməsi, dəyişdirilməsi və silinməsidir. Yəni, bəziləri Quranın təfsir və yozumunu dəyişdirib təhrif etdilər, onu öz həqiqi mənasına deyil, başqa bir mənaya yozdular. İmamların dedikləri “ayə filan cür nazil olub” – sözündən məqsəd də, ayənin həqiqi mənasının camaatın başa düşdüyü məna deyil, öz qeyd etdikləri məna olmasıdır. Bu sözdən məqsəd, ayənin sözdə filan cür nazil olduğu, lakin sonradan haqqın ört-basdır edilməsi məqsədilə silinib dəyişdirildiyi deyildir.

Bu dediyimizə dəlalət edən şeylərdən biri, “əl-Kafi” kitabında Əbu Cəfər (əleyhissəlam)-dan nəql edilən bir hədisdir. Hədisdə Əbu Cəfərin (əleyhissəlam) Sədül-xeyrə belə bir məktub yazdığı qeyd olunur:

“Onlar Quranı bir kənara atdılar: belə ki, onun hərflərini qoruyub saxladılar, amma hökmlərini təhrif etdilər (öz istədikləri kimi yozdular). Onlar Quranı dildə (olduğu kimi) nəql etdilər, lakin (əməldə) ona riayət etmədilər. Onların Quranın zahirini əzbər bilmələri cahilləri xoşhal edir, onların Qurana riaət etməmələri isə alimləri kədərləndirirdi...”.”[488]

Şeyxin təhrif mənası verən hədislərə bağlı bildirdiyi bu fikirlər onun Quranın təhrif olunmamasına inandığına aşkar şəkildə dəlalət edir.

---

[487] “Xəbəri-vahid” pilləsindən yuxarı, “mütəvatir” piləsindən aşağı pillə. Tərc.

[488] “İlmul-yəqin fi-usulid-din”: 1/565.

## Osman əl-Xəmisin “Faslul-xitab” kitabı üzərindən şiələrə tənə vurmağa çalışmasına cavab

Osman əl-Xəmis Şeyx Nuri ət-Təbərsini Quranın təhrifinə etiqad edən şiə alimlərindən biri kimi təqdim edərək onun “Faslul-xitab” kitabına toxunmuş və Şeyx Nurinin bu kitabı Quranda təhrifin baş verdiyini sübut etmək məqsədiylə yazdığını bildirmişdir. Osman əl-Xəmis bütün bunları şiələrə tənə vurmaqdan ötrü etmişdir. Həqiqət isə budur ki, Şeyx Nurinin (Allah ona rəhmət etsin) bu kitabı yazmaqdan məqsədi əlimizdəki Quranın dəyişdirilmə və artırılma ilə təhrifə məruz qaldığını demək olmamışdır, əksinə, onun məqsədi bəzi söz və ya ayələrin hal-hazırkı Qurandan çıxarıldığını demək olmuşdur. Şeyx Nurinin tələbəsi Ağa Bozorq Tehrani “Faslul-xitab” kitabı barədə danışarkən deyir:

“...Şeyx Nuri bu kitabda Quranın – ondan başqa digər səmavi kitabların məruz qaldığı – artırılma, dəyişdirilmə[489] və s. bu kimi digər şeylərlə təhrifə məruz qalmadığını bildirmişdir. Belə bir şeyin hətta bircə sözdə belə baş vermədiyini, bizim Quranda belə bir söz tanımadığımızı demişdir. Lakin, o, şəriət hökmləri ilə bağlı olan ayələr istisna olmaqla, digər növ ayələrdə azaldılmanın baş verdiyini demişdir. Sonra əlavə edərək bildirmişdir ki, bu növ ayələrdə azaldılmanın baş verdiyini bilsək də, konkret olaraq hansı ayənin azaldıldığını (çıxarıldığını) bilmirik, bizim hədislərdən icmali şəkildə bildiyimiz tək şey, Quranda azaldılmanın olmasıdır. O bu kitabı yazdıqdan sonra Müərrib adı ilə məşhur olan Şeyx Mahmud Tehrani “Kəşfül-irtiyab an təhrifil-kitab” (“Quranın təhrifi ilə bağlı ortaya atılan şübhənin aradan qaldırılması”) adlı bir traktatla ona cavab yazdı. Bu traktat Şeyx Nuriyə çatdıqda, o, “Kəşfül-irtiyab” traktatındakı şübhələrə cavab olaraq fars dilində başqa bir traktat yazdı... Bu hadisə “Faslul-xitab” kitabının çapından və nəşrindən sonra baş vermişdi. Şeyximiz deyirdi ki: “Kiminsə “Faslul-xitab”ı oxuyub, lakin o traktata nəzər salmamasına razı deyiləm”.

Şeyx cavab olaraq yazdığı traktatın əvvəlində deyirdi:

“Etiraz “təhrif” sözünün yanlış anlaşılması üzərində qurulmuşdur. Mənim “təhrif”dən məqsədim dəyişdirilmə deyildir. Mənim təhrifdən məqsədim Allahın nazil etdiyi ayələrin bir qisminin qurandan çıxarılmasıdır. Həmçinin, mənim “kitab”dan məqsədim hal-hazırda iki qapaq arasında olan Quran deyildir. Belə ki, bu Quran Osmanın zamanında iki qapaq arasına yığıldığı zamandan bəri necə varsa, elə də qalıb; onda nə artırılma baş verib, nə də azaldılma. Mənim “kitab”dan məqsədim Allahın nazil etdiyi kitabdır”.

---

[489] Dəyişdirilmə dedikdə hər hansısa bir ayənin məzmunun dəyişdirilib təhrif edilməsi nəzərdə tutulur. Məsələn, Allah-taala bir ayədə “filan hadisə zamanı 4 şahid gətirilməlidir”, - dediyi halda, ayəni dəyişdirib, “filan hadisədə 2 şahid gətirilməlidir” – etmək. Tərc.

Mən onun öz dilindən belə dediyini eşitmişəm: “Mən bu kitabda sübut edirəm ki, hal-hazırda iki qapaq arasında olan Quran ilk dəfə Osmanın zamanında toplandığı vaxt necə idisə, elə o vəziyyətdə də qalmışdır. Onda başqa səmavi kitablarda baş verdiyi kimi, təbdil və ya dəyişdirilmə baş verməmişdir. Gərək bu kitab (“Faslul-xitab fi təhrifil-kitab” – “Kitabın təhrifi mövzusunda qəti və yekun söz” yox), “Faslul-xitab fi ədəmi-təhrifil-kitab” (“Kitabın təhrif olunmaması mövzusuda qəti və yekun söz”) adlandırılaydı. Onu camaatın məqsədimi başa düşmədiyi bu cür bir adla adlandırmaq, mənim xətamdır. Lakin, mən onların başa düşdüyü mənanı nəzərdə tutmamışdım. Əksinə, mənim məqsədim nazil olan ilahi vəhyin bir hissəsinin çıxarılması idi. İstəsən bu kitabı belə də adlandıra bilərsən: “Əl-Qavlul-fasil fi isqati-badil-vahyin-nazil” – “Nazil olan vəhyin bir hissəsinin çıxarılması barədə yekun və qəti söz”.”[490]

Bəzi Quran ayələrinin müshəfdən çıxarıldığı və müshəfə qoyulmadığı fikri təkcə Şeyx Nurinin fikri deyildir, həmçinin bəzi səhabələr də bu görüşdə olmuşlar. Əbdür-Rəzzaq “əl-Müsənnəf” kitabında öz sənədi ilə Yusif ibn Mehrandan nəql etmişdir ki, o, İbn Abbasın belə nəql etdiyini eşidib:

“Ömər ibn əl-Xəttab carçıya car çəkərək camaatı namaz üçün toplamağı əmr etdi. Sonra minbərə çıxaraq Allaha həmd-səna edib dedi: “Ey camaat! Daş-qalaq ayəsini kəsib atmayın. Həqiqətən də o, Allahın kitabında nazil olmuş və biz də onu oxumuşduq, lakin o, Muhəmmədin (sallallahu əleyhi [və alihi] və səlləm) (getməsi) ilə birgə aradan gedən bir çox Quran (ayəsi) kimi aradan getmişdir!”.”[491]

İbn Ömərdən belə nəql olunur:

“Heç kəs deməsin ki, “Quranın hamısından xəbərim var”. Haradan bilir ki, Quranın hamısı nə qədərdir. Quranın bir çox ayəsi aradan getmişdir. Lakin deyin, “Quranın əldə olan qədərindən xəbərim var”.”[492]

Hüzeyfədən belə nəql olunur:

“Sizin oxuduğunuz, “Bəraət” (“Tövbə”) surəsinin 4-də 1-idir. Siz o surəni “Tövbə” surəsi adlandırırsınız, halbuki, o, “Əzab” surəsidir”[493].

Übey ibn Kəb “Əhzab” surəsi barədə deyir:

“Mən bu surəni (daha öncə) görmüşdüm və o zaman o, Bəqərə surəsi boyda idi. Bizim bu surədə oxuduğumuz ayələr içində belə bir ayə də var idi: “Yaşlı kişi

---

[490] “əz-Zəriə ilə təsanifiş-şiə”: 16/231-232.
[491] “əl-Müsənnəf”: 7/330, hədis: 13364, “Kənzül-ümmal”: 5/431, hədis: 13517.
[492] “əl-İtqan fi ulumil-Quran”: 2/25, “əd-Dürrül-mənsur”: 2/298, “Ruhul-məani”: 1/25.
[493] “əl-Müstədrək ələs-səhiheyn”: 2/361, hədis: 3274, Hakim bu hədis üçün deyir: “**Bu, səhih sənədli hədisdir, lakin Buxari və Müslim bunu nəql etməmişlər**”, Zəhəbi də onun sözü ilə razılaşaraq: “**Səhihdir**”, - demişdir. “əl-Mucəmul-əvsət”: 2/85, hədis: 1330, Heysəmi bu hədisi “əl-Mucəmul-vəsit”dən nəqlən “Məcməüz-zəvaid” kitabında qeyd etmiş (7/28), ardınca demişdir: “**Bunu Təbərani “əl-Əvsət”də nəql etmişdir, raviləri siqədir**”.

və yaşlı qadın zina etsələr, mütləq onları daş-qalaq edin. Bu, Allahın bir cəzasıdır. Allah izzət və hikmət sahibi”.”[494]

Müslim “Səhih” kitabında öz sənədi ilə Hərb ibn Əbül-Əsvəddən belə nəql edir:

“Əbu Musa əl-Əşəri Bəsrə qarilərinə xəbər göndərib onları öz yanına çağırtdı. Onun yanına 300 nəfər Quran qarisi gəldi. Əbu Musa dedi: “Siz Bəsrə camaatının ən yaxşıları və qarilərisiniz. Elə isə Quranı oxuyun. Dünyaya çox bağlı olmayın ki, sizdən öncəkilərin qəlbləri qəsavət bağladığı kimi, sizin qəlbləriniz də qəsavət bağlayar.

Biz uzunluqda və sərtlikdə “Bəraət” surəsinə bənzətdiyimiz biz surə oxuyardıq, lakin o surə yadımdan çıxarılıb (!). Buna baxmayaraq, mən ondan bir ayə yadda saxlamışam, həmin ayə belədir: “Əgər Adəm övladının iki vadisi olsa, üçüncüsünü də istəyər. Adəm övladının qarnını ancaq torpaq doldurar”. Həmçinin, biz “müsəbbihat”[495] surələrinə oxşatdığımız bir surə oxuyardıq, lakin o surə də yadımdan çıxarılıb, buna baxmayaraq mən ondan bir ayə yadda saxlamışam. Həmin ayə belədir: “Ey iman gətirənlər, nə üçün etməyəcəyiniz şeyi deyirsiniz?! (Belə edincə) boynunuza şəhadət yazılır (dediyiniz söz qeydə alınır) və Qiyamət günü ona görə soruğu sual olunursunuz!”.”[496]

Müslim və başqaları Aişənin belə dediyini nəql etmişlər:

“Allahın nazil etdiyi ayələr arasında belə bir ayə var idi: “**(Sayı) bəlli olan 10 südvermə məhrəmlik yaradır**”. Sonra bu ayə “**5 südvermə**” ayəsi ilə nəsx oldu. Allah Rəsulu (sallallahu əleyhi [və alihi] və səlləm) vəfat etdiyi vaxt bu ayə Quranda oxunurdu”[497].

Həmçinin, Aişədən belə nəql olunur:

“Daş-qalaq ayəsi və böyük kişini 10 dəfə əmizdirmək (!) ayəsi (Quranda) nazil olmuşdu. Bu ayələr mənim çarpayımın altında bir səhifənin üzərində idi. Allah Rəsulu (sallallahu əleyhi [və alihi] və səlləm) vəfat edəndə bizim başımız onun vəfatına qarışdı, bu zaman bir keçi gəlib o səhifəni yedi”![498]

Əhli-sünnə alimləri Allah-taala tərəfindən Peyğəmbərə (sallallahu əleyhi və alihi və səlləm) nazil edilən bir çox ayənin “nəsx” olunduğunu və hal-hazırda mövcud olan Quranda yazılmadığını iddia etmişlər. Onların bu inancları kifayət qədər məşhur və məlumdur və mən onlar arasında bu fikri rədd edən birisi

---

494 “əl-Müstədrək ələs-səhiheyn”: 4/400, hədis: 8068, Hakim bu hədis üçün demişdir: “Bu, səhih sənədli hədisdir, lakin Buxari və Müslim onu nəql etməmişlər”.

495 “Səbbəhə” sözü ilə başlayan surələr: Hədid, Həşr, Səff, Cumuə, Təğabun və Əla surələri. Tərc.

496 “Səhihü-Müslim”: 2/726, hədis: 1050.

497 “Səhihü-Müslim”: 2/1075, hədis: 1452, “əl-Müsnədül-müstəxrəc ələ səhihi-Müslim”: 4/125, hədis: 3398, “Səhihü-İbn Hibban”: 10/36, hədis: 4222, “əs-Sünənül-kübra” (Nəsai): 3/298, hədis: 5448, “əl-Müctəba minəs-sünnən” (Nəsai): 6/100, hədis: 3307, “Sünənül-Beyhəqi”: 7/453, hədis: 15397, “Müsnədü-Əbi Əvanə”: 3/119, “Müsnədüş-Şafei”: 1/220, “Sünənüd-Darəmi”: 2/209, hədis: 2253.

498 “Sünənü-İbn Macə”: 1/625, hədis: 1944.

tanımıram. Onların bu inancları Şeyx Nuri Təbərsinin inancı ilə eyniyyət təşkil edir, sadəcə, aradakı yeganə fərq birinin buna "nəsx" deməsi, digərinin isə "təhrif" deməsidir.

Bundan başqa, Şeyx Nuri ət-Təbərsinin bu inancı onun şəxsi fikridir və onun şəxsi fikri bütün şiələrin rəyini təmsil etmir. Buna baxmayaraq, Şeyx Nurinin müasirlərindən olan bəzi şəxslər onun bu kitabına rəddiyyə də yazmışlar. Onlardan biri Müərrəb kimi tanınan Əllamə Şeyx Mahmud ət-Tehranidir. O, bu mövzuda "Kəşfül-irtiyab ən təhrifil-kitab" ("Quranın təhrifi ilə bağlı ortaya atılan şübhənin aradan qaldırılması") adlı bir traktat yazmışdır. Digər bir alim isə Əllamə Seyyid Muhəmmədhüseyn əş-Şəhristanidir. O da "Hifzul-kitabiş-şərif ən şubhətil-qəvl bit-təhrif" ("Müqəddəs kitabın təhrif şübhəsindən uzaqlığı") adlı bir traktat yazmışdır. Son dövrün alimlərinə gəlincə isə, demək olar ki, Quranın təhrifdən uzaq olmasına dair kitab yazan elə bir şiə alimi tapılmaz ki, Şeyx Nurinin "Faslul-xitab"ına rəddiyyə verməmiş olsun.

Elə isə nəşr olunduğu gündən bu yana şiə alimlərinin rədd etdiyi, batil hesab etdiyi, inkar edib əksini müdafiə etdikləri bir kitab necə şiələr əleyhinə tənə vasitəsi ola bilər?!

Belə düşünülməsin ki, Şeyx Nurinin müasiri olan alimlər və onun zamanındakı elmi cameənin tələbə və müəllimləri bu kitaba və onun müəllifinə sükutla yanaşmışlar. Xeyr, bu kitab ortaya çıxdığı zaman böyük ajiotaj yaranmış, alim və tələbələr kitaba və onun müəllifinə qarşı kəskin tənqidlərini bildirmişlər. Buna Mirzə Mehdi əl-Bürucerdinin 1953-cü ildə qələmə aldığı "Bürhan" traktatına yazdığı mədhedici resenziyada Seyyid Hibətüddin əş-Şəhristaninin dediyi sözlər dəlalət edir. O, yazdığı resenziyada deyir:

"...Sən Rəbbinə necə də çox şükr etməlisən, çünki O sənə Qurani-Kərimin təhrifdən uzaqlığına dair bu qiymətli əsəri yazmağı nəsib edib. Səhih və doğru olan inanc məhz budur (Quranın təhrif edilməməsi inancı). Mən uşaqlığımdan və doğulub dünyaya gəldiyim şəhər olan Samirrada yaşadığım müddətdən bəri bu inancı görüb eşitmişəm. O zamanlar elm və din böyük imam Şirazinin bayrağı altında Samirra şəhərində cəm olmuşdu. Mən Samirranın öz sakini olan Şeyx Nuriyə "Faslul-xitab" kitabına görə necə hücuma qalxdığını görürdüm. Elmi hövzənin hansı məclisinə daxil olurdunsa, kitab, onun müəllifi və naşiri barəsində səs-küy və fəryadlar eşidir, kəskin sözlərlə tənqidlər görürdün..."[499].

---

[499] "əl-Bürhan" (Bürucerdi): səh.143.

## Osman əl-Xəmisin Şeyx Nuriyə iftirası

Osman əl-Xəmis Şeyx Nuriyə iftira ataraq, onun güya Qurani-Kərimdə bayağı və dayaz məzmunlu ayələrin olduğunu dediyini iddia etmişdir. Xəmis deyir:

“Hüseyn Nuri ət-Təbərsi Qurani-Kərim barədə demişdir ki, Quranda bayağı və cılız ayələr var. Allaha pənah! Müsəlmandır bu?!!”[500].

Şeyx Nuri (Allah ona rəhmət etsin) heç vaxt hal-hazırda camaatın əlində olan Quranda bayağı və cılız məzmunlu ayələrin olduğunu deməmişdir. O məhz bunu demişdir ki, bir vaxtlar Quran qarilərinin özlərindən çıxardıqları və sonradan Osman ibn Əffan tərəfindən ləğv edilən qiraətlər Allah tərəfindən deyildi. Çünki, o qiraətlərin bəzisi ecazkar yox, bayağı və dayaz idi. Onun dediyi bu söz doğrudur və bunda yanlış bir şey yoxdur.

## “Şiələr və Quranın təhrifi” mövzusuna dair əhli-sünnə alimlərinin fikirlərindən nümunələr

Şiələrə iftira atıb onları Qurani-Kərimin təhrif olunduğuna inanmaqda ittiham edən Osman əl-Xəmis, vəhhabilər və onların yolu ilə addımlayan digər şəxslərlə yanaşı, şiələrə atılan bu iftiranı rədd edən bir çox insaflı əhli-sünnə alimi də vardır. Onlar bu böhtanı inkar edərək şiələrin Qurani-Kərimin təhrif olunmadığına və onun təhrifdən qorunmuş olduğuna inandıqlarını bildirirlər. Şeyx Əbdür-Rəzzaq ət-Təvtavi deyir:

“Muhibbuddin əl-Xətib adlı bir iftiraçı zəhərlə dolu kitabında şiələrin xüsusi bir Quranları olduğunu demiş, həmçinin, bunun kimi qəlblərdə nifrət doğuran başqa batil və uydurma sözlər danışmışdır. Buna rəğmən, heç bir dəlil ortaya qoymamış, şiələrin böyük alimlərindən bir nəfərin belə sözünü misal göstərməmişdir. Mən ona görə bu bədnam kitabın – onu şəhid doktor Fəthi əş-Şiqaqi (Allah ona rəhmət etsin) belə adlandırıb – adını xüsusilə qeyd etdim ki, mən bu kitabda olan hiylə, saxta sitatlar və fitnəkarlıqla tanış olmuşam. Bir çox avam bu kitaba aldanmış, onu özləri üçün bir “dəlil” qərar vermişlər, hər dəfə şiələrin adı gələndə bu kitabdan misallar çəkməklə mübahisə edirlər. Kitabın adı “İmamiyyə şiələrinin dinin əsasları”dır. Sanki, şiələrin İslamdan savayı ayrı bir dinləri varmış kimi. Sübhanallah! Bu nə böyük böhtandır!

Bu kitab ilk dəfə təxminən 100 il bundan öncə çap olunub. Sonra birinci Körfəz savaşı dövründə böyük kəmiyyətlə yenidən çap olundu. Bundan sonra bu kitab, siyonistlərin və onların işbirlikçilərinin əlində asan loxmaya dönsünlər deyə

[500] “Qəlbdən qəlbə”: səh.14.

müsəlmanlar arasında daim savaşın olmasını istəyən bir sıra qaranlıq qurumlar tərəfindən pulsuz şəkildə camaata paylandı.

Allah Rəsulu (sallallahu əleyhi [və alihi] və səlləm) buyurur: “Fitnə yatmış vəziyyətdədir, onu oyadana Allah lənət etsin”.

Ey müsəlman qardaşım! Məbadə bu haram fitnənin oyadılmasından iştirak edəsən, çünki bu fitnə oyandığı zaman hamımızı yandıracaq.

Hansı məzhəbdən olmasından asılı olmayaraq, sənin əqidə qardaşlarınla bağlı oxuduğun şeylərin, yaxud şübhəli audio-video yazılarda eşitdiyin sözlərin qarşısında dayanıb diqqətlə düşün, ehtiyat et. Buyur, bax sənin şiə qardaşların Qurani-Kərim barədə nə deyirlər:

“Nə önündən və nə də arxasından batilin yol tapa bilmədiyi Qurani-Kərim iki qapaq arasındakı Qurandan ibarətdir. Allahın nazil etdiyi Quran camaatın əlində olan Qurandan ibarətdir. Ona nə bir şey artırılmış, nə bir şey azaldılmış, nə bir sözü və nə də bir hərfi dəyişdirilmişdir. Quranın hər bir hərfi nəsildən-nəsilə mütəvatir şəkildə ötürülmüşdür”[501].

Ey şər kitablara və audio-video yazılara məftun olan müsəlman qardaşım, əgər istəsən özün şiələrin mötəbər kitablarına müraciət et. Bununla həqiqəti öz gözünlə görərsən, qəlbin aram olar, sinənə su səpilər və yəqin şəkildə bilərsən ki, azğın fitnəkarların şiə qardaşlarımızla bağlı dedikləri sözlərin heç bir doğruluğu yoxdur.

Buyur, ey fitnəyə aldanmış müsəlman qardaşım, gör əhli-sünnənin ən böyük mütəfəkkirlərindən biri olan böyük ustad müşavir Salim əl-Bəhnəsavi nə deyir[502]:

“Əhli-sünnə arasında mövcud olan müshəf elə həmin şiə məscidlərində və evlərində mövcud olan müshəfdir”.

Ey müsəlman qardaşım, şeytanın izi ilə getmə, haqdan sonra yalnız zəlalət vardır, elə isə diqqətli ol!”[503]

Şeyx Əbu Zuhrə deyir:

“Quran müsəlmanların icmasına əsasən, İslamın birinci dəlilidir. O, İslamın ilkin mənbəyidir. O, İslam şəriətinin yazıldığı mənbədir və o, bütün İslam şəriətini əhatə edir. Allah-taala vəd verdiyi kimi, onu Qiyamət gününədək qoruyacaqdır: “**Şübhəsiz ki, Quranı Biz nazil etdik və sözsüz ki, Biz də onu qoruyacağıq**”.

Bizim imamiyyə məzhəbindən olan qardaşlarımız da, fərqli görüşlərinə rəğmən[504], Quran barədə bütün möminlərin düşündüyünü düşünürlər”[505].

Doktor Mahmud Abdullah Dərraz deyir:

---

501 Bu, Seyyid Şərəfuddin əl-Amulinin “əl-Fusulul-muhimmə” kitabında dediyi sözdür.
502 “əs-Sünnətül-müftəra əleyha” (“İftira atılmış sünnə”) kitabında dediyini nəzərdə tutur.
503 “Hivarun beynəs-sünnə vəl-ibadiyyə vəş-şiə”: səh.104-106.
504 Yəni, ümumilikdə bizimlə fərqli görüşdə olmalarına rəğmən. Tərc.
505 “əl-İmamus-sadiq”: səh.329.

“13 əsrdir islam aləmində, o cümlədən də şiə firqələri arasında mövcud olan yeganə müshəf hal-hazırkı müshəfdir.”

Sonra deyir:

“Biz burada şiə firqələrinin ən mühümü olan imamiyyə firqəsinin nəzərini qeyd edirik”. Bundan sonra Şeyx Səduqun daha öncə qeyd olunan nəzərini qeyd edir.[506]

Əllamə Şeyx Rəhmətullah əl-Hindi deyir:

“Qurani-Kərim on iki imam şiələri alimlərinin cümhurunun nəzərində dəyişilmə və təbdildən uzaqdır. Onların arasında Quranda azaldılmanın baş verdiyini deyən kəslərə gəlincə isə, belə bir şəxsin sözü onların nəzərində batil və qeyri-məqabuldur”[507].

Doktor Əbdül-Vədud Şəlbi deyir:

“On iki imam şiələri inanırlar ki, hal-hazırda müsəlmanların əlində olan kitab Allah-taalanın ecaz, meydanoxuma və hallala haramı bir-birindən ayırd etmə üçün nazil etdiyi həmin kitabdır. Onda nə azaldılma, nə dəyişdirilmə, nə də artırılma baş verməmişdir. Onlar bu barədə öz əhli-sünnə qardaşları ilə yekdil şəkildə icma etmişlər.”[508]

Doktor Əbdül-Vahid Vafi deyir:

“Əhli-sünnə kimi cəfəri şiələri də inanırlar ki, Qurani-Kərim Allahın öz Peyğəmbərinə nazil etdiyi kəlamıdır. O, təvatürlə bizə gəlib çatmışdır; bütün surə və ayələri ilə birlikdə hal-hazırda iki qapağı arasında olandan ibarətdir; onun surə və ayələri Peyğəmbər (salavatullahi və salamuhu əleyh) tərəfindən tərtib edilmişdir; o, İslamın bütün əsaslarını – inanc, şəriət və əxlaqla bağlı əsaslarını özündə cəm etmişdir. Bu məsələdə bizimlə onlar arasındakı ixtilaf yalnız cüzi və ikinci dərəcəli məsələlərdədir. Bizimlə onlar arasında artırılma, azaldılma, təhrif və dəyişdirilmə mövzularında heç bir ixtilaf yoxdur. Onların sahib olduqları inanca görə də heç kəs onları qınaq edə bilməz.”[509]

Həmçinin, deyir:

“Onların bəzi kitablarında öz imamlarına mənsub edilən və Quranın mətni barədə şəkk ortaya salan bəzi hədislərə gəlincə isə, onlar bu hədisləri təsdiq etmirlər, əksinə, bu hədisləri və onların öz imamlarına mənsub olmasını inkar edirlər. Daha öncə də dediyimiz kimi, onların batil hesab etdikləri fikirlərə görə onları mühakimə edə bilmərik, bu fikirləri nəql edənlərin və bu fikirlərin gəldiyi kitabların məqamı hər nə olursa-olsun, bu fikirləri onların məzhəblərinin görüşü kimi dəyərləndirə bilmərik... Cəfəri şiələrinin bir çox böyük alimləri bu yalançı

---

[506] “Mədxəlun iləl-Quranil-Kərim”: səh.39-40.
[507] “İzharul-haqq”: səh.354.
[508] “Kullunə ixvatun: şiətən və sunnətən”: səh.76.
[509] “Beynəş-şiə vəs-sünnə”: səh.35.

hədisləri inkar etmiş, onların batilliyini açıqlamış, onların öz imamlarına mənsub olmadığını demiş və bu cür hədislərin öz məzhəbləri nəzərində heç bir dəyərinin olmadığını bildirmişlər”[510].

Mustafa ər-Rafei deyir:

“Hal-hazırda camaatın əlində olan Qurani-Kərim heç bir artırılma və ya azaldılmaya məruz qalmamışdır. İmamiyyə şiələrinin Quranda azalmanın baş verdiyini demələri ilə bağlı yayılan məlumatı şiə alimləri toplu şəkildə inkar etmişlər... Əhli-sünnə məzhəbləri Quranın müqəddəsliyi və ondan sarılmanın vacibliyi barəsində şiə imamiyyə məzhəbi ilə müttəfiqdir. Quran bir nüsxədən ibarətdir; hansı diyar və ölkədə yaşamalarından asılı olmayaraq, Quranın bütün hərf və hərəkələri sünnilərin və şiələrin yanında eynidir”[511].

Əl-Bəhnəsavi deyir:

“On iki imam cəfəri şiələri ilkin islam dövründən etibarən üzərində ümmətin icma etdiyi Quranı təhrif edən şəxsin kafir olduğunu deyir... Əhli-sünnə arasında mövcud olan müshəf həmin şiə məscidlərində və evlərində olan müshəfdir.”[512]

Əl-Əzhər Universitetinin Şəriət Fakültəsinin dekanı olan Muhəmməd əl-Mədini deyir:

“İmamiyyə məzhəbinin Quranın naqis olduğuna inanmasına gəlincə, bundan Allaha pənah aparırıq! Onların kitablarında sadəcə olaraq bir sıra hədislər nəql olunmuşdur, necə ki, eyni növ hədislər bizim kitablarımızda da nəql olunmuşdur. Hər iki tərəfin alimləri bu hədisləri saxta hesab edib onların batil olduqlarını bildirmişlər. İmamiyyə şiələri və ya zeydiyyələr arasında belə bir şeyə etiqad edən kəs yoxdur. Eynən, əhli-sünnə arasında da belə bir şəxs yoxdur”[513].

Böyük sünni dəvətçisi Şeyx Muhəmməd əl-Ğəzali deyir:

“Mən təəssüf edirəm ki, bəzi nə gəldi danışanlar, hətta xeyr, bəzi aqibətini düşünmədə necə gəldi ona-buna töhmət yağdıranlar belə bir əxlaqla islam ideologiyası sahəsinə daxil olaraq, islama və ümmətə ən ağır pisliyi ediblər.

Bir elmi yığıncaqda bunlardan birinin belə dediyini eşitdim:

– Şiələrin bizim Qurandan artığı-əskiyi olan başqa bir Quranı var!

Dedim:

– Haradadır bu Quran?

Üç qitəyə uzanan islam dünyası həzrət Muhəmmədin (sallallahu əleyhi [və alihi] və səlləm) besətindən bu yana 14 əsrdirki əvvəli-sonu bəlli olan, surələri, ayələri və sözləri müəyyən olan bir Quran tanıyır, elə isə o biri Quran haradadır?!

---

510 “Beynəş-şiə vəs-sünnə”: səh.37-38.
511 “İslamuna”: səh.57.
512 “əs-Sünnətül-müftəra əleyha”: səh.60.
513 “Məəs-sadiqin” (Doktor Muhəmməd Səmavi Ticani): səh.201. Cənab Muhəmməd əl-Mədininin “Risalətül-islam” jurnalının 14-cü buraxılışındakı (səh.382-383) məqaləsindən nəqlən.

Nə üçün bu uzun əsrlər boyu bir insan və ya cin o “Quran”ın bircə nüsxəsinə belə rast gəlməyib?!

Öz qardaşlarına qarşı sui-zənnə düşsünlər deyə bu şayiələri uydurub onları xəbərsiz kütlənin içinə atanlar bilməlidilər ki, bu xəbərsiz kütlə birinci növbədə öz kitablarına qarşı sui-zənnə düşürlər.

Müshəf bir dənədir; Qahirədə çap olunur, Nəcəfdəki və ya Tehrandakı şiələr də onu müqəddəs bilirlər, onu oxuyub evlərində yerləşdirirlər; bu zaman Quranı və onun mübəlliğini əzizləyib uca tutmaqdan savayı ağıllarına başqa bir şey gəlmir. Elə isə nə üçün camaata və vəhyə yalan nisbət verirsiniz?

Bu iftiraçıların bəziləri belə təbliğ edirlər ki, güya şiələr Əlinin ardıcılı, sünnilər də Muhəmmədin ardıcılıdırlar və şiələr Əlini peyğəmbərliyə daha layiq bilirlər. Şiələrin nəzərində peyğəmbər Əli olmalıymış, lakin səhvən Muhəmməd olub!

Bu, çirkin bir cəfəngiyat, rüsvayçı bir iftiradır. Lakin, bu cəfəngiyata inanmaq nəticəsində, şiə və sünni müsəlmanlar arasında bu gün şahidi olduğumuz mənfur qırğınlar baş vermiş, dində bir-birinin qardaşı olan bu şəxslər nifrətlə bir-birlərinin ətini yeməyə başlamışlar.

Şiələr həzrət Muhəmmədin (sallallahu əleyhi [və alihi] və səlləm) peyğəmbərliyinə inanır, Əlinin şərəf və üstünlüyünü onun bu Peyğəmbərin sünnəsinə sarılmasında və onun ardıcılı olmasında görürlər. Onlar da digər müsəlmanlar kimi, gəlmiş-keçmiş insanlar içərisində ən üstün şəxsin və tabe olunmağa ən layiqli şəxsin həzrət Muhəmməd (sallallahu əleyhi [və alihi] və səlləm) olduğunu düşünürlər, elə isə onlara bu çirkin iftiranı necə yaxmaq olar?!

Reallıq budur ki, ümməti bir-birinə düşmən dəstələrə bölmək istəyənlər, bu bölünmə üçün məntiqli bir səbəb tapmadıqlarından, özlərindən təfriqə salacaq yeni səbəblər qondarmağa əl atmışlar. Nəticədə, doğruluq və düzlük meydanı daraldığı vaxt, yalan danışmaq üçün önlərində geniş bir meydanı tapmışlar.

Mən şiələrlə sünnilər arasında bəzisi xırda, bəzisi də dərin olan fiqhi və nəzəri ixtilafların olmasını inkar etmirəm, lakin bu ixtilaflar bugün bu iki firqə arasında baş verən soyuqluq və uzaqlığın onda biri üçün belə səbəb ola bilməz. Fiqhi və nəzəri ixtilaf sünni məzhəblərinin öz arasında belə baş vermişdir, hətta eyni bir sünni məzhəbin ardıcılları arasında belə baş vermişdir, lakin, ağıl sahibləri bu ixtilafı soyuq və ya isti münaqişəyə çevirməmişlər”[514].

---

[514] “Difaun anil-əqidəti vəş-şəriə dıddəl-matainil-mustəşriqin”: səh.219-220.

# TƏQİYYƏ MƏSƏLƏSİNDƏ OSMAN ƏL-XƏMİSƏ CAVAB

## Təqiyyə məsələsi ilə bağlı Osman əl-Xəmisin batil fikirlərinə cavab

Osman əl-Xəmis deyir:

“Sizin alimləriniz təqiyyəni dini əsaslarından sayırlar. Kimi onu tərk eləsə, namazı tərk eləmiş kimidir. O, vacibdir və Qaimin zühuruna qədər aradan qaldırıla bilməz. Kim Qaim zühur etməzdən qabaq təqiyyəni tərk etsə, Allahın dinindən və imamiyyə məzhəbinin dinindən çıxmışdır.

Təqiyyə şiələrdə namaz kimi dinin rüknlərindən sayılır! Mehdinin qiyamına qədər, yəni Qiyamətə qədər onu tərk etmək olmaz!

İbn Babəveyh əl-Qummi deyir: “Bizim təqiyyə ilə bağlı inancımız budur ki, o, vacibdir və kim onu tərk etsə, namazı tərk etmiş kimidir”.

Həmçinin, deyir: “Təqiyyə vacibdir və Qaimin zühuruna qədər aradan qaldırıla bilməz. Kim Qaim zühur etməzdən qabaq təqiyyəni tərk etsə, Allahın dinindən və imamiyyə məzhəbinin dinindən çıxmış, Allaha, Onun Rəsuluna və imamlara müxalifət etmişdir”.

Rzadan isə belə nəql edilmişdir: “Təqiyyəsi olmayanın imanı yoxdur”.”[515]

**Deyirəm:** Burada Osman əl-Xəmis təqiyyə inancına görə şiələrə tənə edir. Sanki, bu inanc bircə on iki imam şiələrinə məxsusdur və başqa müsəlmanlar bunu qəbul etmirlər. Sanki dində bir hökm yoxdur və Allah-taala bu məsələnin qanuniliyi ilə bağlı heç bir şey bildirməmişdir.

## Təqiyyə ilahi bir qanundur

Təqiyyə Quran məfhumlarından və Allah-taalanın öz Kitabı və Peyğəmbərinin (sallallahu əleyhi və alihi və səlləm) dili ilə bəyan etdiyi ilahi hökmlərdən biridir. Məzhəb və inancından asılı olmayaraq şiəli-sünnili bütün müsəlmanlar bu məfhumu qəbul edir, Peyğəmbərimizin (sallallahu əleyhi və alihi və səlləm) zamanından ta bugünümüzədək can, namus və malını qorumaq məcburiyyətində qalan şəxslər ona baş vururlar. Müsəlmanların fiqh kitablarında təqiyyənin hökmləri geniş şəkildə açıqlanmışdır. Təqiyyənin istər tərif və mənası, istərsə də işlədilmə yerləri başqa müsəlman məzhəbləri nəzərində necədirsə, on iki imam şiələri nəzərində də elədir.

---

[515] “Qəlbdən qəlbə”: səh.80.

## Müsəlman alimlərinin nəzərində təqiyyənin tərifi

Seyyid Mürtəza (Allah ona rəhmət etsin) təqiyyə terminini izah edərək deyir: "Təqiyyyə: bir nəfərlə haqqa zidd bir sözdə və ya əməldə razılaşaraq (ona müvafiq olduğunu göstərərək), həmin şəxsin vura biləcəyi ziyandan qorunmaqdır"[516].

Şeyx Müfid (Allah ona rəhmət etsin) deyir:

"Təqiyyə, haqqı gizli saxlamaq, haqq etiqadı örtmək, (öz əqidəsini) müxaliflərdən gizlətmək və ardınca dini və ya dünyəvi zərər gətirəcək bir iş görməklə müxaliflərə qarşı çıxmağı tərk etməkdir"[517].

Əhli-sünnə alimləri də təqiyyəni eynən on iki imam şiə alimləri kimi izah etmişlər:

Sərəxsi əl-Hənəfi deyir:

"Təqiyyə, insanın zahirdə etdiyi bir iş ilə özünü qorumasına deyilir. Bu zaman qəlbində gizlədiyi şey həmin zahirdə etdiyi işin əksini olur"[518].

İbn Həcər əl-Əsqəlani deyir:

"Təqiyyə: qəlbdə olan hər hansısa bir etiqad və s.-ni başqası üçün açıqlamaqdan çəkinməyə deyilir"[519].

Alusi deyir:

"Alimlər onu "canın, namusun və malın düşmənin şərindən qorunması" kimi mənalandırmışlar"[520].

Əl-Mərağı isə deyir:

"Təqiyyə, insanın düşmənlər tərəfindən cana, namusa və ya mala gələcək zərərdən qorunmaqdan ötrü haqqa zidd bir sözü deməsi və ya haqqa zidd bir iş görməsidir."[521]

## Təqiyyənin qanuni olmasına dəlalət edən bəzi dəlillər

Təqiyyənin qanuniliyinə dəlalət edən dəlillərdən biri Ali-İmran surəsinin 28-ci ayəsidir:

"**Möminlər möminləri buraxıb kafirləri dost tutmasınlar! Bunu edən kəs Allahdan heç bir şey gözləməsin. Ancaq onlardan (gələ biləcək bir təhlükədən qorxub) təqiyyə etməniz müstəsnadır. Allah sizi Özündən (əzabından) çəkindirir. Qayıdış Allaha tərəfdir**".

---

516 "ət-Təqiyyə": səh.37.
517 "Təshihül-etiqad": səh.137.
518 "əl-Məbsut": 24/45.
519 "Fəthül-Bari": 12/314.
520 "Ruhul-məani": 3/121.
521 "Təfsirül-Mərağı": 3/137.

Carullah Mahmud ibn Ömər əz-Zəməxşəri ayənin izahında deyir:

“Allah bu ayə ilə möminlərə kafirlərdən qorxduqları zaman onlarla “dostluq” etmək icazəsi vermişdir. Dostluqdan məqsəd, qəlb kafirlərə qarşı düşmənçilik və nifrətlə aram olduğu və maneənin aradan qalxmasını gözlədiyi halda, möminlərlə qarşı zahiri müxalifət, kafirlərlə isə zahiri yoldaşlıq etməkdir.”[522]

Əbül-Bərəkat ən-Nəsəfi deyir:

““**Yalnız təqiyyə etməniz istisnadır**”, yəni, qorunması vacib olan bir işə görə qorx(ub təqiyyəyə baş vur)manız istisnadır.

Yəni, əgər kafirin sənin üzərində bir güc və qüvvəsi olsa və sən canına və malına görə ondan qorxsan, o zaman zahirdə özünü dost kimi göstərib, daxildə düşmənçiliyi gizlədə bilərsən”[523].

Mahmud Şükri əl-Alusi deyir:

“Ayədə təqiyyənin qanuniliyinə dəlil vardır. Alimlər ona “canın, namusun və malın düşmənin şərindən qorunması” kimi tərif vermişlər. Düşmən isə iki qisimdir:

Birinci qisim: Düşmənçiliyi dini ixtilafa dayanan şəxs. Məsələn, kafir və müsəlman kimi.

İkinci qisim: Düşmənçiliyi mal, mülk, imarət və s. kimi bir sıra dünyəvi məqsədlərə dayanan şəxs.”[524]

Cəmaləddin əl-Qasimi deyir:

“İmamlar “**Yalnız təqiyyə etməniz istisnadır**” ayəsindən qorxu zamanı təqiyyə etməyin qanuni olduğu nəticəsini əldə etmişlər. İmam Murtəza əl-Yəmani özünün “İsarul-haqq aləl-xəlq” kitabında qorxu zamanı təqiyyənin caiz olması barədə icma olduğunu nəql etmişdir”[525].

Məraği deyir:

““**Yalnız təqiyyə etməniz istisnadır**”... Yəni, möminlərin kafirləri dost tutmağı tərk etmələri hər bir halda vacib və lazımdır. Yalnız kafirlərdən qoruyub saxladığınız bir şey barədə onlardan qorxduğunuz hal istisnadır. Belə vəziyyətdə o şeyin qorunması lazım gəldiyi həddə onlardan qoruna (təqiyyə edə) bilərsiniz. Çünki şəri qayda belədir ki, “zərərin uzaqlaşdırılması, xeyirin əldə edilməsindən öndədir”.

Əgər zərərdən qorunmaq üçün kafirlərlə dostluq etmək caiz olursa, o zaman müsəlmanların mənfəəti üçün bu işin caiz olması daha layiqdir. Deməli, hər hansısa müsəlman dövlətin qeyri-müsəlman bir dövlətlə hansısa bir faydaya görə – hansısa zərəri dəf etmək və ya hansısa mənfəəti kəsb etməkdən ötrü – əməkdaşlıq

---

522 “əl-Kəşşaf”: 1/422.
523 “Təfsirün-Nəsəfi” (“Təfsirül-xazin” kitabının ardında çap olunub): 1/277.
524 “Ruhul-məani”: 3/121.
525 “Məhasinüt-təvil”: 4/82.

etməsində problem yoxdur. Lakin müsəlman ölkə müsəlmanlara zərər vuracaq bir şeydə kafir ölkə ilə dostluq edə bilməz. Habelə, bu dostluq zəiflik zamanına aid deyil, əksinə, bütün vaxtlarda caizdir.

Alimlər bu ayədən təqiyyənin caiz olması nəticəsini çıxarmışlar. Yəni, insan düşmənlər tərəfindən cana, namusa və ya mala gələcək zərərdən qorunmaqdan ötrü haqqa zidd olan bir söz deyə və ya bir iş görə bilə. Hər kəs canını həlak olmaqdan qorumaqdan ötrü istəməyərəkdən və qəlbi imanla aram olduğu halda küfr sözü deyərsə, kafir olmaz, əksinə üzürlü hesab edilər. Necə ki, Əmmar ibn Yasir belə etmişdi. Belə ki, Qureyş onu küfrə məcbur etmiş, o isə istəməyərəkdən və qəlbi imanla aram olduğu halda onlarla razılaşmışdı. Bu ayə də onun barəsində nazil olmuşdur:

**“Qəlbi imanla aram olduğu halda (küfr deməyə) məcbur edilən şəxs istisna olmaqla, kim imanından sonra Allaha küfr etsə onlara Allah tərəfindən bir qəzəb və böyük bir əzab vardır”**”[526].

Əbu Həyyan əl-Əndəlusi deyir:

“Təfsirçilər bu ayəyə çatdıqda, təqiyyə barəsində danışmışlar. Çünki, bu ayənin təqiyyə mövzusu ilə bağlılığı vardır. Onlar demişlər ki, insanın qəlbində kafirlərə dostluq bəsləməsi, bütün müsəlmanların nəzərində haramdır. Həmçinin, təqiyyə olmadan sözdə və əməldə kafirlərə dostluq izhar etmək haramdır. Quranın və sünnənin mətnləri buna dəlalət edir.

Təqiyyədən danışan zaman, “kimdən təqiyyə edilməlidir”, “hansı işlər təqiyyəni mübah edir” və “təqiyyəni hansı növ söz və hərəkətlərlə etmək lazımdır” kimi mövzuları aydınlaşdırılmalıdır.

Kimdən təqiyyə edilməli olduğuna gəlincə, xoşagəlməz hərəkət etməsindən ehtiyat olunan hər bir güc və qüdrət sahibindən təqiyyə edilə bilər. Buraya kafirlər, zalım rəhbərlər, soyğunçular, qarətçilər və varlı şəhər əyanları daxildir.

Təqiyyəni mübah edən şeylərə gəlincə, qətl, bədən üzvlərinə görə qorxuya düşmək, qamçı ilə vurulmaq, təhdid və zalım varlıların düşmənçiliyi kimi səbəblər təqiyyəni mübah edirlər.

Təqiyyənin nə ilə edilməsinə gəlincə isə; 1) Sözdə: küfr sözləri və ondan daha aşağısı: bir şey satma, bir hədiyyə vermə və s. bu kimi işlərlə; 2) Əməldə: bütün haram əməllər ilə edilə bilər.

Məsruq demişdir ki: “Kim təqiyyə etməsə və nəticədə ölsə, cəhənnəmə daxil olar”. Lakin, bu, şaz və nadir fikirdir.”[527]

İbn Kəsir əd-Diməşqi deyir:

““**Yalnız təqiyyə etməniz istisnadır**”... Yəni, kim hər hansısa bir ölkədə və ya müəyyən bir zamanda kafirlərdən qorxarsa, onda həmin şəxs qəlbində və

---

[526] “Təfsirül-Məraği”: 3/136.
[527] “Təfsirül-bəhril-muhit”: 2/424.

batinində deyil, zahirində onlardan təqiyyə edə bilər. Necə ki, Buxari Əbüd-Dərdadan belə dediyini nəql etmişdir ki: "Biz bir dəstə şəxsin üzünə güldüyümüz halda, qəlblərimiz onlara lənət oxuyur"."[528].

Sərəxsi bu ayəni təqiyyənin icazəli olmasına dəlil gətirdikdən sonra deyir:

"Bəzi şəxslər bunu qəbul edə bilməyərək, "bu, münafiqlikdir", - deyirdilər. Doğru olan isə budur ki, bu iş Allah-taalanın "**Yalnız təqiyyə etməniz istisnadır**" ayəsinə əsasən, icazəlidir. Qəlb imanla aram olduğu halda, məcburi şəkildə dilə şirk sözü gətirmək, təqiyyədən sayılır"[529].

Təqiyyənin icazəli və qanuni olmasına dəlalət edən ayələrdən biri də Nəhl surəsinin 106-cı ayəsidir:

"**Qəlbi imanla aram olduğu halda (küfr deməyə) məcbur edilən şəxs istisna olmaqla, kim imanından sonra Allaha küfr etsə onlara Allah tərəfindən bir qəzəb və böyük bir əzab vardır**".

Bu ayə təqiyyənin ilahi bir qanun olmasına açıq-aşkar şəkildə dəlalət edir. İbn Kəsir əd-Diməşqi öz təfsir kitabında deyir:

"Alimlər hamılıqla bildirmişlər ki, küfrə məcbur edilən şəxs həm qanını qorumaq məqsədiylə dostluq izhar edə bilər, həm də Bilal (Allah ondan razı olsun) kimi dirənə bilər".

Sonra deyir:

""**Qəlbi imanla aram olduğu halda (küfr deməyə) məcbur edilən şəxs istisna olmaqla**" ayəsinə gəlincə, bu ayə dili ilə küfr sözü deyən və müşriklərlə sözdə razılaşan şəxslər arasından bəzilərinin istisna olduğunu bildirir. Avfi İbn Abbasdan nəql etmişdir ki, bu ayə Əmmar ibn Yasir barəsində nazil olmuşdur. Həmin vaxt müşriklər ona əzab və işgəncə vermiş, o da istəmədiyi halda məcburən həzrət Muhəmmədi (sallallahu əleyhi [və alihi] və səlləm) inkar edərək müşriklərlə razılaşmışdı. Bundan sonra üzr istəmək üçün Peyğəmbərin (sallallahu əleyhi [və alihi] və səlləm) yanına gəlmiş, nəticədə bu ayə nazil olmuşdu. Şabi, Qətadə və Əbu Malik də belə demişlər.

İbn Cərir demişdir:

Bizə İbn Əbdül-Əla nəql edib dedi: bizə Muhəmməd ibn Səvr Muəmmərdən, o, Əbdül-Kərim əl-Cəzəridən, o da Əbu Übeydə Muhəmməd ibn Əmmar ibn Yasirdən nəql edib dedi:

"Müşriklər Əmmar ibn Yasiri tutub ona işgəncə verdilər. O da məcbur qalıb onların bəzi sözləri ilə razılaşmalı oldu. Lakin, sonradan bu işinə görə Peyğəmbərə (sallallahu əleyhi [və alihi] və səlləm) şikayətləndi, Peyğəmbər (sallallahu əleyhi [və alihi] və səlləm) ona dedi: "Qəlbin necədir?" Əmmar dedi: "İmanla aramdır".

---

528 "Təfsirü-İbn Kəsir": 1/357.

529 "əl-Məbsut": 24/245.

Peyğəmbər (sallallahu əleyhi [və alihi] və səlləm) dedi: "Əgər yenə belə bir şey etsələr, eyni işi təkrarla"."

Bu hadisəni Beyhəqi daha sadə şəkildə nəql etmişdir. Onun nəqlində deyilir ki, Əmmar Peyğəmbəri (sallallahu əleyhi [və alihi] və səlləm) söyüb müşriklərin ilahları barədə xoş sözlər dedi. Sonra bu vəziyyətindən Peyğəmbərə (sallallahu əleyhi [və alihi] və səlləm) şikayətlənib dedi: "Ey Allahın Rəsulu, səni söyməyincə və onların ilahlarını xoş sözlə yad etməyincə, məni buraxmadılar". Peyğəmbər dedi: "Qəlbin necədir?" Dedi: "İmanla aramdır". Peyğəmbər dedi: "Əgər yenə belə etsələr, eyni işi təkrarla".

"**Qəlbi imanla aram olduğu halda (küfr deməyə) məcbur edilən şəxs istisna olmaqla...**" ayəsi də bu münasibətlə nazil oldu"[530].

## Müsəlmanın müsəlmandan təqiyyə etməsi

Madam ki, söhbət təqiyyə mövzusundan gedir, o zaman müsəlmanın müsəlmandan təqiyyə etməsi məsələsinə də toxunmaq yaxşı olardı. Çünki bəziləri təqiyyənin yalnız qeyri-müsəlmana qarşı edilə biləcəyini deyir, müsəlmana gəlincə isə, ondan təqiyyə etməyin icazəli olmadığını bildirir.

Bu, batil iddiadır və dəlillər bunun əksini göstərir.

Qeyri-müsəlmandan təqiyyə etmək mümkün olduğu kimi, zərərdən qorunmaqdan ötrü zalım müsəlmandan da təqiyyə etmək olar. Şiə mənbələrində buna dəlalət edən dəlillər çoxdur. Biz şiə mənbələrindən deyil, sünni mənbələrindən dəlillər göstərməklə kifayətlənəcəyik. Sünni alimləri zərəri dəf etməkdən ötrü istər kafirdən, istərsə də zalım müsəlmandan təqiyyə etməyin icazəli olduğunu bildirmişlər.

İbn Həyyan əl-Əndəlusi "əl-Bəhrul-muhit" kitabında deyir:

"Kimdən təqiyyə edilməli olduğuna gəlincə, xoşagəlməz hərəkət etməsindən ehtiyat olunan hər bir güc və qüdrət sahibindən təqiyyə edilə bilər. Buraya kafirlər, zalım rəhbərlər, soyğunçular, qarətçilər və varlı şəhər əyanları daxildir.

Təqiyyəni mübah edən şeylərə gəlincə, qətl, bədən üzvlərinə görə qorxuya düşmək, qamçı ilə vurulmaq, təhdid və zalım varlıların düşmənçiliyi kimi səbəblər təqiyyəni mübah edirlər.

Təqiyyənin nə ilə edilməsinə gəlincə isə; 1) Sözdə: küfr sözləri və ondan daha aşağısı: bir şey satma, bir hədiyyə vermə və s. bu kimi işlərlə; 2) Əməldə: bütün haram əməllər ilə edilə bilər."[531].

Alusi "Ruhul-məani" kitabında deyir:

---

530 "Təfsirül-Quranil-əzim": 2/587-588.

531 "əl-Bəhrul-muhit": 2/424.

“Ayədə təqiyyənin qanuniliyinə dəlil vardır. Alimlər ona “canın, namusun və malın düşmənin şərrindən qorunması” kimi tərif vermişlər. Düşmən isə iki qisimdir:

Birinci qisim: Düşmənçiliyi dini ixtilafa dayanan şəxs. Məsələn, kafir və müsəlman kimi.

İkinci qisim: Düşmənçiliyi mal, mülk, imarət və s. kimi bir sıra dünyəvi məqsədlərə dayanan şəxs”[532].

Əbdül-Haqq əl-Əndəlusi deyir:

“Alimlər təqiyyənin kimdən ediləcəyi, nə ilə ediləcəyi və hansı səbəbdən ediləcəyi mövzusunda müxtəlif fikirlər söyləmişlər. Təqiyyənin kimdən ediləcəyinə gəlincə, zərərindən qorxulan hər bir güc və qüdrət sahibindən edilə bilər. Buraya hakim təbəqə halında olan kafirlər, zalım rəhbərlər, yol kəsən quldurlar və varlı şəhər əyanları daxildir. Malik demişdir ki, “qadının ərindən də qorxula (və təqiyyə edilə) bilər”... ”[533].

Cəssas deyir:

“Məcburiyyətin hökmləri müxtəlifdir. Elə növ məcburiyyət vardır ki, bu zaman təqiyyə etmək vacibdir. Məsələn, insanın şərab içməyə, ölü heyvan əti yeməyə və s. bu kimi işlərə məcbur edilməsi kimi.”[534]

Qurtubi deyir:

“Məcbur olduğu zaman insan təqiyyə edərək zalımla yoldaşlıq edə bilər, bu, istisnadır və qadağa deyil”[535].

Marağī təfsirində deyir:

“Kafirlərin, zalımların və fasiqlərin əziyyətini dəf etməkdən və namusu onlardan qorumaqdan ötrü onlarla keçinmək, yumuşaq danışmaq, üzlərinə təbəssüm etmək və onlar üçün pul xərcləmək təqiyyəyə daxildir. Bu, qadağan edilmiş dostluqdan sayılmır. Ət-Təbərani Allah Rəsulunun (sallallahu əleyhi [və alihi] və səlləm) belə buyurduğunu nəql etmişdir:

“Möminin, vasitəsilə namusunu qoruduğu şey sədəqədir”.”[536]

Cəmaləddin əl-Qasimi deyir:

وزاد الحق غموضاً وخفاءً أمران: أحدهما: خوف العارفين ـ مع قلّتهم ـ من علماء السوء وسلاطين الجور وشياطين الخلق مع جواز التقية عند ذلك بنص القرآن، وإجماع أهل الإسلام، وما زال الخوف مانعاً من إظهار الحق، ولا برح المحق عدوّاً لأكثر الخلق، وقد صحّ عن أبي هريرة ـ رضي الله عنه ـ أنّه قال ـ في ذلك العصر الأوّل ـ: حفظت من رسول الله ـ صلّى الله عليه وسلّم ـ وعاءين، أمّا أحدهما فبثثته في الناس، وأمّا الآخر فلو بثثته لقطع هذا البلعوم.

532 “Ruhul-məani”: 3/121.
533 “əl-Muhərrərül-vəciz fi təsriril-kitabil-əziz”: 1/420.
534 “Əhkamul-Quran”: 5/16.
535 “Təfsirül-Qurtubi”: 9/108.
536 “Təfsirül-Məraği”: 3/136.

“İki şey haqqı daha da qaranlıq və gizli etmişdir:

Birincisi: Az olmaları səbəbindən ariflərin (mərifət və elm əhlinin) pis alimlərdən, zalım sultanlardan və şeytan xislətli şəxslərdən qorxması. Belə yerdə Quranın dəlaləti və müsəlmanların icmasına əsasən, təqiyyə caizdir. Qorxu daim haqqın aşkar edilməsinə maneə olmuş, haqq olan şəxs daim əksər insanların nəzərində düşmən sayılmışdır. Səhih bir hədisdə Əbu Hureyrənin hələ o dövrdə belə dediyi nəql demişdir: “Allah Rəsulundan (sallallahu əleyhi [və alihi] və səlləm) iki “qab” hifz etdim. Birinciyə gəlincə, onu camaat arasında yaydım. Digərini gəlincə isə, əgər onu yaysam, bu udlaq kəsilər”...”[537].

“Siyərü-əlamin-nübəla” kitabının müəllifi Səid ibn Cübeyrlə Həccac ibn Yusif əs-Səqəfi arasında baş verən hadisələr və Həccacın onun qətlinə fərman verməsi ilə bağlı bir sıra rəvayətlər qeyd etdikdən sonra deyir:

“Deyirəm: Səid ibn Cübeyr şəhadətin fəzilətini bildiyi üçün qətl müqabilində dimdik durdu, ona önəm vermədi, özünə mübah olan təqiyyəyə baş vurmadı. Allah ona rəhmət etsin.”[538]

Zəhəbinin bu sözündən başa düşülür ki, Səid ibn Cübeyr şəhdəti Həccacın qarşısında təqiyyə etməkdən üstün tutub. Bununla yanaşı, həmin halda təqiyyə etməsi tamamilə caiz olub. Əgər təqiyyə etsəydi, onda etdiyi iş düzgün olacaqdı.

Bu, zalım müsəlman qarşısında təqiyyə etməyin icazəli olmasına bir dəlildir.

Əhli-sünnə alimlərindən qeyd etdiyimiz bütün bu sitatlar təqiyyənin təkcə kafir və ya müşriklərə adi olmadığını, onun həm də zalım müsəlmana aid olduğunu göstərir. Hətta, əhli-sünnənin nəql etdiyi rəvayətlərdə müsəlmanların bu işi praktiki şəkildə icra etdikləri; bir-birlərindən təqiyyə etdikləri qeyd olunmuşdur.

İbn Əbu Şeybə “əl-Müsənnəf” kitabında Nizal ibn Səbrədən belə nəql edir:

“İbn Məsud və Hüzeyfə Osmanın yanına daxil oldular. Osman Hüzeyfəyə dedi:

– Mənə sənin belə-belə dediyin çatıb. Hüzeyfə dedi:

– Yox, vallah, deməmişəm.

Osmanın yanında çıxdıqdan sonra, Abdullah Hüzeyfəyə dedi:

– Nə olub, nə üçün dediyini inkar etdin, mən ki sənin o sözləri dediyini eşitmişdim!

Hüzeyfə dedi:

– Mən dinimin tamamilə aradan getməsindən qorxduğum üçün onun bir hissəsi ilə digər hissəsini ilə satın alıram.”[539]

Göründüyü kimi, Osman Hüzeyfənin dediyi bir söz barəsində ondan izahat istəyir. Hüzeyfə isə o sözü dediyini inkar edir. Ardınca Abdullah ibn Məsud ondan

---

[537] “Məhasinut-təvil”: 4/82.

[538] “Siyərü-əlamin-nübəla”: 5/301.

[539] “Müsənnəfü-İbn Əbi Şeybə”: 6/474, hədis: 3305.

bu inkarın səbəbini soruşaraq bildirir ki, o, Hüzeyfənin bu sözü dediyini eşidib, elə isə nə üçün Hüzeyfə öz sözünü inkar edir? Hüzeyfə də cavab verərək bildirir ki, dinində fintəyə düşməkdən qorxduğu üçün təqiyyə olaraq belə edib.

Həmçinin, digər misal İbn Ömərlə Osman arasında baş verən hadisədir. Osman Peyğəmbər (sallallahu əleyhi və alihi və səlləm) sünnəsinə müxalifət edib Minada qılınan 2 rəkətli namazı 4 rəkət etmişdi. İbn Ömər də Osmanın qorxusundan təqiyyə edərək imamın arxasında qıldığı zaman bu namazı 4 rəkət, təklikdə qıldığı zaman isə 2 rəkət qılarmış. "Səhihü-Müslim" kitabında Nafedən belə nəql edir:

"Allah Rəsulu (sallallahu əleyhi [və alihi] və səlləm) Minada 2 rəkət namaz qıldı. Ondan sonra Əbu Bəkr də 2 rəkət qıldı. Əbu Bəkrdən sonra Ömər də 2 rəkət qıldı. Ömərdən sonra Osman da xilafətinin əvvəllərində 2 rəkət qıldı, lakin sonradan 4 rəkət qıldı. İbn Ömər bu namazı imamın arxasında qıldığı zaman 4 rəkət qılar, təkbaşına qıldığı zaman isə 2 rəkət qılardı"![540]

Həmçinin, Sərəxsi "əl-Məbsut" kitabında deyir:

"Məsruq barəsində belə nəql olunur:

Müaviyə sarı misdən olan bir neçə heykəli (bütü) Hindistana satmaq üçün göndərdi. Bu heykəllər Məsruqun yanına gətirildikdə, o dedi: "Allaha and olsun, əgər bilsəydim ki, Müaviyə məni öldürəcək, bu heykəlləri suya atardım. Lakin, mən Müaviyənin mənə işgəncə verməsindən və məni fitnəyə düçar etməsindən qorxuram. Allaha and olsun, bilmirəm Müaviyə nə cür adamdır: çirkin əməli ona yaxşı göstərilən bir adamdır, yoxsa, axirətdən ümidini üzmüş, buna görə də (bacardığı qədər) dünyadan kam almağa çalışan bir adamdır!"."[541]

Məsruqun o bütləri suda batırmaması Müaviyə ibn Əbu Süfyandan təqiyyə etməsinə və onun özünə əzab verərək fitnəyə düçar etməsindən qorxmasına görə idi.

Həmçinin, "Səhihül-Buxari" kitabında Əbu Hüreyrə əd-Dəvsidən belə nəql edilir:

"Allah Rəsulundan (sallallahu əleyhi [və alihi] və səlləm) iki "qab" hifz etdim. Birinciyə gəlincə, onu camaat arasında yaydım. Digərini gəlincə isə, əgər onu yaysam, bu udlaq kəsilər"[542].

Şübhəsiz, Əbu Hüreyrənin o ikinci "qab"dakı hədisləri yaymaması kafirlərdən qorxduğu üçün deyildi. Onun qorxusu öz mənafelərinə və ya inanclarına uyğun gəlmədiyi üçün həmin hədislərin yayılmasını istəməyən öz dövrünün müsəlman hakimlərindən idi.

---

[540] "Səhihü-Müslim": 1/482, hədis: 694.
[541] "əl-Məbsut": 24/46.
[542] "Səhihül-Buxari": 1/56, hədis: 120.

Həmçinin, Həsən əl-Bəsri İmam Əmirəlmömininindən (əleyhissəlam) eşitdiyi, onun da Allah Rəsulundan (sallallahu əleyhi və alihi və səlləm) eşitdiyi hədisləri bilvasitə imamın özündən deyil, bilavasitə Allah Rəsulundan (sallallahu əleyhi və alihi və səlləm) nəql edirmiş. Halbuki, Həsən əl-Bəsri Allah Rəsulunu (sallallahu əleyhi və alihi və səlləm) görməmişdi. Lakin, canından qorxduğuna görə təqiyyə edərək hədisləri birbaşa Peyğəmbərdən nəql edirdi. Mizzinin "Təhzibül-kəmal" kitabında Yunis ibn Übeyddən belə nəql olunur:

"Həsən əl-Bəsridən soruşdum:

– Ey Əbu Səid, sən hədis nəql edəndə "Peyğəmbər (sallallahu əleyhi [və alihi] və səlləm) buyurub", - deyirsən. Halbuki, sən Peyğəmbərin (sallallahu əleyhi [və alihi] və səlləm) zamanını görməmisən.

Həsən cavab verdi:

– Ey qardaşım oğlu, sən məndən indiyədək heç kəsin soruşmadığı bir məsələni soruşdun. Əgər sənin mənim yanımda məqamın olmasaydı, sənə cavab verməzdim. Mən elə bir zamanda yaşayıram ki, özün görürsən. – O, Həccacın zamanında yaşayırdı –. Məndən "Allah Rəsulu dedi", - deyə nə eşitsən, bil ki, həmin şey Əli ibn Əbu Talibdəndir. Lakin mən elə bir zamanda yaşayıram ki, Əlinin adını çəkə bilmirəm"[543].

Həmçinin, İbn Həcər "Fəthül-Bari" kitabında deyir:

"Səhih şəkildə nəql olunmuşdur ki, Həccac, onun əmiri Vəlid və başqaları namazı vaxtında qılmayıb təxirə salırdılar. Bu barədə nəql olunan xəbərlər məşhudur. Belə xəbərlərdən biri Əbdür-Rəzzaqın İbn Cüreyhdən, onun da Ətadan nəql etdiyi xəbərdir. O xəbərdə Əta deyir ki, Vəlid cümə namazını o qədər təxirə saldı ki, axşam düşdü. Mən gəlib oturmadan zöhr namazını qıldım. Sonra elə oturan yerdə də işarə ilə əsr namazını qıldım. Bu zaman Vəlid xütbə edirdi.

Əta bunu (əsr namazını oturan yerdə qılmağı) məhz qətlə yetirilməkdən qorxduğu üçün etmişdi.

Digər bir xəbər Buxarinin şeyxi olan Əbu Nüeymin "Kitabus-salat" kitabında Əbu Bəkr ibn Ütbə yolu ilə nəql etdiyi xəbərdir. O xəbərdə Əbu Bəkr ibn Ütbə deyir ki:

Əbu Cüheyfənin yanında namaz qıldım[544]. Həccac namazı axşama saldı[545]. Bu zaman Əbu Cüheyfə qalxıb namaz qıldı[546]".

Həmçinin, müəllif İbn Ömərdən nəql edir ki, İbn Ömər Həccacın arxasında namaz qılarmış, lakin Həccac namazı təxirə salmağa başlayınca, İbn Ömər onun arxasında namaz qılmağı tərk edib.

---

543 "Təhzibül-kəmal": 6/124.

544 Görünür ya zöhr namazı imiş, ya da başqa müstəhəb namaz. Ya da ravi "Namaz qılmaq üçün Əbu Cüheyfənin yanında durdum" mənasını nəzərdə tutub. Tərc.

545 Görünür ya əsr namazını, ya da zöhr və əsr namazını. Tərc.

546 Görünür, ya zöhr və əsr namazlarını nəzərdə tutur, ya da təkcə əsr namazını. Tərc.

Həmçinin, müəllif Muhəmməd ibn Əbu İsmayıldan belə dediyini nəql edir:

Mən Minada idim. Orada Vəlid üçün Quran oxunurdu. Buna görə də namazı təxirə saldılar. Mən Səid ibn Cübeyrə və Ətaya baxdım, bu zaman onların oturan yerdə işarə ilə namaz qıldıqlarını gördüm”[547].

Əl-Eyni də “Ümdətül-qari” kitabında eyni sözləri demişdir:

“Səhih şəkildə nəql olunmuşdur ki, Həccac, onun əmiri Vəlid və başqaları namazı vaxtında qılmayıb təxirə salırdılar. Bu barədə nəql olunan xəbərlər məşhudur. Belə xəbərlərdən biri Əbdür-Rəzzaqın İbn Cüreyhdən, onun da Ətadan nəql etdiyi xəbərdir. O xəbərdə Əta deyir ki, Vəlid cümə namazını o qədər təxirə saldı ki, axşam düşdü. Mən gəlib oturmadan zöhr namazını qıldım. Sonra elə oturan yerdə də işarə ilə əsr namazını qıldım. Bu zaman Vəlid xütbə edirdi.

Əta bunu (əsr namazını oturan yerdə qılmağı) məhz qətlə yetirilməkdən qorxduğu üçün etmişdi.

Digər bir xəbər Buxarinin şeyxi olan Əbu Nüeymin “Kitabus-salat” kitabında Əbu Bəkr ibn Ütbə yolu ilə nəql etdiyi xəbərdir. O xəbərdə Əbu Bəkr ibn Ütbə deyir ki:

Əbu Cüheyfənin yanında namaz qıldım[548]. Həccac namazı axşama saldı[549]. Bu zaman Əbu Cüheyfə qalxıb namaz qıldı[550]”.

Həmçinin, müəllif İbn Ömərdən nəql edir ki, İbn Ömər Həccacın arxasında namaz qılarmış, lakin Həccac namazı təxirə salmağa başlayınca, İbn Ömər onun arxasında namaz qılmağı tərk edib.

Həmçinin, müəllif Muhəmməd ibn Əbu İsmayıldan belə dediyini nəql edir:

Mən Minada idim. Orada Vəlid üçün Quran oxunurdu. Buna görə də namazı təxirə saldılar. Mən Səid ibn Cübeyrə və Ətaya baxdım, bu zaman onların oturan yerdə işarə ilə namaz qıldıqlarını gördüm”[551].

Həmçinin, Abdullah ibn Əhməd ibn Hənbəlin “əs-Sünnə” kitabında deyilir:

“Süfyan ibn Vəki mənə nəql edib dedi: Ömər ibn Həmmad ibn Əbu Hənifənin belə dediyini eşitdim: atam Həmmad ibn Əbu Hənifə mənə xəbər verib dedi:

İbn Əbu Leyla atama xəbər göndərib dedi: “Quranın məxluq olması fikrindən əl çəkib tövbə et. Yoxsa, sənə qarşı xoşuna gəlməyən bir iş görərəm!”. Atam onun sözünə tabe oldu. Mən dedim:

– Ay ata, belə bir şey necə etdin?

O dedi:

---

[547] “Fəthül-Bari”: 2/14.

[548] Görünür ya zöhr namazı imiş, ya da başqa müstəhəb namaz. Ya da ravi “Namaz qılmaq üçün Əbu Cüheyfənin yanında durdum” mənasını nəzərdə tutub. Tərc.

[549] Görünür ya əsr namazını, ya da zöhr və əsr namazını. Tərc.

[550] Görünür, ya zöhr və əsr namazlarını nəzərdə tutur, ya da təkcə əsr namazını. Tərc.

[551] “Ümdətül-qari”: 5/16.

– Oğlum, mən onun mənə qarşı çıxmasından qorxdum, ona görə də təqiyyə etdim”![552]

Gördüyünüz kimi, əhli-sünnə imamlarından və dörd sünni məzəbindən birinin qurucusu olan Əbu Hənifə Numan İbn Əbu Leylanın qorxusundan təqiyyə edir. Görəsən, bundan sonra kimsə müsəlmandan təqiyyə etməyin icazəli olmadığını və haram olduğunu deyə bilərmi?!

## Təqiyyə dinin əsas yox, ikinci dərəcəli prinsiplərindəndir

On iki imam şiələrinin nəzərində təqiyyə üsuliddindən (dinin əsas və zəruri prinsiplərindən) deyil, füruiddindən (dinin ikinci dərəcəli prinsiplərindən)dir. Osman əl-Xəmisin təqiyyənin şiələr nəzərində üsuliddindən olduğunu iddia etməsi, onun şiələrə atdığı yalan və iftiralardan növbəti birisidir. Nə qədim, nə də müasir dövr şiə alimləri arasında təqiyyənin dinin əsaslarından sayan bir alim yoxdur. Məhz buna görədir ki, Osman əl-Xəmis öz iddiasını gücləndirib isbat etmək üçün heç bir şiə alimindən sitat gətirməmişdir. Çünki, çox gözəl bilir ki, şiə alimləri arasında heç bir alim təqiyyəni dinin əsaslarından saymamışdır. Lakin, “ridaul-kəbir”i[553] halal sayanın süddən ayrılması çətin olar.

İmamın (əleyhissəlam) buyurduğu “təqiyyəsi olmayanın imanı yoxdur” sözünə gəlincə, bu söz təqiyyənin dinin əsaslarından olduğuna dəlalət etmir. Çünki bu hədis mütləq mənada deyildir. Hədisdə təqiyyə etmək gərəkən yerdə təqiyyə etməyən adamın yerli-dibli imansız olması deyil, onun kamil imana sahib olmaması nəzərdə tutulur. Bəzi əhli-sünnə alimləri də bir sıra hədislərin mənasını şərh edərkən məhz bu üsluba əsaslanmışlar.

Məsələn, İbn Əbdül-Bərr bir sıra hədisləri şərh edərkən deyir:

“...Alimlər demişlər ki, Peyğəmbər (sallallahu əleyhi [və alihi] və səlləm) “zinakar zina etdiyi zaman mömin halda zina etmir” deyərkən (zina edənin zina etdiyi zaman kafir olmasını deyil) onun həmin vaxt kamil imana sahib olmamasını nəzərdə tutmuşdur. Çünki, iman itaətlə artar, günahla azalar. Oğru, şərab içən və s. bu kimi şəxslər barəsində qeyd olunan eyni növ hədislər də bu mənadadır.

Həmçinin, alimlər Ömərin dediyi “namazı tərk edənin islamdan bir nəsibi yoxdur” sözünü bu şəkildə mənalandırmışlar. Onlar demişlər ki, Ömər bu sözü ilə belə bir şəxsin (kafir olmasını deyil) islamda böyük bir payının və kamil nəsibinin olmamasını nəzərdə tutmuşdur.

---

[552] “əs-Sünnə”: 1/183, hədis: 238.

[553] Böyük kişinin naməhrəm qadının südünü əmməklə o qadına məhrəm olması hadisəsinə verilən addır. Hər nə qədər ikrahverici və gülünc görünsə də, bu gün də bəziləri İslamda belə bir hökmün varlığını müdafiə edirlər. Müəllif bu cümləni ironik mənada işlətmişdir. Bu mənanı “bir dəfə öyrəşdimi, əl çəkmək bilmir” kimi qəbul edə bilərik. Tərc.

İbn Məsudun sözü və onun kimi digərlərinin sözləri də bu mənadadır.

Həmçinin, alimlər "məscidin qonşuluğunda olan şəxsin namazı yalnız məsciddə ola bilər" hədisini də bu mənaya aid etmişlər. Yəni, məscidin qonşuluğunda olan şəxsin kamil namazı yalnız məsciddə ola bilər (nəinki, belə bir şəxsin ümumiyyətlə məsciddən kənarda qıldığı namazlar batildir).

Həmçinin, "miskin (pul üçün) sizin ətrafınıza dolanan adam deyildir" hədisi də bu mənadadır. Bununla o nəzərdə tutulur ki, belə bir şəxs həqiqi miskin deyildir. Çünki ondan daha miskin vəziyyətdə olan var – camaata ağız açmayan adam.

Bunun kimi bir çox misallar göstərmək olar"[554].

Təhavi deyir:

"...Allah Rəsulu (sallallahu əleyhi [və alihi] və səlləm) demişdir: "Qonşusu ac olduğu halda özü tox yatan adam müsəlman deyildir". Peyğəmbər bununla belə bir şəxsin imandan çıxıb kafir olduğunu nəzərdə tutmamışdır. Peyğəmbər bununla belə bir adamın imanın yüksək mərtəbələrinə sahib olmadığını nəzərdə tutmuşdur..."[555].

## Osman əl-Xəmisin yeni iddiası: Təqiyyə ilə bağlı hədislər şiə alimləri arasında ixtilaf, şiə məzhəbi içində ziddiyyət yaratmışdır!

Osman əl-Xəmis deyir:

"Təqiyyə sizin məzhəbinizdəki ziddiyyət və ixtilafların əsas səbəbi olmuş, alimləriniz arasında fikir ayrılığı salmışdır"[556].

**Deyirəm:**

Biz Qurandan, sünnədən və əhli-sünnə alimlərinin sözlərindən gətirdiyimiz dəlillərlə təqiyyənin ilahi bir qanun olduğunu və onun Quran və sünnə ilə təsdiq olunduğunu sübut etdik. Müsəlman lazım gəldiyi halda təqiyyə edə bilər. Onun bu işi icazəlidir və o, bu işi görməklə hər hansısa şəri qanun pozuntusuna yol vermir. Əksinə, bəzi vaxtlar təqiyyə etmək hətta vacib belə olur.

Osman əl-Xəmis isə bəzi hədislər barəsində, daha dəqiq desək, bu hədislərin təqiyyə ilə deyilib-deyilməməsi barəsində şiə fəqihləri (Allah dünyasını dəyişənlərə rəhmət etsin, qalanlarına da uzun ömür verib öz hifz-amanında saxlasın) arasında yaranan ixtilafa diqqət çəkərək bununla şiələrə tənə vurmağa çalışmışdır.

---

[554] "ət-Təmhid": 4/237-238.
[555] "Şərhü-məanil-əxbar": 1/28.
[556] "Qəlbdən qəlbə": səh.80.

Halbuki, şiə alimlərinin kitablarına müraciət edib onların sözlərinə nəzər salan şəxslər çox az sayda belə hədis tapa bilər. Bu hədislər Osman əl-Xəmisin göstərməyə çalışdığı kimi çox deyildir, əksinə, o qədər azdır ki, heç danışmağa belə dəyməz.

Üstəlik, təqiyyə halında deyilmiş hədislərin əksəriyyətinin təqiyyə ilə deyilmiş olması üzərində şiə fəqihləri arasında ittifaq olmuşdur. Təqiyyə ilə deyilmiş olması üzərində ittifaq olmayan hədislərə gəlincə isə, hər bir fəqih bu hədislərlə öz ictihadına uyğun şəkildə davranır. Buna görə də, onlar hər bir halda həqiqətə çatmaq üçün səy etdiklərinə görə savab qazanırlar.

## Əhli-sünnə mənbələrində gələn ziddiyyətli hədislər şiə mənbələrində olandan qat-qat daha artıqdır

Bundan başqa, şiə imamlarından (əleyhimussəlam) nəql olunan və zahirindən ziddiyyət nəzərə çarpan şiə hədisləri əhli-sünnə ravilərinin Allah Rəsulundan (sallallahu əleyhi və alihi və səlləm) və ya bəzi səhabələrdən nəql etdiyi ziddiyyətli hədislərə nisbətdə demək olar ki, heç nədir. Əhli-sünnə kitablarında çox az məsələ olar ki, o məsələ barəsində iki və ya daha artıq müxtəlif hədis, əhli-sünnə fəqihlərindən iki və ya daha artıq müxtəlif söz nəql olunmasın. Əksər hallarda bu hədis və sözlər bir-birləri ilə ziddiyyət təşkil edirlər. Mən oxuculara əhli-sünnənin fiqhi kitablarını oxumağı tövsiyə edirəm. Xüsusən də, əhli-sünnə alimlərinin fiqhi görüşlərinin, onlar arasındakı ixtilaflı məsələlərin və bu məsələlərin mənşəyinin qeyd olunduğu kitabları. Məsələn, İbn Rüşd əl-Qurtubinin "Bidayətül-müctəhid" kitabı buna nümunə ola bilər. Belə olduğu təqdirdə, oxucu bizim sözümüzün doğruluğuna əyani şəkildə şahid olacaq.

## Osman əl-Xəmis bəzi şiə hədisləri vasitəsilə şiələrə tənə vurmağa çalışır

Osman əl-Xəmis həmçinin, bəzi imamların (əleyhimussəlam) bir məsələyə iki müxtəlif cür cavablar verdiklərini bildirən bir sıra hədisləri qeyd edərək bununla şiələrə tənə vurmağa çalışmış, məsələ ilə bağlı Əllamə Şeyx Yusif əl-Bəhraninin (Allah rəhmət etsin) "əl-Hədaiqun-nadira" kitabında dediyi bir sözü nəql etmişdir.

Halbuki, bu məsələ də şiələrə tənə vurulmasına səbəb olacaq problemli bir məsələ deyildir. Belə ki, İmam Baqir (əleyhissəlam) ondan nəql olunan hədislərin birində bu situasiyanın səbəbini açıqlamışdır. İmam bildirmişdir ki, bu hal təqiyyənin növlərindən biridir. İmamlar (əleyhimussəlam) özlərinin və şiələrinin canını qorumaqdan ötrü məcburən bu yola baş vurmuşlar. İmamları bəzi vaxtlar təqiyyənin müxtəlif növlərindən istifadə etməyə vadar edən səbəb onların və

şiələrinin tarix boyu hakim dairələr və ya bəzi müxaliflər tərəfindən zülm və təzyiqlərə məruz qalmalarıdır. Lakin, bu o demək deyil ki, onlar bütün söz və hərəkətlərində, hətta yalnız öz güvənilir şəxslərinin olduğu xüsusi məclislərində belə təqiyyəyə baş vurmuşlar. Xeyr, doğru olan bunun tam əksidir.

Hədislər sübuta yetirir ki, İmam Sadiq (əleyhissəlam) öz yaxın dostlarına özünün hakim dairənin istəklərinə uymayan fikir və sözlərini gizli saxlamağı əmr edirmiş. İmam öz fikir və sözlərini onlarla, hətta yüzlərlə güvənilir və etibarlı şəxslərinə bildirir, ardınca imamın hərəkətlərini izləmək üçün üçün hakim dairənin təyin etdiyi adamlarının qulağına çatmasın deyə nə olur-olsun, bu fikirləri ifşa etməməyi onlara tapşırırdı. Bu onu göstərir ki, təqiyyə ilə deyilmiş hədislər imamların (əleyhimussəlam) zirək və diribaş səhabələrinin nəzərindən qaçmayan xüsusi şəraitlərdə baş verirdi. Onlar imamlarla birbaşa rabitələri olduqlarından bu şəraitləri tanıyır, hansı hədisin təqiyyə ilə deyilib-deyilmədiyini bilirdilər. Həmçinin, bu, imamlardan (əleyhimussəlam) sadir olan təqiyyə ilə deyilmiş hədislərin təqiyyə ilə deyilməmiş hədislərə nisbətdə çox az saya malik olduğuna da dəlalət edir.

## Təqiyyə beş növə bölünür

On iki imam şiələrinin nəzərində təqiyyə heç də bütün hallarda icazəli deyildir. Şiə fiqhinə əsasən, təqiyyə beş növə bölünür: vacib, müstəhəb (edilməsi yaxşı olan, lakin vacib olmayan), haram, məkruh (edilməsi yaxşı olmayan, lakin haram da olmayan) və mübah (edilməsi ilə edilməməsi eyni dərəcəli olan) təqiyyə. Şiələrin nəzərində təqiyyə həmişə vacib və ya icazəli deyildir. Əllamə Muhəmməd Rza əl-Müzəffər (Allah ona rəhmət etsin) deyir:

“Təqiyyənin zərər qorxusu yerlərinin dəyişməsindən asılı olaraq vacib olub-olmama baxımından müxtəlif hökmləri vardır. Bu hökmlər fiqh kitablarının müvafiq bölmələrində qeyd olunmuşdur. Təqiyyə bütün hallarda icazəli deyildir. Əksinə, bəzən icazəli ola bilər, bəzən isə qadağan. Məsələn, əgər haqqı gizlətməyib açıq-aşkar demək dinə yardım, islama xidmət və islam yolunda cihad etmək sayılarsa, belə vəziyyətdə mal-dövlət dəyərdən düşər, canlar önəmini itirər (belə yerdə təqiyyə edilməz). Həmçinin, əgər təqiyyə bir kəsin qətlinə, batilin yayılmasına, dində fəsadın düşməsinə, müsəlmanlara ciddi zərər toxunmasına, məsələn onların zəlalətə düşmələrinə və ya aralarında zülm və haqsızlığın yayılmasına gətirib çıxararsa, haram olar”[557].

Şeyx Cəfər Sübhani deyir:

“Təqiyyə beş növə bölünür. Təqiyyə canın, namusun və malın qorunması üçün vacib ola bildiyi kimi, ardınca dinin aradan getməsi, həqiqətin gələcək

[557] “Əqaidul-imamiyyə”: səh.85.

nəsillərdən gizli qalması, düşmənlərin müsəlmanların işlərinin, müqəddəsatının və ibadətgahlarının üzərinə çökməsi kimi daha böyük fəsadları gətirdiyi təqdirdə haram da ola bilir. Bu səbəbdən də siz şiənin bir çox böyük şəxsiyyətlərinin bəzi vaxtlar təqiyyəni rədd edib öz canlarını din yolunda qurban verdiklərini görürsünüz. Təqiyyənin müəyyən yerləri vardır. O cümlədən də haram təqiyyənin öz xüsusi yerləri vardır."

Sonra deyir:

"Təqiyyə təhlükə aradan gedənə qədər aşkar edilməsindən çəkinilən bir şeyin gizlədilməsidir. O, təzyiq və zülmdən xilas olmağın ən yaxşı yoludur. Lakin bu o demək deyil ki, şiə qorxaq, cəsarətsiz, ürkək, vücudunu zəiflik və zəlillik bürümüş bir şəxsdir. Əsla! Təqiyyənin öz hədləri vardır və o, bu hədlərdən kənara çıxmır. Təqiyyə bəzi vaxtlarda vacib olduğu kimi, bəzi vaxtlarda haram olur. Məsələn, Yezid ibn Müaviyə kimi zalım və azğın bir hakimin qarşısında təqiyyə etmək haramdır. Çünki belə təqiyyədə zəlillik, həqarət, dəyərlərin unudulması və geriyə qayıdış vardır. Təqiyyə caizlik və haramlıqda güc və zəifliyə əsaslanmır. Onun caizliyini və ya haramlığını müsəlmanların və İslamın məsləhət və mənfəətləri təyin edir."[558]

İmam bütün hallarda təqiyyə edə bilməz. Çünki imamət peyğəmbərliyin davamıdır. İmam da Peyğəmbər (sallallahu əleyhi və alihi və səlləm) kimi mənası əsla aydın olmayan bir söz deyə bilməz. Belə yerdə təqiyyə etmək icazəli deyildir. Çünki bu, xoşagəlməz bir iş görmək sayılır ki, imam barəsində belə bir şey düşünülə bilməz. İmam məhz həqiqətə çatmağa mane törətmədiyi halda təqiyyə edə bilər. Əgər onun təqiyyə etməsi həqiqətə çatmağa maneə törədəcəksə, onda bu halda onun təqiyyə etməsi caiz olmaz. Məsum imam (əleyhissəlam) təqiyyənin harada edilib edilməyəcəyini hamıdan daha yaxşı bilir.

## Osman əl-Xəmisin başqa bir iddiasına cavab

Osman əl-Xəmis şiələrin təqiyyəyə məhz ümumilikdə şiə məzhəbində, xüsusilə də imamət mövzusunda sahib olduqları ziddiyyətləri ört-basdır etmək üçün baş vurduqlarını iddia etmişdir. Ardınca şiələrə iftira və saxtakarlıq mövzusunda qardaşı olan Əhməd əl-Katib adlanan şəxsin sözünü nəql etmişdir. Osman əl-Xəmis "təqiyyə: ziddiyyətlər üçün bir örtük" başlığı altında deyir:

"Əhməd əl-Katib onların tez-tez təqiyyəyə baş vurmalarının həqiqətini açaraq bunun ümumiyyətlə məzhəbdəki, xüsusilə də imamət məsələsindəki çoxlu ziddiyyətləri ört-basdır etmək üçün olduğunu bildirmişdir. O deyir:

---

558 "əl-İtisam bil-kitabi vəs-sünnə": səh.336-337.

İmamilər bu vəziyyətə “təqiyyə” adı vermişlər. Bunu etməkdən məqsədləri Əhli-Beyt imamlarının şuranı qəbul etdiklərini və öz elmlərinin təbii elm olduğunu bildirən sözləri və həyat yolları ilə nəssə, ilahi təyinata və ilahi qeybi elmə əsaslanan ilahi imamət iddiası arasındakı ziddiyyəti həll etmək olmuşdur. İmamilər bu iddianı (nəssə və ilahi təyinə əsaslanan imamət iddiasını və imamların qeyb elmini bilməsi fikrini) gizli şəkildə Əhli-Beytə nisbət verirdilər. Lakin, Əhli-Beyt onlara mənsub edilən bu sözləri şiddətlə inkar etdiyi üçün, imamilər və ümumiyyətlə, batinilər onların sözlərini yozmağa, beləcə onlar barədə sahib olduqları əks məzmunlu iddialara “şiddətli təqiyyə” iddiası altında sarılmaqda davam edirdilər[559]”[560].

**Deyirəm:** Osman əl-Xəmisin və Katibin dedikləri heç bir əsası olmayan batil iddialardır. Biz təqiyyənin islami bir prinsip olduğunu, Quran və sünnədən dəlillərlə dəstəkləndiyini və sünnili-şiəli hər iki məzhəb tərəfindən qəbul edildiyini göstərdik. Təqiyyə şiələrin özlərindən qondardığı bir şey deyildir. Şiələrin və onların imamlarının o dövrdə təqiyyədən geniş istifadə etmək ilə məşhur olmalarının səbəbi onların öz müxalifləri və zalım başçılar tərəfindən zülm və təzyiqlərə məruz qalmalarıdır. Əhli-Beytin (əleyhimussəlam) məzhəbi olan on iki imam məzhəbində Osman əl-Xəmisin iddia etdiyi ziddiyyətlər yoxdur. Onun iddia etdiyi bu “ziddiyyətlər” üçün bircə dənə də olsun nümunə göstərməməsi, onun iddiasının batilliyinə ən böyük dəlildir.

Əhməd əl-Katib adlanan şəxsin iddiasına gəlincə isə, onun iddiası da qardaşı Osman əl-Xəmisin iddiası kimi reallığın daban-dabana ziddinədir. Onun iddiası da xalis yalan və iftiradan başqa bir şey deyildir. Belə ki, Əhli-Beyt imamları (əleyhimussəlam) əvvəlincilərindən tutmuş axırıncılarına qədər özlərinin Allah-taala tərəfindən təyin olunduqlarını demiş, özlərinin müsəlmanların imamları və Allah Rəsulunun (sallallahu əleyhi və alihi və səlləm) haqq xəlifələri olduqlarını bildirmişlər. Onlardan səhih yollar və mötəbər xəbərlərlə nəql olunan sözlərdə, onların özlərinin Allah tərəfindən təyin olunduqlarını inkar etmələrinə və Allah Rəsulundan (sallallahu əleyhi və alihi və səlləm) sonra imam və xəlifənin məhz şura yolu ilə seçilməsi gərəkdiyinə inanmalarına dəlalət edən heç bir şey yoxdur. Həmçinin, imamlar özlərinin qeyb aləmi ilə əlaqələri olmasını, bu əlaqə vasitəsilə bəzi qeybi elmlər kəsb etmələrini və qeybin mütləq bilicisi olan Allahdan müəyyən elmlər almalarını da inkar etməmişlər. Əksinə, onlardan nəql olunan səhih

[559] Yəni, şiələr Əhli-Beyt imamlarının (əleyhimussəlam) Allah tərəfindən imamətə təyin olunduqlarını, imamətin şura yolu ilə baş tutmasının qanunsuz olduğunu və imamların ilahi qeybi elmə sahib olduqlarını deyirdilər. Lakin, Əhli-Beyt imamlarının bu fikirləri şiddətlə rədd etdiklərini görüncə, imamların sözlərini müxtəlif cür yozmağa başladılar. Onlar, “imam bu sözləri təqiyyə altında olduğu üçün deyir”, “imam bu şeyləri təqiyyə edərək inkar edir” deyərək özlərinə haqq qazandırdılar və öz batil inanclarında qalmaqda davam etdilər. Tərc.

[560] “Qəlbdən qəlbə”: səh.80-81.

hədislərdə onlar öz elmlərinin Allah dərgahından olduğunu ifadə etmişlər. Onlar bu ilahi elmi üç yolla ələ gətirdiklərini bildirmişlər: 1) Allah Rəsulundan (sallallahu əleyhi və alihi və səlləm) şifahi və ya yazılı şəkildə irs aldıqları elm yolu ilə; 2) Mələklərin onlarla danışıb onlara qeybi məlumatlar verməsi yolu ilə; 3) İlham yolu ilə.

Bəli, onlar bəzi ifratçıların onlara nisbət verdiyi qeyb elmini müstəqil şəkildə bilmək fikrini inkar etmişlər. İmamlar bunu inkar edərək bildirmişlər ki, qeybi müstəqil şəkildə bilən yalnız və yalnız Allah-taaladır. Ondan başqa heç kəs qeybi müstəqil şəkildə bilə bilməz və Ondan qeyrilərinin bildiyi qeybin mütləq və müstəqil bilicisi olan Allahın öyrədib açıqladığından ibarətdir.

Buna əsasən, imamlar (əleyhimussəlam) məhz müstəqil şəkildə qeybi bilməyi inkar etmişlər. Şiələr də zatən belə bir şey iddia etməmiş və etmirlər də. Onlar da öz imamları kimi qeybi müstəqil şəkildə bilməyi inkar edirlər.

Bir sıra şiə alimləri Əhməd əl-Katib adlı şəxsin saxtakarlıq və şübhələrinə cavab vermiş, bu saxtakarlıq və şübhələri tək-tək müzakirə edərək ifşa etmişlər. Mən oxucuya internetdə "əl-Həcr" forumunda Əhməd əl-Katib ilə on iki imam şiələrindən biri arasında gedən dialoq və müzakirələrdən ibarət olan "Mətahatun fi mədinətil-Dabab" kitabını, həmçinin, Əhli-Beytin (əleyhimussəlam) ilahi imaməti və İmam Mehdi (əleyhissəlam)-ın varlığı mövzularında Əhməd əl-Katibin ortaya atdığı şübhələrə cavabları özündə ehtiva edən Əllamə Seyyid Sami əl-Bədrinin "Şubuhat və rudud" kitabını oxumağı məsləhət görürəm.

### Osman əl-Xəmis iradlı məqamlarını açıqlamadan bir neçə hədis nəql edir

Osman əl-Xəmis şiə mənbələrindən dörd hədis qeyd edib kitabına doldurmuş, lakin onlara heç bir şərh verməmişdir. Biz bu hədislərin harasında şiələr üçün irad olduğunu bilmirik. Buna rəğmən, biz Osman Xəmisin bu hədisləri hansı məqsədlə nəql etmiş ola biləcəyini ehtimal edərək, həmin ehtimallara cavab verəcəyik. Birinci hədisə gəlincə, Osman əl-Xəmis onu Siqətül-islam Şeyx Kuleyninin (Allah ona rəhmət etsin) "əl-Kafi" kitabından nəql etmişdir. Hədis belədir:

"Muhəmməd ibn Müslim deyir:

Əbu Abdullahın (əleyhissəlam) yanına getdim. Bu vaxt Əbu Hənifə də orada idi. Mən Əbu Abdullaha dedim:

– Sizə fəda olum, qəribə bir yuxu görmüşəm.

Dedi:

– Ey Müslimin oğlu, yuxunu de. Yuxu bilicisi burada əyləşib.

Bunu deyib Əbu Hənifəni göstərdi. Mən dedim:

– Gördüm ki, güya evimə girirəm. Bu zaman həyat yoldaşımın mənə tərəf gəlir. O, çoxlu qoz sındırırıb onları mənim üzərimə atır. Mən bu yuxudan təəccübləndim.

Əbu Hənifə dedi:

– Sən həyat yoldaşının mirası üstündə bir sıra rəzil xislətli adamlarla mübarizə və münaqişə aparacaqsan. Güclü çətinlikdən sonra dilədiyin mirasa yetişəcəksən, inşaallah.

Bu zaman Əbu Abdullah (əleyhissəlam) dedi:

– İsabət etdin, vallahi, ey Əbu Hənifə!

Bir qədər sonra Əbu Hənifə onun yanından getdi. Mən ona dedim:

– Sizə fəda olum, mən bu nasibinin yozumunu bəyənmədim.

Əbu Abdullah dedi:

– Ey Müslimin oğlu, Allah sənə qəm göstərməsin! Nə onların yozumları bizim yozuma uyğun gələr, nə də bizim yozumumuz onların yozumuna uyğun gələr. Sənin yuxunun yozumu onun dediyi kimi deyildir.

Mən dedim:

– Sizə fəda olum, əgər o səhv idisə, bəs nə üçün and içərək “isabət etdin” dediniz?

Dedi:

– Bəli, and içdim, amma (onun doğruya isabət etdiyinə deyil) xətaya isabət etdiyinə and içdim.”[561]

**Deyirəm:**

Birinci: Bu hədis zəif hədisdir. Hədisin sənədində Muhəmməd ibn Saiğ adlı şəxs vardır. O, Muhəmməd ibn Hüseyn (və ya Həsən) ibn Səid əs-Saiğdir. Şeyx Nəcaşi onun barəsində: “Çox zəifdir, həmçinin, ifratçı olduğu deyilmişdir”, - demişdir[562].

İkinci: Hədisin təqiyyə ilə heç bir əlaqəsi yoxdur. Hədis “müdarat” – yəni, insanlarla yola getmək, xoş davranmaq və kin, nifrət və s. yaradacaq işlər görməkdən çəkinmək mövzusuna aiddir. İmam Sadiq (əleyhissəlam) öz məclisində camaatın qabağında Əbu Hənifənin səhv olduğunu deyərək Əbu Hənifəni qəzəbləndirmək istəmədiyinə görə belə etmişdir.

Üçüncü: Hədisən də aydın olduğu kimi, İmam (əleyhissəlam) “isabət etdin, vallahi, ey Əbu Hənifə” sözü ilə Əbu Hənifənin doğruya yox, səhvə isabət etdiyini nəzərdə tutmuşdur. Bu, yalana düşməməkdən ötrü edilən və şəri baxımdan icazəli olan “tövriyə” sayılır.

---

561 “Qəlbdən qəlbə”: səh.83.
562 “Ricalun-Nəcaşi”: səh.237.

Dördüncü: Əgər Osman əl-Xəmisin bu zəif hədisi nəql etməkdən məqsədi Əbu Hənifənin ardıcıllarını on iki imam şiələrinə qarşı qaldırmaqdırsa (çünki, hədisdə Muhəmməd ibn Müslim Əbu Hənifə üçün "nasibi" sözünü işlədir), onda bilməlidir ki, elə onun özünün mənsub olduğu hənbəli məzhəbinin kitablarında səhih və mötəbər sənədlərlə Əbu Hənifə barəsində bundan daha betər və pis sözlər nəql olunmuşdur. Bunlardan biri Abdullah ibn Əhməd ibn Hənbəlin "əs-Sünnə" kitabında gələn məlumatdır. Abdullah deyir ki:

"Mənə Muhəmməd ibn Harun nəql edib dedi: bizə Əbu Saleh nəql edib dedi:

Fəzarinin belə dediyini eşitdim: Əvzai və Süfyan belə deyərdilər: "İslam tarixində bu ümmət üçün Əbu Hənifədən daha məşum birisi dünyaya gəlməyib""[563].

Həmçinin, Abdullah belə nəql edir:

"Abdullah ibn Məaz əl-Ənbəri mənə nəql edib dedi: Atamın belə dediyini eşitdim: Süfyan əs-Səvrinin belə dediyini eşitdim:

"Əbu Hənifəni iki dəfə küfrdən tövbə etməyə dəvət ediblər"."[564]

Həmçinin, nəql edir:

"Mənə Mənsur nəql edib dedi:

"Malikin Əbu Hənifə barəsində Əbu Hənifəni dindən çıxaran bir söz dediyini eşitdim. Malik dedi ki: "Əbu Hənifə məhz din ilə düşmənçilik aparırdı"."[565]

Həmçinin, nəql edir:

"Mənə Muhəmməd ibn Əbu İtab əl-Əyən nəql edib dedi: bizə Mənsur ibn Sələmə əl-Xuzai nəql edib dedi:

"Həmmad ibn Sələmənin Əbu Hənifəyə lənət etdiyini eşitdim. Əbu Sələmə demişdir ki, Şubə Əbu Hənifəyə lənət oxuyurdu"."[566]

Abdullah ibn Əhməd ibn Hənbəlin "əs-Sünnə" kitabında əhli-sünnənin böyük alimlərinin Əbu Hənifə barəsində təhqiramiz sözlər demələri ilə bağlı çoxlu rəvayətlər vardır. Mənim qeyd etdiklərim sadəcə misal və nümunədir.

Osman əl-Xəmisin qeyd etdiyi ikinci hədisə gəlincə, bu hədis də "əl-Kafi" kitabındandır. Hədis belədir:

"Əbu Ömər əl-Əcəmi belə deyir: Əbu Abdullah (əleyhissəlam) mənə dedi: "Ey Əbu Ömər, dinin onda doqquzu təqiyyədədir. Təqiyyəsi olmayanın dini də yoxdur. Nəbiz içmək və xuf üzərinə məsh çəkmək istisna olmaqla bütün işlərdə təqiyyə etmək olar"."[567]

**Deyirəm:** İmam Sadiqin (əleyhissəlam) buyurduğu "dinin onda doqquzu təqiyyədədir" sözü ona işarə edir ki, təqiyyənin haram edildiyi yerlər təqiyyənin

---

[563] "əs-Sünnə": 1/188, xəbər: 252.
[564] "əs-Sünnə": 1/193, xəbər: 168.
[565] "əs-Sünnə": 1/199, xəbər: 293.
[566] "əs-Sünnə": 1/211, xəbər: 345.
[567] "Qəlbdən qəlbə": səh.83.

icazəli olduğu yerlərə nisbətdə çox azdır. Əhli-sünnə özü də təqiyyənin istifadə dairəsinin çox geniş olduğunu bildirmişdir. Onların nəzərində təqiyyə ibadətlər, müamilələr, əqdlər və iqalar kimi fiqhin bütün bölmələrində keçərlidir. Hətta onlar hər hansısa xüsusi bir hökm daşımayan ürfi (xalq arasında görülən ümumi gündəlik) işlərdə belə təqiyyəyə baş vurula biləcəyini bildirmişlər, necə ki, bunu onların hədis kitablarındakı müdarat ilə bağlı bölmələrdə görmək olar.

Buna əsasən, İmam Sadiqin (əleyhissəlam) "dinin onda doqquzu təqiyyədədir" sözü bu mənada olur. Yəni, zülm və fəsadın tüğyan etdiyi, anarxiya və təhlükəsizliyin baş alıb getdiyi mühitlərdə mömin dini ilə əlaqədar tez-tez çətinliyə düşür və bu durumdan yalnız təqiyyə ilə xilas ola bilir.

Əhli-sünnənin hədis alimlərindən olan İbn Əbu Şeybə də İmam Muhəmməd əl-Baqir (əleyhissəlam)-dan buna oxşar bir hədis nəql edərək demişdir:

Bizə Şərik Cabirdən, o da Əbu Cəfərdən belə nəql etmişdir:

"Təqiyyə səma ilə yer arasındakı məsafədən daha genişdir."[568]

İmamın dediyi "təqiyyəsi olmayanın dini də yoxdur" sözünə gəlincə, bu söz də Peyğəmbərdən (sallallahu əleyhi və alihi və səlləm) nəql edilən: "Əmanətdarlığı olmayanın dini də yoxdur" hədisi kimidir. Məqsəd belə bir şəxsin ümumiyyətlə dini olmadığı deyil, onun kamil dinə sahib olmadığıdır.

İbn Əbdül-Bərr "ət-Təmhid" kitabında deyir:

"Bəziləri "məscidin qonşuluğunda olanın namazı yalnız məsciddə ola bilər" hədisindən camaat namazının hər bir kəsə vacib olduğu nəticəsi çıxarmışlar. Lakin, bizim nəzərimizdə bu hədis kamil fəzilətə aiddir. Eyniylə, "əmanətdarlığı olmayanın dini də yoxdur" hədisi kimi. Həmçinin, Peyğəmbərin (sallallahu əleyhi [və alihi] və səlləm) buyurduğu "zinakar zina etdiyi zaman mömin halda zina etmir" hədisi kimi. Belə ki, bu sözlə (zina edənin zina etdiyi zaman kafir olmasını deyil) onun həmin vaxt kamil imana sahib olmamasını nəzərdə tutmuşdur."[569]

Osman əl-Xəmisin nəql etdiyi üçüncü hədis də əl-Kafi kitabındandır. O deyir:

"Kuleyni həmçinin deyir:

Muəmmər ibn Xəllad belə nəql edir:

Əbul-Həsən (əleyhissəlam)-dan (zalım) başçılar üçün ayağa qalxmaq barədə soruşdum, o dedi:

– Təqiyyə mənim və ata-babalarımın dinindəndir. Təqiyyəsi olmayanın imanı da yoxdur."[570]

**Deyirəm:** Bu hədisdə də şiələr üçün bir irad yoxdur. İmamın "təqiyyə mənim və ata-babalarımın dinindəndir" sözü təqiyyənin Allah-taala tərəfindən təyin olunmuş və islami prinsiplərdən sayılan bir qanun olmasına dəlalət edir. Mömin

---

568 "Müsənnəf": 6/474, hədis: 33048.
569 "ət-Təmhid": 18/333.
570 "Qəlbdən qəlbə": səh.83.

şəxsin ona baş vurmasında bir problem yoxdur. Çünki imamlar (əleyhimussəlam) özləri də məcbur qaldıqda ona baş vurmuşlar və bunu etməklə Allahın dininə zidd bir iş görməmişlər. Hədisin ikincisi hissəsinə – "təqiyyəsi olmayanın imanı da yoxdur" sözünə gəlincə isə, bunun da mənası qeyd olundu.

Osman əl-Xəmisin nəql etdiyi dördüncü hədisə gəlincə, o, bunu Əllamə Səffarın "Bəsairüd-dərəcat" kitabından nəql etmiş və demişdir:

"Muhəmməd ibn Həsən əs-Səffar demişdir:

Mərvan Cabirdən, o da Əbu Abdullahdan (əleyhissəlam) belə nəql etmişdir:

Bizim işimiz sirr içində sirdir. O, yalnız sirrin açıqladığı bir sirdir. O, örtülü bir sirdir. Sirr üzərinə sirdir. Sirr ilə örtülmüş bir sirdir"[571].

**Deyirəm:** Osman əl-Xəmis bu hədisə heç bir münasibət bildirməmişdir. Biz bu hədisin təqiyyə ilə nə əlaqəsi olduğunu və hədisin harasında şiələrə irad olduğunu bilmirik!

## Osman əl-Xəmis iddia edir ki, şiələrin Quranın təhrifinə inanmalarını açıqca demələrinə məhz təqiyyə mane olur və sünnilərlə şiələr arasında yaxınlaşmanın əsas maneəsi də məhz təqiyyədir

Osman əl-Xəmis şiələrin Quranda təhrifin baş verdiyinə inandıqlarını etiraf etmələrinə məhz təqiyyənin mane olduğunu iddia edərək demişdir:

"Nəhayət özləri etiraf edirlər ki, Quranın təhrif olunmasını etiraf etmələri və (şiə-sünni) yaxınlaşması qarşısında əsas maneə məhz təqiyyədir..."[572].

Bunun ardınca Osman əl-Xəmis bu iddiasına dəlil kimi Təbərsinin bir sözünü sitat gətirmişdir. Lakin, bu, batil və yanlış bir sözdür. "Əl-İhticac" kitabının müəllifi bu məsələdə səhvə və xətaya yol vermişdir. On iki imam şiələrinin inancı Qurani-Kərimin təhrif olunmaması yönündədir. Quran artırılma və azaldılmadan uzaqdır. Allah-taala onu təbdil, dəyişidirilmə və təhrifdən qorumuşdur. İstər şiələr, istərsə də başqaları arasında kim buna zidd bir söz söyləsə, xəta edib səhvə düşmüşdür. Şiələrin yanında belə şəxsin sözünün heç bir qədir-qiyməti yoxdur. Biz daha öncə Quranda təhrifin baş verdiyini inkar edən xeyli sayda şiə alimindən sitatlar göstərdik.

Osman əl-Xəmisin saxtakarlıqlarından biri də odur ki, o bu iddiasını bütün şiələrə nisbət verərək: "nəhayət özləri etiraf edirlər ki...", - demişdir. Bununla da oxucunu aldadaraq onda sanki bütün şiə alimləri bu sözü deyirlər təəssüratı yaratmağa çalışmışdır. Lakin, bu iddiasına dəlil olaraq yalnız Təbərsinin "əl-İhticac" kitabında dediyi bir sözü dəlil gətirmişdir. Bu söz isə nəhəng şiə alimləri və mühəqqiqləri yanında rədd olunmuş bir sözdür.

---

[571] "Qəlbdən qəlbə": səh.83.
[572] "Qəlbdən qəlbə": səh.84.

Görəsən, bu adamın etdiyi saxtakarlıq kimi bir saxtakarlıq görmüsünüz?!

Bundan daha böyük iftira və saxtakarlıq isə onun şiələrin şiə-sünni yaxınlaşması arasında əsas maneənin təqiyyə olduğunu etiraf etdiklərini deməsidir. Lakin, o, şiələrə nisbət verdiyi bu sözü dəstəkləmək üçün şiə alimlərindən bircə dənə də olsun dəlil gətirməmişdir. Əvəzində Əhməd əl-Katib adlanan şəxsdən bir sitat qeyd edərək bununla öz yalanını dəstəkləməyə çalışmışdır. Elə göstərmək istəmişdir ki, güya əl-Katib şiə alimidir. Halbuki, əsla belə deyildir. Əhməd əl-Katib əsla şiə məzhəbinə aid deyildir, əksinə, o da şiələrə qarşı düşmənçilik, yalan, saxtakarlıq və iftirada Osman əl-Xəmisin başqa bir tayıdır...

Bundan başqa, şiələr təqiyyənin icazəliyinə inandığı kimi, sünnilər də inanırlar. Şiələr bəzi hallarda can, mal və namusu qorumaqdan ötrü təqiyyəyə baş vurduqları kimi, sünnilər də məcbur qaldıqları vaxt can, mal və namuslarını qorumaqdan ötrü təqiyyəyə baş vururlar. Təqiyyə hər iki məzhəbin inandığı islami prinsip və qanunlardandır. Elə isə, hər iki tərəfin qəbul etdiyi bir şey onlar arasında yaxınlaşmaya necə mane ola bilər?

Ey oxucu qardaşım! Sənə gizli qalmasın ki, Osman əl-Xəmis "vəhhabi" məzhəbinə mənsubdur. O, bu məzhəbin sərtlik, qəddarlıq və qaraqabaqlıqla məşhur olan, öz yolları ilə getməyən və öz inanclarına inanmayan hər bir müsəlmanı şiə-sünni ayrımı etmədən, zəlalət və bidətdə ittiham edən, onları təkfir edib dindən çıxaran ekstremistlərindən biridir.

Bu məzhəbin bir çox alim və yazıçılarının hər bir vəsilə ilə, hətta yalan, iftira və saxtakarlıq hesabına olsa belə, şiə və sünni müsəlmanlar arasındakı vəhdət və yaxınlaşma planını iflasa uğratmağa çalışdıqları sübuta yetmişdir. Onlar hər iki məzhəbin aqil və hörmətli şəxslərinin dəvət etdiyi bu birliyi pozmaq üçün əllərindən gələni edirlər. Xüsusən də islam ümmətinin başından keçən bu çətin dövrdə, üzərlərinə hər bir dağ və dərədən düşmənlərin hücum çəkdiyi, öz amansız hücumlarında şiə-sünni ayrımı etmədən istisnasız bütün müsəlmanları hədəfə aldıqları bir dövrdə.

Bu şəxslər islam ümməti üçün dağıdıcı bir külüngə çevrilərək islam binasını fərqində olduqları və ya olmadıqları halda dağıtmaqla məşğuldurlar. Onlar bu işləri ilə islama və müsəlmanlığa nəinki fayda vermirlər, hətta, islam düşmənləri üçün çox önəmli bir xidmət görmüş olurlar. Çünki, islam ümməti arasında təfriqə, kin, nifrət, düşmənçilik və ixtilafın olmasını istəyən şəxslər məhz islam düşmənləridir. Onlar müsəlmanlar üzərində hakimiyyət edib onların mal, sərvət və zənginliklərini talamalarını asanlaşdırmaqdan ötrü bu ümmət arasında kin, nifrət, düşmənçilik və ixtilaf toxumları səpməyə çalışırlar.

Osman əl-Xəmis ortada vəhdətin baş tutmasına maneə yaradan bir sıra ixtilaflı məsələlərin olmasını iddia edərək şiələr və sünnilər arasında vəhdət yaradılmasını rədd edən bu firqənin yazıçı və şeyxlərindən biridir. Lakin, bu

tayfanın cəhdlərinin vəhdət və yaxınlaşma üzərində müəyyən mənfi təsiri olsa da, hər iki məzhəbin çoxlu fərdlərinin müdrikcəsinə və inamla atılmış səyləri onların cəhdlərini uğursuzluq və iflasa düçar etmişdir.

Hər iki tərəfin səmimi, müxlis, əsil və alicənab şəxsləri ixtilaf uçurumunu daraltmalı, ixtilaf amillərini azaltmalı, onları bir kənara qoyub yaxınlaşma amilləri üzərində köklənməli, daha çox birlik və yaxınlıq üçün daha çox səy və təlaş göstərməlidirlər. Həqiqətən də birlik və yaxınlıq amilləri ixtilaf və uzaqlıq amillərindən daha çox, vəhdətə çağıran dəyərlər ixtilafa çağıran nöqtələrdən daha artıqdır. İnşallah, birlik və yaxınlığı istəməyənlərin cəhdləri böyük bir yenilgiyə uğrayacaq.

# OSMAN ƏL-XƏMİSİN MÜTƏ NİKAHI BARƏDƏ DEDİYİ SÖZLƏRƏ CAVAB

## Osman əl-Xəmisin mütə nikahı barədə dediyi sözlərə cavab

Osman əl-Xəmis deyir:

“Mütənin qadağan olması Əlidən (Allah ondan razı olsun) sübuta yetmişdir. Əli bunu Allah Rəsulundan (sallallahu əleyhi [və alihi] və səlləm) nəql etmişdir. İki səhih kitabda gəlmişdir ki, Əli İbn Abbasın mütəni halal hesab etdiyini eşidincə, ona “sən çaşqın bir adamsan. Allah Rəsulu (sallallahu əleyhi [və alihi] və səlləm) Xeybər günündə mütəni və ev eşşəyinin ətinin yeyilməsini haram etmişdir”, - demişdir.

Maraqlısı odur ki, bu hədis şiə kitablarında da mövcuddur.

Həmçinin, Müslimin kitabında Sələmə ibn əl-Əkvədən belə nəql olunur ki, Peyğəmbər (sallallahu əleyhi [və alihi] və səlləm) fəth ilində mütəni haram etmişdir. Həmçinin, Müslimin kitabında Səbrə əl-Cühənidən nəql olunur ki, Peyğəmbər (sallallahu əleyhi [və alihi] və səlləm) mütəni haram edib.”

Sonra deyir:

“Şiələr deyirlər ki, Ömər ibn əl-Xəttab qanuni olduğu halda həcc mütəsini və nisa mütəsini haram etmişdir, görəsən, Ömər Allahın halal etdiyi bir şeyi necə haram edə bilər?!”

Sonra deyir:

“Ömər, bəli, mütəni qadağan etmişdir, lakin necə? O, Allah Rəsulunun (sallallahu əleyhi [və alihi] və səlləm) qadağan etdiyi bir şeyi qadağan etmişdir, o, Allah-taalanın qadağan etdiyi bir şeyi qadağan etmişdir. Allah-taala bu ayələr ilə mütəni qadağan etmişdir: “**(Möminlər nicat tapmışlar;) O kəslər ki, ayıb yerlərini (zinadan) qoruyub saxlayarlar; Ancaq zövcələri və cariyələri istisna olmaqla, Onlar (zövcələri və cariyələri ilə görəcəkləri bu işdən ötrü) qınanmazlar. Bundan artığını istəyənlər (halaldan harama addayaraq) həddi aşanlardır**”[573]. Allah-taala mütə edənləri həddi aşanlar adlandırmışdır.

Şiələr Allah-taalanın bu ayəsini dəlil gətirirlər: **“(Cihad vaxtı əsir olaraq) sahib olduğunuz (cariyələr) müstəsna olmaqla, ərli qadınları almaq Allahın yazısı (hökmü) ilə sizə (haram edildi). Bunlardan başqaları isə namusla (iffətlə), zinakarlığa yol vermədən, mallarınızı sərf edərək evlənmək üçün sizə halal edildi. İstifadə (mütə) etdiyiniz qadınların mehrlərini lazımi qaydada verin! Mehr müəyyən edildikdən sonra aranızda razılaşdığınız şeydən ötrü sizə heç bir günah yazılmaz. Həqiqətən, Allah (hər şeyi) biləndir, hikmət sahibidir!**”[574]

Deyirik: Bu qiraət mütəvatir olmayan bir qiraətdir. Bu qiraət nə “yeddi qiraət”dən, nə də “on qiraət”dəndir. Bu, şaz (nadir) bir qiraətdir. Üstəlik, hətta

---

[573] Muminin surəsi, 5-7-ci ayələr.

[574] Nisa surəsi, 24-cü ayə.

səhih olsa belə, Allah-taalanın "**O kəslər ki, ayıb yerlərini qoruyub saxlayarlar**" ayəsi ilə və Peyğəmbərin (sallallahu əleyhi [və alihi] və səlləm) – istər Əlinin, istər Səbrənin, istər Sələmənin, istərsə də başqalarının hədislərində qeyd olunan – qadağası ilə nəxs olunmuşdur (qüvvədən salınmışdır)."[575]

## Mütə nikahının qanuniliyinə Quran və sünnədən dəlillər

**Deyirəm:** Mütə nikahı Allah-taalanın qanun etdiyi, öz kitabı və Peyğəmbəri (sallallahu əleyhi və alihi və səlləm) vasitəsilə açıqladığı bir hökmdür. Onun qanuniliyinə dəlalət edən Quran dəlilinə gəlincə, buna misal olaraq bu ayəni göstərə bilərik:

""**(Cihad vaxtı əsir olaraq) sahib olduğunuz (cariyələr) müstəsna olmaqla, ərli qadınları almaq Allahın yazısı (hökmü) ilə sizə (haram edildi). Bunlardan başqaları isə namusla (iffətlə), zinakarlığa yol vermədən, mallarınızı sərf edərək evlənmək üçün sizə halal edildi. İstifadə (mütə) etdiyiniz qadınların mehrlərini lazımi qaydada verin! Mehr müəyyən edildikdən sonra aranızda razılaşdığınız şeydən ötrü sizə heç bir günah yazılmaz. Həqiqətən, Allah (hər şeyi) biləndir, hikmət sahibidir!**".

Əhli-sünnə hədislərində və əhli-sünnə alimlərinin sözlərində bu ayədə mütə nikahının, yəni, müvəqqət nikahın nəzərdə tutulduğu bildirilmişdir.

İbn Kəsir bu ayənin təfsirini verərkən deyir:

"Bu ayənin ümumi məzmunundan mütə nikahına dəlil olaraq istifadə etmişlər"[576].

Həmçinin, deyir:

"Mücahid demişdir: Bu ayə mütə nikahı barədə nazil olmuşdur".[577]

Əbdür-Rəzzaq ibn Həmmam "Müsənnəf" kitabında səhih sənədlə İbn Cüreyhdən belə nəql edir:

"Əta mənə xəbər verdi ki, o, İbn Abbasın hələ də mütəni halal hesab etməsini eşidib. Həmçinin, mənə dedi ki, İbn Abbas (Nisa surəsinin 24-cü) ayə(si)ni belə oxuyurmuş: "– Müəyyən müddətədək – **istifadə (mütə) etdiyiniz qadınların mehrlərini lazımi qaydada verin**". İbn Abbas demişdir ki, Übeyin qiraətində də ayə "müəyyən müdətədək" ifadəsi ilədir[578]"[579].

Hafiz Əbdür-Rəzzaq əs-Sənaninin səhih sənədlə nəql etdiyi uzun bir hədisdə belə gəlmişdir:

---

575 "Tarixdən bir dövr": 173-176.
576 Yəni, bu ayənin mütə nikahından söhbət açdığını bildirmişlər. Tərc.
577 "Təfsirü-İbn Kəsir": 1/475.
578 Yəni, səhabə Übeyb ibn Kəb də ayəni "müəyyən müddətədək" sözü ilə birgə oxuyarmış.
579 "Müsənnəf": 7/397, hədis: 14099.

“...Əta dedi: İbn Abbasın belə dediyini eşitdim:

– Allah Ömərə rəhmət etsin. Mütə Allah tərəfdən olan bir rüxsət və icazə idi. Allah onunla Muhəmməd (sallallahu əleyhi [və alihi] və səlləm) ümmətinə rəhm etmişdi. Əgər Ömər mütəni qadağan etməsəydi, bədbəxt adamdan başqa heç kəs zina etməzdi.

Əta deyir: Sanki indi də İbn Abbasın “bədbəxt adamdan başqa...” cümləsini eşidir kimiyəm. Mütə nikahı Nisa surəsinin bu ayəsində gəlmişdir: “**İstifadə (mütə) etdiyiniz qadınların mehrlərini lazımi qaydada verin**”.”[580]

Təbəri öz təfsirində deyir:

Bizə Muhəmməd ibn Hüseyn nəql edib dedi: bizə Əhməd ibn Fəzl nəql edib dedi: bizə Əsbat Suddidən nəql edib dedi:

““**İstifadə (mütə) etdiyiniz qadınların mehrlərini lazımi qaydada verin!**”. Bu, mütə nikahı barədədir. Kişi qadın ilə bir şərt əsasında müəyyən bir müddətə qədər nikah bağlayır...”[581].

Yenə Təbəri deyir:

“Bizə İbn əl-Müsənna nəql edib dedi: bizə Əbu Davud nəql edib dedi: bizə Şubə Əbu İshaqdan, o da Ümeyrdən nəql edib dedi ki: İbn Abbas “**İstifadə (mütə) etdiyiniz qadınların mehrlərini lazımi qaydada verin**” ayəsini, “müəyyən bir vaxta qədər” ifadəsi ilə birgə oxumuşdur...”[582].

Bu xəbərin sənədindəki ravilərin hamısı əhli-sünnə nəzərində siqə - güvənilir şəxslərdir. İbn əl-Müsənna hafiz Əbu Musa Muhəmməd ibn əl-Müsənna ibn Übeyd ibn Qeys əl-Ənəzi əz-Zəmindir. Əhli-sünnə yanında güvənilir və səbt şəxslərdən, altı səhih kitabının müəlliflərinin etimad etdiyi kəslərdəndir[583].

Əbu Davud hafiz Süleyman ibn Davud ibn əl-Carud ət-Təyalisidir. Məşhur “Müsnədüt-Təyalisi” kitabının müəllifidir. Müslimin, Tirimizinin və Nəsainin etimad etdiyi ravilərdəndir. Əhli-sünnə yanında güvənilir şəxslərdəndir[584].

Şubhə imam hafiz Şubə ibn Həccac ibn əl-Vərddir. Əhli-sünnə ona “hədisdə əmirəlmöminin (möminlərin əmiri)” ləqəbi vermişdir. Altı kitab müəlliflərinin hamısı ondan hədis nəql edərək hədisinə etimad etmişlər[585].

Əbu İshaq, Əmr ibn Abdullah ibn Zi-yuhmid əl-Həmədani əl-Kufidir. Əhli-sünnə yanında hafiz, siqə və höccət hesab olunur. O da altı kitab müəllifinin hədisinə etimad etdiyi şəxslərdəndir[586].

---

[580] “Müsənnəf”: 7/397, hədis: 14098.
[581] “Təfsirüt-Təbəri”: 5/12.
[582] “Təfsirüt-Təbəri”: 5/13.
[583] “Təhzibül-kəmal”: 6/493, rəqəm: 6170.
[584] Həmin mənbə: 3/272, rəqəm: 2491.
[585] Həmin mənbə: 3/387, rəqəm: 2725.
[586] Həmin mənbə: 4/431, rəqəm: 4989.

Ümeyr də Ümeyr ibn Təmim ibn Yüreym Əbu Hilaldır. İbn Hibban onun adını "əs-Siqat" ("Güvənilir şəxslər") əsərində qeyd etmişdir[587].

Hakim ən-Nişapuri "əl-Müstədrək ələs-səhiheyn" kitabında öz sənədi ilə Əbu Sələmədən belə nəql edir:

"Əbu Nəzrənin belə dediyini eşitdim:

İbn Abbas üçün (Allah ondan və atasından razı olsun) "**İstifadə (mütə) etdiyiniz qadınların mehrlərini lazımi qaydada verin**" ayəsini oxudum. İbn Abbas dedi: "– Müəyyən müddətə qədər – **istifadə (mütə) etdiyiniz qadınların...**".

Mən dedim:

– Biz bu ayəni belə oxumuruq.

İbn Abbas dedi:

– Allaha and olsun, Allah bu ayəni belə nazil edib."

Bunun ardınca Hakim deyir: "Bu, Müslimin şərtinə əsasən səhih hədisdir, lakin Buxari və Müslim bunu nəql etməmişlər".

Zəhəbi də "Təlxisül-müstədrək" kitabında onunla razılaşaraq deyir: "Müslimin şərtinə əsasəndir". [588]

Bu rəvayəti Təbəri də nəql etmişdir. Təbəri deyir:

Bizə İbn əl-Müsənna nəql edib dedi: bizə Muhəmməd ibn Cəfər nəql edib dedi: bizə Şubə Əbu Sələmədən, o da Əbu Nəzrədən nəql edib dedi:

""**İstifadə (mütə) etdiyiniz qadınların mehrlərini lazımi qaydada verin**" ayəsini İbn Abbas üçün oxudum. İbn Abbas dedi: "– Müəyyən müddətə qədər – **istifadə (mütə) etdiyiniz qadınların...**".

Mən dedim:

– Mən bu ayəni belə oxumuram.

İbn Abbas üç dəfə dedi:

– Allaha and olsun, Allah bu ayəni belə nazil edib"[589].

"Təfsirüt-Təbəri"də həmçinin belə nəql olunur:

Bizə İbn Bəşşar nəql edib dedi: bizə Əbdül-Əla nəql edib dedi: bizə Səid Qətadədən nəql edib dedi:

"Übey ibn Kəbin qiraətində (Nisa surəsinin 24-cü ayəsi) belədir: ""– Müəyyən müddətə qədər – **istifadə (mütə) etdiyiniz qadınların...**"."[590]

Bu xəbərin sənədindəki ravilərin hamısı əhli-sünnənin güvənilir hesab etdiyi şəxslərdir. İbn Bəşşar hafiz Əbu Bəkr Muhəmməd ibn Osman əl-Əbdi Bundardır.

---

587 "əs-Siqat": 5/254, rəqəm: 4713.
588 "Müstədrək ələs-səhiheyn": 2/334, hədis: 3192.
589 "Təfsirüt-Təbəri": 5/13.
590 "Təfsirüt-Təbəri": 5/13.

Əhli-sünnənin bir çox alimləri onu güvənilir hesab etmiş, altı kitabın müəllifləri onun hədisinə etimad etmişlər[591].

Əbdül-Əla, Əbdül-Əla ibn Əbdül-Əla ibn Muhəmməddir. İcli, İbn Xəlləfun, Əbu Zərə və İbn Həcər əl-Əsqəlani onu güvənilir bilmiş, İbn Hibban onu "əs-Siqat" əsərində qeyd etmişdir. Əbu Hatim onun barəsində: "Hədisləri salehdir (yaxşıdır)", - demiş, Nəsai: "Onda bir problem yoxdur", - demiş, altı kitab müəllifləri də onun hədisinə etimad etmişlər[592].

Səid imam və hafiz Səid ibn Əbu Ərubədir. Bəsrənin alimidir, əhli-sünnənin güvənilir hesab etdiyi şəxslərdəndir. Altı kitab müəlliflərinin hamısı onun hədisinə etimad etmişlər[593].

Qətadə, Qətadə ibn Dəamə ibn Qətadə ibn Əziz Əbül-Xəttab əs-Sədusi əl-Bəsridir. Əhli-sünnə yanında güvənilir və səbt şəxslərdəndir, altı kitab müəlliflərinin hamısı onun hədisinə etimad etmişlər[594].

Həmçinin, Təbəri belə nəql etmişdir:

Bizə Əbu Küreyb nəql edib dedi: bizə Yəhya ibn İsa nəql edib dedi: bizə Nüseyr ibn Əbul-Əşəs nəql edib dedi: mənə Həbib ibn Əbu Sabit atasından nəql edib dedi:

"İbn Abbas mənə bir müshəf verib dedi:

– Bu müshəf Übeyin qiraəti əsasındadır.

Əbu Küreyb deyir: Yəhya dedi ki, mən bu müshəfi Nüseyrin yanında gördüm. Nisa surəsinin 24-cü ayəsi orada belə idi: "– Müəyyən müddətə qədər – **istifadə (mütə) etdiyiniz qadınların...**"."[595]

"Nasixul-hədisi və mənsuxuh" kitabının müəllifi deyir:

Bizə Əbdül-Əziz ibn Muhəmməd nəql edib dedi: bizə İshaq ibn İbrahim ibn Əbbad nəql edib dedi: bizə Əbdür-Rəzzaq İbn Cüreyhdən nəql edib dedi:

"Əta bizə nəql edib dedi ki, İbn Abbasın (Nisa surəsinin 24-cü ayəsini) belə oxuduğunu eşidib: "– Müəyyən müddətə qədər – **istifadə (mütə) etdiyiniz qadınların mehrlərini lazımi qaydada verin**". Sonra İbn Abbas deyib ki, Übeyin qiraətində də ayə məhz "müəyyən müddətə qədər" ifadəsi ilədir."[596]

İbn Kəsirin təfsirində deyilir:

"İbn Abbas, Übey ibn Kəb, Səid ibn Cübeyr və Suddi Nisa surəsinin 24-cü ayəsini belə oxuyurdular: "– Müəyyən müddətə qədər – **istifadə (mütə) etdiyiniz qadınların mehrlərini lazımi qaydada verin**"."[597]

---

591 "Təhzibül-kəmal": 6/247, rəqəm: 5675.
592 "Təhzibüt-təhzib": 6/87.
593 "Təhzibül-kəmal": 4/336, rəqəm: 3675.
594 "Təhzibüt-təhzib": 8/351, rəqəm: 637.
595 "Təfsirüt-Təbəri": 5/12.
596 "Nasixul-hədis və mənsuxuh": 1/366.
597 "Təfsirü-İbn Kəsir": 1/475.

İbn Əbdül-Bərr deyir:

"Ayəni bu şəkildə – "müəyyən müddətə qədər" ifadəsi ilə birlikdə həmçinin, Əli ibn Hüseyn, onun oğlu Əbu Cəfər Muhəmməd ibn Əli, onun oğlu Cəfər ibn Muhəmməd və Səid ibn Cübeyr oxumuşdur"[598].

Bu böyük şəxsiyyətlərin ayəni "müəyyən müddətə qədər" ifadəsi ilə birgə oxumaları bu əlavənin ayənin bir parçası olduğuna görə deyildi. Əksinə, onlar bununla ayənin təfsir və izahını vermək istəyir, ayənin mütə nikahı ilə bağlı nazil olduğunu göstərməyə çalışırdılar. Bəlkə də onların sonadək ayəni bu şəkildə oxumağa davam etmələri və onlardan bəzilərinin bu oxunuşu öz müshəfinə yazması, məhz bu şəxslərin mütə nikahının halallığına inanmalarına və onun haramlığı barədə heç bir dəlilin olmamasına görə idi. Onlar belə edərək mütə nikahının sonradan haram edildiyini iddia edən qarşı tərəfə bir növ meydan oxuyurdular.

Əhli-Beyt imamlarından (əleyhimussəlam) nəql edilən hədislər də ayənin mütə nikahı barədə nazil olduğunu bildirmişdir. Şeyx Kuleyni (Allah ona rəhmət etsin) "Əl-Kafi" kitabında öz sənədi ilə Əbdür-Rəhman ibn Əbu Abdullahdan belə nəql etmişdir:

"Əbu Hənifənin Əbu Abdullahdan (əleyhissəlam) mütə nikahı barədə soruşduğunu eşitdim. Əbu Abdullah dedi: "İki mütədən hansı birini soruşursan?" Əbu Hənifə dedi: "Həcc mütəsini soruşurdum. Amma sən de görüm nisa mütəsi haqdırmı?"

Əbu Abdullah dedi: "Sübhanallah! Məgər Allah-taalanın kitabını oxumamısan? Allah buyurur: "**İstifadə (mütə) etdiyiniz qadınların mehrlərini lazımi qaydada verin**"."

Əbu Hənifə dedi: "Vallahi, elə bil indiyə kimi bu ayəni heç oxumamışam."[599]

Həmçinin, yenə öz sənədi ilə Əbu Bəsirdən belə nəql etmişdir:

"Əbu Cəfərdən (əleyhissəlam) mütə barədə soruşdum, həzrət belə buyurdu: – Quranda nazil olmuşdur: "**İstifadə (mütə) etdiyiniz qadınların mehrlərini lazımi qaydada verin. Mehr müəyyən edildikdən sonra aranızda razılaşdığınız şeydən ötrü sizə heç bir günah yazılmaz.**"[600]"

Himyəri Əhməd ibn İshaqdan, o da Bəkr ibn Muhəmməddən belə nəql etmişdir:

"Əbu Abdullahdan (əleyhissəlam) mütə barədə soruşdum, belə dedi: "**İstifadə (mütə) etdiyiniz qadınların mehrlərini lazımi qaydada verin. Mehr müəyyən**

---

598 "ət-Təmhid": 10/113.

599 "əl-Kafi": 5/450.

600 "əl-Kafi": 5/448, bu hədisi həmçinin, Əhməd ibn Muhəmməd ibn İsa "ən-Nəvadir" kitabında nəql etmişdir: səh.65.

**edildikdən sonra aranızda razılaşdığınız şeydən ötrü sizə heç bir günah yazılmaz**”.”[601]

**Mütə nikahının halallığına dəlalət edən sünnə dəlillərinə gəlincə isə, bunlar çoxdur:**

Misal olaraq aşağıdakıları göstərə bilərik:

Əbdür-Rəzzaq əs-Sənani “əl-Müsənnəf” kitabında öz sənədi ilə Cabir ibn Abdullahdan və Sələmə ibn Əkvədən belə nəql edir:

“Biz bir döyüşdə idik. Bu zaman Allah Rəsulunun (sallallahu əleyhi [və alihi] və səlləm) elçisi gəlib dedi: “Allah Rəsulu (sallallahu əleyhi [və alihi] və səlləm) deyir ki, mütə edin”.”[602]

Bu hədisi Müslim də “Səhih” kitabında öz sənədi ilə Cabir ibn Abdullah və Sələmə ibn Əkvədən nəql etmişdir:

“Allah Rəsulunun (sallallahu əleyhi [və alihi] və səlləm) carçısı bizim yanımıza gəlib dedi: “Allah Rəsulu (sallallahu əleyhi [və alihi] və səlləm) sizə mütə etməyə icazə verdi”, yəni qadınlarla mütə etməyə icazə verdi”[603].

Yenə Müslim “Səhih” kitabında öz sənədi ilə Abdullah ibn Məsuddan belə nəql edir:

“Biz Allah Rəsulu (sallallahu əleyhi [və alihi] və səlləm) ilə birlikdə döyüşə gedirdik və bu zaman yanımızda qadınlar olmurdu. Biz ona dedik: “Özümüzü axtalayaq?[604]” Peyğəmbər bizi bu işdən çəkindirdi. Sonra bizə bir paltar qarşılığında müəyyən bir müddətə qədər qadınla nikah bağlamağa icazə verdi.

Bunun ardınca Abdullah bu ayəni oxudu: “**Ey iman gətirənlər! Allahın sizə halal buyurduğu pak şeyləri özünüzə haram etməyin və həddi aşmayın. Həqiqətən də Allah həddi aşanları sevməz**”.”[605]

Bu xəbər onu göstərir ki, İbn Məsud mütə nikahının halal olduğunu, onun nə Quran və nə də sünnə ilə qüvvədən salınmadığını və onun Allah-taalanın halal etdiyi pak şeylərdən olduğunu düşünürmüş. İbn Məsud mütə ilə bağlı Allah Rəsulundan (sallallahu əleyhi və alihi və səlləm) nəql etdiyi xəbərin ardınca Maidə surəsinin 87-ci ayəsini tilavət etməklə məhz mütəni haram edən şəxslərə etiraz etmək istəmişdir.

---

[601] “Qurbul-isnad”: səh.21.

[602] “əl-Müsənnəf”: 7/397, hədis: 14100. Bu hədisi Əhməd ibn Hənbəl də “Müsnəd” kitabında nəql etmişdir: 4/47, hədis: 16551. Kitabın mühəqqiqi Şeyx Şüeyb əl-Arnaut hədis üçün belə demişdir: “**İsnadı Buxari və Müslimin şərtinə əsasən, səhihdir**”. Həmçinin, hədisi Təbərani “əl-Mucəmul-kəbir” kitabında nəql etmişdir.

[603] “Səhihü-Müslim”: 2/1022.

[604] Erkəklik vəzilərini çıxarmaq. Tərc.

[605] “Səhihü-Müslim”: 2/1022, “Səhihül-Buxari”: 5/1953, hədis: 4787, “Səhihü-İbn Hibban”: 9/448, hədis: 4141 və 9/449, hədis: 4142, “əs-Sünənül-kübra” (Nəsai): 6/336, hədis: 11150, “əs-Sünənül-kübra” (Beyhəqi): 7/79, hədis: 13242, “Müsnədü-Əhməd”: 1/420, hədis: 3986, həmçinin, 1/432, hədis: 4113 və 1/450, hədis: 4302, “Müsnədü-Əbi Yəla”: 9/260, hədis: 5382, “Müsənnəfü-İbn Əbi Şeybə”: 3/552, hədis: 17079.

Allah Rəsulunun (sallallahu əleyhi və alihi və səlləm) mütəni halal buyurduğuna və öz səhabələrinə mütə etmək icazəsi verdiyinə dəlalət edən hədislər çoxdur. Daha sonra bu hədislərin bəzisi qeyd olunacaq. Burada mütə nikahının halal olmasına və Peyğəmbərin (sallallahu əleyhi və alihi və səlləm) öz səhabələrinə mütə etməyə icazə verməsinə dalalət edən hədisləri uzun-uzadı qeyd etməyə lüzum görmürük. Çünki, bu məsələ şiələr və sünnilər arasında yekdilliklə qəbul edilmişdir.

## Osman əl-Xəmisin mütə nikahının haramlığına dair qeyd etdiyi dəlillərin müzakirəsi

İkinci: Müxaliflərin mütə nikahının haram edilməsinə dair əsaslandığı hədislərə nəzər salan şəxslər bu hədislərin uydurma olduğunu və məhz xəlifə Ömər ibn əl-Xəttabın bu halal nikaha münasibətdə tutduğu mövqeyini təmizə çıxarmaqdan ötrü qondarıldığını görə bilərlər.

Bu hədislər bir-birləri ilə ziddiyyət təşkil edirlər. Məsələn, bir hədis Peyğəmbərin (sallallahu əleyhi və alihi və səlləm) mütə nikahını Xeybər günündə haram etdiyini, bir digəri Məkkənin fəthi ilində haram etdiyini, başqa biri vida həcci zamanı haram etdiyini, başqa biri Təbuk döyüşü zamanı, başqa biri Hüneyn döyüşü zamanı, başqa biri Əvtas döyüşü zamanı, başqa biri də "qəza ümrəsi"[606] zamanı haram etdiyini bildirir! Əhli-sünnə alimləri bu hədislərə izah verməkdə çaşqınlığa düşmüşlər. Hətta onlardan biri mütə nikahının bir neçə dəfə halal edilib sonra haram edildiyini iddia etmişdir!!

İbn Kəsir deyir:

"Alimlər mütənin ilk dəfə nə vaxt haram edildiyi barədə ixtilaf etmişlər. Demişlər ki, Xeybərdə, demişlər ki, "qəza ümrəsi"ndə, demişlər ki, Məkkənin fəthi ilində – bu, daha dəqiq görünür –, demişlər ki, Əvtasda – bu döyüş Məkkənin fəthinə yaxın bir vaxta baş vermişdir – , demişlər ki, Təbukda və demişlər ki, vida həccində"[607].

İbn Rüşd mütənin haram edilməsi barədə nəql olunan hədislərə toxunarkən deyir:

"Hədislərin birində Peyğəmbərin mütəni Xeybər günündə haram etdiyi, digərində fəth günündə haram etdiyi, digərində Təbuk döyüşündə haram etdiyi, digərində vida həccində haram etdiyi, digərində qəza ümrəsində haram etdiyi, digərində də Əvtas döyüşündə haram etdiyi deyilmişdir"[608].

---

[606] Peyğəmbəri-Əkrəmin (sallallahu əleyhi və alihi və səlləm) Hüdeybiyyə sülhündən bir il sonra, yəni hicri 7-ci ildə (Zil-qədə ayında) öz səhabələri ilə birgə həyata keçirdi ümrə ziyarətidir. Tərc.

[607] "əs-Sirətün-nəbəviyyə": 3/366.

[608] "Bidayətül-müctəhid": 4/344.

Osman əl-Xəmis də digər sünni alimləri kimi təzadlı danışmışdır. Belə ki, əvvəlcə iddia etmişdir ki, mütənin qadağan olması Əlidən (əleyhissəlam) sübuta yetmişdir və Əli bunu Allah Rəsulundan (sallallahu əleyhi və alihi və səlləm) nəql etmişdir. İmam Əli (əleyhissəlam) İbn Abbasın mütəni halal hesab etdiyini eşidincə, ona "*sən çaşqın bir adamsan. Allah Rəsulu (sallallahu əleyhi [və alihi] və səlləm) Xeybər günündə mütəni və ev eşşəyinin ətinin yeyilməsini haram etmişdir*", - demişdir. Hansı ki, bu o deməkdir ki, Peyğəmbər (sallallahu əleyhi və alihi və səlləm) mütəni Xeybər döyüşü zamanında, yəni hicrətin 7-ci ilində haram etmişdir. Buna baxmayaraq, ardınca Osman əl-Xəmis Peyğəmbərin (sallallahu əleyhi və alihi və səlləm) mütəni Məkkənin fəthində haram etdiyini demişdir. Belə ki, dəlil kimi Sələmə ibn Əkvə və Səbrə əl-Cuhəninin hədisini qeyd etmişdir. Bir halda ki, Məkkənin fəthi 8-ci hicri ilində baş vermişdir.

Az əvvəl İbn Rüşd və İbn Kəsirdən göstərdiyimiz sitatlarda da olduğu kimi, mütənin vida həcci zamanında qadağan edildiyini bildirən hədislər də nəql olunmuşdur. Vida həcci isə hicrətin 10-cu ilində baş vermişdir. Elə isə biz sual verib deyirik: görəsən, Allah Rəsulu (sallallahu əleyhi və alihi və səlləm) mütə nikahını nə vaxt haram etmişdir?

Xeybər günündə?

Fəth günündə?

Təbuk döyüşündə?

Əvtas ilində?

Qəza ümrəsində?

Yoxsa, vida həccində?!

Müxaliflərin mütə nikahının haramlığına dair əsaslandığı bu hədislər arasındakı ciddi ixtilaf və böyük ziddiyyət "araşdırmaçı şəxsi bu nikahın haram edilməsi məsələsinə şübhə ilə yanaşmağa vadar edir. Yoxsa ki, müsəlmanlar bu haram etmənin – xüsusilə də, mütə kimi insanların tez-tez qarşılaşdığı bir məsələdə – zaman və məkanını necə bilməyə bilər və nəticədə altı müxtəlif fikir söyləyə bilərlər?! Qurani-Kərimin hökmünün bu qatma-qarışıq rəvayətlərlə qüvvədən düşməsi mümkün deyildir"[609].

Deməli, mütə nikahının haram edilib qüvvədən salındığını bildirən hədislər bir-birləriylə ziddiyyət təşkil edən qarışıq hədislərdir. Onlar qəti arxayınlıq hasil etməyən "xəbəri-vahid" növündəndirlər. Bu hədislər qəti və yəqini dəlil ilə sabit olan bir hökmü qüvvədən salmaq üçün əsla kifayət etmirlər. Bütün bunlarla yanaşı, onu da nəzərə almaq lazımdır ki, ortada bu hədislərlə ziddiyyət təşkil edən və onların çatdırdığı mənanın əksini çatdıran bir sıra hədislər də var.

---

[609] "Mutətun-nisa fil-kitab vəs-sünnə", Şeyx Cəfər Sübhani: səh.103.

Möhtərəm oxucu qardaşım, Osman əl-Xəmisin mütə nikahının haramlığı üçün Qurandan gətirdiyi dəlilin müzakirəsinə keçməzdən qabaq, sənə mütə nikahının haram edilməsinə dair Səbrə ibn Məbəd əl-Cuhənidən nəql edilən hədislər arasındakı ziddiyyət və qarışıqlığı göstərmək istəyirəm. Mənim bu hədislər arasında tapdığım ziddiyyət və qarışıqlıqlar bunlardan ibarətdir:

1-Səbrənin oğlu Rəbi bir dəfə deyir ki, qadın ilə mütə edən atası Səbrə olub, başqa bir yerdə isə deyir ki, mütə edən atasının dostu olub.

"Səhihü-Müslim" kitabında deyilir:

Bizə Yəhya ibn Yəhya nəql edib dedi: bizə Əbdül-Əziz ibn Rəbi ibn Səbrə ibn Məbəd nəql edib dedi: atam Rəbi ibn Səbrənin öz atası Səbrə ibn Məbəddən belə nəql etdiyini eşitdim:

"Peyğəmbər (sallallahu əleyhi [və alihi] və səlləm) Məkkənin fəthi ilində səhabələrə qadınlarla mütə etməyə icazə verdi. Mən Bəni-Süleymdən olan bir dostum ilə (şəhərə) çıxdıq. Yolda Bəni-Amirdən olan bir cariyə ilə qarşılaşdıq. O, sanki uzun boyunlu cavan bir dişi dəvə idi. Biz ona elçi düşdük və ona öz əbalarımızı təklif etdik. O (bizə) baxmağa başladı. Məni yoldaşımdan daha yaraşıqlı, yoldaşımın əbasını isə mənim əbamdan daha yaxşı hesab etdi. Bir müddət öz-özlüyündə götür-qoy etdikdən sonra məni seçdi. Qadınlar üç gün bizimlə oldular (yəni, bizə üç gün qadınlarla mütə etməyə icazə verildi). Sonra Allah Rəsulu (sallallahu əleyhi [və alihi] və səlləm) bizə onlardan ayrılmağı əmr etdi."[610]

Əhməd ibn Hənbəlin "Müsnəd" kitabında isə belə nəql olunur:

Bizə Əffan nəql edib dedi: bizə Vüheyb nəql edib dedi: bizə Ümarə ibn Ğəziyyə əl-Ənsari nəql edib dedi: bizə Rəbi ibn Səbrə əl-Cuhəni atasından nəql edib dedi:

"Məkkənin fəthi günündə[611] Allah Rəsulu (sallallahu əleyhi [və alihi] və səlləm) ilə birgə (Məkkəyə tərəf) yola düşdük. On beş gecə-gündüz (Məkkədə) qaldıq. Allah Rəsulu (sallallahu əleyhi [və alihi] və səlləm) bizə mütə etməyə icazə verdi. Mən və əmi oğlum Məkkənin aşağısına – və ya yuxarısına – yollandıq. Yolda Bəni-Amir qəbiləsindən olan bir cavan qızla qarşılaşdıq. O, sanki uzun boyunlu cavan bir dişi dəvə idi. Mən bir qədər kifir idim. Lakin, əynimdə təzə və zərif bir əba var idi. Əmim oğlunun üzərində isə köhnəlmiş bir əba var idi. Biz ona dedik:

– Bizdən biri səndən faydalana bilər (səninlə mütə edə bilər)?

O dedi:

– Belə bir şey ola bilər?

Biz dedik:

---

[610] "Səhihü-Müslim": 2/1025.

[611] Cümlədə qarışıqlıq var. Belə ki, "Məkkənin fəthi ilində" olması daha uyğundur. Tərc.

– Bəli.

Bundan sonra o, əmim oğluna baxmağa başladı. Mən ona dedim:

– Mənim bu əbam təzə və qəşəngdir, əmim oğlunun əbası isə köhnəlmiş və nimdaşdır.

O dedi:

– Əmin oğlunun bu əbasının eybi yoxdur.

Bundan sonra əmim oğlu ondan faydalandı. Biz Məkkədən çıxmamışdıq ki, Allah Rəsulu (sallallahu əleyhi [və alihi] və səlləm) mütəni haram etdi”[612].

2-Bir dəfə atasının qadınla bir əba qarşılığında mütə etdiyini deyir, başqa bir yerdə isə iki qırmızı əba qarşılığında mütə etdiyini deyir:

“Müsnədü-Əhməd” kitabında belə nəql olunur:

Bizə Əbdür-Rəzzaq nəql edib dedi: bizə Məmər nəql edib dedi: mənə Əbdül-Əziz ibn Ömər Rəbi ibn Səbrədən, o da atasından nəql edib dedi:

“Allah Rəsulu (sallallahu əleyhi [və alihi] və səlləm) ilə birlikdə vida həcci üçün Məkkədən ayrıldıq. Üsfan məntəqəsində olanda Allah Rəsulu (sallallahu əleyhi [və alihi] və səlləm) “ümrə həccə daxil olub”, - dedi. Süraqə ibn Malik və ya Malik ibn Süraqə – şəkk Əbdül-Əzizdəndir – dedi:

– Ey Allahın Rəsulu, bizə sanki bu gün dünyaya gəlmiş bir dəstə adama öyrədirmiş kimi öyrət; bizim bu ümrəmiz bu ilimiz üçün belədir, yoxsa, həmişə bu cür olacaq?

Peyğəmbər dedi:

– Xeyr, həmişə belə olacaq.

Biz Məkkəyə vardığımızda Kəbəni təvaf etdik, sonra Səfa ilə Mərvə arasında yüyürdük. Sonra bizə qadınlarla mütə etmək göstərişi verildi. Biz Allah Rəsuluna müraciət edib dedik:

– Ey Allahın Rəsulu, qadınlar yalnız müəyyən müddətə qədər faydalanmağa razıdırlar. ”

Peyğəmbər dedi:

– O cür edin.

Mən və bir yoldaşım (şəhərə) çıxdıq. Bu zaman mənim əynimdə və dostumun əynində bir əba var idi. Biz bir qadınla qarşılaşdıq. Özümüzü ona təklif etdik. O mənim yoldaşımın əbasına baxır və onu mənim əbamdan daha yaxşı hesab edir, mənə də baxıb məni yoldaşımdan daha gənc hesab edirdi. Nəhayət, o, “bir əbanın yerinə başqa bir əba”, - deyib məni seçdi. Mən bir əbamın qarşılığında onunla on günlüyə izdivac etdim. Həmin gecəni onunla keçirdim. Səhər olunca məscidə getdim. Bu zaman Allah Rəsulunun (sallallahu əleyhi [və alihi] və səlləm) minbərdə xütbə edərək belə dediyini eşitdim: “Sizdən kim müəyyən bir müddətə

---

[612] “Müsnədü-Əhməd”: 3/405, kitabın mühəqqiqi Şeyx Şüeyb əl-Arnaut deyir: “**İsnadı səhihdir. Raviləri “səhih”in raviləridir**”.

qədər bir qadınla izdivac edibsə, həmin müddəti qadına bağışlasın, ona verdiyi şeydən də heç bir şeyi geri almadan ondan ayrılsın. Allah-taala bu nikahı qiyamətə qədər haram etmişdir”.”[613]

Səbrənin iki qırmızı əba qarşılığında mütə etdiyini bildirən rəvayətə gəlincə isə, bu rəvayət “Səhihü-Müslim” kitabında nəql edilmişdir:

“Mənə Həsən əl-Həlvani və Əbd ibn Hümeyd Yaqub ibn İbrahim ibn Səddən nəql edib dedilər: mənə atam Salehdən nəql edib dedi: bizə İbn Şihab Rəbi ibn Səbrədən, o da atasından xəbər verib dedi ki, atası ona bildirib ki:

Allah Rəsulu (sallallahu əleyhi [və alihi] və səlləm) Məkkənin fəthi zamanı qadın mütəsini qadağan edib və o, iki qırmızı əba müqabilində mütə edibmiş”[614].

3-Rəbi bir yerdə atasının həmin qadından üç gün faydalandıqdan sonra ayrıldığını nəql edir, digər yerdə isə bir gecə faydalandıqdan sonra ayrıldığını nəql edir.

“Səhihü-Müslim”də deyilir ki:

Bizə Yəhya ibn Yəhya nəql edib dedi: bizə Əbdül-Əziz ibn Rəbi ibn Səbrə ibn Məbəd nəql edib dedi: atam Rəbi ibn Səbrənin öz atası Səbrə ibn Məbəddən belə nəql etdiyini eşitdim:

“Peyğəmbər (sallallahu əleyhi [və alihi] və səlləm) Məkkənin fəthi ilində səhabələrə qadınlarla mütə etməyə icazə verdi. Mən Bəni-Süleymdən olan bir dostum ilə (şəhərə) çıxdıq. Yolda Bəni-Amirdən olan bir cariyə ilə qarşılaşdıq. O, sanki uzun boyunlu cavan bir dişi dəvə idi. Biz ona elçi düşdük və ona öz əbalarımızı təklif etdik. O (bizə) baxmağa başladı. Məni yoldaşımdan daha yaraşıqlı, yoldaşımın əbasını isə mənim əbamdan daha yaxşı hesab etdi. Bir müddət öz-özlüyündə götür-qoy etdikdən sonra məni seçdi. Qadınlar üç gün bizimlə oldular (yəni, bizə üç gün qadınlarla mütə etməyə icazə verildi). Sonra Allah Rəsulu (sallallahu əleyhi [və alihi] və səlləm) bizə onlardan ayrılmağı əmr etdi.”[615]

“Müsnədü-Əhməd” kitabında isə belə nəql olunur:

Bizə Əbdür-Rəzzaq nəql edib dedi: bizə Məmər nəql edib dedi: mənə Əbdül-Əziz ibn Ömər Rəbi ibn Səbrədən, o da atasından nəql edib dedi:

“Allah Rəsulu (sallallahu əleyhi [və alihi] və səlləm) ilə birlikdə vida həcci üçün Məkkədən ayrıldıq. Üsfan məntəqəsində olanda Allah Rəsulu (sallallahu əleyhi [və alihi] və səlləm) “ümrə həccə daxil olub”, - dedi. Süraqə ibn Malik və ya Malik ibn Süraqə – şəkk Əbdül-Əzizdəndir – dedi:

---

613 “Müsnədü-Əhməd”: 3/404, kitabın mühəqqiqi Şeyx Şüeyb əl-Arnaut deyir: “**İsnadı Müslimin şərtinə əsasən səhihdir. Raviləri siqədir. Buxari və Müslim raviləridir. Təkcə Rəbi ibn Səbrədən başqa ki, o, yalnız Müslimin ravisidir.**”

614 “Səhihü-Müslim”: 2/1026.

615 “Səhihü-Müslim”: 2/1025.

– Ey Allahın Rəsulu, bizə sanki bu gün dünyaya gəlmiş bir dəstə adama öyrədirmiş kimi öyrət; bizim bu ümrəmiz bu ilimiz üçün belədir, yoxsa, həmişə bu cür olacaq?

Peyğəmbər dedi:

– Xeyr, həmişə belə olacaq.

Biz Məkkəyə vardığımızda Kəbəni təvaf etdik, sonra Səfa ilə Mərvə arasında yüyürdük. Sonra bizə qadınlarla mütə etmək göstərişi verildi. Biz Allah Rəsuluna müraciət edib dedik:

– Ey Allahın Rəsulu, qadınlar yalnız müəyyən müddətə qədər faydalanmağa razıdırlar. ”

Peyğəmbər dedi:

– O cür edin.

Mən və bir yoldaşım (şəhərə) çıxdıq. Bu zaman mənim əynimdə və dostumun əynində bir əba var idi. Biz bir qadınla qarşılaşdıq. Özümüzü ona təklif etdik. O mənim yoldaşımın əbasına baxır və onu mənim əbamdan daha yaxşı hesab edir, mənə də baxıb məni yoldaşımdan daha gənc hesab edirdi. Nəhayət, o, “bir əbanın yerinə başqa bir əba”, - deyib məni seçdi. Mən bir əbamın qarşılığında onunla on günlüyə izdivac etdim. Həmin gecəni onunla keçirdim. Səhər olunca məscidə getdim. Bu zaman Allah Rəsulunun (sallallahu əleyhi [və alihi] və səlləm) minbərdə xütbə edərək belə dediyini eşitdim: “Sizdən kim müəyyən bir müddətə qədər bir qadınla izdivac edibsə, həmin müddəti qadına bağışlasın, ona verdiyi şeydən də heç bir şeyi geri almadan ondan ayrılsın. Allah-taala bu nikahı qiyamətə qədər haram etmişdir”.”[616]

4-Biz bir yerdə Rəbinin öz atasından öz yoldaşının bir qədər kifir olduğunu deməsini nəql etdiyini, digər yerdə isə özünün bir qədər kifir olduğunu deməsini nəql etdiyini görürük. Bir yerdə atasının əbasının nimdaş olduğunu nəql edir, digər yerdə isə atasının yoldaşının əbasının nimdaş olduğunu nəql edir.

“Səhihü-Müslim”də deyilir ki:

Bizə Əbu Kamil Füzeyl ibn Hüseyn əl-Cəhdəri nəql edib dedi: bizə Bişr ibn Müfəzzəl nəql edib dedi: bizə Ümarə ibn Ğəziyyə Rəbi ibn Səbrədən nəql edib dedi ki, Rəbinin atası Allah Rəsulu (sallallahu əleyhi [və alihi] və səlləm) ilə birlikdə Məkkənin fəthində iştirak edib. Atası deyib ki:

“Məkkədə on beş gün qaldıq. Allah Rəsulu (sallallahu əleyhi [və alihi] və səlləm) bizə qadınlarla mütə etməyə icazə verdi. Mən öz qohumlarımdan olan bir nəfərlə (şəhərə) çıxdım. Mən ondan bir qədər gözəl idim və o, bir qədər kifir idi. Bizim hər birimizin əynində bir əba var idi. Mənim əbam nimdaş olsa da, əmim

---

[616] “Müsnədü-Əhməd”: 3/404, kitabın mühəqqiqi Şeyx Şüeyb əl-Arnaut deyir: “**İsnadı Müslimin şərtinə əsasən səhihdir. Raviləri siqədir. Buxari və Müslim raviləridir. Təkcə Rəbi ibn Səbrədən başqa ki, o, yalnız Müslimin ravisidir.**”

oğlunun əbası təzə və zərif idi. Məkkənin aşağısına və ya yuxarsına çatdığımızda qarşımıza uzun boyunlu cavan dişi dəvə kimi bir qız çıxdı. Ona, "bizdən biri səndən faydalana bilərmi?", - dedik. O da, "qarşılığında nə verəcəksiniz?", - dedi. Biz öz əbalarımızı ona göstərdik. O, bizə baxmağa başladı. Dostum onun özündən razı olduğunu görüb[617] dedi: "Bunun əbası nimdaşdır, mənim əbam isə təzə və zərifdir". Qadın isə iki və ya üç dəfə, "bunun əbasının eybi yoxdur", - dedi. Sonra mən ondan faydalandım. (Məkkədən) çıxmamışdım ki, Allah Rəsulu (sallallahu əleyhi [və alihi] və səlləm) bu nikahı haram etdi"[618].

"Müsnədü-Əhməd"də isə deyilir ki:

Əhməd ibn Hənbəlin "Müsnəd" kitabında isə belə nəql olunur:

Bizə Əffan nəql edib dedi: bizə Vüheyb nəql edib dedi: bizə Ümarə ibn Ğəziyyə əl-Ənsari nəql edib dedi: bizə Rəbi ibn Səbrə əl-Cuhəni atasından nəql edib dedi:

"Məkkənin fəthi günündə Allah Rəsulu (sallallahu əleyhi [və alihi] və səlləm) ilə birgə (Məkkəyə tərəf) yola düşdük. On beş gecə-gündüz (Məkkədə) qaldıq. Allah Rəsulu (sallallahu əleyhi [və alihi] və səlləm) bizə mütə etməyə icazə verdi. Mən və əmi oğlum Məkkənin aşağısına – və ya yuxarısına – yollandıq. Yolda Bəni-Amir qəbiləsindən olan bir cavan qızla qarşılaşdıq. O, sanki uzun boyunlu cavan bir dişi dəvə idi. Mən bir qədər kifir idim. Lakin, əynimdə təzə və zərif bir əba var idi. Əmim oğlunun üzərində isə köhnəlmiş bir əba var idi. Biz ona dedik:

– Bizdən biri səndən faydalana bilər (səninlə mütə edə bilər)?

O dedi:

– Belə bir şey ola bilər?

Biz dedik:

– Bəli.

Bundan sonra o, əmim oğluna baxmağa başladı. Mən ona dedim:

– Mənim bu əbam təzə və qəşəngdir, əmim oğlunun əbası isə köhnəlmiş və nimdaşdır.

O dedi:

– Əmin oğlunun bu əbasının eybi yoxdur.

Bundan sonra əmim oğlu ondan faydalandı. Biz Məkkədən çıxmamışdıq ki, Allah Rəsulu (sallallahu əleyhi [və alihi] və səlləm) mütəni haram etdi"[619].

---

[617] Bəziləri bu cümləni "dostum ona baxınca ondan xoşu gəldi və onu özü üçün arzuladı" kimi mənalandırsalar da, fikrimizcə, bu, yanlışdır. Belə ki, ərəb dilində "nazara ilə itfihi" "özündən razı olmaq" mənasına gəlir. Görünür, ravi demək istəyir ki, Səbrənin yoldaşı qadına baxıb onun özündən razı olduğunu və özünü daha yaraşıqlı kişiyə layiq bildiyini görüncə, ona əbası ilə bağlı yuxarıdakı təklifi etmişdir. Tərc.

[618] "Səhihü-Müslim": 2/1024.

[619] "Müsnədü-Əhməd": 3/405, kitabın mühəqqiqi Şeyx Şüeyb əl-Arnaut deyir: "**İsnadı səhihdir. Raviləri "səhih"in raviləridir**".

5-Rəbi atasından nəql etdiyi rəvayətlərin birində atası Peyğəmbərin (sallallahu əleyhi və alihi və səlləm) mütəni haram etdiyini demədən sadəcə Peyğəmbərin (sallallahu əleyhi və alihi və səlləm) mütə edilmiş qadınlardan ayrılmağı əmr etdiyini bildirir. Bunu Müslimin nəql etdiyi və bizim 1 və 3-cü rəqəmlər altında qeyd etdiyimiz hədisdə görmək olar. Aydındır ki, mütə edilmiş qadınlardan ayrılmaq əmrinin verilməsi, mütə nikahının haram edildiyi mənasına gəlmir. Halbuki, digər hədislərdə Peyğəmbərin bu nikahı haram etdiyini, hətta bu nikahın Qiyamətə qədər haram edildiyi bildirilir.

Elə isə, özünüz deyin, bu cür ziddiyyət və təzad dolu bir rəvayət Quran ilə sabit olmuş və Peyğəmbər (sallallahu əleyhi və alihi və səlləm) tərəfindən mübah və halal edilmiş bir həqiqətin sonradan haram edildiyinə necə dəlil olar bilər?!

Bundan başqa, Osman əl-Xəmis Allah-taalaya iftira ataraq Allahın aşağıdakı ayələrlə mütə nikahını haram etdiyini bildirmişdir: "**(Möminlər nicat tapmışlar;) O kəslər ki, ayıb yerlərini (zinadan) qoruyub saxlayarlar; Ancaq zövcələri və cariyələri istisna olmaqla, Onlar (zövcələri və cariyələri ilə görəcəkləri bu işdən ötrü) qınanmazlar. Bundan artığını istəyənlər (halaldan harama addayaraq) həddi aşanlardır**"[620]. Buna cavab olaraq deyirik:

1-Allah-taalnın "**O kəslər ki, ayıb yerlərini qoruyub saxlayarlar...**" ayəsi Mumuninun və Məaric surələrindəndir. Bu surələr isə hicrətdən qabaq Məkkədə nazil olmuşlar. Elə isə, bu ayələr hicrətdən sonra Mədinədə qüvvəyə minən mütə nikahını qüvvədən sala bilməzlər.

2-Mütə edilən qadın qanuni zövcə – həyat yoldaşı sayılır. Buna əsasən, mütə nikahı ilə zövcə olan qadın "**...ancaq zövcələri və cariyələri istisna olmaqla**" ayəsinin hökmünə daxil olur.

3-Səhabələr Peyğəmbəri-Əkrəmin (sallallahu əleyhi və alihi və səlləm) həyatda olduğu son günədək, habelə Əbu Bəkrin hakimiyyəti zamanında və eləcə də Ömərin hakimiyyətinin bir qismində bu nikahı etmişlər. Lakin, sonradan Ömər bir qədər sonra qeyd olunacaq xüsusi bir hadisəyə görə mütə nikahını qadağan etmişdir. Bu fakt əhli-sünnənin səhih rəvayətlərində qeyd olunmuşdur. Müslim "Səhih" kitabında öz sənədi ilə Əbuz-Zübeyrdən belə nəql edir:

"Cabir ibn Abdullah əl-Ənsarinin belə dediyini eşitdim:

Biz, Ömər, Əmr ibn Hüreysin məsələsinə görə mütəni qadağan edincəyədək Allah Rəsulunun (sallallahu əleyhi [və alihi] və səlləm) və Əbu Bəkrin zamanında bir ovuc xurma və ya un müqabilində mütə edirdik"[621].

Bu rəvayət onu göstərir ki, səhabələr mütə nikahının nə Quran və nə də sünnə tərəfindən haram edilmədiyinə inanırmışlar. Görəsən, ola bilərmi ki, ayə mütə nikahının haramlığına dəlalət etsin, lakin bütün bu qədər səhabə bundan xəbərsiz

---

[620] Muminun surəsi, 5-7-ci ayələr. Məaric surəsi, 29-30-cu ayələr.
[621] "Səhihü-Müslim": 2/1023.

halda Peyğəmbəri-Əkrəmin (sallallahu əleyhi və alihi və səlləm) həyatı, Əbu Bəkrin bütün hakimiyyəti və Ömərin hakimiyyətinin bir hissəsi boyunca mütə etsinlər?!

Görəsən, Osman əl-Xəmis və mütə nikahının haram edildiyini deyən başqa sünni alimləri Qurani-Kərimə və halal-harama səhabələrdən daha yaxşımı bələddirlər?!

Görəsən, onlar Əmirəlmöminin Əli ibn Əbu Talibdən (əleyhissəlam), Abdullah ibn Abbasdan, Abdullah ibn Məsuddan, Cabir ibn Abdullahdan, Əbu Səid əl-Xudridən və mütə nikahının halallığı inancında olan digər səhabələrdən daha çox bilirlər?!

İbn Həzm deyir:

"Sələflərdən bir qrup şəxs mütə nikahının Peyğəmbərdən (sallallahu əleyhi [və alihi] və səlləm) sonra da halal olduğu inancı üzərində olmuşlar. Onlara misal olaraq aşağıdakı səhabələri (Allah onlardan razı olsun) göstərmək olar: Əsma binti Əbu Bəkr əs-Siddiq, Cabir ibn Abdullah, İbn Məsud, İbn Abbas, Müaviyə ibn Əbu Süfyan, Əmr ibn Hüreys, Əbu Səid əl-Xudri, Sələmə ibn Üməyyə ibn Xələf və Məbəd ibn Üməyyə ibn Xələf.

Cabir ibn Abdullah bütün səhabələrin Allah Rəsulunun (sallallahu əleyhi [və alihi] və səlləm) zamanında, Əbu Bəkrin zamanında və Ömərin xilafətinin sonlarına yaxın dövr ərzində mütə nikahının halal olması inancında olduğunu nəql etmişdir.

İbn Zübeyrin bu nikahın halallığına inanıb-inanmaması ixtilaflıdır, Əliyə gəlincə isə, onda təvəqqüf[622] edilməlidir.

Ömər ibn əl-Xəttabın isə bu nikah üçün iki adil şahid tutulmadığı təqdirdə bu nikahı halal bilmədiyi, tutulduğu təqdirdə isə halal bildiyi nəql olunmuşdur.

Mütə nikahını halal bilən tabeilərə gəlincə isə, onlara misal olaraq aşağıdakıları göstərə bilərik: Tavus, Əta, Səid ibn Cübeyr və digər Məkkə fəqihləri."[623]

Görəsən, onlar mütə nikahının halallığına inanan və sözü gedən ayəni "müəyyən müddətə qədər" ifadəsi ilə oxuyan İmam Əli ibn Hüseyndən, İmam Baqirdən və İmam Sadiqdən (əleyhimussəlam) çoxmu bilirlər?!

Osman əl-Xəmisin digər iddiasına (mütənin Peyğəmbər (sallallahu əleyhi və alihi və səlləm) tərəfindən Xeybər günündə haram edilməsi ilə bağlı İmam Əlidən (əleyhissəlam) nəql edilən hədisin şiə mənbələrində də mövcud olması iddiası) gəlincə, ona cavab olaraq deyirik:

1-Əhli-sünnə hədisləri və eləcə də əhli-sünnə alimlərinin sözləri Peyğəmbəri-Əkrəmin (sallallahu əleyhi və alihi və səlləm) Xeybərdən sonra da mütə nikahı öz

---

[622] Müsbət və ya mənfi heç bir rəy bildirilməməlidir. Tərc.
[623] "əl-Mühəlla": 11/69.

səhabələrinə halal etdiyini göstərir. Bu ona dəlalət edir ki, Xeybər günündə Peyğəmbəri-Əkrəmdən (sallallahu əleyhi və alihi və səlləm) mütənin haramlığı ilə bağlı heç bir şey sadir olmamışdır. Əks halda, nə üçün onu sonradan halal etsin ki? Buna yalnız "mütə əvvəl haram edilmiş, sonra halal edilmiş, sonra yenidən haram edilmiş, sonra yenidən halal edilmişdir", - deyildiyi təqdirdə bir məna qatmaq olar – və necə ki, bəziləri belə də etmişlər. Lakin, bu da heç şübhəsiz ki, hədislər arasında meydana gələn ziddiyyəti aradan qaldırmaq üçün atılmış bir addımdır və heç bir dəlilə söykənməyən zəif fikirdən başqa bir şey deyildir.

2-Osman əl-Xəmisin şiə mənbələrində də gəldiyini bildirdiyi hədisi Şeyx Tusi (Allah ona rəhmət etsin) "əl-İstibsar" və "Təhzib" kitablarında nəql etmişdir[624]. Hədisin sənədi zəifdir. Belə ki, sənəddə Hüseyn ibn Əlvan və Əmr ibn Xalif əl-Vasiti vardır. Birinci şəxs sünni məzhəblidir. Onun güvənilir olub-olmaması barədə ixtilaf edilmişdir. Çünki, Şeyx Nəcaşinin öz "Rical" kitabında onun tərcümeyi-halında dediyi tövsiq[625] mənalı cümlə onun özünə də qayıda bilər, onun qardaşına da. Bundan başqa da onun barəsində ayrı bir tövsiq yoxdur. Buna görə də, bəzi fəqihlər onu güvənilir bilsələr də, digərləri onu zəif hesab etmişlər. Buna əsasən, bu şəxsin güvənirliyi ixtilaflıdır. İkinci şəxsə gəlincə isə, onun barəsində də bioqrafiya kitablarında tövsiq gəlməmişdir. Həmçinin, onun məzhəbi barəsində ixtilaf edilmişdir. Onun sünni, yoxsa zeydi məzhəbli olması məlum deyil.

Elə isə sənədi belə bir durumda olan bir hədisi şiələr əleyhinə necə dəlil gətirmək olar?

Üstəlik, bu hədis şiə mənbələrində mütə nikahının halallığına dəlalət edən müstəfiz həddə[626] hədislərlə ziddiyyət təşkil edir. Elə isə, həmin hədisləri bir kənara qoyub bu zəif hədisə necə əsaslanmaq olar?!

3-Bəzi böyük əhli-sünnə alimləri Xeybər günündə qadınlardan faydalanma (mütə) hadisənin baş vermədiyini və Peyğəmbərin (sallallahu əleyhi və alihi və səlləm) həmin gün mütəni haram etdiyini bildirmişlər.

Beyhəqi deyir:

"İbn Üyeynə iddia edirmiş ki, Əlinin hədisində bəyan olunan Xeybər qadağası mütə nikahı barədə deyil, məhz ev eşşəklərinin ətinin yeyilməsi barədə imiş. Onun dediyi doğru görsənir..."[627].

İbn Həcər deyir:

"Süheyli demişdir: Bu hədislə (mütənin Xeybərdə qadağan edildiyini bildirən hədislə) yanaşı bir irad meydana gəlir. O budur ki, bu hədisdə mütənin Xeybər

---

[624] "Təhzibül-əkham": 7/251, "əl-İstibsar": 3/142.
[625] Kiminsə güvənilir olduğunu bildirmək. Tərc.
[626] Müstəfiz: mütəvatir həddinə yaxın bir həddir. Tərc.
[627] "Mərifətüs-sünən vəl-asar": 5/342.

günündə qadağan edildiyi deyilir. Halbuki, sirə müəllifləri və hədis raviləri bunu doğru hesab etmirlər..."[628].

İbn Əbdül-Bərr deyir:

"Mütənin Xeybər günündə qadağan olunması xəbəri yanlışdır"[629].

Qəstəlani deyir:

"Bu hədisdə ifadələr arasında yerdəyişmə olduğu deyilmişdir. Əslində hədis belə olmalıymış: "Peyğəmbər Xeybər günündə ev eşşəklərinin ətini yeməyi qadağan etdi və (başqa bir vaxt) mütə nikahını qadağan etdi". Burada "Xeybər günü" sözü "mütə nikahı" sözünün zərfi deyildir. Çünki, Xeybər döyüşündə qadınlardan faydalanmaq – mütə hadisəsi baş verməmişdir"[630].

İbn əl-Qəyyim deyir:

"Xeybərdə səhabələr yəhudi qadınlardan faydalanıb onlarla mütə etməmiş, bu barədə Allah Rəsulundan (sallallahu əleyhi [və alihi] və səlləm) izin istəməmişlər. Heç kəs onların belə bir şey etdiyini nəql etməmişdir. Xeybər döyüşü vaxtı əsla nə mütə baş vermiş, nə də mütə qadağan edilmişdir..."[631].

Bu sitatlardan aydın olur ki, Peyğəmbər (sallallahu əleyhi və alihi və səlləm) Xeybər günündə mütəni haram etməmiş və ümumiyyətlə, bu döyüş əsnasında mütə baş verməmişdir. Bunu, İmam Əlidən (əleyhissəlam) qeyriləri yolu ilə nəql olunan hədislər də dəstəkləyir. Belə ki, bu hədislərdə qətiyyən mütə nikahından söz açılmır və sadəcə ev eşşəklərinin ətinin qadağan edilməsindən danışılır. Deməli, mütə nikahının Xeybər günündə qadağan edilməsi fikri batil və yanlış bir fikirdir və İmam Əliyə (əleyhissəlam) nisbət verilən hədis saxta və qondarmadır.

4-Əgər həqiqətən də İmam Əli (əleyhissəlam) Osman əl-Xəmisin nəql etdiyi rəvayətdə deyildiyi kimi, İbn Abbasa Peyğəmbərin (sallallahu əleyhi və alihi və səlləm) mütə nikahını haram etdiyini xəbər vermişdisə, bəs nə üçün İbn Abbas ömrünün sonuna kimi mütə nikahının halal və icazəli olduğunu deyirdi?

Daha öncə İbn Həzmdən qeyd etdiyimiz sitatdan əlavə, İbn Abbasın mütə nikahının halallığına inanması ilə bağlı başqa dəlillərimiz də vardır. Bu dəlillərə misal olaraq aşağıdakıları göstərə bilərik:

1-Müslim ibn Həccac "Səhih" kitabında belə nəql edir:

"Abdullah ibn Zübeyr Məkkədə xütbə edib dedi:

– Həqiqətən də bəzi insanlar var ki, Allah onların zahiri gözlərini kor etdiyi kimi, ürəklərini də kor etmişdir. Bu şəxslər mütənin icazəli olmasına fətva verirlər.

Abdullah ibn Zübeyr bu sözlərlə bir nəfərə söz atırdı[632].

Bu vaxt həmin şəxs İbn Zübeyrə səslənib dedi:

---

628 "Fəthül-Bari": 9/168.
629 "ət-Təmhid": 10/99.
630 "İrşadus-sari": 9/232.
631 "Zadul-məad": 3/344-345.
632 Bu şəxs Nəvəvinin də bildirdiyi kimi (Nəvəvinin "Səhihü-Müslim"ə şərhi: 9/188) İbn Abbasdır.

– Sən həqiqətən də kobud və qaba adamsan. Canıma and olsun ki, təqvalıların imamının – Allah Rəsulunu (sallallahu əleyhi [və alihi] və səlləm) nəzərdə tuturdu – zamanında mütə nikahı icra edilirdi.

İbn Zübeyr ona dedi:

– İstəyirsən, bir özün yoxla. Allaha and olsun, əgər bu nikahı etsən, səni (zinakarların daşlandığı) daşlarla daş-qalaq edərəm!”[633]

Bu cümlələrdən anlaşılır ki, İbn Zübeyr bu sözləri İbn Abbasa öz hakimiyyəti günlərində deyibmiş. Buna İbn Zübeyrin dediyi, “İstəyirsən, bir özün yoxla. Allaha and olsun, əgər bu nikahı etsən, səni (zinakarların daşlandığı) daşlarla daş-qalaq edərəm” sözü şahidlik edir. O, öz hakim mövqeyindən istifadə edərək İbn Abbası bu nikahı edəcəyi təqdirdə daş-qalaq olunmaqla təhdid edir. Həmçinin, İbn Zübeyrin işlətdiyi “Allah onların zahiri gözlərini kor etdiyi kimi...” sözündən belə başa düşülür ki, bu hadisə baş verən vaxt İbn Abbasın (Allah ondan razı olsun) gözləri tutulmuş olub. O da sübuta yetmişdir ki, İbn Abbasın gözlərinin məhz həyatının sonlarında tutulmuşdur.

2-İbn Qüdamə deyir:

“İbn Abbasdan mütə nikahının icazəli olduğu nəql edilmişdir. İbn Abbasın əksər tələbələri, o cümlədən, Əta və Tavus bu fikirdə olmuşlar. Cüreyc də bu fikri qəbul etmişdir. Əbu Səid əl-Xudrinin və Cabirin də bu fikiri qəbul etdikləri nəql edilmişdir. Şiələr də bu nəzəri qəbul etmişlər, çünki, Peyğəmbərin (sallallahu əleyhi [və alihi] və səlləm) bu nikaha icazə verdiyi sübuta yetmişdir”[634].

3-Şəvkani deyir:

“İbn Bəttal belə demişdir: Məkkə və Yəmən camaatı İbn Abbasın mütəni halal hesab etdiyini nəql etmişlər. Zəif sənədlərlə İbn Abbasın bu fikirdən döndüyü də nəql edilmişdir. Lakin, onun mütəni icazəli hesab etməsi daha səhihdir. Şiələr də bu fikirdədirlər (mütəni halal hesab edirlər)”[635].

4-Şeyx Muhəmməd Nasiruddin əl-Əlbani deyir:

“İbn Abbasdan (Allah ondan razı olsun) mütə ilə bağlı 3 nəzər nəql edilmişdir:

Birinci: Mütənin mütləq olaraq halal olması nəzəri.

İkinci: Mütənin zərurət halında halal olması nəzəri.

Üçüncü: Mütənin mütləq olaraq haram olması nəzəri.

Bu sonuncu ilk iki nəzərdən fərqli olaraq, tam şəkildə sübuta yetməmişdir. Digər iki nəzər isə sabitdir. Allah daha yaxşı bilər”[636].

5-İbn Abbasdan belə nəql edilmişdir:

---

633 “Səhihü-Müslim”: 2/1026, hədis: 1406, “Sünənül-Beyhəqi”: 7/205, hədis: 13942.
634 “əl-Muğni”: 7/571.
635 “Neylül-əvtar”: 6/270.
636 “İrvaul-ğəlil”: 6/319.

“Mütə bir rəhmət idi ki, Allah onunla bəndələrə rəhm etmişdi. Əgər Ömərin qadağası olmasaydı, zinaya baş vurulmazdı”[637].

Mütənin haram edilməsi ilə bağlı İmam Əliyə (əleyhissəlam) nisbət verilən sözü təkzib edən faktlardan biri də Əbdür-Rəzzaqın “Müsənnəf” kitabında İbn Cüreycdən nəql etdiyi aşağıdakı rəvayətdir:

“Əbuz-Zübeyr mənə Cabir ibn Abdullahın belə dediyini eşitdiyini xəbər verdi:

Əmr ibn Hüreys Kufədən gəldi. Bir qadınla mütə etdi. Sonra o qadını hamilə vəziyyətdə Ömərin yanına gətirdilər. Ömər qadından nə baş verdiyini soruşduqda, qadın, “Əmr ibn Hüreys mənimlə mütə edib”, - deyə cavab verdi. Ömər Əmrdən bunu soruşdu, Əmr də açıq şəkildə cavab verdi. Ömər, “ondan başqa birisi yoxdur?”, - dedi[638]. Bundan sonra Ömər bu nikahı qadağan etdi.

İbn Cüreyc deyir:

Mənə inandığım bir şəxs Əlinin Kufədə belə dediyini xəbər verdi: “Əgər Ömər ibn əl-Xəttabın daha öncə verdiyi qərar olmasaydı, mütənin icra olunmasına əmr verərdim. O zaman bədbəxt adamdan başqa heç kəs zina etməzdi”.”[639]

Bu rəvayətdə İmam Əli (əleyhissəlam) mütənin qadağan olunmasını Allah Rəsuluna (sallallahu əleyhi və alihi və səlləm) deyil, Ömər ibn əl-Xəttaba nisbət verir. Əgər o, həqiqətən də Xeybər günündə Peyğəmbərin (sallallahu əleyhi və alihi və səlləm) mütəni qadağan etdiyini eşitmiş olsaydı, onda əsla onun icra olunmasına əmr verməkistəməzdi.

## Mütə nikahını Ömərin qadağan etdiyinə dəlillər

Üçüncü: Osman əl-Xəmis iddia etmişdir ki, mütə nikahının Ömər tərəfindən qadağan edildiyini deyənlər yalnız şiələrdir. Bu, yanlış sözdür. Əhli-sünnə rəvayətləri və bəzi əhli-sünnə alimlərinin sözləri mütə nikahının məhz Ömər tərəfindən qadağan edildiyini çatdırır. Hətta, Ömər ibn əl-Xəttab şəxsən özü bu qadağanı birbaşa özünə nisbət vermişdir. Onun belə deməsi sübuta yetmişdir:

“Allah Rəsulunun (sallallahu əleyhi [və alihi] və səlləm) zamanında icra olunan iki mütə var idi ki, mən onları qadağan edirəm: qadın mütəsi və həcc mütəsi”[640].

---

637 “Müsənnəf” (Əbdür-Rəzzaq): 7/497.

638 Rəvayətin bu hissəsində qarışıqlıq baş verib. Belə ki, digər rəvayətlərdə deyilir ki, Ömər Əmrdən (başqa rəvayətlərin birində: qadından) “bir şahidin varmı”, - deyə soruşmuş, Əmr də “qadının anası” və ya “bacısı”, yaxud da “qardaşı və anası”, - deyə cavab vermişdir. Tərc.

639 “Müsənnəf”: 7/500, hədis: 14029.

640 “ət-Təmhid” (İbn Əbdül-Bərr): 10/113 və 23/365, “Təzkirətül-huffaz”: 1/366, “əl-İləl” (Darəqutni): 2/155, “əl-Mühəlla” (İbn Həzm): 7/107, “əl-Muğni” (İbn Qudamə): 7/136, “Sünənül-Beyhəqi”: 7/206, “əs-Sünən” (Səid ibn Mənsur əl-Xorasani): 1/252, “Şərhül-məani” (Təhavi): 2/146, “Cuzu-əhadis” (Eyyub Səxtiyani): səh.82, hədis: 49, kitabın mühəqqiqi “**isnadı siqə şəxslərdir**”, - demişdir. “Təfsirür-Razi”: 2/167, “Bidayətül-müctəhid”: 1/346,

Əşəri sxolastiki Əllamə Quşcinin "Şərhüt-təcrid" kitabında Ömər ibn əl-Xəttabın belə dediyi nəql olunur:

"Ey camaat, Allah Rəsulunun (sallallahu əleyhi [və alihi] və səlləm) zamanında icra olunan üç şey var ki, (hal-hazırda) mən onlardan çəkindirir, onları haram edir və onları edənləri cəzalandırıram: qadın mütəsi, həcc mütəsi və azanda "həyyə əla xeyril-əməl" ("ən yaxşı əmələ tərəf tələsin") demək"[641].

Rağib əl-İsfahani deyir:

"Yəhya ibn Əksəm Bəsrənin şeyxinə dedi:

– Kimin sözünə əsasən, mütənin icazəli olmasını dedin?

Dedi:

– Ömər ibn əl-Xəttabın.

Yəhya dedi:

– Bu necə ola bilər? Axı Ömər mütə barədə ən kəskin mövqe tutan şəxsdir.

Dedi:

– Çünki, səhih xəbərdə deyilir ki, Ömər minbərə çıxıb dedi: "Allah və onun Rəsulu sizin üçün iki mütəni halal etdilər, mən isə onları haram edir və onları edənləri cəzalandırıram: onlar qadın mütəsi və həcc mütəsidir"."[642]

"Əl-Müsnədül-müstəxrəc ələ səhihi-Müslim" kitabında deyilir:

"Bizə Abdullah ibn Muhəmməd xəbər verib dedi: bizə Əhməd ibn Əli xəbər verib dedi: bizə Əbur-Rəbi xəbər verib dedi: bizə Həmmad ibn Zeyd Asim əl-Əhvəldən, o, Əbu Nəzrədən, o da Xaliddən nəql edib dedi:

Allah Rəsulunun (sallallahu əleyhi [və alihi] və səlləm) zamanında icra etdiyimiz iki mütə var idi ki, Ömər onları etməyi bizə qadağan etdi və biz bir daha onları etmədik".

Bunun ardınca müəllif deyir: "Bunu Müslim Hamid ibn Ömər əl-Bəkravidən, o, Əbdül-Vahiddən, o da Asimdən nəql etmişdir"[643].

Təhavinin "Şərhu-məanil-asar" kitabında deyilir:

Bizə İbn Əbu Davud nəql edib dedi: bizə Süleyman ibn Hərb nəql edib dedi: bizə Həmmad Asimdən, o, Əbu Nəzrədən, o da Cabirdən nəql edib dedi:

"Allah Rəsulunun (sallallahu əleyhi [və alihi] və səlləm) zamanında icra etdiyimiz iki mütə var idi ki, Ömər onları etməyi bizə qadağan etdi və biz bir daha onları etməyəcəyik"[644].

Əhməd ibn Hənbəlin "Müsnəd" kitabında deyilir:

---

"Əhkamul-Quran" (Cəssas): 1/279, "Zadul-məad": 2/205, "əd-Dürrül-mənsur": 2/141, "Kənzül-ümmal": 8/293, "əl-Bəyan vət-təbyin" (Cahiz): 2/123.

641 "Şərhüt-təcrid": səh.484.

642 "əl-Muhazirat": 2/94.

643 "əl-Müsnədül-müstəxrəc ələ səhihi-Müslim": 3/346, hədis: 2890.

644 "Şərhu-məanil-asar": 2/144.

Bizə Əbdüs-Səməd nəql edib dedi: bizə Həmmad Asimdən, o, Əbu Nəzrədən, o da Cabirdən nəql edib dedi:

"Allah Rəsulunun (sallallahu əleyhi [və alihi] və səlləm) zamanında icra olunan iki mütə var idi ki, Ömər onları etməyi bizə qadağan etdi və biz də bir daha onları etmədik"[645].

Sərəxsi deyir:

"Ömərin camaatı mütədən çəkindirərək belə deməsi səhih şəkildə nəql olunmuşdur: Allah Rəsulunun (sallallahu əleyhi [və alihi] və səlləm) zamanında icra etdiyimiz iki mütə var idi ki, mən camaata onları etməyi qadağan edirəm: qadın mütəsi və həcc mütəsi"[646].

Süyuti tarixdə ilk dəfə Ömərin etdiyi şeylərdən danışarkən deyir:

"Əskəri demişdir: "Möminlərin əmiri" adlanan ilk şəxs odur. Tarixi hicrətdən etibarən yazan ilk şəxs odur. Beytül-mal (dövlət xəzinəsi) təşkil edən ilk şəxs odur. Ramazan ayının gecələrində oyaq qalmaq adəti qoyan ilk şəxs odur. Gecə vaxtı təftişə çıxan ilk şəxs odur. Həcvə (satiraya) görə cəza tətbiq edən ilk şəxs odur. Şəraba görə 80 zərbə vurduran ilk şəxs odur. Mütə nikahını haram edən ilk şəxs odur..."[647].

Qəlqəşəndi tarixdə ilk dəfə Ömərin etdiyi şeyləri sadalayarkən deyir:

"O, mütə nikahını haram edən ilk şəxsdir"[648].

İbn Abbasdan belə nəql olunur:

"Mütə bir rəhmət idi ki, Allah onunla bəndələrə rəhm etmişdi. Əgər Ömərin qadağası olmasaydı, zinaya baş vurulmazdı"[649].

Təbəri səhih sənədlə belə nəql edir:

Bizə Muhəmməd ibn əl-Müsənna nəql edib dedi: bizə Muhəmməd ibn Cəfər nəql edib dedi: bizə Şubhə Həkəmdən nəql edib dedi:

(Şubə deyir: ) "Həkəmə sual verib dedim: "**Sahib olduğunuz (cariyələr) müstəsna olmaqla, ərli qadınları almaq... İstifadə etdiyiniz qadınların mehrini...**" ayəsi (Nisa surəsinin 24-cü ayəsi) nəsx olunub (başqa bir ayə ilə qüvvədən salınıbmı)?

Həkəm dedi: "Xeyr".

Sonra dedi: "Əli demişdir ki: Əgər Ömər mütəni qadağan etməsəydi, bədbəxt adamdan başqa heç kəs zina etməzdi"."[650]

---

645 "Müsnədü-Əhməd": 3/325.
646 "əl-Məbsut": 4/27.
647 "Tarixul-xüləfa": səh.136.
648 "Məasirul-ənaqə": 3/338.
649 "əl-İstizkar": 5/506, "ət-Təmhid": 10/114, "Təlxisul-xəbər": 3/158, "Bidayətül-müctəhid": 2/44, "Neylul-əvtar": 6/271, "Təfsirut-Təbəri": 5/130, "Şərhu-məanil-əxbar": 3/26, "Müsənnəfu-Əbdir-Rəzzaq": 7/497.
650 "Təfsirüt-Təbəri": 5/13.

Təbərinin “Tarix” kitabında deyilir ki, İmran ibn Səvadə nəsihət vermək üçün Ömərin yanına gəlib ümmətin ondan narazı olduğu işləri ona sadalayır. İmranın sadaladığı şeylər arasında belə deyilir:

“...Onlar deyirlər ki, sən mütə nikahını haram etmisən, halbuki, o, Allah tərəfindən olan bir rüxsət idi; biz bir ovuc şey müqabilində mütə edib üç gün sonra ayrılırdıq.

Ömər dedi: Allah Rəsulu (sallallahu əleyhi [və alihi] və səlləm) onu zərurət və ehtiyac zamanında halal etmişdi, sonra isə camaat rifaha yetişdi...”[651].

Müslim ibn Həccac əl-Quşeyri öz “Səhih” kitabında öz sənədi ilə Əbu Nəzrədən belə nəql edir:

“Mən Cabir ibn Abdullahın yanında idim. Bu zaman bir nəfər onun yanına gəlib dedi:

– İbn Abbas və İbn Zübeyr iki mütə barəsində ixtilaf ediblər.

Cabir dedi:

– Biz Allah Rəsulunun (sallallahu əleyhi [və alihi] və səlləm) zamanında bu iki mütəni edirdik. Sonra Ömər onları etməyi bizə qadağan etdi və biz bir daha onları etmədik.”[652]

Səid ibn Mənsur “Sünən” kitabında belə nəql edir:

“Bizə Səid nəql edib dedi: bizə Hüşeym nəql edib dedi: bizə Əbdül-Məlik Ətadan, o da Cabir ibn Abdullahdan nəql edib dedi:

Ömər qadağan edənədək, camaat qadınlarla mütə edirdi”[653].

Bu qeyd etdiklərimizdən açıq-aşkar şəkildə bəlli olur ki, mütəni qadağan edən şəxs məhz Ömər ibn əl-Xəttabdır və o, bu qadağanı Allaha və ya Peyğəmbərə deyil, birbaşa özünə nisbət vermişdir. Əgər mütə nikahı bəzilərinin iddia etdiyi kimi, Allah və Peyğəmbər tərəfindən qadağan edilmiş olsaydı, onda Ömər heç tərəddüd etmədən bu qadağanı birbaşa onlara nisbət verərdi. Çünki, belə olunca, öz hədəfinə daha tez çatar və bu, camaatı mütədən çəkindirmək yolunda daha effektli vasitə olardı.

Rəvayətlərdən həmçinin, aydın olur ki, Ömər ibn əl-Xəttab mütə nikahını hakimiyyətinin son günlərində, Əmr ibn Hüreysin bir qadınla elan etmədən və ya şahid tutmadan mütə etməsi hadisəsinə görə qadağan etmişdir.

Əbdür-Rəzzaqın “Müsənnəf” kitabında səhih sənədlə Ətadan belə nəql olunur:

“Mütə (xəbəri) eşitdiyim ilk şəxs Səfvan ibn Yəhya idi[654]. O, Yəladan nəql edərək dedi ki, Müaviyə Taifdə bir qadınla mütə edib. Mən buna inanmayıb onunla

---

651 “Tarixut-Təbəri”: 2/579.
652 “Səhihü-Müslim”: 4/59, 131.
653 “Sünənü-Səid ibn Mənsur”: 1/252, xəbər: 850.
654 Yəni, mütənin halal olması xəbərini eşitdiyim ilk şəxs.

razılaşmadım. İbn Abbasın yanına getdik. Bizdən biri hadisəni ona danışdı, İbn Abbas "bəli (halaldır)", - deyə cavab verdi. Lakin, yenə də ürəyim rahat olmadı. Nəhayət, Cabir ibn Abdullah (Mədinəyə) gəlincə, evinə onun yanına getdik. Camaat ondan bir sıra şeylər soruşduqdan sonra mütə barəsində soruşdular. Cabir dedi: "Bəli (halaldır). Biz Allah Rəsulu (sallallahu əleyhi [və alihi] və səlləm) və Əbu Bəkrin dövründə, eləcə də Ömərin dövrünün bir hissəsində mütə edirdik. Lakin, Ömərin xilafətinin axırlarında Əmr ibn Hüreys bir qadınla mütə etdi – Cabir o qadının adını dedi, lakin mən unutmuşam –. Həmin qadın hamilə qaldı. Bu xəbər Ömərə çatdı və o, qadını çağırıb deyilənlərin düz olub-olmadığını soruşdu. Qadın dedi: "Bəli". Ömər dedi: "Kim şahid olub?". – Əta deyir: Bilmirəm, qadın "anam", - dedi, ya vəlisinin adını çəkdi –. Ömər dedi: "Ondan başqası yoxdur?". Bundan sonra Ömər digər şahidin[655] saxta olmasından qorxdu..."[656].

Əbdür-Rəzzaqın İbn Cüreycdən raviləri siqə olan bir sənədlə nəql etdiyi başqa bir rəvayətdə deyilir:

"Mənə Abdullah ibn Osman ibn Xüseym xəbər verib dedi ki, Muhəmməd ibn əl-Əsvəd ibn Xələf ona xəbər verib ki:

Əmr ibn Hüreys Bəni-Amir ibn Lüey qəbiləsindən olan bakirə bir cariyə ilə mütə etmiş və cariyə hamilə qalmışdır. Bunu Ömərə danışmışlar. Ömər hadisəni cariyədən xəbər almış, cariyə də Əmr ibn Hüreysin onunla mütə etdiyini bildirmişdir. Ömər bunu Əmrdən soruşunca, Əmr etiraf etmişdir. Ömər demişdir: "Kimi şahid tutmusan?" – Muhəmməd deyir: Bilmirəm, Əmr "anasını" və ya "bacısını", - demiş, yoxsa, "qardaşını və anasını", - demişdir. – Ömər qalxıb minbərə gəlmiş, minbərə çıxaraq demişdir: "Nə olub ki, bəzi kişilər adil şahidlər tutmadan mütə nikahı edirlər? Əgər bir şəxs şahid tutmadan mütə etsə, ona hədd vuracağam!"

Mənə bu hadisəni Ömər xütbə edərkən minbərin altında əyləşib onun sözünü eşidən bir şəxs danışıb. Bu hadisədən sonra camaat Ömərin sözünü qəbul edib"[657].

Müslim "Səhih" kitabında Əbuz-Zübeyrdən belə nəql edir:

Cabir ibn Abdullah əl-Ənsarinin belə dediyini eşitdim:

Biz, Ömər, Əmr ibn Hüreysin məsələsinə görə mütəni qadağan edincəyədək Allah Rəsulunun (sallallahu əleyhi [və alihi] və səlləm) və Əbu Bəkrin zamanında bir ovuc xurma və ya un müqabilində mütə edirdik"[658].

Əhli-sünnənin ən səhih kitablarından birində nəql olunan bu səhih xəbərə diqqətlə nəzər salan şəxslər üçün aydın olur ki. Cabir ibn Abdullah əl-Ənsari və Peyğəmbər (sallallahu əleyhi və alihi və səlləm) zamanında, Əbu Bəkrin xilafəti

---

655 Yaxud, "digər bu növ nikahın". Tərc.

656 "Müsənnəf": 7/396, rəvayət: 14097.

657 "Müsənnəf": 7/399, rəvayət: 13108.

658 "Səhihü-Müslim": 2/1023.

zamanında və Ömərin xilafətinin bir hissəsində mütə edən bütün digər səhabələr mütə nikahının haram edilməsindən xəbərsiz olmuş, mütə nikahının haramlığına dair nə Qurandan və nə də sünnədən bir dəlil tanımışlar. Buna görə də, Ömər qadağan edincəyədək, heç bir narahatlıq keçirmədən bu nikahı etmişlər.

Həmçinin, bu xəbər sizə Təbəranin "əl-Mucəmul-əvsət" kitabında və başqalarının da öz kitablarında nəql etdikləri aşağıdakı xəbərin batilliyini göstərir. Belə ki, Cabir ibn Abdullahın belə dediyi iddia olunur:

"Biz mütə etdiyimiz qadınlarla birgə (yola) çıxdıq. Allah Rəsulu (sallallahu əleyhi [və alihi] və səlləm) "onlar Qiyamətə qədər haramdırlar!", - dedi. Biz də onlarla vidalaşdıq. Bundan sonra bizim onlarla vidalaşdığımız həmin yer "vida təpəsi" adlandırıldı. Halbuki, daha öncə "dəvə təpəsi" adlanırdı."[659]

Əgər bu xəbərdə deyilənlər doğrudursa və həqiqətən də Peyğəmbər (sallallahu əleyhi və alihi və səlləm) mütə nikahının Qiyamətə qədər haram olduğunu bildirmişdisə, bəs nə üçün Cabir ibn Abdullah və digər səhabələr bu qadağadan sonra mütə edirdilər?!

Nə üçün Cabir Müslimin nəql etdiyi səhih rəvayətdə bildirilənə əsasən, qadağa əmrini Allah Rəsuluna (sallallahu əleyhi və alihi və səlləm) deyil, Ömərə nisbət verirdi?!

Əbdür-Rəzzaq səhih sənədlə belə nəql etmişdir:

"İbn Cüreycdən belə nəql olunur: Əbuz-Zübeyr mənə xəbər verib dedi: Cabir ibn Abdullahın belə dediyini eşitdim:

Əmr ibn Harisə qadağa qoyulana qədər, biz Allah Rəsulunun (sallallahu əleyhi [və alihi] və səlləm) səhabələri mütə edirdik.

Sonra Cabir dedi: Əgər müddət bitdikdən sonra kişi ilə qadın yenidən nikah bağlamaq istəsələr, kişi qadın üçün yeni bir mehr təyin etməlidir.

Sonra bizdən biri ondan soruşdu: "Qadının "iddə"si (boşandıqdan sonra gözləmə müddəti) nə qədərdir?"

Cabir dedi: "(Qadağadan öncə) qadınlar mütə etdikləri kişilər üçün bir heyz müddəti qədər iddə saxlayırdılar"."[660].

Əbdür-Rəzzaq yenə səhih sənədlə belə nəql etmişdir:

"İbn Cüreyc deyir: Əbuz-Zübeyr mənə Cabir ibn Abdullahın belə dediyini eşitdiyini xəbər verdi:

Əmr ibn Hüreys Kufədən gəldi. Bir qadınla mütə etdi. Sonra o qadını hamilə vəziyyətdə Ömərin yanına gətirdilər. Ömər qadından nə baş verdiyini soruşduqda, qadın, "Əmr ibn Hüreys mənimlə mütə edib", - deyə cavab verdi. Ömər Əmrdən bunu soruşdu, Əmr də açıq şəkildə cavab verdi. Ömər, "ondan başqa birisi varmı?", - dedi. Bundan sonra Ömər bu nikahı qadağan etdi.

---

[659] "əl-Mucəmul-əvsət": 1/287.
[660] "Müsənnəf": 7/398, rəvayət: 14102.

İbn Cüreyc deyir:

Mənə inandığım bir şəxs Əlinin Kufədə belə dediyini xəbər verdi: "Əgər Ömər ibn əl-Xəttabın daha öncə verdiyi qərar olmasaydı, mütənin icra olunmasına əmr verərdim. O zaman bədbəxt adamdan başqa heç kəs zina etməzdi"."[661]

Bütün bu rəvayətlərdən aydın olur ki, mütəni qadağan edən şəxs Ömər ibn əl-Xəttabdır. Səhabələrin zamanında mütə nikahının Allah və ya Peyğəmbər (sallallahu əleyhi və alihi və səlləm) tərəfindən qadağan edilməsi iddiasından əsər-əlamət olmamışdır. Buna görə də, səhabələr Allah Rəsulunun (sallallahu əleyhi və alihi və səlləm) zamanında, Əbu Bəkrin xilafəti ərzində və Ömərin hakimiyyətinin bir hissəsində bu nikahı edirmişlər. Ta ki, Ömər müəyyən bir hadisəyə görə bu nikahı qadağan edənə və onu edənlər üçün cəza təyin edənədək. Bir çox səhabələr, o cümlədən də camaatın bir çoxu bu öməri qadağaya tabe olmamış, bu nikahı icra edib onun icazəli olmasını bildirmişlər.

Əbdür-Rəzzaqın "Müsənnəf" kitabında günənilir ravilər yolu ilə nəql etdiyi bir rəvayətdə deyilir:

"İbn Cüreycdən belə nəql olunur: mənə Abdullah ibn Osman ibn Xüseym xəbər verib dedi: Məkkədə paltar yumaqla məşğul olan gözəl bir iraqlı qadın var idi. Onun Əbu Üməyyə adında bir oğlu var idi. Səid ibn Cübeyr onun yanına tez-tez gedib-gəlirdi. (Bir dəfə) mən Səidə dedim: "Ey Əbu Abdullah! Bu qadının yanına nə çox gedirsən." Səid dedi: "Biz onunla o nikahı – yəni, mütə nikahı – etmişdik."

İbn Cüreyc deyir: Abdullah ibn Osman mənə Səidin ona belə dediyini xəbər verdi: "Onunla mütə etmək su içməkdən daha halaldır"."[662]

Yenə, "Müsənnəf" kitabında səhih sənədlə belə nəql olunur:

"İbn Cüreycdən belə nəql olunur:

Əta mənə xəbər verdi ki, o, İbn Abbasın hələ də mütəni halal hesab etməsini eşidib. Həmçinin, mənə dedi ki, İbn Abbas (Nisa surəsinin 24-cü) ayə(si)ni belə oxuyurmuş: "– Müəyyən müddətədək – **istifadə (mütə) etdiyiniz qadınların mehrlərini lazımi qaydada verin**". İbn Abbas demişdir ki, Übeyin qiraətində də ayə "müəyyən müdətədək" ifadəsi ilədir.

Əta dedi ki: Bir nəfər Əbu Səid əl-Xudrinin belə dediyini mənə nəql etdi: "Bizlər bir qədəh dolusu xəşil ilə mütə edirdik".

Səfvan "bu İbn Abbas zinaya fətva verir!", - dedi, İbn Abbas isə belə cavab verdi: "Mən zinaya fətva vermirəm. Görəsən, Səfvan Ümmü-Ərakəni unudub? Allaha and olsun ki, onun oğlu, mütədən dünyaya gəlib. Görəsən, onun etdiyi bu iş zinadır? Onunla Bəni-Cümhdan olan bir kişi mütə etmişdi"[663].

---

[661] "Müsənnəf": 7/500, rəvayət: 14029.
[662] "Müsənnəf": 7/493, rəvayət: 14020.
[663] "Müsənnəf": 7/397, rəvayət: 14099.

Yenə, həmin kitabda deyilir:

"Əbuz-Zübeyr demişdir: Cabir ibn Abdullahın belə dediyini eşitdim:

Müaviyə Taifdən Səqifə gəlincə, İbn əl-Həzrəminin kənizi olan Müanə adlı bir qadınla mütə etdi.

Müaviyənin xilafəti vaxtında Müanə ilə qarşılaşdım. O ölənədək Müaviyə hər il ona hədiyyə göndərirdi."[664]

İbn Rüşd əl-Qurtubinin "Bidayətül-müctəhid" kitabında belə deyilir:

"İbn Abbasın mütəni halal hesab etməsi məşhurdur. Bu məsələdə İbn Abbasın Məkkədəki və Yəməndəki tələbələri də onunla eyni fikirdədirlər. Nəql etmişlər ki, İbn Abbas buna dəlil kimi, Nisa surəsinin 24-cü ayəsini göstərirmiş. İbn Abbas bu ayəni "müəyyən müddətə kimi" ifadəsi ilə də oxuyarmış. Onun belə dediyi nəql olunmuşdur: "Mütə bir rəhmət idi ki, Allah onunla bəndələrə rəhm etmişdi. Əgər Ömərin qadağası olmasaydı, zinaya baş vurulmazdı"."[665]

**Xülasə:** Mütə nikahı Allah-taalanın Qurani-Kərim və Peyğəmbəri-Əkrəm (sallallahu əleyhi və alihi və səlləm) vasitəsilə halal etdiyi bir qanundur. Nə Qurani-Kərimdə onu haram edən bir ayə gəlmiş, nə də Peyğəmbəri-Əkrəm (sallallahu əleyhi və alihi və səlləm) onu qadağan etmişdir. Mütəni qadağan edən şəxs məhz Ömər ibn əl-Xəttabdır. O, bunu hakimiyyətinin sonlarında qadağan etmişdir. Bundan sonra bəziləri Ömərin qadağasına tabe olsa da, aralarında səhabələrində olduğu müəyyən qrup müsəlman bununla razılaşmayaraq mütə nikahının halal olduğunu bildirmişlər. Buna əsasən, Osman əl-Xəmisin mütə nikahının haram edilməsi ilə bağlı iddiası batil iddiadır. Mütə nikahı Qiyamətə qədər halaldır. Çünki, Muhəmmədin halalı Qiyamətə qədər halal, onun haramı Qiyamətə qədər haramdır.

## Mütə nikahı ilə bağlı digər batil fikirlərə cavab

Osman əl-Xəmis "Qəlbdən qəlbə" kitabında deyir:

"Mütə İslamda yalnız və yalnız üç gün halal edilmişdir. Üç gündən sonra isə haram edilmişdir. Və o zaman məhz kafir qadınlarla mütə edilmişdir. Elə isə, şiə alimləri mütənin müsəlman qadınları ilə edilməsinə necə icazə verirlər? Bu, qəribə bir işdir"[666].

Elə həmin kitabın 75-ci səhifəsinin haşiyəsində deyir:

"Bu dediklərimiz İbn Ömərdən nəql olunmuşdur. İbn Ömər demişdir:

---

[664] "Müsənnəf": 7/398.

[665] "Bidayətül-müctəhid": 2/43-44.

[666] "Qəlbdən qəlbə": səh.75.

Ömər ibn əl-Xəttab hakimiyyətə gəldikdən sonra camaata xütbə edib dedi: "Allah Rəsulu (sallallahu əleyhi [və alihi] və səlləm) bizə üç gün mütə etməyə icazə verdi, sonra isə onu haram etdi. Allaha and olsun, əgər evli bir şəxsin mütə etdiyini eşitsəm, onu daş-qalaq etdirəcəyəm! Yalnız mənə Allah Rəsulunun (sallallahu əleyhi [və alihi] və səlləm) onu haram etdikdən sonra yenidən halal etdiyinə şahidlik edən dörd nəfər gətirsə, onda dəyməyəcəyəm!" Bu rəvayəti İbn Macə (1963) nəql etmişdir.

İyas ibn Sələmə öz atasından belə nəql etmişdir: "Allah Rəsulu (sallallahu əleyhi [və alihi] və səlləm) Əvtas ilində üç gün mütəyə icazə verdi. Sonra onu qadağan etdi". Bunu Əhməd (4/55) və Müslim (4/131) nəql etmişdir."[667]

**Deyirəm:**

**Birinci:** Daha öncə də göstərdik ki, Osman əl-Xəmis gah Peyğəmbərin (sallallahu əleyhi və alihi və səlləm) mütəni Xeybərdə qadağan etdiyini iddia etmiş, gah da bunun Məkkədə baş verdiyini demişdir. Burada isə yeni bir rəvayət gətirərək mütə nikahının Əvtas ilində haram edildiyini iddia etmişdir. Maraqlıdır, görəsən, Peyğəmbər (sallallahu əleyhi və alihi və səlləm) mütəni nə vaxt haram etmişdir: Xeybərdə, Məkkədə, Əvtas ilində, yoxsa iddia etdikləri digər vaxtlarda?!

**İkinci:** İbn Macənin nəql etdiyi rəvayətdə Ömərin qadağanı Peyğəmbərə (sallallahu əleyhi və alihi və səlləm) nisbət verdiyi qeyd olunur. Halbuki, Ömərdən sabit olan, onun bu qadağanı özünə nisbət verməsidir. Daha öncə də onun belə dediyini nəql etdik:

"Allah Rəsulunun (sallallahu əleyhi [və alihi] və səlləm) zamanında icra olunan iki mütə var ki, mən onları qadağan edirəm: qadın mütəsi və həcc mütəsi".

**Üçüncü:** Osman əl-Xəmis iddia edir ki, Peyğəmbər (sallallahu əleyhi və alihi və səlləm) müsəlmanlara cəmi üç gün mütə icazəsi vermiş, daha sonra bu nikahı qadağan etmişdir. Biz ona sual verib deyirik: görəsən, bu icazə harada baş vermişdir: Xeybərdə, qəza ümrəsində, Əvtas ilində, Məkkənin fəthində, yoxsa harda?

Çünki, onların səhih rəvayətləri Peyğəmbərin (sallallahu əleyhi və alihi və səlləm) mütəni bu yerlərin hamısında əvvəlcə halal, sonra isə haram etdiyini bildirir.

**Dördüncü:** Osman əl-Xəmis müsəlmanlara müsəlman qadınlarla deyil, kafir qadınlarla mütə etməyə icazə verdiyini iddia etmişdir. Biz ona deyirik:

1-Müsəlman kişinin kafir qadınla və müsəlman qadının kafir kişi ilə evlənməsi Məkkədə qadağan edilməyibsə belə, heç şübhəsiz ki, Mədinəyə hicrətin birbaşa ardınca qadağan edilmişdir. Buna əsasən, Allah-taala kafir qadınlarla nikah

---

[667] "Qəlbdən qəlbə": səh.75.

bağlamağı haram etdiyi halda, Peyğəmbər (sallallahu əleyhi və alihi və səlləm) öz səhabələrinə kafir qadınlarla nikah etməyi necə əmr edə bilər?![668]

2-Haradadır Osman əl-Xəmisin səhabələrin kafir qadınlarla mütə etməsi üçün dəlili? Görəsən, Osman əl-Xəmisin əlində səhabələrin kafir qadınlarla mütə etdiyinə dair bircə dənə səhih hədisi varmı?

3-Müslimin "Səhih" kitabında Cabir ibn Abdullah əl-Ənsaridən nəql etdiyi rəvayətdə deyilir ki:

"Biz, Ömər, Əmr ibn Hüreysin məsələsinə görə mütəni qadağan edincəyədək Allah Rəsulunun (sallallahu əleyhi [və alihi] və səlləm) və Əbu Bəkrin zamanında bir ovuc xurma və ya un müqabilində mütə edirdik".

Görəsən, Əbu Bəkrin hakimiyyəti ərzində və Ömərin hakimiyyətinin əvvəllərində mütə edən bütün bu səhabələr kafir qadınlarla mütə edirdilər?!

4-Zəhəbi "Təzkirətül-hüffaz" kitabında deyir:

"Əbu Asim demişdir: İbn Cüreyc abid şəxslərdən idi. (Hər) ayın üç günü istisna olmaqla, bütün ili oruc olardı. Onun bir abid xanımı var idi.

İbn Əbdül-Həkəm demişdir ki, Şafeinin belə dediyini eşitdim:

İbn Cüreyc 90 qadınla mütə etmişdi."[669]

Görəsən, əhli-sünnə yanında güvənilir, abid və hafiz olan İbn Cüreyc 90 kafir qadınla mütə etmişdi?!

Görəsən, İbn Cüreycdən başqa mütəni halal bilən İbn Abbas tələbələri və Məkkə fəqihləri kafir qadınlarla mütə etməyi halal bilirdilər?

5-Görəsən, mütəni halal bilən İbn Abbas mütənin kafir qadınlarla edilməsini halal bilirdi, yoxsa müsəlman qadınlarla?

Görəsən..?

Görəsən..?

Görəsən..?

Sonra Osman əl-Xəmis deyir:

"Mütə nikahının müddəti bir dəfə yaxınlıqdan ibarətdir, sonra qadınla kişi bir-birindən ayrılırlar.

Sizi and verirəm Allaha, bu mütə ilə Amerika, Avropa və Asiyadakı fahişəxanalar arasında fərqi tapmağa çalışıblar, bilirsiniz fərq nə olub?

Fahişəxanaları qanun qoruyur, mütəni isə şəriət"[670].

---

[668] Çünki, əhli-sünnə hədislərində mütənin haram edildiyi bildirilən altı vaxtın hamısı hicrətdən ən azı 6-7 il sonraya təsadüf edir. Kafir qadınlarla evlənməyin haram olduğunu bildirən ayələr isə ya Məkkədə nazil olmuşdur, ya da Mədinəyə hicrətin dərhal ardınca. Elə isə, Allah kafir qadınlarla evlənməyi haram etdiyi halda, Peyğəmbər (sallallahu əleyhi və alihi və səlləm) kafir qadınlarla mütə nikahı bağlamağı necə əmr edə bilər? Tərc.

[669] "Təzkirətül-hüffaz": 1/170-171.

[670] "Qəlbdən qəlbə": səh.75.

**Deyirəm:**

**Birinci:** Bakirə xanımla istər daimi, istərsə də müvəqqəti nikah zamanı vəlinin (atanın və ya ata tərəfdən babanın) icazəsinin şərt olması məsələsi Əhli-Beyt (əleyhimussəlam) məktəbi alimləri arasında ixtilaflı məsələdir. Onların əksəriyyəti icazənin vacib olduğunu, hətta bunun nikahın düzgünlüyü üçün şərt olduğunu bildirmişlər. Onların az hissəsi isə bunun vacib deyil, müstəhəb (bəyənilən) olmasını demişlər. Bu məsələ, ictihad sahəsinə daxil olan ikinci dərəcəli məsələlərdəndir və belə məsələlərdə hər fəqih öz dəlili əsasında fətva verir.

Nikah zamanı şahid tutulması məsələsinə gəlincə isə, şiə alimləri bunu istər daimi, istərsə də müvəqqəti nikahda şərt bilmirlər.

Görünür, ya bizim yoldaşımız öz məzhəbinin kitablarından xəbərsizdir, ya da xəbərdardır, lakin bilərəkdən saxtakarlıq edir. Məgər Osman əl-Xəmis əhli-sünnənin ən məşhur təfsirlərindən olan Qurtubinin təfsirində İbn Abbasdan belə nəql edildiyini oxumayıbmı:

“**Mütə nikahı vəlisiz və şahidlərsiz idi**”[671].

Mütə nikahında irsin və talağın olmamasına gəlincə, bu, təkcə şiə fəqihlərinin deyil, həmdə sünni fəqihlərin nəzəridir. İbn Əbdül-Bərr “ət-Təmhid” kitabında demişdir:

“Alimlər mütə nikahında şahid və vəlinin olmaması, onun bəlli bir müddətə qədər olan bir nikah olması və bu nikahda ayrılığın talaqsız və irssiz baş tutması üzərində icma etmişlər”[672].

İbn Əbdül-Bərr burada şiə fəqihlərinin icmasından danışmır. O, məhz əhli-sünnə fəqihlərinin icmasından danışır. Görəsən, Osman əl-Xəmis buna nə cavab verəcək?

Sonra Osman əl-Xəmis deyir:

“...Sözsüz ki, siz mütə barədə eşitmisiniz. O mütə barədə ki, alimləriniz öz kitablarında onun barəsində onun “Allaha yaxınlaşma vasitəsi” olduğunu deyirlər. Bəli, Allaha yaxınlaşma vasitəsi, özü də necə yaxınlaşma vasitəsi.

Hətta, sizin alimlərinizin nəzərində mütəyə iman gətirmək dinin əsaslarından sayılır. Kim mütəni inkar etsə, dini inkar etmişdir.

Onlar öz imamlarından belə nəql edirlər: “Mütə mənim və mənim ata-babalarımın dinidir. Kim ona əməl etsə, bizim dinimizə əməl etmiş, kim onu inkar etsə, bizim dinimizi inkar etmiş və bizim əqidəmizdən başqa bir əqidəyə etiqad etmişdir”.”[673]

---

671 “Təfsirül-Qurtubi”: 5/133.
672 “ət-Təmhid”: 10/116, Eyni, “Ümdətül-Qari”: 17/246.
673 “Qəlbdən qəlbə”: səh.73.

**Deyirəm:**

**Birinci:** Onun şiələrin mütəni dinin əsaslarından saydığını deməsi, onun şiələrə atdığı bitmək-tükənmək bilməyən iftira və yalanlarından növbəti birisidir. Şiələrin nəzərində mütə nikahı dinin əsaslarından deyil, dinin ikinci dərəcəli məsələlərindən – yəni, fiqhi məsələlərdəndir və bu məsələ fiqh kitablarında "nikah babı" başlığı altında araşdırılır. Şiələr mütəni inkar edəni dini inkar edən hesab etmirlər.

Bəli, əgər bir kəs üçün bu ilahi hökmün qanuniliyi Quran və sünnə ilə sübuta yetsə, lakin o şəxs, inad və dikbaşlıq üzündən bu ilahi hökmü inkar etsə, belə bir şəxs Allahın və Peyğəmbərin hökmünü rədd edən şəxs sayılır. Allahın və Peyğəmbərin hökmünü rədd edən şəxs isə həm sünnilərin və həm də şiələrin icması ilə, kafirdir. Lakin, kimsə hər hansısa bir şübhə səbəbindən, yaxud qanuniliyinə və halallığına dəlil tapmaması səbəbindən bu nikahı inkar etsə, onda heç bir halda belə bir şəxsin kafirliyinə hökm edilməz.

**İkinci:** Onun şiələrin öz imamlarından nəql etdiyini bildirdiyi "təqiyyə mənim və ata-babalarımın dinidir..." hədisindən şiə kitablarında əsər-əlamət belə yoxdur. Bu "hədis" məhz Osman əl-Xəmisi uydurmasıdır. Maraqlısı odur ki, o, kitabın haşiyəsində mənbə kimi "Mən la yəhduruhul-fəqih" və "Vəsailuş-şiə" kitablarını göstərib. Halbuki, nə bu iki kitabda və nə də başqa bir şiə kitabında belə bir hədis yoxdur. Belə saxtakarlıq görmüşdünüz?!

# OSMAN ƏL-XƏMİSİN XÜMS VƏ ZƏKATLA BAĞLI DEDİYİ SÖZLƏRƏ CAVAB

## Osman əl-Xəmisin xüms və zəkatla bağlı dediyi sözlərə cavab

Osman əl-Xəmis deyir:

“Sizin verdiyiniz xüms məhz cihadla bağlıdır (yalnız cihad qənimətlərindən xüms alınmalıdır). Və onu kafirlərdən alırlar. Bunu sizin kitablarınız qeyd edir.

Abdullah ibn Sinandan belə nəql olunur: “Əbu Abdullahın (əleyhissəlam) belə dediyini eşitdim: Xüms yalnız qənimətlərdən alınır”.”[674]

**Deyirəm:**

**Birinci:** Allah-taalanın Qurani-Kərimdə vacib etdiyi mali ödənişlərdən biri də xümsdür. Allah bu barədə buyurur: “**Əgər siz Allaha və haqla batilin ayırd edildiyi gün – iki dəstənin bir-birilə qarşılaşdığı gün (Bədr günü) bəndəmizə (Muhəmmədə) nazil etdiyimizə (ayələrə) iman gətirmisinizsə, bilin ki, ələ keçirdiyiniz hər hansı qənimətin beşdə biri Allahın, Peyğəmbərin, onun qohum-əqrəbasının, yetimlərin, yoxsulların və müsafirlərindir (pulu qurtarıb yolda qalan yolçularındır). Allah hər şeyə qadirdir!**”[675]

Ayədəki “qənimət” sözü ümumi mənalı olub insanın kəsb edərək ələ gətirdiyi hər bir şeyə şamil olur. Ayədəki “qənimət” sözünün müharibə qəniməti ilə məhdudlaşdığını sübut edəcək mötəbər bir dəlil mövcud deyildir. Ayənin xüsusi bir məqamda nazil olması, onun hökmünü xüsusiləşdirmir. Üsul elmində də sübuta yetirildiyi kimi, “varid olma yeri, zamanı və ya səbəbi varid olanı xüsusiləşdirmir”.

**İkinci:** Osman əl-Xəmisin xümsün yalnız kafirlərlə döyüşdən əldə edilən qənimətlərlə bağlı olmasını iddia etməsi yanlışdır. Hətta, onun bu iddiası saxtakarlıqdır. Çünki, xüms həmçinin, xəzinə və rikazdan[676] da alınır.

Əhli-sünnə hədisləri və əhli-sünnə alimlərinin sözləri xəzinə və rikazdan xüms götürülməsinin vacibliyini çatdırır. İbn Xüzeymə “Səhih” kitabında öz sənədi ilə Abdullah ibn Əmr ibn əl-Asdan belə nəql edir:

“Müzeynədən olan bir şəxs Peyğəmbərin (sallallahu əleyhi [və alihi] və səlləm) yanına gəlib dedi: “Camaatın gediş-gəliş etdiyi böyük bir yolda, yaxud məskunlaşma olan bir məntəqədə tapılan şeyi nə edək?” Peyğəmbər dedi: “Onu bir il tanıt (elan et). Əgər bir istəyən gəlsə, ona ver. Əgər gələn olmasa, onda onun işi sənə qalıb. Əgər nə vaxtsa, onun üçün bir talib gəlsə, ona verərsən. Gediş-gəliş

---

674 “Qəlbdən qəlbə”: səh.61.

675 Ənfal surəsi, 41-ci ayə.

676 “Rikaz” (yerə basdırılan) hicazlıların nəzərində cahiliyyət dövründə yerə basıdırılan xəzinələr, iraqlıların nəzərində isə mədənlərdir. İbn əl-Əsir “ən-Nihayə” kitabında (2/258) demişdir ki, “bu sözlərin hər ikisi “rikaz” sözünün izahı ola bilər. Çünki, bu qeyd olunan şeylərin hər ikisi “mərkuz” (“yerə basdırılmış”) sayılır”. Müəlif. (“Rikaz” – “basdırılan” deməkdir. Tərc.)

olmayan bir yoldan və ya məskunlaşma olmayan bir məntəqədən tapdığın şeyə gəlincə isə, onun və həmçinin, rikazın xümsünü verməlisən”[677].

Əhməd ibn Hənbəlin “Müsnəd” kitabında nəql olunur ki, Müzeynədən olan bir kişi Allah Rəsuluna (sallallahu əleyhi və alihi və səlləm) sual verib dedi:

“Ey Allahın Rəsulu, xarabalıqlarda və kimsəsiz yerlərdən tapdığımız xəzinələr nə edək?

Peyğəmbər (sallallahu əleyhi [və alihi] və səlləm) dedi: “Ona və rikaza xüms düşür”.”[678]

İbn Nüceym əl-Hənəfi deyir:

“Əgər cahiliyyət dövrünə aid basdırılmış bir xəzinə tapsan, ona xüms düşür. (Cahiliyyət dövrünün) mal(ı) olan xəzinələrə – qənimət sayıldığı üçün – xüms düşür”[679].

İbn Nüceymin “qənimət sayıldığı üçün” sözünə diqqət edin. O, *qənimət* olması səbəbindən, xəzinənin xümsünün verilməsini vacib hesab edir. Bu, xüms ayəsinin məfhumunun ümumi olmasına dəlalət edir.

Sərəxsi “əl-Məbsut” kitabında deyir:

“Bil ki, mədənlərdən çıxarılan şeylər üç növdür:

Bir qisim bərkdir, lakin əriyə bilir, məsələn, qızıl, gümüş, dəmir, qurğuşun və mis kimi.

Bir qisim bərkdir, lakin, ərimir, məsələn, gips, əhəng, sürmə və arsen kimi.

Digər bir qsim isə, maye halındadır, bərkimir, məsələn, su, civə və neft kimi.

Bizim nəzərimizdə, əriyən bərk maddələrə xüms düşür”[680].

Məlum məsələdir ki, Sərəxsi əriyən bərk mədən maddələrinə xüms düşdüyünü deyərkən, bunu həmin maddələr döyüş qəniməti olduğuna görə deməmişdir. O, bunu məhz həmin maddələr ümumiyyətlə qənimət növündən sayıldığına görə demişdir.

Əlbəttə, su istisna olmaqla, onun bəzi maddələri xümsdən müstəsna bilməsi, onun şəxsi görüşüdür. Yoxsa ki, xüms ayəsinin mütləqliyi və qeyd-şərtsizliyi onun fikrinin əskini çatdırır.

**Üçüncü:** Əhli-sünnənin hədis və tarix kitablarından qeyd olunan hədis və rəvayətlər xümsün təkcə döyüş qənimətinə aid olmadığını, onun həm də insanın ümumiyyətlə əldə etdiyi hər bir şeyə, o cümlədən də illik xərcin artıq qalanına[681]

---

677 “Səhihü-İbn Xüzeymə”: 4/47, hədis: 2327.
678 “Müsnədü-Əhməd”: 6/289, hədis: 6747.
679 “əl-Bəhrur-raiq”: 2/254.
680 “əl-Məbsut”: 1/211.
681 Əgər insan ticarət, sənət və ya digər kəsb qazanc yolları ilə mal əldə edərsə və bu, onun özünün və ailəsinin illik xərclərindən çox olarsa, çox olan qismin xümsünü verməlidir (Ayətullahul-uzma Seyyid Əli Sistani). Buna, “qazancın xümsü” deyilir. Tərc.

şamil olduğunu çatdırır. Belə hədis və rəvayətlərdən bir qismini burada qeyd edirik:

Buxari “Səhih” kitabında belə nəql edir:

“Əbdül-Qeys qəbiləsinin nümayəndə heyəti Peyğəmbərin (sallallahu əleyhi [və alihi] və səlləm) yanına gəldi.

Peyğəmbər dedi: “Gələnlər kimlərdir?”.

Dedilər: “Rəbiə tayfasındandırlar[682]”.

Peyğəmbər dedi: “Xar və peşman olmayan qövm – və ya: heyət –[683] xoş gəlib”.

Nümayəndə heyəti dedi: “Biz sənin yanına uzaq bir yerdən gəlirik. Bizimlə sənin aranda Müzər tayfasının kafirlərindən ibarət olan bir qəbilə var. Biz sənin yanına yalnız haram bir ayda gələ bilirik. Bizə bir şey əmr et ki, onu öz qəbilədaşlarımıza çatdıraq və onunla Cənnətə girək.”

Peyğəmbər onlara dörd şey əmr edib, dörd şeyi qadağan etdi. Onlara yalnız Allaha iman gətirməyi əmr edib dedi:

– Yalnız Allaha iman gətirməyin nə olduğunu bilirsiniz?

Dedilər:

– Allah və Onun Peyğəmbəri daha yaxşı bilər.

Dedi:

– Allahdan başqa ilahın olmadığına və Muhəmmədin Allahın elçisi olduğuna şəhadət verməк. Zəkat vermək. Ramazan ayının orucunu tutmaq. Əldə etdiyiniz qənimətlərin xümsünü verməniz...”[684].

Peyğəmbəri-Əkrəm (sallallahu əleyhi və alihi və səlləm) gələn nümayəndə heyətindən döyüşdə ələ keçirdikləri qənimətlərin xümsünü verməyi tələb etməmişdi. Onlar kafir və müşriklərin qorxusundan haram olan aylardan başqa aylarda öz yaşadıqları məntəqədən çölə çıxa bilmirdilər. Elə isə, döyüşə necə girə bilərdilər?! Buna əsasən, Peyğəmbər (sallallahu əleyhi və alihi və səlləm) qənimət deyərkən, bu sözün ərəb dilindəki həqiqi mənasını – insanın əldə etdiyi hər bir şey mənasını nəzərdə tutmuşdur. İnsanın illik xərcindən çox olan qazancı bu məna çərçivəsinə daxil olur.

Bununla İbn Teymiyyənin “Minhacus-sünnə” kitabında dediyi aşağıdakı sözün yanlışlığı da aydın olur:

“Qəti şəkildə məlumdur ki, Peyğəmbər (sallallahu əleyhi [və alihi] və səlləm) müsəlmanların mallarından xüms almırdı. O, heç vaxt hansısa bir müsəlmandan malının xümsünü tələb etməmişdir”[685].

---

682 Tayfa qəbilədən daha böyük birlikdir. Tərc.

683 Yəni, bizimlə döyüşüb zəlil və peşiman duruma düşmədən könüllü şəkildə islamı qəbul edən qövm. (İbn Həcər). Tərc.

684 “Səhihül-Buxari”: 1/45, hədis: 87.

685 “Minahcus-sünnə”: 3/154.

**Dördüncü:** Abdullah ibn Sinanın İmam Sadiqdən (əleyhissəlam) nəql etdiyi hədisdə xümsün yalnız döyüş qənimətlərinə aid olmasına dəlalət edəcək bir şey yoxdur. Əksinə, hədis bunun tam əksinə dəlalət edir. Osman əl-Xəmisin bu hədisi öz iddiası üçün dəlil gətirməsi batillik və saxtakarlıqdır.

Sonra Osman əl-Xəmis deyir:

"Şiə mənbələrində xümsün şiələrə bağışlandığını bildirən çoxlu hədislər vardır. Biz uzunçuluq olmasın deyə onları qeyd etmirik.

İmamiyyə məzhəbinin şeyxi olan Əbu Cəfər Muhəmməd ibn Həsən ət-Tusi deyir:

İmamlar qeyb dövründə nikah, ticarət malı və məskənlərlə bağlı məsələlərdə xüms və s. kimi öz haqlarını şiələrə bağışlamışlar"[686].

**Deyirəm:**

**Birinci:** Osman əl-Xəmis daha öncə xümsün ümumi mənada qənimətə deyil, yalnız döyüş qənimətinə aid olduğunu iddia etmişdi. Burada isə iddia edir ki, Əhli-Beyt imamları (əleyhimussəlam) xümsü şiələrə halal edib bağışlamışlar. Onun bu ikinci iddiası birinci iddiasını təkzib edir. Belə ki, fərz etsək ki, Əhli-Beyt imamları (əleyhimussəlam) həqiqətən də qazancın artığının və s. digər şeylərin xümsünü şiələrə halal etmişlər, onda daha öncə bu şeylərin xümsü vacib olmadıqdan sonra, bu bağışlama və halal etmənin bir mənası olmayacaq. Belə olduqda, gərək Osman əl-Xəmis qəbul etsin ki, xüms döyüş qənimətlərindən başqa yerlərdə də vacib olmuşdur. O, isə birinci iddiasında bunun əksini iddia edir.

**İkinci:** Bağışlama ilə bağlı hədislər Xəmisin iddia etdiyi kimi çox deyildir. Üstəlik, bu hədislər xümsün halal edilməməsinə dəlalət edən digər hədislərlə zahirdə ziddiyyət təşkil etsələr də, onları bir-birlərinə uyğunlaşdırmaq mümkündür. Biz bu məsələdə ona cavab olaraq, mərceyi-din, fəqihlərin ustadı, Seyyid Əbül-Qasim əl-Musəvi əl-Xoinin (Allah ona rəhmət etsin) öz dərslərində dediklərini təqdim edirik. Onun öz dərslərində dediyi bu fikirləri tələbəsi Şeyx Mürtəza əl-Burucerdi "Müstənədül-ürvətil-vüsqa" kitabında qələmə almışdır. Seyyid Xoi deyir:

"Bir qrup rəvayətlərdən xümsün heç bir qeyd-şərt olmadan mütləq şəkildə şiələrə halal edildiyi və xüms ödəməyin onlara vacib olmadığı başa düşülür. Sanki, məsumların (əleyhimussəlam) halal etməsi səbəbindən, xüms ödəmək qanunu şiələrə nisbətdə əməli və praktiki mərhələyə keçməyibmiş kimi.

Bunun müqabilində, digər rəvayətlər xüms ödəməyin mütləq şəkildə vacib olduğunu bildirir.

---

686 "Qəlbdən qəlbə": səh.62.

Digər bir qrup rəvayətlər isə, xümsün, əlinə xümslü mal keçən şəxsə halal edildiyini bildirir. Yəni, xümsü ödəmək əlinə xümslü mal keçənə deyil, xümslü malın ilk sahibinə vacib olur. Əlbəttə, daha öncə dediyimiz kimi, zəkatda belə deyildir; zəkatda əlinə zəkatı verilməmiş mal keçən şəxs o malın zəkatını çıxarmalıdır.

Rəvayətlər bax bu üç qrupa bölünürlər.

Birinci qrup rəvayətlər içərisində ən əsası Füzəlanın Əbu Cəfər (əleyhissəlam)-dan nəql etdiyi bu hədisdir:

"Əmirəlmöminin Əli ibn Əbu Talib (əleyhissəlam) demişdir: İnsanlar qarınlarına və övrət yerlərinə görə həlak oldular. Çünki, bizim haqqımızı bizə ödəmədilər. Məlum olsun! Bizim şiələrimiz və onların ata-babaları bu haqqdan azaddırlar"[687].

"ət-Təhzib" kitabında belə gəlmişdir. "əl-Fəqih" kitabında[688] isə "və onların ata-babaları" ifadəsinin yerinə, "və onların övladları" ifadəsi işlənmişdir. Bəlkə də doğru olan budur.

Buna bənzər başqa bir hədis Zürarənin Əbu Cəfərdən (əleyhissəlam) nəql etdiyi bu səhih hədisdir:

"Əmirəlmöminin (əleyhissəlam) doğumları pak olsun deyə xümsü şiələrə halal etmişdir"[689].

Haris ibn Müğeyrənin nəql etdiyi mötəbər bir hədisdə isə deyilir:

"Əbu Cəfərin (əleyhissəlam) yanına gedib hüzurunda əyləşdim. Bu zaman Nəciyyə gəlmək üçün izin istədi. Əbu Cəfər ona icazə verdi. O, içəri daxil olub dizi üstə əyləşdi. Sonra dedi:

– Sizə fəda olum, mən bir məsələ ilə bağlı sizdən sual soruşmaq istəyirəm. Allaha and olsun ki, bunu yalnız Cəhənnəmdən azad olmaq üçün soruşuram.

Bu zaman Əbu Cəfər sanki bir qədər yumşaldı və qamətini düzəldib oturdu."

Sonra ravi ardını qeyd edir və deyir:

"...Əbu Cəfər dedi: İlahi, biz bunu (xümsü) şiələrimizə halal etdik..."[690].

"Hədaiq" kitabının müəllifi bu hədisi "müvəssəq" hesab etmişdir. Lakin, hədisin sənədində adı keçən Cəfər ibn Muhəmməd məchul şəxs olduğundan, onun bu fikri nəyə əsasən dediyi məlum deyil. Bəli, Cəfər ibn Muhəmməd "Kamiluz-ziyarat" kitabının sənədində adı keçən şəxslərdəndir və buna görə də ("Kamiluz-ziyarat" kitabındakı hədislərin sənədlərində adı keçən şəxslərin güvənilir olduğunu düşünən) bizlərin nəzərində, güvənilir şəxsdir[691], lakin (bu fikir ilə razılaşmayan)

---

687 "İləlüş-şərai": 2/377, "əl-İstibsar": 2/59, "Təhzibül-əhkam": 4/137.

688 Yəni, Şeyx İbn Babəveyh əs-Səduqun "Mən la yəhzuruhul-fəqih" kitabı.

689 "İləlüş-şərai": 2/377.

690 "Təhzibül-əhkam": 4/145.

691 Seyyid Xoi (Allah ona rəhmət etsin) sonradan "Kamiluz-ziyarat" kitabında gələn hədislərin sənədlərindəki ravilərin hamısının güvənilir olmaları fikrindən döndüyü və güvənirliyin bu kitabdakı bütün ravilərə deyil, yalnızca

“Hədaiq” kitabının müəllifinin (Allah ona rəhmət etsin) nəzərində, o, güvənilir şəxs deyildir. Ona görə də, onun bu fikri nəyə əsaslanıb dediyi məlum deyildir.

Haris ibn Müğeyrənin Əbu Abdullahdan (əleyhissəlam) nəql etdiyi digər hədisə gəlincə isə, o, belədir:

“Mən Əbu Abdullaha (əleyhissəlam) dedim:

– Bizim əlimizdə kirayə və ya rentadan[692], yaxud ticarət və s. bu kimi şeylərdən əldə edilən müəyyən pullar var. Mən bu pullarda sizin haqqınız olduğunu bilirəm.

İmam dedi:

– Biz doğumları pak olsun deyə, bunları şiələrimizə halal etmişik. Kim mənim ata-babalarımın dost tutsa (onların vilayətini qəbul etsə), bizim haqqımızdan öz əlində olan şeylər ona halaldır. Eşidənlər bunu eşitməyənlərə çatdırsınlar.”[693]

“Hədaiq” kitabının müəllifi bu hədisi səhih hesab etsə də, hədisin sənədi Əbu Ümarəyə görə zəifdir. Çünki, Əbu Ümarə məchul şəxsdir.

Bu hədislər daha sonra qeyd olunacaq iki dəstə hədislərlə ziddiyyət təşkil etmələrindən əlavə, öz-özlüklərində də təsdiq olunası və etimad ediləsi deyillər. Ona görə ki:

Birincisi: bu hədislərdə deyilənlər, xümsün qanun edilmə hikməti ilə ziddiyyət təşkil edir. Belə ki, xüms Muhəmməd (sallallahu əleyhi və alihi və səlləm) ailəsindən olan seyyid və yetimlərin ehtiyaclarını ödəmək üçün vacib edilmişdir. Əgər xüms vermək şiələrə vacib deyilsə, əhli-sünnə də məlum olduğu kimi, bu haqqı ödəmirsə və zəkat da seyyidlərə haramdırsa, onda kasıb seyyidlər nə ilə dolanmalıdırlar?

Buna görə, bu hədislərin mütləq və ümumi mənada olmasını qətiyyən qəbul etmək olmaz.

İkincisi: bu hədislər xümsün verilməsini əmr edən hədislərlə ziddiyyət təşkil edirlər. Belə hədislərə misal olaraq, “nasibinin malından nə istəsən götür, xümsünü bizə ver” – hədisini, “kim rikaz əldə etsə, xümsünü verməlidir” – hədisini, həmçinin, qazancın xümsü ilə bağlı Əli ibn Məhziyarın uzun səhih hədisində və digər hədislərdə deyilənləri göstərmək olar.

Əgər bu iş şiələrə halal idisə, bəs nə üçün bu hədislərdə xüms vermək əmr edilirdi? Görəsən, bu qədər çoxlu mətnlərdə xümsün verilməsinin əmr edilməsinin nə mənası var?...

---

İbn Qovləveyhin heç bir vasitə olmadan birbaşa hədis nəql etdiyi şəxslərə aid olduğu fikrini qəbul etdiyinə görə, bu hədis onun nəzərində də zəifdir. Çünki, Cəfər ibn Muhəmməd ibn Həkim ilə İbn Qovləveyh arasında birdən çox vasitə vardır.

692 Sahibinin fəaliyyəti tələb olunmadan kapital, əmlak və ya torpaqdan alınan gəlir. Tərc.

693 “Təhzibül-əhkam”: 4/143.

Bundan başqa, bu hədislər daha öncə qeyd etdiyimiz ikinci qrup hədislərlə, yəni, xümsün halal edilməsini mütləq şəkildə rədd edən hədislərlə ziddiyyət təşkil edirlər. Belə hədislərə misal olaraq, Əli ibn İbrahimin öz atasından nəql etdiyi bu hədisi göstərə bilərik:

"İkinci Əbu Cəfərin (əleyhissəlam) yanında idim. Bu zaman Saleh ibn Muhəmməd ibn Səhl onun yanına gəldi. Saleh Əbu Cəfərin Qumdakı vəqfinə[694] nəzarət edirdi. O dedi:

– Ey ağam, mənə 10.000 dirhəm halal elə, mən bu məbləği xərcləmişəm.

Əbu Cəfər dedi:

– Halal olsun.

Saleh çıxıb getdikdən sonra, Əbu Cəfər (əleyhissəlam) dedi:

– Onlardan bəziləri Muhəmməd ailəsinin, yetimlərinin, kasıblarının və yolda qalmışlarının haqqından olan malların üzərində oturur, sonra o malları götürüb xərcləyir, sonra da yanımıza gəlib, "mənə halal elə", - deyir. Görəsən, elə zənn edir ki, mən "halal eləmirəm", - deyəcəyəm? Allaha and olsun, Allah Qiyamət günündə bunun hesabını onlardan çox dəqiqliklə soruşacaq."[695]

Bu hədisdə olan müəyyən dəlillərə əsasən, hədisdəki "mallardan" məqsəd, xümsdür.

Əbu Bəsirin Əbu Cəfərdən (əleyhissəlam) nəql etdiyi başqa bir mötəbər hədisdə isə deyilir:

"Əbu Cəfərin (əleyhissəlam) belə dediyini eşitdim: Kim xümsdən bir şey götürsə, Allah onun üzrünü qəbul etməz. Belə bir şəxs özünə halal olmayan bir şeyi götürmüşdür"[696].

Zahirən, bu hədis mötəbər hədisdir. Belə ki, sənəddə adı keçən Hüseyndən məqsəd Əhməd ibn Muhəmmədin hədis nəql etdiyi Hüseyn ibn Səiddir. Həmçinin, sənəddəki Qasimdən məqsəd, Qasim ibn Muhəmməd əl-Cövhəridir. Buna əsasən, hədis mötəbər sayılır. "Vəsail" kitabının müəllifi bu hədisi "oğurlanmış malın satışı" bölməsində başqa bir sənədlə də nəql etmişdir. Həmin sənəd belədir: Hüseyn ibn Səid → Füzalə → Əban. Bununla, ümumiyyətlə, bir problem qalmır.

Bəli, Salehin hadisəsinin qeyd olunduğu bir öncəki hədisdən deyilənlərin sırf şiələrə aid olması, bu sonuncu hədisdən isə deyilənlərin həm şiələrə, həm də başqalarına aid olması başa düşülür. Lakin, gizli deyil ki, bu sonuncu hədis də, sırf şiələrə aid ola bilər.

"Hədaiq" kitabının müəllifi bir-birinə zidd olan bu iki hədis qrupu arasında belə uyğunluq yaratmağa çalışmışdır ki, halal edilən şey xümsün imama aid olan

---

694 Burada "vəqf" dedikdə, xüms kimi şəri haqların alınması və sahiblərinə çatdırılması işi nəzərdə tutulur. Tərc.
695 "Təhzibül-əhkam": 4/140.
696 "Təhzibül-əhkam": 4/136.

hissəsidir, yəni, xümsün yarısıdır. Xümsün digər hissəsinə, yəni, seyyidlərin payına gəlincə isə, onun verilməsi vacibdir.

Bu fikir, göründüyü kimi, nəyə əsasən deyildiyi bəlli olmayan mücərrəd bir nəzərdir. Əksinə, bəzi hədislərdə halal etmənin "doğumun pak olması" səbəbi ilə əsaslandırılması, halal edilmə hökmünün bütün xümsə aid olmasını çatdırır. Çünki, bu olmadan paklıq reallaşa bilməz.

Bəli, bəzi hədislərdə halal edilmə hökmünün imamın (əleyhissəlam) payına aid olduğu bildirilmişdir, məsələn, İbn Məhziyarın nəql etdiyi səhih hədisdəki kimi: "Kim mənim haqqımdan bir şeyə (şiddətli) ehtiyac duysa, həmin şey o adama halaldır". Lakin, bu hədis də bütün şiələrə deyil, yalnız möhtaclara və məcburiyyət qarşısında qalanlara aiddir. Bu hədis xümsün imama aid olan hissəsinin halal edilməsi ilə bağlıdır. Bunun bizim söhbət açdığımız xümsün bütünlüklə bütün şiələrə halal edilməsi mövzusuyla heç bir əlaqəsi yoxdur...

Uyğunluq üçün ən güclü fikir, halallığın xümsə inancı olmayan və ya malının xümsünü verməyən şəxslərdən şiələrin əlinə keçən mallarla bağlı olduğu fikridir. Mükəlləfin öz sahib olduğu mal və gəlirin xümsünə gəlincə isə, mükəlləf bunu verməlidir, halallığın ona heç bir aiddiyyatı yoxdur. Deməli, xümsün halal edildiyini bildirən hədislər birinci mənaya, xümsün heç kəsə halal olmadığını bildirən hədislər isə ikinci mənaya aiddir.

İki hədis qrupu arasındakı ziddiyyətin həlli üçün dediyimiz bu izahı daha öncə qeyd etdiyimiz üçüncü qrup hədislər (xümsün, əlinə xümslü mal keçən şəxsə halal edildiyini bildirən hədislər) dəstəkləyir. Bu hədislər arasında ən əsas olanlar aşağıdakı iki hədisdir:

Birinci: Şeyx Tusi və Şeyx Səduq öz sənədləri ilə Yunis ibn Yaqubdan belə nəql etmişlər:

"Əbu Abdullahın (əleyhissəlam) yanında idim. Bu zaman qəmmatilərdən olan bir nəfər onun hüzuruna daxil olub dedi:

– Sizə fəda olum, bizim əlimizə mallar, gəlirlər və ticarətlər (ticarət yolu ilə müəyyən şeylər) gəlir. Biz bu mallarda sizin haqqınız olduğunu və bizim bu mövzuda[697] təqsirkar olduğumuzu bilirik.

Əbu Abdullah (əleyhissəlam) dedi:

– Bu gün o şeylərin xümsünü verməyi sizdən tələb etsək, sizə insafsızlıq etmiş olarıq."[698]

Bu hədis Şeyxin sənədi ilə zəif olsa da (çünki, Şeyxin nəql etdiyi sənəddə Muhəmməd ibn Sinan var), Səduqun nəql etdiyi sənədlə mötəbərdir (çünki, bu sənəddə Muhəmməd ibn Sinan yoxdur). Baxmayaraq ki, Səduqun sənədində Həkəm ibn Miskin vardır, lakin o da, ən üstün nəzərə görə, güvənilir şəxsdir.

---

[697] Həmin malların xümsünü çıxarıb sizə gətirməkdə. Tərc.

[698] "əl-Fəqih": 2/44, "əl-İstibsar": 2/59, "Təhzibül-əhkam": 4/138.

Bu hədis bildirir ki, bir şiənin əlinə başqasından – satın alma və bu kimi başqa bir yolla – müəyyən bir mal keçsə, əlinə mal keçən şəxsə həmin malın xümsünü ödəmək vacib deyildir. İmamlar (əleyhimussəlam) bunu şiələrə halal etmişlər.

İkinci hədis isə Şeyx Tusinin öz sənədi ilə Əbu Sələmə Salim ibn Mükərrəmdən (başqa künyəsi Əbu Xədicədir) nəql etdiyi hədisdir. O deyir:

"Mən Əbu Abdullahın (əleyhissəlam) məclisində əyləşdiyim. Bir nəfər ona dedi:

– Mənə qadınları halal elə.

Əbu Abdullah (əleyhissəlam) diskindi. Bir nəfər ona dedi:

– O səndən yol üstə dayanmağı (yol üstə dayanıb könlü istəyən qadınla nikah bağlamağı) istəmir. O, məhz alacağı bir xidmətçi cariyə barədə (bəlkə alacağı cariyəyə xüms düşür), yaxud evlənəcəyi bir qadın barədə (bəlkə evlənəcəyi qadına verəcəyi mehrə xüms düşür), yaxud əlinə keçəcək bir miras barədə (bəlkə əlinə keçəcək mirasa xüms düşür), yaxud ticarətlə alacağı bir mal və ya ona veriləcək bir hədiyyə barədə (bəlkə bu mal və ya hədiyyələrə xüms düşür) halallıq istəyir.

Əbu Abdullah dedi:

– Bunlar bizim şiələrimizə halaldır. Yaxınlıqda olan və ya uzaqda olan şiəyə, diri olan və ya ölü olan şiəyə, həmçinin Qiyamətə qədər dünyaya gələcək şiələrə halaldır. Lakin, məlum olsun ki, bu, yalnız bizim halal etdiyimiz şəxslərə halaldır..."[699].

Bu hədis bizim dediyimizə, yəni, satın alma və ya başqa bir yolla şiənin əlinə keçən malın xümsünün halal edilməsi məsələsinə açıqca dəlalət edir.

Bu hədis ən üstün nəzərə əsasən, səhihdir. Belə ki, Əbu Xədicə və ya Əbu Sələmə künyəli (Kəşşinin nəql etdiyinə əsasən, bu künyəni ona İmam Sadiq (əleyhissəlam) vermişdir) Salim ibn Mükərrəm çox güvənilir şəxsdir. Nəcaşi onun barəsində: "güvənilirdir, güvənilirdir", - demişdir. Yəni, onda heç bir şübhə yoxdur.

Lakin, Şeyx Tusi (Allah ona rəhmət etsin) onu zəif hesab etmişdir. Şeyx onun tərcümeyi-halını qeyd edərkən demişdir ki:

"Salim ibn Mükərrəm. Künyəsi Əbu Xədicədir. Mükərrəmin künyəsi isə Əbu Sələmədir."

Göründüyü kimi, Şeyx "Əbu Sələmə" künyəsinin Salimin deyil, atası Mükərrəmin künyəsi olduğunu demişdir. Hətta, "əl-Fihrist" kitabının sonunda bunu daha açıq şəkildə ifadə edərək demişdir:

"...Salim ibn Əbu Sələmə, künyəsi Əbu Xədicədir...".

Lakin, şübhəsiz ki, Şeyx burada səhvə yol vermişdir. Salim ibn Mükərrəm həmin Salim Əbu Sələmədir. Bunu Nəcaşi, Nəraqi və İbn Qovləveyh bir neçə

---

699 "İstibsar": 2/58, "Təhzibül-əhkam": 4/137.

yerdə bildirmişlər. Daha öncə də qeyd etdik ki, onun ilk künyəsi Əbu Xədicə olsa da, sonradan İmam Sadiq (əleyhissəlam) ona Əbu Sələmə künyəsini vermişdir. Bunu Kəşşi Əyyaşidən, o da İbn Fəzzaldan nəql etmişdir. Buna əsasən, o, Salim Əbu Sələmədir, nəinki Salim ibn Əbu Sələmə.

Zəif olan Salim ibn Əbu Sələmə əl-Kindi əs-Sicistanidir. Hansı ki, Nəcaşi onun barəsində: "Biz onun barəsində yaxşılıqdan başqa bir şey bilməsək də, onun hədisi təmiz deyildir. Onun bir kitabı vardır", - demişdir.

Bu, İbn Mükərrəmdən ayrı bir şəxsdir. Sicistaninin bir kitabı olsa da, Şeyx Tusi "əl-Fihrist" kitabında ondan söz açmamışdır, həmçinin "Rical" kitabında ondan söz açmamışdır. Bundan aydın olur ki, Şeyx bu iki şəxsin eyni şəxs olduğunu: Salim ibn Mükərrəmin Salim ibn Əbu Sələmə əs-Sicistani olduğunu zənn edibmiş. Halbuki, özünüz də gördüyünüz kimi, əsla belə deyildir.

Deməli, bura qədər qeyd etdiklərimizdən və hədisləri bir-biri ilə tutuşdurmamızdan bu nəticəni alırıq:

1) Müəkəlləfin öz malı ilə bağlı boynuna gələn xüms haqqı ona halal edilməmişdir;

2) Başqa birisi tərəfindən müəkəlləfin əlinə keçən malın xümsü ona halal edilmişdir. Ona bu malın xümsünü vermək vacib deyildir..."[700].

**İkinci:** Şeyx Tusinin (Allah ona rəhmət etsin) sözü xümsün tamamilə halal edildiyinə dəlalət etmir. Şeyxin sözündə xümsün üç şeylə bağlı halal edildiyi bildirilir: nikah məsələsi, ticarət malı məsələsi və məskən məsələsi. Şeyx bu üç yerdən qalan yerlərdə xümsün halal edilmədiyini bildirir. Lakin, Osman əl-Xəmis həmişəki kimi, yalan və saxtakarlıq edərək, Şeyxin sözünü yarımçıq kəsmiş, Şeyxin sözünün bu üç yerdən qalan yerlərdə xümsün halal edilmədiyini bildirən hissəsini qeyd etməmişdir. Şeyx Tusinin sözü tam şəkildə belədir:

"İmamlar qeyb dövründə nikah, ticarət malı və məskənlərlə bağlı məsələlərdə xüms və s. kimi öz haqlarını şiələrə bağışlamışlar. *Bundan başqa yerlərdə isə, heç bir halda xümsü saxlamaq olmaz!*"[701]

Şeyxin sözündəki bu üç şeyin nə mənaya gəldiyini isə alimlər açıqlamışlar. Seyyid Xansari "Camiul-mədarik" kitabında deyir:

"Bir neçə alimin də bildirdiyi kimi, "nikah"dan məqsəd döyüşdə ələ keçirilən əsir qadınlardır. Bu qadınların hamısı imamın olsa da, qeyb dövründə satın alma və s. bu kimi yollarla onlara sahib olmaq və onlarla yaxınlıq etmək şiələrə halaldır...

"Məskənlər"dən məqsəd döyüşsüz ələ keçirilən yerlər, dağların başı və s. bu kimi imama (əleyhissəlam) məxsus olan yerlər, yaxud, güc yolu ilə fəth edilməsi səbəbindən imamla başqaları arasında müştərək sayılan və müxaliflərin əlindən

---

700 "Müstənədül-ürvətil-vüsqa": 15/346-353, "Xüms kitabı".

701 "ən-Nihayə": səh.200.

şiələrə keçən yerlər nəzərdə tutulur. Belə yerlərdən istifadə etmək şiələrə halal edilmişdir.

"Ticarət malı"ndan məqsəd də xüms verməyən adamdan şiələrin əlinə keçən mallar nəzərdə tutulur."[702]

Sonra Osman əl-Xəmis deyir:

"Bir çox nüfuzlu şiə fəqihləri xüms verməyin şiələrə halal edildiyini bildirmişdir. Bunlara misal olaraq, Nəcməddin Cəfər ibn Həsən əl-Mühəqqiq əl-Hillini (vəf. 676), Yəhya ibn Səid əl-Hillini (vəf. 690), səkkizinci əsrdə yaşamış Həsən ibn Mütəhhər əl-Hilini, Şəhid-Sanini (vəf. 966), Ərdəbilini (vəf. 993), Əllamə Səlları, 21-ci əsrin əvvəllərində vəfat etmiş Muhəmməd ibn Əli ət-Təbatəbaini və başqalarını göstərmək olar"[703].

**Deyirəm:** Şair deyir:

Li hilətun fi mən yənummu
Və leysə fil-kəzzabi hilətun
Mən kanə yəxluqu mə yəqulu
Fə-hiləti fihi qəlilətun

Mən xəbərçilik edənə qarşı bir çarə edə bilərəm,
Amma yalançıya qarşı heç bir çarəm yoxdur.
O adam ki, dediyini qondarıb deyir,
Mənim ona qarşı çarəm çox azdır.

Osman əl-Xəmis burada məlumatsız camaatı aldatmaqdan ötrü, bir qrup böyük şiə aliminə iftira ataraq onlara demədikləri şeyi nisbət vermişdir. İddia etmişdir ki, bu fəqihlər (Allah hamısına rəhmət etsin) xümsün şiələrə halal edildiyinə fətva veriblər. Həqiqət isə budur ki, bu alimlərin heç biri belə bir şeyə fətva verməmişdir. Əksinə, onların kəlamlarından onların xüms ödəməyin vacibliyinə fətva verdikləri aydın olur. Əgər Osman əl-Xəmis doğru danışan olsaydı, onlardan sitatlar qeyd edərdi. Mühəqqiq Nəcməddin əl-Hilli (Allah rəhmət etsin) "Şəraiul-islam" kitabında deyir:

"Xümsün vacib olduğu şeylər yeddidir:

1-Müharibə qənimətləri. İstər döyüşçü qoşun (döyüş meydanında) ələ keçirmiş olsun, istər olmasın. İstər torpaq növündən olsun, istər başqa növdən.

---

[702] "Camiul-mədarik": 2/136-137.
[703] "Qəlbdən qəlbə": səh.62.

Əlbəttə, əgər bir müsəlmandan və ya peymanlı qeyri-müsəlmandan qəsb edilməmişdirsə[704]. İstər az olsun, istərsə çox.

2-Mədənlər: İstər qızıl, gümüş və qurğuşun kimi əriyən olsun, istər yaqut, zəbərcəd və sürmə kimi ərimıəyən olsun, istərsə də qətran, neft və kibrit kimi maye halında olsun. Bunların xərcdən artıq qalan hissəsinə xüms düşür[705]. Demişlər ki, iyirmi dinara çatmayınca, xüms düşmür. Lakin, alimlərin əksəriyyəti birinci fikri dəstəkləyir.

3-Xəzinələr. Xəzinə dedikdə yerin altında basdırılan şeylər nəzərdə tutulur. Əgər basdırılan şey kafir diyarında olsa və ya müsəlman diyarında olsa, lakin üstündə (islami) bir əlamət olmasa, bu zaman iyirmi dinara çatarsa, xümsü verilməlidir. Əgər insan xəzinəni satın aldığı torpaqda tapsa, onda həmin şeyi satıcıya göstərməlidir. Əgər satıcı onu tanısa, həmin şey satıcının haqqıdır. Əgər tanımasa, mal alıcınındır və onun xümsünü verməlidir. Həmçinin, əgər bir heyvan alsa və heyvanın qarnında qiymətli bir şey tapsa, bu cür etməlidir. Amma əgər bir balıq alsa və onun qarnında bir şey tapsa, onda həmin şeyin xümsünü çıxarmalıdır və yerdə qalan onun malı olacaq; onu satıcıya göstərməsi lazım deyil...

4-Dalma yolu ilə dənizdən çıxarılan şeylər. Qiymətli daşlar və incilər kimi. Bu şərtlə ki, qiyməti bir və ya daha çox dinara çatsın. Əgər insan dənizdən dalma yoluyla deyil, başqa bir yolla bir şey çıxarsa, həmin şeyin xümsünü verməsi vacib deyil...

5-İllik xərcin artıq qalanı. İnsan ticarət, sənətkarlıq və ya əkinçilikdən əldə etdiyi qazancdan özünün və ailəsinin xərclərinə yetəcək qədərindən artıq qalanın xümsünü verməlidir.

6-Əgər zimmi bir müsəlmandan torpaq alsa, onun xümsünü verməlidir. İstər bu torpaq güc yolu ilə fəth edilmiş torpaq kimi xümsü vacib olan torpaq olsun, istərsə də dinc yolla ələ keçmiş torpaq kimi xümsü vacib olmayan torpaq olsun.

7-Haramla qarışmış və (qarışan haramı) ayırd etmək mümkün olmayan halal mal. Belə mala xüms düşür..."[706].

Sonra deyir:

"Məsum imam mövcud olduğu halda, xüms ona verilməlidir. Mövcud olmadığı (məsələn, hazırkı dövrdəki kimi, qeybdə olduğu) halda isə, demişlər ki: halaldır, həmçinin, demişlər: gərək qorunub saxlanıla, ölüm anının yaxınlaşdığı görülüncə, vəsiyyət edilə, həmçinin, demişlər: basdırılmalıdır, həmçinin, demişlər: yarısı (yəni, seyyidlərin payı) müstəhəqlərinə çatdırılmalı, imama məxsus olan digər yarısı isə ya vəsiyyət etmək, ya da dəfn etmək yolu ilə qorunub

---

[704] Belə olduğu təqdirdə, həmin qəsb olunmuş mal öz sahibinə qaytarılar.

[705] Yəni, məsələn, 50 dinarlıq bir şey çıxarıbsa və bunun 10 dinarını çıxarma xərclərinə ödəyibsə, onda 40 dinarın xümsünü verməlidir. (Seyyid Sadiq Şirazinin şərhi).

[706] "Şəraiul-islam": 1/133-134.

saxlanmalıdır, həmçinin də demişlər ki: xeyr, imamın payı da kasıb seyyidlərə verilməlidir. Çünki, mükəlləfin vəzifəsi budur ki, (seyyidlərin payı onlar üçün) yetərsiz olduğu təqdirdə, bu payı (imamın payından götürüb əlavə etməklə) tamamlasın. Bu hökm imam mövcud olduğu hallarda vacib olduğu kimi, o olmadığı hallarda da vacibdir. Bu nəzər ən üstündür."[707]

Mühəqqiq Hillinin dediyi "bu nəzər ən üstündür" sözü o mənaya gəlir ki, Mühəqqiq qeyd olunan nəzərlər içərisində məhz sonuncu nəzəri, yəni, xümsün məsumun mövcud olduğu vaxtda vacib olduğu kimi, məsumun qeybdə olduğu vaxtda da vacib olması nəzərini seçmişdir.

Daha sonra o bildirmişdir ki, qeyb dövründə xümsün imama məxsus olan hissəsi imamın naibinə – yəni, hal-hazırda cameuş-şərait (fətva şərtlərini özündə cəm edən) fəqihə verilməlidir. Deyir:

"İmamın payını kasıb seyyidlərə paylamaq işini naib kimi hökm vermək səlahiyyəti olan (məsum imamın naibi sayıldığı üçün insanlar arasında hökm vermə səlahiyyəti olan) şəxs (fəqih) icra etməlidir"[708].

Əllamə Yəhya ibn Səid əl-Hilliyə (Allah ona rəhmət etsin) gəlincə, o, "əl-Cami liş-şərai" kitabında deyir:

"Xüms döyüş qənimətlərində vacibdir. İstər bu döyüş qənimətləri silah-sürsat, qiymətli əşyalar, əsir qadınlar və heyvanat kimi daşına bilən növdən olsun, istərsə də torpaq və daşınmaz əmlak kimi daşına bilməyən növdən olsun.

Həmçinin, bütün növ mədən əşyalarında xüms vacibdir.

Həmçinin, qızıl və gümüş xəzinələrində vacibdir.

Həmçinin, dalma yolu ilə çıxarılan şeylərdə, o cümlədən ənbərdə vacibdir.

Həmçinin, insanın ticarət, əkinçilik və digər bu kimi başqa gəlir yerindən əldə etdiyi qazancın özü, ailəsi və qonağı üçün illik xərcindən artıq qalanında vacibdir.

Həmçinin, zimminin müsəlmandan aldığı torpaqda vacibdir.

Həmçinin, halalı harama qarışmış malda vacibdir..."[709].

Sonra deyir:

"İmam mövcud olduğu halda, heç kəs imamın izni olmadan xümsdən istifadə edə və onu xərcləyə bilməz. Qeyb dövrünə gəlincə isə, imamlar (əleyhimussəlam) nikah, ticarət malı və məskənlərlə bağlı məsələlərdə öz xüms və s. bu kimi haqqlarını şiələrə halal etmişlər"[710].

Onun bu cümləsindən açıq-aşkar şəkildə başa düşülür ki, şiələrə halal edilən şey bütün xüms deyil, məhz qeyd olunan üç yerlə bağlı olan xümsdür. Bu üç yerin

---

707 "Şəraiul-islam": 1/138.
708 "Şəraiul-islam": 1/139.
709 "əl-Cami liş-şərai": səh.148-149.
710 Həmin mənbə: səh.151.

də nə mənaya gəldiyini daha öncə Seyyid Xansaridən (Allah ona rəhmət etsin) göstərdiyimiz sitatla izah etdik.

Daha sonra fəqihlərin bu üç yerdən başqa yerlərdə xümsün nə edilməsi məsələsində müxtəlif fikirlər söylədiklərini bildirmiş, lakin özünün bunlardan hansı birini seçdiyini açıqlamamışdır. Demişdir:

“Xəzinə və s. bu kimi şeylərdən əldə edilən mallara gəlincə, alimlərimiz bu barədə ixtilaf etmişlər.

Bəziləri bunların halal olduğunu demişdir. Çünki, bu barədə imamlardan (əleyhimussəlam) hədis gəlmişdir.

Bəziləri ehtiyat edərək bunların qorunub saxlanılması və İmam (əleyhissəlam) zühur edənədək bir güvənilir şəxsdən digər güvənilir şəxsə vəsiyyət edilməsi gərəkdiyini demişdir.

Bəziləri bunların basıdırlması gərəkdiyini demişdir. Çünki, hədislərdə İmamın (əleyhissəlam) zühuru zamanı yerin öz xəzinələrini çıxaracağı deyilmişdir.

Bəziləri bunların xümsə ehtiyacı olan seyyidlər arasında paylanması gərəkdiyini demişdir. Çünki, nəql edilmişdir ki, imam mövcud olduğu halda xümsü möhtac seyyidlərə paylamalıdır. Əgər görsə ki, xüms onlara kifayət etmir (və öz malından əlavə etməyə ehtiyac var), onda öz malından əlavə etməlidir. Hal-hazırda bu ehtiyac mövcuddur (kasıb seyyidlərin imamın payına ehtiyacı var). Buna əsasən, imam mövcud olduğu təqdirdə necə edərdisə, elə edilməlidir.

Bəziləri xümsün imama aid olan hissəsinin qorunmasının – çünki, bu hissə ortalıqda olmayan olan bir şəxsə məxsusdur və o şəxs bu hissə ilə necə davranmaq lazım olduğunu açıqlamamışdır –, digər hissəsinin isə ehtiyaclı seyyidlərə paylanmasının gərəkdiyini demişlər. Necə ki, zəkatı paylamaqla məsul olan şəxs ortalıqda mövcud olmasa belə, zəkat ehtiyaclı şəxslərə paylanmalıdır.

Bəziləri də bunların əməlisaleh fəqir şiələrə paylanması gərəkdiyini demişdir. Çünki nəql olunmuşdur ki, fəqir şiələrə zəkat paylanılar, əgər İmam paylanan zəkatın onlara yetmədiyini görərsə, onlara öz payından onlara yardım etməlidir.”[711]

Elə isə, hanı Osman əl-Xəmisin iddia etdiyi Yəhya ibn Səid əl-Hillinin xümsün halal edildiyinə fətva verməsi?!

Əllamə Hilli kimi tanınan, Həsən ibn Yusif əl-Mütəhhər əl-Hilliyə (Allah ona rəhmət etsin) gəlincə, o, xüms ödəməyin vacib olduğunu demiş, əsla xümsün halal edilməsinə fətva verməmişdir. O, “Nəhcül-həqq və kəşfüs-sidq” kitabında deyir:

“İmamiyyə məzhəbi müharibə və ya başqa bir yolla əldə edilən qənimətlərin xümsünü ödəməyin vacib olduğunu bildirmişdir. Dörd fəqih isə demişdir ki, xüms yalnız müharibə yolu ilə əldə edilən qənimətlərdən alınmalıdır. Onlar bu fikirləri

[711] “əl-Cami liş-şərai”: səh.151-152.

ilə Quranın “**Bilin ki, ələ keçirdiyiniz hər hansı qənimətin beşdə biri Allahın...**” ayəsinə müxalifət etmişlər”[712].

Əllamə burada açıqca bildirir ki, istər döyüş yolu ilə, istərsə də başqa bir yolla əldə edilən qənimət və qazancların xümsünü ödəmək vacibdir. O, dörd fəqih deyə adlandırdığı dörd məzhəb imamının xümsün yalnız döyüşdə ələ keçirilən qənimətlərə aid olduğunu bildirmələrini Qurani-Kərimin ayəsinə müxalifət hesab etmişdir.

Həmçinin, o, “Təhrirül-əhkam” kitabında demişdir ki:

“Xüms yeddi şeydə vacibdir:

1-Döyüş qənimətlərində.

2-Mədən məhsullarında.

3-Xəzinələrdə.

4-Dalma ilə əldə edilən şeylərdə.

5-İnsanın ticarət, sənətkarlıq və əkinçilik kimi işlərdən əldə etdiyi qazancın özünün və ailəsinin illik xərclərindən artıq qalan hissəsində.

6-Harama qarışmış və ayrıd edilməsi mümkün olmayan halalda.

7-Zimminin müsəlmandan aldığı torpaqda.”[713]

Həmçinin, demişdir:

“İmamın qeyb dövründə xümsün necə sərf ediləcəyi mövzusunda alimlərimiz ixtilaf etmişlər.

Bəziləri xümsün halal olduğunu bildirmiş;

Bəziləri onun basdırılmasını gərəkli bilmiş;

Bəziləri müstəhəblik baxımından, onun kasıb şiələrə verilməsini məsləhət görmüş;

Bəziləri onun ayrılıb saxlanmasını, ölüm anı gəlincə dininə və ağlına güvənilən bir şəxsə vəsiyyət edilməsini gərəkli bilmiş, o şəxsin də həmin malı imamın zühurunu gördüyü təqdirdə birbaşa imama təslim etməsini, görmədiyi təqdirdə isə başqa bir güvənilir şəxsə tapşırmasını və beləcə silsilənin bu şəkildə davam etməsini vacib hesab etmişlər;

Bəziləri isə imamın payının da fəqir seyyidlərə verilməsini gərəkli bilmişlər; çünki, yetərsizlik halında imamın vəzifəsi öz payından xərcləməkdir. Bu, həm imamın mövcud olduğu, həm də olmadığı dövrdə vacib olan bir hökmdür. Ən güclü nəzər məhz bu nəzərdir”[714].

Göründüyü kimi, Əllamə Hilli Osman əl-Xəmisin iddia etdiyi kimi, xümsün şiələrə halal olmasını deyil, imamın payının belə möhtac seyyidlərə verilməsi

[712] “Nəhcül-həqq və kəşfüs-sidq”: səh.459-459.
[713] “Təhrirül-əhkam”: 1/433.
[714] “Təhrirül-əhkam”: 1/444.

gərəkdiyini deyir. Bu, onun qeyb dövründə xüms verməyin vacib olduğunu düşündüyünə dəlalət edir.

Bunun ardınca o, xümsün qeyb dövründə imamın naibi olan fəqihə verilməsi gərəkdiyini bildirir:

"İmamın payını kasıb seyyidlərə paylamaq işini naib kimi hökm vermək səlahiyyəti olan (məsum imamın naibi sayıldığı üçün insanlar arasında hökm vermə səlahiyyəti olan) şəxs (fəqih) icra etməlidir"[715].

Şəhid Saniyə (Allah ona rəhmət etsin) gəlincə isə, o, "Şərhul-lumətid-diməşqiyyə" kitabında deyir:

"Yeddi şeydə xüms vacibdir:

1-Qənimət...

2-Mədən...

3-Dalma ilə əldə edilən şeylər...

4-Ticarət, əkinçilik, bağbanlıq və s. bu kimi işlərdən əldə edilən qazancın artıq qalanı...

5-Harama qarışmış halal...

6-Xəzinə...

7-Zimminin müsəlmandan aldığı torpaq..."[716].

Sonra deyir:

"Məşhur nəzərə əsasən, xüms altı hissəyə bölünməlidir. Buna Qurani-Kərimin ayəsi və bir sıra hədislər dəlalət edir. Altı hissənin üçü imama (əleyhissəlam) məxsusdur. Bunlar Allahın, Peyğəmbərin və yaxın qohumların payıdır. Bu üç hissə xümsün yarısıdır və o, imam mövcud olduğu təqdirdə, imama, yaxud (mövcud olmadığı – qeybdə olduğu təqdirdə isə), onun naiblərinə verilməlidir. İmamın naibləri isə fətva şərtlərini özündə cəmləşdirən on iki imamçı adil fəqihlərdir. Onlar imamın vəkilləridirlər. Xümsün bu hissəsi onlara verildikdən sonra, onlar öz ictihadlarının tələbinə uyğun olaraq xümsü məsrəf etməlidirlər.

Onlar arasında xümsün imama aid olan hissəsinin möhtac seyyidlərə verilməsinin icazəli olduğunu düşünənlər – hansı ki, son dövr alimləri arasında məşhur nəzər budur –, o hissəni öz düşündükləri yerlərə sərf edər, bunun icazəli olmadığını düşünənlər isə, imamın payını imamın zühuruna qədər kimlərəsə tapşırarlar..."[717].

Şəhid-Saninin bu sözü açıq şəkildə qeyb dövründə xümsün cameuş-şərait fəqihlər verilməsinin vacib olduğuna dəlalət edir.

Daha sonra o deyir:

---

715 "Təhrirül-əhkam": 1/445.
716 "Şərhul-lumətid-diməşqiyyə": 2/65-72.
717 Həmin mənbə: 2/78-79.

“Bu kitabın müəllifi[718] də daxil olmaqda şiə alimləri arasında məşhur nəzər budur ki, nikah, məskənlər və ticarət malları bu qeyd olunan hökmdən müstəsnadır (qeyb dövründə bu şeylərin xümsünü vermək lazım deyil) və onlar mütləq şəkildə mübah edilmişdir.

“Nikah”dan məqsəd qeyb dövründə əsir edilmiş kəniz və ona verilən pul, həmçinin, ailə qurduğun qadın üçün əldə etdiyin qazancdan verdiyin mehrdir.

“Məskənlər”dən məqsəd əldə etdiyin qazancdan aldığın məskənin puludur.

“Ticarət malları”ndan məqsəd isə, xümsə inancı olmayan, yaxud xüms verməyən şəxslərdən alınmış şeylərdir.”[719]

Əllamə Ərdəbiliyə (Allah ona rəhmət etsin) gəlincə, o, “Məcməul-faidəti vəl-burhan” kitabında deyir:

“...Lakin, haqqların, xüsusən də üç dəstənin hər bir növ qənimətdən (yəni, hətta, illik xərcin artıq qalanından) əldə edilən haqqlarının ödənilməsi məsələsində tam diqqətli olmalı və ehmala yol verilməməlidir. Ona görə ki, güclü nəzərə əsasən, ayənin hər növ qənimətə aid olması ehtimalı vardır. Həmçinin, bəzi hədislər bunu bildirir. Eləcə də, hədislər xümsün qüvvədən düşmədiyini, seyyidlərin zəkat haqqından məhrum olmasından sonra əvəzində onlara xümsün verildiyini çatdırır...”[720].

Əllamə Səllar ibn Əbdül-Əzizə gəlincə, o, “əl-Mərasim” kitabında deyir:

“Peyğəmbər (sallallahu əleyhi və alihi və səlləm) ailəsindən nəql olunan hədislərdə xümsün istər hərb, istərsə də başqa yolla əldə edilən mal, silah və qulların, həmçinin, mədənlərin, xəzinələrin, dalma yolu ilə əldə edilən şeylərin, ənbərin, ticarət, əkinçilik və sənətkarlıq yolu ilə əldə edilən gəlirin illik xərcdən və bir il boyunca orta həddə istifadə edilməsi halında kifayət edəcək qədərdən artıq olan hissəsinin xümsünü ödəmək vacibdir.”[721]

Bəli, ənfaldan danışarkən belə demişdir:

“Ənfal da həmçinin, yalnız imama məxsusdur. Ənfal üzərinə qoşun sürülmədən döyüşsüz ələ keçirilən torpaqlar, ölü (işlədilməyən) torpaq, hərbi kafirin mirası[722], ücm torpaqları[723], səhra və çöllər, mədənlər və pay torpaqlarıdır. Kimsə imamın icazəsi olmadan bu şeylərdən istifadə edə bilməz. Kim imamın icazəsi ilə bu şeylərdən istifadə etsə, onda istifadə edilən şeyin beşdə dördü həmin şəxsin, beşdə biri (yəni, xümsü) isə imamındır.

---

[718] Şəhidi-Əvvəlin. Tərc.
[719] “Şərhul-lumətid-diməşqiyyə”: 2/80.
[720] “Məcməul-fəvaid vəl-burhan”: 4/357.
[721] “əl-Mərasim”: səh.141.
[722] Hərbi kafir kitab əhli olmayan şəxs, yaxud kitab əhli olan, lakin heç bir zimmə şərtini öz öhdəsinə götürməyən şəxsdir. (Ayətullahul-uzma Əbül-Qasim Xoi).Tərc.
[723] Çoxlu ağacları olan əkilməmiş çöl torpaqları. Tərc.

İmamlar (əleyhimussəlam) lütf və kərəm göstərərək, hazırkı dövrdə bu şeylərdən istifadə etməyi bizə halal etmişlər."[724]

Əllamə Səlların sözü kifayət qədər aydındır. O, imamların (əleyhimussəlam) başqa şeylərlə bağlı deyil, məhz qeyd etdiyi növ ənfal malları ilə bağlı xüms haqqlarını şiələrə halal etdiklərini bildirmişdir. Elə isə, hanı Osman əl-Xəmisin dediyi Əllamə Səffarın xümsün halal olduğuna fətva verməsi?!

"Əl-Mədarik" kitabının müəllifi Muhəmməd ibn Əli əl-Musəviyə gəlincə isə, o da gəlirin artıq qalanının xümsünü verməyin vacib olduğunu deyən şəxslərlə bunun halal edildiyini deyən şəxslərin dəlillərini qeyd etdikdən sonra, ehtiyat edərək xümsün verilməsi gərəkdiyini bildirmiş və demişdir:

"...Bir sözlə, bu növə xümsün düşdüyünü bildirən hədislər olduqca müstəfiz həddədir, hətta belə görünür, mütəvatirdir. Necə ki, "əl-Müntəha" kitabının müəllifi belə demişdir."[725]

## Osman əl-Xəmisin xüms və zəkatla bağlı başqa iddialarına cavab

Osman əl-Xəmis deyir:

"Məsələyə tarixi baxımdan yanaşsaq, heç bir imam müsəlmanların gəlirlərinin və mallarının üzərinə "xüms" deyə bir vergi qoymamışdır. Hətta, müsəlmanlar bir yana, zimmi kafirlərin belə üzərinə bu cür bir haqq qoymamışlar. O vaxt alınan vergi məhz zəkat, sədəqələr, xərac, cizyə və s. bu kimi şeylər olmuşdur"[726].

**Deyirəm:**

**Birinci:** Daha öncə "Səhihül-Buxari" kitabından Peyğəmbərin (sallallahu əleyhi və alihi və səlləm) Əbdül-Qeys qəbiləsindən olan şəxslərə qənimətlərinin xümsünü ödəməyi əmr etdiyini bildirən səhih bir hədis qeyd etdik. Ardınca elə həmin hədisin özü ilə göstərdik ki, hədisdəki "qənimət" sözü ümumi mənadadır və ondan məqsəd döyüş qəniməti yox, insanın əldə etdiyi istənilən növ gəlirdir. Elə bu hədisin özünə əsasən, insanın gəlirinin artıq qalanına xüms düşür. Peyğəmbər (sallallahu əleyhi və alihi və səlləm) imamların imamıdır.

**İkinci:** Əgər Osman əl-Xəmis "imamlar" deyərkən dörd əhli-sünnə imamını nəzərdə tutursa, bilməlidir ki, bu imamların gördüyü iş şiələr üçün höccət deyildir. Çünki, şiələr onların imamlıqlarına inanmır, dinin nə əsas məsələlərində, nə də ikinci dərəcəli məsələlərində onların sözlərinə əsaslanmırlar. Yox əgər o, bu söz ilə Əhli-Beyt imamlarını (əleyhimussəlam) nəzərdə tutursa, onda da təkcə Seyyid

---

[724] "əl-Mərasim": səh.142.
[725] "Mədarikul-əhkam": 5/383.
[726] "Qəlbdən qəlbə": səh.62.

Xoidən (Allah ona rəhmət etsin) qeyd etdiyimiz sitatda keçən və gəlirin artıq qalanına xüms düşdüyünü bildirən səhih hədislər onun bu sözünü batil çıxarmağa yetər.

Aləmlərin Rəbbi olan Allaha həmd olsun, Allahın rəhmət və bərəkəti yaranmışların ən üstünü olan həzrət Muhəmmədə və onun pak və təmiz Əhli-Beytinə olsun.

Bu kitab 1431-ci (2009-cu) ilin 17 Ramazanında bitdi.